

*Gülnarə Rəfiq*

# AZADLIQ SİMFONİYASI

**Gülnarə Rəfiq**

# AZADLIQ SİMFONİYASI

BAKI-2015

**Gülnarə Rəfiq**

# AZADLIQ SİMFONİYASI

**Gülnarə Rəfiq,**
**Azadlıq simfoniyası**
Bakı 2015, 382 səhifə

© Gülnarə Rəfiq, 2015

## Rəfiq tapıntısı

*Çərçivələri tanımayan, özünü tanıyan!*
*Standartlarla düşünməyən, mənalarla düşünən!*
*Mühiti rədd edən, öz axar çayını yaradan!*
*Şəraitə sığmayan, mütləqə sığınan!*
*Zamanla hesablaşmayan, əsrləri hesablayan!*

Gülnarə Rəfiq adı mətbuatı izləyənlərə tanışdır, amma onu tanımaq üçün sadəcə oxumaq gərək. Amma bu oxuma gözlə anlaşılmır, görünmür və dərk olunmur. Gərək, bəsirət gözünü açasan!

Bəli, o, çərçivə tanımır və ona görə də “Çərçivəni qıra bilirsən, qır! Özünə bir vergül qoy, pauza elə...” cümləsini yazır.

Standartlarla yox, ona görə mənalı düşünür ki, “Məna bu yolun sonunda deyil, onu necə keçməkdədir” deyir.

Mühiti rədd edib və “Həyat çay kimidir, yanından sakitcə ötüşüb gedə bilər. Heç olmasa ayaqlarını islat bu suda” deyə öz axar çayını yaradıb.

Yalnız İnsana inanıb Şəraitə sığmadığından “Xeyir və Şərin mübarizəsində həmişə İnsan qalib gəlir” söyləyir. Çünki İnsan da son nəticədə Mütləqə sığınır.

“Onsuz da tarix boyu şəhrizadlar şəhriyarların danışdığı nağılları dinləyib” deyərək Zamanın nağıllarını heç sayıb Gülnarə Rəfiq.

Gülnarə Rəfiqi oxumada ağıl və ürəyin iştirakı vacibdir. Zahiri yanaşma heç nə verməyəcək, çünki zahirilik özü bir heçdir.

Gülnarə Rəfiq özündə, yəni şəxsində bir universallıq daşıdığından onun yazdıqlarına da universal yanaşma tələb olunur.

Gülnarə Rəfiq həm musiqiçidir, həm yazardır, həm toxucudur, həm naxışçıdır və hətta dülgərdir. Bütün bunlar onun mənəvi-idraki dünyasının zamanla, mühitlə, şəraitlə hesablaşmamasının nəticəsidir.

Gülnarə Rəfiq daim axtarışdadır, insan zəkasının hədsizliyinin, insan yaradıcılığının sonsuzluğunun və insanın mənəvi dünyasının sınmazlığına inamı onu qayğılandırır. Bu qayğı dənizində üzdükcə heyrətini gizlədə bilmir. Bəlkə Xəzərə sevgisi də bu heyrətdən doğur. Xəzər okean olmasa da, özünə sonsuz sevgi qazandıra bilib.

Gülnarə Rəfiq köşə yazır, amma oxucuya ovqatını təlqin etmir, düşündürür. Daim narahat olanlar düşünmə əzabına qatlanır!

Şəxsiyyətlərdən yazır, onların ömürləri vasitəsilə ədalətsizliyi qamçılayır. Çünki yalnız şəxsiyyət səviyyəsinə yüksələnlər zamana müxalif olurlar!

Tarixin, zamanın, ən əsası insan xislətinin qaranlığa gömrüklərini “İşığı görmüş, geriyə, qaranlığa qayıda bilməz” fikri üstündə “Bizdən nələri gizlədirlər” deyə aşkarlayır.

Araşdırmalarında doğulmamış körpələrin göz yaşının yaratdığı sızıntılarla Qız Qalasının, piramidaların sirrinə vaqif olmağa can atır.

Azadlığın boğmaq istədiyi məsuliyyətsizlikdən doğan əxlaqsızlığı, isteriyanı, qadın və kişi dünyasının gözlə görünməyən tərəflərini mülahizələriylə açır.

Onun publisitikası Bakının dünəni, bu günü və sabahı arasındakı uçurumları uçurmaqdan başlayıb təhsilimizə, dinimizə, Üzeyir bəyə yanaşmamızdakı idraki yanlışlıqları göstərir.

*Və nəhayət, onu oxuyun!*

# MÜLAHİZƏLƏR



## Əxlaqsızlıq və azadlıq

Əxlaqsızlıq. Bu sözün arxasında nələr gizlənir? Çox vaxt fərqinə varmadan bu sözü tez-tez işlədirik. Əvvəl sözün sirli, cəzbedici məğzini anlayaraq onunla mübarizə edir, sonda ondan güclü olduğumuzu sübuta yetirməklə qalib rolunu oynayırıq. Əxlaqını bir neçə dəqiqəlik ləzzətə qurban verənləri necə həvəslə, ləzzətlə qınayır, yıxıb-sürüyürük. Nəfsinə sahib çıxa bilməyənlərin iç üzünü cırmaqdan ləzzət alırıq.

Əgər əxlaqi axsaqlıqda qanun pozuntusu, iqtisadi cinayət yoxdusa, əslinə qalsa, burada dəhşətli heç nə yoxdu. Bunun əsl təbiətini aşkarlamaq məqsədilə kiçik araşdırma aparsaq, maraqlı və gözlənilməz müşahidələrlə qarşılaşarıq.

**"Kompüterin klaviaturası ilə oynamaq əxlaqsızlıq deyilmi?"**

Həqiqət axtarışı ümidiylə xalq içinə "baş vurub" tanış-bilişimi, qonum-qonşunu suallarımla əldən saldım. Onların heç ağlına da gəlməzdi ki, dediklərini yaza bilərəm. Müsahiblərin düşüncələrinin cəsarəti və qeyri-adiliyi hətta məni təəccübləndirməyə başladı. 58 yaşlı, keçmişdə texniki təhlükəsizlik üzrə mühəndis olmuş M. dedi ki, dünyada əxlaqsızlıq deyilən bir şey yoxdu. Bu, bədbəxt, həyatdan narazı və yaşamaqdan ləzzət ala bilməyənlərin uydurmasıdı.

Abşerondakı bir parça torpağında əkib-becərməklə başını dolandıran 46 yaşlı N. əxlaqsızlıq sözünü eşidən kimi siyasi liderlərimizin yaşam tərzini yada saldı. Ümumiyyətlə, Abşeronun göysatanları siyasi mövzularda gərgin mübahisələr aparmağı sevirlər.

Müsahibimiz N. isə "xalqın qulu" olmalı insanlara qarşı "əxlaqsız hərəkətləri xüsusi pozğunluqla icra etmək" hüququndan uzun-uzadı da danışdı.

Çörəyi insanlarla ünsiyyətdən çıxan, sənət növlərindən biriylə məşğul olan 60 yaşlı Q. cəmiyyətin qadağalarına məhəl qoymadan həyatını öz bildiyi kimi yaşamağı bacaran qadınlara çox böyük həsəd və heyranlıqla baxdığını dedi.

İnsanlarla söhbətdən sonra mən qəti əmin oldum ki, əxlaqsızlıq heç də təkcə insanın intim həyatıyla bağlı deyil. İş yoldaşlarımdan biri, güzəranını onun-bunun uşağının başına bilik yerləşdirməklə keçirən müəllim R. bildirdi ki, restoranlarda pulu zibil kimi səpələmək, hər il istirahətçün xaricə getmək, hətta kosmetik salonlardan həddindən artıq istifadə eləmək özü də əxlaqsızlığın son həddidi. Çünki bu pulları daha sərfəli formada xərcləmək olardı. Amma yumurtanın ağını bu gün yeyib, sarısını sabaha saxlamağa adət eləmiş bu müəllimə çörəyin üstünə yağı çox qalın çəkməyi də israfçılıq sayır.

Ofisdə kağız daşımaqla pullu təhsilinin haqqını ödəməyə çalışan 20 yaşlı Z. görəndə ki, idarə "zavxozu" müdirinin heç də köhnə olmayan kompüterini yağ içində yeni, superkompüterlə dəyişir: "Mən necə pərt olduğumu ifadə edə bilmirəm. Bu işdə qalsam, özümə belə bir kompüteri, bəlkə on ilə ala bilərəm. O, kompüteri niyə aldığını heç özü də bilmir. Belə gözəl maşının klaviaturasında oyun oynamaq əxlaqsızlıq deyilmi?" demişdi.

**Pişiyin əli ətə çatmayanda...**

Əxlaqsızlıq mövzusunda axtarışlarım zamanı qarşıma çıxan ən qəribə ifadə belə olub: "Əxlaqsızlıq - arxasında mənəvi dayağı olmayan hər hansı bir hərəkətə deyilir. Hətta rəqəm və hərflərə nifrətlə baxıb kvartalın son hesabatını yazan mühasib öz müdirini hər an boğmağa hazır əlləriylə tez-tez saatını çəngələyirsə, o, sevgi mehrabında keşik çəkərək pul qazananlardan əxlaqlı ola bilməz". Zarafat bir yana qalsın, amma aramızda bir çox adamlar

var ki, onların fikrincə, içində ananas tikələri üzən şampan içib, hələ bir trüfellə bəzənmiş bildirçin yemək əxlaqsızlıqdı. Dəhşətli dərəcədə gözəl və dadlı olduğuna görə bu yeməklər heç vaxt ədəbli və əxlaqlı sayıla bilməz. Çünki onlar heç vaxt bu yeməkləri yeməyiblər, onların bu yeməkləri ağzına vurmaq ümidləri belə yoxdu. Bir sözlə, biz özümüzün əldə edə bilmədiyimizi də əxlaqsızlıq adlandırırıq. Bu acı həqiqəti danmaq olmaz.

Estrada səhnəmizdə ən açıq-saçıq geyinib biabırçı danışıq tərziylə ad çıxarmış Röyanın həmkarlarından kiminlə ən çox problemi olub? Yadınıza salın. İlhamə və Aygün Kazımova ilə. Çünki Röya: "Mən cavanam, nə istəsəm, onu edərəm. Sizin meydanı mənə buraxmaq vaxtınızdı" kimi fikirləri dilinə gətirməyə cəsarət edib. Həmin o Röyanı ən çox söyənlər mətbəxdə pilətənin qabağında durmaqdan, evdəkilərin arxasıyca yuyub-yığışdırmaqdan əl-ayağı şişmiş ev xanımlarıdı. Ömrünü başqalarının həyatıyçün yanar şama döndərən bu xanımlara bircə gün Röyanın həyatıyla yaşamaq şansı verilsəydi, yəqin onu söyənlərin sayı xeyli azalardı.

**Qonağına arvadını təklif edən çukçanı başa düşmək çətindi**

Görək sosioloqlar bu barədə nə deyir? Həmişə etibar elədiyimiz Amerika informasiya agentliklərindən birinin tədqiqatının nəticələrinə baxaq. Ən əxlaqsız hərəkətlərin başında zinakarlıqdan (88 faiz) sonra ikinci yerdə vergidən yayınmaq (79 faiz) gəlir. Sorğuda iştirak edənlərin 61 faizi alkoqollu içki içməyi əxlaqsızlıq sayır. 52 faiz üçün abort eləmək, soruşulanların yarısı üçün isə homoseksuallıq əxlaqsızlıqdı. Hətta ali məqsədlər üçün yalan deməyi 43 faiz insan qəbul eləyə bilmir. Rəyi soruşulanların üçdə biri nikaha qədər əlaqəni, azartlı oyunlara aludəçiliyi və həddən artıq yeməyi də əxlaqsızlıq sayır.

Ən maraqlısı odur ki, sorğuya tutulanların təhsili və dünyagörüşü nə qədər məhdud, səviyyəsi aşağı olursa, onların əxlaq və mənəviyyat haqqında mövqeləri daha sərt və tələbkar olur.

Bu məsələyə hansı mövqedən baxmağın özü çox vacibdi. Bəzi xalqlar üçün, məsələn, Şimali Koreya vətəndaşıyçün ideyalara xəyanət ən dəhşətli bir şeydi. Rus yazıçısı Çexovun gündəliyində belə bir yazıya rast gəlmək olar: "Əgər arvadın sənə xəyanət edibsə, sevin ki, o heç olmasa vətənini satmayıb".

Hindularda valideynin öz uşağıyla birgə süfrəyə oturması çox ayıb bir şeydi. Amma onlar süfrəyə yaxın buraxmadığı uşağının qarşısında cinsi əlaqəyə girə bilər, "qoy baxıb öyrənsin".

XVII əsrdə çiyni çılpaqlaşdıran dekolte heç də ayıb deyildi, amma topuğunu başqasına göstərən qadın kişini hər bir hərəkətə təhrik edə bilərdi. İndi göbəyini bayırda qoyan qızlarımız antik Yunanıstanda qadınların tül kimi şəffaf geyiminin qarşısında heç də biədəb görünmürlər.

Vaxt vardı, tanqo rəqsi ölüm cəzası altında qadağan olunmuşdu. Hazırda şəhərdə Latın Amerikası rəqslərini oynamağı öyrədən kurslara düşməkçün qabaqcadan yazılmalı olursan. Rəqslərdən rok-n-roll, tvist də əxlaqsız sayılıb. Dar şalvar, hətta cins geymək də cəmiyyətin çürüməkdə, amma yenə də cəlb eləməkdə olan qatlarının simvolu olub.

Dünyada bir xalqa qəribə gələn, o birisiyçün adi sayılan əxlaq və ədəb qaydaları çoxdu. Biz heç vaxt evinin qonağına arvadını təklif edən çukçanı başa düşmərik. Biz eləcə də Afrikanın az qala bütün müsəlman qızlarının "əl-ayağını yığmaq" məqsədilə sünnət olunmasını da anlaya bilmərik.

**Əxlaqsız kişi qısqanc olur**

"Google.az" saytında rus dilində "əxlaqsızlıq" sözünü ("razvrat") axtaranda nədənsə "Day.az" saytının forumunda ATV kanalının müzakirəsi ekrana gəldi. Bu kanal əxlaqsızlığı təqdir edib yayan kanal kimi qiymətləndirilirdi: "Bizdə bütün kanallarda telekanalizasiyadı – mənəviyyatsızlıq, əxlaqsızlıq, axmaqlıq. "Gic xəbər"də deyilir ki, harda nəsə yanırsa, kimsə bir-birini öldürürsə, bizə zəng edin, birbaşa efirdə göstərək.... Əgər buna baxan varsa, deməli, kiminsə xoşuna gəlir.... Kanalların reytinqini öyrənmək istəsələr, əksəriyyət ATV-ni seçəcək. Bu kanal Azərbaycanı

sutkada 24 saat dünyaya göstərir. Yaxşı ki, bizim bu yeşiyi söndürmək şansımız da var…. Maraqlı burasıdır ki, soruşanda guya heç kim baxmır, amma hamının hər şeydən xəbəri var".

*Pornoqrafiyaya qarşı da insanların əksəriyyəti özünü belə aparır. Ona hər kəs baxıb, amma görmüşəm deyən tapılmır.*

Bəlkə də 50 il olmaz ki, tarixə "Kinsinin məruzəsi" adıyla daxil olmuş "İnsan erkəyinin seksual davranışı" adlı kitab Alfred Kinsi tərəfindən çap olunub. Bu məsələyə tamamilə ciddi yanaşan zooloq tədqiqatı başlayanda məlum oldu ki, elm insanların davranışı barədə çox az biliyə malikdi. Tədqiqatçı hesab edir ki, əxlaqsızlığı yayan səbəb məhz cəmiyyətin qadağaları, əxlaqsız sayıb üstündən xətt çəkmək cəhdləridi. İndi onu Amerikanın bakirəliyini əlindən alan adam kimi təqdim edirlər.

Ömrünü insanların bir-biriylə rəftarını öyrənməyə sərf eləmiş, bu yolda evini təcrübə meydançasına çevirmiş, insan qəlbinin gizli guşələrində eşələnən alim axırda etiraf edib ki, intim sahədə qadağa ola bilməz. Kinsinin ictimaiyyətə açıqladığı məruzədən məlum oldu ki, kişilərin 90 faizi masturbasiya ilə məşğul olur, 85 faizi nikahdan əvvəl sekslə məşğul olub, 35-40 faizi arvadına xəyanət edib, 37 faizi isə heç olmasa ömründə bir dəfə kişiylə cinsi kontakta girib.

Çox güman ki, Kinsi tədqiqatını Azərbaycanda eləməli olsaydı, rəqəmlər daha dəhşətli ola bilərdi. Bəlkə ona görə biz daim əxlaqdan danışır, ona görə ətrafımızda heç kimi rahat yaşamağa qoymuruq? Az qala atalar məsəli olub: "Özü gəzəyən, əxlaqsız olan kişi mütləq qısqanc olur".

**Azadlıq, yoxsa əxlaqsızlıq?**

Jülyet Binoşun iştirakıyla çəkilmiş "Şokolad" filmini xatırlayaq. Şokolad bişirməyi və insanlara sevinc paylamağı bacaran qadın kiçik şəhərdə xoşbəxtlik uğrunda, sevmək hüququ uğrunda nə qədər mübarizə eləməli olur? Şirin, dadlı şokolad o boyda mənəvi dayaqları olan şəhərə nə edə bilərdi

ki, şəhərin meri şəxsən bu mübarizənin başında dayanmışdı? Ola bilər ki, bu dayaqların möhkəm olmadığı barədə şübhələr onu da rahat buraxmırmış. Tolerantlıq, hər şeyə göz yummaq barədə, ətrafdakıların kiçik və böyük günahlarını bağışlamaq barədə sonsuz danışmaq olar. Amma tez, ya gec hər birimiz beynimizə yeridilmiş "həqiqətlərin" qarşısında təkbətək qalmalı oluruq. Bəzilərində bu, arxasındakı hər şeyi göstərən şəffaf şüşə, bəzilərində isə təəssüf ki, beton parçasıdı. İnsana azadlıq verməк lazımdı! Hələ ki, ali sayılan bu məxluqu eybəcərliyi, gözəlliyi, səadəti, murdarlığıyla baş-başa qoyub özünə nəticə çıxarmaq şansı verməsək, özündən baş çıxarmayacaq. Cəmiyyət insanı düz yola gətirmək kimi ağır və mənasız missiyasından əl çəkməsə, heç vaxt azad ola bilməyəcək. Hər kəs öz vicdanı və ruhu qarşısında cavabdehdi. Hər hansı addımı atarkən cəmiyyətin nə düşünəcəyini yox, özünün mənəvi artımında bu hərəkətin yerini ölçüb-biçməlidi.

Yeri gəlmişkən, ürəkdə boğulmuş arzular miqren, yəni baş ağrıları və mədə pozuntusuna gətirib çıxarır. İndi özünüz seçin!

## İsteriya

İsteriya deyəndə ilk əvvəl qadın isteriyasını düşünürük. Niyə? Bəyəm kişilərin isteriyası olmur? Olur, beş də artıq. Amma kişi üçün bu hal ayıbdır və cəmiyyət bunu ya xəstəlik, ya da kişilikdən kənar hal sayır. Çünki kişinin isteriyası gələndə o, vurub sındırır, yaralayır, öldürür, uzaqbaşı söyür. Cəmiyyət bütün bu halları kişilik atributu sayaraq ona bağışlayır. Qadının isteriyası gələndə onun bütün hərəkətləri özünə qarşı çevrilir. O, ağlayır, çığırır, özünü yerə çırpır, saçını yolur, huşunu itirir, ya da bihal düşüb gözünü tavandan çəkmir. Kişilər bu halı anlaya bilmədiklərindən isteriya mövzusu hələ də tədqiqat obyekti olaraq qalır. Özü də yüzilliklərdir ki, bu belədir.

Elm inkişaf edir. Biz kosmosun qanunlarından danışa bilirik. Qonşu qalaktikalara yollar tapırıq. "Dünya necə yarandı?", "Atomlar bir-biriylə hansı münasibətdədir?" kimi mürəkkəb suallara cavab tapırıq. Daha doğrusu bu sualların əksəriyyətini kişilər tapır, çünki elmlə məşğul olmağa imkan və zamanlar var. Amma həmin bu kişilər hələ də "Qadın niyə isteriayaya düşür?" sualına tam, ətraflı cavab tapa bilmir. Bu günün alimlərinə şükür etməyimiz lazım, çünki onlar bilmədiklərini etiraf edəcək dərəcədə inkişaf ediblər. Çox yox, cəmi 100 il əvvəl alim kişilər isteriya diaqnozu ilə yüzlərlə qadının həyatını şikəst edirdilər.

**Bədəndə dolaşan qəribə orqan**

İsteriyanın tərifini verməyə çalışaq. Elmi kitablar deyir ki, isteriya şəxsiyyətin pozulması problemindən doğur. Vikipediyada isteriyaya "artıq köhnəlmiş diaqnoz" kimi şərh verirlər. İsteriya sözü yunancadan qadın uşaqlığı sözündən yaranmadır. "Uşaqlığın azğınlığı" adlı termin keçən əsrin əvvəllərində çox dəbdə olan ifadə idi. Ona görə də isteriya kişilərə şamil edilmirdi, çünki onlarda uşaqlıq adlı orqan yerli-dibli yoxdur. Hətta zamanının "nurlu" alimləri isteriyaya düşmüş qadınların spesifik davranışını "bədəndə sərsəri kimi dolaşan uşaqlıq" fenomeni ilə izah etməyə cəhd edirdilər. İsteriyanın əsas əlamətləri həmişəki kimi emosional reaksiyalar – göz yaşları, səbəbsiz gülüş, qışqırıq, qıc olma və iflic, hissiyyatın itməsi, karlıq, korluq, şüurun dumanlanması və seksual aktivliyin hədsiz artması sayılırdı. Keçən əsr nədi, hələ Qədim Misirdə də (bunu eramızdan 1950 il əvvəl yazılmış Kaxun tibbi papirusunda oxumaq olar) bütün qadın xəstəlikləri reproduksiya orqanı – uşaqlığın xəstəliyi sayılırdı. O vaxtlar hələ ki, davranışın pozulması və məsələnin emosional tərəfindən danışılmırdı. Yalnız "Yataqda olmağı sevən qadınlar" üçün "uşaqdığın spazması" təsvir edilirdi. Qadın orqanı şərəfinə adlandırılmış bu xəstəlik Hippokratın tibbi traktatlarında təsvir edilib. Platon isə uşaq doğa bilməyən uşaqlığın quduzluğu halından yazır və bu tipli bir neçə hadisəni nümunə kimi şərh

edirdi. Elə həmin səbəblərdən kişinin isteriyaya düşməsi halı nəzəri və praktiki şəkildə mümkünsüz sayılırdı. İsteriya diaqnozu XIX və XX əsrlərin ayrıcında çox populyar idi. İsteriya materialında zamanın məşhur psixiatrları Şarko və Freyd ruhi xəstəliklər sırasında çoxlu vacib tədqiqatlar və nəticələr irəli sürüblər. Bu gün isteriya termini bir əsr əvvəlki şəkildə tibdə istifadə edilmir və isteriya diaqnozu bir neçə budaqlara ayrılaraq fərqli şəkildə müalicə olunur. Çünki son 100 il ərzində bəşəriyyətin kişi yarısı qadın orqazmı barədə məlumat alaraq təbiətin daha bir fenomenindən agah olub.

Qadının da seksual tələbləri ödənməsə, fiziki planda problemləri olur. Əgər Google-da isteriyaya aid şəkil axtarışı versəniz, orda yüksək təzyiqli su şırnağı altında stulda oturmuş çılpaq qadın şəkli çıxacaq. Altında da təxminən belə bir izah “Qadın isteriyasının su massajı ilə müalicəsi” yazılıb. Ümidvaram, XXI əsr kişisi su şırnağı altında qadının keçirdiyi hissləri təxminən olsa da, anlayar. Amma elm XIX əsrin sonunda bunu anlaya bilmirdi. Deyək ki, o zamanlar artıq telefon, elektrik, buxar maşını kimi vacib kəşflər edilmişdi və insan öz məişətini ürəyi istədiyi kimi qurmağı artıq bacarırdı. Texniki nailiyyətləriylə, cəmiyyətdəki irəliləyişlərilə xüsusi fərqlənən məsələn, İngiltərə həm də mühafizəkar, qadınlara qarşı xüsusi qəddarlığı ilə seçilən bir ölkə idi. Ona görə də XIX əsrin sonunda yaşayıb artıq pullanmış bir ingilis arvadının isteriyasını “müalicə” etməyə ailə büdcəsindən pul ayıra bilirdi. Geyinib keçinmiş, ətirlənmiş, pudralanmış zadəgan qadın adlı-sanlı klinikaya gəlib müasir elmin yeni tapıntılarından yararlanırdı. Əvvəlcədən qəbula yazılmaq lazım idi, çünki növbəyə dayananlar vardı. Qəbul yüksək səviyyədə, gözəl şəraitdə və təbii materiallardan istifadə ilə keçirdi. Həkim pərdə arxasında uzanıb ayaqlarını göyə qaldırmış xanıma yaxınlaşır. Əvvəlcədən əllərini qızdırır, sonra gözəl qoxulu yağlarla əllərini yağlayıb işə başlayır. Müasir insan buna intim massaj deyərdi. Amma o dövrün həkimi bunu “bilərəkdən qadın uşaqlağını isteriya tutmasına salaraq müalicə etmək” adlandırırdı. Deyək ki, günə 10-15 qadının seksual tələbatını

əlləriylə ödəməyə çalışan həkimin işi çox ağır sayılırdı. Yəqin əlləri arabir qıc olur, gecələr sızıldayırdı. Əl bu missiyanı yerinə yetirmək üçün kamil aparat sayılmır. Amma o, "çətin" həkim missiyasını yerinə yetirir və həmin qadınların ərlərini öz evlilik borcundan yayınmağa kömək edirdi. Kasıb qadınların isə tələbatını kişi axtarmaqla və hər dəfə partnyorunu dəyişdirməklə fahişə adlanacaq dərəcədə alçalmaqdan başqa yolu qalmırdı. O vaxtın kişisinə, bəlkə də müasir kişilərə də "qadının da seksual tələbləri ödənməsə fiziki planda problemləri olur" fikrini aşılamaq çətin məsələdir. XIX əsrin ən məşhur klinikalarından olaraq qadın isteriyasına baş vuran belə tibb ocaqlarının ağlasığmaz dərəcədə gəlirləri olurdu. Qadına bu ləzzəti almaq üçün isteriyasını etiraf etməsi lazım gəlirdi. Həkimin qəbuluna gələn qadın ağlayırsa, zəngin həyat yaşayaraq yenə də narazılıq hissi keçirirsə onun mütləq isteriya xəstəliyinə tutulduğu zənn edilirdi. Deyək ki, o vaxtın qadını üçün belə bir etirafın özü də xatalı idi. Çünki bunu o, məhkəmə qarşısında desəydi və bir neçə həkim qadının isteriyalı olduğunu təsdiq etsəydi qadını dəlixanaya göndərib onun uşaqlığını amputasiya etmək kimi dəhşətli bir qərar verə bilərdilər. Yəqin ki, hər belə insanlıqdan uzaq qərarı verəndən sonra hakim özünü bəşəriyyəti daha bir həyasızdan qurtardığını düşünürmüş. O vaxtlar isteriya dəliliyə bərabər tutulurdu və qatilin isterik olduğu sübuta yetirilsəydi onu dar ağacına deyil dəlixanaya gönlərərdilər.

**Sehrli çubuğun tarixçəsi**

Qadınların isteriyasını "müalicə" edən tibb ocaqları az keçmiş müflisləşməyə başladı. Çünki portativ masaj edən kiçik aparatların istehsalı başlandı. İmkanı olan hər qadın onu alıb evindəcə dünya ləzzətindən dada bilərdi. Hələ bir əsr əvvəl portativ qadın masajoru nüfuzlu qəzet və jurnallarda qadınlar üçün gigiyenik mallar siyahısında satışa təklif edilirdi. Bu gün batareyalı vibrator dünyada ən məşhur seks oyuncağı sayılır. Hər kişi rezin gəlinciklə ünsiyyəti özünə məqbul saymaz, amma heç bir qadın kişinin

bacarmadığı işi bir neçə dəqiqəyə görən sehrli aparatdan imtina etməz. Qreqorinin "Cırıldayan" aparatı 1880-ci il, "Hamilton tip A" 1902-ci il, "Yuniversal" cihazı 1904-cü il, "Ağ xaç" elektrik masajoru 1910-ci il, "Şık" elektrik masajoru 1910-cu il, "Qütb ayısı" 1921-ci il, "Qidbert" 1933-ci il, "Əla tərənnüm edən" 1950-ci il, "Döyüşçü" 1970-ci il, "Hitaçi sehrli çubuğu" 1970-ci il təvəllüdlüdür. Bu aparatlar kamilləşərək paralel olaraq sivilizasiyanın tempinə uyğun inkişaf edir. Ola bilər "Bu axmaq cihazlara müasir dövrdə ehtiyac yoxdur!" deyəcəksiz. İnanılası deyil, amma məhkəmədə qadına isteriya diaqnozunun qoyulması halı sonuncu dəfə 1952-ci ildə olub. Cəmi 60 il əvvələ qədər kişilər elementar məsələdə aciz qalmışdılar. Əlbəttə qadın da təbiətin ən mürəkkəb varlıqlarndan biridir. Onun erogen zonası qulağının ardında, ya da dabanında ola bilər. Kişilərsə bu orqanı axtarıb tapacaq dərəcədə həssas olmaqdansa yeni aparatlar icad edib qadınları başından eləməyə üstünlük verirlər. Yaxşı ki, buna görə heç kimi həbs etmir və heç bir orqanını kəsmirlər. Böyük tərəqqidir…

***

Qadına nifrət və onun təbiət qüvvələrinə yaxınlığını duyub ondan çəkinmək kimi əsil kişi fobiyasının izlərini hər yerdə görmək olar. "Müasir kişi artıq qadını tanıyır və onun qəribəliyindən qorxmur" demək heç nəyi izah etmir. Müasir kişi hələ də "Qadın təbiidir, ona görə də iyrəncdir" (Bodler) deməyində davam edir. İnanmırsızsa, Larsa fon Triyerin "Antixrist" filminə bir daha baxın.

## Planetimiz işğal altındadır!

*Bəşəriyyətin xilası üçün yadplanetlilərin texniki dəstəyinə ehtiyac var*

2013-cü il 29 aprel - 3 may tarixində Kanadanın keçmiş müdafiə naziri Pol Xellye sensasiyalı etiraf etdi. Həmin tarixdə Vaşinqtonda "Sirlərin açılması

üzrə vətəndaş dinləmələri" adı altında konfrans keçirilirdi. 10 ölkəni təmsil edən tədqiqatçılar, siyasi liderlər, ictimai fəallar, keçmiş hərbçilər, casuslar Kalumbiya dairəsi ABŞ Konqresinin 6 keçmiş üzvünə şahid ifadələri verirdi. 30 saatdan artıq sürən bu konfrans Konqresin keçmiş üzvlərinin iştirakı ilə baş vermiş böyük ictimai hadisəyə çevrildi. Burada yerdən kənar sivilizasiyaların olması, yer üzünə dəfələrlə səfər etməsi və insanların həyatına müdaxiləsi barədə təkzibedilməz faktlar səsləndirildiyindən böyük tarixi hadisəyə çevrildi. Çünki Uçan Naməlum Obyektlər (UNO) barədə ortaya çıxarılan bütün sənədlər və faktlar ciddi sayılmır və əksəriyyəti qondarma olduğundan nüfuzlu konfranslarda səsləndirilmirdi.

Səslənən bütün nitqlər içində keçmiş nazir Pol Xerrlyenin çıxışı xüsusi diqqətə layiq görüldü. O, yadplanetlilərə inama necə gəldiyindən danışdı. Vəzifələrdə çalışdığı müddətdə qazandığı nüfuzu hesabına indi o, yadplanetlilər barədə açıq-aydın söhbətlər aparır və yadplanetlilərdən alınmış texnologiyalar sayəsində alınacaq təmiz enerjidən danışır: "Mən inanıram ki, bu texnologiya artıq yer kürəsində var. Amma o, böyük sirr kimi saxlanır ki, neft sənayesi öz trilyonluq gəlirlərindən məhrum olmasın".

**Axı, ONLAR nə istəyir?!**

Bu gün adıçəkilən konfransdan çəkilmiş videoçarx "YouTube"də böyük maraq doğuraraq minlərlə tamaşaçı qazanıb. Bu nitqi dinləyərkən adamın tükləri biz-biz olur: "Mənim adım Pol Xellyedir. Mən Kanadanın keçmiş müdafiə naziriyəm. Həmin vəzifədə 23 il yarım çalışmışam. Nazir olduğum zamanlarda da mən UNO barədə çoxlu məlumatlar alırdım. Amma çox məşğul olduğumdan bu faktları araşdırmağa macal tapmırdım. Son 10 ildə mən bu mövzuyla maraqlanmağa və məlumat toplamağa başladım. Çünki Ottava ştatından olan bir gənc mənə bu tip materialları təkidlə göndərməkdən əl çəkmirdi. Bir dəfə o, polkovnik Korsonun "Rozuelldən sonrakı gün" adlı kitabını göndərdi. Mən onu 2005-ci ilin yay aylarında

oxudum və həqiqətən də heyrətləndim. Düşündüm ki, müəllif ciddi məsələlərə toxunur və Amerika xalqının, eləcə də bütün dünyanın bunları bilməsi yaxşı olardı. Çünki UNO ayrıca təcrid edilmiş bir məsələ deyil, indi baş verən hadisələrin tərkib hissəsi idi. Bundan sonra mən Viktor Viciani və Maykl Berdin dəvətilə Toronto Universitetində çıxış etməyə razılıq verdim. Onda mən artıq "UNO başımızın üstündə uçan təyyarələr qədər realdır" dedim. Bu etiraf məni "böyük səkkizlik" ölkələrinin naziri səviyyəsində həqiqətləri demiş ilk adama çevirdi. O vaxtdan mən çoxlu mənbələr, şahid etirafları tədqiqlər etmişəm.

Əvvəla, 1960-ci illərdə NATO ərazilərini keçən və cənuba yönəlmiş UNO flotiliyası əmələ gəldi. Əlbəttə, bu, Avropada hərbi qüvvələr başqanını sarsıtdı. Xoşbəxtlikdən çaxnaşma zamanı kritik düymə basılmadı və flotiliya yolunu dəyişib şimala yönəldi. Hamı bunun rusların işi olduğunu düşündü. Tədqiqat aparıldı və nəticədə minilliklər boyu yer üzünə mütəmadi səfər etmiş 4 növ yadplanetli aşkar olundu. Mən kitabımda onların 5 növünü göstərmişəm. Amma əslində onlar daha çoxdur, çünki bu yaxında yer üzündə olmuş 20 növ canlılar barədə bir sənədi görmüşəm. Onlar Dzeta Setki ulduz sistemi, Orion, Andromeda və Altair pleyadasından gəlirlər. Ona görə də biz ONLAR sözünü işlətməkdə də səhv buraxırıq. Çünki onlar müxtəlif məqsədlə buralara gələn müxtəlif növ canlılardır".

**ABŞ hökumətini yadplanetlilər idarə edir?!**

"Biz 6 aşlı uşaqlar boyda olan ölü yadplanetlilər barədə danışmaqla vaxt itiririk. Çünki hazırda bizimlə bərabər bu planetdə yaşayan gəlmələr var. Onlardan ikisini mən ABŞ hökumətində vəzifədə görmüşəm. Uca Ağlar adlandırılan bir növ barədə isə bu yaxınlarda eşitmişəm. Paola Xarris bu barədə rəsmi açıqlama verib. Onun sayəsində mən keçmiş pilot Çarlz Xoll ilə 3 saatlıq söhbət etdim. Bu pilot həmin canlılarla birgə işlədiyi zamanlar barədə heyrətamiz söhbətlər elədi. O, deyir ki, əvvəl dəhşətli dərəcədə onlardan qorxurdu. Amma sonra yaxından tanış olandan sonra bir-birinə

etibar etməyə başladılar. Beləliklə, Uca Ağlarla işgüzar münasibətlər İndiana və Nevada poliqonlarında yaradıldı. Onlar ABŞ-ın bazaları ərazilərində yaşayır və texniki baxımdan bilik mübadiləsi edirlər.

**Uca Ağlara bəzən Nord, bəzən "skandinavlar" deyirlər**

Mənim marağım bu məsələnin tamamilə açılmasındadır. Əlbəttə, bu məsələdə elə məqamlar var ki, onları mütləq gizli saxlamaq lazımdı, heç olmasa indi. Bilirəm ki, bu nə vaxtsa baş verəcək. Uşaqlar Şaxta Baba obrazı ilə vidalaşdıqları kimi zaman gələcək ki, insanlar da kosmosda başqa canlılarla yanaşı yaşamağımız fikrini normal qəbul edəcəklər. Onların bizdən dəfələrlə inkişaflı olması fikri alçaldıcıdır, amma sağ qalmaq üçün bunu da qəbul etməyimiz lazımdı. Dünyamız qarışıqlıq içindədir. Vaxtımız isə uzaqbaşı bu onilliyin sonuna qədərdir. Heç olmasa qlobal istiləşmənin qarşısını almalıyıq ki, dönüş nöqtəsinə qayıda bilək. Amma bizim liderlər bu barədə heç danışmırlar da. Ola bilər onlara neft üzərində nəzarəti saxlamaq xətrinə müharibələr eləmək daha maraqlı gəlir. Deyim ki, onlar bu məsələni ciddi qəbul edib yeni təmiz enerjiyə keçməyi istəsələr belə, bunu etməyə maliyyə imkanı kifayət etməz. Çünki qərb dünyası axmaq maliyyə və bank sistemi içində yaşayır. Bizə təmiz enerji almağa texnologiya lazımdı. Belə texnologiya artıq var, amma taleyimizi idarə edənlər məkrli məqsəd güddüklərindən onu sirr kimi saxlayırlar. Dünya ağalığı ssenarisini yazanlar artıq ABŞ-da da, Qərbdə də kölgə idarəçiliyinin sükanı arxasındadı".

**Biz ruhani varlıqlar olmalıyıq...**

"Bircə çıxış yolumuz qalır, bütün dünya ilə əməkdaşlıq siyasətini əsas tutaraq Amerikanın yanaşmasını rədd etmək və hamının yaşaya biləcəyi bir dünya qurmaq. İndiki gənclik ali hisslər və məqsədlər uğrunda mübarizə etməkçün darıxır. Biz göydəki qonşularımızla da dil tapıb reallıqda yaşamağa başlamalıyıq. Bir sözlə, ali, bütün dinlərin cövhərini təşkil edən meyarları əsas tutan ruhani varlıqlar olmalıyıq. Gəlmələr arabir ilahi mənbə ilə bizim aramızda vasitəçilik edib mələklər və qoruyucu ruhlar rolunda çıxış edirlər".

90-a yaxın yaşına baxmayaraq Pol Xellye uzun-uzadı çıxışı ilə konfransda təlatüm yarada bildi. Bu, onun UNO haqqında ilk çıxışı deyildi. 2005-ci ildə Torontoda çıxışında o "ABŞ silahlı qüvvələri yad planetlilərə qarşı işlədilə biləcək silah hazırlayır. ABŞ bizim xəbərimiz olmadan qalaktikalar arası müharibəyə başlaya bilər" demişdi. Bu məruzəsi ilə o, 3 qeyri hökumət təşkilatının Kanada hökumətinə verdiyi "Ekzosiyasət – Yerdənkənar sivilizasiyalar" mövzusunda müraciətinə qoşulmuşdu. Onun çıxışları içində 2010-cu ildə UNO və faktların gizlədilməsi barədə dediyi nitq də yaddaqalandır. Həmin çıxışında Xelle demişdi ki, "Buş administrasiyası hərbi qüvvələrə Ayda baza tikməyə ona görə icazə verdi ki, həmin nöqtədən Yer kürəsinə olan səfərləri, eləcə də hücumlar olacaqsa, müdafiəni daha sərfəli mövqedən nəzarət etmək mümkün olsun". Məruzəsində Xellye minilliklər boyu insanlara göndərilən xəbərdarlıqları və edilən kömək təklifini xatırlatdı: "Biz bu əlaqəyə girmə cəhdlərini təhlükə kimi qarşılayaraq əvvəl atəş açıb sonra suallara cavab axtarmışıq. Təyyarələri itirmək bizim üçün qərar çıxarmağa səbəb olub. Heç kim düşünmədi ki, uçan aparatların ətrafındakı maqnit sahələri bizim avadanlıqları göz qırpımında sıradan çıxara bilir. Bu, nə hücum, nə də müdafiə idi. İnsan tələfatı bizim öz axmaqlığımızdan və həqiqəti qəbul etməyi bacarmamağımızdan irəli gəlirdi. Onlar bizə mübadilə üçün tərəf müqabili kimi maraqlı olar. Deyək ki, belə işbirliyinin izləri bəzi "iblis kəşfləri" adlandırıla biləcək texniki irəliləyişlərdən artıq görünür. Milyardlarla pul xərclənir ki, Konqress və səlahiyyətli orqanlar bu məsələlərdən xəbərdar olmasın. Ona görə də əgər yadplanetlilərlə əlaqələr varsa, bütün bunlar açıqlanmalı və hamı xəbərdar olmalıdır. Bir vaxt Ağ evin reportyoru Sara MakLendon prezident Klintona belə bir sual verdi: "Niyə axı məlumatların açıqlanması işində heç bir irəliləyiş olmur?". Klinton cavabında "Bilirsən Sara, dövlət içində daha bir dövlət də var ki, mən onlara ağalıq edə bilmərəm". Görəsən barmağını düymənin üstündə hazır vəziyyətdə tutub basmağa hazır olan baş komandan həqiqətləri bilməyə layiq deyilmi? Vergi

ödəyənlərin də bunları bilməyə haqqı var. İndi Amerika xalqının yeni bir müharibəyə, yalan və riyakarlığa qarşı savaşa başlaması lazımdır.

**Bizim də "boşqab"larımız uçur**

Gəlmələrin planetimizdə əl-ayaq açmasının izlənməsi XIX əsrdən başlayıb. Yaxud fotoaparatın kəşfi ilə bunu sübut etmək rahatlaşıb. İlk dəfə uçan boşqab 1936-cı ildə almanların əlinə düşüb. Amerikanın gəlmələr barədə olan faktları sirr kimi saxlaması 1947-ci ildən başlayır. O vaxt yadplanetli uçan boşqab qəzaya uğramışdı. Əldə edilən meyitlərin yarılması prosesində çəkilmiş kadrlar sonradan bütün dünyanı dolaşmışdı. Nyu-Mexiko ştatında qəzaya uğramış gəmidə bir nəfər sağ qalmışdı. Onu 1952-ci lədək, ölümünə qədər əsirlikdə saxladılar. Əldə olunmuş materiallar əsasında işə salınan "Qırmızı işıq" və "Arzular ölkəsi" adlı layihələr 1962-ci ilə təsadüf edir. Məqsəd havaya uçan boşqablar buraxmaq idi. "Zona 51" adlı ərazilərdə işləyən adamlar deyirdi ki, "gəlmələr təlim üçün bizə 3 uçan boşqab vermişdilər. Onların əsir düşmüş boşqabı əsasında yaratdığımız aparatlar da təlimə qoşulurdu". Ona görə də hazırda göydə artıq UNO gördükdə "bəlkə sükan arxasında özümüzküdür" düşünə də bilərik. Göydə parıldayan müxtəlif quruluşlu işartılar yeni, xoruz banı eşitməmiş silahların təlimindən bizə qalan görüntülər də ola bilər.

Ufologiya üzrə yeni bir sənəd aşkarlanan kimi buna qarşı ağız büzənlər ordusu yaranır. Onların da dediklərində həqiqətlər var. Çünki Amerika bütün dünyanı "sui-qəsd nəzəriyyəsi" vasitəsiylə gərginlikdə saxlayır. Guya bütün dünya Amerika adlı nəhəngi əzmək üçün durmadan terror aktları hazırlayır, buna cavab olaraq Amerika demokratiya qurmaq adıyla ölkələrə daxil olur və istədiyi ərazidə öz istəklərini yeridir. UNO barədə açıqlanan faktları da əksəriyyəti Amerikanın uydurduğu növbəti ssenari kimi qəbul edir. Çünki kütlənin başını qatmaq üçün düzənlənən tamaşaya qoşulmaq istəmir. Bütün bunlar həqiqət olsa da, minlərlə aşkarlanan və xüsusilə də son illər durmadan artan faktları nə izah etmək, nə də artıq gizlətmək olmur. Rəsmi dairələr bu faktları şərh etməkdən imtina edir və ən yaxşı halda susur. Məruzəçi Pol

Xellye özü vəzifədə olarkən 1966-67-ci illərdə UNO müşahidə dalğasına heç bir reaksiya verməmişdi.

**UNO zamanı**

Amerika tarixində yad planetlilərlə bağlı versiyalar artmaqdadır. Məsələn, Amerika prezidenti Con Kennedinin öldürülməsi məsələsində versiyalardan biri yad planetlilərlə bağlı idi. Guya onu gəlmələrlə kontakt faktlarını aşkarlamaq istədiyinə görə aradan götürüblər. O, hakim dairələrin yadplanetlilərlə sıx əlaqələrini sübut edən faktlara sahib idi. Müsahibələrin birində o, "Mən UNO barədə vəziyyəti xalqa danışmaq istərdim, amma mənim əl-ayağım bağlıdır" demişdi.

UNO-nu öyrənmək üzrə layihələrin işinin sonda aşkarlanmaması bu məsələyə marağı daha da alovlandırır. 1950-ci ildə tədqiqat layihəsinin aparıcı mühəndisi Uilbert Smit fikir yürütdü ki, uçan boşqablar nəinki mövcuddur, onların məqsədləri və motivləri də artıq məlumdur. Amma bu mövzu ABŞ hökumətinin nəzarəti və diqqəti dairəsindədir. ABŞ-ın hərbi texniki baxımdan dünyada ağalıq etməsi onların yadplanetlilərlə kontaktda olub texniki dəstək alması fikrini bir daha təsdiqləyir.

**Qonaqlar qapını çoxdan döyür**

Bir neçə il bundan əvvəl UNO barədə yazını sarı mətbuat həvəslə çap edirdi, amma özünə hörmət edən qəzetlər bu barədə təmkinlə susurdu. Çünki bu mövzunu nə sübut, nə də təkzib edəcək durumda deyilik. Amma hər kəsin içində bir inam gəzir: Biz Kainatda tək ola bilmərik axı! İnternetin geniş yayıldığı bir zamanda evdən çıxmadan bütün mədəni abidələri gəzişib skafandrlı qayaüstü rəsmlərə, əlində əcaib silah tutmuş nəhəng heykəllərə, uçan aparatların sxemini verən qədim gil lövhələrə baxa bilərik. Bir tək "YouTube"da minlərlə UNO ilə bağlı video var. Bura ondan da artıq foto şəkilləri də əlavə etsək, yer kürəsinin az qala uçan boşqab içində olduğunu düşünməliyik. Bu tip məlumat efirə sel kimi axır. Faktlar bu qədər çoxdursa

niyə onların rəsmi təsdiqi, ya təkzibi olmur. Sanki faktları sükutla qarşılamaqla yaddaşlardan silməyə çalışırlar. Ola bilər bu məsələ ən vaciblərdən, hətta atom silahı qədər sirli qalmalı bir məsələdir.

Nə vaxtsa "UNO varmı, yoxmu?", "Filan yerdə krateri meteorit, yoxsa qəzaya düşmüş UNO yaratdı?" kimi suallar adiləşəcək və avtomatik cavabını tapacaq. İndi artıq heç kim göydə uçan təyyarənin fotosonu çəkməyə çalışmır. "Bizdən bunu niyə gizlədirlər?" sualına cavab axtararkən ilk əvvəl əhalidə çaxnaşma yaratmamaq cəhdləri yada düşür. Əlbəttə, əgər gəlmələrin əlindəki silahı düyməni basmaqla insanı molekullara parçalaya bilirsə, ondan qorxub uzaq gəzmək daha salamatıdır.

Bu artıq sirr deyil ki, bütün böyük dövlətlər yeraltı şəhərlər kompleksini hazırlayıb. Burda minlərlə insanın yaşaması üçün evlər, bitki plantasiyaları, hətta türmələr də var. Bu yeraltı şəhərlər adi insanlar üçün deyil, həqiqətlərdən agah olan seçilmişlər üçündür. Deməli heç olmasa yarım əsrdir ki, dövlətlər nəsə vacib bir hadisəyə hazırlaşır. Yeraltı şəhər kompleksi Amerikada, Rusiyada, İngiltərədə, Avstraliyada, Səudiyyə Ərəbistanında var.

Biz durmadan planetimizi məhv edirik və bu barədə fikir çəkənə də oxşamırıq. Bu işi təssüf ki, tam mənada gəlmələrin boynuna yıxmaq olmur. Ola bilər hansısa canlı bizə yem kimi, hansısa təbii filizləri çıxarmağa layiq işçi qüvvəsi kimi baxır. Biz ya Kainatda öz yerimizi anlayıb şüurlu canlılara qoşulacağıq, ya da məhv olub sonu bilinməyən kəhkəşanda yeni həyat yaratmaq üçün xammala çevriləcəyik. Yenə də seçim özümüzdədir…

## Repressiya olunmuş bədənlər ölkəsi

*Etiraz son həddə çatanda insanlar soyunub küçəyə çıxar*

Ondan hamıda var. Biz onunla ayrılmazıq. Ona görə də onun barəsində hər şeyi bildiyimizi düşünürük. Əslində bu, böyük bir illüziyadır. Onunla münasibətimizdə mövhumatçılıq, qorxu daha çoxdur, nəinki əslini bilmirik.

Onu sevməkdənsə riyakarcasına utanmağı üstün bilirik. Biz onu idarə etməyi də fərli başlı bilmirik. Əslində biz bədənimizi idarə etmək əvəzinə o bizi ardıyca sürüyür. Biz utancaqlıq göstərib susduğumuz vaxt bədənimiz də susaraq bizim barədə daha artıq şeylər danışa bilir.

**Bədənsiz...**

Elə bil ki, mənim bədənim yoxdu, amma xaricilərdə bədən var. Çünki onlar bunu göstərməkdən də utanmır. Ola bilər xariciləri körpə yaşlarından öz bədəniylə düzgün rəftara öyrədiblər. Təbii ehtiyacı ödəmək lazım olanda hırıldaşmayıblar. Əvəzinə müxtəlif heyvanların təbii ehtiyacını ödəməyini təsvir edən kitablar verib dünya ilə tanış ediblər. Onlara ilk tibbi yardım etməyi də məktəb yaşlarından öyrədirlər. Qanı necə saxlamalı, çıxmış sümüyü yerinə necə salmağı və həmin qaydayla intim həyatın özəlliklərini... Oralarda bəzən şagird məktəbi bitirdikdə ardını oxumağa tələsmir, bizim kimi "mütləq bu il girməliyəm" demir. Bir-iki il xəstəxanalarda, qocalar evində ölümlə çarpışanlara kömək edir, kiminsə yeməklə dolmuş protezini yuyur, kiməsə gecə yatmazdan əvvəl kitab oxuyur, kiminsə altını təmizləyir. Nəticəsində bu praktikadan sonra peşə üzrə seçim edib ardını oxuyan tələbə attestatla birgə həyat təcrübəsi və öz bədəni ilə çox yaxından tanışlıq kursları alır. Ona görə də o, küçədə yıxılıb qalmış bomja, ya da ayağı büdrəyib yolun ortasında sərələnmiş qocaya köməyi özü də bunu iyrənmədən etməyi bacarır. Analoji situasiya bizdə baş verəndə zərərçəkmişin ətrafına çoxlu adam yığılır, çığırıb kömək çağıran, hətta həyəcandan ağlayanı da olur. Amma lazımi köməyi edən tapılmır. Çünki bizə bunu öyrətməyiblər.

**Sənətkarın çörəyi naturadan çıxır**

Məşhur pataloqoanatom, insan bədənindən bədii əsərlər yaradan Qünter fon Xaqens heç vaxt Azərbaycanda doğula bilməzdi. O, hesab edir ki, insana bədənə sahib olması barədə xatırlatmalar etmək heç vaxt gec deyil. Onun eksponatları dəhşətə gətirir. İnsanın sakit baxa bilməyəcəyi modellərin

əzələlərini, sinir tellərini bu qədər aydın görmək naşı tamaşaçını iyrəndirə və qorxuda bilər. Sivilizasiya artıq çoxdandır ki, insan bədənini ümumbəşəri müzakirəyə çıxarıb. Yüzilliklərdi ki, onu hissələrə parçalayır, nəyisə kəsir, haranısa tikir, həkimlər onu hansısa maddələrlə tıxayırlar. Elə bil söhbət ilahidən miras aldığımız vacib aqreqatdan deyil, ən adi maşından gedir. Sənətkarların pulu yüz faiz naturadan çıxır. Ona görə də insanı itirməyin ən yaxşı yolu onu kütlə içinə buraxmaqdır. Öz bədəninin qiymətini bilən kimi insan onu sənət əsərinə, nadir bir inciyə çevirir. Fitnes klublar, gözəllik salonları, plastik cərrahiyyə klinikaları, hətta evlərdə də durmadan və yorulmadan bədən üzərində dəyişdirilmə işləri gedir. Görkəminə diqqət müasir insanın ayrılmaz hissəsidir. Bədən müasir zamanın ən bahalı məhsuluna çevrilib. İndi bu, artıq mənəviyyat kriterisidi.

"Sağlam bədəndə sağlam ruh olar" deyən siyasi liderlər də bədənin rolunu anlayırdılar. Kiməsə antik atletizm, kiməsə flamand dəbdəbəsi, kiməsə isə dekadent azadlıqsevərliyi yaxındır. Hamı cəmiyyətə ünvanlanmış sözünü bədəni vasitəsilə çatdırır. Gənclər etiraz edəndə cırıq şalvar geyib saçlarını yaşıl boyayır. Bəzən etiraz son həddə çatanda insan çıxış yolu tapmayanda artıq soyunub küçələrə çıxmaqla bıçağın sümüyə dirəndiyini nümayiş etdirir. Çünki hər kəs şüuraltı şəkildə bilir ki, bədən çılpaqlığı insanı hürküdür və diksindirir.

**Bədən cəmiyyətə yönəlmiş mesajdır**

Şahzadə Dianının həkimi, psixoterapevt Süzi Orbaç "Bədən" adlı artıq bestseller olmuş kitabında da deyir ki, bədənə etinasızlıq cəmiyyətə yönəlmiş mesajdır. Biz bəlkə də hərəyə bir bədəni olan sonuncu insan nəsliyik. Müxtəlif diyetaların, idman növlərinin, farmakologiya, cərrahiyyənin, keyfiyyətli qidanın, gigiyenik məhsulların olduğu bir zamanda demək olar ki, hamının buna lap qismən də olsa əli çatır. Bizim bədənimiz zəhmətimizin məhsuludur

və o, cəmiyyət tərəfindən qiymətləndirilməlidir. Bir azdan gözəl libaslar aldığımız kimi yeni bədənlər də ala biləcəyik.

Bu gün artıq məlum statistika var ki, çəkiyə görə diskreminasiya dünyada aparıcı yerlərdən birində durur. Bu, etnik, seksual və dini diskriminasiyadan da irəlidir. Maraqlıdır ki, seçim azadlığını, o cümlədən görkəm barədə azadlığı öz siyasi kursuna çevirmiş ölkə Amerikada da şişmanları bəyənmirlər. Onlar işə qəbul, reklam roliki, ya da sadəcə ünsiyyətdə həmişə siyahının sonunda olurlar. Artıq çəki həm də idarə olunmaz xasiyyət, həyata xaotik yanaşma, acgözlük, ruhi natarazlıq və intizamsızlıq kimi dəyərləndirilir. Gözəl görkəm yaxşı bir süjet, ya da gözəl bir melodiya ilə eyniləşdirilən cəmiyyətdə şişmanlara yer qalmır. Buna reaksiya kimi cəmiyyətdə plakat arıqlığı, bulemiya, anoreksiya ortaya atılaraq sanki dünya malından imtina etməyi simvollaşdıraraq bir növ asketizm nümayiş edir. Hələ 10 il əvvəl kök adamlara münasibət indikindən daha yaxşı idi. Cəmiyyətin səhnə ulduzlarının görkəminə köklənməsi artıq öz nəticələrini verir. İndi biznesmenlər işçilərinin görkəmi barədə daha artıq narahat olur, nəinki onların mənəvi, yaxud işgüzar keyfiyyətlərinə görə. Deyək ki, paralel olaraq cəmiyyətin orta təbəqəsində görkəmi ideal və qulluq görmüş fərdlərə qarşı mənfi münasibət də artıq. Çünki hər kəsin bahalı salonlara, idman klublarına gedib hətta vacib olan əməliyyatları da keçirməyə imkanı yoxdu. Xalq arasında evin, ailənin ağırlığını daşıyan şişman və özünə qayğıdan gözəl görünən qadın obrazları arasında qarşıdurmanı görməmək mümkün deyil.

**Danışılmayan bir mövzu**

Biz bədənin gözəlliklərindən də, eybəcərlikdə də, əlillikdən də eyni dərəcədə utanırıq. Ona görə də xarici ölkələrə səfər edənlər ilk növbədə küçələrdə nə qədər əlil və şikəst adamların olduğuna heyrətlənir. Biz əlil və xəstələrimizi qayğı adı altında evlərdə əsarətdə saxlamaqla böyük riyakarlıq edirik. Çünki gözümüz öyrəşməyib və şikəst adama sakit baxa bilmirik. Almaniyada balerina qoltuğunu qırxmamış halda baş rolu ifa edirsə bu

normadır. Burda nəinki balerinanın, adi vətəndaşın da qırxılmamış qoltuqaltı az qala onun mənəvi keyfiyyətlərinin göstəricisinə çevrilir. Elə həmin səbəbdən də bizdə heç vaxt gey-parad keçirilməyəcək. Çünki əhali şəhərdə durmadan ucaldılan qalaq-qalaq tikinti vineqretinə bir neçə adamın normadankənar görünüşünə nisbətən daha səbrlə yanaşır.

Bizimkilər xarici klinikalara əməliyyat üçün müraciət edəndə böyük şok keçirirlər. Çünki həkim əməliyyatdan əvvəl bunu hansı yolla edəcəyini xəstəyə izah edib sonra yazılı razılıq almalıdır. Bizimkilər bu məqamda bayılma həddinə çatır. Çünki həkim qasıq arteriyası vasitəsilə damara daxil olmasını, ürəyə çatıb klapanlarda olan artıqlığı xırda qayçı ilə kəsəcəyini təfərrüatıyla izah edir. Bizim mentalitet adamı üçün bu insanlıqdan kənar, qəddar məsxərə kimi görünür.

İdmana artan maraq onu bədənin eksport olunan əsas predmetlərdən birinə çevirib. Amma bizdə ən adi fransız, ya Amerika şəhərciyində olduğu kimi işdən sonra tennis, basketbol, ya badminton oynamaq, hovuzda çimmək, ya sadəcə top oynatmaq adəti yoxdur. Bəlkə də artıq enerji və onun sərf edilməsinə yer olmadığından intiharlar baş verir. Burda bədən məsələsinə gələndə hər şey müzakirə üçün bağlı, nalayiq sayılır. Yaxınlıqdakı köşkə yanaşıb bədənin hər cür nümayişini təqdim edən rəngbərəng jurnallar ala bilərsiz. Amma bununla belə siz bunları kimsəylə açıq şəkildə müzakirə edə bilməzsiz. Danışası olsaz astadan, gizlincə etməlisiz. Çünki arada öz reputasiyanız da durur.

**Çılpaq həqiqət**

Bütün bunlarla paralel olaraq dünyada bəşəriyyətin mənəvi bünövrəsini laxladacaq qədər qalmaqallı kitabların məhkəmə prosesləri gedib. “Fanni Hillin memuarları, ləzzət üçün qadınlar”, “Ledi Çatterleyin məşuqu”, “Çılpaq nahar”, “Tropik raka”, “Lolita” kimi əsərlər artıq cəmiyyətə öz azadlıq payını verib. Keçən əsrdə Enni Sprinq adlı müəllif “Uşaqlıq yolunun demonstrasiyası” adlı perfomans keçirdi. Müəllif tamaşaçıya xüsusi qurğu və

elektrik fonar vasitəsilə cinsi orqanının daxilinə baxmağı vernisajdaca təklif edirdi. Kimsə belə müəlliflərin cəmiyyətə layiq olmayan ünsür olmasını deməyə və sübut etməyə çalışacaq.

Aparılan sorğulardan məlum olur ki, 17-20 faiz qadın ərləri və partnyorları tərəfindən cismani zorakılığa məruz qalıb. Təxminən bir o qədər də kişi əsgərlikdə cismanı zorakılığı öz üzərində hiss edib. Real rəqəmlərsə daha çoxdur. Bizim dilimizdə bədənlə bağlı problemləri izah etməyə qadir söz ehtiyatı da yoxdur. Biz hətta xəstəliklərdən danışarkən onu abstrakt, sxemlərdən ibarət, bəzən 3D animasiya şəklində təsəvvür edirik. Ona görə də hardasa, məsələn Londonda şənbə günü axşam verilişlərinin birində qadın orqazmına həsr olunmuş verilişin getməsi barədə fikri ağlımıza çığışdırmırıq. Bu abırsızlıq kimi görünür. Hələ Şarlotta Roşun "Nəm zonalar" bestsellerini demirik. Əsərdə qəhrəman intim epilyasiya zamanı anusunu kəsir. Əsərin müəllifini televiziyaya çıxaranda o, anal dəliyinin qat-qat olmasını nə vaxt və hansı şəraitdə öyrənməsi barədə təbəssümlə danışırdı. Bizdə Fransada olduğu kimi ciddi adamların düz 2 saat ərzində porno sənətində insan münasibətləri mövzusunda müzakirə aparmasını təsəvvür etmək belə olmur. Biz danışsaq pis, eybəcər və tərbiyəsizcəsinə alınır. Biz öz parlamentimizi bəyənmir, ağız büzürük. Amma Nyu-Cersi ştatındakı kimi onlar ginetal epilyasiya məsələsinin vətəndaşların şəxsi işi olması barədə qərar çıxarsaydı nə edərdik? Vacib-vacib deputatlar, gözəl kreslolarda oturub ciddi sifətlə müzakirə etdi, düyməni basıb qərar çıxartdı ki, ginetal epilyasiya yerli hökumət tərəfindən tənzimlənməli deyil! Bax belə. Kuçələrdəki fahişələr ordusu, pornosaytların bolluğu ilə yanaşı bizdə hələ də seks yoxdu. Bu barədə yazası olsaq 3 nöqtə hər şeyi izah etməyə qadir olur, yaxud uzun bir düüüüüüd…..

**Bədən xüsusi valyuta kimi**

Bütün dünyada gənclik universitetin II kursunda artıq bədəni üzərində bütün eksperimentlərə son qoyur. Yəni hər şeyin tamını çıxarır. Ona görə də həyatının sonrakı illərində cismani ləzzət və ruhani hisslər, ciddi və qeyri-

ciddi münasibətlər arasında keçən sərhəddin yerini dəqiq bilir. Bizdə bədənə diqqət ayrılmadığından nəinki başqasının, hətta öz bədənin qarşısında qorxu güclənir. Ona görə də bağlı cəmiyyətlərdə insan bədəni ilə əlaqədar məqamlar xüsusi valyuta əhəmiyyəti daşımağa başlayır. Bəziləri özünü ağlasığmaz, fantastik münasibətlərçün qoruyub az qala mumiyaya çevirir. Çünki onlar nədənsə düşünür ki, yad bədənlə tanışlıq nəsə bir fantastik şəraitdə, lap nağıllarda olduğu kimi, ya da hind filmlərindəki kimi baş verməlidir. Bundan aşağısına onlar razılaşmır. Elə bu vaxt, bizimlə bir əsrdə yaşayan ispan valideyni öz qızına evindən çox uzaqda mənzil kirələyir ki, cinsəl həyatın bütün özəlliklərini asudə dada bilsin. Biz hələ də uşaqlarımızı bədənlə bağlı bütün istəklərin çirkin olduğunu anlatmağa çalışırıq, çünki başqa cür bacarmırıq.

Cismani təmas məsələsini dinlə də, dini qadağalarla da bağlayanlar çoxdu. Amma gəlin etiraf edək, bu məmləkətdə qara pişiyə inanan namaz qılanlardan daha çoxdur. Biz qədimdən miras aldığımız bədənə magik münasibətdən qurtulmamışıq. "Üstündə göstərmə, sən də bu xəstəliyə yoluxarsan" inamı bu torpaqda mövcud olmuş bütün dinlərdən daha güclüdür. Yəni biz xristian olsaydıq da davranışımızda yenə də bir o qədər də azad olmayacaqdıq. Qadağaların kökləri minilliklərdən gəlir.

**Qərbdə bədən individualdır**

İnsan bədəniylə işləyən dünyaca məşhur fotoqraf Olqa Çernışova (Onun əsərləri artıq Londondakı Viktoriya Albert, Nyu-Yorkdakı MoMA muzeyini bəzəyir) deyir ki, Nyu-York, ya da London kimi mərkəzi şəhərlərdə foto çəkməyi sevmir. Orda ətrafda çoxlu şüur dolaşır və bədənlər kimliyindən, peşəsindən asılı olmayaraq həddən artıq individualdır. İnsan bədəni barədə nə qədər çox öyrənirsə onun bədənini dəyişməyə bir o qədər də çox imkanı yaranır və o, zəifliyini bir daha hiss edir. Bədəninə layiqli qiyməti verə bilməmək kimi psixoloji xəstəlik də var. Belə adamlar İnternetdə birliklər yaradır və dərdləşirlər. Onlar güzgüyə baxanda özlərini bir neçə ölçü böyük

görür və ona görə də lazım olduğundan bir neçə ölçü böyük paltarlar alırlar. Amma bədənə lazım olduğundan artıq diqqət verənlər daha çoxdu. Onlar lazım oldu-olmadı əməliyyatlar seriyası edir, saçlarını həftədə bir rəngə salır, müxtəlif pilinq, liftinq, lipoksasiya əməliyyatlarına girişir və sonunda gözəl olmaq əvəzinə daha da eybəcərləşirlər. Maykl Ceksonun həyatı bütün bəşəriyyətə örnək ola bilər. Bu adam görkəmini dəyişməyin əsil mənada qurbanı oldu.

**Bədəndən kənar yaşam**

Bizim cəmiyyət bədən barədə danışmağı bacarmayan, bədənindən utanan bir toplumdur. Dünyada bədəninin qayğısına qalan minlərlə insan var ki, hər saniyə durmadan qocalan cisminin sağlamlığı və ruhunun əbədiliyi xətrinə min kilometrlərlə uzağa səfər edir, Hindistanda, Meksikada, İranda və Yaponiyada, Tibetdə olan müqəddəs yerləri, enerji mərkəzlərini ziyarət edir. Hamı bilir ki, daşıdığımız bu bədən bir gün olmayacaq, onu bizə əmanət veriblər. Ruhun əbədiliyini anlayan məqamdan insanın bədəninə də münasibəti dəyişir, bir müddət istifadəsinə verilmiş bədənin də qeydinə qalmalı olur. Dünya ruh və cism arasında ortaq məqamlar və hər ikisinin sağlamlığını təmin edən təlimlər axtarışındadır. Sanskrit ədəbiyyatı, fəlsəfə, meditasiya, yoqa, ezoterizm və s. cərəyanlarla bütövlükdə kütləvi şəkildə maraqlananların sayı görünməz dərəcədə artıb. Onların maraq dairəsinə Paulo Kuelyonun kitablarından tutmuş Sai Babanın məruzələrinədək, Kastanedanın fikirləri və Oldos Xaksliyə qədər hər bir şey daxildir. Vəhdət fəlsəfəsiylə məşğul olan transhumanistlər düşünür ki, insan o məqama yaxınlaşır ki, onun şüuru artıq sərt diskə yazılıb əbədi mövcud ola bilər. Həmin məqama çatanda insana bədən tamamilə lazım olmur. Onun şüuru artıq informasiya daşıyıcısına çevrilir. Alimlər nanotexnologiyaların insanı keyfiyyətcə daha yaxşı edəcəyinə inanır. Bədəndən azad şurun yaranması insanın bədən üzərində qələbəsinin rəmzi olacaq. Amma bu günün özündə bu, fantastik filmdən kadrlar kimi səslənir. Vaxt gələcək Aleksandr Tolstoyun

"Aelita" adlı fantastik romanında olduğu kimi insanlar paltarın altında olanları görməyi bacaracaqlar. Bəlkə o zamanlar insan bədənindən utanmaqdan əl çəkib onun əsil dəyərini verə bildi...

## Paxıl ilahələr

*Yaxud divana sərələnmiş qadınlar nədən danışa bilər?*

Fransada keçirilmiş ən qısa bioqrafiya müsabiqəsinin qalibi yaşlı bir qadın olur. Onun yazdığı bu idi: "Əvvəllər mənim hamar sifətim və əzik ətəyim vardı, indi hər şey əksinədir". Bu qısa bioqrafiyanı oxuduqda yaşlı qadının çiyinlərindəki maraqlı və kifayət qədər uzun ömür yolunu sanki dəqiqəbədəqiqə görürsən. O, yəqin ki, bütün bunlar barədə uzun-uzadı memuarlar da yaza bilərdi. Onda hər şeyin marağı itərdi. Adamın bu qadını televiziya verilişinə çağırıb yaxşıca söhbətləşməyi gəlir. Axı bizim sehrli qutumuzdan ya danışığından soğan qoxusu gələn, mətbəxdən güclə qopub hansısa ictimai mövqeni tutmağıyla millətə analıq eləyən, ya da "şanlı keçmişini" gözlərinin qığılcımında gizlətməyə məcbur olan və bununla belə yenə də millətə ağıl verən qadınların səsi gəlir. Görəsən, ətəkləri hamar üzü qırış olan fransız xanımını çağırıb, milli mentalitetə uyğun olaraq çaya deyil şəraba qonaq edib nədən danışdırmaq olardı? Məsələn, qadın paxıllığından.

Məncə bütün dünyada belədi, bu mövzunu kişilər əfsanəvi elan edib bu barədə hər zaman və hər yerdə danışa bilirlər. Həqiqətən də bir cüt italyan uzunboğaz çəkmələrinə görə didişən qadın kollektivini kişilər anlamaz. Bu qadınlar həmin çəkmələri gördükləri ana qədər dünyanın ən yaxın rəfiqələri də ola bilərdi. Bəlkə ona görə də qadın dostluğu real məsələ deyil? Görəsən iki qadına paxıllıq hissini çəkdirə biləcək məqamlar hansılardır?

Paxıllığa səbəb ən birinci xarici görkəmdi. Axı hər balaca qıza anası uşaqlığından deyir ki, o, dünyanın ən gözəl qızıdır. Bəziləri buna o qədər inanır ki, hətta güzgülərin də vaxtaşırı yalan dediyini düşünür. Ona görə də ətrafında gözəl-göyçək birisi əmələ gələn kimi bütün varlığı ilə müqavimət

göstərməyə başlayır. Beynində təxminən belə fikirlər dolaşır: "Bu necə ola bilər axı, ən gözəli mənəm, amma onun hündür boyu və uzun ayaqları var? Bu haqsızlıqdı". Yaxud "Niyə onun belə gözəl bədən quruluşu var, mənimsə belim toppuşdur. O, hamıdan gözəli ola bilməz, anam mənə demişdi, mən dəqiq bilirəm". Yaxud arada belə variant da ola bilər: "Belə gözəl sinəsi onun nəyinə lazımdı, axı o, axmağın biridi. Bizim nəsildə bütün qadınlar ağıllıdır, amma heç birimizin bu qədər gözəl görkəmi yoxdur. Bu haqsızlıqdı". Əlbəttə, qadın məntiqi ilə rəfiqən daha yaxşı və zövqlə geyinirsə bunu ona qətiyyən bağışlamaq olmaz. Bunu görən o biri qadınlar az qala bütün dünyaya car çəkmək istər ki, "Nə olsun, onun yapışdırma kirpiklərinə, guya ki, utanmaqdan qızarmış yanaqlarına bir baxın da! Bu sadəcə kosmetikadır....".

İkinci, paxıllıq hissini oyada biləcək məqam yaş məsələsidir. Sağlam məntiqlə düşünə bilsə qadın deyərdi ki, uzun ömür yolu, qarşısına çıxmış maneələri başıuca keçərək yaşamaq şansına görə fəxr hissi keçirməlidi. Amma həyatda əksinəsi baş verir. Qadının yaşı artdıqca cavanlara qarşı aqressiyası da paralel olaraq artır. Kişili-qadınlı hamı düşünür ki, qadının həyatı üzündə ilk qırışları əmələ gələnədəkdir. Həyat təcrübəsi də göstərir ki, kişilərin yaşı artdıqca yanında daha cavan qadın görmək istəyirlər. Ona görə də hər bir qadın özündən cavan qadına potensial rəqib kimi baxır. Təcrübəli qadınlar əlinə imkan düşən kimi gənclərə anlatmağa çalışır ki, yaş onun ən qəddar düşmənidir və təcrübəsizliyinə görə ona badalaq gələ bilər. Amma ürəyinin dərinliyində bu sözləri təntənəylə deyən hər bir qadın gənclərə həsəd hissiylə baxır, özünü həmin yaşda xatırlayıb köksünü ötürür. İndi gəlin səmimi olaq və etiraf edək: azərbaycanlı qadın və qızların əksəriyyəti gəncliklərini yaşamaq şansını əldən buraxır axı. Bəziləri bunun nə olduğunu heç bilmir də. Ağıl təhkim olduğu yerə qayıdıb oturuşanda isə artıq gec olur və cavan qızların geyimi, davranışı barədə deyinməkdən başqa bir imkan qalmır. Qoy cavanlar bilsin ki, yaşı gizlətmək lazımdı. Az olanda paxıllıq yaratmamaq üçün, çox olanda gülünc görünməmək üçün. Qadın əgər 30 yaş həddini

haqlayıbsa vəssalam, o, qaragünlüyünü qablaşdıra bilər. Vay o gündən ki, hamı onun 35 yox, 37 yaşı olduğunu bilə. Çünki 35 30-dan bir qədər artıq, 37 isə 40 ərəfəsi deməkdi. Balzak yaşında qadınlara kimsə bu barədə zərbə vurmaq istəsə "Sənin yaşında artıq nənə olurlar" deyər. Bu zərbədən sonra mütləq bir müddət nokauta düşüb həyatın rənglərini itirirlər.

Yaş və gözəllik paxıllıq üçün səbəb olar, amma hər şeyin başında qadının intim həyatı durur, bunu boynuna almasa da. Ola bilər, kişilər seksin olmamasından fizioloji əziyyət çəkir. Amma qadınlar bu boşluğu çox vaxt ruhi əzablarla doldura və üstəlik bunu fəxr obyektinə çevirə bilir. "Niyə" sualı yenə də ön plana çıxır. "Niyə onun hər gecə başını sığallayanı var, mənsə bu gözəllik və ağıl sahibi olsam da gecələri televizor qarşısında keçirməliyəm?" Sonra paxıllıq hissi başqa sahələri də əhatə etməyə vadar edir, mətbəxə, plitə üstündə qaynayan qazana, soyuducudakı növbənöv yeməklərə, hətta eyvanda ağzı yaxşıca bağlanmış mürəbbələrə, şorabalara qədər gedib çıxır. Qadınlar heç ağlına gətirmir ki, o, mürəbbələri bişirərkən tər tökdüyü zaman kimsə yataqda tər tökür. Bu fikri ağlına gətirən kimi də ordan qovalayır, yoxsa paxıllıqdan ölmək də olar.

Bütün bunlar bir yana, amma rəfiqənin maddi durumu demək olar ki, bütün qadınları narahat edən gizli məqamdır, bunu kimsə boynuna dünyasında almaz. Axı bu, qadın işi deyil, karyera qur, irəli get, yuxarılara dırmaş... Əslində əsas səbəb bu deyil. Bütün millətlərin qadınları həyatın dəyərini ev-eşiyi, rahatlığı, həyatının keyfiyyəti ilə ölçür. Ona görə də hansısa bir idarəyə gedib, direktor kürsüsündə qızın yaşında birisini görəndə anlayırsan ki, bunu o öz gücünə qazanmayıb. Kimisinin day-dayı, kimisinin məşuqu, dostu-filanı, ya da bir tək pulu var. Bunu kimsə dilinə gətirməz, lap paxıllıqdan ölsə də. Amma qəbul otağında yəqin ki, hamını "Niyə orda mən oturmamışam?! Axı mən daha layiqlisiyəm" fikri narahat edər.

Bütün qadın müsabiqələrinin, dartışmaların, çəkişmələrin, küsüşmələrin və hətta saçyolduların əsas mükafatı kişidir. Ortalıqda o, onun sevgisi, onun qayğısı, onun imkanı, onun şəraiti və sair şirnikləndirici məqamlar olmasa bütün dünyada sülh və əmin-amanlıq hökm sürərdi. Kişi qadının başının tacıdır – bu hətta müasir zamanda da atalar sözü kimi səslənir. Bizdə də, hətta azadlığına həsəd apardığımız ölkələrdə, məsələn Fransada da qadını kişisiylə ölçürlər. Necə fırladırsan fırlat, məsələyə hansı bucaq altından baxırsan bax, dünyanın ən kifir, pinti, murdar xasiyyətli bir qadınının yanında əməlli bir kişi olarsa ona paxıllıq edənlər ordusu da olacaq. Qadının uğurları göylər qədər olsa da tənhadırsa hamının ona yazığı gələcək. Ona görə də qadın paxıllığının ən əsas səbəblərindən ən vacibi kişilər arasında diqqət sahibi olmaq bacarığıdır. Naz-qəmzəylə, göz süzdürməklə, geyim-keçimlə, ağıl və dərrakəylə, fərq etməz, kişilərin gözünü çəkən qadınlara həmişə paxıllıq edirlər. Maraqlısı odur ki, bu paxıllığı çəkən qadınların özləri həqiqətən də paxıllığı çəkiləsi qadınlardır. Sadəcə bəzi üsulları özlərinə layiq bilmirlər.

Neynəməli?! Paxıllıq hissi gələndə adamdan "Gəlimmi?" deyib soruşmur ki. Gəlir, içəridə hər şeyi alt-üst edir, çıxanda da uğursuzluqlar üçün qapını açıq qoyub gedir. Əgər ətrafında gözəl qadınlar çoxdursa deməli bütün günü görkəmini yaxşılaşdırmaq barədə düşünməkdən başqa çarən qalmır. Tənbəlliyin daşını at, idman elə, ucuzvari geyimlərini tulla ki, yenilərini alasan, bahalı kosmetika və kremlərin ləzzətini dad. Ətrafındakılar hamısı seks ilahələridirsə kişini əlində, ovcunun içində saxla. Parlaq, işıq saçan, ətrafa xoşbəxtlik yayan cazibədar bir qadına çevrilsən sənin paxıllığını çəkəcəklər. Bu daha yaxşıdır…

# Cənnətdən qovulmamışlar

*Əsl cənnət Təbriz ətrafında ərazilərdə imiş*

İnsan sivilizasiyasının mənbəyi hardan başlayır? Müqəddəs kitablar Allahın Adəm peyğəmbəri gildən yaratması, onu cənnətdə yerləşdirməsi barədə danışır. Adəm və Həvva qadağan olunmuş cənnət almasının dadına baxandan sonra cənnətdən qovulur. Alimlər üçün cənnət alması barədə mif sadəcə gözəl bir bədii uydurmadır. Bəlkə dalbadal göndərilmiş bir neçə müqəddəs kitabların eyni əhvalatı danışmasında nəsə məntiqi bir nəticə var?

Özünə azərbaycanlı deyən hər kəs cənnətdə yaşayırmış kimi davranır. Bu, bizim milli xüsusiyyətimizdir. "Cənnət görmək istəyən, Azərbaycana gəlsin" deyən şeir yaranmamışdan əvvəl də belə idi. Qəribəsi odur ki, dürr kimi təmiz bulaqların suyunu içib yaşıllıqlar içində böyüyən də, şəhərin çirkin havasını udub cəhənnəmdəki kimi yandıran günəşin altında qovrulanlar da eyni dərəcədə seçilmişlərdən, Allahın yaxın bəndələri, cənnət sakini olduğunu düşünür. Bu, kütləvi psixoz, hamının düşdüyü psixoloji tələyə də oxşamır. Bütün dünya çırmanıb itirilmiş cənnət, edemi axtarırkən bircə biz öz evimizdə sakit oturub Allahın göndərdiyi bir günü rahatca yaşamağımızdayıq. Biz də çırmalanıb araşdırmaçıların bu axtarışlarına qoşulsaydıq çoxlu maraqlı məqamlarla rastlaşar və onların baş sındırıb cavab axtardığı suallara daha tez cavab verə bilərdik. Çünki bəzi məqamların açmasını biz artıq uşaqlıqdan bilirik. Bu yazı "Discovery Channel" kanalının çəkdiyi "Edem axtarışında" sənədli filmi əsasında yazılıb.

**İtirilmiş cənnətə doğru**

Edemdən qovulmuş insan sivilizasiyanın təməl daşını qoydu… Bu nağılabənzər əhvalat alimlərin inandığı təkamül nəzəriyyəsindən daha cəzbedici görünür. Hər kəsin içində cənnətin real coğrafi məkan olması barədə əminlik yaşayır. İtirilmiş cənnəti axtarmağa biz də çırmanaq. Tədqiqatçı Devid Rou ömrünün 25 ilini dünya mifləri və əfsanələrində

gizlənmiş həqiqətləri aşkarlamağa həsr edib. Hazırda o, İngiltərədə Oksford Universitetində dünyanın ən qədim mifinin izlərini araşdırmaqdadır. İncildə yazılıb ki, təxminən 7 min il əvvəl Allah ilk insanı yaradıb Şərq tərəflərdə bir bağın içində yerləşdirdi. Sonra Adəm və Həvvanın cənnətdən qovulması məqamı gəlir. Arxeoloqlar da bəşəriyyət tarixində belə bir təkan anının olmasından danışır. Antropoloqlar buna "neolotik inqilab" adını verib. İnsanlar heyvanları əhilləşdirib yaşayış yerləri ətrafında saxlayır və torpağı əkib becərməyi öyrənmişdi. Elm və din bu məqamda razıdır: 7 min əvvəl nəsə böyük, nəhəng bir hadisə baş vermişdi ki, insanın inkişafına təkan olmuşdu.

**4 çayın əhatəsində**

Cənnətin olmasını sübut edən yazılı mənbələrdən ən ətraflısı İncilin "nəsillərin əlyazması" bölməsidir. Burda dəqiq coğrafi yerin təsviri verilir: "Tanrı Şərqdə bağ düzəldib yaratdığı insanı orada yerləşdirdi. Torpaqdan yemək üçün xeyirli bitkilər və ağaclar yetişdirdi. Bağın mərkəzində həyat ağacı və xeyir-şər ağacı vardı. Cənnət bağından bir çay axırdı və ordan çıxdıqda 4 çaya bölünürdü. Onlardan birinin adı Fisondur. O bütün Xavil ölkəsinin torpaqlarını əhatələyir, harda ki, qızıl vardı. Həmin yerlərin torpağı yaxşıdı, bdelium və oniks daşı da var. İkinci çayın adı Qixondur. O da bütün Kuş torpaqlarının əhatələyir. Üçüncü sayın adı Xiddekeldir. O, Assuriyanın qarşısından keçir. Dördüncü çay İfrat çayıdır". Bu məlumatları əsas götürüb cənnət bağının dəqiq yerini tapmaq mümkündür. Göründüyü kimi cənnətin yeri 4 çayın məcrası ilə əlaqədardır. Onlardan ikisinin – Dəclə və Fərat çaylarının yeri bizə artıq məlumdur. Qədim yunanlar onları İfrat və Tiqr çayı adlandırırdı. Burda ilk sivilizasiyanın bədii abidələrinin izləri də tapılıb. İncilin orijinal yəhudi mətnində vacib eyham var. Orijinal mətndə "roş, roşana" sözü işlənir ki, bu da yəhudi yeni ilinin mənasını verir. Yəni çox güman ki, söhbət göstərilən çayların mənşəyi deyil, mənbəyindən, başlanğıcından gedir. Mətndə sözün cəm halı "oraşim" işlənir. Deməli 4 çayın dənizə axdığı yeri deyil, onların başlandığı məkanı axtarmalıyıq. Dəclə və

Fərat çayının mənbəyi şərqi Türkiyənin dağlıq əraziləri və qərbi İranın arasındakı ərazilərdədi. O biri iki çayın da mənbəyi hardasa buralarda olmalıdı. Dünyanın 3 aparıcı dini müqəddəs kitablarında cənnət bağı barədə danışırsa bu, sadəcə uydurma ola bilməz.

**"Siz cənnətə daxil olursuz"**

Yəhudi tədqiqatçıları inanır ki, Əhdi-ətiq bizim eradan əvvəlki dövrlərdə qələmə alınıb. Həmin vaxt xalq arasında şifahi şəkildə ötürülən əfsanələr toplusu kitabın yaranmasına, orda təsvir olunan hadisələrə, personajlara və ərazi adlarına təsir göstərməyə bilməzdi. Yəhudilər bu rəvayətləri eşitməmişdən çox-çox əvvəl də onlar xalq yaddaşında, deyişmələrdə yaşamaqdaydı.

Britaniya muzeyində gildən düzəldilmiş bir silindrik damğa saxlanır. Onun 4 min ildən artıq yaşı var. Damğanı gil üzərinə çıxardıqda alınan rəsmdə taxtda oturan kişi və onun qarşısında oturmuş qadın fiqurunu görürük. Onların arasında budaqlarında çoxlu meyvəsi olan ağac fiquru görünür. Qadının arxasında ilan təsviri var. Bəlkə bu da Adəm və Həvva əhvalatının daha bir təsviridir? Dünya muzeyləri bu tip abidələrlə doludur. Yaşı İncildən də artıq olan kitabələr, rəsmlər sanki elə eyni əhvalatı dönə-dönə danışır...

İvrit dilində Edem bağının adı "qanba eydem" kimi səslənir. "Qanba" sadəcə bağ yox, dörd tərəfi bağlı bir bağça mənasını bildirir. Farslar dörd tərəfi bağlı bağı "parideza" adlandırır. Bu sözdən paradiz, yəni cənnət sözü yaranıb. Dörd tərəfi bağlı və içində çaylar axan edem bağının modeli demək olar ki, hər yerdə gözümüzün qarşısındadı. Məsələn, İsfahanda şah bağını götürək. O, 4 tərəfi bağlı bir ərazidir və cəmi bir yerdən girişi və çıxışı var. Mərkəzdə fəvvarə və bulaqlar yerləşdirilib. Kanalların suyu bağı 4 hissəyə ayırır. Dünyanın memarlıq möcüzələrindən biri olan Tac-Mahal da bu quruluşdadır. Monqol xanı Çingizxanın varisi Cahan şahın inşa etdirdiyi bu abidənin girişində yazılıb: "Siz cənnətə daxil olursuz". Bağın mərkəzindəki su

hövzəsi 4 yerə paralanaraq bağı 4 hissəyə ayırır. Bu cənnətin 4 çayının simvolu kimi memarlıqda əksini tapıb. Yerdəki cənnətin inşasını fars memarı icra edirdi. Rəsmi mənbələrdə fars kimi təqdim edilən memarların əksəriyyəti cənubi Azərbaycanın sənətkarları olub. Amma bunu yerli qəzetdə yazmaq deyil, bütün dünyaya sübut etmək lazımdı.

**İnsan əli dəyməmiş torpaqlara edem deyərlər**

Şumerlərin iki çay arası yaratdığı sivilizasiya Misir piramidalarından da qədim sayılır. Alimlər hələ də onların yaranması səbəbini, sivilizasiyaya təkan verən qüvvəni dəqiqləşdirə bilməyiblər. Amma eramızdan 5 min əvvəl onlar artıq Dəclə və Fərat çayları arasında inkişaf etmiş sivilizasiyaları ilə məskunlaşmışdılar. Yer üzünün ən qədim şəhərləri bu ərazilərdə tikilib. Şumerlər zikkurat adlandırılmış pilləvari məbədlər tikirdi. Belə bir versiya var ki, şumerlər bu tikililəri dağlıq ərazilərdə yaşayan allahlarının evlərinə uyğun olaraq bu cür tikirdilər. Yəni ki, ilkin şumerlər özləri də dağlıq ərazilərdə yaşayıblar. Bu əlaqə o qədər aydın idi ki, onlar gələcək nəsillərə həmin ərazilərə səfər etməyin ən rahat yollarını göstərən kitabələr qoyub gediblər. Burada En-Meka adlı hakimin uzaq şimal ərazilərdə məskunlaşmış qüdrətli hakimə qasid göndərməsindən danışılır. Onun səfərinin məqsədi qızıl və qiymətli daş-qaşla zəngin olan Arat ərazilərini əldə etmək idi. İncil də Edemin bir hissəsinin qızıl və qiymətli daşlarla zəngin olmasından danışır. Arat çarlığının harda olmasını, səfərin sonunda nə baş verdiyini heç kim hələ ki, bilmir. Amma epik əfsanənin yazıldığı daş kitabəyə əsasən səfər İranın cənubi qərb hissəsindən, Kerhe çayının məcrasına yaxın qədim Suza şəhərindən bağlanmışdı. Gil lövhədə qasidin Arat şahlığına gecə və gündüz addımlayaraq səfəri etməsi ətraflı təsvir edilib. Nəhayət ki, o, yolboyu 7 darvazadan keçərək Arat ölkəsinə çatır. Qədim dünya darvaza dedikdə dağ aşırımı, ya da dərələri nəzərdə tuturdu. Dindarlar bu yazıda məqsədin uğrunda, nurlanma, aydınlanma yolunda zəvvarın keçdiyi 7 qat, 7 maneəyə eyham hiss edirlər. Qədim abidələrdə 7 qat və onlardan ən yuxarıda cənnətdə həyat ağacı

yanında Adəm və Həvvanın təsviri ən çox təkrarlanan mövzudur. Yəni ki, cənnətə çatmaq üçün 7 qatı keçməlisən. Biz indi də əhvalımız sox yaxşı olanda "elə bil göyün 7-ci qatındayam" deyirik. 7-ci qat cənnətin simvoludur. Şumer dilində vadi "edim" kimi yazılır. Müasir alimlərin fikrincə işlətdiyimiz edem sözü də burdan yaranıb. Tərcümədə becərilmiş ərazilərdən kənarda olar dağlıq ərazi deməkdir. İnsan əli dəyməmiş torpaqlara edin deyə bilirdilər.

**Cənnət bağı barədə əfsanələrin yaşı dinlərin yaşından artıqdı**

Cənnət axtarışında səfərimiz bizi Zaqros (Zerdkux) dağına gətirəcəkdi. Əgər ingilis hərbçisi Henri Rorinsonun tapıntısı olmasaydı Şumer abidələrindəki Arat vadisi, Edinə səfər bizimçün qaranlıq qala bilərdi. 1844-cü ildə Rorinson qədim fars abidələrini tədqiq edirdi. Bisutun dağında fars şahı I Daranın taxta çıxması səhnəsi yazıya alınıb. Qayadakı yazı 3 dildə - babil, elam və qədim fars dilində yazılıb. O vaxtlar alimlər qədim babil dilini hələ bilmirdi, amma qədim fars dilindən artıq baş açırdı. Rorinson anladı ki, əgər eyni mətnin 3 dildə yazısının üzünü çıxarmaq mümkün olsa bu qədim dillərə açar olacaq. O, hər detalın üzünü çıxarmaq üçün 60 metrlik hündürlüyə dırmaşmalı olurdu. Bu tapıntı sayəsində arxeoloqlar dağılmış şəhərlərdə tapılan yüzlərlə daş kitabələri oxumaq imkanı əldə etdi. Bu cəsarətli insanın səyi olmasaydı cənnət haqqında əfsanəni yalnız İncildən oxuya biləcəkdik.

Britaniya muzeyində qədim dünyaya aid çoxlu daş kitabələr saxlanır. Onlardan biri 1850-ci ildə Şimali İraqda tapılmış kitabədir. Tapıldığından 22 il keçmiş onun açması dərc edildi və bu elm aləmində böyük sensasiyaya səbəb oldu. Çünki müasir insan İncil rəvayətlərinin daha qədim versiyası ilə ilk dəfə tanış oldu. Bu ümumdünya selbasması, bizim Nuh peyğəmbərin əhvalatı kimi tanıdığımız hadisənin başqa bir təfsiri idi. 3 min ildən artıq yaşı olan gil kitabə Gilqamış haqqında əfsanəni təsvir edirdi. Gilqamış Allahın

əmriylə gəmi tikib insanları və başqa canlıları məhv olmaqdan qurtarıbmış. Tərcümə olunduqdan sonra mətnlər heyrətamiz dərəcədə oxşar idi.

**7-ci qatın ünvanı**

Bizim şumer səyyahımızın səfəri Kerxe çayının ətrafında bitir. Bu yazıda onun cənnətə gedib çıxması təsvir edilmir. Yolun yerdə qalan hissəsinə aydınlıq gətirməyə daha bir daş kitabə kömək edəcək. O, Parisdə, Luvr muzeyində saxlanır. Kitabədə eramızdan 8 əsr əvvəlki zamanda Assuriya çarı II Sarqonun Arat çarlığına qarşı apardığı hərbi əməliyyat təsvir edilir. Sarqonun da göndərdiyi adamlar şumer mənbəsindəki kimi Arat çarlığına çatmaq üçün 7 darvazadan keçməli oldu. “Mən Assuriya çarı Sarqon Kalxuyini keçib böyük Azzaronun çayını adladım. Hündür dağlara çıxıb ağacların sıxlığından günün şüası dəyməmiş vadilərdən keçdim. 7 dağı fəth eləyib böyük çətinliklə keçdim. Sonra mən Rupu və Aratu çaylarını çox rahat keçdim, elə bil ki, suvarma kanalı idi. Surakaşa ilə üzbəüz, Manaxan ölkəsinə düşdüm”. Surikaş dedikdə Manakan vadisinin Sakkez kürd şəhəri nəzərdə tutulur. Sarqon yürüşündə 7 dağ keçdikdən sonra Urartuya, İncilin Ararat adlandırdığı yerə gəlib çıxır. 7-ci darvazanı adlayandan sonra o, bilirdi ki səfəri sona yetib. O, cənnəti gördü və özünü göyün yeddinci qatındakı kimi hiss etdi.

Hər bir səyyah Urmiya gölünə yaxınlaşmağıyla özünü cənnətə sarı tutmuş kimi hiss edir. Göldən şərqə doğru Allahın yerdə yaratdığı cənnət məkanı yerləşməlidi. Əgər bura Edemdirsə burda Qexon və Fison adlı çayların olması vacib şərtdi. Eləcə də Kuş ölkəsi və edemdən axan çayların izi də olmalıdı. Urmiya gölündən şərqdə silsilə dağlarla əhatə olunmuş böyük bir ərazi yerləşir. Bu böyük bir cənnət bağıdır. Cənnətin qərb tərəfi göllə məhdudlaşıb. Yalnız şərq tərəfdən ətraf dünyaya çıxış var. Cənnət sayılacaq bağda Urmiya gölünə axıb tökülən Ssada çayı var. Şimalda Araz çayı axır. Ərəblər VII əsrdə bu əraziləri zəbt edəndə bu çayı Qexon adlandırırdı. İncilə görə Qexon Kuş

ölkəsindən keçirdi. Bu ərazilərin qədim adı həqiqətən də Kuşdur. Üfüqdə görünən dağların adı bu günün özündə də Kuş dağı adlanır. Adı çəkilən 4-cü çayı tapmaq qalır. Cənubi şərqdə Kizilujon çayı var ki, İncil mətnlərini yazan onu Fison adlandırıb. Bu çay həqiqətən də qızılla zəngin olan torpaqlardan keçir. Çayın adının qızıl sözüylə başlaması bununla bağlıdır. Çayın adındakı ujon sözünün fisona çevrilməsini isə dilşünaslar fars dilinin xüsusiyyətləriylə rahat izah edə bilir.

Adəmin övladları Habil və Qabil barədə əhvalatı xatırlamış olarsız. Qabil və Habil atalarının əmriylə Allaha qurban gətirməli idi. Qabil buğda tarlasına gedib təzə, dəyməmiş sünbüllərdən dəstə düzəltdi. Habil isə sürüsündən ən sağlam, nöqsansız bir qoyunu seçdi. Habilin qurbanı qəbul olunduğundan Qabil onun paxıllığını çəkib bütün zamanların ən pis günah işini gördü, qardaşını öldürdü. Qardaşının qatili olduğuna görə Qabil cənnətdən qovuldu və sonrakı nəsillər qarğışın ağrısını çəkəsi oldu: "Bundan belə torpaq zəhmətinin müqabilində sənə bəhrə verməyəcək! Yer üzündə sərgərdan dolaşacaqsan, rahatlıq tapmayacaqsan". Əfsanəyə görə Qabil Edemdən şərqdə yerləşən Nod torpaqlarında məskunlaşdı. Hal hazırda da yerdəki cənnət bağının şərq tərəfləri yuxarı və aşağı Noxt adlanır.

Rəvayətdəki 4 çayın yerini dəqiqləşdirəndən sonra daha bir addım atıb qərbə, cənnət bağına adlamaq qalır. İncil rəvayətinin sonu belədir: "Allah onu Edem bağından qovdu ki, yarandığı torpağı əkib becərsin. Adəmi qovduqdan sonra bağın şərq ayağında geriyə, həyat ağacına yolun qarşısını kəsməkçün alovlu qılıncı və Xeruvimi gözətçi qoydu". Xristianlar totuq, qanadlı mələklərə Xeruvim deyir. Amma kitab dinlərindən əvvəlki mədəniyyətlərdə, Babil, Mesopatamiyada müqəddəs yerləri qorumaqçün vahiməli görkəmli, qanadlı varlıqlara bu adı verirdilər. Britaniya muzeyinə yolunuz düşsə orda müxtəlif çeşidli, qorxunc, bir-birinə bənzəməyən Xeruvimlərin çoxsaylı heykəllərini görə bilərsiniz.

**Adəm - qırmızı torpaq deməkdi**

7 min əvvəl Adəm və Həvvanın məyusluqla tərk etdiyi cənnət bağına şərq qapıları tərəfdən daxil olanda gözümüzün qarşısında Təbriz şəhərinin panoramı canlanar. Bu, əlbəttə ki, cənnət mənzərəsini qəti xatırlatmır. Təbriz vadisini seyr etdikcə anlayırsan ki, cənnət bağı həmişəlik itirilmiş, əldən getmişdir. Müqəddəs kitablarda deyilmişdi ki, Adəm övladları yenidən cənnət bağına bir daha düşə bilməyəcək. Cənnət iri, yöndəmsiz şəhərin altında qaldı. Dağlar arasındakı Kəndivanda daş pillələrlə gəzişməklə sanki minillikləri arxada qoyub ən qədim zamanlara düşürsən. Buraların torpağı da qırmızı, gilli torpaqdı. İnsanın yaranışı əfsanəsinə görə Adəm gilli torpaq və Allahın onu üfürdüyü müqəddəs ruhdan yarandı. Deyilənə görə Adam sözü qırmızı torpaq deməkdir.

Qalır bircə həyat ağacını tapmaq. Cənnət bağının lap mərkəzində ilk insanlara qüvvət verən bu bitkini ciddi-cəhdlə axtarmağa ehtiyac yox. Həmin ağac burda hər yerdə bitir. Mesopatamiyada üzüm meynəsini bildirən söz həm də həyat ağacı mənasını verir. Təbriz üzümünün dadını bilən cənnəti də dadmış sayıla bilər.

***

***"Discovery Channel" kanalının çəkdiyi "Edem axtarışında" filmini seyr etdikcə sanki çox tanış yerlərdə gəzişirsən. Müəllif ocaq ətrafında yerli sakinlərlə oturub həyatın mənasını düşündükcə tamaşaçı ozanın çaldığı melodiyanı eşidib məhrəm intonasiyalara sevinməyə bilməz. Hələ də cənnətdən qovulmamışlar cəhənnəm əzabına baş vuranların xatirəsinə minilliklərdi ki, mahnılar oxuyur: "Mən kül oldum, ay aman, ay aman, yana yana…".***

***…Evləri varmış, xana-xana…***

# Ər yaxşı redaktə edilmiş kişidir

Bu tədqiqatın mövzusu təsadüfən, (üzüm ayağınızın altına) gecə yarısı yarandı. Ərimlə bir-birimizə arxa çevirib yatmazdan əvvəl onun mobil telefonunda bir səs yazısını dinlədik və xeyli güldük. Kişi və qadın söhbətləşirdi və sabahısı günün görüşünü planlaşdırırdı. Qadın arabir kişidən 100 kontur istəyirdi, o isə "sabah maaş alacam, Allah haqqı yoxumdu" deyib başqa, daha koloritli istəklərini səsləndirirdi. Bu yerində öz kişimə uşağın yay çalışmaları üçün müəllimin verdiyi siyahıdan kitabları almaq üçün 20 manat istədiyimi bir daha xatırlatdım. Sonra bir fikir beynimi çaldı, axı mənim də telefonumda cəmi 1 manat qalmışdı. Bunu eşidəndə "Bəsindi" deyib başından eləmişdi. Bu faktı da yerindəcə yadına saldım. Kişim özünü qadınına 100 kontur qıymayan erkəklə müqayisə edib deyəsən bir az utandı.

Səhər güzgünün qabağında gözlədiyim kimi 20 yox, 40 manat üzümə gülürdü. Deməli bu gecə özüm də bilmədən düzgün taktika işlətmişdim. Mütləq tədqiqatları davam edib nəticələri daha da yaxşılaşdırmaq lazım idi. İndi yazdıqlarım isə yüzlərlə qadının təcrübəsindən çıxarılaraq həyat adlı eksperiment bazasında artıq sınaqdan keçirilib. Qadınlar, hazır təlimatları götürüb istifadə edə bilərsiz.

**Gözünüz aydın, evdə kişi əmələ gəlib?!**

Bunun adını ərə getmək də, gəlin köçmək də qoya bilərlər. Amma əslində onun evində qadın yox, sənin həyatında kişi əmələ gəlib. Tərəddüd keçirənlərçün daha bir göstərici də var, çömçə-qazan kimin əlindədirsə evin sahibi də odur. Böyük dövlətlərdə də elədir. Padşah taxtda oturub şöhrət selində şellənən vaxt möhür vəzirin əlindədir, imzalamağa qərarları da o hazırlayır. Bu kişini geyindirib, keçindirib, yuyub təmizləyib, yedizdirib sənə veriblərsə bu o demək deyil ki, həmişə belə qalacaq. Ona qulluq eləmək bir düjün uşağa baxmaqdan çətindir. Özü də evliliyin ilk günlərində onun içində

devriliş, taxtı itirmək qorxusu adlı fobiyalar yaşayır. Bu zamanı sadəcə ötüşdürün getsin. Ardı daha maraqlıdır.

Yeni, təcrübəsiz (əslində bir qədər vəhşi, yonulmamış) ərin yöndəmli hala salınması uşaq böyütmək qədər vacib və lazımlı məsələdir. Bir də ki, uşaq sənin balağından yapışır, kişi isə həmişə yad xalaşkalara və spirtli içkilərə tərəf dartınır. Nəzərə alın ki, ər tərbiyəsində bir balaca boşluq buraxsanız sonrası çətin olur. Çünki artıq yetkin kişini relsə salmaq demək olar ki, mümkünsüz işdir. Bu kişini yanına salıb adam arasına çıxaranda fors eləməkdən ötrü üzün sürən məşqlər keçmək lazımdır.

**Ər tərbiyəsində qaydalar**

Azərbaycanlı kişi sortu tərbiyəyə çətin gəlir, amma mümkündür. İlk günlərdə "evin kişisi" statusuna görə adamı lap divara dırmaşdıra bilərlər. Səbrli olun, bu status əslində onlara qətiyyən lazım deyil, zaman keçdikcə evin böyüyü "xalta"sını boynundan atacaq. Bəzi hallarda onu zorla da bu çərçivəyə salmaq olmur.

Ən birinci və vacib şərt onu yaxşıca yedizdirməkdir. Kişini vaxtı-vaxtında yaxşıca yedizdirmək vacibdir. Onun sortunu nəzərə alın, axı iri və təhlükəli fərddir. Onun da instiktləri var. Bəzi kritik hallarda kişi evə artıq yemək məsələsində pozulmuş şəkildə gəlir. Dönərxanalar, pitsa, lahmacun, cız-bız və xaş s. tamlarla ağız dadı korlanmış kişiləri deyərdim ki, həyata qaytarmaq lazım olur. Belə məqamlarda təzə gəlinin yeməkləri anasının və yeməkxanaların qidası ilə müqayisədə dadlı olmasa mövqeləri uduzmuş sayıla bilər. "Azadlığın" tamını ona unutdurmaq üçün bəzən illər lazım olur. Çünki arabir anasıgilə, dostlarıyla xaşxanaya qaçıb gedir. Məyus olmayın, hara getsə də dolanıb gəlib evdəki şorbadan qaşıqlamalı olacaq. Amma bu şorba qaynananın yeməyini üstələməlidir. Başqa yol yoxdu.

Ev sakinini mütləq təmiz saxlamaq lazımdı. Kişini yuyunmağa, daranmağa, dırnaqları qırxmağa, stomatoloq yanına getməyə nə qədər tez öyrətsəz, həyat bir o qədər də işıqlı olar. Əgər o, artıq bu mərhələləri evində

keçibsə sizin qayınanaya bir qucaq rəhmət düşür, hələ sağlığında. Kişinin ciddi sapmaları olmadığında əmin olduqdan sonra ona ömürlük "mənim ərim" statusunu vermək qərarında əminsizsə onun eksteryeri, yəni xarici görünüşüylə də məşğul olmağa dəyər. Bu məsələdə ağını çıxarmamaq vacibdi. Bilin ki, başqa qadınların da gözü sərrastdır, çox təmiz görünsə qamarlaya da bilərlər.

**Qamçı və pivə taktikası**

Kişi adlanan insan sortuna fiziki iş vermək vacibdi. Onun sola qaçmaq istəyinə, arabir sürüşkənlik etməyinə bir qədər göz yummaq olar. Yoxsa kökəlib hədəqəsindən çıxacaq. Qorxmayın, həmişəlik gedən deyil. Axı maddi bağlılıq, evdəki divana mehr salma, uşaqlara öyrəşmə kimi "boyunduruqları" hələ heç kim qadağan etməyib. Sağa-sola qaçan deyilsə onda fiziki formanı saxlamaq xətrinə arabir mebelin yerini dəyişməyi, təmir, bağda torpaq belləmək kimi "vacib" məsələləri boynuna yıxırsız. Kişinin bu yolla nəfəsini kəsmək savabdır. Amma qarşı tərəf bu işləri səssiz səmirsiz, davasız görərsə onu mütləq tərifləmək lazımdı. Sevdiyi şeylərlə ürəyini almaq, sığallamaq. Müasir qadınlar buna qamçı və pivə taktikası deyir. Hər bir kişinin divanda yayxanıb pivə içmək hüququ olmalıdır! Bu məqamda o nirvanaya çatır deyən onu bezdirmək də olmaz. Kişinin canı suludursa ona him-cim eləmək, uşaqlardan yayınıb guya ki, təsadüfən sürtünmək də olar. Evlilik stajı böyük olanların "Yaxşı, ova (balıq tutmağa, çayxanaya, saunaya, futbola) gedə bilərsən" kimi mükafatlara hüququ çatır, bunu da unutmayaq. Amma saunaya göndərərkən "Bax aaa, orda özünü yaxşı apar ha" təlimatını da xatırlatma etmək mütləqdir. Qoy bilsin.

Kişini cəzalandırmaq qərarına gəlmisizsə onu qeyri müəyyən müddətə təxirə salmaq olmaz. Yoxsa ki, o, bunun mənasını anlamayacaq. Elə biləcək ki, plandan kənar kaprizdir. Kaprizləri də məhdudlaşdırmaq gərginlik yaradır. Mütləq nəsə deyib sancmaq bəzən həyatın rənglərini geri qaytara bilir. Eybi

yox, kişi səbəbini anlamayacaq, amma əhvalınız düzələcək. Kişiyə əl qaldırmağı heç ağlınıza gətirməyin, cavabını verəcək. Hətta ən intelligent kişi bir dənə yaxşı yumruq tutuzdura bilər. Göz yaşlarının da şitini çıxarmaq olmaz. Onu ən çıxılmaz vəziyyətlərə saxlayın. Buna dözə bilən kişini çıraqla axtarırlar ki, heykəlini yapıb hər tinbaşı qoysunlar.

Gözünü televizora dikib mürgüləyən kişiylə də arabir danışmaq lazımdı. Əlbəttə, o sizin dediklərindən bir şey anlamaycaq. Amma sakit, xeyirxah tonu hər bir kişi anlayır. Bir də ki, söhbətləşməsəz bir neçə ildən sonra dil tapa bilməyəcəksiz. Təcrübəli qadın kişinin susmaq tonundan onun bu gün bir fəsadlı hadisə törədib törətməməsini də bilə bilir. Bəziləri sükutun tonundan maaşın hansı cibdə gizlədildiyini də öyrənir.

Evin ağırlığını, yır-yığışını, azuqə tədarükünü, məsuliyyətini üstünüzdə daşısanız da heç vaxt mənim evim sözünü dilinizə gətirməyin. Bizim evimiz, bizim məişətimiz, bizim uşaqlarımız deyin, siyasi səhvlərə yol verməyin. Mənim ərim sözünü onu bayıra çıxaranda deməyə yarayır. Orda hamı kişinin nə dərəcədə əhilləşdiyini görür. Axı bəzən kişilər özünü bayırda tərbiysiz uşaq kimi aparmağı başlayır. Belə olanda hamı gülümsəyərək onun həyat yoldaşına qınaq dolu baxışlar bəxş edir.

**Bivec, fərsiz kişi də kişidir!**

Həyatınızda kişi əmələ gələn kimi o, ən əvvəl evin bir küncünü zəbt edəcək. Buna təbii hadisə kimi baxın. Həmin küncdə kompüter hissələri qalağı, balıqçı tilovu, lazımsız kolleksiyalar, bəzi çətin hallarda oyuncaq maşın və qalay əsgərciklər qoşunu yerləşdirilə bilər. Axı o bilir ki, evin strateji nöqtələri, mətbəx, yataq otağı artıq zəbt edilib. Ona görə mərhəmətli olub ona öz "oyuncaqları" ilə oynamaq imkanı yaradın. Qocalanda onu zir-zibili ilə birgə qaraja, ya da bağa göndərərsiz.

Evdə hakimiyyəti ələ keçirəndən sonra vahid lider kimi onun gözünü daim məşğul etmək lazımdır. Onun iş masasında mütləq ən gözəl fotonuz

dayanmalıdır. Maşından düşəndə bir gün şərfi (özü də yaxşıca ətirlənmiş), bir gün iş qovluğunu, bir gün telefonu unutmaq olar. O sizi nəinki intim zamanı, evin içində də daima hiss eləməlidi. Evdə darısqallıq olanda sürtüşməyə bəhanə axtarmaq lazım olmur. Kişini daim yanında saxlamaq bacarığını hələ təkmilləşdirməmisizsə onunla kurorta getməyin riskli addım olduğunu bilin. Onu bir göz qırpımında çırpışdırarlar.

Kişilər anadangəlmə işləmək instikt ilə doğulur. Hətta cinssiz kişi növləri də saat 9-dan 18-ə qədər başını necəsə girləyə bilirlər. Amma bu məsələdə kişinin biologiyasına arxayın olmaq olmaz. Bəzən kişilər işə pul xətrinə deyil, elə iş xətrinə, evdən çıxmaq xətrinə, bəzən daha da pis, yaradıcılıq xətrinə gedirlər. Onu hər gün evə əli dolu gələn qonşu kişiylə müqayisə edib cinləndirmək də humanist addım deyil. Bivec, fərsiz kişi də necə olmasa da yenə də kişidir də...

Bəziləri səhvən kişinin ovçuluq, şikarı mağaraya daşıma istəyinin anadangəlmə olduğunu düşünür. Həyat göstərir ki, kişini özbaşına qoysan qazancın böyük hissəsini öz "oyunlarına", maraqlarına sərf edə bilər. "Evə gətir" komandasını təkmilləşdirmək, cilalamaq yalnız dahiyanə qadınların görünməyən titanik işinin nəticəsidir. Axı kişini başlı-başına qoysan qazandığını başqa evə də daşıya bilər... Kişinin evdən qaçdığı hallar artıb son illərdə. Bu qadınların buraxdığı səhvlərin nəticəsidir. Axı uzun illərin zəhmətini artıq hazır olandan sonra başqasına necə vermək olar? Burda varidatını geri almaq qaydaları artıq işə düşür. Kimінçünsə kişini geri almaq Qarabağı almaq qədər mürəkkəb görünür. Belə olmamaq üçün ipin ucunu bəri başdan qısa eləmək lazımdı. Kiminsə yanında yaxşı kişi varsa bilin, bu böyük zəhmətin bəhrəsidir.

**Qafqaz kişisi öz ərazilərini qorumağı sevir**

Əgər sənin yetirməni saxlayacaq akvariumun, şəxsiyyət vəsiqən varsa və həyatında xoşbəxtlik çatışmırsa deməli özünə bir hobbi tapmalısan. Məsələn, evlənib kişi saxlaya bilərsən.

Bizdə əksinəsini deyirlər, guya kişi arvadını saxlayır. Mənə deyin görüm, arvadını lazımi qaydada saxlayan kişini axırıncı dəfə nə vaxt görmüsüz? Bu kişini tapmaq əslində çox böyük və vacib məsələdi. Çünki onların cins növləri ələ düşmür, düşsə də akvarium şəraitində yetişmir və nəsil vermir. Qızlar, kişini nə badə küçədən, avtobusdan, qonşuluqda kirayə qalan zirzəmidən götürməyəsiz. Onun gözünün içinə baxıb küçə itlərində olan yalvarışlı ifadəyə də uymayın. Əlbəttə, analıq instinkti ac, yazıq, tənha kişini yedizdirib sinənə basmağı vadar edə bilər. Amma sonunda ondan nə alınacağını kimsə bilmir. Dədə-baba qaydasıyla elçi gələndə sən onun ailəsini masa arxasında, söhbət eləyərkən görürsən. Bilin ki, evdə böyüməyən kişiləri sonra nə qədər abıra salsan da gözü həmişə çöldə olur və evə zöhrəvi xəstəliklərdən tutmuş zərərverici həşəratlara qədər hamısını daşıyıb gətirirlər.

Rusiya mətbuatında qafqazlı kişi növü barədə sonsuz sayda tədqiqat və araşdırmalar var. Çünki rus qadınları əlacsızdıqdan bu kişi növünə möhtac qalıblar. Onlar deyir ki, qafqazlı kişi yaxşı cinsdir və öz ərazilərini qorumağı sevir. Onun ərazisinə nə girən, nə də ordan çıxan olur. Yəqin bu məsələ də azadlıqsevən rus qadınlarını məyus edir. Onlar bu qafqazlı kişi cinsini ev şəraitinə heç cür öyrədə bilmədilər. Çünki onların azadlıq sevən ruhunu öldürən kimi deyingən, ağzının şorbasını tökən vecsiz kişiyə çevrildiyini indi onlar da bilir. Biz bunu minilliklərdir ki, bilirdik və kişilərimizi sağlam saxlayırıq, nəfəsini kəsmirik. Kişini gəzməkçün, adam arasına çıxarmaqçün seçirsizsə bilin, o, evdə bir işə yaramayacaq. Gəzməyə çaxanda hər dəfə onu özünüzlə aparmaq vacib deyil, onun bir hissəsini, yəni pul kisəsini aparmaq bəs edər.

**Necə edəsən ki, kişi çirkli corablarını hara gəldi tullamasın?**

Nəzərə alın ki, lap əhilləşmiş kişinin də səbrinin qurtardığı bir gün var. Onun gözünü yağlı balaq xalatlar, kirli önlüklər, 100 il əvvəl dəbdən düşmüş geyim, səliqəsiz görkəm, xiyar dilimlərindən maska və s. şeylərlə sonsuzluğa qədər sınamaq olmaz. Qadın yaxşı nəticə istəyirsə sirk tamaşasındakı kimi

həmişə parlaq kostyumda, ya da toreador kimi əlində qırmızı plaşla olmalıdır. Başqa dekora kişilər reaksiya vermir, əfsuslar.

Ən çatini təzə-təzə kişinin qazancını evə gətirməyə öyrətməkdi. O, pulunu gah bir kostyumun cibinə, ya hansısa kitabın arasına qoyub gizlətmək cəhdlərini mütləq edəcək. Onun anadangəlmə instinktini yumşaq tonla bir qədər yatızdırmaq olur. İlk günlər evə az da olsa nəsə gətirdiyinə görə tərifləyin. Sonra o, bu tərifin badına bütün həyatını verə bilər. Kişilərə həsr edilmiş tədqiqatların içində onu səliqəyə öyrətməyə minlərlə səhifələr sərf edilib. Hamı "Necə edəsən ki, kişi çirkli corablarını hara gəldi tullamasın?" sualı üzərində baş sındırır. Bəzi qəddar qadınlar deyir ki, iyli corabı onun balışı üstünə qoyub otaqdan çıxmaq ən yaxşı üsuldur. Amma biz, Azərbaycan qadınları belə radikal üsulları sevmirik. Qərar verin, sizə evdə kişi lazımdı, ya yox? Ona görə də eksperimentlərlə ehtiyatlı olmağımız lazım. Sizin axı seçiminiz də var: ya hər gün çirkli corabları yığışdırırsız, ya da axşamlar türk seriallarına, tok şoulara təklikdə baxıb yatmazdan əvvəl başağrısı dərmanı içirsiz. Nəzərə alın ki, vaxt vardı "Başım ağrayır" deyib naz edə bilirdiz…

Kişiyə azadlıq vermək lazımdı, amma məhdud ərazilərdə. Stadionda, idman klubunda, eybi yox, barda, çayxanada. Başqa ərazilərdə əl-ayağını dinc saxlasın. Yoxsa ki, o da küçədən evə zil-zibil daşıyacaq: kiminsə unutduğu qadını, kiminsə sevmədiyi sarışını, QİÇS-i, qonoreyanı, trixomonosu …

***

Kişinin əhilləşmə məsələsinin bir əsas prinsipi var: Onun kimi düşün! Biz qadınlar uzaq nişangahlara köklənib plan qururuq. Allah kişiyə enerji və ağıl versə də o, varidatının əsas hissəsini yemək və cismani ləzzət instinktinə qurban verir. Ona görə də kişiyə bütün həyatını etibar etmək uşağa evin dolanışığını tapşırmağa bərabərdir. Bir də ki, sənə ətrafdan 100 göz baxır. Yaxşı qulluq görmüş kişi o saat seçilir. Hamı bilir ki, bu qadının başucalığıdır.

Kişisinə baxmayan qadın uşağını zibilliyə atmış ana kimidir. Onu anlamaq olar, amma bağışlamaq yox. Bir də ki, "Sən hamıdan yaxşısan!"ı tez-tez desək dilimiz qurumaz ki...

## Dahiliyin seksual cazibəsi

*Alimlər qadınların dahilərə marağının səbəbini tapıblar*

*"Mənim balacam, həyatda cəmi iki işlə məşğul olmağın mənası var: elm və əxlaqsızlıq. Kitablar bizə kişilərin verə biləcəyi, abırsız nəvazişlər isə qadınlardan gözləyə biləcəyimiz ən yaxşı şeydir"*

Ağıllı kişilərdən kimsə deyib ki, "Dahi uzun saç gəzdirib, əlinə keçəni yeyən və özünü camaata güldürən insana deyilir". Amma qadınların əksəriyyəti belə düşünmür və çox vaxt pinti görkəminə baxmayaraq yanılmadan adi kişini dahidən ayıra bilir. Mifologiyada, əfsanələrdə, nağıllarda anaların öz qızını qəhrəmanın yanına gətirməyi barədə çox oxuya bilərik. Bircəcik görüşün məqsədi ondan uşaq doğmaqdır. Qəribə səslənir, elə bil ətrafda kişilərin hamısı ölüb?! Markezin "100 il tənhalıqda" əsərinin qəhrəmanı Aureliano Buendia şöhrətin zirvəsini yaşayanda yanına gətirilən qızların sayını itirmişdi. Nəticədə vaxtaşırı ona bənzəyən bir oğlan uşağı doğulurdu və 8 uşaq atası kimi Aureliano adlandırılırdı. Əlbəttə, səhnəmizdə əcnəbi ulduzların çıxışı zamanı saçını yolan qızların cəhdlərini anlamaq çox çətindir. Amma buna kütləvi psixoz da demək olmaz. Hər şeyin çox sadə izahı var.

**İntellektual kişi hər şeyə yarayır**

Hamı yanındakı kişini Hollivud aktyoru görkəmində və Nobel mükafatı laureatı statusunda görmək istərdi. Amma beləlari çox nadir hallardı rast gəlinir deyə qadın ömrünü bu "fiks ideya"ya sərf eləyə bilməz. Ona görə də

qadınlar həyatda seçim qarşısında qalıb əziyyət çəkirlər: bilmirlər daha gözəlini, yoxsa daha ağıllısını seçsinlər. Həyat göstərir ki, çoxları birinci varianta üstünlük verir. Yüksək intellektli kişini ər kimi görmək istəyənlərdən başqa əksəriyyəti onları daha çox ötəri əlaqələrdə personaj və məşuq rolunda təsəvvür eləyir. Qadınlar daimi münasibətlərdən danışırsa ailənin qayğısına qalmaq məqsədilə ağla üstünlük verir. Yəni ki, ağıllı kişi ailəsini dolandırmağın yolunu tapar. Bir də ki, ağıllı atadan olan uşaqlar atalarına çəkərlərsə heç olmasa 50 faiz ağıllı doğulmaq şansı var.

Soruşa bilərsiz, “Bəs qısa seksdə, gələcəyi olmayan münasibətlərdə kişinin ağıllı olması nəyə lazımdı ki?”. Axı qadın təsadüfi münasibətlərdə parlaq intim təəssürat axtarır. Bu məsələlərdə isə bilirsiz ki, beynin əqli imkanı o qədər də önəmi faktor deyil. Buna baxmayaraq qadının seçmə imkanı olsa heç vaxt intellegenti qoyub debili seçməz. Hətta bilsə ki, seçmədiyi yorulmaz seks maşınıdır. Niyə?

**Açılmaz sirlərdən biri**

Tapmacanın açmasını Nyu Meksika Universitetinin psixoloqu Joffrey Miller deyəsən tapıb. Daha doğrusu qadınların ağıllı kişilərə olan marağının bioloji əsaslarını ortaya çıxarıb. Alim yeni təcrübələr qoymadan artıq aparılmış müşahidələrin nəticələrini bir daha araşdırıb. 1985-ci ildə həkimlər Vyetnam müharibəsinin veteranlarını öyrənəndə onlar kişilik toxumu və intellekt testlərini vermişdilər. Məlum olmuşdu ki, kişinin nəsil vermə aktivliyi onun intellekti ilə tam mütənasibdir. Alimlər hətta deyir ki, intellekt və reprodiktiv qabiliyyətə görə eyni genin cavabdeh olduğunu öyrənsələr heç təəccüblənməzlər. Ona görə də fərz olunur ki, qadın şüuraltı səviyyədə partnyorunu dəyərləndirəndə onun yaxşı nəsil vermə qabiliyyətini də müəyyən eləyə bilir. Çox güman ki, qadınlar bunu evolyusiyanın çağdaş vaxtlarında insanların yaşama instinkti nəsil vermədən asılı olan zamanlarda öyrəniblər. Düzdür bu kamil mexanizmin əldə olunması bəşəriyyətin açılmaz sirlərindən biri kimi qalır.

**Obrazların həyatını yaşayarkən**

Bəlkə dahilərin yaratdıqları obrazlar oxucusunun, dinləyicisinin ürəyinə girir deyə personasına marağı artırır? Şekspir və Evripidin obrazlar qalereyasına baxaq. Sonsuz sayda rəngarəng obrazları yaratmaqçün həmin obrazı tanıyıb bilmək lazımdı ki, onun düşüncələrindən, psixoloji sarsıntılarından yazmaq olsun. İnsanı anlamaq onu içində gəzdirmək deməkdir. Höte deyib ki, günah və cinayətlərin içində onun anlaya bilməyəcəyi, ya da meyl eləmədiyi bir şey çətin ki, tapılar. Ehtirasdan qətllərin motivlərini çox yaxşı başa düşən Emil Zolya özü heç vaxt belə qətllərə qol qoymazdı. Çünki içində bundan əlavə başqa keyfiyyətlər də var. Dahi insan daha mürəkkəb və daha çoxşaxəlidir. Şekspirin qadınları onunla birgə Falstafın şitliyini, Yaqonun alçaqlığını, Kalibanın kobudluğunu da sevməli olur. Bu bucaq altında baxanda dahi şəxsiyyətlərin həyatındakı ən alçaq və ən güclü ehtiraslarının səbəbini anlamaq olar. Bunu onların bioqrafiyaları təsdiqləyir.

Bir neçə il əvvəl Rusiya televiziya kanallarında seksual cazibəsiylə seçilən bakılı akademik Landau (Bakının suyunu içib, ona görə) haqqında çəkilmiş film böyük diskussiyalar doğurub. Filmə inansaq Landau hətta xəstəxanada yarıhuşlu vəziyyətdə, hətta ayın tarixlərini unutduğu vaxtlarda belə şəfqət bacılarını yanından narazı buraxmayıbmış. Landaunun arıq, çəlimsiz bədəni, yoxsa burnunun ucundan o yana görməyən xırda gözləri onları cəlb eləmişdi?

**Bəşəriyyətin genetik potensialı nə yerdədir?**

Amerikalı jurnalist Devid Plots 28 il əvvəl başlamış layihənin nəticələrini yekunlaşdırıb. Təcrübə Nobel mükafatı laureatları və gözəl qadınlardan süni mayalanma yoluyla fölqəlağıllı uşaqların doğulmasını nəzərdə tuturdu. Layihənin əsas ideoloqu plastik linzaların satışıyla varlanmış multimilyoner Robert Qrexem layihənin nəticələrində heç şübhə də eləmirdi. Nobelçiləri

yola gətirmək kimi ən çətin işi də o özü görmüşdü. Qiymətli kolbaları əldə ediləndən sonra 1980-ci ildə 29 fevralda qəzetlər "Bəşəriyyətin genetik potensialının zənginləşməsi layihəsi" adı altında material çap elədi. Donorların anonimliyi saxlanırmış deyən nobelçilərin nə qədər olması dəqiq məlum deyil. Amma jurnalist Devid Plots 3 namizədin taleyini dəqiq öyrənib. 1999-cu ildə ideya müəllifinin ölümü ilə əlaqədar bu bank dağıldı. Bu illər ərzində 200-ə qədər uşaq artıq doğulmuşdu. Onlardan heç kim dahi şəxsiyyət ola bilmədi. Yalnız biri Doron Bleyk ümidverici uşaq kimi böyüyürdü. O, 2 yaşında kompüterdən istifadə eləyir, 3 yaşında Şekspiri oxuyur, yeniyetməlikdə isə intellekt testi 180 bal idi (adi adamlarda bu göstərici 100 bal orta nəticə götürülür). Amma o da böyüyən kimi oxumağın daşını atarak hippiliyə aludə olub, spiritizmlə məşğul oldu. Görünür ki, ideya tamamilə iflasa uğramışdı. Bu yerində Bernard Şou və məşhur balerina Aysedora Dunkan arasında olan dialoqu yada salmaq yerinə düşərdi. Balerinə yazıçıya dünyaya uşaq gətirməyi təklif eləyir: "Təsəvvür edirsiz, o mənim bədənim və sizin ağlınızı daşıyacaq". Şou cavab verir: "Birdən onda mənim ayaqlarım və sizin ağlınız olsa necə olar?". Bəlkə gözəl yox, ağıllı qadınları mayalandırmaq lazım idi? Bəlkə dahilər doğurmaqçün daha nələrsə lazımdır? Bu sualların cavabını bəşəriyyət hələ ki, bilmir...

**Sublimasiya - hisslərin qarşısında çəkilmiş bənd**

Sublimasiya (yəni seksual enerjinin başqa istiqamətə yönəldilməsi) adlı termini gündəmə psixoanalizin atası Freyd gətirib. O, təkid eləyirdi ki, insan hər şeyi seks xətrinə edir. Həyat haqqında məşhur ifadəni dəyişdirib freydsayağı "Həyatda yeganə məmnunluq hissi yalnız yaxşı seksdən sonra olur" kimi də deyə bilərik. Freyd cinsi instinktlərdən qaynaqlanan enerjinin əsas olduğunu təkid eləyərək bəşəriyyətin stimulu olduğunu deyir.

Təbiət bizə hisslərlə bərabər kimyəvi laboratoriya da verib. Ayrılıqda tamamilə zərərsiz olan elementlər birləşsə zəhər yarada bilər. Bu kimyəvi

prosesləri işə salan emosiyalar da həmin elementlərdən insanı dahiyə, təkrarsız, sehrli insana, eləcə də ehtirasdan və qısqanclıqdan yanan vəhşiyə də çevirə bilər. Seksual hisslər bəzi təsvirəgəlməz hallara gətirir. Amma bəzi nadan insanlar bunu nəfsin diqtəsi, şəhvətlə səhv salırlar. Bu hissin diqtəsilə insan təxəyyül, inadkarlıq, görünməmiş yaradıcı imkanlarını inkişaf etdirə bilər. Duyğular insanı o qədər qəsb eləyə bilər ki, o, cəmiyyətdə yeri, reputasiyası ilə risk eləyər. Onları cilovlayb istiqamətləndirməyi bacarmayanlar əsir düşmək riskini yaşayır. Amma duyğularını cilovlamaq yoluyla açılmış yaradıcılıq qabiliyyəti ədəbiyyat, təsviri sənət, musiqi, hətta biznesdə də fantastik nəticələrə gətirir. Bunu bir növ sürətlə axan çayın qadağanı bəndlə kəsib süni göl yaratmağa bənzətmək olar. Amma burdakı su da nə vaxtsa axıb çıxmalıdır. Yenə də alimlərə inansaq cəmiyyətdə ən yaxşı nəticələri seksual instinkləri yaxşı inkişaf edilmiş insanlar əldə eləyir. Dünyada milyoner olmuş, ədəbiyyat, memarlıq, hətta sənayedə geniş populyarlıq qazanmış fərdlər həm də sevgi olimpinin zirvəsindədirlər. Bunu 2 min il ərzində tədqiq edilmiş tarix kəsiyi də sübut eləyər. Söhbət parlaq şəxsiyyətdən gedirsə, istər qadın, istər kişi olsun, dahi nailiyyətlər həm də duyğuların da yüksək səviyyəsindən danışır. Bunu hər kəs öz üzərində də yoxlaya bilər, əlbəttə sizi iflic vurmayıbsa…

**O dünyanın yolu**

Ağlı başında olan insan mütləq soruşar ki, bəs dahi şəxsə ortabab insanlarla münasibətin nəyi maraqlı ola bilər? Seks vasitəsilə sıravi insanların əli çatmayan bilikləri necə əldə eləmək olar?

Hamı bilir ki, insanda altıncı duyğu var. Buna təxəyyül də demək olar. Bəziləri ömrünün sonuna kimi bunun nə olduğunu bilməyib, heç dadına da baxmayıblar. Təxəyyülünü işlətməyi bacaranlara dahi və istedadlı insanlar deyirik. Təsəvvür, xəyal, təxəyyül Ali Şüur və fani insan arasında birbaşa çəkilmiş yoldur. Bu yol həm də başqa insanların bacarıqları və fikirlərinə,

onların topladıqları informasiya bankına yol açır. Altıncı duyğu adi insanı dahi şəxsiyyətdən ayıra bilən sərhəddir.

**Dünyanı hisslər idarə edir**

Tarix dahi insanlara qadının heyranedici təsirinə nümunələrlə doludur. Nə qədər ki, Napaleon Bonopart Jozefinasının sevgisilə yaşayırdı (paralel olaraq qadının kimləsə sevişməsi də ona maneə deyildi) o, məğlubedilməz idi. Jozefinadan ayrılan kimi onun günəşi qüruba doğru getdi. Təbiətcə çox seksual sayılanların içində Corc Vaşinqton, Uilyam Şekspir, Endryü Cekson, Enriko Karuzo da var. Onları çox seksual şəxslər kimi tanıyırlar. Təbii ki, bu artıq sublimasiyada süzgəcindən keçmiş seksual enerjidir. Tulus Lotrekin eybəcərliyi ona qadın kolleksioneri olmağa maneə deyildi. Balzak isə axsaqlığını gizləməkçün yerimək əvəzinə qaçırdı. Onun qadınlarının sayını hələ ki, dəqiq bilən yoxdu. Tosqun, buruqsaç, Dümanın qadınlarını kitablarıyla eyni sayda bilirlər. Təxminən 600-dən yuxarı. Onları heç maraqlandırmırdı ki, Dümanın damarlarında həbəş qanı axır. Bu siyahını daha böyük və daha geniş eləmək olardı. Amma siz bəşəriyyət tarixində irəli çıxmış bir şəxs göstərə bilməzsiz ki, seksual imkanları çox aşağı olsun. Seçilmişlərin içində bir nəfər də impotent tapmaq mümkün deyil.

Kim nə deyir, desin, dünyanı insan hissləri idarə eləyir. İnsan şüuru həmişə kənardan təsirə ehtiyac duyur. Hər yeni tapıntının başında bir sevgi macərası, hər ixtiranın özəyində yaşanmış real əhvalat dayanır. İnsan sevgidən, duyğulardan sərxoş ola bilir. İnsan nə dahi olmaq iddiasından, nə də seksdən əl çəkə bilir. Bizdə bu barədə danışmağı sevmirlər. Yəqin hamı hiss eləyir ki, danışası mövzu deyil, ya da ayıbdır. Rəşid Behbudovun qadınsevərliyini pis keyfiyyət kimi qələmə vermək, ya da Üzeyir bəyin həyatsevərliyini pis yozub gizli saxlamaq da bizə başucalığı gətirməz. Yəqin bu mövzuda sakit, təmkinli və bir qədər də yumorla danışmağı biz hələ çox öyrənməli olacağıq. Amma biləsiz, ağzı açmadan dişləri müalicə eləmək mümkün olmayacaq.

# 12 qəddar həqiqət

*Onlar sizə bir qədər daha yaxşı olmağa kömək edər*

Müasir zamanda İnternet inkişaf etdikcə, sosial şəbəkədə paylaşmalar artdıqca, yazdığın sözü, dediyin kəlməni bir andaca dünyanın o biri başına çatdıran proqramlar çoxaldıqca informasiya əldə etmək bir fincan çay süzüb içmək qədər asan olub. Bəzən informasiya selinin altında əsil həyati həqiqətləri itirmək təhlükəsi də yaranır. Bəzən bir kitab oxuyursan, amma sonra ordan bir cümlə də xatırlaya bilmirsən. Həmin cümləni aforizmləri yığıb paylaşan saytda bir daha gördükdə xatırlayıb barmağını dişləyirsən. Həyat kitabının da aforizmlərini beləcə toplayıb qarşımıza qoyan olaydı! Burda yazılanlara müəlliflik iddiam yoxdu. Çünki onları İnternet adlı böyük bir informasiya okeanında tor atıb balıq kimi tutub çıxarmışam.

Keçmiş həyatınıza ötəri bir nəzər salsaz xatırlayarsız, elə olub ki, sizinçün daha yaxşı olacağını düşündüyünüz bir məqsədə can atdığınız zaman yolunuzu nəsə kəsib və tamamilə başqa səmtə yönəldilmisiz. Sonunda hər şey həqiqətən də yaxşı sonluqla bitib. Axı hər kəs bütün Kainatı nəzarət altında saxlaya bilməz. Nəinki Kainatı, hətta öz həyatını və taleyini də. Bəzən sadəcə rahatlaşıb hər şeyin yaxşı sonluqla bitəcəyinə inanmaq lazımdı. Həyatın yüyənini boş buraxıb hər şeyə öz yoluyla irəliləmək şansı vermək vacibdi. Ola bilər, dəyişə bilməyəcəyiniz məqamlar sizə bir qədər yaxşı olmağa imkan yaradacaq. İnsanlarsa yaxşı olmaq imkanını əldən verməz.

**1. Hər şey yaxşılığa doğru olur**

Bəzən ən faciəvi, stress yaşadacaq anlar axır nəticədə bizə çox yaxşı bir həyat dərsi keçir. Bu dərsi heç kim öz xoşuna öyrənməzdi. Bir xatırla, yəqin ki, həyatında elə məqamlar olub ki, hər şeyin param-parça olduğunu düşünmüsən, "Bu sondur!" deyib başını əllərinin içində tutub ardını

yaşamağın mümkünsüzlüyünü fikirləşmisən. Amma əslində hər şey yaxşılığa doğru olub, elə deyilmi? Üstündən bir qədər keçdikdən sonra bunu etiraf etmək də olar.

**2. Arzular da qocalır, zirək ol**

Həyatda itirəcəyin bir şeyləri xatırlaya bilmirsənsə onda həyatın mənasını axtarmaqda davam etsən yaxşıdı. İlk dəfə itki ağrısını çəkəndən sonra arzuladığın həyata tərəf ilk addımı atmış olursan. Bu istiqamətdə ikinci addım odur ki, "mən belə yaşamaq istəmirəm və həyatımı köklü surətdə dəyişməliyəm" fikirləşirsən. Həyatı dəyişmək insan üçün çox qorxulu məqamdır. Amma bunu bilən hər kəs onu da bilir ki, sonradan peşmançılıq çəkmək qorxusu da var. Ardınca hərəkət olmayacaqsa arzular əbədi olaraq arzu statusunu dəyişməmiş qocalır. Arzusuz hərəkətsə vahimə doğurur. Öz yolunu tapmağa adama həm ürək, həm də cəsarət gərəkdi. Divin yatağında gecələməyə razı olmuş Cırtdan kimi, Təpəgözün yeganə gözünə nizə batırmaq qərarı vermiş Məlikməmməd kimi içindəki nəhəngi oyat.

**3. Ağrısız dəyişikliklər olmur**

Yalnız böyük ağrı, zərbə adama bütün potensialını açmaq imkanı yaradır. Bu dəhşətli, stress dolu bir seçim son nəticədə məqsədəuyğun nəticə verir. Ağrısız dəyişikliklər olmur. Amma bir xatırlatmanı da dinlə, ağrını ondan xeyir götürəcək qədər yaxına buraxmaq lazımdı. Sonra mütləq ondan qurtulmalısan.

**4. İrəli, yoxsa geri?**

Həyatda ən çətin seçim odur ki, nə vaxt geri çəkilməli, nə vaxtsa hücuma keçməli olduğunu dəqiq biləsən. Bunlar arasında düzgün seçim ölüm-dirim məsələsidir, ən azı. Bir var kimisə dəyişdirmək istəyəsən, bir də var səni dəyişdirmək istəyəndən qorunasan, arada prinsipial fərq var. Amma növbəti arzunun uğrunda ova çıxmısansa deməli daha bir addım atmaq lazımdı. Bu

addım arzudan uzaqlaşdıra da bilər, onu reallaşacaq qədər yaxın da edə bilər. Hər şey olur. Ola bilər bir arzunun ovuna çıxan zaman yeni arzu əmələ gəlib yerdə qalanlarını süpürüb bir kənara atdı. Belə anda əli qoynunda dayanıb durmazlar ki…

**5. Öz dostun ol!**

Ən əvvəl özünü düşün, özünün qeydinə qal. Bu dünya səninçün yaradıldı. Başqalarının dostu olmamışdan əvvəl gərək özünün dostun olasan. Başqasını dəyişməmişdən əvvəl özünü dəyişdirməlisən. Başqalarını xoşbəxt etməmişdən əvvəl özün xoşbəxt olmalısan. Buna xudbinlik, özünə vurğunluq, eqoizm deməzlər. Bunun başqa bir adı da var: fərdi inkişaf proqramı. Özünə gücü çatmayan adamın bu boyda dünyaya gücü çatarmı? Özünü tənzimləməmiş insan ətrafındakı mühiti tənzimləməyə çırmalana bilər? Əslində özünü, fikirlərini səliqəyə salan kimi ətraf dünya da sahmana düşür.

**6. Ətraf dünya sadəcə dekorasiyadır**

Dünyanın ən böyük azadlığı odur ki, ətrafındakıların sənin barəndə nə düşündüyünü vecinə almayasan. Nə qədər ki, ətrafdakıların fikri səni narahat edir, onların rəyi səninçün vacibdirsə sən onlara məxsussan. Ətrafdakıların rəyindən qurtulduğunuz an, onların fikrini ürəyinə salacaq qədər həssas olmaya bilsən onda özünə məxsussan və bu mövzuda təbrikləri qəbul etməyə hazırlaş.

**7. Təklik tənhalıq deyil**

Ola bilər, sənə bir qədər tənhalıqda olmaq gərəkdir. Yalnız bu sakitçiliyi yaşayandan sonra anladın ki, tək olmaq heç də tənha olmaq demək deyil. Ola bilər yaşantındakı mənfi olaylar zamanı müştərək məsuliyyət daşıdıqda belə mənfi və müsbət arasında bölgü düzgün aparılmayıb və xeyrinizə olmayıb. Təklikdə özünə əminliyi qaytarmaq daha tez başa gəlir. Bəlkə təklik münaqişənin müsbət həllinin daha bir neçə variantını ortaya çıxaracaq,

bilmək olmaz. İnanmazsan, amma içini partladan sualların cavablarına malik olmaq əminliyi səni dünyanın ağlagəlməz mal-dövlətinə malik olanlardan daha xoşbəxt edə bilər.

**8. Göy qurşağını sevirsənsə yağışa dözməlisən**

Həyatın yaradıcısı sən deyilsən və ona nəzarət etmək qüdrətində ola bilməzsən. Amma sənin hakimiyyətinə bəzi məsələlər verilib, məsələn, göz qarşısında olanlara reaksiya vermək azadlığı. Şəraitə uyğunlaşmaq nə qədər rahat olarsa həyat ritmi də o qədər nizamlı gedər. Həyat maksimumları çoxaldıqca minimumların zərbələrindən sonra ayağa qalxmaq daha rahatdı. Dünya ilə yola getmək bu dəqiqə, bu an, elə bu yerdəcə baş verən pisli-yaxşılı bütün hadisələri qəbul etmək müdrikliyi deməkdir. Elə adam var ki, səhər durub havanın yağışlı olmasından saatlarca deyinə bilər. Sən ki, bu qədər sadəlövh olub buna görə əhvalını pozmazsan ki. Elə bu an kimsə yağışın altında islanmağından uşaq kimi sevinir bəlkə…

**9. Sənə yalanlar deyəcəklər!**

Yalanlar qarşıma çıxmayacaq – deməyin. Atalar məsəli var, üzünə duran düşmən yalan deyən dostdan min dəfə yaxşıdı. İnsanların dediyinə qulaq vermək adətini də yığışdırın. Onların əməllərinə baxın. Əməllər bütün həqiqəti açacaq qədər qüdrətli göstərici ola bilir. Yalanı doğrudan ayırmağı öyrənən kimi o artıq o qədər də qorxulu olmur. Yalanın gözünün içinə baxmaq və gülümsəmək müdriklik əlamətidir.

**10. İstədiyini çox istəsən sənin olmayacaq**

Diqqətini əldə etmək istədiklərində cəmləsən sən heç vaxt istədiklərinə çata bilməyəcəksən. Amma artıq əlində olanlara görə minnətdar olmağı bacarsan axır nəticədə daha artığına layiq görüləcəksən. Xoşbəxtlik malik olmaqda olsaydı dünyanın bütün varlı adamları həm də xoşbəxtləri olardı. Zənginlik varidatda deyil, ruhun durumundadır. Rus dilində var-dövlət

(dobro) həm də xeyirxahlıq deməkdir. Yəni ki, bu sözlə qədim ruslar xeyirxah adamın həm də zəngin olduğunu vurğulayırdılar. Bu, həm də xeyirxahlıq və zənginlik arasında müəyyən münasibətin, tarazlığın olduğuna işarə edirdi.

**11. Keçmişini bağışla**

Biz keçmişdə buraxdığımız səhvləri özümüzə bağışlamağı sevmirik. Bəziləri buna görə özünü didib-dağıdır da. Hansısa səhvi buraxdığına görə layiq olduğun yerdə deyilsənsə bu o demək deyil ki, orda heç vaxt olmayacaqsan. Hər şey hər bir anda dəyişə bilər, hər şey alt-üst olub yerlərini dəyişər, düyünlər açıla da, bir az da düyün düşə bilər. Bir qədər kənara çəkilmək vacibdir. Bir daha cəhd eləmək, bir daha sevmək, bir daha yaşamaq, bir daha da arzulamaq...

**12. O gün gələcək**

Ola bilər bu an, hər şey qaydasında deyil. Həmin gün gələcək, bu gün olmasa da sabah, biri gün... Sonunda hər şey olmalı olduğu kimi olacaq, başqa cür deyil. Vaxt vardı nəsə düzgün deyil düşünürdün. Elə bil ilişmişdin, yerində addımlayırdın. Amma ilişmədin, yerində durub qalmadın. Arabir Günəş də göy üzündə görünmür, bu onun tamamilə yoxa çıxdığından xəbər vermir ki. Bu arada ildırım da çaxa bilər, yağış da yağar, lap sel də gələr. Amma Günəş öz vaxtında üfüqdən boylanacaq, əmin ola bilərsən.

***

Dediklərimə inanmırsansa həqiqəti hər yaz göyərən otdan, çiçəkləyən ağaclardan, nəsil verən heyvanlardan, bircə gün yaşayacağını bilən, amma barama qurub çervilməyə hazırlaşan kəpənəkdən soruş.

# Bizdən nələri gizlədirlər

Yer üzünün hər sakini öz dövlətinin bayrağı altında pis-yaxşı yaşayarkən özünü müəyyən qədər mühafizə edilmiş kimi sayır. Sadə vətəndaş təxmin edə bilər ki, yüksək səviyyələrdə ondan gizlədilən informasiyalar var. Əksəriyyəti bunu normal sayır. Çünki bəzi informasiyanın hamıya bəlli olmasıyla kütləvi narazıçılıq və axır nəticədə xaos yaşanar. Amma hamı ondan gizlədilən məlumatların heç olmasa siyahısını bilmək istəyir. Bu fəsildəki silsilə yazılarda insanlardan gizlədilən vacib məsələlərə bir qədər işıq salmaq cəhdləri edəcəyik.

**Xərçəng göbələk tipli xəstəlikdir və asanlıqla müalicə olunandır**

Hər il 8 milyon adam xərçəng xəstəliyindən vəfat edir. 2030-cu ilə bu rəqəmin 12 milyona qədər artacağı gözlənir. Hər 4 nəfərdən biri bu bəlaya mübtəla olur. Hər il həkimlər xərçəng mövzusunda beynəlxalq müşavirələr, məruzələr, tədbirlər keçirib Yer üzünün bir nömrəli xəstəliyi barədə söhbətləşirlər. Amma adətən 1969-cu ildə Pittsburqa keçirilmiş yığıncağı xatırlamağı sevmirlər. O vaxt Riçard Dey adlı həkim (O, Ailə planlaşdırılması mərkəzinin rəhbəri idi və yevgenika, yəni gen səviyyəsində irqlərin təmizlik məsələlərinə nəzarət işini icra edir. Adıçəkilən cəmiyyət Rokfellerlərin nəzarətindədir) çıxışında cəmiyyətin qlobal tranformasiyası barədə məruzə etdi. O, çıxışından əvvəl həkimləri məruzəni diktofona, yaxud videoya yazmamağı xahiş etdi. Həkimlərdən biri bu xahişi nəzərə almayaraq çıxışı lentə aldı və sonra onu şəbəkədə paylaşdı. Məruzədə böyük sosial mühəndislik layihəsindən danışılırdı: "Biz bu gün xərçəngin bütün növlərini sağaltmağı bacarırıq. Bütün informasiya Rokfeller fondunda saxlanır və lazım gələn anda üzə çıxarılacaq...". O, sözünə əlavə etdi ki, "Əgər insanlar xərçəng, ya da başqa xəstəlikdən kütləvi şəkildə ölsələr onda əhalinin artım problemin

bir qədər yavaşıtmaq mümkün olacaq". Deməli farmoseptik biznes xərçəng xəstəliyinin müalicəsini özünə məqsəd etmir. Əgər xəstəliyin simptomlarını yığışdırmaq daha böyük pullar gətirəcəksə onu aradan qaldırmaq nəyə lazım? Bu gün xərçəng xəstəliyi ilə xəstəxanaya müraciət etmişlərə anlatmırlar ki, kimyəvi terapiya zamanı bədənə yeridilən dərman xərçəng hüceyrələrilə bərabər sağlam hüceyrələri də məhv edir.

Əhalinin sayını bu cür nəzarətdə saxlamaq pul qazanmaq xətrinə deyil. Elita istəyir ki, insanlar vaxtından əvvəl özü də əziyyətli ölümlə ölsünlər. Əgər həkimlərdən kimsə xərçəngi sağalmağın yolunu tapsa onlar həmən dəqiqə tibb aləminin zərbələri altına düşürlər. Onlardan biri Tullio Simonçini adlı italiyalı həkimdir. Onu təqib edir və sonda 3 illik həbs edirlər. Çünki o, ilkin mərhələlərdə xərçəng xəstəliyini müvəffəqiyyətlə müalicə üsulunu tapmışdı. Həkimin fərziyyəsinə görə xərçəng şişi adıyla tanıdığımız toxumalar ən çox yayılmış kandida göbələyinin bir növüdür. Bu göbələk əksəriyyətinin orqanizmində parazit kimi yaşayır, amma immun sistemi onu tam nəzarətdə saxlayır. Orqanizm zəifləyən kimi göbələk nəzarətdən çıxaraq bədənə yayılır və orqanizmin ən zəif yerində məskunlaşaraq artıb törəyir. Əlbəttə, bədəndə yayılmış göbələk kaloniyaları insanın sağlamlığını, hətta psixologiyasını da korlayır. Tullio Simonçini müstəqil tədqiqata başlayır. Müşahidədə aşkar etdi ki, növündən asılı olmayaraq bütün xərçəng şişlərinin içərisi ağdır. Hansısa orqanda kandida göbələyi lazım olan həddən artıq artıb törəyəndə və bədən ona qarşı heç bir addım ata bilməyəndə immun sistemi kandidanın qarşısını alan bir sədd yaradır. Bunlar da bizim tanıdığımız şişləri əmələ gətirir.

Həkim Simonçini xərçəngin göbələk xassəli olduğunu anlayandan sonra onu da müşahidə etdi ki, göbələyə qarşı dərmanlar kandidaya qarşı işləmir, çünki onlar tez-tez mutasiya edir və təzə şəraitə ani olaraq uyğunlaşırlar. Həkim göbələyi natri bikarbonatla, bizim məişətdə soda adlandırdığımız preparatla müalicəyə başladı. Nəinki ilkin mərhələlərdə, hətta bir neçə aya öləcəyi proqnoz edilmiş xəstələrdə də tam sağalma oldu. Həkim sodalı məhlulu onlara içməyə verir və bilavasitə şişin içinə məhlul halında yeridirdi.

Uğurlarından ruhlanan həkim metodunu İtaliya Tibb Nazirliyinə təqdim etdi və üsula patent almaq fikrinə düşdü. Əvəzində ona təsdiq edilməmiş üsullarla insanları müalicə etdiyinə görə lisenziyadan məhrum edib 3 illik həbs etdilər. Minlərlə insanın artıq "yoxlanılmış" üsulla öldüyü zaman kiminsə yoxlanılmamış üsulu az qala cinayət kimi təqdim edildi. Hazırda bu həkim yenidən öz üsulu ilə müalicəni davam etməkdədir. O, ən sadə və ucuz yolla xərçəngi sağaldır. Prosedur bir neçə ay da, bir neçə gün də çəkə bilər. Çox vaxt Simonçini müalicədə iştirak etmir, telefon, ya da elektron poçtu vasitəsilə məsləhətlərini verir. Nəticələr çox vaxt müsbət olur.

**Bizi bilərəkdən öldürürlər**

Hər il xərçənglə xəstələnlərin sayı artır. Bu, get-gedə artan və yaxşı planlaşdırılmış müharibəyə bənzəyir. Müxtəlif yeyinti vasitələri, yeməyə əlavələr, herbesid və vaksinlər, elektromaqnit və mikrodalğalı şüalanmalar və müasir həyatın stres şəraiti insanın immun sistemini dağıtmaqdadır. Bu gün 2 yaşına qədər uşaqlar 25-ə qədər peyvənd alırlar. Bu illərdə isə immunitet təzəcə formalaşır. Bu gün müasir cəmiyyət bəzi müddəaları qanun kimi qəbul edib. Əgər insan xəstələnibsə onun xərçəng hüceyrələri sağlam hüceyrələrdən əvvəl məhv edilməlidir. Belə çıxır ki, dərmanlar həyat adlı «xəstəlikdən» birdəfəlik müalicə edir.

Təbiətdə belədir ki, tərəvəz və meyvələrin tərkibindəki silvestrol adlı maddə xərçəng hüceyrələrinin kimyəvi tərkibini dəyişmək iqtidarındadır və yeganə təbii müdafiədir. Aqro-farmoseptik şirkətlər də bunu çox yaxşı bilirlər. Ona görə də tərəvəz və meyvələri funqisidlə yetişdirir və onun təbii göbələyə qarşı müdafiədən məhrum edirlər. Ona görə də biz nə qədər meyvə-tərəvəz yesək də təbii müdafiə elementlərini ala bilmirik.

**Donuz qripi laboratoriyada sintez edilib**

2009-cu ilin fevralında Amerikanın farmoseptik nəhəngi "Bakster" 4 Avropa ölkəsinin 16 dərman şirkətinə mövsümi qripə qarşı vaksin istehsal

etməkçün 62 kiloqram substansiya göndərdi. Təsadüfən Çexiyanın laboratoriyalarının birindən sadə texnik aşkar etdi ki, substansiya 2 növ qripə yoluxdurulub. Onlardan birinin ölüm faizi çox aşağı, 1 faizdən də az idi. Amma çox böyük sürətlə yayılma bacarığı vardı. O biri qrip növünün isə yayılma sürəti çox aşağı olmaqla yanaşı ölümcül nəticələri 60 faizə qədər idi. Bu iki qripin bir yerə salınması mutasiyaya imkan yaradırdı və nəticədə tez yayılan və ölümcül nəticələri olan virus əmələ gəlməliydi. Həmin göndərilmiş vaksini Çexiyada heyvanlar üzərində yoxlayanda 100 faizlik ölüm nəticələr alındı. Bütün bunlar sual doğururdu ki, bu boyda səhv necə yarana bilərdi? Axı Bakster şirkətində 3 səviyyəli müdafiə sistemi vardı ki, ordan heç bir vaksin təsadüfən başqasına qarışa bilməzdi. Baster şirkəti vaksinin zəhərli olduğunu bilirdi. Çünki bir il əvvəl yüzlərlə evsiz eşiksiz üzərində təcrübə aparıb müvafiq nəticələri almışdılar. Bu hadisə aşkara çıxandan sonra Bakster şirkəti günahını etiraf etdi. Təsadüfən çex texniki vaksinin tərkibiylə maraqlanmasaydı indi Yer kürəsi artıq ən böyük epidemiyasını yaşamış, ola bilər milyardlarla insan həlak olaraq torpağı varlılar üçün boşaltmışdı. Donuz qripi də bu tipli vaksinlər kimi əhali arasında təşviş salmaq və milyonlarla insanı məhv etmək məqsədilə laboratoriya şəraitində yaradılıb. Donuz qripinə qarşı vaksini təklif edənlər onun tamamilə təbii olduğunu və insan, quş və donuz genomu əsasında yaradıldığını deyir. Həkim mikrobioloq Leonard Qorevits jurnalist tədqiqatları, hüquqşünaslar dəstəsi vasitəsilə Amerikanın istehsal etdiyi donuz qripinə qarşı təklif edilən H1N1 peyvəndinin bioloji silah olduğu barədə faktları toplayaraq Fideral Tədqiqatlar Bürosuna təqdim etdi. Amma bütün bu cəhdlər KİV vasitəsilə reklam edilən, peyvəndin pandemiyaya qarşı yeganə vasitə göstərən kompaniyaya qarşısında aciz idi. Bu reklam işinin başında duran Rokfellerlər və onunla işbirliyində olan Sükerman, Rupenq Murdok başçılığı ilə nəhəng şirkətlər, eləcə də Amerikanın federal rezerv bankının keçmiş direktoru Cires Spreyek kütləvi qırğın silahı hazırlamaqda və məqsədyönlü genosid törətməkdə ittiham edilirdilər. İttiham edilənlərin arasında 11 sentyabrda

partladılmış qoşa çöxmərtəbənin sahibi Larri Sillerstaynin də adı çəkilir. 11 sentyabr terrorunu tədqiq edən iş üzrə hələ də ən çox günahkar bilinən bu adam bakterioloji tədqiqatlar mərkəzinin direktorudur və bu boyda həngamənin başında duranlardan biridir. İddiaçı alim Qorevetsin 20 vərəqə yerləşmiş ərizəsində vaksinin bakterioloji silah olduğunu öz laboratoriyasında artıq təcrübədən keçirildiyi yazılırdı. Nəticələrə görə vaksini vuran adam immun sistemini tamamilə itirməli idi. Vaksinin tərkibindəki maddələr 20-dən artıq xərçəng növü yaradır. Məsələ böyüyüb ictimaiyyətin qulağına çatanda KİV-də vaksinin vurdurub-vurdurmamaq barədə mübahisələr doğurdu. Alimlər vaksinin tələsik buraxıldığından içində skvolen kimi zəhərli maddələrin olduğunu etiraf etdilər. Bu maddə autizm, əzələlərin iflici kimi ağır fəsadlar verir. Toksin maddələrin, civənin miqdarı əgər yeməklərin içində olsaydı onlar zəhər kimi işləyərdi. Vaksinasiyadan sonra nevroloji, Culian Bore sindromu ilə xəstələrin sayı kəskin dərəcədə artdı.

Bir sıra virus və xəstəliklərin tədqiqatı və peyvəndi Devid Rokfellerin birbaşa rəhbərliyi altında keçirilir. Sənədlərdə daha bir adamın, Rokfeller adına tədqiqat institutunun direktoru, doktor Joşua Liderberqin adı da çəkilir. Bu adı biz H1N1 virusunun yaradıcı olmaqla bərabər QİÇS virusunun, eləcə də leykemiya yaradan virusların yaradıcısı kimi də eşidirik. Qorevetsin ittihamına görə sadalanan cinayətlərin daha bir şəriki Ceyms Robertsondur. İngilis həkimi, biomühəndis kimi bütün zamanların ən dəhşətli viruslarını, donuz qripi ilə ispanka qripini birləşdirib onun uçan, yəni hava-damcı yoluylu ötürülən şəklini yaratmağa "Novavaks" şirkətinə o kömək edib. Məhkəmədə soyuq müharibə zamanı Sovet İttifaqına göndərilmiş bütün bioloji silah növlərinin siyahısı da açıqlandı. Müstəqil tədqiqatçılar dərman bazarına buraxılan vaksini müşahidə edəndən sonra onun bir zaman minlərlə insan ömrü aparmış ispanka qripi ilə eyni olduğunu aşkara çıxarıblar. Deyilənə görə bu virusu epidemiya zamanı həlak olmuş qadının Alyaskada tapılmış sümüklərindəki DNT məhsulundan alıblar.

1918-ci ilin virusunun bərpasında 3 şirkətin adı daima çəkilir. Bu şirkətlər aldıqları virusu açıq bazara çıxarmaqla həm böyük pullar əldə etməklə yanaşı həm də virusun yayılma spektrini öyrənməkçün laboratoriyadan dəfələrlə böyük meydan qazandılar.

**Bakterioloji silahı hamı üzərində sınayırlar**

Birinci Dünya Müharibəsi zamanı insanları ospa, iflic, difteriya kimi xəstəliklərə qarşı peyvənd etdirmişdilər. Toksik zərdabların qana yeridilmsinə görə minlərlə insan həyatını dəyişdi. Adətən bu faktları açıqlamağı sevmirlər. Bütün sadalanan dəhşətli xəstəliklər birləşib insan immunitetinə həmlə etdikdən sonra bəşəriyyətin qara günləri başladı. Zənn edilirdi ki, minlərlə insanı milyonların xətrinə qurban verirlər. Vaksinlərin təsirini neytrallaşdırmaq üçün həkimlər iynələrə çox zəhərli maddələri qatırdılar. İndi heç kim demir ki, ispanka adlı qrip peyvənd vurmuş adamları ən birinci aparırdı. Əksəriyyəti düşünürdü ki, bu belə lazımdı, vəssalam. Yer üzündə İspanka qripində 50-100 milyon arası insan vəfat edib. Hələ o vaxtlar da söz gəzirdi ki, ispanka qripinin sovet zamanı epidemiyası süni şəkildə yaradılaraq peyvənd vasitəsilə camaat arasında yayılması təmir edilib.

Donuz qripi Amerikada 1918-ci ildə aşkar edilib. Onun yeni modifikasiyası 1976-cı ildə Amerika gizli hərbi bazalarının birində yaradılıb. İlk dəfə yeniləşdirilmiş qripdən təzəcə hərbi xidmətə çağırılmış əsgərlər yoluxub. Bu faktlar gizli saxlanıb. Hələ o vaxt da vaksinasiya prosesi işə salınandan 11 gün sonra dayandırılmalı olub. Çünki yoluxanların sayı gözlənildiyindən dəfələrlə artıq idi. 4500 Amerika vətəndaşı peyvənddən sonra məhkəməyə şikayət ərizəsiylə müraciət edərək 3 milyon kompensasiya tələb edib. O zamanın müdafiə naziri Donal Transfel idi. İstefaya getdikdən sonra o, farmoseptik şirkətin işiylə məşğul olurdu. Onun Kaliforniyadakı elmi tədqiqat laboratoriyalarından H1N1 virusu ortaya çıxarılıb. 2009-cu ilin fevralında ilk dəfə bu virusa qarşı peyvəndin müəlliflik patentinin alınması üçün də buradan müraciət edilib. Yəni peyvənd epidemiyadan xeyli əvvəl yaradılıb.

Məcburi peyvənd zamanı həyata keçirən orqanlar, həkimlər, hətta ölkə idarəçiliyi də qanuna görə məsuliyyət daşımır. Hazır vaksinləri başqa ölkələrə göndərəndə də coğrafi mövqedən tutmuş dini mənsubiyyətə qədər hər bir fakt böyük rol oynayır. Faktlar var ki, ölkələrə 2 tip peyvənd göndərilir. Böyük partiyada zəhərliliyi çox yüksək zərdablar adi camaat üçün nəzərdə tutulur. Məhdud sayda peyvəndlər isə varlılar, onların qohumları, dövlət rəhbərləri bir sözlə hadisənin başında duranlar və peyvəndin nəticələrini bilənlər üçündür.

İnsanın immun sistemini dağıdan QİÇS adlandırılmış virus da süni şəkildə laboratoriyada sintez edilib. Bu günə qədər, minlərlə insan bu qəribə xəstəlikdən dünyasını dəyişib. Amma nə qədər insan bu xəstəliklə mübarizədən qazanıb. Dövlətlər dəfələrlə çox milyardlı layihələri işə salıb ki, adamı günəbaxan tumu tək dənləyən bu xəstəliyin qarşısını ala bilsin. İndinin özündə artıq QİÇS xəstələri mütəmadi dərman qəbul etmək şərtilə 20-25 ilə qədər yaşayırlar. Amma bizimçün bu mərəz, xəstəliyi içimizə salıb sonra pullarımızı süpürləyənlərdən fərqli olaraq hələ də qorxulu olaraq qalır. Onlar insan orqanizmi üzərində hakim olmaq və onu tamamilə sıradan çıxararaq özlərinə tabe etmək istəyirlər. Həmin səbəblərdən də uşaqların peyvənd edilməsi, xaricdən bizə sülhsevər məramla göndərilən havayı peyvəndlərin sayının artması birbaşa millətini sağlamlığının korlanmasına gətirir. Özünü qorumağın yeganə yolu gətirilmə dərmanlar, ərzaqlar, təsərrüfat mallarından uzaq olmaqdır. Tərs kimi, Azərbaycan isə neftdən başqa heç nə istehsal eləmir…

# Psixotron terror

*Xalq adlanan kütlənin bunu bilməsi hələ tezdir*

İndi yeni, psixotron silahlardan, insan ağlı kəsməyən təsir növlərindən, sirri möhkəm gizlədilən layihələrdən danışmaq bir növ dəbdir. Biz kənardan sirli vasitələrlə idarə edildiyimizə gizli bir inamla yaşayırıq. Hazırda şəhərimizdə az qala hər yerdə kameralar quraşdırılır və rəsmi rəqəmlər deyir ki, biz bu məsələdə inkişaf etmiş ölkələrdən çox geri qalırıq. Dövlət hər vətəndaşının hər saniyəsini nəylə məşğul olduğunu biləndə daha güvənli sayılır. Amma bunun bizim sağlamlığımıza nə dərəcədə ziyanlı olduğunu düşünmürük. Nəzarət altında olmaq artıq normaya çevrilib.

**"Məni elektromaqnit şüalanma ilə lap əldən salıblar!"**

Həmvətənimiz Leyla Şeyxzamanovanın həyat hekayəsi adıçəkilən məsələyə aydınlıq gətirə bilər. Bu xanımı şəhərimizin az qala bütün redaksiyalarında tanıyırlar. Çünki o, hər dəfə redaksiyaya bir qovluq kağız və sənədlər, müxtəlif orqanlara yazdığı ərizələri və dövlət başçısına qədər ünvanladığı xahiş, tələblə dolu məktublarını göstərərək bu barədə yenidən yazılmasını tələb dir. Leyla xanım 1993-cü ildən bəri nəzarət orqanları tərəfindən elektromaqnit şüalarla təsir altına salındığını və illər uzunu hələ də təcrübə altında olduğu iddia edir. Bir qədər ekssentrik davranışı, qeyri-stabil psixi durumu bu qadının dediklərini ciddi qəbul etməyə mane olur. Amma riyaziyyatçı, elmlər namizədi, vaxtilə kosmik tədqiqatlar institutunun əməkdaşı bu boyda uydurma qoşardımı? Onun barəsində yazılarda keçirdiyi ağrı-acıları duymamaq mümkün deyil. Axı elektromaqnit şüalar bədəndə izlər buraxmır ki, hər dəfə həkimə müraciət edib onu sənədlə təsdiqləyəsən, yaxud da fotoya alıb kimsəyə sübut-dəlil kimi göstərəsən. Şeyxzamanovanın təqdim etdiyi sənədlər arasında beyində kənar şüalanmaların təsiriylə əmələ gələn fəsadları təsdiqləyən həkim kağızı da var.

Bu izləmələr hələ kosmik tədqiqatlar institutunun əməkdaşı olarkən başlamışdı. Deyilənə görə MTN bütün əməkdaşların mənzillərini atmosferin skanerdən keçirilməsi yoluylu nəzarətdə saxlayırdı. Əməkdaşların nəinki ünvan və şəxsi koordinatları, üstəlik üz quruluşu, qan tərkibi və s. məlumatlar əlbəttə ki, mütləq qaydada təqdim edilməli idi. Xanımın iddiasına görə orda hər kəsin bir növ pasportu var, yəni sifət quruluşunun istilik dalğalarının verdiyi məlumat çiplərdə saxlanılır. Sovet quruluşu dağılandan sonra bəzi proqramlar dayandırıldı. Amma bəzi insanlar hələ də özlərini nəzarət altında hiss edirlər. Onlar adətən tənha və kimsəsiz adamları seçirlər. Çünki onların şikayət edəcəyi və müşahidəyə qoşulacaq adamı yoxdur deyən onları xəstə, paranoik, ağıldankəm elan etmək daha rahatdı.

1994-cü ildə Şeyxzamanovanın israrlı təkidindən sonra Azərbaycan Respublikası Elmlər Akademiyası xarici şöbəsi təxminən belə bir mətnli arayış təqdim etdi: “1993-cü ilin 23 dekabrında Şeyxzamanova L.A-nın müraciətindən sonra MTN operativ müvəkkili Şərifov Ş.Ş. 1217 şöbəsi, Hüseynovla telefon əlaqəsi yaradaraq Şeyxzamanovadan telefonda səs tellərinin xarakteristikasını bir daha təsdiqləməyi xahiş etdi ki, MTN-nin biodalğalı generatoru söndürülsün”.

Bu məsələylə bağlı Şeyxzamanova 1999-cu ildə Səbail rayon məhkəməsinə şikayət ərizəsi verib MTN-dən aldığı fiziki travmalara görə kompensasiya tələb edib. Amma hansı hakim dövlətin təhlükəsizlik orqanına qarşı bir qərar çıxarmaq qüdrətində ola bilər. Bir də ki, qanuna görə kənardan təsiri təsdiqləyən sənədləri şikayətçi təqdim etməlidir. Əgər bu məsələ dövlət sirri kimi saxlanırsa və sənədləri yalnız cavabdeh tərəf verə bilərsə çevrə qapanır.

**“Bu onların nəyinə lazımdır?”**

sualına cavab verməyə çalışaq. Onlar insan toxumaları üzərində təcrübələri davam etməkdə insanları kənardan idarəetmənin yeni yollarını axtara bilərlər. İnsanlar üzərində total hakimiyyəti arzulayan bir quruluş üçün

kimsənin orqanizminə elektron "soxulcanlar" buraxıb araşdırmaq bəlkə də sivil yol görünür. İndi, artıq mobil rabitənin hətta metronun tunelində də tuta bildiyi zamanda insan bu soxulcanlardan heç yerə qaça bilməz. Şeyxzamanovanın danışdıqları bu sahədə axtarışlara təkan verdi və məlum oldu ki, dünyada yüzlərlə adam bu məsələdən əziyyət çəkir. Kənar təsirləri öz üzərində hiss edən adamların Rusiyada birliyi və rəsmi saytı var. Bu saytda elektromaqnit və başqa tip şüaların təsiri altında yaşayan onlarla həyat hekayəti, çoxlu dəlil-sübut və ən vacibi, bu təsirlərdən qorunma üsulları var.

Bolqarıstandan başqa bütün dünyada insanlara kənardan təsir etməyi norma sayırlar. Bircə Bolqarıstan buna qarşı qanunu uzun illərdən bəri qəbul edib. Rusiya Federasiyasının qanunvericiliyində "Silahlar barədə" qanuna əlavədə dalğavari silahın hətta insanların sağlamlığı və müdafiəsi xətrinə tətbiq edilməsi yasaqlanır. Bu, bir daha dalğavari şüalanma silahının mövcudluğunu və insan sağlamlığına çox ziyanlı olduğunu təsdiqləyir. Dünyanın əsas idarəediciləri sayıla biləcək radioelektron xüsusi xidmət orqanları bu üsulla cəmiyyəti tarazlıqda saxlayır. Lazımsızları aradan götürür, kimisə müxtəlif xəstəliklər və əsəb gərginliyilə sıradan çıxarır. Bu kütləni idarə etmə üsulu olsa da kütləvi qaydada tətbiq edilməz, çünki onlar hər kəslə ayrı-ayrılıqda işləyirlər. Etiraf etməliyik, bu silahın təsir zonasına intellektual əməklə məşğul olanlar daha çox düşür. Özü də sosial şəbəkənin bu cür artdığı zamanda kiminsə elektron ünvanını, mobil nömrəsini, fotosunu əldə etmək su içmək qədər rahatdır. Yəni bu məlumatı əldə etmək üçün heç kabinetdən çıxmaq da lazım deyil. Siz hardasa həkim müayinəsindəsizsə deməli orda sizin qan tərkibiniz, xəstəlikləriniz barədə geniş məlumat var. Bütün bunları cəmləməklə insanı dalğaların keçə biləcəyi hər yerdə tapmaq və təsir altına salmaq mümkündür. Dalğalarsa hər yerə keçir…

**Taxıl zəmilərindəki halqaları biz özümüz yaradırıq**

İnternet dalğalı silahların mövcudluğunu sübut edən materiallarla doludur. Ən əvvəl bu silahın mövcudluğunu taxıl zəmilərində əmələ gələn

fiqurlar, həndəsi formalar və naxışların yaranmasıyla bağlayırlar. Deyilənə görə dalğavari silah aparatını kalibrovkadan keçirəndə, yəni işə salmazdan əvvəl kökləməyə çalışanda yer üzünün müxtəlif nöqtələrində belə işarələr əmələ gəlir.

İndi keçən əsrin uğursuz təcrübələrindən danışmaq ciddi səslənmir. Amma bu gün Rusiya rəsmi şəkildə şüa, gen, dalğavari, lazer və işıq, səs və sair dalğaların birlikdə əmələ gətirdiyi titrəyişə əsaslanan yeni nəsil silahları hazırladığını deyirsə deməli artıq təcrübələr, sınaqlar mərhələsi bitib. Bu silahın elmi bazası artıq yaradılıb və ordunun bu növ silahla təchizatı 2020-ci ilə planlaşdırılıb. Taxta ikinci çıxışından sonra Putinin yeni nəsil silah hazırlamaq planını bəyan etməsi ekspertləri dəhşətə gətirib. Bu artıq dünya ağalığına can atmaq deməkdir. Rusiya isə bu məsələdə geri qaldığını, Qərb ölkələrinin, Amerikanın daha öndə getdiyini deyir. Misal üçün bəzi Qərb ölkələrində nümayişləri dağıtmaq üçün dalğavari silahın tətbiq edildiyini sübut dəlil kimi gətirilir. Bu silahı işə salanda nümayişə çıxmış insanlar müəyyən radiusda qala bilmir, başgicəllənmə, panik durum yaranır və onlar özlərinin mikrodalğalı sobadakı kimi hiss edirlər deyə bu yeri tərk etməyə çalışırlar. Gözlənilməz yerlərdə seysmik aktivliyin qəfil artması, sunamilər və s. bu tipli fəlakətlərin bütün yer kürəsi boyu fəallaşması həm də dalğavari silahın artıq işlədilməsinə daha bir misaldır. Bu silahın başqa növləri, "ağrı şüası" və "başda dözülməz qışqırıq generatoru" o qədər adiləşib ki, bunlar artıq polis üsulları sayılır. Həmin prinsipə əsaslanan siçovul qovlayan, yaxud itləri qorxudan portativ şüalandıran aparatlar çoxdandı ki, satışdadı. Heyvanlara təsir edən vasitənin insanlarçün yaradılmadığını düşünmək sadəlövhlük olardı. Bütün ölkələrin kəşfiyyatları yeni prinsipə əsaslanan silah yaranması barədə informasiya əldə edən kimi bu faktı ictimailəşdirir. Amerika elektromaqnik silahı ilə Tayvanı mikrodalğalı sobadakı kimi "bişirmək" istəyən Çini ifşa edir. Çin isə özünü Amerikadan qoruduğunu deyir. Bir sözlə insan öz özüylə vuruşur.

**Nəfəslikdən başqa heç nə açma!**

Kənardan təsirlərə məruz qalmışların sayı həqiqətən çox imiş. Nəzərə alsaq ki, onlar arasında etiraz səsini qaldıranlar da çox azdı, onda nəinki Azərbaycanda, hətta dünyada olan mənzərə təxmini aydınlaşmağa başlayır. Kiməsə elə gəlir ki, başqa dünyalarla əlaqəyə girib, kimsə dəli olduğunu və səslər eşitdiyini, kimsə ona vergi verildiyini, öncəgörən olduğunu zənn edib susur. Dünyada elektromaqnit şüalanmaya qarşı vətəndaş müqavimətı cəmiyyətləri var. Rusiyada bu işlə Moskva mənzil ekologiyası komitəsi, Litvada Beynəlxalq Alternativ Məhkəmə, Amerikada "Mind Justice", Almaniyada elektromaqnit şüalanmaların qurbanı cəmiyyəti araşdırmaqla məşğul olur. Amma xalq adlanan kütlə bu barədə bilməməlidir düşünən dövlətlər üçün bu etiraz səsləri arzuolunmaz sayılır. Belə adamlar maddi dəstəkdən, stabillikdən uzaqlaşdırılır, ideyaların və insanların təcridi baş verir.

Qəfil ağrılar baş qaldırıb sonra qəfil yoxa çıxırsa, sonra bu, tibbi müayinələrlə təsdiqlənmirsə, fiziki durum normada olduğu vaxt əsəblər gərgindirsə və artıq sahibinə tabe olmursa özünüzə qarşı bir qədər diqqətli olun və müşahidələriniz dərinləşdirin. Kənardan təsir üsullarında televiziya və radio müstəsna rol oynayır. Reklamlar, aparıcıların xalqa yad olan xüsusi danışıq intonasiyası, mənasız musiqinin daimi təkrarlanması insanların əsəblərini oynadır və onları asan əldə edilən, tarazlıqdan çıxmasıyla yad təsirə daha rahat düşən fərdə çevirir. Ona görə də cəmiyyətdə izaholunmaz hərəkətlərin sayı artır. Kimsə küçədə soyunub çılpaq gəzməyə, kimsə qonşusunu söyməyə, başqa birisi isə dünyalar qədər sevdiyi ailəsinin başını kəsməyə qərar verir. Cəmiyyət üzvləri artıq kukla teatrında iplərlə hərəkətə gətirilən marionetkalara bənzəməyə başlayırlar. Bu mövzuda saytlar açılırsa da kənardan təzyiqlər olur və onlar qapadılırlar. Kənar təsirlərdən şikayət edənlərin elektron poçtu çox vaxt qapadılır ki, məktub yazıb paylaşa bilməsinlər. Sovet dönəmində MTN-nin insanları şüalandırmaşına qarşı tək-

tək adamlar mübarizə aparırdı. Məsələn, yazıçı alim, psixotron terror barədə 3 kitabın müəllifi Vasili Lenski 3 il ərzində minə yaxın mənzil dəyişməyə məcbur olub. Cəmiyyətdə ictimai gücü aşağı olan fərdləri isə dəli kimi nəzarətə götürmək daha rahat idi. Dünyada yerli məhkəməyə, İnsan Haqları üzrə Avropa məhkəməsinə müraciət edənlərin demək olar hamısı Strassburqdan eyni cavabı alırlar: "Sizin şikayətdə Konvensiyada, ya da Protokollarda qeydə alınmış hüquq və azadlıqların pozulması barədə əlamətlər görünmür". Kosmik peyklərin planeti əhatələdiyi bir zamanda insanı istənilən nöqtədə tapmaq mümkündür. İndi bizim də öz fərdi peykimiz planetin başına dolaşacaq.

**Köstəbəklər!**

Kənardan təsir altında olan daha bir təbəqə də var, onlar cəmiyyət üçün kifayət qədər təhlükəlidir. Tədqiqatlar deyir ki, "köstəbəklər" deyilən insanlar bütün sosial qrupların ayrılmaz hissəsidir. Onların işi qarışdırmaq, eşələnmək və riyakarlıq etməkdir. Onların vəzifəsi stabilliyi pozmaqdır. Onlar informasiya toplamaqla deyil, hadisələrin lazımi istiqamətdə yönəldilməsi ilə məşğul olurlar. Köstəbəklər də distansion təsir altındadır, amma bunu özləri bilmir. Belə adamlar hər yerdə, sosial şəbəkədə, qonşuluqda, kollektivdə də var. Onlar dostluğa can atır, kömək əlini daima uzadır. Belə adam qoca pensiyaçının evinə kömək adıyla, dərdi-səri başından açan kasıbın evinə bir parça çörəklə gələ də bilər. Onlar zarafatlaşır da. Amma bütün bunlar, yəni mərhəmət də, kömək də ona kənardan əmr edilmiş iş planının tərkib hissəsidir. Köstəbəkləri şüalarla təsir altına salınmış insanlarla səhv salmaq olmaz. Onlar səni həyatının ən vacib, qərar verəcək məqamında qəfil peyda olur və səhv yola çəkə bilərlər. Köstəbəklərin içində ən təhlükəlisi görünməz olanıdır. Onun yeri baş beyinin alın hissəsidir və o özünü Allah, ya İblis, yad planetli, ya da sadəcə radist kimi qələmə verməyi sevir. Köstəbək distansion əlaqəyə çıxıbsa qoruyucu papaq xilas edə bilər. Köstəbəyin nə deməsi önəmli deyil, o,

"Pozitiv düşün", "Özün günahkarsan", ya da "Çağrılmamış qonaq olma" da deyə bilər. Əsas məsələ öz fikirlərini təlqin edilmiş fikirlərdən ayıra bilməkdir.

**Quluncunu tut və qərar mərkəzini işə sal**

Özünü qorumağın yolları varmı? Əlbəttə, olmamış deyil. Amma sizə kənardan təsir göstərən aparatı, üsulu kəşf etmiş adamlar bunu sizə deməyəcəklər. Təsiri üzərində hiss edənlərdən kimsə başına şlem qoyur, kimsə bədəninə xüsusi lövhələr bağlayır, elektromaqnit dalğaları keçirməyən materiallar axtarır. Bu tip materiallar var. Bəziləri kafelə bənzər piramidalar şəklindədir. Amma onları evinin içində tətbiq etmək etməkçün pəncərələrdən imtina etmək lazımdır. Belə həyat isə insan üçün dözülməzdir. Çünki insanı şüalarla təqib edirlərsə onu mənzilində də, küçədə də, iş başında da "əl çatdırırlar".

Şüalanan silah növləri insanlara tanış olmadığından ondan qorunma üsulları da hələ ki, yaxşı işlənməyib. Vaxtilə biz atom bombasının, radiasiyanın nə olduğunu bilmirdik. Araşdırmaçılar aşağıdakı əlamətləri əsaslardan sayır: yuxunun pozulması, beyindən çıxmayan eyni fikirlərin təkrarlanması, qəfil öskürək, gözlənilməz ishal, sidiyə həddən artıq çox getmək, istiliyin dalğavari gəlib-getməsi, qəfil ağrı və spazmlar, mənşəyi bilinməyən gəzən ağrılar, dərialtı düyünlər, yorulanda onurğa sütununun yuxarısında qabarıqlığın əmələ gəlməsi. Şərqdə bu nöqtəni "Qərar vermə mərkəzi" adlandırırlar. Bizim yerli falçılar bu qabarıqlığı, quluncu tutub bir saniyəyə mənfi təsirin, yəni cadunun kimdən gəldiyini deyə bilir.

Ən dəhşətlisi odur ki, obyekt kimi seçilmiş adamı elə şəraitə salırlar ki, göndərilən impulslar ona reallıq kimi gəlir. Amma kənardakılar bütün bunları görmür və onu dəli sayırlar. Bu yeni reallıqdır və ona uyğunlaşmaq lazımdır. Müqavimət göstərən cərəyanlar deyir ki, bu barədə insanlara danışmaq hələ tezdi. Hökumətlərsə ağzına su alıb oturub. Kim ki, kənardan təsirin qarşısına ala bilən mexanizmi kəşf edəcək, o da dünyanın ağası olacaq. Bu bəladan xalqları qurtaranlar barədə isə əfsanələr qoşacaqlar.

# İnsanlar üzərində ən dəhşətli təcrübələr

Tibdə tərəqqi əlbəttə ki, çox insanın ömrünü xilas etməyə imkan verir. Amma bəzən həkimlər inqilabi yeniliklər axtararkən etik sərhədləri nə vaxt aşdığını anlamır. Bəzən təcrübələrin azartına düşən "alim"lərin beynindən elə fikirlər keçir ki, bunu Himlerin əməkdaşları yatıb yuxusunda da görə bilməzdi. Araşdırma nəticəsində topladıqlarımızın özü də elmi əhəmiyyət daşıyır. Bu da insan psixikasının bir tərəfidir və öyrənilməyə layiqdir.

## İnsan həmişə təcrübə altında olub

İnsan üzərində təcrübələrin tədqiqi göstərir ki, etika dəyişdikcə onlar zamanın təsiriylə təkamül prosesini keçib. Əvvəllər təcrübələr qullar, daha sonra həbsdə olanlar və məğlub olmuşlar üzərində qoyulurdu. Sonra cəmiyyət belə hərəkətləri pisləməyə başladıqca dairə məhdudlaşdı və alimlər öz ailə üzvlərini, bu olmadıqda isə lap özlərini də təcrübəyə məruz qoyurdular. İnsanı təcrübə altına salmağın da öz balaca tarixçəsi var. 1830-cu ilə qədər anatomlar yalnız ölmə məhkum edilmiş cinayətkarların meyitləri üzərində təcrübə apara bilərdi. Belə leqal yolla meyit əldə etmək çətin idi, ona görə də anatomlar "materialı" qəbirqazanlardan alır, ya da özləri qəbirləri soymağa girişirdilər. Edinburq pansionunun sahibi Uilyam Xeyl və onun dostu Uilyam Berk bu "biznes"də hətta zirvələrə də yüksəlmişdilər. Onlar pansion sakinlərini öldürür və sonra onların meyitini Robert Noksa satırdlar. Noks guya ki, meyitlərin təzə və salamat olduğunu görmürdü, ya da başını ağrıtmaq fikrində deyildi. 1827-1828-ci illər arasında Xeyl və Berk onlarla insanın həyatına bais oldular. Az keçmiş Berki ölümə məhkum etdilər. Bu hadisə İngiltərə hakimiyyətini insan bədəninin trepanasiya məsələsində qanun layihə qəbul etməyə məcbur etdi. Müasir ginekologiyanın banisi Ceyms Merion Sims 3 qul qadın üzərində apardığı təcrübələrlə dünya şöhrəti qazanıb. Bu qadınlar sidik kisəsi və uşaqlıq yolu arasında dəlik olmasından

əziyyət çəkirdilər. Sims əməliyyatı ağrıkəsici işlətmədən aparırdı, çünki əməliyyatın o qədər də ağrılı olmadığını düşünürdü. Simsin işlətdiyi alətlər indi də ginekologiyada işlədilir. Ginekologiya bu nailiyyətinə görə 3 qul qadının ağrılarına minnətdar olmalıdır. Amma demək lazımdı ki, onun əməliyyatından sonra qadınların üçü də sağaldı və azadlıq qazandı. Onlardan ikisi uşaq da doğa bildi.

**Faşizm humanizmə qarşıdır**

İnsanlar üzərində təcrübələr dedikdə ilk əvvəl fişistlərin insanlar üzərində apardığı tibbi eksperimentlər yada düşür. Təcrübələr ikinci dünya müharibəsi zamanı konslagerlərdə aparılırdı. Faşistlər əkiz uşaqlar üzərində çoxlu təcrübələr qoyaraq onların gen səviyyəsində bir-biriylə bağlılıq dərəcəsini aşkar etmək istəyirdilər. Bu eksperimentlərin başında Yosef Mengel dururdu. Əsirlərlə dolu qatar gələndə adətən onları şəxsən qarşılayır və seçim edirdi. Təcrübədə 1500 əkiz uşaq cütü iştirak edib. Onlardan yalnız 200 cütü sağ qalıb. Mengel təcrübələrini Auşvits konslagerində aparırdı. Əkizləri cins və yaş üzrə ayırıb kameralara yerləşdirirdilər. Kimyəvi preparatlarla gözün rəngini dəyişmək üzrə, ya da əkizləri bir-birinə tikib siam əkizləri yaratmaq kimi təcrübələr həyata keçirmişdilər. Gözün rəngini dəyişmək gözdə ağrılar və iltihabla, daha sonra görmə qabiliyyətinin qısa müddətə, ya da həmişəlik itirilməsi ilə nəticələnirdi. Həmin təcrübələrdən sonra "həkimin" ağıllı başlı "zəngin" göz kolleksiyası əmələ gəlmişdi. Mengel əkizlərdən birinin orqanını infeksiyaya məruz qoyub sonra hər ikisini yarmaqla müqayisə üsulu ilə tədqiqat aparırdı. Amma faşistləri məhkum edəndə o aradan çıxa bildi. Əkizpərəst Braziliyaya qaçıb orda 1979-cu ildə insultdan vəfat edib.

Faşistlər əsirlər üzərində kimyəvi silahın də təcrübələrini aparırdılar. Əsirlərin bəzilərini əlbəttə ki, ağrıkəsici olmadan axtalayıb, ya da sterilizə edirdilər. Faşistlər 1941-ci ildə hipotermiya, yəni bədənin istilik mübadiləsi üzrə təcrübələr qoyublar. Təcrübənin birində adamı buzla dolu soyuq suyun içinə 3 saatlıq yerləşdirmişdilər. Başqa bir təcrübədə isə məhkumları sox aşağı

temperaturda küçədə saatlarla çılpaq saxlayırdılar. Təcrübənin məqsədi hipotermiya keçirmiş adamı xilas etməyin üsullarını kəşf etmək idi.

1942-ci ilin iyulundan 1943-cü ilin sentyabrına qədər sulfanilamid adlı dərmanın effektivliyi üzrə təcrübələr keçirilirdi. Adamları yaralayır və bilərəkdən yarasına streptokkok, tetanus, anaerob qanqrena bakteriyası salırdılar. Bəzən yaranı iki tərəfdən qaytanla sıxıb qanı saxlayır və içinə taxta, ya da şüşə qırıntısı salırdılar. Sonra yaranan infeksiyanı sulfanil və başqa dərmanla müalicə etməklə müqayisəvi şəkildə ən yaxşısını aşkara çıxarmağa çalışırdılar. İnsan üzərində təcrübələr qoymuş həkimlərin əksəriyyəti hərbi cinayətkar kimi məhkum edilib.

**Stenford türmə eksperimenti**

Bu təcrübədə məqsəd insanın azadlığı məhdudlaşdıranda düşdüyü şəraitə uyğunlaşma məsələsi tədqiq edilirdi. Təcrübə 1971-ci ildə amerikalı psixoloq Filipp Zimbardo tərəfindən Stenford universiteti ərazisində qoyulub. Təcrübəyə öz xoşuna qoşulan tələbələr psixologiya fakültəsinin zirzəmisində hazırlanmış türmədə kimisi əsir, kimisi isə türmə gözətçisi rolunda bir müddət yaşamalı idi. Həbsdə olanlar və mühafizə öz rollarına tez uyğunlaşdılar. Az keçmiş həqiqətən də təhlükəli situasiyalar yarandı. Hər 3 keşikçidən birində sadist meyl peyda oldu. Həbsə salınmışlarsa mənəvi travma aldığından, onlardan bir neçəsi təcrübədən vaxtından əvvəl çıxarılmış və təcrübə dayandırılmışdı. Yarımçıq saxlanmasına baxmayaraq nəticələrinə görə bu təcrübə ən qəddar təcrübələr sırasına daxil olub.

**Monstorların tədqiqatı**

1939-cu ildə Ayova ştatından Uendell Conson və onun aspirantı Meri Tüdor Devenportdan olan 22 yetim üzərində təcrübə qoydular. Onların elmi məqsədi kəkələmənin anadangəlmə deyil, sonradan qazanılmış keyfiyyət olduğunu sübut etmək idi. Uşaqlar danışmağa qorxu hissi keçirəndə kəkələməyə başlayır. Uşaqları iki qrupa ayırmışdılar. Bir qrupa necə də səlis

və aydın danışdıqları fikrini daima təlqin edirdilər. O biri qrupdan uşaqları isə Meri Tüdor hər ağzını açanda ələ salır və təhqir edirdi. Sonunda onları pəltək adlandırmağa başladı. Eksperiment nəticəsində uşaqların əksəriyyətində həqiqətən də pəltəklik əmələ gəldi və hətta təcrübə bitəndən sonra da yoxa çıxmayıb ömürlük qaldı. Kim ki, kəkələmədi, danışmamağa üstünlük verməyə başladı. Təcrübədən sonra sağ qalmış 3 nəfər universiteti və Ayova ştatını məhkəməyə verdi. Bundan 4 il keçmiş məhkəmə onlara 925 min dollar həcmində kompensasiya vermək qərarına gəldi. Bu təcrübəni ictimaiyyətdən uzun müddət gizlədirmişlər, çünki bu faşistlərin konslagerlərdə apardığı təcrübələrə bənzəyirdi. 2001-ci ildə Ayova universiteti təcrübə nəticəsində əziyyət çəkmişlərdən rəsmi üzr istəməyə məcbur oldu.

**4.1 saylı layihə**

Bu ad altında aparılmış tibbi təcrübəni Amerika Marşall adalarının sakinlərinin başına gətirib. 1954-cü ilin martın 1-də atom partlayışı nəticəsində alınmış radiasiyanın nəticələrini insanlar üzərində müşahidə etmək üçün amerikalılar belə dəhşətli təcrübəyə qol qoydular. Onlar belə nəticələri heç gözləmirdi. Təcrübədən sonrakı ilk 5 ildə uşaq salma və ölü doğulma halları həmişəkindən 2 dəfə artmışdı. Sağ qalanların əksəriyyəti xərçəng xəstəliyinə tutuldu. ABŞ-ın energetika nazirliyi təcrübəni belə şərh elədi: "...insanlara şüalanmanın təsirini öyrənən təcrübəni onları sağaltmaqla paralel aparmaq olardı" və "...Marşall adalarının sakinləri təcrübədə dovşan kimi istifadə edilmişdilər".

**MK-ULTRA layihəsi**

MK-ULTRA Amerikanın MKİ-nin apardığı gizli layihənin kod adıdır. Layihənin məqsədi şüurun idarə edilməsi vasitələrini, məsələn agentlərin verbovkası və dindirmələr zamanı informasiya çıxarmaqda psixotron kimyəvi

vasitələrin insana təsirinin nəticələrini öyrənmək idi. Proqram 1950-ci illərin əvvəlindən 60-cı illərin sonuna kimi açıq, sonra isə gizli fəaliyyət göstərib. Mərkəzi Kəşfiyyat İdarəsi biləkdən 1973-cü ildə MK-ULTRA layihəsinin əsas fayllarını məhv etdi. Bu da 1975-ci ildə Amerika Konqresinə təcrübənin fəaliyyətini öyrənmək işində əngəl yaratdı. Təcrübə altında olanlara kimyəvi maddə yeridilir və elektrik cərəyanı vasitəsilə komatoz vəziyyətə çatdırılandan sonra maqnit lentini dinləməyə məcbur edilirdi. Səs yazısında sadə komandalar dəfələrlə təkrar edilirdi. Məqsəd yaddaşın tam pozulması üsullarını kəşf etmək və şəxsiyyətin tam dəyişdirilməsi məsələsində irəliləyiş əldə etmək idi. Təcrübəni Allan Memorial İnstitutuna çox da böyük olmayan nasazlıqlarla, məsələn nevroz, ya da doğuşdan sonrakı depressiya kimi şikayəti olanlar üzərində qoyulurdu. Məsələnin ictimailəşməsindən sonra yaranmış skandal parlament tədqiqatı aparmağa və sonunda insan üzərində aparılan hər hansı təcrübənin yazılı razılıq ilə alınmasına dair qanun qəbul edilməsinə təkan verdi.

**“Aversiya” layihəsi**

Cənubi Afrika Respublikası ordusunda 1970-1989-cu illər arasında ordunu ənənəvi seksual oriyentasiyası olmayanlardan təmizləmə üzrə gizli proqram həyata keçirilirdi. Elektroşokdan tutmuş kimyəvi axtalanmaya qədər hər bir vasitə işə salınırdı. Qurbanların dəqiq sayı məlum deyil, amma həkimlərin danışdığına görə azı 1000 nəfər hərbçinin qeyri-insani yolla seksual oriyentasiyasını dəyişdirmək cəhdləri edilib. Həkimlərə əvvəl homoseksualları təyin etmək, müalicə etmək, mümkün deyilsə şok terapiyasına göndərməklə, hormonal preparatlar, hətta cinsi dəyişmək yoluylu “sağaltmaq” əmr edilmişdi. Təcrübəyə məruz qalanlar 16-24 yaşları arasında gənc hərbçilər idi. Təcrübənin başında duran həkim Obri Levin hazırda Kalqari (Kanada) universitetində psixiatriya üzrə professor kimi çalışır və şəxsi praktika ilə məşğuldur.

**Şimali Koreya eksperimenti**

Mətbuat Şimali Koreyada insanlar üzərində aparılan təcrübələrdən çox yazıb. İnsan hüquqlarının kobud şəkildə pozulmasına baxmayaraq Şimali Koreya dövləti bu faktların olmasını inkar edir və bəyan edir ki, ölkədə həbsdə olanlara qarşı humanist davranılır. Keçmişdə Şimali Koreyada həbsdə olmuş bir qadın danışır ki, onun gözünün qarşısında 50 qadına zəhərlənmiş kələm yarpaqlarını yeməyə məcbur etmişdilər. Onlar zəhərli yarpaq yediyini bilirdi, çünki bir az əvvəl yeyənlər gözlərinin qarşısında ağrıdan qovrulur və çığırırdı. Yeyəndən 20 dəqiqə sonra qadınlar qan qusur və anal qanaxmadan ölürdülər. Yeməkdən imtina etmək bütün ailənin repressiyaya məruz etməyə bərabər addım idi. Türmənin keçmiş rəisi Kvon Xek zəhərli qazla təchiz edilmiş kamera-laboratoriyanı təsvir etmişdi. Burda həm də qan üzərində təcrübələr qoyulurdu. Tibbi müayinədən sonra kameralar bağlanırdı və zəhərli qaz ora buraxılırdı. “Alimlər” bu zaman yuxarıdan, şüşə arxasından baş verənləri izləyib öz qeydlərini aparırdı. Kvon Xek deyir ki, bir ailənin ölməsini öz gözləriylə görüb. Valideyin və 2 uşaqlı ailədə kameraya qaz buraxılandan sonra valideynlər son nəfəsədək uşaqlarını qurtarmağa, ağızdan-ağıza nəfəs verməklə xilas etməyə çalışırdı.

**Qvatemalada sifilis tüğyanı**

1946-1948-ci illərdə Qvatemala hakimiyyəti Amerika ilə birgə zöhrəvi xəstəliklərin tədqiqi məqsədilə böyük bir layihəni maliyyələşdirirdilər. Təcrübə altına psixi xəstələri və həbsxana məhkumlarını salmışdılar. Onları bilərəkdən sifilislə yoluxdururdular. Məhkumun yanına artıq xəstələnmiş qadın göndərir, ya da cinsi orqanında cızıq çərtib bilərəkdən həmin yaradan xəstəliyə yoluxdururdular. Bu təcrübənin nəticələri və sonu barədə heç bir məlumat yoxdur. Amma 2010-cu ildə Amerikanın dövlət katibi Hilari Klinton 60 il bundan əvvəl keçirilmiş təcrübəyə görə Qvatemaladan üzr istəməli oldu.

**Taskiqidə sifilisin tədqiqatı**

İnsan üzərində ən uzun çəkən təcrübə 40 il sürüb. Alabama ştatının Taskiqi şəhərində 1932-1972-ci illərdə aparılmış tibbi eksperiment də tarixə ən utandırıcı təcrübələrdən biri kimi daxil olub. Eksperiment ABŞ-ın İctimai sağlamlıq Xidmətinin himayəsi altında keçirilirdi. 1947-ci ildən penisillin sifilisin ən çox yayılmış dərmanı olan vaxtlarda xəstələrə bunu xəbər verməmişdilər ki, xəstəliyin yayılma sürəti, nəticələri və s. səviyyələri barədə daha ətraflı məlumatlar toplansın. Təcrübə 399 zənci üzərində aparılırdı və onları başqa xəstəxanaya müraciət etmək imkanından da məhrum etmişdilər. Onları aldadır və pis qandan müalicə aldıqlarını deyirdilər. Əslində müalicə heç bir formada getmirdi. Təcrübə altında olanların həyatını və xəstəlik simptomlarını müşahidə edib qeydə alırdılar. Təcrübələr 1972-ci ilə, yəni məlumatın mətbuata sızdığı vaxta qədər davam etdi. Nəticədə çoxlu adam zərər çəkərək evdə həyat yoldaşını, uşaqlarını sifilisə yoluxdurdu. Bu təcrübə Amerika tibb tarixində ən murdar ləkə sayılır.

**731-ci dəstə**

Ötən əsrin 30-40-cı illərində Yaponiya ordusu Çin ərazisində "731-ci dəstə" adı altında bioloji silah sahəsində və bakterioloji müharibə zamanına hazırlıq üzrə tədqiqatlar aparırdı. Söhbət 200 min adamın həyatından gedir. Eksperiment canlı insanlar, qaçırılmış, əsir düşmüş adamlar üzərində aparılırdı. Bununla bərabər insan bədəninin davamlılıq həddi müəyyənləşdirilirdi. Qaynar suya, quraqlığa, qidasız, susuz qalmaya, donmaya və elektrikə qarşı davamlığı sonradan onun viviseksiya, yəni bədəninin yarılması ilə öyrənilirdi. Təcrübə altında olanları barokameralarda gözləri pırtlayıb çıxanacan saxlayırmışlar. Qurbanlar dəstəyə düşürdüsə bütün ailəsi ilə bərabər təcrübənin bütün ağırlığını yaşamalı olurdu. Eksperimentçilər Çin şəhərlərində yatalaq, taun kimi xəstəliklərlə yoluxmuş gənələri artırıb sonra buraxırmış. Su mənbələrini isə vəba vibrionları ilə "zənginləşdirirmiş". Dəstənin əməkdaşları 3 mindən artıq, bəzən isə 10 min

adamın iştirakını dilinə gətirir. Amerika Yaponiyaya bu faktları gizləməkdə kömək etdi ki, soyuq müharibədə özünə tərəfkeş qazansın.

**SSRİ Dövlət Təhlükəsizlik orqanlarının toksikoloji laboratoriyası**

Bu laboratoriya NKVD - NKQB - MQB - KQB zamanlarında da eyni funksiyanı daşımağında idi. Bəzi nəşrlərdə bu laboratoriyanı 1 saylı laboratoriya, 12 saylı laboratoriya, ya da "Kamera" adlandırdılar. Onun əməkdaşları toksinlər, zəhərlər icad edib təcrübədən çıxarmaqla məşğul idi. Təcrübələr həbsdə olanlar və ölümə məhkum edilmişlərin üzərində aparılırdı.

***

Əlbəttə, yuxarıda sadalanan informasiyanın bircəciyi kifayətdi ki, topdağıtmaz bir dövləti bir göz qırpımında nüfuzdan salsın. Ona görə də faktlar gizlədilir və çox nadir halda ictimailəşdirilir. Bir danılmaz fakt da var ki, insan üzərində aparılan təcrübələrin əksəriyyətində Amerikanın adı çəkilir. Adam inana bilmir ki, konslagerlərdə insanlara zülm verən faşistləri məhkum edən bir dövlətin özü də belə işlərlə məşğuldur. İnsanların səviyyəsi artdıqca nahaq ölümlərin, zülmlərin sayının azalacağına inanmaq istərdik. Həyat isə əksinəsini göstərir. Zülmkarlıq ən varlı, imkanlı, ağalıq iddiasında olan inkişaf etmiş ölkələrdə çiçəklənir…

## Estetikləşdirilmiş sadizm

*Uşaqlarımız iri miqyaslı sosial təcrübənin iştirakçılarıdır*

Bu yaxınlarda Rusiya televiziyada yayımlanan uşaq verilişləri multfilmlərə münasibətimi köklü surətdə dəyişdi. Həmin qanuna görə daim siqaret tüstülədən və dovşanın gününü qara edən "Nu, poqodi" qəhrəmanı uşaqların psixikasına zərər vura biləcək deyə yalnız gecə 11-dən sonra göstərilə bilər.

Çeburaşka da eybəcər qulaqlarına görə bu kateqoriyaya aid edilib. Amma bir-birini güllələyən, partladan, didişdirən, çeynəyən, dağıdan pakemonlar, bakuqanlar, qeyri mütənasib quruluşlu, üçbucaq sifətli, piramida bədənli, kubik şəkilli adamabənzərlər televizorlardan yığışdırılmadı. Olaylara kənardan baxanda uşaqların psixikasına mənfi müdaxilənin sanki hansısa əmr ilə, bilərəkdən edildiyi təəssüratı yaranır.

**Uşaqlar gördüyünü yamsılar**

Ötən əsrin 60-cı illərin əvvəlində Albert Bandura adlı psixoloq uşaqların aqressiyaya meylini və böyükləri yamsılamaq dərəcəsini öyrənmək məqsədilə eksperiment hazırladı. O, iri, havayla doldurulmuş kloun haqqında film çəkdi. Bobo adlandırılmış klounu bu filmdə bir qadın təhqir edir, döyür, təpikləyir, hətta çəkiclə döyəcləyirdi. Sonra film 24 nəfərlik bağça yaşlı uşaqlara göstərildi. 2-ci qrupa bu filmin yalnız yaxşı məqamları nümayiş edildi. Üçüncü qrupa isə heç nə göstərilmədi. Sonra bu 3 qrupu ayrı-ayrı otaqlara salıb kloun Bobonu da orda uşaqların ixtiyarına verdilər. Otaqlarda çoxlu çəkic və filmdə olmayan oyuncaq silahlar da vardı. Bobonun təhqir edilməsi barədə filmi seyr etmiş uşaqlar içəri girən kimi əlinə keçəni klounun başına çırpmağa başladı. Uşaqlardan biri isə pistoleti götürüb Bobonun gicgahına dirəyib filmdə olmayan fraza, məmnuniyyətlə beynini dağıdacağını dedi. O biri qruplarda bu tip hadisələr olmadı. Psixoloq nəticələrini cəmiyyətə açıqladıqda çoxları ağzını büzüb "rezin kukla elə təpiklənmək üçün yaradılıb da" dedilər. Onda psixoloq buna bənzər filmi canlı insanla çəkdi. Bu dəfə kloun paltarı geymiş adamı təpikləyirdilər. Filmi görmüş uşaqlar klounla bir otaqda qalan kimi üstünə cumub onu incitməyə başladı. Onlar üçün klounun adam, yoxsa kukla olmasının fərqi yox idi.

**Bəzən uşaqlar sözümüzə baxmasa yaxşıdı**

Ayova Universitetinin psixoloqları körpələrdə günah hissinin olub-olmaması ilə maraqlanırdı. Təcrübədə böyüklərdən biri uşağa gözəl bir

gəlincik göstərir, onun qeyri-adi olması barədə əhvalat danışır, onu sevdiyini deyir. Sonra uşağa onunla ehtiyatlı davranmağı tapşırır. Gəlincik uşağın əlində olan zaman içinə yerləşdirilmiş xüsusi mexanizm vasitəsilə onu dəhşətli vəziyyətdə sınıq hala gətirirlər. Bayaqdan gəlincik barədə danışan adam bunu görcək dərində ah çəkməli, sonra gözünü bir nöqtəyə dikərək bir dəqiqə susmalı idi. Həmin bu 1 dəqiqəlik sükut vaxtı uşaq haldan-hala düşür, büzüşür, gözlərin gizlədir, başını əlləriylə örtüb iti baxışların altında balaca səssiz yumağa dönürdü. Maraqlısı odur ki, belə təcrübədən sonra həmin uşaqlar sonrakı 5 il ərzində bir dənə də oyuncaq sındırmadılar.

Biz düşünürük ki, körpələri aldatmaq asandı və həyatlarında olacaq bütün maneələri keçməyi onlara yalnız biz öyrədirik. Məsələn, təzəcə iməkləməyə başlayan uşaq heç vaxt hündürlükdən aşmayıbsa bunun təhlükəli olduğunu hardan bilə bilər? Kornel Universitetinin alimləri Eleanor Qibson və Riçard Uolka bunu yoxlama cəhd ediblər. Onlar döşəmədə xalçanın qurtardığı yerdə sanki uçurum varmış kimi imitasiya yaradıb körpələri onun kənarında tək qoyub gedirlər. "Uçurumun" o biri tərəfində isə uşaqların anası onu çağırıb körpəni özünü təhlükəyə atmağa vadar edirdi. Axı uşaq maneədən rahat keçəcəyini bilmirdi. Körpələr sözə qulaq asmaq və özünü qorumaq instinkti arasında seçim etməli idi. Təcrübədə iştirak etmiş 36 uşaqdan yalnız üçü anasının sözünə baxıb şüşənin üstündən iməklədi. Qalanları ya geri çəkildi, bir hissəsi də ucadan ağlamağa başladı. Deməli bəzən uşaqlarımız sözümüzə baxmasalar daha yaxşıdı.

**Məni televizor tərbiyə edib**

Son illər 4-5 yaşlı inkişafdan gözəçarpacaq dərəcədə geri qalmış uşaqlara daha çox rast gəlmək olur. Onlar sadə suallara cavab tapa bilmir, ya da mənasız bir şeylər danışır, ya da susur. Sadə bir situasiyanı oyuncaqlarıyla quraşdırıb mənasını anlamaq olan əhvalatı dilinə gətirə, cümlə qura bilmir. Oğlan uşaqları xüsusilə utancaq və qorxacaqdı. Amma danışdıran kimi əllərindəki tapancanı az qala gözünə soxub özünü qanqster kimi aparır. Onlar

yaxşı hərəkətlərdən utanır, amma pis hərəkəti böyüklərin yanında etməkdən, məsələn yaxınlıqdakı uşağa sataşmaqdan utanmırlar. Sifətlərini əyir, acıqcan pis sözlər deməyə başlayırlar. Əlbəttə, bütün bunlar valideyni narahat edir, hətta qorxuya salır. "Görəsən, məktəbdə necə oxuyacaq?" deyə narahat olur, müəllim tuturlar. Amma "Uşaq bu hərəkəti kimdən götürüb?" sualını vermək daha düzgündür. Bu sualın qarşısında valideyn ya çiynini çəkir, ya da yoldaşının pis qohumlarını xatırlayır. Heç araşdırma aparmasaq da məlumdur ki, uşaqlarımız lap körpə yaşından kompüter oyunlarını oynayır və Qərb istehsalı olan multfilmlərə baxır. El bil ki, uşaqlarımız iri miqyaslı sosial təcrübənin iştirakçılarıdır. Son illər nüfuzlu psixoloqlar da, sosial hadisələri şərh edənlər də hansısa böyük bir təcrübədən danışmağa məcburdur. Multfilmlər və kompüter oyunları uşaqlara tamam yeni istiqamət və davranış qaydası təlqin edir. Ətrafda heç nə bu güclü, parlaq rəngli obrazlarla rəqabət aparacaq dərəcədə deyil. Görək Qərb uşaqlarımıza nələri öyrədir?

**Estetikləşdirilmiş sadizm**

Aqressiyadan başlamalıyıq, çünki bu, ən gözə çarpan məqamdır. "Pokemonlar"ı xatırlayaq. İngiliscədən tərcümədə (pocket monster) cib monstrları deməkdir. Onların əsas işi bir-birini məhv etməkdir. Bəzən böyüklər də təsadüfən bu kadrlarla üzləşəndə ekranlardan ayrıla bilmir və başqasının əzabını ləzzətlə seyr etməyə başlayırlar. Böyüklərdən heç də hamısı korridada öküzün ölməsinə, ya da it, xoruz döyüşlərinə sakit baxa bilmir. Amma televizordakı döyüşlərə rahat baxmaq olur. Uşaq isə təbii olaraq özünü filmin qəhrəmanı ilə eyniləşdirir. Qəhrəman qalib çıxıbsa bunun ləzzətini o da duyur və aqressiya onun psixikasının bir parçasına çevrilir. Əlbəttə, bütün nağıllar xeyir və şərin qarşıdurması üzərindədir. Əlbəttə, Məlikməmməd təpəgözün bircəcik gözünü çıxarmalı, ya da divin başını kəsməli idi. Amma müasir filmlərdə uşaqları sadomazoxizmə sürükləyirlər. Onlar qəhrəmanla birgə kiməsə ağrı verərkən ləzzət duymağa məcburdurlar. Bir-iki nəsil əvvəl seyr edilən multfilmlərdə nəinki qanlı

səhnələr, hətta dava-dalaş da yox idi. Müasir multfilm yaradıcıları Məlikməmmədin div üzərində qələbəsini yəqin ki, belə təsvir edərdi: "Məlikməmməd divin başını kəsəndən sonra bıçağını içinə salıb beynini eşib tökdü. Sonra barmaqlarını qanın içinə salıb onun hələ də isti olduğunu gördü. Qanlı əllərini üzünə sürtdü. Divin canı hələ çıxmamışdı deyən zarıyırdı. Məlikməmməd isə onun qanını stəkana süzüb içməliydi ki, divin gücü ona gəlsin … ". Buna estetikləşdirilmiş sadizm deyilir.

**Öyrədici verilişlər həm də seksual eybəcərliklər yayır**

Ekranın kütləyə təsirini öyrənən psixoloq Albert Bandura deyir ki, bircəcik davranış qaydası milyonlarla insanın həyat tərzinə çevrilə bilər. Çünki xuliqan davranış burada cəzalandırılmır. Göstərilən multiklərin əksəriyyəti maarifləndirici olmaq iddiasındadır. Məsələn, telepuzikləri götürək. Yeni il yolkasını bəzəmək üçün bir bant götürülür. Telepuzik "bəzək" sözünü dəfələrlə deyir ki, uşaqlar qavrasın. Sonra o, həmin bantı belinə bağlayır. Telepuziklər yenə də çoxlu "bəzək" deyə-deyə qalırlar. Amma sonunda o, bantı yanına yapışdırır və onu ordan çıxarmağa çalışır. Bu yerində artıq "bəzək" sözünə ehtiyac qalmır. Hamı bir-birinə qarışır, telepuziklər qaçışaraq onun dalındakı bantı çıxarmağa çalışır. Həm ekrandakılar, həm də onun qarşısındakılar gülməkdən uğunur. Sonra uşağınız yoldaşının dalına nəsə yapışdırıb dəlicəsinə gülməyə başlayanda "Bunu hardan öyrənmisən axı?!" deyəcəksiz? Burada üstəlik homoseksual motivlər də gözə çarpır. Axı bir qədər əvvəlin dostları bir-birinin dalına nəsə yapışdırmağı heç ağlına gətirə bilməzdi, ayıbdı deyərdilər, utandırardılar. Telepuzik qız paltarı geyib ekranda fırlanırsa, qalanları onu alqışlayırsa niyə də sizin oğlunuz belə etməsin? Bu tip zarafatı bəlkə yeniyetmələr bir-biriylə edərdi, amma körpələr yox. Lap kiçik yaşından cəmiyyətin qadağalarını pozmağı onlara öyrətməklə potensial cinayətkarlar yetişdiririk.

Bir qədər böyük yaş həddi üçün “Simpsonlar” adlı multfilmi xatırlayaq. Sözün əsil mənasında taxtabaş personajlar (orda hamının başı nədənsə kvadrat, ya da dördbucaqlıdır) özünü o qədər anormal aparır ki, uşağa qadağan etməkdən savayı əlac qalmır. Eyni adlı kompüter oyununda isə qəhrəman hər dəfə maşınını harasa, məsələn elektrik dirəyinə, başqa maşına vuranda oyunçuya xal verilir. Ən çox xal kiminsə üstündən maşınla keçib gedəndə qazanılır. Bu multfilmdə qocaları ələ salıb gülürlər. Evin kiçik oğlundan ana evi yığışdırmağa kömək istəyəndə “Özün elə, qoca qancıq” deyə cavab verir. Ya da tısbağa baba Simpsonun diş protezlərini oğurlayır, yazıq qoca onu tuta bilmir. Çathaçatda öz oğlu qapını üzünə çırpır və bu yerində hamı gülüşür. “Simpsonlar” multfilmi minlərlə insanın həyatını pozub. Multfilmin yaradıcı qrupu əziyyət çəkmiş valideynlərin şikayətinə görə dəfələrlə məhkəmə qarşısında durub. Amma filmi hələ də ekranlarda seyr edə bilərsiz.

**Uğursuzlar nəsli**

Nitq üzrə ingilis eksperti Salli Vord deyir ki, son 20 ildə yalnız vizual, yəni gözlə görünən informasiyanı qavraya bilən uşaqların sayı kəskin artıb. Onlar televizorun tərbiyə etdiyi uşaqlardır. Ona görə də onlar məktəbə gedəndə müəllimin dediklərini sanki eşitmir. Bunun günahını yenə də yeni nəsil multfilmlərdə axtarmaq lazımdı. Burada artıq psixolinqvistik kodlaşdırma üsullarından istifadə edilir. Məsələn, öyrədici verilişin dəxli olmayan yerində eyni qısa süjet təkrarlanır. Məsələn, gəmi ekranı yarıb keçir, ya da quşlar bir-bir gəlib ağaca qonur. Bu kadrlar keçilən mövzuyla qətiyyən əlaqədar deyil. 3-4 dəqiqə mənasız şeyə vaxt ayırmaq nəyə lazım, axı efirdə hər dəqiqə pulla ölçülür? Bu kadrlar uşaqları ekrana bağlamağın ən çox yayılmış üsuludur. Xüsusi seçilmiş səs yığını və rəng palitrası hipnotik vasitə kimi uşaqları ekrana bağlayır. Bundan sonra o, ata-anasının dediyini də eşitmir. Onu zorla ekrandan ayırsan çığırıb özünü yerə çırpacaq. Hazırda hər bir informasiyanı analiz etmədən qavrayan, ağzı açıq oturub televizora baxan debil insan psixikasının canlı nümunəsi hazırlanır.

Qədimdən bəri uşaqları yaxşı nümunələrlə tərbiyə ediblər. Məsələn, yazıda qrammatik səhvləri göstərməklə düzgün yazmağı öyrənirlər. Yen nəsil multfilmlərdə isə düzgün addımların növbəliyi pozulur. Düzgün olmayan dəfələrlə göstərilməklə şərhsiz qalaraq nəticə çıxarmaq uşağın öz öhdəsində düşür. Uşaqlar uydurulmuşu reallıqdan çətinliklə ayırır. Ona görə də Spaydermən haqqında multfilmdən sonra onlarla uşaq özünü hündürmərtəbəli binadan aşağı atmışdı. Onlar elə bilirdi ki, uçacaq. Yaxud yelləncəkdə yellənən uşaq bir az yellənəndən sonra yıxılır. Sonra qalxır yenidən yelləncəyə oturur və az keçmiş yenə də yıxılır. Bu Çarli Çaplinin biləərəkdən yıxıldığı kadrlardakı kimi müsbət enerji daşımır. Heç gülməli də deyil. Əgər belədirsə bunu niyə göstərirlər? 6 dəfə yelləncəyə minib yıxılmanı görmüş uşaq sanki uğursuzluğa köklənir. Ona da elə gələcək ki, hər dəfə yelləncəyə minəndə yıxılmaq lazımdır. Multfilm qəhrəmanları hər dəfə top oynayanda nədənsə onu lazım olan yerə atmırlar. Bizim uşaqlar da özləri bilmədən bunun təsiri altında bir metrlik məsafədən topu basketbol zənbilinə sala bilmir.

**Eybəcərləri yamsılayanda**

Hamımız "Sezam küçəsi" adlı öyrədici verilişlərə baxmışıq. Tüklü, danışanda ağzı qulağınacan, bəzən başının arxasınacan açılan, kəkələyən, fikrini səlis deyə bilməyən rəngbərəng personajlar uşaqlarımıza bilik öyrədir. Həmin personajlar bir çox bağçaların, küçə oyunlarının sevimli qəhrəmanlarıdır. Uşaqlar onları sevir, eybəcər, gicbəsər və aqressiv olmalarına baxmayaraq. Gül kimi uşaqlarımız eybəcərlərə oxşamağa çalışaraq həm eybəcərləşir, həm gicləşir. Çünki üzündə qəddar mimika yaradıb xeyirxah olmaq mümkün olmadığı kimi hırıldayaraq bilik qazanmaq mümkün deyil. Ona görə də artıq uşaqlığını arxada qoymuş nəsil sanki Buratino kimi taxtadan yonulub və kötük kimidir. Bu, müasir Qərb sivilizasiyasının ideoloji tərkib hissəsidir. Son zamanlar buna qloballaşma layihəsi də deyirlər. Qlobalçılar düşünür ki, planetin ehtiyatları tükənmək üzrədir, adamların sayı isə çoxdur. Ona görə də əhalinin sayını açıq-aşkar zorakılıq etmədən azaltmaq lazımdır. Təsirə tez düşənlər cinayətkar olacaq və onları həbs edəcəklər.

Beləliklə qiyamların, etirazların qarşısını almaq olacaq. Axı inqilablara ən cəsarətli, enerjili və cürətli şəxsiyyətlər başçılıq edir. Qlobalçı dünyada uşaq doğumunu azaltmaq lazımdı, ona görə də cinsi pozğunluq əsas instinkt adı altında yüksəklərə qaldırılır. Televizor qarşısında tələbatı ödəmək "arzuolunmaz" hamiləlikdən qoruyur. 3-cü tip insanlarsa televizora qarşı uşaqlıq sevgisini unuda bilməyib ömrünün sonunacan ağzı açıq şəkildə mavi ekranlara heyranlaqla baxacaq və ordan eşitdiyi hər məlumatı düzgün hesab edəcək. Belələrini idarə etmək çox asandı. Özündən narazı, bədbəxt gənclər yaratmaq qlobalçılıq layihəsinin tərkib hissəsidir. Bəs narkotikləri kimə satmaq olardı? Həyatından narazı, depressiyaya tez-tez düşənlərə narkotiki əvvəlcə dərman adıyla satırlar. İlk mərhələdə həyatın rəngləri də, mənası da yerinə qayıtmış kimi görünür. Yeni depressiya dalğası gələndə dünyada narkotikdən savayı xilaskar tapılmır. Yuxarıda sadalanan insan qruplarının hamısı narkoman olmağa namizəddir. Cəmiyyətin normalarına tüpürən adama burda yaşamaq çətin olar, o bədbəxtdir. Əgər gənclərin kitab oxumaq istəyi olsaydı böyük rus yazıçısı Dostoyevskinin "Cinayət və cəza" romanını oxuyub nəticə çıxarardı. Amma indi kitablar deyil, cinsi fəaliyyəti artıran və şəxsi yüksəlmə yolunda az qala yeganə vasitə kimi göstərilən narkotiklər təbliğ edilir. Statistikaya görə İngiltərə, Fransa, İspaniya və Hollandiyanın 16-25 arası kişi əhalisinin 40 faizi narkotik işlədib. Bu, bir növ məişətdə işlətdiyimiz, qarışqa və başqa həşəratlara qarşı səpdiyimiz zəhərli dərmanlar kimidir. Evdəki artıq canlıları qırıb qurtarır. Televizor qarşısında oturan hər bir uşaq risk zonasındadır.

***

...Multfilmlər azmış kimi Azərbaycanda məktəblərdə seksual tərbiyə adıyla yeni predmetin tətbiq ediləcəyi gözlənilir. Bu məsələdə Qərbdən çox geri qalmışıq. Yəqin pedaqoqlarımız əyani dərs vəsaiti hazırlamaq mərhələsindədir...

## Radiodalğalı beyin

*Susan adamı eşitmək artıq reallıqdır*

Arabir dünya mətbuatında "Yaxın gələcəkdə hamımız telepat və poliqlot olacağıq" kimi optimist xəbərlər oxuyuruq. Elə bil ki, alimlərin telepatiyanın mexanizmini anlaması artıq hamının telepat olması deməkdir. Amma onlar iddia edir ki, hər kəsi fikir oxuma metodikasına öyrədə bilərlər. Beyinin ultrasəs müayinəsi aşkar edib ki, insan yaddaşının küncündən, çoxdan unutduqlarını xatırlayıb çıxara bilir. Bu da alimlərə yaddaş xəritəsi yaratmağa imkan verdi. Az keçməmiş alimlər insan nəyisə dilinə gətirməmişdən əvvəl onun bütün fikirlərini bildiklərini iddia etdilər. Bir hadisəni izah etmək mümkündürsə deməli ondan yararlanmaq olar.

### İnsan heç nəyi unutmur

Təcrübələrdən biri belə baş verirdi: Şon Polin iştirakçılardan 90 müxtəlif obyektləri xatırlamağı xahiş edirdi. Obyektlər Tac-Mahal kimi tarixi abidə, ya da Gim Kerri kimi məşhur aktyor və məişətdə istifadə etdiyimiz boşqab, yaxıd tibbi maqqaş da ola bilərdi. Bu obyektin şəkli iştirakçılara nümayiş edilirdi. "Siz Cim Kerrini bəyənirsinizmi?", yaxud "Maqqaşdan istifadə edirsiz?" kimi suallar verilirdi. Bu zaman elektrik ötürücülər beyinin fəaliyyətini qeydə alırdı. "Biz fikirlərin yaddaşdan necə baş qaldırdığını az qala görürdük. Kiminsə pis xatırlamasının səbəbləri də çox aydın görünür. İnsanlar adətən heç nə unutmur. Bütün bunlar yaddaş çarxına yazılır. Bəzi kadrlar daha dərində yata bilər, amma uyğun assosiasiya olan kimi ani olaraq baş qaldıracaq. Bunu anlayandan sonra yaddaşını itirmiş Alsgeymer sindromundan əziyyət çəkənlərə kömək etmək mümkün olacaq" deyə doktor Polin təcrübələri şərh edir. Bütün bunlarla belə biz alimlərin insan yaddaşına müdaxiləsinə ehtiyatla yanaşırıq.

Telepat olub, olmadığını hər kəs daha yaxşı bilər. Bəzən içində sanki daxili bir səs "dur bir filankəsin nömrəsini yığ" deyir. Zəng edirsən, telefonun o biri tayında kimsə heyrətindən atlanıb düşür: "Lap indicə səni düşünürdüm və əlimi telefona uzadanda sən zəng elədin". Ya da 20 il əvvəl ucqar bir kənddə evində qonaq olduğun bir adamı qəfil xatırlayırsan. Qapı döyülür, görürsən ki, adını güclə yada saldığın bu adam sizə qonaq gəlib. Bundan sonra telepatiyaya necə inanmayasan? Nədənsə elmin tapıntılarıyla korlanmamış adamlar telepatiyanın mövcudluğuna daha rahat inanır.

**Moskvanın beyin kolleksiyası**

Növbəti mərhələlərdə telepatiya fenomenini bu dəqiqliklə öyrənmək nəzərdə tutulub. Əslində biz hamımız bir qədər telepatıq. Hamının başına gələ bilər, bir uzaq tanışını xatırlayırsan, o isə həmən gün təsadüfən qarşına çıxır. Yaxud nəyisə fikirləşirsən, amma ağzını açmamışdan əvvəl başqası eynən həmin fikri səsləndirir. Hamı bunun nə üçün belə olduğunu bilmək istəyir. Telepatiya fenomeni ilə bəlkə də 100 ildən artıq məşğul olurlar. Amma o vaxtlar beyin siqnallarını ötürə biləcək həssas qurğular hələ yox idi, amma "Beyin radiosu varmı?" sualı hamını narahat edirdi. Hazırda Moskvada Beyin İnstitutu fəaliyyət göstərir və onların aldığı nəticələr mətbuatda qətiyyən işıqlandırılmır. Hələ keçən əsrdən bu institut paronormal bacarığı olan adamları elm naminə Moskvaya dəvət edib müxtəlif aparatlarda tədqiq edirdilər. Onlar üçün fenomenal yaddaşı, yüksək intellekt göstəricisi olan adamlar telepat və öncəgörmələr qədər maraqlıdır. Həmyerlimiz Maya Bədəlbəyli dəfələrlə bu institutda normadan kənar imkanları olan beynini tədqiq edib. O, kosmosdan informasiya alır və avtomatik yazı yolu ilə onu vərəqə köçürür. Hazırda o, kvant fizikası və sair əlçatmaz mövzularda mənasını özü də anlamadığı düstur, tənliklər yazır və yazılarının öyrənilməsini alimlərə etibar edir. Deyək ki, artıq o, Moskvada yaşayır və Azərbaycanda belə tip adamlara diqqət və qayğı olmadığından Rusiya dövlətinin maraqlarına xidmət edir.

**Bağlı qapılar arxasında**

Keçən əsrin əvvəllərində Leninqrad Beyin İnstitutunda akademik Bexterev, mühəndis Bernard Kajinski paralel olaraq beyin imkanlarını öyrənirdi. Onların aldığı nəticələr üst-üstə düşdü və telepatiya istiqamətində daha əsaslı tədqiqatlara başlamağa əsas verdi. Biz bağlı qapılar arxasında nə baş verdiyini yəqin ki, heç vaxt bilməyəcəyik. Amma arabir alimlər "Etiraf etmək lazımdır ki, iki orqanizm arasında əlaqə yaradan nəsə fiziki agentin mövcudluğu müşahidə olunur" kimi inqilabi fikirlər deyilirdi. Çünki bu günün alimləri heç bunu da dillərinə gətirmirlər. Bu günün alimləri "beynin şüalandığı zaman nəsə elektromaqnit və başqa tip sahə əmələ gəlir ki, orqanizm bunu tutub şifrələyə bilir" kimi qaranlıq şərhlər verirlər. Ola bilər insan beyni ətrafın səs-küyündən bəzi siqnalları ayırmağı bacarır.

Telepatiyanın sistematik öyrənilməsi 1882-ci ildə Böyük Britaniyada başlayıb. Alimlər qrupuna Kembric universitetinin professoru Q. Sidjuik, kimyaçı U. Kruks, fizik U. Barret və O. Loc, bioloq A, Uolles və riyaziyyatçı A. Morqan daxil idi. Tədqiqat obyekti kimi telepat Smit və onun köməkçisi Blekbern seçilmişdi. Bu iki nəfər üzərində təcrübələr iki il ərzində böyük uğurlu keçirdi. Amma az sonra onların mistifikator olduğu aşkar edildi. 1911-ci ildə Blekbern qəzetə məktub yazıb zarafat etdiyini rəsmən boynuna aldı: "Bu təcrübələr iki gəncin özünü göstərmək istəyindən yarandı. Biz elm adamlarını aldatmaq istəyimizdən və bacarığımızdan ləzzət alırdıq". Bu boyda elmi nüfuzu olan dəstəni 2 gənc aldadandan sonra telepatiya üzrə təcrübələrə qoşulanlar ruhdan düşməliydi. Amma bu baş vermədi. Həm də telepatiyanı sübuta yetirə biləcək elmi baza yetişməyə başlayırdı. 1926-cı ildə Vasilyev "İnsan psixikasının sirləri" kitabında telepatiyaya bütöv bir bölmə ayırdı. O, insan kəlləsi ətrafında elektromaqnit sahənin olduğunu müşahidə etsə də onu qeydə ala bilmədi, çünki cihazlar kifayət qədər həssas deyildi. Amma bu imkan bu günün alimlərini əlində var.

Sovet alimləri 1919-1927-ci illərdə telepatiya ilə xüsusi məşğul olurdu və yaxşı nəticələr əldə etmişdilər. Paralel olaraq xaricdə professor Benk Reynin təcrübələr qoyulurdu. Bu da sovet alimlərini daha inadla bu mövzunu araşdırmağa məcbur edirdi. 1932-ci ildə telepatiyanın rəsmi tədqiqatı elan edildi və sifariş hərbçilər tərəfindən olduğundan gizli qrifi altında aparılırdı. Yenə də sonunda "2 orqanizm arasında nəsə bir bağlantı olduğu aşkar edildi" kimi heç nəyi izah etməyən açıqlama verildi. 60-cı illərdə akademik Zeydmanın rəhbərliyi altında 241 nömrəli yeşik adlandırılmış gizli laboratoriya fəaliyyət göstərirdi. Burda 12 müxtəlif peşəli alim çalışırdı. Təcrübələr həm adamların, həm də heyvanların üzərində qoyulurdu. Amma özünü parapsixolq adlandıranlar içində fırıldaqçılar da az deyildi. Onlardan ən çox nəticə göstərəni Vladimir Rud adlı telepat idi. O, qonşu otaqda yerləşdirilmiş 100 əşyadan 90-nını tapa bilmişdi. Amma sonradan məlum oldu ki, o, divarda deşik açıbmış və təcrübə zamanı onu otaqda tək qoymağı tələb edirmiş. Heyvanlar üzərində təcrübələr heç bir nəticə vermirdi. Həmin laboratoriyanı bir neçə ildən sonra bağlayırlar. Amma təcrübələrin arası kəsilmir. Bu dəfə uzaq məsafələrə fikir ötürmək üzrə yaxşı nəticələr alınır. Amma qəbul olunan siqnallar arasında lazımsız obrazlar daha çox olurdu. Uğurlu sayıla biləcək təcrübələrdən Liverpul universitetinin qoyduğu təcrübəni xatırlayırlar. Onun iştirakçısı Xeyli Blekleci qırmızı işıqla işıqlandırılmış otağa yerləşdirib gözünü pinq-ponq şarı ilə bağlayırlar. Onun qulağındakı qulaqcıqda sakit vızıltı səslənirdi. Küçənin o biri səkisindəki binada daha bir iştirakçı kompüteri qoşub qarşısına çıxan ilk fotonu seçib fikir vasitəsilə təcrübə altında olana ötürməliydi. Uçan şar rəsmini eynilə təsvir edən Bleklenc tam dolğun cavab verə bilmişdi. 1971-ci ildə Amerika "Apollon -14" gəmisi ilə yer arasında keçirilmiş telepatik seans barədə mətbuata açıqlama verdi. Gəmi kosmosda olarkən astronavt Mitçell ay orbitindən Yerə qayıdarkən telepatik əlaqəyə girib. Yerə qayıdandan sonra o dəqiqləşdirdi ki, ona göndərilmiş 200 informasiyadan 51-ni tapıb. Dünyada yüzlərlə telepatik təcrübələr qoyulub. Elə şəraitlər nəzərdə tutulub ki, orda

elektromaqnit və cəzbetmə sahələrinin telepatiyaya təsiri ola bilməsin. İnformasiyanın daha bir, insanın vacib saymadığı bioinformasiya kanalları ilə baş verdiyi artıq tez-tez deyilir. Bu kanal ilə insan bitkilər və heyvanlarla da ünsiyyətə girə bilir. Bəzi təcrübələrdə bitkilər informasiyanı ötürə biləcək vasitəçi rolunu da oynayır. Bəzən bir ağacın ağrısını ətrafdakı nəinki bitkilər, insanlar da hiss edir.

**Alimlər "telepatiya yoxdur!" deyir**

Elm inkişaf etdikcə alimlərin telepatiya barədə dedikləri daha da kasadlaşır. Xüsusilə də fiziklər ötürülən siqnalların ətraf mühitin siqnallarından dəfələrlə zəif olduğunu iddia edərək telepatiyanın mümkünsüzlüyünü deyir. Bəziləri isə fikrin insan beyninin yaratdığı xüsusi sahə olduğunu deyir: "Beyin neyronlarının sonsuz sayda sinapsları öz aralarında 3 ölçülü maqnit sahəsi yaradır və bu sahə beyindən kənarda, sanki virtual törəmə kimi mövcud ola bilir". Fikir elə bir struktur yaradır ki, başqa bədənləri, əşyaları rahat keçə və işığı özündən keçirə bilir deyə insanın gözü ilə görünmür.

Biz bilirik ki, telepatik əlaqə qohumlar, ruhən yaxın insanlar, ana-övlad, sevgililər arasında daha tez baş verir. Ailələrdə qarşılıqlı anlaşma varsa uzaq məsafələrə baxmayaraq adamlar heç ağzını açmadan bir-birinin istək və arzularını rahat oxuyur. Əslində telepatiya həmişə insanla birgə yaşayıb. Belə olmasaydı ana ağlayan uşağının yemək, yoxsa su istədiyini bilməzdi. Bununla belə rəsmi qaydada telepatiya yoxdur deyirlər.

**Hər kəs öyrənə bilərmi?**

Müasir insan telepatiya termini ilə yaxından tanışdır. Axtarış verib 2 saniyəyə telepatiyanın nə olduğunu bitdə-bitdə başa salan saytlardan tutmuş telepatiyanı evdən çıxmadan öyrətməyi vəd verən təlim məktəblərinin artıq illər uzunu işləyən metodikaları çıxır. Amma bu telepatların sayını nə artırır, nə də azaldır.

Telepatiyanı 2 növə ayırırlar: fikir telepatiyası və duyğu telepatiyası. Duyğu telepatiyası odur ki, telepat qarşısındakının keçirdiyi emosiyaları, duyğuları onunla yanaşı yaşayır, amma ola bilər ki, hal-hazırda onun nə düşündüyünü deyə bilməz. Fikirləri xəbər lenti kimi oxumaq daha yüksək səviyyədir.

Hər kəs telepatik imkanını aça və lazımi istiqamətdə kökləyə bilər. Bununçün Pentaqonun laboratoriyalarına ehtiyac yoxdur. Qəribəsi isə odur ki, insan texnogen sivilizasiyadan nə qədər uzaq olarsa, təbiətə yaxın həyat tərzi sürərsə onun telepatik imkanları daha aydın hiss olunur. Yəni telepatiya insanın başına gələn bir hadisə deyil, onun əqli fəaliyyətinin bir növü də sayıla bilməz. Bu imkan hər kəsə anadangəlmə verilib. Bəlkə də ona görə fenomeni ağıl və faktlarla dərk etməyə çalışan alimlər bu məsələdən çox uzaq düşüblər.

**Planetar yaddaşın dediklərindən**

Daha bir anlayış da var ki, ona planetar yaddaş deyirlər. Bu planetdə yaşamış hər canlı özündən sonra informasiya qoyur. Dünya bizim anlamımız üçün qapalıdır. Etiraf etməliyik, insan kosmos tarixində epizodik rol daşıyır və gəldi gedən hadisədir. Ona görə də dünyanı ağılla deyil, duyğularla dərk edənlər səhv etmir. İstər intellektual, istər cismani ləzzətlərlə dolu həyat yaşamış hər bir canlı iz qoyur və bu izlər toplaşıb Kainatın yaddaşını təşkil edir. Ekstrasensor qabiliyyətli adamlar bu yaddaşa daxil olaraq çox-çox əvvəl baş vermiş hadisələri sanki televizorda görürmüş kimi təsvir edir və duyurlar. Bu yaddaş kabus şəklində, işıqlı obrazlar, ya da xatirələr şəklində adi insanların da gözünə görünə bilir. Planetar yaddaşa daxil ola bilən insan böyük bir informasiya seli qarşısında aciz görünür. Nədənsə bu fikri ucadan səsləndirməyin özü də adamı dəhşətə gətirir...

## Ümumdünya diktaturası

*"Qar dənəciyi topa halında olarkən heç vaxt məsuliyyət hiss edə bilməz".*
*Volter*

Bizim düşündüklərimiz heç də həmişə bizim öz məhsulumuz deyil. Həyatımız başqalarının fikirlərindən toxunub. Ehtiraslarımız oxuduğumuz kitablardan, şahidi olduğumuz həyat hadisələrindən, baxdığımız filmlərdən sitatlar toplusudur. Yaşadığımız sistem insanları maşınlara çevirib və biz maşın kimi eyni hərəkətləri təkrarlamaqla məşğuluq. Bizə daim yol göstərirlər, hara getməli, nə danışmalı, nə ilə məşğul olmalı. Əgər siz əksəriyyəti kimi yaşayırsızsa bu qərarları siz vermirsiz. Bütün bunlar sistem tərəfindən təlqin edilib və nəzarət toru ilə idarə olunur.

**"Həyatımız bir zibil deyil!"**

Əlbəttə, səhər biz müəyyən vaxt oyanmalı oluruq, çünki işə, məktəbə, instituta getməliyik. Siz burada başbilənləriniz əmr və tapşırıqlarını yerinə yetirirsiz. Etiraz eləsəz qovulacaqsız. Siz işləyib məvacib almasaz evinizi və ailənizi təmin edə bilməyəcəksiz. Ona görə də boyunduruğunuzu çıxarmaq barədə düşünə də bilməzsiz. Müdirlər də onları nəzarətdə saxlayanların əmrlərinə tabedir. Müdirlərin də müdirləri olur. Dünyanın quruluşu belədir. Azad cəmiyyət adlandırdığımız quruluşda hər kəs dəhşətli bir nəzarət altında hərəkət edir. Sistem bizə qulluq etmir, əksinə biz sistemin qulluğunda dayanmışıq. Biz özümüzü "azadam" deyib aldadan bir qrup adamıq. Bu da kütləvi havalanmaq faktı deyilmi?

Bəyəm həyat hər gün eyni saatda oyanıb, eyni yolla, eyni nəqliyyat vasitəsilə işə gedib axşam həmin marşrutla evə qayıdıb eyni marketdən həmişəki kimi qablaşdırılmış yemək alıb onu hər axşam sizə axmaqlarçün hazırlanmış verilişə baxa-baxa yeməkdən ibarətdi? Amma biz etiraz etmək əvəzinə düşünürük ki, yaxşı yaşayırıq, yaxşı işimiz var və uşaqlarımıza yaxşı

təhsil verə bilirik. "Həyatımız bir zibil deyil!" etirafını eləməyə həyatın özü boyda qüvvə gərəkdi. Paradoksdur! Biz xoşbəxtlik dərəcəmizi bədbəxtlik meyarlarıyla ölçürük. Uğurlarımızı lazımsız kağız parçalarına, ya da sistemin qiymətli elan etdiyi əşyalara dəyişdiririk.

**Mən bacarmıram, siz də bacarmırsız…**

Məlum statistika var. Son 20 ildə gənclər arasında psixi sağlamlıq məsələsində mənfi tərəfə dəyişiklik 70 faiz artıb. 15 yaşlı uşağın uğur qazana bilməməsi faktı onda emosional travma yaradıb fiziki mənada sıradan çıxarır. Qərb dünyasında ali məktəbi bitirmə ərəfəsində tələbənin təhsil üçün aldığı çox böyük məbləğdə krediti əmələ gəlir. Bizdə də pullu təhsil artdıqca heç vaxt pul borc almayan adamlar belə xirtdəyəcən borc içində olur. Ona görə də tələbə tezliklə təhsilini bitirib xərclədiyi pulu geri qaytarmaq fikriylə işləmək istəyir. Borc artıq sistemin nəzarəti altında olmaq deməkdir. Sistem verdiyi biliklərin əvəzində bizim individuallığımızı alır. Aldığımız təhsil bilik vermir, yalnız artıq qurulmuş mexanizmdə öz yerini axtaran vintə lazım olduğuna inam hissi yaradır. Mən bacarmıram, siz də bacarmırsız… Sistemin bizə aşılamaq istədiyi fikir budur.

Enşteyn deyirdi: "Mənim bilik öyrənməyimə mane olan bir şey varsa o da mənim təhsilimdir". Onun fikrinə görə bilik təhsildən aldıqlarını unutduqlarından sonra yerdə qalanlara deyilir. İndi cəmiyyətdə üzdə görünən hər kəs, hakimlər, jurnalistlər, siyasi xadimlər, dövlət qulluqçuları - hamı ideoloji təhsil mənganəsindən çıxanlardır. Bu bir növ hörümçək toruna düşüb və istədiyi zaman ordan çıxacağına inanan milçəklərin özündə əminliyinə bənzəyir. Milçək ağır yerini tərpədib ordan çıxmaq istəməyənədək tora düşdüyünü anlamır. Həyatda da insan normadan kənar nəsə bir addımını atmayanadək tamamilə azad olduğunu düşünür.

**Dünyaya sui-qəsd**

Dünyanın idarəedilmə mexanizmində məşhur ailələr, hakim dairələr və gizli sektalarla bərabər masonların və ilüminatların adı çəkilir. Onlar hökumətlərə, bank sistemi, farmoseptik şirkətlərə, neftə, transbeynəlmiləl korporasiyalara, KİV-nə, polisə, kəşfiyyata və təhsilə nəzarət etməklə bütün dünyanı əsarətdə saxlaya bilirlər. Onların məqsədi ümumdünya tiraniyası yaradıb bütün millətlərə irqindən və dilindən asılı olmayaraq nəzarət etməkdir. Mərkəzi Bankı, ümumi pul vahidi və ordusu olacaq bu qurum artıq planlarının böyük hissəsini həyata keçirməkdədir. Növbəti addım dəriyə yeridilmiş çiplərdir ki, bunlar insanı qlobal kompüter şəbəkəsinə qoşaraq tamamilə idarə edilən edir. 20 il əvvəl də mətbuat bu barədə ara-sıra yazırdı, amma o vaxtlar bütün bunlar təbəssüm doğururdu. Biz indi müdaxilə etmək imkanı olmadan kənardan durub həyatımızın kompüterə qoşulması prosesini izləyirik. Bunun adı da var, qloballaşma. Siyasi tiraniya piramidasının ən yüksək zirvəsində dünya hökuməti oturacaq. Ölkələr əgər öz taleyini özü həll etmək qərarına gəlsə vahid ordu tərəfindən tənzimlənəcək. Bu əməliyyatın adı nə olacaq, bunun artıq fərqi yoxdur. Sülhsevərlik, ya da terrorizmlə mübarizə də ola bilər.

**"O inanır…", bəs siz?**

Bank sistemi və biznes artıq bir ovuc adam tərəfindən idarə edilir. Bankir sülaləsinin əsasını qoymuş ilüminat Rotşild demişdi ki, "Mənə milli valyuta üzərində nəzarəti verin, onda qanunlar çıxaranlara heç tüpürmək də istəmərəm". Bu fikir dünya diktaturası modelini çox anlaşıqlı edir. Dünya iç-içə piramidalardan ibarət bir quruluşa bənzəyir. Ən uca nöqtələrdə ilüminatlar ailəsinə aid olan şəxslər dayanır. Kəllədə duran şəxslər vacib nöqtələrdə adamlarını yerləşdirməklə bütün dünyanın yüyənini əllərində saxlayırlar. Başda duran şəxslərin arzusuna zidd olan bir dərman, ərzaq məhsulu, neft məmulatı istehsal oluna bilməz. Banklar biznes qurumlarını, dövlətləri və hətta adi adamları da kreditə otuzdurmaqla asılı vəziyyətə salır.

Banklar olmayan pulları əhaliyə verib əvəzində real gəlirlər alırlar. Adına pul dediyimiz nominal başqa cür borc adlanır və çek şəklində yayılır. Hətta nəğd pulu əlimizdə tutan zaman da bilməliyik ki, o, real deyil. Çünki pul kredit açmaq yoluyla yaradılır. Kredit sözü latıncadan "o inanır" kimi tərcümə edilir və aldadılmış milyonlarla insan üçün sözün həqiqi mənasını açır. Bank səlim ayırarkən sizə heç nə vermir. Sizin hesabınıza pulu köçürürlərsə deməli əvəzində ev, maşın, ya da qiymətli nəyisə girov qoymusuz. Bank sizin real malınızın əvəzində klaviaturada bir neçə düymə basmaqla pul deyil, sizinçün borc yaradır. Bu andan etibarən siz işləyib banka mövcud olmayan pulları faizlə qaytarmalısız. Şərtə əməl etməsəz bank sizin malınızı əlinizdən ala bilər. Həmin bu yolla dünya bankı dövlətlərə mövcud olmayan pullardan xalqın adından kredit verir və təsiretmə mexanizmini işə salır.

1863-cü ildə Rotşildlər Nyu-Yorkdakı tərəf müqabilinə məktubunda belə yazırdı: "Çek və kreditlərin məğzini anlayan bir qrup adam bu təklifdən o qədər ruhlanacaq və gələcək xeyirlərini hesablamaqla o qədər ilhama gələcək ki, bu qrupdan hər hansı müqavimət gözləmək lazım deyil. O biri, ağıllarının məhdud imkanına görə bu işi anlamayan çoxsaylı insanlar qrupu isə səssizcə öz taleyini yaşayacaq və sələmçilərin onların hesabına varlanmasını anlaya bilməyəcək. Bank sisteminin nəhəng miqyasda yalan olduğundan duyuq da düşməyəcəklər". Xaricdə kredit tarixçəsi olmayan adama çox pis baxırlar, hətta ona etibar etmirlər.

**Bayağılıq kanalları**

Kütləvi informasiya vasitələri də bank sistemi kimi bir ovuc adamın əlində təmərküzləşib. Təzə qəzet, jurnal və televiziya kanallarının sayı artsa da onları nəzarətdə saxlayan adamların miqdarı dəyişmir. Bu o deməkdir ki, efirdə yalnız onlar istədiyi fikirlər səslənəcək və yalnız süzgəcdən keçmiş xəbərlər işıqlandırılacaq. Bunlar ölüm, zorlanma, özünə qəsd, qarət barədə kriminal xəbərlər və fəlakətlər barədə reportajlardan ibarət olacaq. Elə həmin

səbəbdən "Efirdə niyə ağıllı verilişlər yoxdur?", "Bayağılıq baş alıb gedir!" fikirlərini səsləndirmək artıq gülünc görünür və olayların böyük bir planın, kütlənin zehnini ələ almaq məqsədinin artıq reallaşmaqda olduğunu sübut edir. Qloballaşmaya xidmət edən televiziya kanalı heç vaxt kütləvi etiraz aksiyasından, cari problemləri işıqlandıran xəbərdən, həqiqəti çatdıran çağırışdan reportaj yaymayacaq. Onlar nəyi dinləmək olar, nəyə baxmaq olar, nəylə maraqlanmaq olar məsələlərində artıq sizin yerinizə seçim ediblər.

**Çip = təhlükəsizlik!?**

Özünü aldatmaq üzrə gərək akademik rütbən olsun ki, əhalinin izlənməsi üzrə aparılan dəyişiklikləri görməyəsən. Hər yer kameralardır və bunun adını təhlükəsizlik tədbirləri qoyurlar. Nəsə qorxunc bir əhvalat baş veribsə əhali bunun bəzənmiş və dəyişdirilmiş variantından xəbər tutur. Əhalidə bilərəkdən qorxu hissi yaradılır ki, kritik anlarda xalq siyasi liderlərinə müraciət etsin. Psixoloq Uilyam Sarcant 1957-ci ildə buraxdığı "Şüur uğrunda çarpışma" adlı kitabında yazırdı: "İnsanın əvvəlcədən beyni qorxu, nifrət və hiddət induksiyası ilə bilərəkdən, ya da təsadüfən pozulmuşdursa ora müxtəlif əqidə və etiqadlar rahatlıqla yerləşdirilə bilər. Çünki bu tip təsir qısa müddətə insanı təqlid və təlqinə daha rahat edir. Buna bəzən sürü instinkti deyilir və bu instinkt müharibələr və təhlükələr zamanı avtomatik işə düşür".

Şəhərdə hətta sakitcə gəzişərkən də sizi kameralar durmadan izləyir. Mağazaya, ya da bir əyləncə mərkəzinə girsəz mənzərə dəyişməyəcək. Cibinizdə mobil telefon varsa yerinizi santimetrə qədər dəqiqliklə müəyyən etmək mümkündü. Sosial şəbəkədə qoyduğunuz izlər bütün həyat tarixçənizi sadalayacaq. Kredit kartları hər bankamata toxunuşda yerinizdən xəbər verir. Hazırda gözün minası və səsin identifikasına əsaslanmış sistemlər işlədilməyə başlayıb. Bundan sonra insana çip yeridilməsi gözlənilən final sonluqdur. Bu çip uşağa doğulan kimi yeridiləcək və o, ömrünün sonuna kimi tam və total nəzarət altında olacaq. Dərimizin altında çip olarsa biz

aeroportda növbədə durmadan keçə və mağazada cibimizə girmədən alış veriş edib haqqını çip vasitəsilə ödəyə bilərik. Bu insanı qısa boyunduruqda gəzdirilən heyvana bənzətmirmi? Artıq küçədə gecələyən evsiz-eşiksizlər üzərində dərialtı çipləşdirmə üzrə ilk real təcrübələr aparılıb. Çipi yerləşdirənlər onları izləməklə cinayətdən çəkinməyə məcbur edə biləcəklərini iddia edir. Əslində isə bu o deməkdir ki, prosesi idarə edənlər cəmiyyətə mesaj göndərir: "Biz cəmiyyətin etinasız olduğu adamları artıq "işarələyə" bilmişik. Çip məsələsi kütləviləşən kimi biz sizin də işinizə baxacağıq". Elektron hibrid olmaq istəməyənlər geridə qalmış elan edilib. Barselonada bir gecə klubu var. Onun reklamında deyilir ki, diskotekaya növbəsiz düşmək istəyən hər kəs dərisi altına çip yeritməyə razılıq verə bilər və diskotekanın qapıları onun üzünə həmişə açıqdır.

Biz hələ çiplərin qanunsuz yeridilməsinə dair nə qədər faktlardan xəbərsizik. İdentifikasiya kartlarının verilməsini də total çipləşdirmə əməliyyatının bir parçası saymaq olar. Yalnız xüsusi orqanların xüsusi işçiləri bilir ki, çiplər sadəcə sahibi barədə məlumat daşıyan qurğu deyil. Çiplərin ötürdüyü məlumatların toplandığı kompüter həmin adamı, yaxud bir qrup arzuolunmaz insanı təcrid edib, ona emosional siqnallar göndərməklə xəstələndirə, fiziki və psixi mənada sıradan çıxara bilər. İndi kompüter təyin edəcək ki, insanlar sakit yoxsa həyəcanlı olmalıdı, seksual həyəcan, yoxsa maddi sıxıntı çəkəcək. Bu da bizi sabahısı günün qorxusu ilə yaşamağa vadar edəcək. Biz bu günümüzü yaşamamış sağ qalmaq barədə düşünməli olacağıq. Bitlz qrupunun solisti Con Lenon demiş "Biz gələcəyə planlar cızarkən başımıza gələn əhvalatlara həyat deyilir".

**Səssiz silah**

1985-ci ildə bir sənəd ortalığa çıxdı. Onun adı "Gizli müharibə üçün səssiz silah" idi. Bu sənəddə deyilirdi ki, səssiz müharibə artıq keçən əsrin 50-ci illərindən artmaqdadır və görünməz elita tərəfindən elan edilib. İlüminatların

Bilderberq qrupu 1954-cü ildə müşavirə keçirdi. Onun tərkibinə kəşfiyyat, bank işi, siyasətçilər və sair vacib sahələrin nümayəndələri daxil idi. İnsanları məlumatsızlıqda saxlamaq və bununla da asan idarə edilən aparata çevirmək planı o vaxtdan bəri irəliləməkdədir. Çaşqınlıq içində olan insanlar xırda vacib olmayan detallar üzərində dayanmaqla əsas məsələləri gözdən qaçırırlar. Bununçün insan kəllələrindəki boşluğu sabit saxlamaq, əqli imkanları məhdudlaşdırmaq, onların riyaziyyat, iqtisadiyyat və başqa vacib fənlərdə alacaqları biliklərin keyfiyyətini aşağı salmaq və texniki yaradıcılıq qabiliyyətini öldürmək lazım idi. Bununçün durmadan KİV-də seks, zorakılıq və müharibə kadrlarını göstərməklə emosional təhqir və hücumlar etmək vacibdi. Plan belədir: İnsanlara istədiyini vermək və zehnə işləmək əvəzinə saqqız çeynəməyi öyrətmək, tarixi və faktları, eləcə də qanunları daima yenidən yazmaqla insanları normadan çıxmağa vadar etmək, problemləri süni şəkildə yaradıb sonra onların hazır həllini təklif etmək. KİV ağlı başı üstündə olan insanların başını ikinci dərəcəli məsələlərə qatmaqla məşğul etmək məqsədi güdür. Məktəblər uşaqlara real riyaziyyat, real tarix, real iqtisadiyyat barədə biliklər vermir. İnsanların əyləncəsi primitiv səviyyədə saxlanır. İnsanların başını işlə o qədər qatmaq lazımdır ki, onların düşünməyə nə vaxtı, nə də halı qalsın. Yuxarıda adı çəkilən sənəd görünməyən müharibənin qaydalarını belə təsvir edir. Müasir müharibədə real tüfəngdən deyil kompüter ekranından atəş açılır və qurbanları gözlə görmək çətin olur. Bu silah bioloji silah növünə aiddir. Bu cəmiyyət sizə də tanış gəlir? Yalanın miqyası fantastik dərəcədədir.

***

Ola bilər həqiqəti bilmək də sizi azad etməyəcək. Ola bilər özünüzü lap bədbəxt hiss etdiniz və əlacsızlıqdan çıxış yolunu görmədiniz. İndi siz oyunun qaydalarını və düşmənin planlarını da bilirsiz. Dünya diktaturası qismən artıq qurulmuşdur. Onlar sizin bank əməliyyatlarını, ərzağınızı, dərmanınızı, enerji

daşıyıcıları və maşınınıza tökdüyünüz yanacağa nəzarət edir. Onlar sizi sağalda bilməyən həkimləri, məktəbdə uşağınızı şikəst edən müəllimləri də, elmdə aparılan hər bir təcrübəni və tapıntını təsir altında saxlayır. Onlar bütün prosesləri nəzarət edən qanunları da istədiyi kimi silib yaza bilir. Ona görə də həkimlər sağlamlığı, hüquqşünaslar qanunvericiliyi, universitetlər biliyi, hökumətlər azadlığı, KİV isə informasiyanı, mənəviyyatı şikəst edir.

*Yazıda Devid Aykın "Sonsuz məhəbbət" kitabından istifadə edilib.*

## Filadelfiya eksperimenti

*İnsanlar üzərində qoyulan təcrübələr heyvanlarınkından mərhəmətli deyil*

Biz Allahın yaratdığı o qədər də kamil olmayan bir varlığı kimi nəyisə yaratmış olanda ən əvvəl özümüzdən əvvəl yaranmış, amma şüurluluq dərəcəsində bizdən aşağı və zəif varlıqların üzərində təcrübələr keçiririk. Milyonlarla siçan, donuz, dovşan və başqa canlılar farmakologiya, kosmetologiya, tibbin qurbanıdır. Amma insan fantaziyasının hüdudları yoxdur. O, nəyisə beyninə salsa təcrübəsini özü kimilərin üzərində qoymaqdan çəkinməz.

### Sivilizasiya hələ ki, kifayət qədər yetişməyib

Canlı insanlar üzərində qoyulmuş ən səs-küylü təcrübə tarixə Filadelfiya təcrübəsi adı altında girib. Onu 1943-cü ilin 22 oktyabrında qoyublar. "Eldric" adlı eskadra mina gəmisi təcrübə nəticəsində əvvəl tam yoxa çıxdı, ani olaraq başqa yerdə peyda olub sonra yenidən əvvəlki yerinə qayıtdı. 21 gün sonra təcrübə açıq dənizdə təkrarlandı. Bu təcrübənin bir neçə cazibədar tərəfi var. Əvvəla Filadelfiya eksperimentinin sirri hələ də tam açılmış sayılmır. Həmin səbəbdən də onun ətrafındakı söz-söhbətlər bu gün də

getməkdədir. ABŞ-ın Hərbi Dəniz qüvvələri komandanlığı ən əvvəldə olduğu kimi heç təcrübəyə bənzəyən eksperimentin olmadığını iddia edir. Amma bu barədə çoxları bilir, çünki Filadelfiya eksperimenti adı altında məşhur fantastik filmi çoxları seyr edib.

Üzərində təcrübə qoyulan gəmi təzəcə tikilmişdi. Təcrübənin əsasını Albert Enşteynin güclü cazibə sahələrində işığın sınması nəzəriyyəsi təşkil edirdi. Ehtimal var ki, hələ 1925-27-ci illərdə alim vahid elektromaqnit, cazibə və atom qüvvələrinin qarşılığı məsələsinə son dərəcə yaxınlaşmışdı. Başqa fərziyyəyə görə Enşteyn bu işi bitirsə də çap etdirməmişdi. Ölümündən əvvəl isə onları məhv etmişdi. Çünki sivilizasiyanın kifayət qədər yetişmədiyinə əmin idi və bu biliklər təhlükəli ola bilərdi. Enşteyn özü təcrübənin hazırlığında iştirak etməmişdi, amma nəticələri bildikdə analiz etmə mərhələsində müzakirələrə qoşulmuşdu. Güman edilir ki, eksperimenti təşkil edənlər ümumi nəzəriyyədən yalnız bir tərəfi götürərək əlavə effektləri nəzərə almamışdılar. Alimin təcrübəyə qarşı çıxdığı da ehtimal edilirdi. Çünki o, bu təcrübədə iştirak etsəydi onun əlavə effektlərinin qarşısını da ala biləcəkdi.

**İnsanların şəffaflaşmış bədəni sanki havada gəzirdi**

Təcrübədə güclü maqnit sahələri yaradan generatorlar bir-birinə müəyyən bucaq altında qoyulmuşdu. Qurğunun çəkisi 380 ton idi. Maqnit sahəsinin titrəyişi nəticəsində cazibə sahəsinin yaranması gözlənilirdi ki, bu da işıq şüalarını sındırıb gəmini görünməz etməli idi. Bu təcrübənin nəzəri bazası düz idi, amma proseslərin idarə olunmaz olduğunu kimsə nəzərə almamışdı. Təcrübə zamanı limanda "Endryu Fyurest" adlı başqa bir gəmi də vardı. Müşahidəçilər hadisəni belə xatırlayır: "Mən gəminin ətrafındakı havanın tədricən tündləşməsini görürdüm. Bir neçə dəqiqədən sonra isə südə bənzər yaşımtıl duman buludu göründü. Bu dumandan sonra gəmi ani olaraq insan gözü üçün görünməz oldu. Amma gəminin suda izi qalmaqda idi. Ətrafımızda vızıltılı, vıyıltılı güclü səs vardı. Mən əlimi dirsəyəcən cəminin

ətrafındakı sahəyə soxdum. Həmin qüvvə mənim qoluma təsir edirdi. Bədənim gəminin içində olsaydı yəqin ki, onun gücündən döşəməyə yıxılardım. Gəminin ətrafındakı sahə güclənəndən sonra əlimi itələyib bayıra atdı". Başqa bir şahid isə qarşısındakı gəminin yoxa çıxmasından sonra insanların şəffaflaşmış bədənini sanki havada gəzirmiş kimi görürdü.

Maqnitləşəndə insanların da, hətta saatların, cihazların "havalanması" müşahidə edilir

Təcrübə zamanı "Eldric" tamam başqa bir limanda, Norfolkda peyda oldu və onun orda olması gözlə göründü. Amma cəmi bir neçə andan sonra yenidən Filadelfiyadakı doka qayıtdı. Təcrübə zamanı elektromaqnit və cazibə sahələrinin qarşılığı nəticəsində gəmi yerini dəyişə bilən obyektə çevrildi. Bu maraqlı təcrübənin nəticələri insanlar üçün faciəvi oldu. Kimisi dəli olub fasiləsiz çığırır, kimisi yoxa çıxmış, kimisinin isə meyiti göyərtədə uzanmışdı. Görünənlərdən ən dəhşətlisi o idi ki, bəzi bədənlər yarıyacan gəminin göyərtəsinə girmiş və ordaca qalmışdı. Səyahət etmişlərdən öz-özünə yanma hadisəsi də müşahidə olunmuşdu. Onlar 18 gün yandılar. Bu yanma prosesi yanacaq vasitəsilə deyil, bədən molekullarının hərəkət sürətinin artması nəticəsində qızışmasından baş vermişdi. Təcrübədən sağ çıxanlardan bir neçəsi qəfil yoxa çıxıb istədiyi yerdə peyda olmaq qabiliyyəti qazanmışdı. Təcrübədən sağ-salamat 21 nəfər qayıtmışdı. 27 nəfər gəminin konstruksiyasına bitişmiş, 13 nəfər yanğın, elektrik cərəyanı və qorxudan ölmüşdü.

Təcrübənin nəticələri o qədər qeyri-adi idi ki, təşkilatçıları şoka salmışdı. Nəzəriyyə heç bir suala cavab verə bilmirdi. Ona görə də təcrübəni qapadıb sirr kimi saxlamaq qərarı verildi. Bu günə qədər də Filadelfiya eksperimenti rəsmi şəkildə yalan və uydurma sayılır.

**Hər bir elmi fırıldaqda Eynşteynin adı çəkilir**

Həmin bu 43-cü il eksperimentinə 16 dünya bestselleri, 2 A kateqoriyalı superfilm, saysız-hesabsız simpoziumlar, konfranslar, seminar və tədqiqatlar

həsr edilsə də rəsmi şəkildə o, keçirilməmiş sayılır. Dünyada onlarla Filadelfiya eksperimenti üzrə tədqiqatçı hələ də material toplayır, məruzələrlə ölkəni gəzirlər. Hələ sağ qalmış matrosların qohumlarını, dostlarını danışdırmaqdan yorulmurlar. Gah orda, gah burda yeni faktlar ortaya çıxır. Bəlkə bu hadisə də "Harri Potter" ya da "Üzüklərin hakimi" kimi maraqlı fantastik uydurma, insan təxəyyülünün bədii məhsuludur? Bu hadisəyə işıq salmaq istəyənlər də az olmayıb.

Hər şey Morris Cessapın öz işindən bezməsindən başladı. Avtomobil hissələrinin alveri ilə məşğul olan Morris boş vaxtlarında astronomiya ilə başını qatırdı. O, sadə kondominiumunda göydə nələri gördüsə 1955-ci ildə onun "NUO-in xeyrinə arqument" adlı kitabı çıxdı. Həmin kitabda anticazibə və elektromaqnit sahələrinin birləşməsi sayəsində kosmik gəmilərin uçmasının mümkünlüyündən yazılırdı. Kitabdan sonra Morris Amerika üzrə böyük reklam turnesində məruzələr etməyə başladı. Turnenin ən qızğın çağında o, Karl Meredit Allen adlı oxucudan 3 məktub aldı. Oxucu bu sahələrin qarşılaşması ideyasına etiraz edirdi, çünki təcrübənin nəticələrini öz gözləriylə gördüyünü yazırdı. Məktubda qəribə ifadə tərzilə Filadelfiya təcrübəsində baş verənlər təsvir edilirdi. İnsanların düşdükləri vəziyyət 2 halda göstərilirdi. Birincidə "içi boş" olurdu. Bu o qədər də qorxulu deyildi. İkinci halda isə adam "ilişirdi", yəni başqası ona toxunub tərpətməsə hərəkətə gələ bilmirdi. İnandırıcı görünməsə də artıq 60-cı illərdə Karl Alleni başqa planetlilərin yerə göndərdiyi həqiqəti deyən səfiri saymağa başladılar. Məktubu oxumuş Morris Cessap da belə faktları əlindən buraxmaq fikrində deyildi. Qeyri-ciddi səslənən faktların ortaya atılması Filadelfiya təcrübəsinin gizlinlərini açıqlamaq əvəzinə gülünc səslənməyə başladı. Mexanik-alim əlindəki məktubu əsas tutaraq Amerikanın rəsmi orqanlarına müraciətlər etməyə başladı və yeni kitab üzərində iş sürətləndi. Onun İvan Sanderson və Menson Valentayn adlı köməkçiləri də əmələ gəldi. Amma 1959-cu ilin 20 aprelində Morris Cessarı öz maşınında ölmüş tapdılar. Özünə qəsd etmiş tədqiqatçı guya ki, özünü maşın qazı ilə zəhərləyibmiş. Onun qanında çoxlu

alkoqol və antidepressantların izləri tapıldı. Meyitin autopsiyası aparılmadı. Bu Amerikanın rəsmi orqanlarının işi susdurmaq istəyində olması fikrini bir daha təsdiqlədi. Bu işin ardını doktor Valentayn və Alfred Bilek tədqiq etməyə başladı. İctimaiyyət Eynşteynin bu təcrübəyə heç dəxli olmadığını onlardan öyrəndi. O vaxtlar, lap elə inidinin özündə də hər bir elmi fırıldaq və kələyin hər birində Eynşteynin adı çəkilirdi. Eksperimentə Nikolo Tesla rəhbərlik edirdi. O, hərbi-dəniz qoşunlarında gəmilərin elektron davamlılığına cavabdeh idi. Amma o da təcrübədə insanların da iştirak edəcəyini bilib işdən kənarlaşdı. Bu addımından 10 ay keçmiş onu Nyu-York mehmanxanalarından birində ölmüş tapırlar. Ehtimal var ki, Nikolo Tesla teleportasiya nəzəriyyəsini təcrübədən keçirmək üçün şans qazanmışdı. Onun vəfatından sonra bütün arxivi Amerika hakimiyyətinin əlinə keçmişdi. Təcrübə Con fon Noyman adlı almanın əlinə düşdü.

**Görünməzlik üzrə təcrübə olub, ya yox?**

Hadisədən 10-15 il sonra yaranan kitablarda qəribə və inanılmaz hadisələr də yer almışdı. Burda guya təcrübədən bir az keçmiş limanın kafelərində ani peyda olub sonra qeyb olmuş matrosları görənlərin hekayətləri də təfərrüatıyla verilmişdi. Amerikanın rəsmi orqanları, hərbi idarələri hələ də "Filadelfiya eksperimenti olub, ya yox?" sualına cavab verirlər. Məsələ inkar edildikcə cəmiyyət təcrübədə insanların incidilmə faktından əmin olurdu. Axır 1996-cı ildə rəsmi açıqlama yayıldı: "Hərbi Dəniz Flotiliyası Filadelfiya eksperimenti barədə suallarla qarşılaşmalı olur. Biz hesab edirik ki, bu mövzu ikinci Dünya Müharibəsindən sonra Filadelfiya dokları ərazisində tədqiqatçıların apardığı araşdırmaların nəticəsidir. Bizim gəmilərin minaaxtaranlara görünməz olmasına görə apardığımız təcrübələr söz-söhbətə əsas yarada bilərdi. Əhvalatların livitasiya, teleportasiya və s. tərəfləri tədqiqatçıların uydurmasıdır. 50-ci illərdə həmin gəmidə generatorun 400 qertslik tezliyi 1000 gertsliyə əvəz edildi. Bu, gəmi ətrafında işıqlanma yaratdı.

Amma təcrübədə kimsə zərər çəkmədi. 1943-cü ildə görünməzlik üzrə heç bir təcrübə aparılmamışdır". Bu etiraf məsələni bağlamaq əvəzinə daha da şişirtdi və tədqiqatlar dairəsini genişləndirdi.

***

Faktları sadaladıqca "Bunu bizdən niyə gizlədirlər?" sualı cavabını öz-özünə tapır. Elmin ən parlaq nailiyyətinə görə canlını qurban vermək insanlıqdan kənar addım sayılır. Lap minlərlə insanın, lap Yer kürəsinin gələcəyini həll etməyə qadirdisə belə. Yüksək səviyyələrdə də insanlar bilir ki, bu tip cinayətləri etiraf etmək hərbi qüvvələrin insanlara qarşı olduğunu etiraf etməyə bərabərdir. Amerika hələ ki, silahlanmanın, müharibələrin, qəsbkarlığın və hərbi cinayətlərin cəmiyyətin rifahı üçün etdiyini deməklə riyakarlığını davam etməyindədir.

## Batmış şəhər

Musiqi mədəniyyətimizdə Əfrasiyab Bədəldəylinin "Qız qalası" baleti ilk Azərbaycan baleti kimi yer alıb. Bu əsər həm də şərqdə ilk balet sayıla bilər. Amma onu opera teatrının səhnəsində görə bilmirik. Yalnız televiziyada bəzi arxiv kadrlar bu baletin nə vaxtsa səhnələşdirildiyindən danışır. Bunun səbəbləri barədə danışmağı da sevmirlər. Əsas problem əsərin librettosundadır. Bəstəkar balet üçün Qız qalası barədə dillərdə dolaşan onlarla əfsanələrdən birini seçib. Ola bilər Qız qalası barədə əfsanələrin ən çox yayılmışını və ən çox danışılanını. Müasir mentalitetimiz bu rəvayəti danışmağı qadağan edir. Bir neçə il əvvəl mən Qız qalası haqqında yazı yazanda da bu əfsanəni yazıya salmışdım. Amma oxucu reaksiyasından narahat olan redaktorumuz onu tez-tələsik yazıdan çıxardı. Dedi "Ayıbdı".

**Dillərdə əzbər olan rəvayətin nəyi ayıb ola bilər?**

Qız qalası barədə onlarla əfsanə var. Heç pıçıltıyla da danışılmayan versiya belədir ki, qədim zamanlarda bir padşah varmış. Onun qızı çox gözəl imiş. Qız həddi buluğa çatanda padşah onu başqasına vermək istəmir deyən bir qala tikdirir və qızı orda yad gözlərdə uzaq yerdə saxlayır. Onun qızıyla evlənmək kimi məkrli istəyi də varmış. Qalanı qorumağı isə ən güclü sərkərdəsinə tapşırır. Amma qızla cavan keşikçi arasında sevgi qığılcımı parlayır. Padşahın məqsədi bəlli olanda bu gənc oğlan sevgilisini son damla qanına qədər vuruşaraq müdafiə edir. Qız isə geri çəkilərək qalanın lap başına dırmaşır. Sevgilisinin ölümünü görəndən sonra atasının təkidləri ona daha da iyrənc görünür. Qız tərəddüd etmədən özünü qalanın başından atıb Xəzərin sularına qərq olur.

Bu rəvayətə olmuş bir hadisə kimi baxılsa əlbəttə ki, utanc gətirən hal ola bilər. VII əsrdən bu yana müsəlmanlığı qəbul etmiş ölkə üçün tamam yolverilməz bir hadisə kimi görünür. Bu barədə məşhur alim memar Şamil Fətullayev deyir ki, əfsanəni abırsız kimi qiymətləndirib gizlətmək Qız qalasının və şəhərimizin tarixini gizlətməyə bərabərdir. Bu əfsanə bir daha sübut edir ki, Qalanın tarixi daha qədimdir və əlbəttə ki, müsəlmanlıqdan qabaqkı dövrün memarlıq nümunəsidir. Şamil Fətullayev qalanın tarixini eramızdan əvvələ aid edir. Onun fikricə o zamanlar şahlar taxt-tacı əldə saxlamaq məqsədilə öz qızları və bacıları ilə evlənirdilər. Həmin bu tendensiya Misir fironlarında da var idi. Adını çəkdiyimiz balaca bir əfsanə Qız qalasını XI əsrə aid edən rus araşdırmaçılarının cəhdlərinin üstündən bir xətt çəkir.

**Oğuz qalası**

Əfsanəni yararsız elan etməzdən əvvəl mifoloji təfəkkür prinsiplərinə nəzər salmaq lazımdı. Mifləri müasir insan təfəkkürüylə qavramaq yalnız yanlışlıqlar yaradar. Məsələn, Okeaniya adalarının miflərindən birində əfsanə qəhrəmanı özünü qayadan atır. Sonunda biz anlamalıyıq ki, bu, yağışın

yaranması barədə mif idi. Mifləri anlamaq üçün o dövrün insanının düşüncə tərzinə varmaq lazımdı. Qız qalası barədə yayılmış abırsız əfsanəni anlamaqçün da mövhumatı bir qırağa qoysaq yerdə quruca bir informasiya qalır. Bakı körfəzində Xəzər suları altında nəsə batıb. Bu gözəl gənc qız da ola bilər, böyük bir sirr də.

Qız qalası barədə yaranmış əfsanələr Bakı şəhərinin tarixi barədə daha artıq məlumatlar verir. Qalanın Qız qalası adlandırılmasına dair də çoxlu rəvayətlər var. Bəziləri deyir ki, Qala oğuz türklərinin Azərbaycana axışdığı vaxt tikildiyi üçün əvvəl Oğuz qalası adlandırılıb. Sonradan bu, "Ğuz qalası"na çevrilib. Müəyyən vaxt keçdikdən sonra isə Qız qalası kimi səslənməyə başlayıb. Bu dilimizdəki dəyişikliklərlə bağlıdır. Müasir tarix və dilçilik elmi isə oğuzların bura gəlmədiyini, elə buralardan yarandığı fikrini təsdiqləyən an qalanın dünyada ən ilkin qalalardan biri olması fikri ortalığa çıxır.

Bircə qalanın Qız qalası kimi adlandırılması kifayətdi ki, onun göydəki dəyişməz ulduz xəritəsilə tutuşdurub onun yerini qız bürcüylə uyğunlaşdıraq. Ən kobud hesablama günümüzdən 6500 il əvvələ gedib çıxır. Yəni Misir piramidalarından da əvvələ. Qız qalasının quruluşunu, bizim buta adlandırdığımız naxışı göy qübbəsində görünən zamanlarda yer üzündə hələ ki, nə qızına sataşan padşahlar, nə də Qala ətrafında dəniz vardı. Onda görəsən qızın özünü suya atması nə məna daşıyır?

**Bakı kraterin içindən doğulub**

Qız qalası barədə əfsanələrin əksəriyyəti gənc qızın oğurlanması və ölməsiylə nəticələnir. Bir əfsanə də Bakı şəhərinin banisi Xursurun öz günahkar bacısını qalada kilidli saxlaması barədədir. Buna cavab olaraq qız özünü qaladan atır. Nəticədə Allah Xursurun otaqlarını əlindən alır və onların əvəzində Xəzər dənizini yaradır. Belə çıxır ki, əfsanə yaranan vaxtlarda Qız qalası hələ Bakı körfəzində deyildi və qızın özünü qaladan atması nəticəsində yaranıb. Daha doğrusu dəniz Bakı körfəzindən aralıda ləpələnirdi.

Gəlin bu məsələyə aydın göylə, daha doğrusu bütün dünyanın istifadə etdiyi sivil yolla, "Google Earth" proqramının vasitəsilə peyk hündürlüyündən baxaq. Deyim ki, Google-nin xəritə funksiyası bizə bu tip araşdırmalarda kömək etməyəcək. Çünki xəritə yerin landşaftını verməyə qadir deyil. Bu işi "Google Earth" çox yaxşı icra edərək bütün qabarıqlıqları və çökəklikləri aydın göstərir. Azərbaycanın görünüşünü qartalın dimdiyi tam aydın olanadək böyüdəndən sonra müasir Bakının hansısa çökəklikdə yerləşdiyini görməmək mümkün deyil. Sanki nə vaxtsa bura ya meteorit düşüb, ya da hansısa çox böyük bir asteroidlə toqquşma baş verib ki, belə çökəklik əmələ gəlib. Fəxr elədiyimiz Bakı amfiteatrı hazırda həmin yaranmış kraterin şimal divarını təşkil edir. Dəniz tərəfdən isə kraterin o biri başı artıq yoxdur. Amma Nargin adası və başqa kiçik adalarla birlikdə onların dairənin o biri tərəfində olduğunu görmək çətin deyil. Xəzər dənizinin sualtı landşaftı peykdən aydın görünür və bu fikri bir daha təsdiqləyir.

**"Qalada yatmış idim, top atdılar, oyanmadım**
**Söz ilə söhbət ilə oyatdılar"**
**(xalq mahnısı)**

Vaxtilə Bakı körfəzinin quru olması barədə daha bir əfsanə də danışır. Deyilənə görə Makedoniyalı İskəndər Bakını tutmaq istəyirmiş, amma onun çox müdafiəli olduğundan yaxına gəlmirmiş. O vaxtlar dəniz bayaq adını çəkdiyimiz kraterin cənub tərəfindən də bağlı imiş. Makedoniyalı İskəndər bu təbii baryeri kimyagərləri vasitəsilə dağıda bilib. Yəni onlar hansısa kimyəvi maddə ilə qayalarda deşik açıb suyu şəhər körfəzinə, yəni ayparanın içinə buraxıblar. Ona görə də cənub tərəfdən şəhər açıq qalaraq rahat əldə edilən olub.

Vaxtilə dənizin içindən keçən yollar barədə hələ də Bakı kəndlərinin qocaman sakinləri danışa bilər. Bu yolları tanıyanlar vardı, bəzən su qalxıb onların üstünü örtür, bəzən isə geri çəkilib sualtı qayalıqlar üzə çıxırdı. Hazırda Abşeron dənizin içinə aparan daş yollarla doludur. Onlar sahildə

başlayaraq dənizin içərilərinə aparır. Sanki arabalar bu yolla o qədər çox gedib ki, qayaların içində iz salıb. Suxurların yaddaşı fantastik, inanılmaz rəqəmlər deyir. Onlardan ən cavanı 30-50 min il bundan əvvəlki zamana işarə edir. Analoji daş yollar İtaliyada, Malta adasında da var. Orada italyanlar bu yollar barədə böyük tədqiqatlar apararaq bu əraziləri qoruğa çeviriblər. Maltada aparılan tədqiqatlar göstərir ki, bu araba yolları elə vaxtlarda salınıb ki, Yer kürəsində qayalıqlar hələ nisbətən yumşaq vəziyyətdə idi. Lap qədim zamanlarda 3 dəniz, Aralıq, Xəzər və Qara dənizlər arasındakı ərazilərdə Titan dənizi adlı böyük bir dəniz vardı. Yer kürəsinin sonuncu qlobal subasmasından sonra da (Bu artıq Nuh peyğəmbərin insan irqini xilas etdikdən sonrakı dövrdür) su yavaş-yavaş geri çəkildikcə qayalıqlar üzdə qalıb daşlaşdı.

**Bu yollar hara aparır?**

Bizdə Abşeron bölünərək şəxsi həyətyanı sahələr kimi əhaliyə paylanır. Tarixi abidələrsə torpaq sahibinin insafına qalır. Məsələn, Bilgəhdəki daş yollar son 5-10 il ərzində tamamilə yoxa çıxdı. Qayaüstü tikilən villa sahibləri hündürmərtəbəli evlərin bünövrəsini qazmaq üçün qayaları paralayanda burdan nə vaxtsa dənizin içərilərinə aparan daş yolları qaya üzərində təsadüfən salınmış cığırlara bənzətdilər, ya da onları heç görmədilər də. Daş yolları bəlkə hələ ki, Hövsan, Türkan qəsəbələri tərəfdə tapmaq mümkün ola. Nəzərə alın ki, Türkan dənizi də artıq bir neçə ildir ki, daş hasara alınıb. Orda bizə bu yollara heç baxmağa da icazə verməyəcəklər. Sahilin 30 metrə qədəri hələ ki, dövlətin mülkiyyətində olduğu vaxtda da.

Qız qalası haqqında daha bir versiya da dəniz yolları barədə danışır. Bu əfsanəyə görə xan qızını qalada bağlayıb yad nəzərdən qoruyur. Amma qızın istəklisi varmış və onlar hər gün görüşə bilirmiş. Oğlan sevgilisinin Qalanın başından verdiyi odla işarəyə gözünü dikərək suyun üstündən addımlayaraq qalaya tərəf gəlirmiş. Onlar görüşür, sonra isə oğlan həmən yolla da geri

qayıdarmış. Bir gün qız qalanın başından işarə verməyi unudur. Oğlan o biri sahildə oturub uzun müddət sevgilisini gözləyir. Axırda suyun üstüylə getməyə başlayan kimi Xəzər onu batırır. Qız birdən ayılıb görür ki, sevgilisi suda batır. O da özünü suya atır və onlar bir-birinə qovuşurlar. Bu əfsanənin məntiqinə görə də Qız qalasıyla üzbəüzdə torpaq varmış və Bakını Neapola bənzədən yarımdairəyə suyun üstündə addımlayaraq Qız qalasına çatmaq olardı.

**Sualtı şəhər hərdənbir görünür**

Bu epizodu Qılman İlkinin "Bakı və bakılılar" kitabından oxumaq olar. Təxminən bir əsr qabaq Xəzərlə Bakıya Salyan istiqamətində üzən "Saraxanı" adlı gəminin kapitanı suyun altında gördüyü mənzərəni belə təsvir edib: "Körfəzin suları sakit idi. Günəş dənizin dibini apaydın işıqlandırmışdı. Birdən gəmi heyəti gəminin böyük bir küçənin üstü ilə üzdüyünü gördü. Aşağıda, dənizin dibində qədim bir şəhər görünürdü. Küçələr, döngələr ovucun içi kimi aydın idi". Hamının Səbail qalası kimi tanıdığı daha bir qala da arabir dənizin dibindən baş qaldırır. Sudan boylanan qala daşları kimdəsə heyrət, kimdəsə maraq oyadır.

Orta əsrlərdə ərəb mənbələri Qız qalasının 6, ya da 9-a oxşamasından yazır. Bu 2 rəqəm birlikdə 96 edir. Allahın müqəddəs adlarından 96-cısı Əl Baqidir. Baqi - əbədi olan, daimi deməkdir. Qalanın yerləşdiyi yerin adının da Baqa olması yəqin ki, təsadüf deyilmiş. Müqəddəs kitabımızda Ali İmran surəsində yer üzündə 8 qapılı cənnət timsalında tikilmiş ilk şəhər, Bəkkənin adı çəkilir. (Muhakkak ki, insanlar için konulan ilk ev, aləmlər için mübarek ve bir hidayet (kaynaglı) olarak (konulmuş) (Bi-) Bekke (Mekkenin batını)deki (ev)dir.)

Bayrağımızdakı səkkizguşəli ulduzumuzun yəqin ki, mənasını bir daha aydınlatmaq lazım gəlməz. Çində Baqua adlanan səkkizguşəli ulduz formasında bir simvol var. Onu çinlilər şər qüvvələrdən qoruyan gözmuncuğu kimi işlədir. İnama görə Baqua vaxt və zamanın simvoludur.

***

Vaxtilə Bakı şəhəri yer kürəsinin müqəddəs yerlərindən biri və böyük bir ziyarətgah idi. Burda minilliklər əvvəl də küləklər meydan oynadır, yerdən od püskürürdü və o qədər də qələbəlik olmazdı. Ola bilər, Abşerona ziyarətə gəlmiş zəvvarlar buradakı qayaların birində üzü qibləyə oturub zikr, Abşeron günəşinin şəfəqləri altında yaradana şükr eləyirmiş. O da ola bilər ki, yanından kimsə keçəsi olsaydı ona Bakının suda batmış incisi barədə, özünü dənizə atmış bakirə qız barədə bir rəvayət də söyləyərdi. Çünki ona belə danışmışdılar, o da beləcə söyləməliydi. Elə o vaxtlardan bəri bu əfsanə dildən dilə ötürülür, dəyişdirilir, amma yenə də danışılır. Qız qalası barədə bütün əfsanələr eyni fikri dönə-dönə deyir, Xəzər dənizində çox qiymətli bir şey suya batıb. Ona görə də mentalitet qarşısında qorxu çəkib uşaqlarınıza rəvayətləri danışmaqdan çəkinməyin, qoy bilsinlər...

## Bəşəriyyətə üçüncü və sonuncu müraciət

1929-cu ildə rus rəssamı, mistik-filosof, yazıçı, səyyah Nikolay Konstantinoviç Rerix dünyanın 4 ölkəsinə müraciət məktubu çatdırdı. O, həyatını mistik fəlsəfə yolunda həqiqət axtarışına sərf edib ömrünün çox hissəsini Tibetdə monax həyat tərzilə yaşamış bir adam olub. Ailəsi və dostları ilə bərabər indi Rerix adına cəmiyyət kimi fəaliyyət göstərən bu könüllü birlik dünyada sülh və əmin-amanlıq yaymaq istiqamətində fəaliyyət göstərib. Onun gətirdiyi müraciətin qısaldılmış mətni ilə tanış olaq:

**Fəlakət 6500 il sonra baş verəcək**

Özünü Bəşəriyyət adlandıran Yer planetinin şüurlu sakinlərinə Müşahidəçilərin Koalisiya Dəstəsi (M. K. D.) müraciət edir. Şambalanın vasitəçiləri E. İ. Rerix və N. K. Rerix tərəfindən çatdırılıb. 1929-cu il. Hazırkı müraciət yer sakinlərinə edilmiş 3-cü müraciətdir. Birinci müraciəti M. K. D.

miladdan əvvəl 576-cı ildə yer üzünün böyük şəhəri olan Amurcaxapur sakinlərinə göndərilib. 2-ci müraciət eramızdan 711 il əvvəl Amerika materikindəki Tkaatsetkoal sakinlərinə çatdırılıb. İndiki müraciət əvvəlki 2 müraciətin demək olar ki, eynidir və yer üzünün əsas dillərində çin, ingilis, rus, ispan dillərində tərtib edilib. Müraciətin məqsədi bəşəriyyət və Koalisiya arasında danışıqlar apararaq gələcəkdə yer sakinlərinin bu Koalisiyaya daxil olmasını təmin etməkdir. Danışıqlar Yer sakinlərinin bəzi tələblərə əməl etməsi şərtilə baş tuta bilər.

Hazırda yer sakinlərinin Kainat haqqında təsəvvürləri əvvəlki müraciətlər zamanına nisbətən daha dəqiqdir. Siz artıq bilirsiz ki, yer kürəsi yastı deyil və Kainatın mərkəzində yerləşmir. O, başqa planetlər kimi Günəş ətrafında fırlanır. Günəş özü də Kainatın mərkəzində deyil və Qalaktikanın tərkibindəki ulduzlardan biridir. Yerdə qalan kosmoqonik məlumatlar səhvdir. Sizin alimlərin Kainatın dəyişilməz qanunlarla idarə edilməsi barədə fikirləri də səhvdir. Belə ki, cazibə qanunu sizin günəş sistemində də dəyişir, o ki qala başqa, daha iri miqyaslarda. Ona görə də siz Qalaktikanın ölçüləri və aralarındakı məsafələri ölçməkdə səhvlər edirsiz. Kainatın üçölçülü olması barədə də fikirlər səhvdir. Dünya xaosdur, orda dayanıqlı, sarsılmaz heç nə yoxdu və o, daima dəyişməyindədir. Üzvi maddələrin yaranması üçün ən rahat şərait $+\pi$ (3,14) olduqda baş verir. Hazırda Günəş sistemi +3, 00017-yə bərabər ölçüdədir. Bunun 3 rəqəminə yaxın olması sizi çaşdırıb. Qalaktika topasında -3,15 ölçülü qravitasiya siklonu dolaşır. O, sizin qalaktikanın kənarına toxuna bilər. Bu baş versə bütün planetlərdəki canlı həyat öləcək. Ona görə də müdafiə olunmaq üçün tədbirlər tökmək lazımdır. Bu şərt sizi Koalisiyaya daxil olmağa vadar edir. Çünki fəlakət müraciət göndərilən ildən 6500 il sonra baş verəcək. O zamana qədər Koalisiya bəşəriyyətə fəlakətə hazır olmaq üçün inkişaf etməyə kömək edəcək. Hazırda sizin Qalaktikada 220 min şüurlu irq var, onların da Koalisiyaya daxil olması məsələsi müzakirə edilir.

**Sizin çoxlu səhvləriniz var**

Siz yerdə həyatın yaranması barədə səhv fikirdəsiniz. Günəş sistemi Koalisiyanın inşaat dəstələrinin Kainata səpələdiyi toz buludundan yaranıb. Yaranış üçün 2 şərt vardı: başqa ulduzlardan kifayət qədər uzaq və +π rəqəminə yaxın olmaq. Siz canlı individi şüurlu varlıqla səhv salırsınız, bəşəriyyətin qocalması və ölməsi barədə yanlış təsəvvürləriniz var. Sizin zəif təsəvvür etdiyiniz təkamül prosesində yeni növlər artıq köhnəlmiş növlərdən yaranır. Bizim qayğımız odur ki, yeni şüurlu irqlər Yerdə sizin növdən yaransın. Koalisiyanın müşahidələrinə görə siz yaranış və inkişafınızı təsadüfi hadisə kimi qəbul edir və qısamüddətli tələbatlarınızı ödəməklə məşğulsunuz. Sizin də düşüncəniz məntiq axtarışlarına əsaslanıb. Amma bu, Koalisiyaya daxil başqa şüurlu varlıqlarla sizi eyniləşdirən yeganə cəhətdir. Ona görə də Koalisiyanın bəzi iştirakçıları sizi şüurlu irq kimi qəbul etməkdə tərəddüd keçirir.

Sizin məntiqin əsasını "bəli" və "xeyr" kimi miskin anlayışlar təşkil edir. Reallıqda isə onların arasında mürəkkəb analizin nəticəsində yaranan sonsuz sayda pillələr var. Cavab axtardıqda 2 mümkün variantdan birini seçməli olursuz, halbuki düzgün cavab onların arasında yerləşir. Ona görə də məsələləri həll etdikdə səhvlərə yol verirsiz və cavabınız rəqəmsel olmur. Bizim bildiyimizə görə elmi, hüquqi qanun sizdə müəyyən fraza ilə ifadə edilə bilir və o, 50 minlik lüğətdən 100 sözlə çatdırılır. Onlardan yalnız diaqnostik mənası olan sözləri saxlamaqla qalanlarını atsaq onların sayı 50-yə düşür. Qrammatik qaydaya uyğun işlədilmiş sözləri də çıxarsaq frazalar 25-ə yenər. Onlardan səhvləri də çıxarsaq sizin nitqinizdə reallığı ifadə edən 3-10 müddəa qalacaq. Deyək ki, başqa planetlərdə o qədər heyvan növləri var ki, sizin qədər nəticələr göstərir, amma onları şüurlu varlıqlar adlandırmırıq. Sizin də planetdə belə heyvan növləri var. Ona görə də sizin həyat formanı şüurlu deyil, potensial şüurlu saymaq məqsədəuyğun olardı. Təbiətən insan beyni Kainatdakı başqa şüurlu varlıqların düşünən aparatı qədər kamil qurğudur. Amma sizin inkişaf əvvəldən səhv yolla gedib. Biz Kainatda sonsuzluğa qədər

gedib çıxan düzxətli məntiqi təfəkkürə malik olan bir neçə irq tanıyırıq. Amma onlar Koalisiyaya daxil deyil, çünki ümumi dil tapa bilməmişik. Onların öz birliyi var.

İnsanın reaksiyası sıfıra nisbətən sağa, ya da sola gedə bilər. Mövcudluğu bəli və xeyr arasında qurulan məntiq sizə daha yüksək səviyyələrə qalxmağa mane olur. Siz hər şeyi dalbadal hesablamağa çalışırsız, amma bəli və xeyir anlayışları arasında küləyin gücünü dəqiq vermək qüdrətində deyilsiz. Məntiqin nüfuzdan düşməsi sizi hadisələri faktlar, təzahürlər, anlayışlar, kateqoriyalara ayırıb sonra onlar arasında sərhədlər axtarmağa vadar edir. Maddə və ruh, bəli və xeyr arasında azaraq artıq məntiqin keçilməz dalanına dirənmisiz. Ən primitiv informasiya mübadiləsi olan dil vasitəsilə ünsiyyəti nədənsə insan şüurunun ən yüksək nöqtəsi sayırsız.

Sizin etika və estetikanız və ictimai, şəxsi əxlaqınız da qoşa, sevgi-nifrət, xeyir-şər, ölüm-həyat və s. bu tipli bir-birinə zidd anlayışlar üzərindədir. Özünüzü sivil cəmiyyət sayaraq məhkəmələrdə bəli və xeyr anlayışları ilə insan taleyini həll edirsiz. Bu anlayışlar bütün planetinizi böyük bir məhbəsə çevirib. Diskret məntiq sizə bəşəriyyətin taleyini bir neçə adama etibar etməyə imkan verir. Siyasətdə sülh şəraiti və müharibə şəraiti kimi anlayışlar işlədir və dəlisov qətiyyətlə birindən o birinə keçə bilirsiz. Bu yaxınlarda baş vermiş dünya müharibəsi və gözlənilən daha bir müharibə də sübut edir ki, texniki sivilizasiyanın kəskin inkişafı sizi ağıllandırmayıb. Ona görə də sizin bir tərəfdən kəskin şəkildə o biri tərəfə keçmək tərzində sivilizasiyanızın gələcəyi barədə proqnoz verməkdə çətinlik çəkirik.

**Biz sizi izləyirik**

Artıq neçə minilliklərdir ki, M. K. D. Yer üzündə baş verən müharibələri izləyir. Onların təbii azalması ilə, yəni kənardan müdaxiləsiz azalması yalnız 12 min il sonra baş verəcəkdi. M. K. D. bəzi şəxsiyyətlərin sürətlənmiş şüurunu nəzərə alaraq bu müraciətin cəmiyyət üçün izsiz keçməyəcəyinə

ümid edir. Çünki Koalisiya ilə razılıq yalnız bütün müharibə, davakarlıq adətlərini unutmuş bəşəriyyət ilə mümkündür. M. K. D. daha 2 səbəbdən bəşəriyyətə inamsızlıqla baxır: texniki sivilizasiyanı əsas saydığına və individuumun ölümü qarşısında qorxu keçirdiyinə görə. Sivilizasiyanızın texniki xarakterli olması bizi narahat edir. Bəşər tarixi xaotik inkişaf edib. Əslində cəmi bir neçə tip sivilizasiya üzrə təcrübələr olub. Ən kobud, güclü sivilizasiya daha humanist və şüurlu sivilizasiyanın axırına çıxıb. Sonra ondan da kobud sivilizasiya onu vəz edib. Hazırda sizinki Yer üzündə olmuşlardan ən primitividir - maşın sivilizasiyası. O, bütün sivilizasiyaları nəzarətdə saxlayır və başqalarını inkişaf etməyə qoymur. Müasir sivilizasiyası özünü məhv etməsə, bəşəriyyət idarəçiliyi əlinə alıb onu tamam fərqli yola döndərməklə lazım olan səviyyəyə çatmaq olar. M. K. D. ümid edir ki, bu müraciət yeni quruluşa təkan verəcək və əgər insanlıq müvafiq arzusunu bildirərək qarşıya bir addım atacaqsa mümkün olan bütün köməyini əsirgəməyəcək. Deməliyik ki, 1-ci və 2-ci müraciətdə Amuracxepur və Tkaasetkoal şəhərləri bəşəriyyətin tələblərinə cavab verəcək daha yaxşı vəziyyətdə idilər. İrqin şüurluluq dərəcəsini müəyyən etmək üçün ən əvvəl fərdin şəxsi maraqlarını kollektiv şüurdan yuxarı qoymaması faktı sayılır. İnsan şüurlu varlıq kimi bəşəriyyətin marağını öz istəklərindən aşağı saya bilməz. Kosmik qanunlar olan İradə Azadlığı və Seçim Azadlığı qanununa uyğun olaraq insanların başqa şüurlu irqlərlə münasibətindən sonra ölümsüzlük problemini həll etmək inamı tamamilə əsassızdır. Bu həll olan məsələdir, amma sizin düşündüyünüz kimi yox. Başqa bir tərəfdən, əgər bir irq köməyi qəbul etməyə hazır deyilsə biz ona heç cür kömək əlini uzada bilməyəcəyik. Hər irqin öz taleyini həll etmək hüququ var. Koalisiya insanlardan kənarlaşmır və hər hansı pozitiv köməyi əsirgəməyəcək. Koalisiyanın strukturu və nizamnaməsi ilə ilk tələbatda, yenə 4 iri dövlətin başçılarının, ya da Millətlər Liqasının Katibliyinin müraciəti ilə şərtsiz tanış ola bilərsiniz. Bəşəriyyət Koalisiyaya daxil olmaq fikrinə düşərsə öz məntiqi bünövrəsinin dəyişdirilməsi istiqamətində işlər aparmalıdır. Bu nəinki inkişaf

üçün, həm də informasiya mübadiləsi üçün lazımdır. Məntiqi yenidənqurma olmasa biz siklon gələn zaman sizə kömək etməkdə aciz olacağıq. Düşünürük ki, məntiqin yenidənqurulmasına sizə 6000 il lazımdır. Bu artıq kritik müddətdir. Ona görə də işlər indidən başlamalıdır. Lazım olan bilikləri Koalisiya bəşəriyyətə verməyə hazırdır. Amma bu, yer üzünün xalqları arasında mənasız münaqişələrə son qoyulduqdan sonra baş verəcək. Çünki müharibə edən irqi sonu olmayan təfəkkürlə tanış etmək onun əlinə silah verib Kainatı məhv etməyə bərabər olardı.

Bu müraciət sonuncudur. Gələcək 50 il ərzində cavabın olmaması Koalisiyaya daxil olmaqdan imtina kimi qiymətləndiriləcək.

**Kütlə sabahına inanmalı və yem dalınca qaçmalıdır!**

Müraciəti oxuduqlan sonra ən əvvəl "Bunu bizdən niyə gizlədirmişlər?" sualına cavab axtarmaq istəyi doğur. Axı son dərəcə sülhməramlı və inkişafa aparacaq təklifdir. Deyək ki, bu məktubun orijinalı hazırda da fəaliyyət göstərən Rerix cəmiyyətinin rəsmi saytında da yoxdur. Onu Levaşov adlı xaricdə yaşayan rus aliminin kitabından oxumaq olar. Rerix cəmiyyətinin informasiyanı insanlardan gizli saxlamasını anlamaq olar. Müraciət insan toplumuna deyil, dövlət rəhbərlərinə, yer kürəsinin taleyini həll etmək iqtidarında olanlara ünvanlanıb. Göydən gələnlər, uçan boşqablar və s. tipli məlumatlar həmişə gizli saxlanılıb. Hazırda minlərlə saytlar var ki, naməlum obyektlərlə və anlaşılmaq hadisələrin axtarıb tapır, toplayır. Amma onları çözələdikcə bütün bunların o qədər də ciddi olmadığı hissi yaranır. Hamı da bilir ki, paronormal hadisələri tədqiq edən ciddi elmi mərkəzlər var. Amma onların işi barədə məlumatlar heç təsadüfən də mətbuata sızmır.

Hər bir dövlət başçısı camaat arasında təlaş yarada biləcək məlumatın gizlədilməsi marağında ola bilər. Kütlə rahat və sabahına inamla yaşamalıdır ki, onu idarə etmək rahat olsun. Yem dalıyca qaçan, gününü yambızını

böyütməklə keçirən insan yaxınlığındakı tamahkar, təbii resursları talayan, müharibələr yoluyla varlanmaq istəyənlərə mane ola bilməz.

**Onlar hamısını bilirmişlər**

Bizdən gizlədilən minlərlə məlumatın içində ən cazibədarı sayıla bilən bu məlumatın bir əsr bundan əvvəl göndərildiyini də nəzərə alaq. Deməli müraciətdən sonra daha bir dünya müharibəsi olacaqdı. (müraciətdəki öncəgörməkliyə diqqət edin). O zamanın liderləri, Hitlerdən tutmuş, Stalin, hətta Xruşova qədər, Amerikanın bütün prezidentləri də içində olmaqla hamının bu müraciətdən xəbəri vardı. Bu detal adıçəkilən liderlərin portretinə yeni cizgilər əlavə edir. Axı Hitler Şambala adlanan allahlar şəhərinin axtarışına nə qədər qüvvə və insan resursu sərf eləmişdi. "Annanerba" qrupunun fəaliyyəti Tibet monaxlarının vasitəsilə gizli laboratoriyalarda psixi enerji ilə hərəkətə gətirilən yeni silah növünü yaratmağa yönəldilmişdi. Hətta bu gün də qrupun fəaliyyəti barədə tam təsəvvür yaratmaq mümkün deyil, çünki arxivlər yaxşıca gizlədilmiş və qalib ölkələrdən heç kimin, nə rusların, nə amerikalıların, nə də ingilislərin əlinə düşməmişdi. Həmin zamanlar Stalin də dinc oturmamışdı. Paronormal hadisələri öyrənən gizli laboratoriyalar, ekspedisiyalar təşkil edir, sonra rəhbərləri və şahidləri məhv edirdi.

Gəlin mətndə adı çəkilən qədim şəhərlərin taleyilə maraqlanaq. Amurcaxapur adlı şəhəri tarixdə tapmaq mümkün olmadı. Şri-Lankada Anuradxapure adlı qədim şəhərin adı çəkilir. Qədim tarixlə maraqlananlar bilir ki, Hindistanda keçən əsrin sonunda tapılmış bir neçə qədim şəhər var ki, alimlər onun neçə min il əvvəl atom bombasının partlayışından məhv olduğunu iddia edir. Bunu Hind vedaları təsdiqləyir. Burda əlində atom silahı ilə göydə uçan apparat - vimanlarla müharibə səhnələri təsvir edilib. Ya da ki, Tkaatsetkoalı götürək. Hazırda bütün dünyanı maya qəbiləsi, atsteklərin vaxtilə keçirdiyi təlaş, yəni dünyanın sonuyla bağlı qorxuları bürüyüb. Bu da vaxtilə bu müraciəti aldıqlarına daha bir sübutdur. Amma müraciətdən sonra

nə baş verdi? Hindistandankı qədim şəhərin sakinləri bir-birini atom silahı ilə qırdı. Tkaatsetkoal sakinləri isə minlərlə insan qanı axıdaraq qəzavü-qədəri dəyişdirmək istədi. Tarixçilər deyir ki, orda bir gün ərzində 80 min nəfərə qədər insanın ürəyi çıxarılıb qanı axıdılırdı. Çünki kahinlər deyirdi ki, Günəş insan qanı içməlidir ki, ürəyi rəhmə gəlsin. Bu 2 müraciətdən sonra daha bir sonuncu müraciətin nəticələri bizə daha maraqlı olar. Sonuncu müraciətdən sonra da dünya müharibəsi başladı. Stalin repressiya maşınını işə saldı. Hitlet milyonların qanını axıtdı ki, bəlkə yer altında yatmış nəhənglər insan ahuzarından dirçələr.

**Biz tənha və özbaşına deyilik**

Özümüzə toxtaqlıq vermək üçün deməliyik ki, birinci və ikinci müraciətdə Koalisiyaya daxil olmağı təsdiqləmək üçün insanların texniki vəsaitləri yox idi. Uzaq qalaktikalara müraciət göndərməyə cihaz, ya da güclü telepatik aparat lazım idi. Yəqin onlar xəbəri alandan sonra əlacsızlıqla çiyinlərini çəkməli olmuşdular. Bu günlərə gəlincə, yəni 3-cü müraciətdə vəziyyət başqa idi. 1929-cu ildən göndərilmiş müraciətin vaxtı 50 il sonra, yəni 79-cu ildə bitdi artıq. Yəni o zamana qədər cavabı verməsdiksə özümüzdən küsməliyik. Bizim də o vaxt cavab göndərəcək qədər imkanımız yox idi. Amma bir qədər diqqətli olsaq ümidverici faktlar da tapa bilərik. Bizdən şəstlə gizlədilməsinə baxmayaraq dövlət başçıları vaxtaşırı gizli görüşlər keçirirdi. 1972-ci ildə Brejnevlə Niksonun görüşünü xatırladaq. Fikir versəniz, bu artıq müraciətin vaxtının bitəcəyi həddə 7 il qalmış baş verdi. Bu görüşdə soyuq müharibənin taleyi demək ki, həll edildi. Dünyanın 2 böyük dövləti strateji silahların məhdudlaşması barədə, ballestik raket və işə salma qurğularının sayını artırmamaqda razılığa gəldi. Bu tarixi soyuq müharibənin sonu sayırlar. Xəttin davamı Qorbaçovla Reyqan arasındakı söhbətdə tapıldı. Reykyavik görüşündə 2000-ci ilə qədər atom silahını yığışdırmaq barədə razılıq alındı. Yeltsin və Klinton da danışıqlarda istiqaməti davam etdirərək dünyanın xilası yolunda daha bir addımı atdılar. Əlbəttə, atom bombası hələ

də dünyanı qorxuda saxlayan silah növüdür və ondan imtina etmək hegemonluqdan əl çəkmək kimi qiymətləndirilir. Amma əlləri daima düyməni basmaq üçün hazır olan dövlət başçıları bu addımları öz xoşuna atdıqlarına da inanmaq çətindir. Onlar dünyanı, insanları xilas etmək üçün bu addımı atmağa vadar idi, ya da məcbur edilmişdilər. Müraciətin mətnindən görünür ki, ali qüvvələr daima bəşəriyyətə hamilik edir və ağılsız addımlar atmağa qoymurlar. Orada deyilirdi ki, insanın öz xoşuna qalsaydı yer üzündə müharibələr 12 min il də gedəcəkdi. Naməlum uçan obyektlər həmişə hərbi düşərgələr və texniki avadanlıqlar olan yerdə uçur. Onlar sanki "Biz sizə baxırıq aaa" deyib hədələyirlər.

**İnkişafa start verilib**

Sonuncu müraciətdən bəri keçən illərə indi texniki inkişaf baxımından baxaq. 100 ildən az il əvvəl radio dövrün ən proqressiv cihazı idi. Elektrik, telefon və sair kəşflər təzəlikdə edilmişdi. Bəs necə oldu ki, 80 il ərzində bəşəriyyət kosmosa uçacaq qədər, qalaktikalarda hesablamalar aparacaq və orda həyatın olub-olmamasını tədqiq edəcək qədər inkişaf etdi? Burda kənardan müdaxilənin izləri aydın görünür. Biz bir əsrə 3-4 min ildə keçə bilmədiyimiz yolu getmişik. Koalisiyanın müraciətinə müsbət mənada cavabı göndərən dövlət başçıları kütləyə atdığı addım barədə hesabat verməyəcək. Amma əvəzində texnika və elmdə aldığımız nəhəng irəliləyişlər göz qabağındadır. Müraciətdə bizim riyazi sistemin düzgün olmadığı vurğulanırdı. Həmvətənimiz Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi mövcud olan çatışmazlıqları aradan qaldırdı. İndi bütün müasir avadanlıq bu nəzəriyyəyə əsasən hazırlanır. Sonuncu müraciət onlar bizə qalaktikalara aid apardığımız hesablamaların düzgün olmadığını deyir. Eynşteynin nisbilik nəzəriyyəsi kosmosun ənginliklərinə yol açdı. Ola bilər kimsə elmi kəşfini yuxusunda görür, kiməsə bu düstur şəklində, kiməsə vəhy şəklində ötürülür. Bütün bunlar bir daha sübut edir ki, biz Kainatda tək deyilik və ONLAR bizim

inkişafımızda maraqlıdırlar. Deyəsən 6 min illik inkişaf proqramı artıq işə düşüb.

**İblisin də yolunu seçənlər var**

Sonuncu müraciətdə Koalisiyadan tamam fərqli məntiqlə yaşayan başqa şüurlu irqlərdən danışılır. Onların da öz Koalisiyası varmış. Bu, bir növ dini kitablardan bildiyimiz əfsanələri xatırladır. Burada insanı yoldan çıxara biləcək, məhvə aparan qüvvələr İblisə aid edilir. İnsan 2 yolun ayrıcında dayanaraq ən düzgün olanı seçməlidir. Sülhə, tərəqqiyə aparan, inkişafa, şüurlu seçimə gətirib çıxaran, zülmdən, canlı aləmin məhvindən imtina edərək planeti ilə tam vəhdət tapan həyat tərzini əsas tutmalıdır. Belə olmasa sonunu dini kitablar daha yaxşı təsvir edir…

# PUBLİSİSTİKA



# İdraki yanlışlıqlar

**Bizə obyektiv olmağa nə mane olur?**

Dünya barədə təsəvvürlər fərdidir. Kiminçünsə dünya maraqlı, kiməsə darıxdırıcıdır. Kimsə həyatını, hətta təbiət hadisələrini idarə etdiyini düşünür, o biri isə nəinki həyatını, heç sadə bir qurğunu da idarə etməyi bacarmır. Şəxsən mən “yarasa insandan yaxşı görür”, “delfinlər insandan yaxşı eşidir”, “fil sürülərində ədalət prinsipi insan cəmiyyətinkindən daha yaxşıdır” kimi xəbərləri sevmirəm bir yana, onları sanki eşitmirəm və yadda saxlamıram. Çünki bu, mənim dünya barədə fikirlərimlə üst-üstə düşmür. Biz əksər hallarda özümüzü beləcə aparırıq. Sərf eləyən tərəfdən baxır və fikir yürüdürük.

İdraki yanlışlıqlar deyilən təfəkkürün sistem səhvləri bir növ məntiqin qurduğu tələlərdir və biz demək olar ki, hər gün bu tələlərə düşürük. Müəyyən vəziyyətlərdə sanki sağlam məntiqlə düşündüyümüzü zənn etsək də, əslində şablonlar üzrə hərəkət edirik. Gəlin ən çox yayılmış vəziyyətlərə özümüzü bir daha qoyaq.

**Uğursuz biletləri nə edək?**

Bu effektə nəzarət illüziyası deyirlər. İnsanlar sonluğunda maraqlı olduğu hadisələrə təsiri barədə özlərini demək olar ki, aldadırlar. Bu effekti 1975-ci ildə amerikalı psixoloq Ellen Langer ortaya çıxarıb. Təcrübə altında olanları iki qrupa bölürlər. Birinci qrupa lotereya biletlərini seçmək imkanı verilir. İkinci qrupa isə biletlər paylanır. Oyunun başlamasına 2 gün qalmış hamıya biletini daha şanslı bir oyunun biletlərinə dəyişmək imkanı verilir. Məlum məsələdir, biletini dəyişənin udmaq şansı artacaq. Amma biletləri özü seçmiş adamlar onları dəyişdirmək istəmədi. Elə bil ki, onların seçimi həm də oyunun nəticələrinə təsir edəcəkmiş. Biz buna qismət deyirik. Bu üsulla, yəni

lotereyada oynayırmış kimi evlənirik. Sonra isə uğursuz biletimizi dəyişdirmək istəmirik.

Təsəvvür edin, sizə maraqlı bir seçim verilib: o qədər də böyük olmayan riski sıfıra endirmək, yoxsa böyük bir riskin qədərini azaltmaq. Məsələn, təyyarə qəzasında ölüm hallarını sıfıra endirmək, yaxud maşın qəzalarında ölümlərin sayını azaltmaq. Obyektiv olmağı bacaran adam məntiqlə maşın qəzalarında ölümlərin sayını azaldardı, çünki demək olar, hər gün qəzalar baş verir və ölümlə nəticələnənləri də çox olur. Tədqiqatlar göstərib ki, belə seçim verilərsə əksəriyyəti təyyarə qəzalarında ölənlərin sayını sıfıra endirməyi seçir. Sıfıra endirilmiş nəticə çoxlarına daha hörmətli görünür. Bu adamlar özlərini heç vaxt maşına minmirmişlər kimi aparırlar. Yəqin təyyarə qəzaları olmasını seçib "hansısa sahədə səliqə-səhman yaratdım" deyə daxilində rahatlıq tapanlar da oldu.

Daha bir şəraiti təsəvvür edək. Məsələn, siz geni dəyişdirilmiş ərzaqlara etibar etmirsiz. Bu mövzuyla maraqlanırsız, xəbərləri izləyir və məqalələri oxuyursuz. Hər dəfə yeni məqaləyə göz gəzdirdikcə daha da əmin olursuz ki, təhlükə göz qabağındadır. Yəqin ki, siz fikirlərinizi təsdiqləyən məqalələrə daha artıq diqqət verirsiz, nəinki geni dəyişdirilmiş məhsulu tərifləyənlərə. Bu obyektivliyi itirmək deməkdir. Gözlədiyi, razılaşdığı informasiya ilə üst-üstə düşən xəbərləri izləmək adəti hamıda var. Yerdə qalan informasiyalara göz gəzdirmək bəs edir. Ona görə də bir qədər haqsız olsa da hamının düşündüyünü yazan jurnalist yazısının daha yaxşı oxunacağını bilir. Bunun obyektiliyə heç dəxli yoxdu.

**Oyunçu səhvi**

Bu yanlışlığa azartlı oyunları sevənlər daha çox tuş gəlir. Onlar olacaq hadisələri artıq baş vermiş olaylarla nəsə xüsusi qaydada, bəzən mistik sonucla uzlaşdığını fikirləşir. Məsələn, qəpik tullayıb hansısa mərcin həllinə çatmaq lazımdı. Əgər qəpiyin üzü düşübsə sonrakı dəfə əksəriyyəti qəpiyin tərsinə qoyacaq. Elə bil ki, qəpiyin üzü tez-tez düşərsə onda tərsinin düşmə

ehtimalı artır. Əslində şans 50/50-yədir. Bu prinsiplə yaşayanlar həyatını ağ-qara zolaqlara bölür. Uğursuzluqdan sonra mütləq sabitlik gəlməlidir deyə yaşayanlar həm də "Çox gülməyin sonu ağlamaqdır" deyir. Bu mərcdə də "Oyunçu aparsın" deyək.

**Sağ qalmışların səhvi**

Bu məntiqi tələni İkinci Dünya Müharibəsi zamanı ortaya çıxarıblar. Ona hər tinbaşı rast gəlmək də olar. O vaxt Amerikanın hərbi rəhbərləri bombardman zamanı təyyarələrin aldığı zərərləri araşdırıb onun ən zəif yerlərini tapmaq üçün araşdırma apardı. Sağ qalmış təyyarələrin çox vaxt qanad və quyruğu sıradan çıxırdı. Bu yerləri möhkəmləndirmək qərarına gəlirlər. İlk baxışdan qərar düzgün sayıla bilərdi. Amma kənar müşahidəçi Abraham Vald adlı birisi məsələnin kökündən həllini təklif etdi. Axı geri qayıdan təyyarələr modelin güclü deyil, zəif hissələri barədə məlumat daşıyırdı. Mühərriki, ya da benzin bakından güllə alan təyyarələr geri qayıtmırdı. Həmin məntiqlə müharibələrdən salamat çıxmışlar barədə də demək olar. Təəssüf, ən yaxşılar döyüş meydanında birinci ölür. Əlillik üzrə müavinət almaq, növbədə dayanıb cəmiyyəti söymək, müharibədən danışmaq onlara qismət olmur.

**Şəffaflıq illüziyası**

Belə bir vəziyyətə düşmüsüz ki, yalan danışmaq mütləq lazımdır. Bunu eləmək çətin olur, çünki adama elə gəlir ki, hamı sənin cikini-bikini bilir və hər hansı bir hərəkət, ya söz yalanı üzə çıxardacaq. Yalanı sevməyənlər bu məqamlardan ehtiyatlanır adətən. Amma əslində hamının sənin əsil motiv və həyəcanını anladığını düşünmək illüziyadır. Psixoloqlar bu mövzuda da araşdırma aparıb. Auditoriyada tələbələr kartlardakı suallara cavab verməli idilər. Cavablar bəzən yalan, bəzən doğru olurdu. Auditoriyadakılarsa onların yalan, ya doğru deməsini müəyyənləşdirməli idi. Yalan demişlərin düz yarısı yalanlarının üstünün açılacağını düşünsə də yalançıların yalnız dörddə biri

müəyyənləşdi. Deməli biz yalan deyəndə ilk əvvəl bunun üstünün açılacağını düşünürük. Biz fikirləşirik ki, yanımızdakılar bizi çox yaxşı tanıyır və nəylə nəfəs aldığımızı belə bilirlər. Əslində belə deyil, bu da bir yanlışlıqdır. Eləcə də ətrafımızdakıların nə vaxt yalan dediyini də əminliklə bilə bilmərik. Bunu düşünmək adama ləzzət eləmir, amma obyektiv reallıq budur.

**Barnum effekti**

Çox yayılmış bir situasiyadır: qabağımıza qoroskop çıxır, oxuyuruq və heyrətlənirik. Əlbəttə, biz belə mənasız şeylərə inananlardan deyilik və vaxt öldürmək üçün maraqlanırıq. Amma oxuduqca yazılanların özün haqqında təsəvvürlərə nə qədər uyğun gəldiyini görüb heyrətlənirik. Bu hamının, hətta skeptikin də başına gələ bilər. Psixoloqlar buna "Barnum effekti" adını veriblər. O, XIX əsrdə yaşamış mahir manipulyator və şoumendir. Əksəriyyəti ümumi, yayğın, qeyri-müəyyən ifadələrin şəxsi xarakteristikasına uyğun gəldiyindən əmindir. Əlbəttə ki, pozitiv təsvirlər nə qədər olarsa uyğunluqlar da bir o qədər artır. Bu effekti astroloqlar və falçılar məharətlə işlədirlər.

Daha bir idraki yanlışlıq var ki, falçıların biznesinin çiçəklənməsinə şərait yaradır. Onun mahiyyəti budur ki, artıq səsləndirilmiş öncəgörməlik reallağı təhrif edə bilər və insanı bu istiqamətdə addımlar atmağa vadar edər. Yəni insan istəmədən səslənmiş öncəgörməliyn reallaşması üçün müəyyən hərəkətlər edir. Nəticədə deyilmiş söz reallaşmağa yaxınlaşır. Bunun klassik effektini Aleksandr Qrinin "Al yelkənlər" povestində oxuyuruq. Assol balaca qız olanda ona uydurulmuş bir əhvalat danışırlar ki, o, böyüyəndə qırmızı yelkənli bir gəmidə şahzadə gəlib onu özüylə aparacaq. Bütün qəsəbə Assolun bu nağıla inanmasına gülürdü. Amma kapitan Qrey bu əhvalatı eşidir və qızın arzusunu gerçəkləşdirir. "Həppi-end" effekti hər kəsin öz əlindədir.

**Uşaqlar var, şərait yoxdu**

Biz başqalarının davranışını fərdi keyfiyyətləriylə, öz hərəkətlərimizi isə şəraitlə izah edirik. Məsələn, başqası gecikirsə o qeyri dəqiq adamdır, özümüz gecikiriksə günah saatda, tıxaclarda və başqa bəhanələrdədir. Söhbət müdirə dediyiniz izahatda deyil, hər kəs özünü inandırır ki, günah özümüzdə deyil. Nə olsun ki, saat da zəng çalmışdı, onu söndürüb yenə yatmışıq. Evdəkilər oyadardı! Mənəvi pillələrdə özündə artım gözləyənlər bu məqama diqqət verməli olacaq.

Baxırsan ki, liberallığı ilə seçilən bir jurnalist qomofob oldu, molla rüşvət aldı, haram yedi, ailə dəyərlərindən danışan ictimai xadimin striptiz barda kef edərkən şəkillərini çəkdilər... İndi belə hadisələr kimsədə təəccüb doğurmur. Bu hadisələrin kədərli qanunauyğunluğu da var. Bir kəs haqqında çox yaxşı şeylər düşünürlərsə hansısa məqamda o həqiqətən də tamamilə günahsız olduğunu zənn edə bilər. Özünə boşluq verən kimi hadisələr nəzarətdən çıxa bilir. Çünki o, kiçik əhvalatın, macəranın heç nəyi dəyişməyəcəyini düşünürdü.

İdraki yanlışlıqların ən böyüyü isə kollektiv idealogiyaya inamdır. Hər hansı bir fikri kollektiv şəkildə dəfələrlə təkrarladıqda o, fərdlər üçün reallığı çevrilməyə başlayır. Yaşlı nəsil televizorda gördüklərini tam həqiqət kimi qəbul edir. Bunu görən gənclik düşünür ki, bu, onun başına heç vaxt gələ bilməz, onun öz fikri və öz mövqeyi var. Ahıllara gülüb kompüter arxasına keçən kimi o da yüyəni əldən verir. Dəfələrlə təkrarlanmış Facebook statusları qısa zamanda obyektiv reallığın başına elə oyun gətirir ki, həqiqətin nə vaxt əldən getdiyini bilmirik və qeyri-obyektiv olduğumuzu ağlımıza gətirmirik.

***

Reallıq bir növ Salvador Dalinin əriyən saat rəsmindəki kimidir. Bir növ tanışdır, gündəlik məişətimizdə işlədirik, amma bəzən görkəmsiz və yararsızdır. Deyilənə görə Dali bu rəsmi çimərlikdə günəş şüaları altında istidən əriyən pendirli sendvicini müşahidə edəndən sonra yaradıb.

## O dünyanın nağılı

*Yolçu yolda gərək, 40-cı qapıya qədər…*

Nədən deyim, sizə nədən danışım? Bu nağılı deyən olmayıb. Belə nağılları ucadan danışmırlar, yalnız qulağa pıçıldayırlar. Bilən bilir, qanan qanır, qanmayan özü bilsin.

**Az getdim, düz getdim, dərə-təpə düz getdim**

Nağılı nədən başlarlar? Biri var olan, o biri yox olandan yəqin. Nağıl deyənimiz də yox olub. Balalarına nağıl deməyənlər metronun keçidində 20 nağılı bir diskə yazıb 1 manata satan alverçidən (el arasında ona disk piratı da deyirlər) bir disk alıb atır uşaqlarının qabağına. Uşaq orda babalarının, nənələrinin sözü biri qızılla ölçülən informasiyanı deyil, bir dəstə şəkil çəkməyi bacaran əmi-xalaların fantaziyalarına baxır. Başqa millətlər bir yana, onlar nağılda tarixi fakt axtarırlar, biz ki, bilirik qızın ən gözəli kasıb məlikməmmədlərə deyil, padşaha qismət olur, nağıl personajı bir göz qırpımında böyümür, bir şey verməsən Simurq quşu səni qaranlıq dünyadan çıxarmaz, 40 qapının sirrini bilməkçün institut qurtarmaq azdı. Heç düşündüzmü ki, niyə nağıllarda qəhrəman özünə nişanlını uzaq, yad ölkələrdə axtarır? Ya da ki, nağıllardakı padşah qızları gözünü niyə yola dikib adaxlısını kənardan gözləyir? Bəlkə bu elə bir zamanlar idi ki, nağılların yarandığı vaxt qəbilənin içində hamı bir-birinə yaxın qohum olduğundan qan qarışıqlığı olmasın deyə, sağlam nəsil vermə xətrinə, yadlarla qohum olmaq üçün qəbilə daxili bəzi qadağalar vardı? Nağıllarda kasıb qəhrəman taxta çıxır, amma bununçün çox vaxt qayınatasını öldürməli olur. Görəsən nağıl hansı sosial quruluşda yaranmışdı ki, hər qəhrəmana qonşuluqda bir padşah vardı. Onun da gözəl qızı yuxuda adaxlısını yanına çağırmışdı.

**Fatma xanım kəndirdə!..**

Nağıllarda hansısa kult, dinlə əlaqə mütləq hiss olunur. Amma onu hər hansı ictimai quruluşla müqayisə etmək mümkün olmadığı kimi heç bir dinlə də bağlamaq olmur. Nağıllarda çoxlu mərasimlər var. Məsələn, Göyçək Fatma inəyinin sümüklərini bağçada basdırıb sulayırsa bu onun şəxsi fantaziyaları deyil. Belə mərasim olub. Qədimdə əcdadlarımız heyvanların ətini yeyib sümüyünü tullamazdı. Mütləq basdırardılar. (Müqayisə üçün uzağa, Balaxanı zibilliyinə deyil, hər məhəllənin kiçik olsa da iyli zibil yeşiklərinə baxın). Nağıl deyirsə ki, padşah uşaqlarını zirzəmidə saxlayıb su və çörəkdən başqa heç nə vermirdi, deməli həqiqətən də padşah öz uşaqlarının mənəvi kamilliyi üçün onları hansısa məhdudiyyətlərə məruz qoyaraq bu mərasimə icazə verirmiş. Nağılda qəhrəmanı heyvan dərisinə səriyəndən sonra onu bir quş caynağına alıb qaranlıq dünyaya aparırdısa əslində də belə bir adət vardı. Öləni heyvan dərisinə səriyərdilər və o, ölülər dünyasına belə “kəfəndə” köçürdü. Sanki nağıl qəhrəmanı sehrli dünyaya düşməsi üçün bu mərasimi bir daha keçməli olurdu. Nağılda hər şey başayaqdı. Lap qədimlərdə qocaları öldürmək adəti vardı. Amma nağılda qocalara rəhm edən qəhrəman nəsə bir sehrli hədiyyə alır. Yaxud suyun qarşısını kəsmiş əjdahaya qızı qurban verirdilərsə əkinçiliyin, məhsuldarlığın qeydinə qalırdılar. Həyatda qəhrəman peyda olub bu qızı azad etmiş olsaydı onu tikə-tikə doğrayardılar. Qocanı buraxan qəhrəmanın da başını sığallamazdılar. Yəqin bu nağıl elə zamanda yaranmışdı ki, bəlkə də ölümə könüllü gedən qızın məhv edilməsi artıq hamıda ikrah oyadırdı.

Nağıllarda qəhrəman ölürsə, ona aparıb torpağa basdırırlarsa da o ölmür. O başqa dünyalara köçür və sonra səyahətinin sonunda həmən yerə qayıda bilir. Nağıllarda yağış çağırmaq istəyirlərsə rəqs edirlər. Həqiqətə yaxın olmaq üçün su çiləmir, ləyəndən yerə su səpələmir amma oynayır və şamanlar kimi təbiət qüvvələrinə təsir etmək istəyirlər. Bu, əsil magiya deyilmi?

## Gözdən iraq böyüyəndə bəsirət gözü açıq olur

Biri vardı, biri yoxdu deyən kimi uşaqlar sanki rahatlıq və trans vəziyyətinə düşür. Əslində bu aldıdıcıdır, çünki həyəcanlar, hadisələr hələ irəlidədi. Nağılların çoxunun əvvəlində ya ölüm, ya da ayrılıq olur. Nağılın qəhrəmanı ya yetim qalmış uşaq, ya da harasa, nəyə görəsə evdən uzaq düşmüş, səyahətə çıxmış olur. Bu yerində nağılda uşağa evdən çıxmağını qadağan edən kimsə, ya da səfərin çox təhlükəli olduğunu deyən adam tapılır. Bu qadağa əlbəttə ki, mütləq pozulur və bağda gəzən şahzadəni, meşəyə göbələk yığmağa getmiş uşağı, ya da ki, heç olmasa bağda yeyilməsinə qadağan qoyulmuş almanı oğurlayırlar. Bu yerində konflikt başlayır və nağıl əsil detektiv romanın keyfiyyətlərini nümayiş edir. Gözlənilməz hadisə kiminsə yuxusuna girə bilərdi, ya da qəhrəman sevgilisini yuxuda görüb yola düzələ bilərdi. Oğurlananları ya yüksək qalada kilidləyirlər, ya da yer altında dərin çala qazıb üstünü torpaqla bərabərləşdirirlər ki, imdadına kimsə gələ bilməsin. Bu da vaxtilə olmuş mərasimi çox xatırladır. Padşah uşaqları və kahinlərin övladları üçün belə bir qadağalar vardı. Onlar kimsəylə görüşüb danışa və yaşayış yerlərini tərk edə bilməzdilər. Bu qayda Yaponiyada XIX əsrə kimi dururdu. Taxta varisin üzünü kiməsə görə bilməzdi, yeməyi balaca pəncərədən ötürürdülər, danışanda pərdənin arxasından danışırdılar. Koroğlu dastanında da Qırat və Dürata baxan olmasaydı və gün işığı dəlikdən içəri keçməsəydi onda bu atlar qanadlı ola bilərdi. Yəqin o vaxtdan bəri göz-nəzərdən qorxan olmuşuq və qanadlarımızı "kəsiblər". Qız qalası barədə və bu tip qalada bağlanmış qızlar barədə əfsanələrdə qalada qızların hamısını saçını kəsmək qadağası da vardı. Qalada bağlanmış qızların əhvalatının sonu ya ölüm, ya da məcburi nikah və yarıallahlıq qabiliyyətli oğulların doğulmasıyla bitərdi. Qalada bağlanmaq bir növ magik qabiliyyətlərini artırmaq üçün keçirilən mərasimə bənzəyir. Gözdən iraq yerdə, özü də tam qaranlıqda yeməyi çörək və sudan ibarət olarsa insanın bəsirət gözü açıla bilər.

**Az getdi, düz getdi…**

Hamı bilir ki, nağıllarda həmişə bağlı yerdən qəhrəmanı xilas edib çıxaran olur. Qızdısa onu ilan qaçırdır, ya da təpəgöz aparıb 40-cı otaqda gizləyir. Qızın atası padşah əvəzində qızını və varidatının yarısını vəd verir. Əlbəttə bu yerində böyüklü-kiçikli bütün dinləyicilər bilir ki, ilandısa, əjdahadırsa ya da təpəgözdüsə məğlub olacaq və nağılın ən dramatik yeri olsa da ardını sakitcənə, həyəcansız amma maraqla gözləyir. Qəhrəman məqsədinə çatınca kimlərlə görüşür, kimlərlə vuruşur bax bu yerləri daha maraqlıdı. Altdan geyinib üstdən qıfıllanmış qəhrəmanımız yola bir dağarcıq aparır, ya da anasının nəsihətini qulağında sırğa eləyir. Bunlar ona lazım olacaq. Amma nağılda yol həmişə ya qısa olur, ya buraxılır. Az getdi, düz getdi və bizim anlamımızda bir göz qırpımında istədiyi yerə çatdı. Elə bil ki, əcdadlarımız zaman məfhumunun o qədər də vacib olmadığını vurğulayırmışlar. Yola çıxan qəhrəman heç vaxt əliboş getməzdi. Döyüşəcəksə mütləq əlində toppuzu, əmudu olardı. Yolun təsvirini verməyən əcdadlarımız yol tədarükünü yaxşıca təsvir edərdilər. Qəhrəmanın əl ağacı, çörəyi və çarığı olardı. Bu üçlük yolçunun simvolları kimi demək olar ki, bütün nağıllarda var. Qədim mərasimlərdə o dünyaya yola salınan hər kəsin məzarına mütləq əl ağacı, çörək və ayaqqabı qoyulardı. Bu bütün dünya xalqlarının qədim adət-ənənəsində var. Nağılı dinləyənlərə hər şey sanki o dünyanı görüb qayıtmış adamın əhvalatını dinləyirmiş kimi görünür. Biz o dünyadan qayıdanları görməsək də nağılları sevməklə əslində o dünya barədə əhvalatları sevdiyimizi deyirik. Görək aldı sonra nə dedi.

**Qurdnan qiyamətəcən**

Kimdi bizim qəhrəmanımız, o dünyaları gəzəcək mərhum, yoxsa ölülər dünyasını gəzib qayıda bilən azad ruh sahibi? Axı bu qəhrəman gələcək sevgilisini xilas edəndə özünü əsil şaman kimi aparır. Əlinə dəf alıb mərasim rəqsi yapır, mənfi ruhları qovub sevgilisini huşa gətirir. Nağıllarımıza zəngin

deyirik. Amma onun zənginliyi kompozisiyasında deyil, eyni təkrarlanan motivləri istifadədə işlədilən sonsuz üsullardadı. Qəhrəman sevgilisini divin əlindən ala bilər, vicdansız qardaşlarının da, ilanın da, əjdahanın da. Amma onun sehrli əşyası, ya da sehrli gücü olmasa o dünyalardan baş aça bilməz. Sehrli gücü ona küpəgirən qarı, ya eybəcər meşə sakini, ya da yoldan ötən bir qoca verir. Cəmi 3 suala cavab vermək, ya da sadəcə mərhəmətli olmaq lazımdı ki, sehrli əşyaya sahib olasan.

Küpəgirən qarı əslində ölümün simvoludur. Soruşula bilər axı niyə qəhrəmanımız ölüm astanasında dayanmalı olur? Qədim adətlərimizdən biri də yetkinlik yaşına çatmış uşaqların inisiasiya mərasimidir. Keçmişdə uşağı valideynlərindən alıb ya meşəyə, ya da uzaq bir yerə aparıb bu mərasimi icra edirdilər. Mərasim zamanı hesab edilirdi ki, uşağın (14-15 yaşında uşaq bizim anlamda gənc olsa da qədim zamanlarda artıq böyük olmağa layiq olacaq yaşda idi) ruhu çıxarılıb heyvana, həmin qəbilənin toteminə ötürülür. (Türk tayfalarının totemi qurd sayılır. Qurdnan qiyamətə qalmaq ifadəsi tam tək qalmaq, ən axıra çatmağı bildirir). Ona görə də nağılda divi öldürmək üçün onun ürəyini tapmaq, sandığın içindəki şüşədən, şüşənin içindəki göyərçindən, göyərçinin içindəki yumurtadan tapıb yalnız ondan sonra iynəni sındırmaqla öldürmək olardı. İç-içə olan bu səviyyələr göyün 7 qatının rəmzi kimi 7 qatlı olurdu. Divin ölümü yalnız 7-ci qata çatanın əlində ola bilərdi. Mərasim zamanı uşağın öldüyü zənn edilirdi. Dirildikdə isə o tamam başqa insan hesab olunurdu, ona ad verilirdi. Mərasimin dekorasiyası elə qurulurdu ki, sanki onu vəhşi heyvan udub. Bu, heyvan çənəsini xatırladan mağarada olurdu. Oğlan uşaqlarını burda sünnət etdirirdilər. Ona dini xarakterli sirlər danışılırdı. Yaşı çatmış uşaq böyük adlandırılmaq üçün çətin, ağrılı və bəzən ölümlə bitən sınaqlardan keçməli olurdu. Sağ-salamat geri dönəni qəbilə öz arasına tamhüquqlu üzv kimi qəbul edirdi. O indi bütün tayfanın qeyrətini çəkə bilərdi, amma çəkdiyi əziyyətlərdən danışmaq eyib idi. Bunları yalnız nağıl diliylə demək olardı. Mərasimi keçənlər quş dili öyrənmiş sayılırdılar və magik xüsusiyyətlərə malik olurdular. Kamillik mərasimini

hamı keçmirdi, bu mərasim seçilmişlər üçün idi. Mərasimi dəqiqliklə bilmək istəsəz nağıl oxuyun.

**Kəs almanı dilim-dilim**

İki dünya astanasında yaşayan nağıl personajları əslində dünyaları bir-birindən qoruyur. Qəhrəman da yola düzələndə xurcununu xeyir işlərlə, bu dünyada qazanılmış maddi nemətlərlə doldurur ki, üstünə cuman olsa qarşısına atıb canını qurtarsın.

Nağıla giriş ən təmiz ürəkli, ən saf niyyətlə qəhrəmanadır. Yerdə qalanı 3 yolun ayrıcındaca azıb düzgün yolu tapmayacaq. Əlibaba sehrli sözü deməsəydi 40 quldurun topladığı varidatı götürə bilməzdi.

Qəhrəman yola çıxanda heç vaxt yemək yemir, yolda da tikə kəsmir, yalnız ona lazım olan yerə çatandan sonra təklif edilən tikədən bir qırıq götürür. Qədim xalqların inamı var ki, iki dünyanın ayrıcını adlayandan sonra da geriyə yol var. Amma allahların yeməyini dadanlar geri qayıtmır. Ona görə də nağılda qəhrəman divin verdiyi yeməyi yalandan yeyirmiş kimi göstərir, əslində yerə atır. Nağılları niyə məhz uşaqlara danışırlar? Çünki onların qəlbi bu informasiyaya açıqdı, hələ yoğunlamayıb. Böyüyüb hələ də nağılı sevməyənlərin o dünyaya yolu bağlıdır.

**İbtidailərin nağılları**

Nağılda qəhrəmanımız həmişə salamat qalır. Ölürsə də ona dirilik suyu verib cana gətirirlər. Nağılları xalq uydurmur. Bu fikrin özü uydurmadır. 2-3 nəfərin bir yerdə oturub bir bənd şeir yazmasını görmüsüzmü? Əlbəttə alınmazdı. Eləcə də folklor nümunələri. Nağılları kimsə ağıllı, səriştəli, bacarıqlı, istedadlı bir insan düzüb qoşub və informasiyanı gələcək nəsillərə uğurla ötürülməsi üçün son dərəcə maraqlı edib ki, qiymətli biliklər itirilməsin. Belə çıxır ki, eyibini əncir yarpağıyla örtməyi təzəcə öyrənmiş insan o biri dünyalardan daha yaxşı baş açırdı, nəinki sivil bizlər. O, bilirdi ki, onu hansı maneələr gözləyir, qarşısına nələr və kimlər çıxa bilər. O, kimə nə

deyəcəyini də bilirdi. Bilirdi ki, bağlı xalçanı örtmək, açıq xalçanı bağlamaq lazımdı. Hansı qapıda hansı sözü deyərlər, kimin başını sığallarlar, kimdən gizlənərlər. Misirdə "Ölülər kitabı" adıyla bütün dünyaya tanınan kitab da əslində bir növ yolgöstərici nağıldı. Burada ölənlərə yol göstərilir, kimə nə deyəcəyi və maneələri necə keçəcəyi məktəb dərsliyindəki kimi pillə-pillə öyrədilir. Bəlkə də həqiqətən yuxarı qatlarda "Adam-madam iysi gəlir, yağlı badam iysi gəlir" deyə-deyə oturub insan gözləyən yırtıcı var? Ona görə də uşaqlarınızın nağıl payın kəsməyin. Qoy heç olmasa onlar o dünyalarda azıb qalmasınlar, 40-cı qapının sirrini də bilsinlər, əjdahanın ürəyinin yerini də tapıb sonra Simurqun qanadlarında işıqlı dünyaya qayıda bilsinlər. Axı yatmış gözəlləri yalnız sevgi öpüşü oyadır.

## Biz, Avropa və İslam

Rafiq Tağının həyat təcrübəsindən yararlanıb yazının başlığını bir az başqa cür qoymaq olardı. Amma məqsədimiz biz, Avropa və İslam adlı üçbucağın bir-birinə zidd qütblərinin qarşılıqlı münasibətini araşdırmaqdır. Çünki biz Avropaya qarşı bir mövqedə dayanmışıq, İslama qarşı isə tamam fərqli tərəflərimiz aşkara çıxır.

Məlumdur ki, Rafiq Tağıya qarşı terror aktı ilə bağlı 50-dən artıq Azərbaycan ziyalısı dünyaya müraciət məktubuna imza atıb. Məktub birmənalı qarşılanmadı. İmzasını geri götürən də, peşman olanlar da tapıldı. Yazıçıya qarşı yönəldilmiş terror insanları o qədər qeyzləndirmişdi ki, məktubdakı aqressiv, "İslam terroru" kimi ifadələr ilk baxışdan nəzərdən qaçmışdı. Yazıçının ölümündən özünə yer tapa bilməyən ziyalı etirazını kimə gəldi, bəlkə də düşünmədən İslama qarşı yönəltmişdi. Demək olmaz ki, imza atanların hamısı "İslam terroru" ifadəsini yersiz sayırdı və məktubun aqressiv mətni ilə razı deyildi. Bu hadisə biz, Avropa və İslam adlı üçbucaqda ilk dayanacaq etməyimizə imkan yaradır.

**Bizim Avropaya münasibətimiz**

Biz, Avropa dəyərləri ilə yaşamağa can atan və həyatını dünyəvi kontekstdə görmək istəyən azərbaycanlılar XXI əsrin əvvəlində bəlkə olmazın dərəcədə Avropaya can atırıq. Onun mənəvi dəyərlərinin laxladığını, başqa ölkələrə qarşı münasibətində ikiüzlülüyünü bilsək də, ən ümdə arzularımızda özümüzü Avropada yaşayan görmək istəyirik. Bizi söz azadlığı, Avropanın insana verdiyi özünü reallaşdırmaq imkanı və ağlı-başı üstündə olan insanlarla ünsiyyət cəlb edir. Bəlkə də biz öz ölkəmizdə bu cür quruluş yarada bilmək ümidindən əl çəkdiyimizdən Avropaya bir xilaskar kimi baxırıq. Ya da yaşadığımız şəraitdə yeni, normal insani cəmiyyət yarada bilməyin mümkünsüzlüyünü anladığımızdan Avropanı bura gətirməkdənsə özümüz Avropaya köçməyi daha asan başa gələn sayırıq.

Kökündən qopub tamamilə yeni şəraitə düşənlərin heç də hamısı həyatından razı deyil. Axı orada axşam saat 10-dan sonra unitazı işlətmək, hamamında çimmək qadağası azərbaycanlını dəli edə bilər. İnanmıram ki, nə qədər loyal olsa da, orta statistik azərbaycanlı "mavi" qonşusunu əlində plakatla küçələrdə çığırışan görəndən sonra hər səhər salamını əvvəlki tonda verə bilsin. Bəli, biz və avropalı çox fərqliyik. Bu fərqə pis, ya da yaxşı don geyindirmək də lazım deyil. Buraları gəzib vətəninə qayıdan avropalı da dünyanın əfsanəvi şəhərlərini gəzib evinə dönən azərbaycanlı kimi gəzintisindən eyni dərəcədə ləzzət alır. Çünki Avropa dəyərləri burada kök atmadığı qədər də burada olan dəyərlər Avropada yoxdur. Amma nədənsə avropalı bunun fikrini çəkmir. Çünki bütün qüsurları ilə birlikdə avropalı olması ilə fəxr edir. Bu da bizim əsas fərqimiz.

**Bizim İslama münasibətimiz**

Biz körpəliyimizdən islami dəyərləri bilir və dini rituallara riayət etməsək də, əksəriyyətimiz bu dəyərlərə hörmətlə yanaşırıq. Biz bilirik ki, İslam xilaskar dindir. Allahın tək olduğunu də qəbul edirik, peyğəmbərinə də hörmətlə yanaşırıq. Bizlərdən kimsə müsəlman həyat tərzini özünə məqbul

sayır, kimisi isə dini ritualları qismən yerinə yetirməklə kifayətlənir. İslamın azərbaycanlıların həyatında rolu artmaqdadır. Namaza gələnlər, islami həyat tərzi sürənlər də gün-gündən artmaqdadır. Bu tendensiya artdıqca İslamı açıq-aydın söyənlərin də sayı görünməz dərəcədə artır. Sanki avropalaşma buralara daha dərinə soxulduqca özü ilə islamofobiyanı da gətirir.

**Avropanın bizə münasibəti**

Biz, Avropa və İslam adlı üçbucaqda Avropanın bizə münasibəti xüsusilə maraqlı və bir qədər də sürüşkəndir. Bəzən adama elə gəlir ki, onlar bizi heç görmür və varlığımız və onlara can atdığımızı da bilmirlər. Biz başlığında Avropa sözü olan bütün müsabiqələrə gedir, birliyə can atır, yarışlarda bayrağımızı yellədir, hətta birincilik qazanıb Azərbaycan çığırırıqsa da, onlar "Ah, belə bir ölkə də varmış" sualı ilə bizi şoka salırlar. Necə yəni biz varıqmı? Biz varıq, bütün varlığımızla sizə doğru dartınırıq, cəmiyyətimizi sizin ülgüclərlə biçib doğrayırıq. Siz isə varlığımızdan yalnız sizdən üstün olanda xəbər tutursunuz. Bəs necə olur ki, Azərbaycan adlı sizə ucqar görünən ölkədə bir qanun pozuntusu olarsa, xırda detallara qədər, təfərrüatı ilə bilirsiniz və yeri gələn kimi "Özünüzü dinc aparın!" deyə barmağınızı da yellədirsiniz bizə?

Biz avropalını daşürəklikdə ittiham edə də bilmərik. Xeyriyyəçilik aksiyaları, qocalara və kimsəsiz uşaqlara münasibətdə bizdən həsəd aparacaq qədər irəlidədirlər. Bəzən belə məsələlərdə ifrat dərəcədə qanunpərəst də ola bilirlər. Onda bəs niyə evində 5-10 dənə it-pişik saxlayıb humanizmi ilə forsundan cırılan avropalı ölkəsinə bir dəstə acından, zülmdən qaçıb pənah gətirmiş insanları qəbul edə bilmir?

**Müsəlmanın aram və rəvan dünyası**

Biz (bu dəfə bu söz artıq şərq xalqlarını, cənublu temperamenti, həyat tərzi ilə tamamilə fərqli meyarlarla yaşayan millətləri nəzərdə tuturuq) İslamı

həyat tərzimizə və düşüncəmizə ən çox uyğun gəldiyindən qəbul etmişik. Məlumdur ki, Azərbaycanda dünyada mövcud olan dinlərin hamısı olub və bu fakt mədəni abidələrimizin çoxluğu və müxtəlifliyi ilə təsdiqlənir. İslam bu torpaqlarda hakim olmasaydı, indi bizim muğamımız da, xalq sənətkarlığımız da, mədəniyyətimiz də başqa cür olardı. Muğamı qəbul edib, İslamı kənara atmaq mümkün olmadığı kimi azərbaycanlını tamamilə Avropa dəyərləri ilə yaşamağa məcbur etmək də mümkün deyil. Danılmaz faktdır, İslamın hakim olduğu ölkələr dünya üzrə ən kasıb və geridə qalanlardandır. Biz inkişaf edirik, ona görə də yerimizi geridə qalmış ölkələr arasında deyil, irəlidə gedən və sözünü dünyaya diktə edə bilən ölkələr arasında görmək istəyirik. Qərb dünyasının irəliləyişləri fonunda adama elə gələ bilər ki, müsəlman dünyası yuxudadır.

**Avropanın İslama münasibəti**

Bu gün Qərb dünyası bu günə qədər olmamış miqyasda üzünü İslama çevirib. Bu addımı atmazdan əvvəl Avropa cahillik və nadanlıq dövrünü adlamalı olub. Buna qədər qərblilərin beynində katolik kilsə insan ehtiraslarını, fiziki enerjini, ictimai, siyasi fəallığı, intellektual fəaliyyəti boğmaqla məşğul idi. Bu zamanlar Avropa çox geridə qalmış idi, cadugərləri tonqalda yandırır, kitabları məhv edir, kilsəyə qarşı çıxan alimləri edam edirdi. Elə həmin zamanlar islam Şərqdə xalqlara görünməmiş azadlıqlar vermişdi və belə azadlıq dalğası Avropanın özündən də kənar keçmədi. Xristian dini islahatları (protestantlıq, lüteranlıq və s.) Avropada yeni - zəhmətkeşlik, yenilik axtarışı, elmi tapıntılara sövq edən ideyalar səpələdilər. Yeni konsepsiyalara görə insan zəhmət çəkməyi, həyatda özünə yer qazanmağı ilə Allahın göstərişini yerinə yetirir. Bu ideyalar katolik kilsənin həyata rahib baxışını, dünyadan qaçma, ciddi həyat tərzi ilə özünü üzmə adətini ortadan çıxardı. Aktivliyin dərəcəsi o qədər böyük oldu ki, bir neçə əsr ərzində Avropa məşhur intibahını həyata keçirə bildi. Avropalı çox yaxşı bilir ki, İslam və xristianlıq arasında münaqişə ola bilməz və İslamın terrora dəxli

yoxdur. Bəzi siyasi liderlər və ABŞ dövlət başçıları islamı dəyərlərə heyran olduqlarını deyir və "Quran" əxlaqına yaxınlaşmağı arzulayırlar. "Quran"ı dərindən bəyənənlərdən bir də Britaniyanın keçmiş baş naziri Toni Blerdir: "Mən "Quran"ı ingiliscəyə çevirmədə oxudum. "Quran"dan çoxlu yenilik öyrəndim və düşünürəm ki, bu biliklər xristianlar üçün çox dəyərli, vacibdir. 12-ci əsrdə səlib yürüşlərindəki vəhşicəsinə qətllərin İsa peyğəmbərə dəxli olmadığı kimi Ben Ladenin də "Quran" əxlaqından xəbəri yoxdur. Qərb İslamın həqiqi üzünü görməyi istəməmək mövqeyindən əl çəkməlidir". Avropanın daha bir nüfuzlu şəxsi - şahzadə Çarlz da islam və müsəlmanlara yaxınlığı ilə tanınır: "Son 300 ildə Qərb dünyasında insanları ətraf mühitdən qoparmış dərin uçurum yaranıb. Bizə deyirdilər ki, inam və elm bir-birinin əksidir. Amma islam alimləri heç vaxt elmi tapıntıları öz ağlının və istedadının nəticəsi kimi qələmə verməyib. Mən "Quran"ı oxuyarkən bəzi ayələr məni qəlbimin dərinliyinə qədər sarsıtdı. Biz bir-birimizdən çox şeylər öyrənməliyik. İngiltərədə məktəblərdə tədris prosesinə daha çox müsəlman müəllimləri cəlb etməliyik. Bütün dünya ingilis dilini öyrənir, amma bizim ölkədə insanların zəkası və ürəyinə yönəldilmiş biliklərə ehtiyac var ki, bunu bizə müsəlman müəllimlər verə bilər".

**İslam adlı qorxulu illüziya**

Amma islamın Avropada yayılmasını ikrahla qarşılayanlar dəstəkləyənlərdən daha çoxdur. Uelsin Milli Assambleyasına namizədliyini vermiş İngilis Milli Partiyasının üzvü Şion Ouens "Quran"ı yandırmaqda ittiham edilib. İttihama görə, müqəddəs kitabın yandırılması videoya çəkilib və ekstremistlər arasında yayılıb. Bundan əvvəl isə amerikalı pastor Ueyn Sapp və Terri Jonm ictimai şəkildə "Quran"ı yandırmaqla Əfqan şəhəri Qəndaharda etiraz aksiyasına səbəb olmuşdular. Nümayişdə 10 nəfər qurban getmişdi. Hadisəni törədənlər sonradan demişdilər: "Biz dünyanı bir illüziyadan qurtarmaq istədik. Qoy bilsinlər ki, İslam təhlükəli deyil". İtaliyalı Orianna Fallaçi "Qəzəb və iftixar" kitabına görə İsveçrədə mühacirətdə

yaşayır. Hollandiyalı karikaturaçı Nekşot antiislam rəsmlərinə görə həbs edilib. Amerikalı yazıçı Reyçel Erenfeld Britaniyada Səudiyyə biznesmeni tərəfindən böhtana görə məhkəmə qarşısında dayanıb. Hollandiyada Ayan Xirsi Ali, Avstraliyada 2 xristian pastoru məhkəməyə çağırılıb. Danimarka karikaturaçı Uesterqard cızma-qaralarının bahasını öz ömrü ilə verəcəkdi. Kütləvi çıxışların fonunda Salman Rüşdinin lənətlənmiş kitabı artıq o qədər də aktual görünmür.

**İslama və "Quran"a müharibə**

Bu gün dünya məktəblərdə hicab qadağası kimi kifayət qədər böyük problemlə üzbəüz qalıb. Avropanın atdığı addımlardan bəllidir, o, açıq-aydın şəkildə İslamla mübarizə aparır. Bütün dünyaya təmkinlik dərsi keçən Avropa bu gün tolerantlığını və təmkinin itirib. Ərəbləri, Şərq ölkələrindən gəlmələrin ölkədən çıxarılması şüarı tez-tez səslənir. Məqsəd artan cinayətkarlığın deyil, cəmiyyətin müsəlmanlaşmasının qarşısını almaqdır. Müsəlmanları vəhşi heyvan kimi qəfəsə salmağı uca tribunalardan deyənlər də tapılır.

Siyasi fiqur kimi artmaqda olan Hollandiya siyasətçisi Gert Vilders deyir ki, islam zorakılıq dinidir. Vildersin iddiasına görə, müsəlmanlar Avropada yaşamaq və qəbul olunmaqları üçün "Quran"ın və əqidələrinin yarısından imtina etməlidirlər. İslamofobiyanın başında Vildersin çəkdiyi "Fitnə" adlı antimüsəlman filmi dayanır. Hollandiyanın Xalq Partiyasının lideri siyasi karyerasını islama qarşı çıxışlar üzərində qurub. O, "Məhəmməd peyğəmbər zamanımızda yaşasaydı, onu ölkədən qovardım" kimi ifadələrdən də çəkinmir.

Vildersin dediklərindən: "Ola bilər, biz Avropanın islamlaşmasının sonuncu mərhələsini yaşayırıq. Avropada yeni reallıq əmələ gəlib: rəngbərəng baş örtüklərində gəzən qadınlar, 4 metr irəlidə yeriyən quldar ər, çoxsaylı məscidli küçələr... Avropada minlərlə məscid var, onlar xristian

məbədlərindən çoxdur. Hər şəhərdə bütün məbədlərdən uca olacaq iri məscidin tikinti planı var. İri Avropa şəhərlərinin bir çoxunda artıq əhalinin dörddə biri müsəlmandır: Amsterdam, Marsel, Malmö. Şəhərlərin əksəriyyətində 18 yaşlıların içində müsəlmanlar daha çoxdur. Paris müsəlman icmaları ilə halqaya alınıb. Məhəmməd şəhər əhalisinin ən sevimli adıdır. Fransada məktəblərdə müsəlmanlara qarşı danışmış müəlliflərdən - Volter, Didro - yan keçməyi üstün bilirlər. Darvinə münasibətdə də eləcə. Holokost tarixi öyrənilmir. Çünki bu, müsəlmanların şərəfinə toxuna bilər. İngiltərədə şəriət hüquq sisteminin bir parçasına çevrilib. İndi Avropada 44 milyon müsəlman var. İslam Avropası Avropanı azadlıq və demokratiyasız nəzərdə tutur".

**İslamda aqressiya varmı?**

Bu gün dünyada minlərlə adam dinini dəyişir. Amma məlum statistika var ki, dünyada islamı qəbul edənlər daha çoxdur. Müsəlmanlar ilə 2,5 faiz artımla çoxalır. Dünya siyasəti liderləri də bu faktı deməyə bilməz: müsəlmanlar dünyanın ən çox artan qrupudur. 2000-ci ildə xristianlar dünya əhalisinin 29,9, müsəlmanlar 19,2 faizini təşkil edirdisə, həmin bu sürətlə artsa, 2025-ci ildə xristianlar 25 faiz, müsəlmanlarsa 30 faiz olacaq. Heç kimi zorla namaz qılmağa, ya da başını bağlamağa məcbur edən yoxdur. Avropalı islama gəlirsə, bunu illər uzunu axtardığı sualların cavabını müqəddəs kitabımız "Quran"da tapandan sonra edir. Elm sahəsində tapıntıları ilə Şərqdən fərqlənən Qərb dünyasının alimləri nə vaxtsa elmi tədqiqatlarında böyük, ali və dərkedilməz qüvvə ilə üzbəüz qaldığına etiraf etməli olur. Xristian kimi doğulsa da, bu alim nə vaxtsa "çarmıxa çəkilmiş allah" obrazından imtina etmək məcburiyyətində qalır.

Bütün bu sadalananlardan sonra bir sual rahat buraxmır: onda bəs biz (yəni azərbaycanlılar) İslamdan niyə qorxuruq? Elmi, mədəniyyəti ilə inkişaf etmiş Avropanı görüb həsəd hissi keçirir və müsəlman ölkələrinin acı taleyini

yaşamaq istəmirik, ona görəmi? Maddi rifaha görə dinimizi qurban verəkmi? Özü də Avropanın müsəlmanlaşdığı bir zamanda...

**İslamofobiya siyasi sifarişdir**

Siyasi şərhçilər bütün bu proseslərin sifariş olduğunu deyir. Yəni siyasətçilər və jurnalistlər bu məsələni öz xeyirlərini güdərək olduğundan çox şişirdirlər və Avropada müsəlmanlara qarşı münasibət ona görə gərginləşdirilir ki, yerli əhalini İslama və müsəlmanlara qarşı aparılan müharibələri dəstəkləməyə vadar etsinlər. Düşmən obrazı yaratmaqla İraq, Əfqanıstan, Somali, Sudan, İranda aparılan müharibələrdə cəmiyyətin dəstəyini qazanmaqdır.

Məsələyə siyasi qızışdırmadan kənar baxışla nəzər salsaq görərik ki, Avropanın islamlaşması adlı problemi yoxdur. Sadəcə, son 50 ildə müsəlman cəmiyyətləri öz infrastrukturlarını inkişaf etdirərək məscidlər tikir, halal qida sistemi yaradır, İslam mərkəzləri, qəbiristanlıqlar, məktəblər yaradır və siyasi həyata qoşulurlar. Artıq İngiltərənin Lordlar Palatasında və ABŞ Konqresində müsəlman təmsilçiləri var. Müsəlmanlar başqa dinlərin nümayəndələri ilə bəzi məsələlərdə birləşərək cinayətkarlıq, narkomaniya kimi bəşəri problemlərin həlli ilə məşğul olurlar. Avrabiya yeni əmələ gəlmiş terminlərdən biridir və avropalı düşüncəsinə zorla olsa, da yeridilir. Bu termin Avropanın tutqun gələcəyini ifadə edir ki, burada əksəriyyəti ərəblər və Şərq xalqları olacaq, cəmiyyətdə isə şəriət qanunları işləyəcək. Əslində problemin kökündə dayanan əsas məqam olur ki, avropalılar İslamın nə olduğunu dəqiq bilmir. Məsələnin görünən tərəfi, başıbağlı qadınlar, çoxarvadlılıq, ailədə patriarxal münasibətlər və dini zəmində yaranan münaqişələr avropalıları qorxudur. Bu qorxunun ucbatından adamlar İslam və ekstremizm arasında olan ciddi fərqləri görə bilmirlər.

**İslam missiyadır!**

Üçbucağın ən pik İslam adlı bucağının Avropaya və bizə münasibəti demək olar ki, dəyişməzdir. İslama qarşı deyilən bir fikirlə razılaşmalı oluruq:

İslam sadəcə din deyil, o, missiyadır və bütün dünyanın insanlarını imana gətirmək üçün göndərilib.

P.S. Əslində etiraf etməyimiz lazım: Avropa üçün İslam nə qədər təhlükəlidirsə, elə bizim üçün də Avropa o qədər təhlükəlidir. Çünki bəni-insan olaraq biz (yer kürəsində yaşayan homo sapiens növünün nümayəndələri kimi) hər hansı modeli mənimsəyərkən onun müsbət tərəflərini götürüb mənfini atmağı hələ ki, yaxşıca öyrənə bilməmişik.

## Abşeron eskizləri

*Yaxud dəniz və külək yaşıl rəngi niyə sevmir?*

Elektrik qatarı platformada dayanıb. Ağır zənbilləri ora-bura sürütləyən adamlar qarışqa kimi qaynaşır. Dəmir barmaqlıq yanında dayanmış biletyoxlayanın cəngindən qurtulmuşlar qatarın hara gedəcəyi ilə maraqlanır. Bunu isə heç kim bilmir. Çox ehtimal ki, Sumqayıt qatarıdı. Kimisi soruşmadan minməyə, kimisi işini ehtiyatlı qurmağa çalışır. Kimisi isə paralel yolda, qonşu qatardakı əlbəyaxa döyüşünə tamaşa eləyir. Orda balaca bir oğlan qadına təpik atır. Qadın da boyunun hündürlüyündən istifadə eləyib uşağın başına yağlı qapazlar endirir. Qatarın gəlməyini gözləyən bir ailə perrondakı çayxanada bir çaydan çay alıb qaydasız döyüş səhnəsini müşahidə etməkçün yerini rahatlayır. Belə səhnə harda görünüb ki? Adətən uşaqlar döyülür. Bu dəfəki "boyevik"in qəhrəmanı uşaq idi. Tələsən sərnişinlər döyüşdən ləzzət almaq imkanından məhrum olduqlarına görə, başları arxada qala-qala irəliləyirdilər. Bu qatar yola düşdü. Amma elan olunmadı.

**Sarımtıl fonda həyat əlamətləri**

Neçə əsrdir ki, günəş fasiləsiz həmişəki yerindən çıxıb boz-sarı Abşeronu da çəhrayı rəngə boyayır. Hər il, hər gün çıxır, sarı qumu bir az da yandırıb saraldır. Küləksə dənizin sahilə bağışladığı çınqılı dəyirman kimi üyüdüb

narınlaşdırır. Külək gah xəzri, gah gilavar, gah da gicəvar kimi əsir ki, qum o yana-bu yana çevrilib yaxşıca ovulsun. Xəzri əsir ki, qumdan dəniz qoxusu çəkilməsin. Gilavar, yəni şəhərdən əsən külək əsir ki, buralardan şəhərin ruhu əskik olmasın. Gicəvar əsir ki, qeyri-müəyyənliyilə camaatı bezdirib "lap bizi gic elədi ki…" sözlərini bir də eşidib cığallığından ləzzət alsın. Hər gün günəş dənizdən çıxır, külək də hər gün dəniz üzərində at çapır. Amma demək olmaz ki, dəniz həmən dənizdi. Dəniz narahatdı, yerini dəyişən, gah sahilini daşdırıb əvəzində ona qucaq-qucaq çınqıl bağışlayan, gah da Xəzərlə cəsarətdə bəhsə girib uzaqlara üzənlərdən birini canına çəkəndi. Abşeron camaatı günlərlə küləyin kəsmədiyini görüb "Yəqin dənizdə adam batıb. O adam sahilə çıxmayınca dəniz sakit olmaz. Axı Xəzər murdar götürmür" deyir. Elə bil küləyin dənizlə sazişi var. Elə ki, batan adam çıxarıldı, cəmi Abşerona "Sən demə Bilgəhdə batan varmış. Yaman dəli dənizi var Bilgəhin" xəbəri yayılır. Bəyəm başqa yerdə dəli deyilmi Xəzər?

**Abşeron xoru**

Buralara sorağı neçə il əvvələ gedib çıxan bir hadisə barəsində hələ də qorxuyla danışırlar. Deyirlər, dənizdə bir lyuk qurulub. Çimərlikdə suyun altında gizlənən akvalanq birisinin ayağından çəkib aparır, onu həmin bu lyukda gizlədir. Sonra isə meyiti axtaran qohumlara onu tapmağı təklif eləyir. Böyük məbləği alandan sonra meyiti sahibinə qaytarır. Bu əhvalatı hər il yenidən, hər dəfə yeni nüanslarla danışırlar. Uşaqları bu əhvalatla qorxudurlar, şəhərdən gələn qonaqlarısa xəbərdar eləyirlər. Əhvalata inanmayanlarçün o dəqiqə: "Mənim də ayağımdan tutmuşdular, gücnən qurtuldum", - deyib şahidlik edən ən azı iki-üç nəfər tapılır. İnanmaq da olar, inanmamaq da.

**"Andronik, poşyol na mesto!"**

İsti çox kinlidi. İsti yaman qisas alandı. Neçə aylardı, soyuq küləklərin buzlatdığı, buzlu dənizin soyutduğu Abşeronun əvəzini indi bizdən

çıxmazmı? Eh, şəhərlilər nə bilir isti nə üçündü? Əncir, üzüm yeyəndə heç "Nə yaxşı ki, isti var", - demirlər. Dəniz sahilə çınqılı qovmasa, külək çınqılı ovutmasa, günəş qumu qızdırmasa, heç əncir, üzüm olarmı? Təcrübəli adamlar bilir ki, ən dadlı üzüm quma uzanmış üzümdü. Əbəs yerə demirlər ki, "Üzümə qum dəyməsə yetişməz". Üzüm dəyəndəsə uşaqların bayramıdı. Öz bağında üzüm tökülüb qalsa da, başqasının bağından oğurlanmış əncir-üzümü kiçik ürəyinə sığmaz böyük sevinclə hasar dibində yeyir və dərhal yeni sərgüzəştin ssenarisini hazırlayır. Bura bağ yiyəsinin qışqırığı, söyüşü, ən yaxşısı, əlində taxta parçasıyla arxasınca qaçması da əlavə olunsa, necə də yaxşı olar? İpini gəmirən Andronik adlı it isə hikkəsindən oyduğu çalaya girib çıxdıqca, səsi xırıldayanacan, qonşuların narazı replikaları gələnəcən hürdükcə nəsə tamlıq, razılıq hissi yaranır. İt də adını yaman yaxşı tanıyır. "Andronik, poşyol na mesto" deyən kimi ürəyində "Nəyimə lazım, mən ki, heç üzüm yemirəm", – deyib kölgəyə çəkilir. Nədənsə, bağına girəndən, üzümündən yeyəndən sonra bağ yiyəsinin hörməti daha da artır. "Uşaq onsuz da yeməkçün yığmışdı da, satmaqçün yox ki… " Uşaqları səhər tezdən, yaxud 15 dəqiqəlik evdən çıxan kimi bağı soyan gəlmələrlə müqayisə eləyib bağ sahibinin tezcə ürəyi soyuyur. Hələ axşam çağı iri bir qabı doldurub pay da göndərir. Həmən qab mövsümün sonuna kimi bu bağdan o birinə pay göndərilərək tennis topuna çevrilir. Düzdür də, qabı boş qaytarmazlar.

**Cındırından cin hürkən komada**

Abşeron bağları çox fərqlidi. Gözəllikdə, əzəmətdə bir-biriylə bəhsə girib qatarlanan saraylar kompleksi də, sahələri bir-birindən qum təpəciyilə ayrılan, hasarsız, köhnə taxtaları paslı mıxla bir-birinə pərçimlənən daxmalı bağlar da var. Birincilər, zənginliyin, toxluğun simvoludursa, ikincilər sadəliyin, səmimiliyin və kasıblığın nişanəsidi. Vaxtilə bağlarda daşdan tikmək qadağan idi. Hər bir daş, dəmir boru üçün kağız tələb eləyirdilər. Bu taxta evlər də o vaxtdan qalıb. Sonradan kiminin imkanı oldu o tikdi. Yerdə

qalanlarsa, kasıbçılığıyla barışıb əvvəlki kimi hər mövsüm bağına köçməkdə davam eləyir. Amma ildən-ilə bağa köçənlərin sayı artır. Qabaqlar baxımsız bağlar çox olardı. Yəqin kurorta getməyə imkanı olmayanlar Abşerona üz tutub. İndi hər darvaza arxasından səs-küy gəlir. Camaat istirahətdədi...

**Pərvanələr daha oda yanmır**

Nədən danışır onlar? Siyasətdən də, serialdan da danışanlar var. Domino, nərdin səsi lap dənizə qədər gedir. Axşamüstü qonşular toplaşıb loto da vurur. Başqa illərlə bu ili müqayisə eləyib təəccüblənirlər də. Qabaqlar qaş qaralan kimi ağcaqanad, qurd-quş, pərvanə əlindən göz açmaq olmurdu. Əl-ayaq daim hərəkətdə olmalıydı ki, həşəratın zəlili olmayasan. Hələ bir haf gəlib özünü çırağa çırpanda "Qonağımız olacaq", - deyib sevinirlər də. İndi ağcaqanadlar azalıb, pərvanə və haflar tamam yoxa çıxıb. Deyirlər, o qədər isti olub ki, ağcaqanadların kökü kəsilib. Bəs pərvanələr? Daha şam oxuna yanmayacaqlar?

**Dənizlə küləyin sazişi**

Son zamanlar Abşeron xasiyyətini bir az da sərtləşdirib. Bu sərtlik həmişəki kimi kasıbların cibinə zərbə vurub. Deyirlər, Abşeronda qrunt suların səviyyəsi bir-neçə metr endiyindən quyuların əksəriyyəti quruyub. Pulu olan maşınla su alıb gen-bol işlədir. Pulu olmayanın ağacları quruyur. Hamısı küləyin paxıllığındandı. İstəmir ki, buralarda yaşıllıq olsun. Yəqin sarı-boz rəngin hər yerdə hakim kəsilməsini arzulayır. Dəniz də küləklə saziş bağlayıb. O, həmişəki kimi sahilə çınqıl qovalayır ki, külək onu ovutsun. Onlar hər ikisi yaşıl rəngi sevmirmiş.

**Abşeronun rəng serialı**

Hər axşam həmişəki kimi gün dənizdə batır. Batmazdan əvvəl gözüylə sevməyi bacaranlar üçün rəng serialı göstərir. Amma bu serialda heç vaxt təkrarlar olmur. Hər dəqiqə yeni rəng qamması, yeni hiss harmoniyasıdı. Bu

serialın heyranları Braziliya və Argentina seriallarının primitivliyinə bütün qışı güləcək, sevimli serialına baxmaqçün hər il yenidən dəniz sahilinə gəlib günəşin batmağını seyr edəcək.

**Ay da inciyərmiş**

Hər gecə həmişəki kimi ay doğur. Təzə ay doğanda baxıb salavat çevirirlər. Bütöv ayı al-qırmızı dairəsində görəndəsə, ürəklərində onu gecənin günəşi adlandırırlar. Bəlkə də ay bundan çox inciyir. Axı o, günəş kimi hər gün eyni görkəmdə çıxmır! O, dəyişən, yeniləşən, yenidən doğulandı. Bəlkə də bu inciklikdən günəşin qabağını kəsməyə cəhd eləyib. Heç Abşeron camaatı qoyar ki, Ay Günəşi tutsun? Kimin mis tavası, qazanı vardısa, həyətə çıxarıb var gücüylə çaldı. Ay da qorxub Günəşi buraxdı. Amma çox incimədi. Çünki hələ ki, hər gün həmişəki kimi çıxmağında davam eləyir. O çıxmasa, bəs kimə baxıb şer yazarlar?

**Yolumuz şəhərədi**

Hər gün səhərə yaxın şeh düşür. Sarı-boz qumu sulayıb türdləşdirmək, gün ərzində yığdığı istini alıb soyutmaq istəyir. Amma bu ona Günəş çıxana qədər nəsib olur. Günəş dan yerini bir balaca işardan kimi zəhmətkeş camaat durub gecə düşmüş şehi tapdalaya-tapdalaya elektrik qatarına doğru gedir. Şehdən islanmış dəmir məhəccərə söykənib qatar gözləyir. Üfüqdə qaralan, deyəsən, qatardı. Qatar bu dəfə Sumqayıtdan gəlir. Şəhərə xlor, ağ neft gətirənləri daşıyır. Dənizin sahilə qovaladığı, küləyin ovutduğu sarı qum kimi adamlar da şəhərə və geriyə daşınmaqdan kimisi sınır, kimisi xırdalanır, kimisi də bozarmış rəngiylə camaatın fonunda itir, yox olur…

# Praktik magiya

İncildə deyilir ki, Adəm və Həvva cənnət almasının dadına baxan kimi bir-birini gördü və çılpaqlığından utanıb əncir yarpağı ilə ayıbını örtdü. Həmin an insanın bədənini yad baxışlardan qorumaq üçün paltar geyinməsi məqamı sayılır. Cənnətdən qovulma əfsanəsinə müasir gözlə baxsaq onu təxminən belə də anlamaq olar. Yaradan ilk insanı cənnətdən qovarkən ona dəri və ətdən yeni libas yaratdı ki, həmin görkəmdə Yer üzündə yaşaya bilsin. Bu ətdən libas onun ruhunu qorumalı idi. İncil əfsanəsini bu tərz şərh edəndə sanki hər şey öz yerinə düşür və bədənimiz də magik əşyaya, ruhu daşımalı və qorumalı olan atributa çevrilir. Ona görə də bədənin ən vacib və ən zəif nöqtələrini mütləq qorumaq lazımdı.

## İnsan həmişə azaddır

Qədimdə insan öz bədəninin çılpaqlığından utanmazdı. Geydiyi libas isə onun irsi mənsubiyyətini, maddi durumunu bildirir və yerdən, eləcə də göydən gələn təhlükələrdən qoruyurdu. Geyim ola bilər ki, şimal xalqları üçün soyuqdan qorumağa lazım idi. Amma onlar da mütləq qaydada geyimin üstündən talismanlar asar və xüsusi qoruyucu ornamentlərlə geyimlərini bəzəyərdilər. Bədənə geyilmiş parça vacib ritual atributlarını daşımaq üçün lazım idi. Sonradan bütün bu ritual atributları brelok, ilgək, toqqa, kokarda, düymə, qol düyməsi, kəmər və s. şəklində qarderobumuza daxil oldu. Ən vacib detal olan papaq, insanın sosial statusunu bildirən və ən vacib mənəvi keyfiyyətlərindən danışmalı olan predmet adi papağa çevrildi. Bu papağı qoymaq da olar, qoymamaq da.

Geyim barədə bilikləri anlamaq üçün insanın enerji düyünlərindən - çakralardan və auranın quruluşundan xəbərdar olmalıyıq. Çakralar haqqında ətraflı biliklər bizə şərqdən gəlir və hazırda bütün dünya həmin terminalogiyanı işlədir. Amma bu o demək deyil ki, bunlar dilimizə tamamilə

yad sözlərdir. Məsələn çakra sözünü "çarx Ra" kimi təfsir etsək hər şey anlaşıqlı olur. Yəni Ra ilahının fırlatdığı enerji çarxları. Çakralar onurğa sütunu boyunca düzülüb və onunla birlikdə bədənimizin energetik skeletini daşıyır. Bu çakraların hərəsinin öz rəngi və fırlanma tezliyi və buna uyğun olaraq da vibrasiyası, səsi var. Hər hansı çakrada bir problem yaranarsa onun öz rəngini geyməklə, müvafiq vibrasiyalı musiqini dinləməklə çakranın işin bərpa etmək mümkündür. İnsana kosmik enerji kəllədən, əmgəkdən daxil olur və ona görə də yuxarı 3 çakranın işinə qarışmaq yasaqdır. Torpağın enerjisi isə ayaqlardan daxil olur və aşağıdakı 3 çakranı idarə edir. Mərkəzdəki ürək çakrası, insanın hiss və duyğularıyla işə salındığından o, qapalı da qala bilər, açılıb yuxarı ali çakraların da həyatını idarə etməsinə qoşa da bilər. Bu mənada insana seçim azadlığı verilib.

**Hiddətə yoluxmuşlar**

Hazırda alimlər incə enerji formalarıyla işləyən ekstrasenslərlə bu məsələdə razılığa gəliblər: insan bədənindəki xəstəliklər əvvəl onun nazik bədənlərində yaranır və lap sonunda fiziki bədəninə köçür. Hər hansı bir xəstəlik insanın bioenerji qatında, aurasında baş vermiş dəliklər, yad enerji formaları və s. müdaxilələrdən sonra yaranır. Auranın zədələnməsi müxtəlif səbəblərdən olur. Biz neqativ fikirlər və əməllərlə məşğul olarkən bədənimiz müvafiq enerji formalarıyla dolur və onları tezliklə təmizləməsək xəstələnə bilərik. Yaxud mənfi enerji formaları kənardan gəlir və zəif aurası olan adamı xəstələndirir. Hiddət, nifrət, qəddarlıq, hirs, paxıllıq, qısqanclıq, eləcə də cadugərlik ritualları və qarğış enerji qatını xəstələndirə bilən "viruslardır". Biosahəsinin tamlığını itirmiş insan immunitetini tədricən itirir. Sağlam aurada bir dənə də virus və parazit əmələ gəlib arta bilməz. Hazırda məsələ çox qlobal şəkildə qoyulur, çünki insan fikirləri artıq bütün planetin aurasında dəliklər əmələ gətirərək başəri miqyasda problemlər yaradır.

Ən aşağı çakranın rəngi qırmızıdır və vibrasiya sürəti ən aşağıdır. Deməli bu çakra ən çox qorunmalı olan bir nöqtədir və ən alçaq istəklərin enerjisi ilə

sıradan çıxa bilər. Hətta ibtidai düşüncə tərzində olan geridəqalmış qəbilələrdə də aborigenlər bellərində bir parça, ya da samandan sarğı gəzdirirlər. Bu sarğı aşağı iki çakranı qorumaq funksiyası daşıyır. İbtidai cəmiyyətlərdə emosiyalar da kobud və primitiv olduğundan onların məqsədi elə bu aşağı çakralardan uzağa, daha doğrusu yuxarı getmir. Onların ali çakraları örtmək ehtiyacı yoxdur, çünki bu enerji mərkəzləri heyvanlarda olduğu kimi yatmış vəziyyətdədir. Amma onlar bellərindəki sarğını açmaqdan qorxur, çünki cadugər və qəddar adamlar qarşısında özlərini köməksiz duyurlar. O qəbilələrdə ki, artıq hakimiyyət və mülkiyyət məsələləri var onlar üçüncü çakranı, yəni göbəyin ətrafındakı çakranı işə salıb instinktiv olaraq kəmərlər taxmağa başlayır. Yaxud belbağı artıq böyüyüb təkcə qasığı yox, həm də göbəyi örtür. Cəmiyyət inkişaf etdikcə daha yuxarı çakralar örtülməyə və simvolik əşyalarla qeyd edilməyə, yəni müvafiq olaraq qorunmağa başlayır. Sinədəki çakranı qoruyan amuletlər, boyundakı çakranı qoruyan boyunbağı və sinəbəndlər artıq insanın bu çakraları işə saldığından xəbər verir. Alının ortasındakı "üçüncü göz" adlandırılmış çakranı qorumaq üçün hindular başlarına quş lələklərindən tiku qoyur, Avropa və Asiyada isə alına düşən diadema və bəzək əşyaları salladırlar. Baş örtüyü isə ümumilikdə sonuncu iki, 6 və 7-ci çakraları qorumalı olan atributdur. Qədimdə heç kim başını örtmədən gəzməzdi. İstər kişi, istər qadın başını örtməklə intuitiv şəkildə yuxarı enerji mərkəzilərini qoruyurmuş. Ona görə də bütün dinlərdə başı bağlamaq ənənəsi var, çünki söhbət insanla ali qüvvələrin arasında olan enerji mübadiləsindən gedir. Bu kanalların çirklənməsi ölümə bərabərdir.

**Görəsən dəb təhlükəli ola bilərmi?**

Geyimə taxılmış bir bəzək əşyasının işi ilk baxışı özündə cəmləməkdən ibarət idi. Parçalardakı ornamentlərin də funksiyası adamın gözünü çəkməklə diqqət mərkəzində olan obyekti qorumaqdı. Bütün bu bilikləri sadaladıqdan sonra müasir insanların geyiminə baxdıqca onların nə qədər risk etdiyini və

qədər müdafiəsiz olduğunu anlayırsan. İndi paltara parçanın keyfiyyəti və modelinə görə dəyər verirlər. Müasir insan dəb dalınca qaçaraq intuisiyasını itirib və bu dəbin hardan gəldiyini hiss etmir. Yalnız bioenerji mübadiləsindən bir qədər agah olanlar duyur ki, təbii enerjisinin keyfiyyətinə görə qara və işıqlı olan fərdlər əmələ gəlib və bu qüvvələr qarşıdurmadadır. Qara qüvvəli insanlar öz əməlləri və pis fikirləriylə işıqlı insanların biosahəsini deşib əldə etdikləri enerjiylə yaşayırlar. Məhz onlar qasıqda olan ikinci çakranın açılmasını dəbə gətiriblər. Qara niyyətli adam ikinci çakrasını açırsa o ətrafındakıların enerjisini toplayır. Amma dəbə uyub beldən aşağı düşən şalvar almış bir gənc qız isə heç kimə pis niyyəti olmasa belə özü enerji vampirlərinə yem olur. Göbəyini bayırda qoymuş qız orta hesabla bir gün ərzində 3 aylıq enerji ehtiyatını sərf edir. O, hər baxışla enerjisini itirir və sonra ata-ana başına döyür ki, "Bu yaşda qızda mədə xorası, miyoma, yırtıq hardan əmələ gəldi?". Alt çakralarını bayırda qoyan hər kəs özünü sonsuzluğa düçar edir və hətta onkoloji xəstəliklərə qədər həyatını riskə atır. Təhlükə təkcə qızlara deyil, çılpaqlığıyla cəlb edən qadınlara baxan kişilərçün də var. Min dənə göz baxan tərəfə bir baxış bəsdi ki, kişi 2 günlük enerjisini sərf etsin. Dərin dekolte və çılpaq göbəklərə baxmağı sevənlər sonunda impotent qala bilər.

Bu sadə prinsipləri bildikdən sonra başqa millətlərin milli geyiminə baxıb bu xalqın hansı mənəvi durumda olmasını aydın görmək olar. Etiraf etməliyik ki, babalarımız bizdən daha mənəviyyatlı idilər. Onların 5, 6, 7-ci çakraları daha inkişaflı və işlək idi. Mahiyyət etibarilə çirkin insanlar adamın yuxarı çakralarına heç fikir də vermirlər. Ona görə də biz başımızı bağlamadan, alnımızı qorumadan gəzə bilərik. Xalq məsəlində deyildiyi kimi, düşmən başa deyil, ayağa baxar.

**Aerodrom kepkaya nələr qonur?**

Keçmişdə kişilər başına papaq qoymamış bayıra çıxmazdı, papaq kimlik rəmzi idi. Baş örtüyü nə qədər dəbdəbəli idisə bir o qədər də insana hörmət

gətirərdi. Keçmişdə başı örtməyi hələ qazanmaq lazım idi. Amerika hindularının başındakı quş lələklərindən olan qurğuda hər lələk bir qəhrəmanlığın simvolu idi və insanın uğurları, qələbələri artdıqca o da böyüyür və zənginləşirdi. Lələyin sonunda qırmızı sap sallanırdısa bu o demək idi ki, qələbə sahibinə qanı bahasına başa gəlib. Baş örtüyünün yuxarı hissəsi bütün qədim dinlərdə mistik aydınlanma məqamı ilə bağlı idi. Papaq yaranışın sirrini daşıyan ən ali çakra - saxasrara ilə əlaqədar olduğundan bəzən konusvari papaq şəklində də olurdu. Deyilənə görə insanın aurasında başının üstündəki bu kanal düz göyə millənir və o biri çakralar kimi üstdən bağlı deyil. Bu papağın 3-cü göz yerində, yəni alında bir ornamenti, ya da bir qiymətli daşı olsa daha dəyərli olurdu. Kralların, padşahların tacları də həmin bu funksiyanı daşıyırdı. Misir fironlarının uzunsov papaqlarıyla deyilənə görə hətta başqa dünyalarla telepatik əlaqəyə girmək olurmuş. Hazırda müasir geyimdə bu nöqtənin qeyd edilməsi yalnız hərbçilərin papaqlarında dövlət gerbi və ya kokarda olan hissədə qalıb. Milli kostyumların ayrılmaz hissəsi olan papaqların məişətdən çıxmasını artıq mənəvi aşılanma prosesinin əlamətləri kimi təfsir etmək olar. Konusvari buxara papaqlar sahibinin varidatını deyil, mənəvi simasını əks etdirirdi. Bu yaxınlaracan hələ məişətdə işlədilən "aerodrom kepka"nı da kişinin ən vacib orqanı, yəni yaradanı ilə əlaqəsinin simvolu kimi qavramaq lazımdı. Bu papaqlar 8 guşəli cənnətin simvolu olaraq 8 bucaqlı, dərzilər demiş "8 klin" kəsilərdi. "Qədeş"lər sıradan çıxdıqca kişilərin başı yalın qaldı.

**Düymələr qorxudur**

Geyimdə düymələrin əmələ gəlməsi də çakralarla bağlıdır. Boyunda, qalxanvari vəzinin üstündə olan vacib nöqtə vişudxi adlanır və onun rəngi mavidir. Bu mərkəz bütün enerji sistemində vacib funksiya daşıyır və ona görə də xüsusilə qorunmalıdır. Adətən magik simvollu, çox vaxt günəş təsvirli medalyonlar bu işi yerinə yetirirdi. Boyunun kökündəki çökəklik qədim maqlar tərəfindən xüsusilə qiymətli sayılardı. Meksika maqları bu yerə yalnız

magik mərasimlər zamanı toxunardı. Belə mərasimlərin iştirakçısı olmuş Karlo Kastaneda "Səssiz bilik" kitabında yazır ki, maqlar bu yerə əllə toxunmağı qadağan etmişdi və oranı massaj etmək üçün alət çökəkliyin ölçüsündə xüsusi taxta parçası, ya da sümükdən yonulurdu. Deyilənə görə bu çakra gözdəyməyə qarşı xüsusilə həssasdır. Yəni yad enerji müdaxiləsi varsa bədənə bu nöqtədən daxil olur. Çıldaqçılar boyunun arxasındakı hissədən xəstənin quluncunu sıxmaqla hətta gözü dəyənin kimliyini də deyə bilirlər. Qadının boynunun arxasını qoruması qədimdə xüsusilə vacib sayılırdı. Öz əlləriylə saçını hörüb dalına atmış, ya da peysərində hörüyünü düyünləmiş qadın özünü qorumuş kimi sayardı. Axı hörük hörmə özü bir ayrıca magik ritualdı.

Hazırda paltarlarımızın ayrılmaz hissəsi olan düymələr təsadüfən əmələ gəlməyib. Keçmişdə onlar dəqiq olaraq çakraların yerində qoyulardı. Bəlkə də ona görə düymə, ya da duyma adlanırlar. Həssas adam ona toxunmaqda sahibi barədə hər şeyi duya bilər. Rus dilindən "puqovka" "puqat" yəni qorxutmaq kimi tərcümə olunur. Düymənin vəzifəsi yad baxışları qorxudub qaytarmaq idi. Onlar kiçik qalxanlar kimi insana yönəldilmiş enerji selini neytrallaşdırıb çakraları qorumalı idi. Onu görə də qədim kostyumlarda rast gəlinən düymələr iri olardı, üstü çox bəzəkli naxışlarla örtülər və ən vacibi boyundakı çökəkliyi örtərək kostyumun yuxarısını bağlamalı idi. Düymələr açıq olarsa qoruyucu funksiyasını yerinə yetirə bilmir. Bir rus nağılında deyilirdi ki, qədim Rusiyada bir gənc boyarin Dyuka qaftanındakı düymələriylə quş və heyvanları çağırır və onlarla danışa bilirmiş. Düymə kiçilib bütün paltar boyunca paylaşdıqdan sonra onun işini yaxaya vurulan bəzək sancağı tutdu. Amma sancaqlar magik xüsusiyyətini çox saxlamadı və tezliklə bəzək əşyasına çevrilib sinələri bəzəməyə başladı.

**Ruh bədəndən, Günəş düyünündən çıxır**

İnsanın qiymətli orqanı olan, bütün dünyanı içinə sığışdıra bilən ürəyi də, ona uyğun olan Anaxata çakrasını da xüsusi qorumaq lazımdı. Sinəbəndlər,

qiymətli qaşlardan quraşdırılmış medalyonların əsas vəzifəsi bundan ibarətdi. Bu medalyon sahibinin varidatını deyil, məqsədlərinin nə qədər təmiz və məkrsiz olduğunu nümayiş etməlidir. Qədim Romada ürək nahiyəsində xüsusi çarpaz ilgək olardı ki, bu da yerlə sürünən plaşın tərəflərini saxlayardı. Amma həmin plaşın parçası o qədər nazik olardı ki, qadının, ya da kişinin bədəninin əzaları görünərdi. Bu, bir daha sübut edir ki, geyim bədəni örtmək üçün yaradılmayıb.

Enerji axınlarının daha bir vacib nöqtəsi Manipura adlanır və qarının tən ortasında yerləşir. Ona həm də Günəş düyünü də deyilir. Hipnoz altında olan adamdan "sənin mərkəzin hardadı?" soruşanda o, əlini qarnına qoyur. Şüurlu vaxtı insan mərkəzinin başında olduğunu düşünür. Klinik ölüm keçirmişlərin az qala hamısı ruhunun məhz qarnının ortasından çıxdığını deyir. İnsan əlacsız olanda qarnını qucaqlayıb oturar. Yad cəmiyyətdə adamlar qollarını çarpazlaşdırıb intuitiv şəkildə özünü qoruma instinktini işə salar. Vampir xarakterli insanlar adama Günəş düyünündən hücuma keçər. Maqların qoruyucu talismanları bu nöqtəni qorumalı olduğundan adətən zənciri uzun olardı. Orta əsr cəngavərləri Günəş düyününü qoruyan yaraq-yasaq predmetlərinə həm də ata-baba gerblərini çəkməyi vacib bilirdilər. Çünki bu mərkəz əcdadların enerjisini özündə toplamağı bacarır. Bu mərkəzi güclü olan kəs düşmənlərə qarşı dözümlü olur. Müasir zamanda bu ritual cılızlaşıb gəlinin belini toyda qırmızı lentlə bağlamaq dərəcəsinə enib. Ağ paltar üzərində qırmızı lent nəzərdən saxlamalıdır. Bir əlamət də var ki, qaynana gəlinin belini bağlayana düyünü möhkəm etməyi tapşırar ki, gəlin ovcumuzun içində olsun. El adəti Günəş düyününün mistik funksiyalarını, bu mərkəzin vacib olduğunu unutmağa qoymur.

**Kəməri və qılıncı olmayanlar**

Göbəkdən bir qədər aşağıda daha bir enerji mərkəzi var ki, o da insanın ən vacib və zəif nöqtələrindən biri sayılır. Bu mərkəz enerjini həm yığıb həm də ötürməyi bacarır. O, insanın nəsil artırma instinktini idarə edir. Hələ

minilliklər bundan əvvəl insan bu nöqtənin vacibliyini bilərək toqqa və kəmər kimi müdafiə elementi işlətməyə başladı. Döyüşçülər, xüsusilə də komandanlar üçün iri toqqalı kəmər vacib atribut idi. Çünki təhlükə zamanı insanı qorumaqla bərabər enerji sahələrinin tarazlığını məhz metal disk ilə normaya salmaq olurdu. Bu toqqanın üstündə mistik fiqurlar, simvollar olurdusa işini daha keyfiyyətli görərdi. Hazırda toqqa kəməri saxlayan bir detal kimi işlədilir. Bizim milli adət ənənələrimizdə gəlin üçün xonça aparılanda orda mütləq xüsusi ornamentli toqqa və kəmər olmalı idi. Kasıb toqqanı gümüşdən, varlı qızıldan hazırlatdırırdı, amma gəlini yad nəzərdən müdafiəsiz qoymazdılar.

XX əsrin əvvəllərində günahkar zabitləri rütbədən endirməmişdən əvvəl onların qılınc və kəmərlərini əllərindən alırdılar. Kəmərə ilişdirilmiş qılınc maddi və mənəvi qəyyumluğun simvolu idi. Bizim də milli kişi geyimlərimizdə hörmətli kişilərin enli, kostyumundan fərqli rəngdə belbağısı və ona keçirilmiş xəncər, qılıncı olardı.

Ən aşağı çakranı geyimdə bir nöqtə kimi qeyd etmirlər. Buranı kəmərin sallanan bir ucu, ya da dizəcən ətək simvollaşdırır. Çünki o biri çakralardan fərqli olaraq onun ağzı aşağı, yəni torpağa baxır. Çaxçurun üstündən geyinilmiş trapesiya ətək, ya da dizəcən kişi çuxaları bu enerjinin torpaqdan alınıb insan bədənində toplanması üçün təbii forma yaradırdı. Qat-qat tuman içində batıb qalmış bir qadının qırmızı enerjisi kasad düşməz. Slavyan qadınlarının milli sarofanı da təbii qırmızı enerjinin toplanması və insanın sağlam olması üçün düşünülüb.

***

Bu dünya başdan başa enerji saplarından toxunub. İnsanın özü, yaşadığı mühit, həyatının özü, hətta ölümü də enerji mübadiləsidir. Məişətimizdəki simvolları öyrəndikcə heyrətlənir və xalqımızın şanlı keçmişi barədə köksümüzü ötürürük. Bəşəriyyət isə anlamalıdır ki, görünən fiziki dünyadan daha vacib olan nazik qatlar var və onlar bizim həyatımızı idarə edir.

## Sən mərkəzdə yaşamağa layiq deyilsən

Mən bu günü ömrüm boyu gözləmişəm. Hələ uşaq idim, Sovetski adlanan ərazinin söküntüsündən sonra yerində tikiləcəklərin baş planına baxa-baxa mən də gələcəyimi planlaşdırırdım. Bu planı böyük dəmir listlərin üzərində çəkib Sovetskinin bitib şəhərin başladığı yerdən asmışdılar. Həqiqətən də Sovetski başlayan yerdə şəhər bitirdi.

Mənim gizlincə cızdığım planlarımda paslı dəmir parçalarından hörülmüş hasarlar, çirkab suların axdığı yollardan keçib getmək, çoxdan atılmalı olan avadanlıqlardan qurasdırılmış interyerdən ilham almaq, qonşu davalarının çığırtısı altında uşaq yatızdırmaq kimi məqamlar yox idi. Mənim gələcəyə olan planlarım təmiz, işıqlı, ürəkaçan idi. Sovetski nimdaşlaşıb tökülən zaman onlara heç nə olmadı. Mən bu zaman kəsiyində şəhərimin çirkli, miskin, ürəkağrıdan parçasını ürəkdən sevdim. Bu sevgi buraların nə vaxtsa söküləcəyi ümidiylə yanaşı yaşamağa başladı.

Keçmişdə evləri başqa cür tikirdilər. Divarları qalın edərdilər ki, qışda isti, yayda sərin olsun. 80 santimetrlik divarlarda açılmış pəncərə içliyində oturmaq, əl-ayağını yığmağı bacarsan lap uzanmaq da olardı. Belə pəncərə içlikləri olmasaydı yəqin indi mən də olmazdım. Anam hələ körpəykən İçərişəhərdəki evlərində yanğın baş veribmiş. Qapı bağlı olduğundan anam tez-tələsik pəncərəyə dırmaşıb onun küncünə sığınıbmış. Od-alov evi başına alsa da ona heç nə olmayıb və qonşular pəncərədə qorxudan ağarmış qızı birinci xilas ediblər. Bəlkə də ona görə anam həmişə bizə tapşırardı, “Zəlzələ olanda həmişə qapının içinə qaçıb gizlənin”. Axı köhnə tikililərdə qapı və pəncərə tağları ən axırda sökülür. Bu günlərdə yeraltı təkan şəhəri titrədəndə bu sözü xatırladım və az qalmışdı oğluma da bunu məsləhət edəm. Sonra xatırladım ki, indiki binalarda pəncərə və qapı içlikləri binanı ən zəif

hissəsidir, uşağın başını səhv məlumatla doldurmaq lazım deyil. Müqayisəyə gələsi məsələ deyil, axı o evləri kişilər tikirdi.

Yeni söküntü bumu başlayan kimi Sovetskidəki boynunu büküb durmuş evimizi ölçməyə gələnlər lütfkarlıq edib divarların içindəki boşluqları, pəncərə və qapı içliklərini də ölçüb evin planına əlavə etdilər. Mən onlara bu enli pəncərələrdə keçirdiyim uşaqlığımdan danışa bilməzdim, anlamazdılar. Bilirsiz, qədimi pəncərələrdə iki uşaq üzbəüz oturub rahat oynaya bilərdi. Pərdəni çəkəndə isə içəridə balaca bir evcik əmələ gəlirdi. Fantaziyası olan uşaqlarçün 1-2 kvadratlıq ərazidə əlçatmaz qalalar ucaltmaq, bayırdan düşən gün işığını ora cəlb etmək, yoldan keçib-gedən adamları pəncərədə qaynaşan həyata əlavə etmək o qədər təbii idi ki. Yeməyini yeməyən uşaqlar pəncərə içindəki evcikdə oturub bayıra baxa-baxa yeyərkən nə vaxt böyüdüyünü heç bilmədi. Bəlkə kimsə böyüyüb sevgiyə düçar olanda evə gəlib o pəncərəyə sığınıb ayaqlarını qucaqlayıbmış. Ya da ilk görüşdən, ilk öpüşdən aldığı sevincini evdəkilərdən burda gizlədibmiş. Dərsə hazırlaşan kim, hamıdan küsüb inciyən kim… Hamı pəncərə içliyinə cumardı. Mənimçün bu pəncərə içlikləri nənəmin evindəki tül pərdə arasından süzülən zərif işıq və pəncərədəki fikus dibçəyidir. İcra hakimiyyətinin nümayəndəsi evimizin layihəsinə düşməyən qapı və pəncərə içliklərini də ölçüb çertyoja saldı. Deyirlər ki, həmin o xatirələri itirdiyimizə görə də müəyyən kompensasiya verəcəklər.

Həqiqətən də buralar çoxdan söküləsi ərazilərdir. O boyda ərazidə barmaqla sayası qədər tarixi bina tapılar. Tikililərin əksəriyyəti 19-cu əsrin axırından salamat qalıb. Onları tikənlər də varlı, imkanlı adamlar deyildi, başlarını soxmağa bir koma axtarırdılar. Bəs evlərinin sökülməsini ömrü boyu gözləyənlərin bu boyda hiddəti hardandı? Onlar elə bilirdi ki, illər uzunu buralarda çəkdikləri əzab dolu həyatın da əvəzini alacaqlar? Dövlət qurumlarının sənin həyatına tüpürmək belə istəmədikləri fikrini həzm eləmək asan deyil. Hələ sovet vaxtı da söküntü aparılanda burdakı camaatı pərakəndə halda ucqarlarda, küləklərin meydan suladığı Əhmədlidə,

Hövsanda yerləşdirirdilər. Məqsəd burda formalaşmış kültürü dağıtmaq idi. Əgər belə olmasaydı indi Sovetskinin yerini təmizlətdirən dövlət 4-5 dənə ucamərtəbəli bina tikdirib hamını təzə, təmirli evlər köçürdər və arada bu boyda narazılıqlar olmazdı. Maddi cəhətdən bu dövlətə daha ucuz başa gələrdi.

Söküntüdən, hərə öz payını alandan, ailədaxili çarpışmalardan, bölüşmələrdən sonra olacaqları təsəvvür etmək çətin deyil. Küçəyə atılanlar, bomj olacaq adamlar, evin pulunu qumara qoyub uduzanlar, qeydiyyat üçün yer tapmayanlar, ailədən küsüb inciyənlər, son qazanc nöqtəsini itirib kriminala qurşananlar və nəhayət qarğış edib hamının taleyini korlayanlar da olacaq. Bu on min ailənin taleyi deməkdir. "Sən mərkəzdə yaşamağa layiq deyilsən" iddiasıyla səni evindən çıxaran hakimiyyətə əhəmiyyət verməyərək gəlin şəkil çəkdirək. Çoxlu-çoxlu fotolar edək, paylaşaq və şəhərin bu çirkli, qaranlıq parçasını tezliklə unutmağa qoymayaq. Evlərimizi sökənlər xatirələri özünlə aparmağa etiraz etmir…

## Bakı Allahlar şəhəridir

Bakı böyüyən şəhərdi. Tez artan, sərhədlərini birnəfəsə qıran, dağıdan və yeniləşən şəhərdi. Ona görə də burda tikənlər olduğu qədər sökənlər var. Bir qismi keçmişini əlindən buraxmaq istəmir, o biri qism tarixini buldozer qarşısına verməyə tələsir. Üçüncü bir qism isə bu qalmaqallardan, qarşıdurmadan bezib deyinir. Bu faktdır: Bakıda total şəkildə məscidləri sökdürürlər. Qanunsuz inşa edilmiş evlərin sökülməsi işlərilə məhkəmələr doludur. Söküntülər yerində modern binalar inşa edilir ki, əksəriyyəti onların möhkəmliyinə etibar eləmir. Köhnə tikintiləri sökməsək şəhər necə böyüsün bəs? Kim haqlıdı, sökənlər, yoxsa mühafizəkarlar? Bunu araşdırmaqçün Bakının tarixinə ekskurs eləyək.

**Qəbir üstə ev tikməzlər**

Bakının tarixi və adının yaranması barədə mübahisələr hələ də gedir. İngilis arxeoloqu Vilyam Petri hesab edir ki, Misirdə "Ölülər kitabı"nda (bu kitabı "Mumiya" filmindən tanımış olarsız) adı çəkilir. Bu kitabda Bakı haqqında "Bahau (Bakhay) zühur edən günəşin dağı" yazılanda hələ eramızdan 2 min il əvvəl idi. Bakını oda sitayişlə də bağlayırlar. Bəzi qədim dillərdə "baqa" günəş, Allah deməkdir. Türk İslam ensiklopediyasında Bakını "Bey-Key" adlandırırlar, yəni türkcə "bəy şəhər". Bakıya küləyinə görə Badu-Kübə, yəni "küləklər şəhəri" də deyirlər. Şəxsən mənə Baquan, yəni allahlar şəhəri daha yaxındı. Axı mən bilirəm ki, Bakının orta temperaturu Yer kürəsinin orta temperaturu ilə eynidir. Düz 14,2 dərəcə. Belə yerdə allahlar məskən salmazmı? Şəhərin gözəl, səliqəli, çirkab, neft içində olan vaxtları da olub. Amma Bakının təməli qoyulan gündən bu günəcən bir prinsip həmişə ən vacibi sayılıb. Burda abidələri sitayiş yerlərinin üstündə tikərdilər. Heç vaxt mənzilləri, insan məskənlərini tilsimli, ya da ibadət yerlərinin üstündə tikməzdilər. Burda istər Abşeron abidələri, istər şəhər memarlığında insanların ibadət etdikləri yerlərə toxunmayıblar. Bu şəhər kimlərin tapdağı altında qalmayıb? Hətta qəsbkarlar şəhəri tutandan və dini dəyişdirəndən sonra hamının adət etdiyi məbədin üstündə yenisini inşa ediblər ki, insanlar adətlərini dəyişməsin. Ona görə də bəzən Bakıda mehrabı üzü qibləyə baxmayan məscidlər tapılır. Yəni ki, ondan əvvəl bura xristian, ya da atəşpərəstlik məbədi olubsa onu yerlə yeksan eləməyə heç kim cürət etməyib. Elə onun üstündəcə yenisini tikib ki, insanların inamını qırmasın. Abşerondakı qədim abidələrdən az qala hamısı ondan daha qədim olan qəbirlərin yaxınlığında tikilib. Qəbirlərin quruluşundan bilinir ki, bu adi adam deyil, dövrünün seçilən, hörmətli adamı olub.

İndiki Passaj bazarından yuxarıda, indiki Bülbül adına musiqi məktəbinin yerində bir vaxtlar möhtəşəm Aleksandr Nevski kilsəsi vardı. Kilsəni tikməkçün bünövrə qazanda ordan kümbəzin içində 6-7 çox qədim qəbirlər çıxdı. Basdırılma tərzindən onların adi adam olmadığı bəlli olur. Böyük təndir

şəklində qəbirlərdə insanlar yarıoturmuş şəkildə basdırılmışdı. Bakının milyonçuları və şəhər sakinlərinin ianələri hesabına tikilmiş kilsə çox möhtəşəm bir abidə idi. Bu kilsəni bolşeviklər sökəndə onun zəngi yerə çırpılanda ətrafdakı bütün binaların divarları çat verdi. Hətta bolşeviklər də sökdükləri kilsələrin yerində yaşayış binası tikməyə cəsarət etməyiblər. Həmin yerdə indi Bülbül adına orta ixtisasa musiqi məktəbi yerləşir. Konservatoriyanın yerində erməni kilsəsi olub, Mahnı teatrının yerində isə sinaqoq.

**Bulvarın altında şəhər var**

Prezidentin qərarı ilə İçərişəhərin bərpasına 3 milyon manat ayrılıb. İçərişəhər köhnədir deyib sökmək istəyənlər və gözəllik xətrinə qədimliyi güdaza verən bərpa işlərinə müqavimət göstərənlər arasında əsil qarşıdurma yaranıb. İçərişəhər torpağın altında 10 metrliklərlə dərinlikdə ondan daha qədim bir şəhərin izlərini qoruyur. İndiki Bulvarın altında qədim şəhər dinməzcənə gizlənib. Çünki yazılı mənbələrdə Bakı dənizdən çox aralı göstərilirdi və deyilirdi ki, Nargin adasına qədər torpaq yol vardı. Sonradan Xəzərin suyu artıb o şəhəri sularına qərq eləyib. Arabir Xəzərin səviyyəsi azalanda köhnə şəhərin uca binaları sudan baş qaldırıb görünməyə başlayır. Ötən əsrin 60-cı illərdə Səbail qalası sudan çıxmışdı və dağılmamışdan əvvəl özünü bizə göstərmişdi. Ona görə də İçərişəhərdə lap sökük, əldən gedən bir binanı söküb yerində nəsə tikmək artıq böyük cinayət olur. Çünki təzə binanın bünövrəsini qazanda bir neçə metr tariximizdən itirəcəyik. Onu bizə qaytaran olmayacaq. İçərişəhər lay-lay üst-üstə yığılmış qədim şəhərlər toplusudur. Burda hər qarış torpaqda yaddaş yatır. İçərişəhərdə Şirvanşahlar sarayını tikdirəndə də məhv etməmək prinsipini işlədiblər. Sarayın yerində qayanın üstündə Süd quyusu adlanan pir vardı. Südü olmayan qadınlar bura gəlib dua edər və bu quyudan su içərdilər. Bu pir saraydan qədimdi. Saray müqəddəs sayılan bu ərazidə qayanın üstündə tikilib. Amma quyuya toxunmayıblar. Ruslar şəhəri alandan sonra Şirvanşahlar sarayında soldatları

yerləşdirmişdilər. Aşağı mərtəbədə isə atları saxlayırdılar. Az qalmışdı ki, saray məscidi qarnizon kilsəsinə çevrilsin. Ruslar qarnozonu köçürməyə yer tapsaydılar Xan sarayını da sökmək fikirləri vardı. Rus soldatları sarayı bərbad günə qoyub getdilər.

**Tikmədim özüm qalam**

Bakının simvolu sayılan Qız qalasının başı lap çox çəkib. Onun nə üçün tikildiyini anlamayan sovet memarları qalanın müdafiə xarakterli olduğunu iddia edərək üzdəniraq bərpa işlərini də yanlışlıq üzərində qurublar. Qız qalasının mərtəbələri yox imiş. Qalanın pəncərə və qapıları tağvari deyildi. Tağvari pəncərə və qapılar Orta əsrlərin memarlıq üslubudur. Qız qalası isə daha qədimdi. Qala elə tikilib ki, üzü dənizə baxan pəncərələrdən gün işığı müəyyən saatlarda düşə bilsin. Qız qalasında dekabrın 21-dən 22-nə keçən gecə günəş sübh tezdən birinci pəncərədən içəri düşüb sırayla o birilərinə tərəf sürünür. Amma bərpa zamanı qalaya bitişik tikintidəki çıxıntını axıracan hörüb günəşin şüalarının qabağını alıblar. Mərtəbələrin tikilməsinə görə Günəşin şüaları vasitəsilə bizə “nə deyəcəyini” biz artıq bilməyəcəyik. Ən uzun qış gecəsi - Yılda gecəsi - türklərin əski inamları ilə bağlıdır. Bu bir daha bu torpaqlarda türklərin qədimdən bəri yaşadığını sübut edir.

Qız qalasının qarşısında 9 quyu olub ki, zəvvarlar bu maneələri atlanıb qalaya gəlməli idilər. Müqəddəs yerlərə gəlməkçün insan müəyyən maneələri keçib gəlməli idi. Zaman bütün çökəkləri doldurduğu kimi bu quyuların da ağzını möhkəm bağlanıb.

**Harda gəldi tikmək olar?**

İndi şəhərə ötəri baxanda adama elə gəlir ki, insanın yalnız yaşayış evlərinə ehtiyacı ola bilər. Bəyəm şəhərə bu qədər mənzil lazımdırmı? Görəsən binaları inşa edən memarlar şəhərin energetikası ilə maraqlanırlar? Bəyəm hər yerdə yaşayıb evi tikmək olar? Hələ qədimdən də məlumdu ki, şəhərdə bütün yerlərin energetikası eyni deyil. Məsələn, Musa Nağıyev keçmiş

“Semaşkonu” tikdirəndə şəhərdə 3 yerdə - Bibiheybətdə, Qara şəhərdə və “Semaşko”nun yerində qoyun kəsdirib qoyub gedir. Bibiheybətdə qoyun birinci günü çürüməyə başlayır. İkinci gün Qara şəhərdəki qoyun çürüyür. Ən axıra qalan yeri, yəni indiki xəstəxananın yerini belə seçirlər. O, xəstəxananın yerini Bibiheybətdə seçsəydi necə olardı?

İndiki dağüstü parkda Pirvənzərə adlı bir qaya parçası var. Hələ park olmamışdan çox-çox əvvəl Bibiheybəti ziyarətə gələnlər əvvəl bu daşı ziyarət edib sonra Bibiheybətə gedərmiş. Daş hansısa müqəddəs adamın qəbridir. Qayanın içində dördbucaqlı şəkildə oyuq ovulub. Deyirlər ki, ən qədim basdırılma üsullarından biridir. Müqəddəs sayılan adamları torpağa basdırmır, qayanın içindəki oyuğa qoyub ağzını bərkidirdilər. Hətta parkı tikəndə sovet inşaatçıları bu başa toxunmağa ürək eləməyib. Qaya parçası parkın ümumi kompozisiyasını pozsa da onun qarşısında balaca meydança da yaradıblar ki, Kirovun keçmiş heykəlindən aşağı enən pilləkənlərlə düşüb oranı ziyarət etmək mümkün olsun. Bir qaya parçasını itələyib yerə salmağa nə vardı ki?

**İmamzadələr yurdu**

Bakı və ətraf kəndlər imamzadaların, yəni Peyğəmbər nəslindən olan insanların seçiminə də uyğun gəlib. Bakı ətrafında Əli ayağı deyilən bir yer var. Ehtimal olunur ki, İmam Əlinin ayağının izi qalıb orda. Bilgəhdəki Leyla xanım, Nardarandakı Rəhimə xanım, Bibiheybətdəki Hökümə xanım da imamzadələrdəndi. İndi Nardaran piri iri, gözəl bir memarlıq kompleksidir. Amma vaxtilə Rəhimə xanımın qəbrinin yeri məlum deyildi. Deyirlər ki, o, kənd əhlindən birinin yuxusuna gəlib qəbrinin yerini deyib. Neçə gün rahatlıq tapmayan bu kişi axırda qazıb, qəbri üzə çıxarıb. Yoxsa ki, narın qum hər yeri basıb qəbri itirmişdi. Bibiheybətdəki Hökümə xanım isə 20 yanvar faciəsindən əvvəl neçə adamın yuxusuna girib xəbərdarlıq eləmişdi. Demişdi ki, “Eh, siz bilmirsiz ki, nələr olacaq!”. Dediyi kimi qan su yerinə axdı. Amma bakılılara atəş açmış ruslar bilmirdi ki, allahlar şəhərini qana bulayırlar. Biz ki,

bilirik, 20 yanvar faciəsi sovet ordusunun törətdiyi sonuncu qırğın oldu. Şəhidlərin ahı tutdu bu topdağıtmaz rejimi və eləcə də Qorbaçovun özünü də. Sovetlər belə dağıldı.

Burda bir ağaca niyyət edib parça bağlayırsan, bir ildən sonra görürsən ki, pirə çevrilib. Ateizm kimi güclü silah insanların dinini əlindən ala bildi, amma inamını ala bilmədi. Ömründə namaz qılmağı, oruc tutmağı bacarmayan adamların ayağını pirlərdən kəsmək mümkün olmadı.

İçərişəhərdə Mirmövsüm ağanın evi şəhərlilərin ən çox inandığı yerlərdən biridir. Bakılılar "Ətağa cəddi" deyib and içməyi çox sevir. 37-ci ilin tuthatutunda onu da aparmağa gəlmişdilər. Mirmövsüm ağa təmkinini pozmadan, sakitcənə evdən çıxıb maşına minir. Qara gödəkcəlilər nə qədər çalışırlar maşın işə düşmür. Kişini evə qaytarıblar ki, maşını düzəltsinlər. Mirmövsüm ağa maşından düşüb evinə qayıdan kimi maşın işə düşüb. Onu yenidən mindirəndə maşın elə bil ki, yerə mıxlanıb. Bu hadisə allahsızların da ürəyinə şübhə, canlarına qorxu salıb. Mircəfər Bağırovun nəvəsinin xatirələrində babasının Ətağaya hörmətindən danışılır. Onun sözlərinə görə, minlərlə insanın qanına bais olmuş Mircəfər Bağırov Ətağaya görə Stalinin yanına gedib xahiş edib.

**Zəfəranların sirri**

Bu yerlərin öz müqəddəsləri var. Bitki sarıdan həmişə kasıb olmuş şəhərdə əncir və xar tut ağacları az qala sitayiş obyektinə çevrilib. Üç tərəfi şor su olan yarımadada iri yarpaqlı əncirin bitməsi özü bir möcüzədir. Qara tut isə nəinki Abşeron, şəhərin içindəki çox hadisələrdən xəbərdardır. Köhnə həyətlərin əksəriyyətində heç olmasa bir ağac olardı ki, insanlar onun ətrafında məskunlaşardı. Bakı həyətlərindəki qocaman tut ağaclarının məhvindən sonra şəhərin və insanların çoxlu problemləri əmələ gəldi. Deyilənə görə tutun budaqları arasında yaxşı ruhlar məskən salır. Bakılılar sehrliliklərini

komfort evlərə qurban verdilər. Heç kim qara tutun kölgəsində niyyət eləmək istəmədi.

Burda çinar ağacları da müqəddəs sayılırdı. Çinarın əsil yerli ağacdır, gəlmə deyil. İndi şəhər mühitində çinarlara da çox çətin olub. İnsan emosiyalarına, kütləvi ağac qırğınlarına, çirkli su və havaya dözməli olurlar. Şəhərin neçə yerində çinar ağacının qaz borusundan yayınıb kənara çəkilməsini gözümlə görmüşəm.

Abşeronun daha bir sehrli bitkisi zəfəran barədə eşitmiş olarsız. Hər zəfəran çiçəyinin içində 3 dənə qırmızı tel olur. Onu seçib götürürlər. 200 zəfəran çiçəyindən bir qram hazır zəfəran alınır. Keçmişdə zəfəranı tərəzinin bir gözünə qızıl qoyub ölçürdülər. Zəfəran yalnız Abşeronda bitir. Deyəsən, xəzri və yalın qumlar olmasa yaşaya bilmir. Keçmişdə İçərişəhərdə qala divarlarının boyunca bayır tərəfdən zəfəranlıq vardı. Onu xaricə kiloqramlarla ixrac edirdilər.

Şəhər üçün küçələri, meydanları, insanları, bitkiləri hamısı eyni dərəcədə müqəddəsdir. Məncə o, heç birini itirmək istəməz. Necə ki, biz onu itirmək istəmərik. Bir vaxtlar Bakının xanı Hüseynqulu xan şəhəri ruslara təslim eləmək istəmədi. Rusun gücünü və şəhərin duruş gətirə bilməyəcəyini anlasa da. O, şəhərin açarlarını Sisiyanova vermək adıyla onu qala divarlarından qıraqda zəfəranlığa çağırdı. İndi Nizaminin heykəli dayanan yerdə 8 fevral 1806-cı ildə rus imperiyasının elçisini öldürərək Allahın qoyduğu qaydalardan birini pozdu. Onunçün Qala divarları içində, ya da sarayında öldürmək daha rahat olardı, amma yəqin oraları murdarlamaq istəmədi. Qaladan çıxan bakılılar cumub Sisianovun bədənini parça-parça elədilər. Sisianovu öldürüb başını Nadir şaha göndərdilər. Bədənini isə qala divarlarının yanında basdırdılar. İnnən belə Bakı müqəddəs bitkilərindən birini də itirdi. Bəlkə ona görə zəfəranlar şəhərdən yoxa çıxdı? Onlar qana bulaşandan sonra bir daha gül açmaq istəmədi.

İndi Bakının taleyi həmişəki kimi neftə bağlıdı. Neft bu şəhəri böyütdü, gözəlləşdirdi. İndi isə məhv də eləyə bilər. Yox, şəhəri neft yox, insan hərisliyi

məhv edər. Amma dərinə getməsək hər şey çox sadədir: Harda gəldi tikmək olmaz. Nəyi gəldi sökmək olmaz, düşər-düşməzi var. Allahlar şəhərində hər şeyin öz yeri var.

## Musiqimizin avrasiya materiki

*Üzeyir Hacıbəyovun yaratdığı musiqi ocağını parçalamaq günahdı*

Ənənəyə sadiq olmaq yaxşı şeydi. Böyük-kiçik arasında hörmət, ustad-şagird bağlılığı, şerə musiqiyə rəğbət kimi səsi qədimdən gələn ənənələrə indi yeniləri də qoşulub. Məsələn, hər il sentyabrın biri çocuqlarımızın çiynindən çanta asıb, əlinə bir dəstə gül-çiçək verib məktəbə göndərir, hamılıqla Bilik bayramını qeyd edirik. Hər il sentyabrın 18-i Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin doğum günündə onların qəbrini ziyarət edib Konservatoriyanın qabağında ənənəvi "Koroğlu" uvertürasıyla musiqi gününü bayram edirik. Amma xalqımızın keçmişi tezliklə unutmaq ənənəsi də var. Çox vaxt binanı qabağındakı heykəllə, təhsil ocağını üstündəki adıyla tanıyırıq. Bu yaxınlaracan Konservatoriya Üzeyir Hacıbəyovun adını daşıyırdı. Binanın qabağında kresloda oturan da özüdü. Heykəl hələ ki, yerindədir. Amma ad...

2000-ci ilin 13 iyununda prezidentin bir fərmanı imzalandı. Bu fərmana əsasən Konservatoriyanın üstündən Hacıbəyovun adı götürüldü və sadəcə, Bakı Musiqi Akademiyası adlandırıldı. Gözlənilməz qərara müxtəlif reaksiyalar oldu. Amma cəmiyyət buna hazırmış kimi qeyzlənmədi. Çoxları özünü Azərbaycan Dövlət Universitetinin üstündən Məhəmməd Əmin Rəsulzadənin adının götürülməsilə ovutdu. Amma Konservatoriya Hacıbəyovun adını ona görə daşımırdı ki, bəstəkar musiqiyə dəxli olan adamdı, yaxud Şərqdə ilk operanı o yazıb. Xeyr! Konservatoriyanı Hacıbəyov "dişiylə, dırnağıyla" yaradıb. Konservatoriya Hacıbəyovun övladıdı. Adın götürülməsi işin hələ yarısıdır. Adı çəkilən fərmana əsasən xalq çalğı alətləri

və əlaqəli bütün şöbələr Akademiyadan qoparılıb Asəf Zeynallı adına Musiqi Texnikumu ilə birgə yeni yaranmış qurumda birləşib Milli Konservatoriya adlanacaq. Bir sözlə, Musiqi Akademiyasının bakalavr və magistraturasını bitirmiş tələbələr Milli Konservatoriyanı bitirənlərdən ranqca yüksək olacaqlar. Təbii, axı konservatoriya akademiya deyil. Bu fərman imzalanan gündən Akademiya və Milli Konservatoriya atası ölmüş iki oğul kimi varidatı bölməkdə məşğuldu. Proses hələ də bitməyib. Bəzi məsələlərdə, məsələn, yeni rektorun təyini, binanın müəyyən olunması, kafedraların bölgüsündə artıq aydınlıq varsa da, parçalanmanın arxasında şəxsi maraqların toqquşması da var! Bəlkə sual oluna bilər. Bir Konservatoriya əvəzinə bir Musiqi Akademiyası və bir Milli Konservatoriyamız olacaq, nəyi pisdi ki? Hacıbəyovun Konservatoriyanı necə yaratdığını izləməkçün tarixə, keçən əsrin əvvəllərinə qayıtmaq lazım gələcək.

Bu dövr Bakı üçün neft sənayesinin inkişaf milli-demokratik qüvvələrin güclənməsiylə səciyyələnən bir dövr idi. XIX əsrdə hakim olan "ev", "salon" musiqiçiliyi əhəmiyyətini itirmişdi, musiqi həyatında yeni formalar əmələ gəlmişdi. Simfonik və kamera konsertləri təşkil edilirdi. Milli trio, muğam, aşıq musiqisini məclislərdən qoparıb səhnəyə çıxarmış "Şərq konsertləri" adıyla tanınan musiqi gecələri bakılıları öz ətrafına toplaya bilirdi. Elə bu dövrdə Üzeyir Hacıbəyov "Leyli və Məcnun" operasını yaratmaqla Şərq və Qərb musiqisini bir araya gətirə bilmişdi.

Əsrin əvvəllərində Bakıda musiqi təhsili ilə məşğul olan şəxsi məktəblər fəaliyyət göstərirdi. Pianoçu A.N.Yermolayevanın musiqi məktəbi, skripkaçı Sefferlinqin rəhbərlik elədiyi "Musiqi müəllimləri qrupu" məktəbi, müğənni E.P.Rozinin "Musiqi kursları" ilə bərabər, U.M.Qoldşteynin təşkil elədiyi musiqi kursları da var idi. Bu məktəblərdə fortepiano, skripka, vokal, kamera ansamblı və nəzəriyyə dərsləri keçirilirdi. Yermolayeva şəxsi musiqi məktəbini professional səviyyəyə qaldırmaqçün Rus İmperator Musiqi Cəmiyyətinə müraciət edir və tezliklə RİMC-nin Bakı şöbəsi təsis edilir.

Həmin musiqi siniflərinin Azərbaycanda musiqi təhsili sahəsində rolu xüsusidir. Çünki onun müəllim və elm metodiki bazasında 1916-cı ildə Musiqi Texnikumu, gələcəkdə isə Musiqi Akademiyası yaranacaqdı. Amma bu musiqi ocağında 1907-ci ilə qədər bir nəfər də azərbaycanlı oxumurdu. Elə sonralar da şagirdlər siyahısında azərbaycanlılara nadir halda rast gəlmək olurdu. Hacıbəyov özü musiqi savadına ehtiyacı olduğu vaxtlar Bakıdakı musiqi təhsilindən kənarda qalır. Çünki o, heç vaxt cəmiyyətin imkanlı təbəqəsinə aid olmayıb. Bakıdakı musiqi təhsili isə bahalı idi. Qəribədir ki, Hacıbəyov heç vaxt xeyriyyəçi köməyindən də istifadə etməyib. Moskva və Peterburq konservatoriyalarında topladığı bilikləri "Leyli və Məcnun"dan gələn gəlir və dostlarının hesabına ala bilib.

Xəritədə Şərq və Qərbin uğurla kəsişdiyi bir yerin musiqisində bu baş vermirdi. Professional Qərb musiqi təhsili xeyriyyəçi konsertləri, yubileyləri və tarixlərilə Azərbaycan folkloru və muğamı isə məclislərdə öz sakit məcrasında yaşayırdı. Əgər tarixin bu dönümündə Hacıbəyov kimi bir şəxsiyyət olmasaydı, musiqidə uğurlu sintez alınmazdı. Maarifçi qüvvələrin təsirilə Qərb musiqi təhsili böyüyüb Musiqi Akademiyası səviyyəsinə çata bilər, xalq musiqisi də inkişafdan qalmazdı. Çünki Sovet hakimiyyəti qurulandan sonra nizamlanmış, müəllimləri başqa millətlərdən olan Konservatoriya ilə paralel 1920-ci ildə arabir "Şərq Konservatoriyası" adlanan "Şərq musiqisinin qısa kursu" fəaliyyət göstərirdi. Kursu muğamları fortepianoda improvizə edən X.O.Qayıbova açmışdı. Burada 600 nəfər kişi və qadınlar üçün xüsusi kurslarda 150 nəfər azərbaycanlı oxuyurdu. Cabbar Qaryağdı və Qurban Pirimovla birlikdə çıxış edən kamançaçı Şaşa Oqanezaşvili bu Şərq Konservatoriyasının müəllimlər şurası tərəfindən "Şərq musiqisinin görkəmli professoru" seçilmişdi. Həmin şura Oqanezaşvilini "Şərq melodiyasının qorunması və onun Qərb musiqisilə qovuşmasının qabağını ala biləcək xadim" sayılırdı. Qayıbova Xalq Maarif Komitəsinə Şərq musiqisini müstəqil seksiyaya çevirmək haqqında xahişlə müraciət edir. O öz

mövqeyini belə açıqlayır: "Şərq bəstələrinin öz qanunları və üsulları var. onu Qərb sistemindən ayrı, ton və yarım tonların özünəməxsus ahəngində təhlil etmək lazımdı". Musiqi təhsili haqqında paralel yaşayan iki cərəyandan biri məhz bu mövqe, bu biri isə Hacıbəyovun fikirləri idi: "Şərq musiqisinin əsl musiqi səviyyəsində inkişafı o zaman mümkündü ki, ona ümumi Avropa nəzəriyyəsi əlavə edilsin. Yalnız bu nəzəriyyənin vasitəsilə Şərq musiqisinin xüsusiyyətləri və ümumi qanunlarının qoyulması mümkündü... Xanəndə dəstgahları nə qədər yaxşı bilsə də, əgər o, lad və qamma haqqında təlim keçməyibsə, sizə "Şur" və "Rast" arasında fərqi izah eləyə bilməyəcək. Yaxud tarzən nə qədər gözəl ifaçı olsa da, interval, qamma, ritm, not yazısı haqqında heç nə bilmirsə, heç tarın quruluşunu da anlada bilməyəcək. Biz öz musiqimizin nəzəri əsaslarını bilməsək, bir addım da irəliləyə bilməyəcəyik".

Şərq və Avropa musiqisinin bir-birindən təcriddə inkişafının qəti əleyhinə olan Hacıbəyov musiqi işinin quruculuğuna başlayır. Xalq Maarif Komissarlığının musiqi şöbəsində rəhbərlik edən bəstəkar Azərbaycan və Şərq melodiyalarını yığıb nota salmaq, müsəlman operası və kamera musiqisini inkişaf etdirmək, xalq arasında həm Şərq, həm Qərb musiqi nümunələrini yaymaq, not çap eləmək kimi vəzifələrin lap başında bütün işləri icra eləmək üçün azərbaycanlı kadrlar yetişdirmək məsələsini qoymuşdu. Azərbaycanlıları musiqi təhsilinə cəlb etməkçün o, əvvəlcə Xalq Konservatoriyasını təsis edir. Təxmini hesablamalara görə, bura 6 min adam cəlb olunur. Maarifçiliklə başlayan bu ocaq tezliklə ümumavropa səviyyəsinə qalxmalı idi. Burada 200-dən artıq müəllim işləyirdi. Hacıbəyov onları "Bakı şəhərinin ən yaxşı müəllimləri" adlandırırdı. Konservatoriyanın yaranmasının mürəkkəbliyi onda idi ki, heç kim, elə Hacıbəyovun özü də onun necə olacağını tam təsəvvür eləmirdi. Azərbaycan və Avropa musiqisi necə uzlaşmalı idi? Bu yolda çoxlu axtarışlar, təcrübələr, nəyisə qəbul eləmək, nədənsə imtina etmək, bir sözlə, öz yolumuzu tapmaq lazım gəlirdi. Təzə cığırlarla irəliləmək yeni ruhlu musiqiçilərin yetişməsi demək idi. Musiqi təhsilinə nəinki azərbaycanlı kişilər, həm də qadınlar cəlb olunmuşdu. Xalq

Konservatoriyasında təhsil alanlardan musiqiylə daha ciddi, professional səviyyədə məşğul olmaq istəyənlər ikinci pillə, yəni orta musiqi təhsili səviyyəsinə qalxa bilərdi. Üçüncü səviyyə Musiqi Akademiyası idi.

1921-ci ilin 15 oktyabrında Azərbaycan Dövlət Konservatoriyasında məşğələlər başladı. Burada fortepiano, vokal, orkestr alətləri, nəzəriyyə, bəstəkarlıq şöbəsiylə bir sırada şərq şöbəsi fəaliyyət göstərirdi. Həmin şöbədə Hacıbəyov özü milli alətlərdə çalanlara not üzrə dərs deyirdi. 1922-ci ilin yazında Şərq şöbəsi Türk Musiqi Texnikumu adlandırılıb müstəqil təhsil ocağına çevrilir. Məhz bu məktəbin əmələ gəlməsiylə musiqiyə diletant münasibət aradan götürülür. Burda məşğul olanların 80 faizi azərbaycanlı idi. İlk dəfə kişi və qadınların birlikdə təhsil alması məhz burda baş verdi. Yəni yaranan ocaq bir növ mədəniyyət mərkəzinə, ən cəsarətli ideyaları reallaşdıran emalatxanaya çevrilir. Musiqi Akademiyasında tədris edilən bütün fənlər burda keçilməyə başlayır. Amma Türk Musiqi Texnikumunun ayrılması ADK-da azərbaycanlı tələblərin sayının 10 faizə enməsinə səbəb olur. Ona görə də 1926-cı ildə Türk Musiqi Texnikumu Konservatoriya ilə birləşdirilir. Bu günlərə qədər Hacıbəyovun adını daşıyan Konservatoriyamızın tarixi həmin gündən hesablanır.

Sadalananlar qısaca yaranma tarixçəsi başqa millətlərdən olan müəllimlərin biliyi və səyi nəticəsində qurulmuş və tədricən onların əlindən alınmış Konservatoriyanın keçdiyi yolu bəlkə də əks eləmir. Onların biliklərinə layiqli qiymət verə bilən Hacıbəyov lazım gələrsə, kiminsə nazıyla oynamağı, kimisə siyasətlə yola verməyi də xalqın maariflənməsi yolunda eləyib.

1939-cu ildə Hacıbəyov rektor keçəndən sonra azərbaycanlı rektorların dövrü başlayır. Azərbaycan musiqi tarixinə ötəri nəzər salsaq, hər bir yeniliyin başında Hacıbəyovu görürük. O, ideyaları reallaşdırıb, yeni bir qurumu işə salıb tezliklə onu öz yetişdirdiyi tələbələrindən birinə ötürüb, başqa bir işə girişib. Ona görə də Azərbaycanda həm Konservatoriya, həm notlu xalq çalğı alətləri orkestri, həm kapella, həm simfonik orkestr, həm Opera Teatrı ... Bir

sözlə, hər şey Hacıbəyovun adıyla bağlıdı. Bu adı heç kim ordan silə bilməyəcək. Bəstəkarın adını Konservatoriyanın üstündən götürən fərmandan sonra Konservatoriyanın təsərrüfat müdirləri ola bilər ki, qənaətcillik baxımından uzaqgörənlik edib qapıdakı lövhədən Hacıbəyovun adını qara lentlə örtüblər. O lent hərdən külək və yağışın təsirindən qopub düşür, onu yenidən yapışdırırlar. Adın götürülməsi, bəstəkarın 30 ildə qurduğunu parçalamaq, əlbəttə, cinayət deyil, amma xəyanətdi.

İndi Milli Konservatoriya yaradıb xalqı çalğı alətlərində çalanları, muğam oxuyanları Qərb alətləri ifaçılarından, nəzəriyyəçi və bəstəkarlardan ayırmağın tərəfdarları bütün dünyada belə olduğunu deyəcək, qonşu Türkiyəni nümunə gətirəcəklər. Dünya mədəniyyətindən yararlanıb öz bəstəkarlıq məktəbimizi, Qərb texnikası ilə işləyən öz rəssamlıq məktəbimizi yarada bilmişiksə, deməli, dünyadan fərqlənirik. Qonşu Türkiyədə deyəsən, 3 Milli Konservatoriya, çoxlu Akademiya var. Amma həmin dövlət bizim mütəxəssisləri tədris prosesinə cəlb eləyir. Çünki hələ ki, milli bəstəkarlıq məktəbi, milli tədris sistemini yarada bilməyiblər.

Öz aramızda "narodnik"lər adlandırdığımız xalq çalğı ifaçıları həmişə Konservatoriyanın ən narahat, ipə-sapa yatmayan, həmişə rektorluğa problem düzəldən təbəqəsi olub. Ola bilər, onları Akademiyadan ayırandan sonra indiki müdiriyyət xeyli asudə nəfəs alır. Rektor Fərhad Bədəlbəylinin mövqeyi belədi: "Bizdə Sovet təfəkkür qəlibləri hələ də qalıb. Niyə mütləq ali savad olmalıdı? Alim Qasımov Asəf Zeynallı adına Musiqi Texnikumunu bitirib. Biz onun ustalığını qiymətləndirəndə onun diplomuna baxmırıq. Mən Milli Konservatoriyanı belə görürəm. Qədim milli tədris formalarını bərpa eləmək lazımdı. Mən kafedralara bölünmüş ali məktəb quruluşunu təkrar eləməzdim. Qoy Alimin emalatxanası, yaxud Ramiz Quliyevin emalatxanası və s. olsun. Bəlkə məclis təcrübəsini bərpa eləmək, buna uyğun bina seçmək lazımdı?! Yeganə bir problem çıxa bilər – təcrid olunmuş vəziyyətdə olmaq davranmaya, geyim seçiminə təsir edər. Axı "narodnik"lər əksərən kişilərdən ibarətdi".

Bu da bir mövqedi. Niyə tarçalan ali savad ala bilməz? Məclis formasını, şifahi tədris üsulunu XXI əsrdə bərpa eləməkçün 80 illik tarixi olan Konservatoriyanı bölməyə dəyərdimi? Məclislər, şifahi ənənələr onsuz da var, yenə də olacaq. O vaxtlar, yəni Qarayev, Əmirov, Tofiq Quliyev, Səid Rüstəmov bəstəkarlıq şöbəsində oxuyanda xalq mahnılarını toplayıb nota yazırdılar. Bəlkə elə ona görə Fikrət Əmirovu, Səid Rüstəmovu dinləyəndə elə bil xalq mahnısını eşidirsən. Öz musiqisində milli elementlərdən daha çox istifadə eləyən bəstəkarların demək olar ki, hamısı musiqiylə tanışlığa milli alətlərimizdən biriylə başlayıb. İndi folkloru Milli Konservatoriya toplayacaq, bəstəkarı Musiqi Akademiyası yetişdirəcək. Yenə də milli musiqi üzünü Şərqə, bəstəkarlar isə üzünü Qərbə çevirəcək, ara yerdə isə ... həvəskar bəstəkarlar meydan sulayacaq.

Xalqımızın bir ənənəsi də var. Hərəkətin, sözün sayalı olub-olmamasını yoxlamağı sevənik. Hacıbəyovun adını Konservatoriyadan götürməyin də düşər-düşməzi ola bilər. Məsələn, bu ilki qəbulda Musiqi Akademiyasının bəstəkarlıq şöbəsinə bir nəfər də ərizə vermədi...

## Təhsilin inflyasiyası

İnsan yaradıcılıq düyünçəsidir. Yaradıcılıq bizə özümüzü cəmiyyətdə komfortlu hiss etməkçün motivasiya verir. Məsələn, sizin ən uğursuz karyeranız varsa belə, iş yoldaşlarınız sizi dünyanın ən bəxtsiz adamı sayırsa da arxanızı çevirən kimi pıqqıldaşan həmkarlarınıza dünən axşam yazdığınız şeiri, çəkdiyiniz rəsmi göstərsəz, ya da mikrofonu götürüb bəstələdiyiniz melodiyanı lap pis gündə oxusaz da, sizə olan münasibət dərhal dəyişəcək. Amma həmin vəziyyətdə siz özünüzü "mən təhsillə maraqlanıram" deyib təqdim eləsəz ola bilər sonra demək istədiyinizi boğazdaca boğmalı olacaqsız. Çünki sizi dinləyən tapılmayacaq. Sizə yazıq, bədbəxt adam kimi

baxıb halınıza acıyacaqlar. Belə vəziyyətə düşsəz, mərhəmətli olun, gülümsəyin.

Belə çıxır ki, yaradıcılıq və təhsil bir tərəzinin gözünə qoyularaq ölçüləsi məsələlər deyil. Ya da ən primitiv, həvəskar səviyyəsində görülmüş yaradıcı proses sabit bünövrəli, professional təhsillə rəqabətə girəsi olsa mütləq qaydada qalib gəlir. Əgər bu həqiqətən belədirsə, niyə bizim "əfsanəvi" təhsil metodikamızda musiqi, rəsm, əmək (indi texnologiya adlanır) dərsləri riyaziyyat və ana dilinə qurban verilir?

Uşaqlar heyrətamiz şeylərə qadirdir. Onlar üçün yaratmaq nəfəs almaq qədər təbii prosesdi. Milliyyəti, irqindən asılı olmayaraq hər uşaq belədir. Uşaqlar bizdən fərqli olaraq səhv etməkdən qorxmur. Yaratmaq istəyinin başında ilk əvvəl nəyin bahasına olursa-olsun bunu bilmək, araşdırmaq, görmək, təsvir etmək, bir sözlə yaşamaq istəyi durur. Böyüklər səhv etməyin qorxusundan bilməkdən, görməkdən, təsvir edib araşdırmaqdan, yəni ki, yaşamaqdan imtina edirlər. Səhv edəcəyindən qorxanlar heç vaxt yaradıcılıq cəhdi etmir. Uşaqlar böyüyən kimi bu keyfiyyətini itirir. Təsəvvür eləyin, əgər Şekspirə "bəsdi öz dilində nələrsə yazdın, səni heç kim anlamır" desəydilər, özünəməxsus Şekspir dili yaranardımı?

Dünyanın bütün ölkələrində təhsildə riyaziyyat və dillərin öyrənilməsi ön plandadır. Musiqi və rəsm hələ nisbətən yaxşı mövqedədir. Çünki xoreoqrafiya, ya da teatr ümumiyyətlə tədris edilmir. Uşaqlar iki ayağı üstə qalxan kimi ilk əvvəl rəqs eləməyə başlayır, kimsədən soruşub icazə almadan. Sonra onlar məktəbə gedib neçə saat dalbadal bir masada oturmağa məcbur olur deyən hiperaktivlik diaqnozu qoyulan uşaqların sayı artır. Müəllim "elə bil iynə üstündə oturmusan!" deyib daima danlayır.

Məktəblərdə uşaqları onlara maraqlı olan fənlərdən gələcəkdə bu predmeti ixtisas seçməyəcəyi bəhanəsilə uzaqlaşdırırlar. “Bəyəm musiqiçi olacaqsan?”, “Rəsm çəkmək ciddi iş deyil, boş ver” və s. bu tipli iradlar dilimizdən düşmür. Məktəbə daxil olan uşaq artıq hansı peşəni seçəcəyini, hansı ali məktəbə girəcəyini düşünməli olur. Sadəcə yaşayıb öyrənməkdən

ləzzət almaq əvəzinə dumanlı görünən gələcəyini cızmalı olur. UNESKO-nun verdiyi məlumata inansaq, 30 ildən sonra universitetlər indiyədək bəşəriyyət boyu mövcud olmuş miqdardan artıq alim yetişdirəcək. Elə indinin özündə də diplom artıq həlledici faktor deyil. Yalnız işə düzələndə tələb olunan bir kağız parçasıdır. Vaxt vardı diplomun olması işlə təminatın qarantı idi. İndi belə deyil. Diplomlu, bəzən savadlı adamlar da aparıcı vəzifədə və nüfuzlu yerlərdə işləmirlər. Buna təhsilin inflyasiyası deyirlər.

Culian Lin adlı bir dünyaca məşhur xoreoqraf var. O, xatırlayır ki, məktəbdə onu ən geridə qalmış, ümidsiz şagird sayırdılar. Onun təhsildə problemi vardı və daima valideynlərinə diqqətsizliyinə görə şikayət edirdilər. Müasir elm bunu diqqət çatışmazlığı sindromu adlandırardı. Keçmişdə heç kim belə pozuntu barədə heç eşitməmişdi də. Bu qızı psixiatr yanına gətirirlər. Həkim onun məktəbdəki problemlərindən danışan zaman o, oturduğu dərin kresloda əl-ayağı ilə oynayırdı. Onun problemlərini anlayan həkim qızı otaqda tək qoyub anası ilə birlikdə dəhlizə çıxır. Otaqda tək qalan kimi Culian ayağa qalxıb musiqi ritmində hərəkət etməyə başlayır. Həkim deyir, missis Lin, sizin qızınız xəstə deyil, o, rəqqasədir, onu rəqs məktəbinə verin. Nəticədə bu sanki iynə üstündə oturan qız məşhur balerina oldu. Tərtibat verdiyi müzikl milyonlarla insanı sevindirdi və onu multimilyonçuya çevirdi. Onu dərmana otuzdurub sakitləşdirə də bilərdilər.

Hazırda dünya insan ekologiyası terminini tez-tez işlədir. Bu konsepsiya insanın içindəki gizli imkanlarını aşkara çıxarmağı nəzərdə tutur. İnsan Yer kürəsinin təbii ehtiyatlarını israflıqla sərf elədiyi kimi bizim təhsil sistemimiz də insanın daxili imkanlarını heçə endirir. Uşaqlarımız məktəbə gedənədək daha xoşbəxt, daha ağıllı və daha xeyirxahdır. Uşaqların yaradıcı imkanlarının məktəbdə aşkara çıxarılması məsələsiylə ingilis alim-pedaqoqu Ken Robinson məşğul olur. Bu barədə o, "Ehtirasını tap və ətraf dünyan dəyişəcək" adlı kitabında yazır. İdeya sadədir, məktəbin ilk pillələri uşaqların yaradıcı qabiliyyətinin ortaya çıxarılması və qeyri-adi çıxış yollarının tapılmasına sərf edilir.

Bizdə müəllimlər səhvlərdən qorxur və uşağa səhv eləməməyi öyrədir. Stenforddan olan Kerol Duek adlı psixoloq amerikalı müəllimlər üzərində belə bir təcrübə qoydu. Müəllimlər uşaqların səhvlərini sevməli idi. 11 yaşlı uşaqlardan ibarət 200 nəfərlik 2 qrup yaradıldı və onlara eyni tapşırıqlar verildi. Bir qrupu çalışqanlığa görə o birini isə nəticələrə görə tərifləyirdilər. Növbəti dəfə tapşırıq seçəndə nəticəyə görə təriflənmiş uşaqlar nisbətən asan tapşırıqlar seçdi. Çalışqanlığa görə tərif eşidənlərsə əksinə, ən çətin tapşırıqları üzərinə götürməyə hazır oldu. Çünki birinci qrup tərif eşitməyəcəyindən ehtiyat edirdi.

Təhsil əlbəttə ki, gələcəyə açdığımız yeganə pəncərədir. Biz bu gələcəyin necə olacağını dəqiq bilmirik. Çünki inkişaf etmiş ölkələrin öz gələcəyi, bizimsə öz fərdi gələcəyimiz var. Bu il məktəbə qədəm qoymuş uşaqlar bir qədər sonra, kosmik miqyasda lap bu yaxınlarda, qismət olsa 2068-ci ildə artıq təqaüdə çıxacaqlar. Biz, 5-10 il sonraya normal proqnozlar verə bilməyən insanlar məktəblərdə uşaqları gələcəyə hazırlayırıq, onlara bilik verir və beyinlərini heç vaxt lazım olmayacaq məlumatlarla doldururuq.

# ARAŞDIRMA



## Alimlər Allahı necə görür?

*“Biz bu məsəlləri insanlar üçün çəkirik. Onları yalnız (haqqı) bilənlər anlayarlar”. (Quran, 29:43)*

Dünyanın bütün materialistləri və ateistləri bir yerə toplaşsa və ali yaradanın olmadığını sübuta yetirməyə çalışsa bircəcik, yeganə həqiqəti dana balməyəcəklər: Elmin öyrəndiyi ətraf mühitin bütün fenomenləri Allahın yaratdıqlarıdır. Ona görə də yəqin ki, elm və din yanaşı, hətta harmoniyada olmalıdı. Təbiətin quruluşunu öyrənən, Kainatın qanunlarını kəşf eləyən alim əslində elə Allahı dərindən öyrənən insandır. Tarixin gedişi sübut edib ki, elmdə müəyyən nailiyyətlər qazanmış alimlər dindardı, hətta Allaha qatı din xadimlərindən də daha yaxın olan insanlardı.

**Bioloji impuls həyat yaratmağa yox, həyatın dadına baxmağa xidmət edir**

Bu dünyada, Kainatda, Yer kürəsində baş verənlər elə qurulub ki, insanın burada yaşayıb və yaratması daha komfortlu, rahat olsun. Allahın “şah əsəri” insan olmasaydı yəqin ki, dinlər də yaranmazdı və yer üzünə peyğəmbərlər və kitablar göndərməyə lüzum qalmazdı. Bəs Allah insanların niyinə lazımdı? Üzünü heç vaxt görmədiyimiz məxluqa inam, Allahın şərəfinə mürəkkəb dini ayinlər keçirmək, qurbanlar vermək, özünü məhdudlaşdıran məhrumiyyətlərə bilərəkdən məruz qoymağa bizi nə məcbur edir? İlk baxışdan düşünmək olardı ki, alimlərin baxışları bu məsələdə ruhanilərdən və dindar insanlarda ciddi surətdə fərqlənər. Oksford Universitetinin alimi “İnsanlar niyə Allaha inanır?” layihəsinin iştirakçısı Castin Barret hesab edir ki, sonuncu elmi tapıntılar bəşəriyyət mədəniyyətinə müdaxilə eləməyə inkan verir. Adı çəkilən layihənin müxtəlif ölkələrdən olan bir qrup entuziastları bir

yerə yığılaraq aydınlaşdırmağa çalışırmışlar ki, ali qüvvələrin mövcudluğuna inam insanın nəyinə lazımdı və insan təfəkkürünün ayrılmaz hissəsidir, ya yox? Əlbəttə ki, bu layihədə alimlər Allahın özünü insan beyninin içində tapmadılar və elan elədilər ki, o, yoxdur.

**Alimlər Allahın yerini dəqiqləşdiriblər**

Bu yaxınlarda Missuri Universitetinin neyropsixoloqları insan beynində Allahın yerini dəqiqləşdiriblər. Bu nəticəyə gəlməzdən əvvəl onlar aydınlaşdırıblar ki, dünya dinlərinin prosesləri əslində insan beynində baş verir. Bütün dinlərin ümumi cəhəti kimi insanın namaz vaxtı, zikr eləyərkən, ya da meditasıya zamanı özündən, cismindən uzaqlaşıb dualar vasitəsilə Yaradana qovuşması təcrübəsini əsas götürüblər.

Tədqiqatçılar müşahidə ediblər ki, bu, insanın əmgəyinin sağ tərəfində aktivliyin azaldılması vasitəsilə nail olmaq olur. Məlum olmuşdu ki, dini mənsubiyyətindən asılı olmayaraq insanlar Yaradanla münasibətə girərkən eyni neyropsixoloji funksiyanı işə salırlar. Üstəlik məlum olub ki, beyinin sağ əmgəyi tərəfindən travması olan insanlar Allahla kontakta daha rahat girirlər. Oksforddan olan antropoloq Castin Berret hesab edir ki, əşyaları canlandırmaq bacarığı insanda artıq 5 aylığında əmələ gəlir və ömrünün sonuna kimi davam edir. Ona görə də addımlayan robot uşaq üçün yanından ötüb keçən insanlardan daha qiymətli gəlir. Bütün 4 yaşlı uşaqların xəyalında canlandırdığı dostu olur ki, onunla gizlincə söhbət eləyir. Uşaqlar hər bir predmetin mənasını özləri uydurub tapırlar. Məsələn, buludlar yağış üçündür, iti uclu qayalar heyvanların kürəyini qaşıması üçündür və s. Beləliklə, uşaqlarda ilahi yaranış konsepsiyası əmələ gəlir. İnsan yaşa dolduqca artıq ölmüş qohumları və uydurduğu personajlarla ünsiyyətə girir. Burdan o yana ilahilik ideyasına artıq bir addım qalır. Biz başımıza gələn bütün hadisələrdə kiminsə, təbiət hadisələrində kənardan təsirinin olması fikrində əminliyimiz olmasa yaşaya bilmirik. Onsuz da ən qatı ateist də ən çətin anlarınla ali qüvvələrə bir ağız duanı edir.

**Allah var, amma elm onu nədənsə görmür**

Məşhur genetik, "İnsan geni" layihəsinin rəhbəri və "Allahın dili" bestsellerinin müəllifi Frensis Kollinz deyir ki, Allah var və hətta bizim yaşamımıza da müdaxilə də eləyir. Alim düşünür ki, dünyanın Yaradıcısı həyatımızı o qədər incə üsullarla idarə edir ki, biz, yəni müasir alimlər bunu görə bilmirik. Bu mənada elm təbiət qanunlarını pozmadan ilahiyyatı öyrənmək üçün bir qapı ola bilər. Kollinzə inansaq belə çıxır ki, Allah bizim nazımızı kvant mexanikası səviyyəsində çəkir. Yəni ki, ona dua eləməyin və kömək ummağın da mənası var. Antropoloq Paskal Buaye düşünür ki, dini təfəkkür insanın yaşaması üçün ən rahat formalardan biridir. Axirət dünyasına inanmamaq insandan çoxlu qüvvə və öz üzərində şüurlu və inadlı iş tələb eləyir. Bu çəkilən zəhmət və sərf edilən enerji israfçılıqdı və bizim psixi meyllərimizə ziddir.

**Tanrının yaradıcılıq zövqü**

Bütün dövr və insanların alimi İsaak Nyutonun fikirləri belədir: "Günəş sistemi və ulduzların, planetlərin, kometaların quruluşu yalnız kiminsə dahiyanə bilgisi nəticəsində yarana və yaşaya bilərdi. Bu kimsə Allahdır". İngilis alimi Rocer Bekon elmdə təcrübi üsulu dəyərləndirib köhnə üsulları kökündən dəyişmiş bir insandır. Allahın dünyanı insanlar üçün yaratdığına qəti əmin olan alim hələ 13-cü əsrdə parovoz, avtomobil, təyyarə, qaldırıcı kran və asma körpülərin layihələrini irəli sürmüşdü. O, hələ Kolimbun doğulmasından 200 il əvvəl yerin yastı yox, dairəvi olması fikrini dilinə gətirmişdi. O da deyirdi ki, Avropadan çıxıb qərbə doğru üzsək Hindistana çata bilərik. O, deyirdi: "Gələcəkdə biz görəcəyik ki, təcrübələrə əsaslanmış elm dinə inanan insanların köməyinə necə gələcək. Elm insanları inam ətrafında toplamaq üçün ən vacib qiymətli keyfiyyətlərə malikdi". Səmadakı cismləri ilk dəfə teleskopdan görən insan Qalileo Qaliley ilk dəfə Yer kürəsinin yumru olduğunu və Ayda ləkələrin dağlar və kraterlər olduğunu demişdi. Elm uğrunda hətta tonqalda yandırılmış bu insan deyirdi: "Təbiət

Allahın göndərdiyi ikinci kitabdı. Ondan imtina eləmək olmaz. Ona görə də Allahın yaratdığı təbiətlə müqəddəs kitablar arasında ziddiyyət ola bilməz".

Astronomiyanın banisi, planetlərin hərəkətini, Günəş sistemində məsafələri və həcmləri hesablamış və ilk astronomik təqvimi tərtib eləmiş alim İohann Kepler deyirdi: "Təbiətə baxarkən biz astronomlar Allahın ünvanına alqışlar, mədhnamələr yağdırmaya bilmərik. Yaradanı anlamaq üçün hissləriniz və intuisiyanıza arxalanın". Ondan "Niyə elmlə məşğul olursuz?" soruşanda o, "Tanrının yaradıcılıq zövqünü yaxından duymaq üçün" deyə cavab verirdi.

Atmosfer təzyiqi üzərində təcrübələr aparan, məhlulların mexanikasında ciddi kəşflər eləmiş, riyaziyyat və fizikada tapıntıların müəllifi Blez Paskal deyirdi: "Allah riyaziyyatdan tutmuş elementlərin sırasına qədər hər şeyin müəllifi, yaradınıdır". Məşhur ingilis botaniki Gon Rey də dindar adam idi. Onun fikricə insan dünyaya Allahın gözəlliyini əks eləmək üçün gəlib. Minlərlə bitki, həşərat, balıq və başqa orqanizmlərin təsnifatını vermiş alim deyirdi: "Hər şey əzəldən Allah tərəfindən yaranıb və mühafizə edilir. Yaradılmışlar indiyədək dəyişilmədən qalmaqdadır. Azad insan üçün Allahın böyüklüyü, sonsuz müdrikliyi və təbiətin gözəlliyi barədə düşüncələrdən qiymətli heç nə ola bilməz".

Müasir kimyanın banisi, suyun donarkən həcmcə artmasını, lakmus kağızını kəşf etmiş, bəsit soyuducunun quraşdırmış və atomlar arasında boşluğun olduğunu ilk dəfə söyləməklə atom nəzəriyyəsinə təkan vermiş alim Robert Boyl həmişə hesab edirdi ki, Kainatda ilahi niyyət var: "Dünyada mövcud sistemlərin kamilliyi, heyvanların, canlıların quruluşu və bacarıqları əsrlər boyu bütün mütəfəkkirləri valeh eləməklə Allahın olmasına inamda əmin olmağa səbəb olub".

Antoni van Levanquk bakteriyanı ilk dəfə kəşf eləmiş alim olub. O, optik linzaları hazırlayaraq bakteriyanı mikroskop vasitəsilə seyr edən ilk insandı. Həyatın Allahı tərəfindən yox, öz-özünə yaranması ideyasına etiraz əlaməti kimi tədqiqatlar apararaq elmdə çox vacib kəşf eləyib.

Cazibə qanununu kəşf eləmiş Nyutonun dinamika qanunları artıq 4 əsrdir ki, insan fəaliyyətinin bütün sahələrində dəyişilmədən tətbiq edilir. Mexanika və optika sahələrində də kəşfləri olmuş və işığın 7 rəngdən ibarət olmasını sübut eləmiş alim ateizmin əsaslarını laxladan və yaranış hipotezini müdafiə edən elmi iş də yazmışdı: "İlahi yaranışın yeganə elmi izah ola bilər. Kainat dayanmadan işləyən iri saata bənzəyir. Bu yalnız sonsuz biliklər və qüdrətə malik olan Allahın yaradıcılığı ola bilər. Tanrı böyükdür, mütləqdir. O, hər şeyi bilir, olacaqları da, olmuşları da. O, hər yerdədir". Civə termometri və hidrometrinin "atası" İsveç fiziki Jan Delyuk da Kainatın təsadüfən yaranmasının tam əleyhinə idi. 18-ci əsrin məşhur astronomlarından biri, indiyədək görünməmiş qalaktika və dumanlıqları gözləriylə seyr etmiş Uilyam Qerşel deyirdi ki, "Ateist astronomlar gərək dəli olsun". O, düşünürdü ki, Kainatda hökm sürən qayda-qanunu, səliqəni gözləriylə görəndən sonra Allaha inanmayanın gərək ki, ağlı çaşmış ola.

Teleqrafın və Morze əlifbasının yaradıcısı Samuel Morze də Allahın Kainata hansısa məqsədə görə yaratdığına inanırdı: "Biliklərim artdıqca Allahın böyüklüyünü daha aydın duymağa başlayıram. Gələcək sevinc və inam işığına boyanır".

**Ruh Allahın miniatür formasıdır**

Termodinamika qanunlarının ixtiraçısı, naqillər üzrə hərəkət edən elektrik cərəyanını və qaz molekulunun sürətini tapmış Ceyms Coul 1864-cü ildə Darvinin təkamül nəzəriyyəsinə qarşı çıxmış 717 alimin imzaladığı sənədi təşkil eləmiş alimdir. Həmin sənəddə belə yazılmışdı: "Biz Allahı tanıyıb ona tabe olandan sonra daha bir işimiz də qalır. Onun Qüdrətini, Xeyirxahlığını, Müdrikliyini onun işlərindən görüb öyrənmək. Təbiətin qanunlarını öyrənmək Allahı tanımaq deməkdir". Darvin nəzəriyyəsinə qarşı çıxdığına görə təzyiqlərə məruz qalmış alim Lui Paster mikrobiologiya sahəsində əhəmiyyətli kəşflər edib. O, quduzluq, difteriya, Sibir xorasını qarşı vaksinin kəşfində, sterilizasiya və pasterilizasiya üsullarının tapmaqla tarixə

girib. O, deyirdi: "Təbiəti öyrəndikcə, Yaradanla üzbəüz qaldıqca mənim ona inamım daha da artır. Elm insanı Allaha aparır".

XIX əsrin alimi Corc Vaşinqton Karserə kəşf elədiyi rəngin tərkibi barədə suala belə cavab vermişdi: "Mənim nailiyyətim ondadır ki, Allahın yaratdığını insanların işlədə biləcəyi hala sala bilmişəm. Bu mənim kəşfim deyil, Allahın yaratdığıdır". Məşhur fizik Ser Ceyms Gins isə deyirdi: "Kainatın elmi tədqiqatlarının nəticələrini bir fraza ilə ümumləşdirmək olar: Kainat sonsuz biliklərə malik olan varlıq tərəfindən layihələşdirilərək yaradılmışdır".

Dövrümüzün ən dahi alimi sayılan Albert Enşteyn belə deyirdi: "Mən ürəyində inamı olmayan alimi təsəvvür eləyə bilmirəm. Allahsız elm axsaqdır. Elmlə ciddi məşğul olan hər kəs əmin olur ki, burada insandan daha yüksəkdə duran bir ruh var. Ona görə də elm insanı dinə gətirir".

Böyük partlayış nəzəriyyəsinin müəllifi Jorj Lemetr hesab edirdi ki, dünyanın əvvəli olduğu kimi sonu da var və bu biliklər insanları Allahın olmasına inama gətirib çıxaracaq. Elm və din insana eyni həqiqətləri bəyan edəcək.

Yuxarıda çəkilən misallardan aydın görünür ki, Allahın mövcudluğuna inanmış alimlər vahid, absolyut Allahı nəzərdə tuturlar, xristianların çarmıxda can verərək insan günahlarını yumuş "allah"ını yox. Ona görə də əminliklə demək olar ki, elmə baş vurmuş insan nə vaxtsa İslama gəlib vahid Allah ideyasını qəbul eləməli olur. Müqəddəs Quranın ayələrində deyilir ki, onun üçün yaradılmışları anlayıb qavramaq, Allahın Böyüklüyü və Qüdrətini anlamaq üçün "alim", ya da "bilik sahibi" olmaq lazımdı.

*"Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətlə boyun qoyaraq (haqqa tapınaraq) o qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər".*
*(Quran 3.18)*

## Piramidaların sirri

*Piramidaları tikmək üçün daşlara xüsusi dalğalarla təsir edib çəkisini yüngülləşdirirmişlər*

1945-ci ilin yazı. Misir kralının oğlu şahzadə Fərrux Qəzza vadisini ziyarət edib piramidalardan sonra böyük Sfinksə yanaşdı. Şahzadə abidənin yaxınlağındakı plitənin üstünə oturdu. Bu zaman mexanizm işə düşdü və Sfinksin ayaqları altında içərilərə doğru aparan tunel açıldı. Uzun dəhliz yeraltı otaqlara tərəf aparırdı. Şahzadə aşağı düşüb yeraltı otaqları tədqiq etmək fikrinə düşdü. Şaxta yarıyacan suya batmışdı. Amma o, iri bir zala qədər gedib çıxa bildi. Orda onu sürpriz gözləyirdi. Zal başdan-başa robotlarla dolu idi. Həmin vaxtdan yer üzünü piramidalar barədə əfsanələr bürüdü.

**Biz piramidalar barədə heç nə bilmirik**

Piramidalar barədə çox yazılıb, çox deyilib. Arxeologiyada misirşünaslıq qolu əmələ gəlib və artıq özünü misirşünas saya biləcək alimlər də var. Amma onlar da etiraf edirlər ki, bu boyda maraq və tədqiqatların qarşısında piramidaların əsil mahiyyəti barədə heç nə bilinmir. Çünki onların çox az hissəsinə insan ayağı dəyib və ən tədqiq edilmiş piramidanın özündə də hələ də açılmamış otaqlar, harasa aparan dəhlizlər və mənası anlaşılmayan yazılar var.

Alimlərin bir qismi piramidaların firon məqbərələri olması fikriylə razı deyil. Çünki hələ də bir piramida da mumiya tapılmayıb. Alimlər düşünür ki, piramidalar yüksək texnoloji tikililərdir ki, onların mənasını həmin texnologiyalarla tanış olan adamlar anlaya bilərlər. Piramidalar kosmik enerjinin bir növdən o birisinə dəyişdirə biləcək nəhəng cihazlardır.

**Ölkəni bir zaman insanlarla bərabər yerdə yaşamış allahlar idarə edirmiş**

Qəzzadakı 3 piramida dünyanın ən heyrətamiz abidələrindən biri sayılır. İndiyədək müasir elm onların quruluşu, tikilişi və məqsədi barədə ağlasığan fikir yürüdə bilməyib. Rəsmi şəkildə bu üç piramidanın 3 sülalənin fironunun məqbərəsi sayılır və müvafiq olaraq Xeops, Xefren və Mikerinin adına bağlanır. Piramidanın içindəki daş sarkofaqlar ilk əvvəl belə düşünməyə əsas verirdi. Misir yazıları da təsdiqləyir ki, 4-cü sülalənin fironları piramidalar tikirdilər. Amma piramidaların heç birində dəfn atributları və mumiyalar tapılmadı. Belə möhtəşəm abidə ölkə başçısının məzarı olmaqdan daha artıq funksiya daşıyır.

Qədim Misir salnamə yazanı Nunifon ölkənin vahid tarixçəsini yaradaraq qələmə alıb. Alimlər bu yazıları öyrənərkən belə qənaətə gəlib ki, əhali uydurmanı həqiqətdən ayıra bilmirmiş. Çünki misirlilər əmin idi ki, ölkəni bir zaman insanlarla bərabər yerdə yaşamış allahlar idarə edirmiş. Bu zamanın adı Zebtepi idi. Qəzza bölgəsindəki qranit məqbərə və əsas piramidanı Osiris allahı və onun arvadı İzida ilə əlaqələndirirlər.

**Söhbət 10-12 min əvvəldən gedir**

Piramidalar o qədər suallar doğurur ki, onlardan ən sadəsi, yəni nə vaxt tikilməsi barədə sual qəribə nəticələrə gətirir. Yuxarıda adı çəkilən fironların hakimiyyət zamanı məlumdur. Bunu əsas götürsək piramidaların 4-5 min il yaşı olmalıdır. Amma piramidaların ulduzlara, göy cisimlərinə münasibətdə tikildiyini və yerdəyişmələri nəzərə alsaq tamam fərqli rəqəmlər ortaya çıxır. Söhbət 10-12 min əvvəldən gedir.

Geoloqlar 10-12 min il əvvəl tarixiylə razılaşır. Onlar Sfinksin bünövrə tərəflərində eroziya izləri aşkarlayıblar. Abidənin daşı elə dəyişikliklərə uğrayıb ki, belə izləri yalnız su buraxa bilərdi. Bu qədər nəmişlik Misirin isti və quru havasında hardan ola bilərdi? Nil çayı daşan zaman yaranan sellər qısa müddətli olur və belə dağıntılara gətirə bilməzdi. Amma 12 min il əvvəl həmin

ərazilərin iqlimi tamam başqa idi. Sfinksin üstündəki su izləri sübut edir ki, o, bu ərazilərdə güclü yağışlar yağan zamanlarda tikilib. Çünki onlar, yəni eroziya izləri fironların məqbərəsindəki izlərdən, yəni 4,5 min il əvvəl tikilmişlərdən ciddi şəkildə fərqlənir. Piramida və Sfinksin eyni zamanda tikilməsi barədə danışırlar. Şir bədənli insan başlı abidə birbaşa qayanın üstündə yonulub və piramidalarla vahid kompleks təşkil edir. Sfinksin ətrafından çıxan qaya parçaları piramidaların tikintisinə işlədilib. Ona görə də Sfinks tikilmə tarixini göstərə bilər. Sfinks gözünü göyə dikib Şərqə baxır. Günəş düz şərqdə yalnız yaz gecə-gündüz bərabərliyində çıxır. Sfinks sanki bu nöqtəni göydə izləyir. Amma o, ulduzlara nəzərən zaman-zaman yerini dəyişir. Bizim dünya fırfıra kimi fırlanır. Onun dövriyyəsi 25 920 ilə tam bitir. Yer kürəsinin hərəkəti təkcə öz oxu və Günəş ətrafında deyil, daha mürəkkəbdir. Yerin oxu konus şəkillidir və bu da astronomik koordinatların yerini dəyişir. Buna görə hər il yaz gecə-gündüz bərabərliyi bir qədər tez gəlir. Proses yavaş olduğundan tam tsikl 25 920 il çəkir. Sfinksin gözü dəyişən ulduz xəritəsini, 12 bürcü sanki izləyir. Hazırda planetimiz balıq bürcünü tərk edib dolça bürcünə keçib. Əgər Sfinksin şir bədəninin şir bürcünə uyğun gəldiyini də nəzərə alsaq yer kürəsinin şir bürcündə olduğu zamanı hesablamaq qalır. Bu zaman 10 500 il əvvəl olmuşdu. İndiki kompüter texnologiyaları göyün quruluşuna nəzərən zamanın hər hansı nöqtəsinə qaytara bilir.

**Piramidalar göydəki ulduz xəritəsinə uyğundur**

Alimlər 3 məşhur piramidanın ulduzlara nəzərən yerini də müqayisə edəndə maraqlı nəticələr əldə ediblər. 3 piramida kompleks və Nil çayının quruluşu göydə Orion bürcü və süd yolu kəhkəşanının quruluşunu təkrar edir. Piramidalara yuxarıdan baxanda bilinir ki, onlar bir düz xətt boyu düzülməyib, üçüncü piramida bir qədər kənardadır. Bu Orion qurşağının 3 əsas ulduzunun vəziyyətini təkrarlayır. Bu məsələnin açarı qədim Misir yazılarındadır. Qədim misirlilər 3 böyük və onlarla balaca piramidanın

mənasını və nəyi simvollaşdırmanın sirrini bilirdilər. Onlar buranı yeni zamanın açarı, yaxud hər şeyin başlanğıcı adlandırırdı.

Ola bilər 12 min il əvvəl nəyinsə, bəşəriyyət üçün çox vacib məqamın başlanğıcı oldu və əcdadlarımız bu tarixi başa həkk elədi. Bu yəqin ki, planetin həyatını kökündən dəyişə biləcək bir hadisə olmalıydı. Planetar səviyyədə qlobal fəlakət bu məqama daha çox uyğun gəlir. Bütün qədim dinlər böyük subasma, yer kürəsinin həyatını dayandırmış böyük sel barədə danışır. Əgər belədirsə sual doğur, yəni planetar səviyyədə fəlakətdən sağ çıxa bilmiş şüurlu varlıqlar ola bilərdimi?

**Meksika piramidaları daha qədimdir**

Dünyada mövcud piramidaların bir qismi Misir piramidaları daxil olmaq şərtilə hazırkı şimal qütbünə səmtləşdirilib. Amma Meksikadakı Teoteokan piramidası şimal qütbündən 15 dərəcə şərqə yönəldilib. Qədim mətnlərdə deyilir ki, bütün piramidaların şimal qütbünə baxması vacib şərtdir. Tədqiqatçılar deyir ki, yer kürəsi bir neçə dəfə fəlakətlərdən sonra öz qütbünü dəyişib. Deməli Meksika piramidalarını daha əvvəl ucaldıblar. Tədqiqatçılar yer üzündə böyük su basma, qütblərdəki buzlaqların ərimәsi və s. fəlakətlərin baş verdiyi zamanı təxminən 13 min əvvələ aid edirlər. Alimlər 12 500 il əvvəlki tarixdə razılığa gəliblər. Bunu yerli əfsanə və miflər də təsdiqləyir. Miflərdə deyilir ki, Teoteokan piramidalarının başında allahlar toplaşıb sel basmadan sonra yer kürəsini bərpa etməkçün tədbirlər tökürdülər. Əfsanədə günəşin bərpası, yerdə həyatın yenidən canlanması çox aydın şəkildə təsvir edilib. Misir piramidalarının da bu tarixdə tikildiyini ehtimal etmək olardı. Alimlər piramidaların tikiliş tarixinə nəzərən onları iki hissəyə ayırır. Nuhdan əvvəlki və sonrakı dövr. Yerdə planetar miqyaslı fəlakətin baş verməsini iri asteroidlə toqquşmanın nəticələri sayılır. Bundan əvvəlki zamanda yaranan piramidalar hazırkı şimal qütbündən 15 dərəcə fərqli mövqedədir. Yerdə qalanı isə daha cavandır, yəni mifoloji Nuh peyğəmbər yerdə həyatı bərpa edəndən sonra yaranmış piramidalardır.

Ola bilər ki, planetar fəlakət elə qəfil baş verib ki, bir andaca yer üzündən yüksək səviyyəli sivilizasiyanı silib. Onların bir hissəsi sağ qalib dünya üzərinə səpələnə bilərdi. Fəlakətdən sonra sivilizasiyanın yeni cücərdiyi yer Qəzza bölgəsi olub. Maya piramidaları və Misir piramidaları yer üzündən silinmiş sivilizasiyanın hansı tarixdə olduğunu göstərən möhtəşəm abidələrdir ki, əcdadlarımız bunu bizimçün tikib xatırlatma kimi qoyublar. Piramidalar həm də onların malik olduğu biliklərin səviyyəsini də göstərməliydi.

**Bütün əfsanələr eyni fikri təkrarlayır**

Alimlər fərz edir ki, misirlilər gəlib artıq bu torpaqlarda ucaldılmış piramidaların ətrafında kök sala bilərdilər. Axı heroqliflərin heç birində deyilmir ki, piramidaları misirlilər tikib!? Tədqiqatçı Qrem Xenkok: "Axtarışlarıma başlayan kimi mənim diqqətimi dünyanın müxtəlif nöqtələrində bir-birindən xəbər tutmayan millətlərin miflərinin çox oxşar olması diqqətimi çəkdi. Əsas ideya belə idi: Allahlar göydən yerə enib, bəzən ulduzdan, bəzən isə konkret ulduz sistemindən enib yerdə həyat quruculuğu işinə başlamışlar".

Piramidaların tərəfləri yerin 4 tərəfinə, kəlləsi Oreon qurşağı və böyük, kiçik ayı bürcünə yönəldilib. Piramidaların kiçik modelini yaratsaq, onun içindəki bütün kameralar və otaqları da əks etdirsək bu model bəşəriyyətə məlum olan bütün riyazi sistemləri əks etdirə bilər. Qızıl mərkəz, π rəqəmi və s. bizim işlətdiyimiz hesablama yolları. Deməliyik ki, bu sakral rəqəmlər bütün qədim mədəni abidələrin əsasını təşkil edir. İstər Misir, Maya, hind, ink, şumer abidələrinin hamısında abidələr xüsusi riyazi qanunauyğunluqla quraşdırılıb. Onlara qızıl mərkəz prinsipinə uyğunlaşan bütün rəqəmlər məlum idi: 18, 36, 54, 72, 108 və s. Bu rəqəmlərin olması da təsadüfi deyil, bunları yaradan mədəniyyətlər rəqəmlərin mənasını eləcə də kosmik prinsipləri çox yaxşı bilirdilər.

**Piramidaları yalnız kahinlər tikə bilərdi**

Alimlər hələ də piramidanın daşlarının necə hazırlandığı, necə yonulub necə gətirildiyi və quraşdırıldığı barədə mübahisələr edir. Rəsmi elm neçə tonluq daşların mis alətlə yonulub darta-darta gətirilməsi versiyasında israrlıdır. Müasir zamanda bu versiya gülünc görünür. Bu daşların gətirildiyi ərazilərdə indiyədək izlər qalıb. Sanki daşları qayadan qaşıqla qaşıyıb götürüblərmiş kimi hamar izlər görünür. Maddənin quruluşuna bu tip təsir etmək imkanı hələ ki, bizim müasir texnikamızın gücü xaricindədir. Nasa hesab edir ki, bu daşlar bizə məlum olmayan elektromaqnit enerjinin tətbiqi ilə yerindən tərpədilib. Piramidalarda qalmış yonma izləri bunun silkulyar mişar, ya da lazer ilə yonma üsulu ilə edildiyini göstərir. Amma tədqiqat zamanı, qazıntılarda buna bənzər bir alət, ya da dəzgah ortaya çıxmamışdır. Misirdə isə sarkofaqların daşdan, özü də daşın ən bərk növündən yonulması üçün ultrasəsdən istifadə edirdilər. Bütün bunlar əsas verir ki, piramidaları yüksək texnoloji qurğular sayaq. Deyək ki, onların tikilmə mexanizmi hələ də müasir zaman üçün də əlçatmaz olaraq qalır.

Keçmişdə piramidalar ağ, hamar və parlaq plitələrlə üzlənmiş idi. Peykdən aparılan müşahidələr aşkar edib ki, piramidanın üz tərəflərində bir növ peyk antenalarında olduğu kimi bir tərəfi batıq, o biri tərəfində isə qabarıqlıq var. Sanki böyük bir parabolik antenadır. Həmin üzləmə plitələrinin qalıqları qalmaqdadır. Onların sayı 115 mindir. Piramidanın bir tərəfinin ölçüsü 2,2 hektar ərazidir. Ona görə də belə iri miqyasda ortadan bir metr dərinliyində batıqlıq, ya da qabarıqlıq yaratmaq üçün hansı vasitələrdən istifadə edilməsi məsələsi çox qaranlıq qalır. Daşların gətirildiyi Asuan vadisindən piramidaların yerləşdiyi yerə qədər minlərlə kilometr məsafə var. Misirşünaslar iddia edir ki, min tonluq daşlar Nil boyu qamış qayıqlarda daşınıb gətirilirmiş. Sonra həmin daşlar ip vasitəsilə 100 metrlik hündürlüyə qaldırırlarmış. Qədim yazılarsa deyir ki, piramidanın tikilməsində yalnız kahinlər iştirak edirdi, bura yad adamların burnunu soxması yasaqlanmışdı. Daş düzməyi yadlara həvalə etməzdilər. Kahinlər müəyyən notlarda dualar oxuyurdu.

Daşlar çəkisini itirib havaya qalxırdı. Sonra onlara toxunmadan son dərəcə dəqiqliklə lazım olan yerə qoyurdular. Yüksək texnoloji təsirlərin izləri indiyədək daşlarda qalmaqdadır. Bu da bizdən əvvəlki sivilizasiyanın olması və piramidaların tikintisində iştirakının danılmaz nümunəsidir. Bu sivilizasiyanın yerdən, ya da kosmosdan olması barədə isə mübahisələr davam edir.

**Uçan daşların sirri**

XX əsrin əvvəllərində Amerikada piramidaların tikilmə sirrini tapmış bir adam yaşayırdı. Onun adı Edvard Litskonendir. Qədim tikinti üsulu ilə o, Florida ştatında Mərcan qəsri adlı tikinti kompleksi ucaldıb. Bu daş şəhər hələ də mühəndislik sirri olaraq qalır. Litskonen deyirmiş ki, çəkinin, lingin yerləşməsi prinsipini və piramidaların tikilmə sirrini bilir. Mərcan şəhərciyinin tikilməsinə 100 min ton mərcan işlədilib. Burda da iri daş bloklar bir-birinə zərgər dəqiqliyilə yaxın quraşdırılıb və uyğunlaşdırılıb. Amma bütün bunları müəllif təklikdə edirmiş, özü də bir neçə sadə alətin köməyilə. Ekspertlər yenə də "mümkün deyil" deyir. Müəllif çox vaxt gecələr fənər işığında təklikdə işləyirdi və sirrini heç kimə demirdi. Daş şəhərciyin tikilməsinə 20 il vaxt sərf edildi. İşini bitirən müəllif öz ayağıyla xəstəxanaya gedərək orda dünyasını dəyişir və piramidaların tikilmə sirrini özüylə aparır. O, cəzbetmə və maqnetizm barədə çox dəyərli məlumatlara malik idi, amma sirri heç kimə söyləmək istəmədi. Ona görə də biz indi çəkisi 50 kiloqrama qədər olan bir adamın 30 tonluq blokları istədiyi istiqamətdə necə tərpətdiyini bilməyəcəyik. O, dalğa vasitəsilə daşa təsir edirdi və onlar çəkisini itirirdilər. Hesablanıb ki, piramidaları insanın fiziki gücüylə tikmək üçün 100 min işçi və bir əsr vaxt lazım gələrdi. Sənədlərsə onların 20 ilə tikildiyini deyir. Əgər piramidanı Edvard kimi ustalar tikərdisə yalnız o zaman bu işi 20 ilə çatdırmaq mümkün olardı.

**Piramidalar – insanların Allaha çevrildiyi yer**

2002-ci ilin 17 sentyabrında bütün dünyanın diqqəti Misir piramidalarına yönəlmişdi. Çünki alimlər yenicə aşkarlanmış sirli otağa girməyə cəhd edirdilər. Bu otaq Xeops piramidasında tapılmışdı. Otağı alman Rudolf Qanteqbrinq bundan 9 il əvvəl ortaya çıxarmışdı. Otağa tərəf gedən kiçik maili dəhliz insan üçün nəzərdə tutulmayıb sanki. Ona görə ora balaca robot göndərilməlidir. Bütün dünya nəfəsini dərib piramidaların bizdən nə gizlətdiyini öyrənmək istəyir.

**Piramidalar hələ də sirrini açmayıb**

Axtarışa göndərilən robotu Misirdə 2 dünya arasında sərhədləri qoruyan Puatonun şərəfinə adlandırdılar. Dar dəhlizlə robot irəliləyərək bir qaya parçasına dirəndi. Komanda robot vasitəsilə bu qayada dəlik açdı. Amma Misirin hakim strukturları bu otağı açıb aşkarlamağa icazə vermədi. Ona görə də alimlər bu dəlikdən içəridə nələr göründüyünü dünyaya bildirmədilər. Sfinksin sağ pəncəsi altında 9 metr dərinliyində yerləşən kameranı isə yapon alimləri də şüa vasitəsilə tapıblar. Onlara da Sfinksin sağ pəncəsi altındakı kameraya girməyə icazə vermədilər. Söz gəzir ki, bütün qiymətli materiallar artıq tapılıb, amma Misir hakimiyyəti bunu son dərəcə sirli saxlayır.

XX əsrin məşhur ekstrasensi Edqar Keysi deyirdi: “Misirdəki gizli otaqların aşkarlanması həm elm, həm də bəşər tarixi üçün bir dönüş anı olacaq”. Dünya səviyyəli ekstrasensin tədqiqatlarının əksəriyyəti Atlantida və Misirə həsr edilib. O, Atlantik okeanın dibində batıb qalmış abidələrdən danışırdı. Antlantidan əvvəlki sivilizasiya, daha da qədim Limuriyadan bəhs edirdi. Atlantidanın qlobal fəlakət zamanı məhv olmasını deyirlər. Tədqiqatçılar hesab edir ki, bu möhtəşəm ölkənin maq və kahinləri fəlakəti qabaqcadan bilərək xilas olaraq sonradan Misir sivilizasiyasının əsasını qoyublar. Çox güman ki, piramidaları tikənlər də onlar olub. Misir ərazilərində müqəddəs əşyaları və kitabxananı gizlədənlər də onlardır.

**Piramidalar kosmik enerjinin bir növdən o birisinə dəyişdirə biləcək nəhəng cihazlardır**

Piramidaların yer kürəsində mövqeləri təsadüfi deyil. Bütün qədim abidələr bir-birinə və şimala yönəldilib. Bəzilərisə şimal qütbündən 15 dərəcə qərbə baxır. Qədim əfsanələrə görə şimal qütbündə Giperboreya adlı ölkədə yerin oxu və dünyanın ən vacib piramidası yerləşirdi. Planetin ən vacib piramidası Meru dağında idi. Hər hansı buddist, induist monastırında onun modelini görmək olar. Yumru pilləvari piramidanın ən hündür nöqtəsində qəribə bir aparat yerləşir. Hind rəvayətlərinə görə allahlar bu zirvədə enerji okeanının dalğalarını qarışdıraraq ölümsüzlük içkisi hazırlayırmış. Meru piramidası dağın yonulması texnikasıyla tikilib. Dağın zirvəsi yonulandan sonra plitələrlə düzülmüşdü. Dağa aparan yollar spiralvari idi və 7 dəfə fırlanırdı. Kahinlər bu yolu çıxıb piramidaya çatandan sonra dağla işləməyə başlayırdı. Bu gün müasir elm Meru dağını və Giperboreyanın yerini hesablaya bilər. Bu, indiki Qrenlandiyanın ərazilərinə düşür. Bunu 1595-cu ilin xəritəsi də təsdiqləyir. Xəritə Merkator tərəfindən daha da qədim mənbələrdən köçürülüb. Amma Meru piramidası şimal qütbündə olarkən tamam fərqli rejimdə işləyirdi. Axı qütbdə yarım il gündüz, yarım il gecədir. Dünyanın bütün piramidalarının bir mərkəzə baxmasının yalnız bir məqsədi ola bilər. Onlar yığdıqları siqnalı harasa dəqiq ünvana ötürürlər. Fiziklər Xeops piramidasının detallı strukturunu görəndə çox heyrətləndilər. Çünki müasir peyk antenasının quruluşu demək olar ki, eynən görünür. Piramidalar planetlərarası əlaqə sisteminin bir hissəsidir. Piramidalar kosmosla qarşılıqlı əlaqə üçün quraşdırılmış tikililərdir. Onlar həm qəbul, həm də ötürmə üçün yararlıdır. Piramida antenası peyk antenalarından daha savadlı şəkildə quraşdırılıb. Piramida yerin maqnit sahəsini nəzərə alaraq işləyir. Uzaq kosmik əlaqələr zamanı bu çox vacib faktordur. Fokus yeri mərkəzdədir və qranit sarkofaqla üst-üstə düşür. Xeops piramidasında 3 kamera var. Onlardan böyüyü kiçik məsafələrə işləyir. Orta bir qədər uzaq, ən kiçiyi isə qalaktikalararası ərazilərə işləyir. Deməli kimsə planetimizdə vahid əlaqə

sistemi quraşdırıb. Bütün vacib piramidalar 30 dərəcə şimal dairəsi boyunca 80 dərəcəlik bucaq addımı ilə düzülüb. Yer kürəsi fırlandıqca onlar bir-birini əvəzləyərək kosmosla fasiləsiz əlaqəni təmin edirlər. Piramidalar gecə vaxtı, günəş radiasiyasının siqnalın yuxarı ötürülməsinə mane olmadığı zamanlar daha yaxşı işləyir. Ehtimal var ki, nə vaxtsa Meru piramidası üstündə kosmosa siqnalı ötürüb alan bir qurğu asılıb qalıbmış. Bu qurğu qədim mətnlərdə deyildiyi kimi allahlarla söhbət etməyə imkan yaradırdı. Retronslyatorun hələ də planetin üstündə olmasına inananlar da var. O, paralel ölçülərdə olduğuna görə gözlə görünmür. İnsan övladı onu gözüylə görə bilsəydi ya çıxardar, ya da vurub partladardı.

**Kainatın səsini dinləməkçün…**

Piramidalar elə yerdir ki, burda oxuyub meditasiya edəndə insanlar müxtəlif obrazlar, səhnələr görür və bəzən mistik mərasimlərin səsini eşidirlər. Bunu müasir avadanlıqlar ilə də ölçmək olur. Alimlər deyir ki, piramidalar az qala oxuyur. Orda nə qədər otaqlar varsa hərəsinin öz həndəsi quruluşu, öz səslənməsi var. Misirin ilk fironları, onları həm də allahlar adlandırırlar, qəribə papaqlarda təsvir edilir. Fiziklər deyir ki, bunlar müxtəlif modifikasiyalı antena aparatlarıdır. Piramida akustik rezonator kimi işləyən zaman fironlar başındakı papaqlar vasitəsilə kosmosun səsini eşidirmiş. Qədim mətnlər bu aparatın necə işləməsini də təsvir edir. Fironların kameraları elə belə də adlandırırdı: “Kainatın səsini dinləməkçün”. Kahinlərin başında diadema, qarşısında kvars kristalından olan bir növ ekranlar olurdu. Kahin bu ekranda holoqram tipli görüntülər görürdü. Beləliklə onlar keçmiş və gələcək haqqında məlumatlar ala bilirdilər.

**Piramida zəlzələlərin qarşısını alır**

Tədqiqatçılar piramidaları seysmik cəhətdən yoxlayanda da heyrətamiz nəticələr alıblar. Piramidaların kənarları, ya da üstündəki səsləri onun içindəki səslərlə müqayisə edib görürlər ki, içəridə səslər dəfələrlə artıqdır.

Piramidaların elektromaqnit şüalanmasını yer kürəsinin seysmik aktivliyi ilə tutuşduranda isə onlar tamamilə üst-üstə düşdü. Piramidaları seysmik cəhətdən vacib nöqtələrdə ona görə tikiblərmiş ki, əvvəla məlumatları almaq mümkün olsun, sonra isə bu baş verəcək zəlzələlərin qarşısı alına bilsin. Ona görə piramidaların başına zəif siqnalları çoxalda bilən aparat qoyulsa zəlzələ baş verməzdən xeyli əvvəldən onun barədə məlumatlar almaq mümkün olar. Piramidalar seysmik cəhətdən təhlükəli və geoloji çatların üstündə tikilib. Piramidaların həmin zonada tikilməsinə baxmayaraq bu günə qədər salamat qalması sübut edir ki, onlar zəlzələlərin qarşısını müəyyən qədər ala bilir.

Daha bir versiya da var ki, piramidalar Yer kürəsinin enerjisini toplayıb onu kosmosa göndərir. Daha bir qanunauyğunluq da aşkar edilib, piramidaların aktivlik zirvəsi uzaq qalaktikadakı kulsarların fəallığına uyğun gəlir. Amma bu faktın hələ ki, nə demək olduğunu kimsə izah edə bilmir. Piramida ya kosmosun titrəyişlərini özündə toplayır, ya da yerin nəfəsini yuxarılara göndərir.

**Rusiya Şumer allahlarına sitayiş edir**

2009-cu ilin dekabrında Moskvada Kremlin üstündə nəhəng piramida şəkilli uçan obyekt havadan sallanıb durmuşdu. Onun kənarları bir yarım kilometr uzunluğundaydı. Bu piramida havada bir neçə saat durmuşdu deyən onu çox adam çəkə bilmişdi. Ekspertlər bu hadisəni izah edə bilmədi. Düz bir il sonra bu piramida Çində peyda oldu. Daha 3 ay sonra kameralar piramidanı Cənubi Amerikanın üstündə qeydə aldılar. Bu piramida İngiltərə, Fransa, hətta Yaponiyanın üstündə də göründü.

Piramida şəkilli uçan aparatlar barədə ilk dəfə Şumer mənbələrində oxuyuruq. 6 min əvvəl indiki İrakın ərazisində olan sivilizasiyanın allahları piramidal quruluşlu uçaqlarda kosmosa uçurmuş. Ranqca aşağı allahlar anunak, yüksək ranqlılarsa nifer adlanırdı. Onların hamısının Nibiru planetindən gəldiyi yazılır. Şumerlərin qəhrəmanı Gilqameşin üçdə bir hissəsi allah, üçdə ikisi insan idi. Mənbələr yazır ki, anunaklar insanlarla

bərabər yer kürəsində pilləli piramidalar, zikkuratlar tikirdilər. Misir yazılarında deyilir ki, bütün piramidalar Osiris allahının yerdəki təcəssümüdür.

Müasir şəhərlərin konstruksiyasında pilləli piramida şəkilli tikililər də çoxdur. Məsələn, Moskva kimi şəhərdə onlarla belə bina göstərmək olar. Kəlləsi şiş uclu pilləvari binalar ən möhtəşəm abidələr sayılır. Müharibədən sonrakı illər memar Çiçurin və Şusev Moskvada 7 piramida şəkilli bina tikmək əmrini almışdı. Çünki Sovet imperiyasının paytaxtı yeni, magik enerjiyə ehtiyac hiss edirdi. "Stalin hündürmərtəbələri" adıynan tanınan binaları rekord müddətə bitirirlər. Zikkurat, yəni pilləli piramida şəkilli binaları qədim slavyan məbədləri və bütxanalarının yerində ucaltdılar. Sokral yerlərdə ucaldılmış 7 "stalin binalarını" yaratmaq memar Melnikovun ideyası idi. Onun şəxsiyyəti müəmmalı idi və gizli cəmiyyətlərin üzvü olduğunu deyirdilər. Stalin başqa layihələrə heç baxmadan onun ideyasını bəyənmişdi. Xəritədə lazımi yerləri barmağıyla göstərməsindən məlum olurdu ki, Stalin də həmən yerlər barədə məlumatlı idi. Piramidalar kompleksini Sovetlər sarayı adlı nəhəng tikili bitirməli idi. Bu binanın başında Leninin fırlanan heykəli güc sahələrini hərəkətə gətirməli idi. Bu bir daha sübut edir ki, sovet liderləri də magik rituallar və üsullarla tanış idilər və kütləyə təsir edə biləcək vasitələrə əl atırdılar. Piramidanın yeri düz seçilibsə, quruluşu düzgün tikilibsə, yerin şüalandırdığı enerji zolaqlarının üstündə dayanıbsa onun içində olan adam qeyri-adi keyfiyyətlər əldə edir.

Leninin ölümündən sonra da Moskvanın göbəyində Leninə məqbərə məhz piramida formasında tikildi. Əvvəl o, taxtadan idi, sonra daşdan tikildi. Bu layihənin də memarı gizli cəmiyyətlərin üzvü idi və kremlin özünü şumerlərin zikkuratı formasında nəzərdə tutmuşdu. Onlar bilirdi ki, belə forma Leninin ruhunu qoruya biləcək, yəqin ki, ona əbədilik bəxş edəcəyinə də inanırdılar. Bu sehri "Lenin yaşayıb, Lenin yaşayır və Lenin yaşayacaqdır" kimi magik ovsunla bərkitdilər. Bu da mumiyanın qalmasına kömək edir.

**Piramida vakuumdan enerji alır**

Elm hələ indilərdə həndəsi quruluşun onun sahəsinə təsir etməsi məsələsinə yaxınlaşıb. Torsion sahələrin öyrənilməsi bu sualı aydınlaşdırmağa başlayır. Bu nəzəriyyə Rusiyada qeyri-akademik, dünyada isə sirli nəzəriyyə sayılır. Onu vakuumu tədqiq edərkən kəşf ediblər. Piramidalar isə ətrafındakı sahəni torsion sahələr üzrə yükləyir. Piramidanın içində sol, üstündə isə sağ torsion sahələr əmələ gəlir. Yəni ki, vakuuma bir piramida qoysaq o bizə məlum olmayan üsulla sağ və sol torsion sahələr yaradır, piramidanı götürsək o yoxa çıxır. Həyatda bir çox enerji formaları burulğan quruluşundadır. İnsanın DNT-si də sağ tərəfli torsion sahəyə malikdir. Ona görə də saat istiqaməti əksinə burulmuş spiral şəkli ən qədim mədəniyyətlərdə həyat rəmzidir. Vakuumdan sonsuzluğa qədər enerji əldə etmək və onun əsasında tamamilə yeni mühərriklər yaratmaq olar. Piramidanın şüalanması 428 herts həcmindədir. Yəni ki, burdan istəyirsən Marsla, istəyirsən Oreon qurşağı ilə danışmaq olardı.

**Marsdakı piramidalar nə üçündür?**

Sual meydana çıxır, bəs əcdadlarımız bu vasitəylə kiminlə danışırdı? Yəqin ki, əlaqənin o biri başında da piramidalar olmalıydı. Peyklərdən çəkilmiş şəkillərdən görürük ki, həm Ayda, həm də Marsda piramidalar var. Marsdakı piramidaların yaşı 9 min ildən 500 milyon ilə qədərdir. Mars piramidaları Sedoniy rayonunda toplaşıb mürəkkəb sistem yaradıblar. Onların konturları Böyük ayı bürcü və Əjdaha ulduz topasına uyğun gəlir. Marsda da Misir piramidaları kimi qruplaşan və Orion bürcünü təkrarlayan piramida qrupu var. Marsdakı piramidalar hamısı 4 tərəfli deyil. 5, 6 tərəfli piramidalara da rast gəlinir. Bəzi alimlər piramidanı tikənlərin Masrdan köçüb gəlməsi versiyasını də irəli sürür. Yer kürəsindəki bütün piramidaların şimal qütbündəki əsas piramidaya qoşulma şərtilə başqa planetlərdəki piramidalar da vahid sistemə qoşularsa o zaman başqa sivilizasiyalar arasında əlaqəyə girmək imkanları yaranırdı. Ağlasığmaz görünür, amma əcdadlarımız bir neçə

minilliklər bundan əvvəl artıq bu işi görə bilirdilər. Marsda həyat hələ məhv olmamışdan əvvəl bu planet piramidalar vasitəsilə Yerin də inkişafına kömək edə bilirdi. Piramidalar vasitəsilə birləşən planetlərə Faeton adlı planeti də aid edirlər. Həmin planet artıq yoxdur, ondan asteroidlər qurşağı qalıb.

Meksikadakı Teoteokan piramidası Misir piramidalarından 15 dərəcə fərqli duruşda olmaqla bərabər o, Marsa tərəf yönəldilib. Meksikadakı piramidalar sistemini Günəş sistemi ilə tutuşdursaq onlar tamamilə üst-üstə düşür. Özü də təkcə trayektoriyası ilə deyil, miqyasları ilə də. Yəni planet balacadırsa ona aid edilən piramida da o miqyasdadır. Planetlərin bir-birinə nisbətdə ortaq rəqəmi uyğun piramidaların da bir-birinə nisbətilə üst-üstə düşür. Yəni bunları tikənlər həm başqa planetlərin, həm də Yer kürəsinin həcmini, miqyasını dəqiq bilirmiş. Marsın yerinə düşən piramidanı Keselkoatl piramidası adlandırırlar. Mifologiyaya görə o, yerdəki fəlakətlərdən sonra gəlib həyatı bərpa etmiş, insanlara biliklər vermiş ilahi obrazdır.

**Yer də Marsın gününə düşə bilər**

Marsdakı piramidaların miqyası heyranedicidir. Hündürlüyü 500 metr, bünövrədən uzunluğu 2 kilometr olan piramidalar var. Onlar Misir piramidalarından 5 dəfə böyükdür. Quruluş fərqi sübut edir ki, onlar yerdəki piramidalardan daha qədimdir. Alimlər deyir ki, Marsdakı piramidalarına baxanda Yerin piramidaları balacalaşdırılmış kopyalardır. Marsdakı piramidaların da öz sfinksi var. Yarım kilometrlik qadın cizgilərinə bənzər insan sifətinin torpaqdan boylanması barədə mübahisələr səngimək bilmir. Bəziləri onu fiksiya, ya da təsadüf sayır. Marsın başqa tərəfində isə tədqiqatçılar Perunun ink şəhərinin bənzərini tapıblar. Ora elə də adlandırılıb "İnko siti", yəni inklərin şəhəri. Bu, öz-özünə yarana bilməzdi. Geoloqlar hələ də marsian soxulcanları kimi tanınan boruşəkilli formaların yaranmasını sirr kimi təqdim edir. Yüksək temperaturun təsirindən yanıb şüşəyə çevrilmiş

şəffaf borular planetin içərilərinə gedir, burulub landşafa qarışır və torpaqdan çox fərqlənir.

***

Biz yerdən kənar reallığı öz beynimizə yaxın da buraxa bilmərik. Onda nə vaxtsa yüksək sivilizasiyanın olduğunu etiraf etmək lazım gələcək. Onun bizdən də yüksək olmasına baxmayaraq məhv olduğunu anlamalıyıq və texnogen inkişafın nə qədər təhlükəli olduğunu qafamıza yerləşdirməliyik. Əgər nə vaxtsa Marsda sivilizasiya olub və məhv olubsa deməli biz indiki sivilizasiyamızın üstündə əsməliyik.

**Dünyanı arilər ali sivilizasiyalardan alınmış biliklər əsasında piramidalar vasitəsilə idarə edirlər**

Misirşünaslıqda ortaya qoyulan yeniliklər çox çətinliklə açıqlanır, çünki elmin dediklərilə tam əks mövqedə dayanmış olur. Misirdəki piramidaların firon mumiyası üçün məqbərə olması versiyası qəbul edilib. Amma bütün fironlar ölülər şəhəri, ya da çarlar vadisi adlanan yerdə dəfn edilirdi.

**Piramidalardakı qoloqrafik görüntü**

Rus tədqiqatçısı Andrey Sklyarov uzun illərdir meqalitik tikililəri öyrənir. O, daş üzərində buraxılan izlər əsasında alətlər barədə nəticə çıxarır. Onun gəldiyi nəticə belədir ki, bu daşlar primitiv texnologiyası olan insanlar tərəfindən yonula bilməzdi. Daha bir versiya da var ki, bu daşları onlar hələ yumşaq olarkən kəsib çıxarıblar. Zaman keçdikcə, iqlim quruduqca onlar da bir-birinə yapışıb bərkiyiblər. Misir sarkofaqlarını daşdan yonmaq üçün misirlilər deşik açıb onları birləşdirməli idi. Fırlanan alətin sürəti azı saniyədə yarım santimetrə qədər olmalıydı. Söhbət yumşaq deyil, möhkəm qranitdən gedir. Hazırda mövcud olan texnika qranitdə deşik açmaq üçün on dəfə aşağı sürətlə fırlanır. Belə sürəti ultrasəs vasitəsilə almaq olardı.

Alimlər hələ ki, piramidalardakı kameralardan siqnal göndərməyin yollarını dəqiq bilmirlər. Amma piramidalar hələ də qəbul rejimində işləyir,

yəni siqnallar fasiləsiz gəlməkdədir. Sadəcə yer üzündə əlaqə seansını çoxdandır ki, kimsə gözləmir. Alimlər piramidanın bir qurğu kimi həm də video siqnal qəbul etməsi ehtimalını irəli sürür. Ola bilər ki, indiyədək piramidalarda görünən obrazlar hələ də ötürülən informasiyanın qoloqrafik təzahürüdür.

**Dünya enerji mənbələrinə və informasiyaya görə müharibələr edir**

Hamının bildiyi müharibə ilə yanaşı kəşfiyyatların qarşıdurması və yer üzündə mövcud olan enerji mərkəzləri, informasiya uğrunda da gizli müharibə gedir. Hamı qədim sivilizasiyanın biliklərini birinci əldə etməyə çalışır. Rusiya tərəfdən bu işi professor Barçenko görürdü. Onun Kursk yarımadasında maraqlı tədqiqatları məlumdur. Professor Uspenski də tədqiqatlara qoşulmuşdu. Onlar birlikdə Rusiyanın şimalında nəsə böyük axtarışlar edirdilər. XX əsrin məşhur mistiki sayılan Rerix isə müxtəlif ölkələrin kəşfiyyatlarını çaşdırmaqla, yəni Tibetə aparıb əsas məqsəddən uzaqlaşdırmaqla məşğul idi. Çünki artıq sirlərə sahib idilər. Almanların ari mədəniyyətin bəzi sirlərini bilməsi ehtimalı böyükdür. Yeni partiyanın akkult elmlərə əsaslanan yeni binasının tikilməsi Otto Ran və Henrix Virtuya tapşırılmışdı. Onlar "Annanerbe, əcdadların irsi" qrupunun vacib üzvləri və mistikləri idi. Onların təliminə görə dünyanı arilər ali sivilizasiyalardan alınmış biliklər əsasında idarə etməli idilər. Annanerbe qrupu Giperboreyanı Rusiyanın şimalında da axtarırdılar. Bu ari ənənələrin axtarılması xeyli əvvəldən, Birinci Dünya müharibəsi zamanından da öz izlərini saxlayıb.

Köninqzberqdə Şərqi Prussiyanın mərkəzində rəsmi şəkildə 1-ci dünya müharibəsində həlak olmuş almanların xatirəsi sayılan bir piramida var. Onu almanlar tikiblər. Bu piramida Misir piramidasının balacalaşdırılmış kopyasıdır. Ölçülər 13 yarus və 666 blokdan ibarətdir. Bu piramida 1923-cü ildə tikilsə də bünövrənin kapsulası 1921-ci ildə qoyulmuşdu. Çünki bu tarixdə Köninqzberqin 666 yaşı tamam olurdu. Piramidanın başındakı tifton xaçını sonradan oğurlayıblar. Birinci dünya savaşında bu şəhər ətrafında 2 rus

və bir alman qoşunu qarşı-qarşıya daynmışdı. Rus generalı Reninq Kamf və Samsonov artıq şəhəri almağa hazır idi. Amma birdən Reninq Kamf gözlənilmədən və biabırçı şəkildə ordunu atıb cəbhədən qaçır. Tədqiqatçılar deyir ki, o, hansısa hipnotik və mistik təsirə məruz qalmışdı və ona vahimə duyğusu aşılayırdılar. O boyda general şərəf haqqında fikirləri atıb qələbə ərəfəsində 2 qadınla birlikdə cəbhədən qaçdı. Bu rus ordusu üçün faciə idi. Bunun əsas səbəbini hazırda piramida dayanan yerlə bağlayırlar. Reninq Kamfın dizertirliyindən sonra general Samsonov da duruş gətirə bilmədi, 35 min rus əsgəri Köninqzberq ətrafında tələf oldu və 13 min əsir düşdü. Reninq Kamfı həbs edirlər, müharibədən sonra güllələyirlər. Piramidanı isə alman əsgərlərinin addımladığı əsas küçədə ucaldırlar. Yeri Hans Şur adlı cadugər seçmişdi. Sonradan o, Hitlerin məsləhətçilərindən biri olacaqdı. Əslində bu piramida ilk dəfə müharibədə psixotron silah, ya da güclü magik vasitənin tətbiqinə qoyulmuş abidədir. Bu ərazidə SS gizli rituallar və gecə toplantıları keçirirdi. Şəhər Sovet hökumətinin əlinə keçən kimi ruslar piramidanı partlatmaq əmrini verdilər. Amma əmr bu günədək yerinə yetirilməyib. Yalnız alman əsgərinin barelyefindən başı qopardılıb. Rus hərbçiləri piramidanı yaradanlardan deyil, onun arxasındakı mistik qüvvədən xəbərdar idilər və ehtiyat edirdilər. Çünki enerji mərkəzinin üstündə ucaldılmış piramidanın altından yeraltı qalereyalar da naməlum istiqamətə aparırdı.

**Zamanın sirri**

5 min il əvvəl yaşamış Şumer mədəniyyətinin miflərini artıq ədəbi abidə deyil, real hadisələrin təsviri hesab edirlər. Yarıallah, yarı insan olan Gilqameş ölümsüzlüyün səbəbini axtarır və bu sualla anunaklara müraciət edir. O vaxtlar allahlar sayılan canlılar şimalda Tilmun adlanan adada yaşayırdı. Onlar memarlıqda piramidalara üstünlük verir və insanları yaxına buraxmırdılar. Əfsanəyə görə anunakların içində yaşamağa yalnız Upnapişti layiq görülüb. O, Gilqameşdən bir neçə min il əvvəl yaşayaraq ümumdünya selbasmadan salamat çıxmaqçün gəmi düzəldib sonra yer üzündə həyatın

bərpası ilə məşğul olmuşdu. Biz onu Nuh peyğəmbər kimi tanıyırıq. Gilqameş ölümsüzlüyün sirrini öyrənə bilmədi, çünki yalnız allahlar ölmürdü. Ola bilər ki, onlar zamanın sirrini bilir və vaxtı idarə etməyi, anomaliyalar yaratmağı bacırırdılar.

Belə zaman anomaliyaları Tibetdəki Kaylas dağının ətrafında müşahidə edilir. O da piramida formasındadır və yer üzünün ən böyük piramidası sayıla bilər. Tibetlilər deyir ki, bu piramidanın hər üzünün öz himayədarı, öz rəngi, öz energetikası var. Bu piramidanın tərəfləri yer kürəsinin 4 tərəfinə uyğundur. Bu dağın dəniz səviyyəsindən hündürlüyü 6666 metrdir. 13 yarusdan ibarətdir və ətrafında nisbətən kiçik piramidalar və abidələr var. Bu abidələr kompleksi Kaylas mandalası adlanır. Bu dağ ətrafında nəsə anlaşılmaz hadisələr baş verir və minlərlə insan bura zəvvarlığa gəlir.

Tibet yazıları deyir ki, Kaylas dağının altında daha bir görünməz piramida yerin təkinə yönəldilib. Bu 2 piramida birləşib oktaidr forması əmələ gətirir. Onun içindən Zamanın enerji axını və yolları keçir. Buradakı zaman halqalarına düşən adam bir anda qocala, ya da ömrünü uzada bilər. Yerin təkindəki piramida yer kürəsinin artıq işlənmiş Zaman enerjisini toplayır və Kosmosa göndərir. Yuxarı piramida isə əksinə, kosmik enerjini toplayıb yerə ötürür. Yer adlı planet bu yolla nəfəs alır və ali yaradanla görüşür. Deyilənə görə 60 ildə bir dəfə Kaylas dağı oyanır. Rus tədqiqatçısı Aleksandr Ridko belə zamanda bilərəkdən tədqiqat qrupu yaradıb dağı ziyarətə getdi ki, Zamanın sirrini öyrənə bilsin. Onlar 7 qadağan olunmuş vadilərdən birinə yollandılar. Bu vadi Kaylası ortadan yarıb keçən çata doğru aparırdı. Zaman selindən yanmamaqçün zəvvarlar piramidanın başına 13 dəfə dolanmalı idilər. Dağ onların energetikasını qəbul etsə yaxına buraxacaqdı. Buna yalnız inanmaq lazımdı ki, dağ və insan arasında rezonans əmələ gəlsin. Yalnız belə olarsa dağ insana nəsə verə bilər. İnsan bağlıdırsa dağ onunçün sükut abidəsi kimi qalacaq. Tibet lamaları rus tədqiqatçılarını xəbərdar etmişdi ki, "Müqəddəs yerə soxulduğunuza görə siz ömrünüzün bir hissəsini qurban verməli olacaqsız". Tədqiqatçılar naviqatorlar və xronometrləri quraşdırıb

yola düşdülər. Ekspedisiya bizim saatla 24-26 saat çəksə də tədqiqatçılar sanki 2 həftə yol getmişdilər. Elə bil 2 həftə yol gedirmiş kimi onların qısa müddətdə saçı, saqqalı və dırnaqları uzanmışdı. Onlar özünü o qədər yorğun hiss edirdi ki, sanki yarım ay yeməksiz-susuz dolanıblar. Onları fiziki durum, yol, həyatın faniliyi, zamanın süzülüb əldən çıxması duyğusu üzürdü. Onlar dağdan düşəndən sonra diz üstə çöküb bir neçə saat ayağa qalxa bilməmişdilər.

Tibetlilər inanır ki, Kaylas dağ-piramida kompleksi yaxınlığında allahlar məskəni Şambala yerləşir. Astapad və Nanti dağlarına diqqətlə baxanda onlar nəhəng sarkofaqa oxşayır. Buddistlər deyir ki, bəşəriyyətin bütün müəllimləri, peyğəmbərlər həyat yolunu bitirəndən sonra bura toplaşırlar. Burada həm də əvvəlki sivilizasiyaların nümayəndələri minilliklərdir ki, somatxa vəziyyətində donub qalıblar. Burada bəşəriyyət ustadlarının bədənini konservasiya vəziyyətində saxlayan Zaman enerjisi adi adamı bir saniyəyə öldürə bilər. Şambalanı həm də qədim gizli orden, şaberonlar qoruyur. Əvvəlki sivilizasiyaların gizli bilikləri onlara da məlumdur. Onlar bu sirri açmağa əlbəttə ki, tələsmirlər.

**Çinlilərin gizlədiyi ağ piramida**

Hindistan və Çinin sərhəddində daha bir piramida var, ona Ağ piramida deyirlər. Onu ilk dəfə təyyarəçi Geyms Kausman təsvir edib. Uçuşların birində o, Ölüm vadisi adlanan yerin üstündə uçurdu. Mühərriklər dayanmağa, yanacaq isə donmağa başladı. Ona görə aşağı enmək lazım gəldi. Hündürlüyü azaldandan sonra sürücü yerdə ağ, parıltılı materialdan tikilmiş piramida gördü. Onun başında nəhəng kristal parlayırdı. Təyyarə piramidanın yanında yerə enə bilmədi, yalnız 3 dəfə başına fırlanıb detallara yaxşıca fikir verdi. Bu hadisədən sonra yarım əsr bu piramida barədə rəsmi məlumatlar yayılmadı. Mətbuat yalnız hərbi peykdən çəkilmiş bir neçə fotonu əldə edə bildi. Bu barədə internetdə yüzlərlə versiya dolaşır. Guya onu başqa sivilizasiya tikib, ya da yerin antenası, ya da akumlyatorudur. Ağ

piramida da Xeops piramidasıyla bir meridianda yerləşir. Amma 72 dərəcə şərqə doğrudur. Onun yeri yer kürəsinin geomaqnit kanallarıyla üst-üstə düşür. Bu piramidaya yaxın düşmək mümkün deyil, çünki Çin ordusu onu hər hansı nəzərdən qoruyur. Ümumiyyətdə Çinin ərazisində yüzlərlə piramida var ki, onu xüsusi cəhdlə gizləyirlər. Peyk vasitəsilə internetdə bu piramidanı hər kəs izləyə bilər. Amma çinlilər belə piramidaların üstünə ağaclar əkir, yaşıllıq vasitəsilə izləri itirməyə çalışırlar. Sian şəhəri yaxınlığında 300 tikilidən ibarət olan nəhəng kompleks var. Çinlilər millətin təməlini qoymuş kimi sayılan Sarı imperatora bənzəməyə çalışır. Əfsanəyə görə o da yerə göydən uçan uğuldayan dəmir əjdahalarda gəlmiş və çin dilinin əsasını qoymuş, insanlara bilik vermiş və qanunları tətbiq etmişdir.

Çindəki piramidalardan xəyali xətt çəkə bilsək görərik ki, onlar Qrenlandiyadakı böyük piramidaya tərəf yönəldilib. "Google Earts" proqramıyla Çin piramidalarının koordinatlarına baxaq. Onlar hamısı 34-cü dərəcə paralel boyunca düzülüb. Hazırkı meridian, paralel və qütbə nəzərən onların yaşını təyin etmək olar. Bir tək ən şərqdə yerləşən piramida yerin hazırkı duruşuna və dörd tərəfinə uyğun gəlir. Ondan bir qədər aralıda peyk vasitəsilə baxanda qəribə bir qurğu görmək olar. Onu elektrik stansiyasına, ya da enerji yaradan qurğuya bənzətmək mümkündür. Deyəsən çinlilər piramida vasitəsilə enerji yaratmağın sirrini öyrənib və artıq tətbiq edirlər. Bəlkə ona görə də bunu bütün dünyadan gizli saxlayırlar. Çin piramidaları Misir piramidalarından azı 2 dəfə böyükdür.

**Şüşə piramidalar**

Dünyanın sirli hadisələri arasında Bermud üçbucağındakı piramidanın da adı çəkilir. Onu 90-cı illərdə aşkarlayıblar. Bermud adaları arasındakı anomaliyaları tədqiq edərkən okeanın dibində bir piramida aşkar edildi. Yaxından öyrənəndə onun şüşəyəbənzər materialdan olduğu aşkar göründü. Bu piramidanın tərəfləri hamardır və monolitdir, yəni nədənsə yonulmasının

izləri, çatlar görünmür. 2003-cü ildə isə Çili tərəfdə daha 3 piramida da kəşf edildi. Onlar 6000 metr dərinlikdə suyun altındadır və özündən işıqlanır. Əlbəttə ki, bu piramidalar tapılan kimi məlumatlar gizlədildi. Amma sirləri gizlədən hərbçilər bu zonadakı anomaliyaları izah edə bilmir. Bəziləri isə piramidalar yerləşən ərazidən birbaş sudan göyə qalxan UNO-ları müşahidə edib. Adıçəkilən piramidaları batmış Atlantidanın okeanın dibindəki irsi katoqoriyasına aid edirlər.

**Piramidalar 18 min əvvəlki görüşün yadigarıdır**

Artıq alimlər də bu fikri açıq deməkdən çəkinmir: 18 min il əvvəl bizim sivilizasiya bizim ölçülərimizə görə çox inkişaf etmiş bir sivilizasiya ilə görüşüb. Bununla yer üzünün sivilləşməsi başlayıb. Amma bu proses qlobal şəkildə deyil, müxtəlif mədəni ocaqlar şəklində baş verdi. Şumer mədəniyyəti, Misir, Çin mədəniyyəti müxtəlif dövr və fərqli səviyyələrdə çiçəkləndi. Gəlmələr dedikdə alimlər uzaq ulduzlardan gəlmələri nəzərdə tutmur. Onlar vaxtilə bizim qalaktikada yaşamış şüurlu varlıqlardır. Mars və Faeton planetlərindən gələnlər vahid bilik əsasında ünsiyyət yaradır və planetar səviyyədə qayğıkeşlik edirdilər. Piramidalar da o zamanların yadigarıdır. Piramidalar yer kürəsinin antenaları, başqa dünyalara aparan portal, seysmik aktivliyin tənzimləyicisi, vacib enerji mübadiləsi qurğusu, bioloji zamanın idarəetmə kanalı kimi insanlara öz xidmətini verməkdədir.

Piramidalar haqqında hər hansı fikir yürütmə insanın yaranması sirrinə dirənir. Bu biliklər insanlardan gizlədilir və bütün ölkələrin hökumətləri tərəfindən yasaqlanır. Çünki həqiqət insanların əksəriyyəti üçün xoşagəlməz olacaq. Son illərin siyasi hadisələrinə baxanda, məsələn ərəb inqilabını və Misirdəki hadisələri götürəndə piramidalar haqqında biliklər bütün bunların səbəbinin təkcə neftlə bağlı olmadığı fikrini də yaradır. Bu yaxında mətbuatda Misirdən dünyaya daha bir hədə də səsləndi. Misirlilər piramidaları sökmək hədəsiylə dünyaya xəbərdarlıq etdilər. Ərazisində piramidası olmaq əlinin altında atom bombasının düyməsini saxlamaq kimidir.

# Qarğınmış kitablar

İnsan özünü tanıyanı əlinə bir çubuq alıb ya qayalarda nəsə cızıqlayıb, ya da papirusda, heyvan dərisində, daş kitabələrdə bildiklərini əbədiləşdirməyə çalışıb. Kitab insanın yaratdığı ən lazımlı kəşfidir. Amma bəşəriyyət tarixində minlərlə kitabı məhv etmək prosesini izləyirik. Elə bil hansısa qüvvə, ya gizli cəmiyyət hazırda insanlara zərər verə biləcək məlumatları yer üzündən silməyə çalışır. Makedoniyalı İskəndər Avestanın orijinalını məhv etdi. Yəqin o da bu kitabdakı biliklərin çox qiymətli olduğunu bilirmiş. İnsan həmişə bilib ki, kitab və bilik böyük qüvvədir.

**Bilik təhlükəsi**

İndi bilik əldə etmək çox asanlaşıb. İnterneti açıb ordan bədii ədəbiyyatdan tutmuş qara magiyada işlədilən reseptlər və dualara qədər hər bir informasiyanı asanlıqla əldə etmək olar. Bəziləri düşünür ki, əsrlər boyu insanlardan gizlədilən informasiyanı məhv etməyi qarşısına məqsəd qoymuş bir gizli cəmiyyət də var. Məqsədyönlü şəkildə kitabları məhv etmə prosesinə Çində də, Hindistanda da, Avropa ölkələri tarixində də rast gəlirik.

- 1885-ci ildə Sent İv dAlveydr ölüm qorxusu altında "Hindistanın Avropada missiyası və Avropanın Asiya missiyası" adlı kitabını məhv etmək əmrini aldı. Müəllif əmrə itaət etdi və kitabı məhv elədi. Amma 1909-cu ildə naşir Dorbon bu kitabın bir nüsxəsini əldə edib nəşr elədi. 1940-cı ildə almanlar Fransaya girən kimi kitabın bütün nüsxələrini əldə edib tamam məhv elədilər.

- 1897-ci ildə Stanislav de Quaytı adlı müəllifin varisləri ölüm hədəsi altında yazıçının hələ nəşr edilməmiş kitablarını məhv etmək əmri aldılar. Bu kitab qara magiya problemlərinə həsr edilmişdi. Əmr yerinə yetirildi.

- 1933-cü ildə faşistlər "Rozenkreyserlər. Reformasiya tarixinə dair" kitabının bütün tirajını yandırdılar. Həmin kitab 1970-ci ildə bir daha nəşr edildi, amma onun əvvəlki ilə eyni olduğunu sübuta yetirəcək faktlar yoxdur.

**Kitabların düşməni kimdir?**

Suala cavabı hazırda beynəlxalq səviyyədə, planetar məsələlər üzrə keçirilən müşavirələr, konfranslarda da axtarmaq olar. Belə məhdud girişli iclaslarda daim qara paltarlı, vahiməli görkəmli adamlar iştirak edir və onlar həmişə susurlar. Onlara "Qara geyimli adamlar" deyirlər. Deyilənə görə qara geyimlilərin cəmiyyəti bizim cəmiyyətin özü qədər qədimdir. Ola bilər bu qara geyimlilər bizdən əvvəlki sivilizasiyanı məhv etmiş məlumatların bilərəkdən silinməsi ilə məşğul olurlar ki, insan üçün ziyanlı ola biləcək informasiyalar yayılmasın. Minilliklərdir ki, yer üzündə bir fikir hələ də dolaşmaqdadır: Bilik çox təhlükəli ola bilər!

Müasir elm də biliyin təhlükəli ola biləcəyi fikrini inkar etmir. Ola bilər hər bir elmi tədqiqatın da üzərində bir lənət nişanəsi var. Danılmaz faktdır ki, müasir insan yer üzündən silinmək kimi problemlə üzbəüz qalıb. Bu yaxın onilliklərdə baş verə bilər. Bu olsa, yer kürəsi əvvəlki bioritminə qayıdacaq: 3 milyard insan, 3 milyard il bioloji təkamül... Artıq elmi cəmiyyətlərdə tapıntılara senzura qoymaq məsələləri müzakirə edilir. Çünki tapıntılar çox vaxt insanlığın əleyhinə işləməyə başlayır. Deyəsən elm adamları da "qara paltarlılar" cəmiyyətinin fikirlərinə şərik çıxmağa başlayırlar.

**Totun kitabı**

Hər yerin qazıldığı bir zamanda belə arxeoloqlar 2 cəbhəyə, klassik arxeologiya və romantik arxeologiyaya ayrılır. Klassik arxeologiya üçün Misir abidələri neolit dövründən daha inkişaf etmiş formaya keçid kimi görünür. Romantiklər isə Misirdə daha böyük sirlərin yatdığını düşünür. Onlardan Rene Şvaller de Löbiç və S. Deli Kinqin adını çəkmək olar. Onların qoyub getdiyi tədqiqatlara əsasən Misir sivilizasiyasının 3-4 deyil, 20 min, bəlkə də

40 min yaşı var. Klassik arxeologiya sonuncu 6 min il ərzində Misir əhalisinin yarıvəhşi həyat sürdüyünü yazır. Amma burda nəsə bir vacib hadisə baş verdi ki, vəhşi qəbilələr böyük bir dövlət yaradıb inkişafda sıçrayış etdilər. Bu faktı qəbul etməmiş "Totun kitabı"nı anlamaq mümkün deyil. Tot mifik personajdır. Və onun kitabı dünyanın sirlərini özündə cəmləmiş ya papirus, ya da ayrı-ayrı vərəqlərdən ibarətdir. "Totun kitabı" minilliklər boyu üzü köçürülərək nəsildən nəslə ötürülürdü. Misirlilər inanırdı ki, bu kitabı odda yandırmaq mümkün deyil. Totun özünü əlində qələm və mürəkkəb qabı ilə təsvir edirdilər. Çünki yazını kəşf etmək ona aid edilirdi. Tot həm də bütün allahların salnamə yazarı sayılırdı. Kitabda magiya üsulları, mum heykəlciklər vasitəsilə canlandırma və s. gizli biliklər verilmişdi. Hələ o qədim zamanlarda bu kitabdan zərər görürmüşlərin dəfələrlə onu yandırması, məhv etməsi barədə qeydlərə rast gəlirik. Sənədlərə inansaq, guya kitabın vasitəsilə günəşə gözünü qırpmadan baxmaq olardı. Kitab yer, okean və göy cisimləri üzərində hakim olmaq imkanı verirdi. Kitabda ölüləri diriltməyin və dirilərə uzaqdan təsir etməyin yolları göstərilmişdi. Misir kitabələrində və sonradan Avropaya yayılmış başqa kitablarda meydana çıxan yazıların "Totun kitabı"ndan olduğu zənn edilir. Məsələn, "Asclerius" adlı kitabda bizdən əvvəlki sivilizasiyaların əzəmətli həyatı təsvir edilib: "Bizim əcdadlarımız allahlar yaratmaq qabiliyyətində idi. Onlar heykəllər yaradırdı, çünki ruh yaratmağı bacarmırdılar. Sonra iblis və mələkləri çağıraraq müqəddəs magiya vasitəsilə heykəllərə can verirdilər. Onlar sonra ya xeyrə, ya da şərə qulluq edirdi". Totun özü də bu yolla yaradılmışdı. Amma onu yaradanlar barədə kitablar hələ ki susur…

**Təmiz güzgülərin ustadı**

Totun kitabı barədə V əsrdən sonra daha çox məlumat yayılmağa başladı. İnkvizisiya azı 30 dəfə bu kitabı onu saxlayan və yayan adamlarla birgə odda yandırıb. Daha bir versiyaya görə falçıların ən sevimli fal kartları olan Taro həmin kitabda baş verənlərin qısaca konspektidir. Tədqiqatçı Deli Kinq yazır

ki, Misir yolu ilə bilik əldə etmək çox təhlükəlidir. Bunu yalnız xüsusi mərasimləri keçirmək şərtilə qapalı cəmiyyətdə etmək olar. Mərasim insan şüurunun genişlənməsi işində praktiki cəhətdən çox qiymətlidir. Hazırda belə bir cəmiyyət varsa, yəqin ki, onlarda Totun kitabı da olmuş ola bilər. Deli Kinq yazır ki, Misirdə adi və ali məktəblər fəaliyyət göstərirdi. Ali məktəbdə bədəni idarə etmək, təbii qüvvələrə təsir etmək kimi gizli biliklər verilirdi. Xüsusi güzgülər vardı ki, ora baxanın yalnız pis cəhəti görünürdü. Ali məktəbin tələbələri belə güzgülərdə görünmürdü, çünki özlərini son dərəcə təmizləyə bilmişdilər. Onlara təmiz güzgülərin ustadı deyirdilər. Bütün bunlar daha çox öyrənmək ehtirası oyadır. Amma "qara paltarlılar" "Totun kitabı"nı ortaya çıxmağa qoymur. Yəqin ki, düz də edirlər.

**İskəndəriyyə kitabxanasında nələr yandı?**

Əfsanəvi İskəndəriyyə kitabxanasının axırına ərəblər 646-cı ildə çıxdı. Amma bundan əvvəl də illər-əsrlər uzunu toplanmış fantastik biliklər toplusuna dəfələrlə hücumlar olub. İskəndəriyyə kitabxanasının İ, ya da II Ptolomey tərəfindən yaradıldığı zənn edilir. İskəndəriyyə daşdan tikilmiş ilk şəhər idi. Kitabxana özü 10 böyük zal və otaqlardan ibarət olub. Kitabxananın yaradılmasını Demetrios Falerskinin adı ilə bağlayırlar. O, 700 min kitabın sahibi idi və daima kolleksiyasını artırırdı. Ehtimal var ki, onun "Göydəki işıq düyünçəsi" adlı kitabı uçan obyektlər haqqında yazılmış ilk əsərdir. Dağıldıqdan sonra salamat qalmış kitabların siyahısını öyrənəndə kitabların insanlarda yaratdığı qorxu hissinin mənbəyini anlamaq olur. Məsələn, Beros adlı Yunanıstanda yaşayan kahin yadplanetlilərlə görüşlərdən yazırdı. O, kitablarında sirli Apkallusları, balığa bənzər canlıları, skafandrda yaşayıb insanlara biliklər ötürən qəribə məxluqları təsvir edirdi. Beros dövrünün çox proqressiv alimi idi, onlarla kəşfi, yeni nəzəriyyələri vardı. Onun əsərlərindən yalnız fraqmentlər salamat qalıb. Kitabxanada Manefon adlı Misir kahini və tarixçisinin əsərləri saxlanırdı. Onun adını "Totun həqiqətlərini bilmiş" kimi

tərcümə edirlər. Kitabxanada Misir barədə saxlanılmış kitablar qalsaydı, indi Misir bizimçün sirr olaraq beyinlərə hakim olmazdı. Kitabxanada finikiyalı Mokusun əsərləri saxlanırdı. Onu atom nəzəriyyəsinin banisi sayırlar.

**"Kitabdan başqa kitablar lazım deyil!"**

Kitabxana böyüdükcə onun düşmənləri də artırdı. Eramızdan 160-131 il əvvələ qədər kitabxananın nəzarətçiləri barədə dəqiq məlumatlar vardı. Sonra izlər itir. Yuli Sezar ilk dəfə kitabxanaya həmlə edəndə eramızdan 47 il əvvəl idi. O, kitabların bəzisini götürüb, bəzilərini yandırmış, bəzilərini isə özü ilə aparmışdı. Amma bunu kimsə əminliklə deyə bilmir. Bəzi mənbələr kitabxananın döyüşdə yanaşı kvartalların yanğını zamanı məhv olmasını da deyir. İmperator Diokletianın kitabxananı gözü götürməməsinin səbəbi məlum idi. Orda qızıl və gümüşün hazırlanması qaydası olan kitablar vardı, onları məhv etmək fikrindəydi. Kimyagərlik üzrə bütün kitablar da məhv edilməyə namizəd idi. Onun fikricə misirlilər istədiyi qədər qızıl istehsal edə bilsələr, ordunu silahlandırıb imperiyaya təslim olmazlar. Amma imperator şəhəri döyüşlə əldə edəndən sonra da kitabxana tam olmasa da, yenə işləyirdi. Ərəblər İskəndəriyyə kitabxanasının lap axırına çıxdılar. İslam bayrağı altında vuruşan əsgərlər İslam imperiyasında rastlaşdıqları bütün qiymətli kitabları məhv elədilər: "Kitabdan (yəni Qurandan) başqa kitablar lazım deyil".

Mərhələli məhvetmə silsilələrindən sonra hansı kitab salamat çıxırdısa, artıq möhkəm gizlədilirdi və demək olar ki, bu günlərədək gizli cəmiyyətlərin sirli kitabxanalarından kənara çıxmayıb. Bəzi manuskriptlər sanki təqib edilir, əvvəl orijinalı, sonra kopyası, sonra isə oradan gətirilən sitatlar məhv edilirdi. Bu kitablar Misirdən əvvəl buralarda kök salmış nəhəng sivilizasiyanı təsvir edirdi. Biz bunu artıq bilə bilməyəcəyik, çünki izlər tamamilə silinib. "Qara geyimlilər" cəmiyyətinin kitabları məhv etmə ənənəsinə gəlincə, sadalanan hadisələr bu cəmiyyətin hələ qədim Misirdə də fəaliyyət göstərdiyinə dəlalət edər. İskəndəriyyə kitabxanasının yer üzündən silinməsi "Qara geyimlilər"in

ən böyük "nailiyyətti"dir. Amma Misir piramidalarının gizli otaqlarında hələ də yatan kitabların olması bir qədər ümidvericidir.

**Stansı Tszyan**

Bu kitabın Hindistandan, ondan əvvəl isə Veneradan gəldiyini deyirlər. "Stansı Tszyan" kitabına malik olduğunu, ya da onu gördüyünü deyən adamların başına həmişə qəribə işlər gəlib. Məşhur ezoterik, ekstrasens, öncəgörməliyi ilə ad çıxarmış madam Blavatskaya bu kitabın adını çəkməklə həyatını kökündən dəyişməli oldu. Blavatskaya Rusiyada doğulub. 5 yaşından bəri onun ətrafındakılar vahimə hissi keçirir, özlərini qəribə aparırlar. Qızın qəribliyinin qabağını almaq istəyən valideynlər onu ərə vermək fikrinə düşür. Amma o, qaçıb gəmiyə minir, bir neçə şəhəri arxada qoyub Misirə gedib çıxır. Blavatskaya Qahirədə bir maqla tanış olur. O, qadına çox təhlükəli kitablar barədə danışır və Blavatskayanı bəsirət gözüylə oxumağı öyrədir. Kitabın orijinalı Tibetdə olarkən Blavatskaya onu oxuya bilir. Blavatskayanın kitablarında 400-dən artıq yoxa çıxmış, ya da gizlində saxlanan kitablardan sitatlar gətirilir. Onun problemləri "Stansı Tszyan" kitabını oxuduğunu və əldə etdiyini etiraf edəndən sonra başladı. O, əvvəl xəbərdarlıqlar, sonra ölümlə hədələnmələr alırdı. Daha sonra bir-birinin ardınca bədbəxt hadisələr baş verməyə başladı. Onu gah ingilis xəfiyyəsi, gah da Amerika casusu adlandırır və təqib edirdilər. Məktublaşmalardan məlum olur ki, Blavatskayanın yeni enerji növü haqqında qiymətli məlumatları varmış. Söhbət materiyanın təmiz enerjiyə çevrilməsindən və atom enerjisindən gedir. Daimi təqiblərə baxmayaraq Misir maqından aldığı qabiliyyətinə görə o, tez bir zamanda bu günün özündə də qiymətli sayılan kitablar yazır. Blavatskaya bilmədiyi dildə kitabı əldə edəndə bu dili hansısa vəhy yoluyla öyrənərək Hindistanda tapdığı qiymətli kitabları tərcümə edə bilir. Onun zəhməti sayəsində Şərqdə gizlədilmiş kitabların bir neçəsi avropalılar üçün əldə edilən olub. Amma cavan vaxtı "Stansı Tszyan" kitabına sahib olduğunu

dediyindən təqiblər azalmır, hətta artırdı da. Bir dəfə isə kitabı ictimailəşdirəcəyi elan olunduğu zaman kitab mehmanxananın bağlı seyfindən yoxa çıxmışdı. Nəticəsində cəmiyyət tərəfindən anlaşılmadığına görə dərin depressiyaya düşən xanım ömrünün sonunda bütün bunları uydurduğunu deyib gerisini rahat yaşamaq istədi. Onu kitabların ən zəngin saxlanma yeri olan Tibetə buraxmırdılar. Böyük, bütün yer kürəsinə nüfuz etmiş gizli cəmiyyət təqibləri ilə Blavatskayanı oxuduğu kitabları dünyaya yaymamağa təhrik etmək istəyirdi. İngilis hökuməti ilə əlbir olaraq uzun illər aparılan təzyiq kampaniyası Blavatskayanın fəaliyyətini məhdudlaşdıra bildi. Çünki onu artıq cadugərlikdə, akkultizmdə ittiham edirdilər.

**Yeraltı kitabxanalar**

İndinin özündə də Yer kürəsinin ən sirli, ən əlçatmaz kitablarının Hindistanda və Tibetdə olduğunu deyirlər. Hindistanda sanskrit dilində yazılmış kitabları müasir hindlilər dili unutduqlarından artıq oxuya bilmirlər. Sanskritin isə Qafqazdan gəlmiş, özüylə gizli informasiyalar gətirmiş tayfanın dili olduğunu Qərb alimləri artıq etiraf etməyə bilmirlər. Blavatskaya öz kitablarında Monqolustan səhralıqlarında qumsallar altında qorunub saxlanan kitabxanalar barədə yazır. Onların yerini dəqiq bilən yoxdur. Amma hər il monqol və Tibet monaxları müəyyən marşrut ilə irəliləyərək, yalnız özləri bildikləri əlamətlərə sadiq qalıb Monqolustan çöllərinə zəvvarlığa gedirlər. Onlar ya bir daşa, ya da heç özləri də anlamadıqları bir əlamətə qədər gedib çatır, ora təzim edib geri qayıdırlar. Sonra həmin marşrutu şifahi şəkildə öz şagirdlərinə öyrədirlər. Bəlkə nə vaxtsa bu kitabxanaların üzə çıxması məsələsi planetar səviyyədə həll olunası olsa, məlumatın yalnız bir hissəsini bilən insanlar bir yerə toplaşıb yeraltı kitabxanaları aşkarlayacaqlar. Amma o gün gələnə qədər kitablar insanlardan gizli şəkildə yerin altında zamanını gözləyəcək.

Tianlı Apolloni hələ öz zamanında, yəni eramızın İ əsrində Hindistanda olan qədim kitablardan danışırdı. Gizli bilikləri insanlara çatdıran kitabların olması fikri həmişə mövcud olub. Həmişə də bu kitablar təqib edilib və vaxtaşırı məhv edilib. Qədim kitablar levitasiya, yəni insanın uçmaq qabiliyyəti, iradəsinin gücüylə daxildən yanma faktından, uzaq əlçatmaz dünyalardan bəhs edir. Bu tip biliklərə toxunan qərb təfəkkürlü adamın dünya görüşü elə dəyişir ki, o bir daha əvvəlki həyat tərzinə qayıda bilmir.

**Abbat Triteminin sirri**

Abbat Tritemi XV əsrdə yaşayıb yaratmış şəxsdir. Onun 8 cildlik "Stenoqrafiya" kitabı skandallı və yoxa çıxmış kitablar sırasındadır. Gəncliyindən kabalistika, əlkimyaçılıq ilə bərabər göy cisimləri, astronomiya kimi elmləri də öyrənirdi. Amma onun məqsədi qızıl tapıb varlanmaq, ya da hüdudsuz hakimiyyət əldə etmək deyildi. Məşğələlərin nəticəsində o, insanları uzaq məsafədən hipnoza salmaq və xüsusi dil vasitəsilə məlumat ötürmək qabiliyyətini inkişaf etdirmişdi. Abbat Tritini zamanına görə ən zəngin kitabxananın sahibi idi. Onun 8 cildlik kitabı qraf Elektor Filipp tərəfindən yandırıldı. O, atasının kitabxanasında "Stenoqrafiya"ya rast gəlib onu oxuyandan sonra dəhşətə gəlmişdi. İndi kitabdan qalan hissələr onun ümumi həcminin səkkizdə biri qədərdir. Amma buradan hansısa bilikləri əxz etmək mümkün deyil. Çünki abbat başqalarının anlamadığı yazı üsulunu kəşf etmişdi ki, nadan adamlar onun yazdıqlarından bir kəlmə də anlaya bilmirdilər.

Tritimi belə yazırdı: "1499-cu ilin bir gecəsi gizli sirləri öyrənmək həvəsi ilə xəyallara dalarkən gecə yuxuma bir adam gəlib məni adımla çağırdı: Tritini, beynindəki bu fikirləri divanəlik sayma. Ola bilər nə sən, nə də bir başqası bu sirlərə sahib ola bilmədi, amma bu o demək deyil ki, bütün bunlar mümkün deyil". Mən ondan sirləri mənə açmağı xahiş etdim. O da mənə ilk baxışdan çox sadə olan sirri açdı". Bu söhbətdən sonra Tritini daha da cəhdlə

araşdırmalarını davam etdi. O, xüsusi yazı üsulu kəşf etdi ki, hətta düşmənin əlinə keçsə belə həmin yazıdan kimsə baş çıxarmayacaq. Onun kitabları məhz belə üsulla yazılmışdı.

Müasir dövrün adamları Abbat Tritinini radiodalğalar vasitəsilə uzaq məsafələrə informasiya ötürməyi kəşf etdiyini düşünür. Deməli artıq XV əsrdə nəinki dalğaları ötürənlər, həm də onları ötürə biləcək cihaz vardı. Kitabın tamamilə məhv edilməsini yenə də "qara geyimlilər"lə bağlayırlar. Onlar bu cihazın vaxtından əvvəl yayılmasını istəmirdilər. Tritininin bioqrafı Gorc Ripli kitabın qalıqlarının bir yerə toplayıb çap edilmiş variantına giriş sözündə yazırdı: "Rica edirəm, bu sirləri bilənlər onu heç vaxt nəşr etdirməsin!". Abbat Tritini hələ XV əsrdə, inkvizisiyanın tüğyan etdiyi yamanlarda yazırdı: "Ruh azaddır və o, heç bir planetə, ulduza tabe deyil. O, yalnız Yaradanın ali qanunlarına tabe olur".

Soruşula bilər, əgər Abbata Tritinini yazdıqları bu qədər təhlükəlidirsə onları yazmaq nəyə lazımdı? Müəllif fikirlərini seçilmişlərə, onun yazdığını anlayanlara ünvanlamışdı. Yerdə qalanı onu qara maq adlandırırdı. 1616-cı ildə Tritinin kitabı daha bir redaktə və qısaldılmadan sonra çap ediləndə onun titul vərəqində "Alilərin xeyir-duası ilə" yazılmışdı. Amma kilsə kitabın çapına icazə verməmişdi. Alilərin kim olması sualı təxminən də olsa da cavabını tapır. Tritini həm də bəşəriyyətin siklik inkişafı və Allahdan sonra gələn 7 ikinci dərəcəli ruhlar barədə də fərziyyələr yürütmüşdü. Bunlar həm hinduist dünya görüşü və eləcə də müasir elmin tapıntılarıyla üst-üstə düşür. Tritini bəzi öncəgörməliklər də etmişdi, onlardan əksəriyyəti artıq reallışıb. O, İsrail dövlətinin yaranacağını hələ XV əsrdə demişdi. "Öküzləri samanla yedizdirin, amma tutuquşularına mütləq qənd vermək lazımdı" deyən alim zamanının ən təhlükəli kəşflərini etdiyindən onun kitablarının vacib hissələrindən yadigar qalmayıb.

**Con Di qara güzgüdə nələr gördü?**

Con Di XVI-XVII əsrlərdə yaşayıb. Tarixə o, riyaziyyatçı və klassik filologiyanın bilicisi kimi və ilk dəfə ilkin meridianın, Qrinviçin olması

ideyasını irəli sürmüş alim kimi daxil olur. O, İngiltərəyə 2 qlobus və naviqasiya qurğuları gətirərək ingilis gəmiçiliyinə böyük töhfələr vermiş oldu. Onu sənaye casusu da adlandırırlar, çünki daima İngilis kraliçasını naviqasiya sirləri və müxtəlif cihazları qayırma sirləri ilə təchiz edirdi. Əslində Con Di tamam fərqli işlərlə məşğul idi. O, Kembricdə oxuyarkən robot hazırlamış və onu teatral tamaşada nümayiş etmişdi. Buna görə onu Kembricdən qovmuşdular. Bundan sonra o, çörək pulunu horoskoplar hazırlamaqla çıxarırdı. 1563-cü ildə Con Di kitab mağazalarının birində yuxarıda adı çəkilən abbat Tritiminin "Stanoqrafiya" kitabını əldə edir. Bu kitab ona öz yazı üsulunu kəşf etməyə kömək edir. Belə ki, o, 8 il çalışdığı kitabı bundan sonra bir neçə ayın içində tamamlaya bilir. Əsas hadisə 1581-ci ilin 25 mayında baş verdi. O, qeyri adi məxluqla, ətrafında parıltı olan insanabənzər varlıqla qarşılaşdı. Con Di onu mələk adlandırırdı. Mələk ona bir qara güzgü bağışladı. Həmin bu güzgü indi də Britaniya muzeyində saxlanır. Bu cilalanmış qara kömür parçasıdır. Mələk dedi ki, bu kristala baxaraq o, başqa dünyalara girə və başqa varlıqlarla ünsiyyət qura bilər. Con Di bütün söhbətlərini qələmə alırdı. Di bu mələk adlandırdığı varlıqla yenoxi dilində danışırdı. Həmin bu dil yer üzündə yaşamış sivilizasiyaların heç birində olmayıb, amma onun öz qrammatikası və əlifbası vardı. Con Di ünsiyyətin müəyyən mərhələsində bütün məlumatları qeydə ala bilməyəcəyini hiss etdi. Axı onun diktofonu, ya da başqa səsyazan vasitəsi yox idi. Bu fikir alimin axırına çıxdı. Çünki özünə köməkçi axtararaq ya düşmənlərinin göndərdiyi adama, ya da küt, səviyyəsiz köməkçiyə rast gəlirdi. Adını dəyişərək Kelli kimi təqdim edən birisi alimin həyatına soxularaq onu tamamilə məhv elədi. Əvvəl arvadını yoldan çıxardı, sonra onu mənasız Avropa ətrafı səfərə sövq elədi. Sonunda tam müflisləşdirib həyatını sındırdı. Con Di ruhdan düşmüş və biabır olmuş halda dünyasını dəyişdi. Kraliça Yelizavetanın himayədarlığına baxmayaraq Con Di təqib edilir və demək olar ki, əlyazmalarının hamısını itirib. Ölkə hakiminin himayədarlığında olarkən kiminsə kitaba görə təqib edilməsini, onun evi ətrafında etiraz edənlər dəstələrin yaradılmasını da

"Qara geyimlilər"lə bağlayırlar. Hər dəfə belə hücumlardan sonra Con Dinin əlyazmaları yandırılır, evi dağıdılır, nadir kitabxanası oğurlanırdı.

İndi Con Dinin salamat qalmış kitablarından heç nə anlamaq mümkün deyil. Çünki onlar xüsusi yazıya alma üsulu ilə yazılıb və açarı demək olar ki, itirilib. Onun qara güzgüsü muzeydə saxlanılsa da tədqiqat üçün nə alimlərə, nə də tamaşaçılara göstərilir. Sutkada 22 saat işləməyi bacaran tez oxuma texnikasına yiyələnmiş alim hətta avtomat da quraşdıra bilmişdi. Con Di kənar sivilizasiyalarla bu qədər aydın və sadə şəkildə kontakta girmiş ilk alimdir. Con Di qara güzgü vasitəsiylə bütün təbiət qanunların təsnifatını almaq niyyətindəydi. Spiritik seanslarda da o, alim mövqeyində dayanaraq ağlının aydınlığını itirmirdi. Onun dediyinə görə yer kürəsi kürə şəkilli deyil və bir-birinin üstünə qalaqlanmış və başqa ölçülərə tabe olan bir neçə kürənin topasıdır. Yer üzündə elə nöqtələr var ki, bu kürələr arasında yapışmalar olduğundan burdan başqa səviyyələrə keçid var. Məsələn, onlardan biri Qrenlandiyada yerləşir. Ona görə də Di dəfələrlə başqa dünyalara qapı olan Qrenlandiyanı əldə etməkçün kraliçaya müraciətlər edir. Con Di insanın əvəzinə bütün işləri görəcək robotlardan, yuxuların öyrənilməsinin vacibliyindən danışır. Amma o, həm də bu biliklərlə ehtiyatlı olmağın, onları nadan adamlardan gizlətməyin də vurğulayır.

**Voyniçin manuskripti**

Bəşər tarixində qarğınmış amma məhv edilməmiş bir kitab da var. Ona Voyniçin manuskripti adını veriblər. Kitabın müəllifi Rocer Bekondur. Bu kitab ona görə məhv edilməyib ki, bu günə qədər onun şifrələnmiş mətni tam açıqlanmayıb. Kitab Nortumberlend hersoqunun kitabxanası talan ediləndə ortaya çıxıb. 1962-ci ildə onu Nyu-York kitab dükanında 160 min dollara satırdılar. Dünyanın bütün sirlərini guya özündə cəmləyən bir kitab üçün bu, o qədər də çox deyil. Bu kitabın da 28 səhifəsi itirilib. İçində cəmi 5 rənglə çəkilmiş çoxlu çılpaq qadın rəsmi, 400-ə qədər bitki şəkli və astroloji diaqramlar var. Bu kitabın şifrəsinin açılmasıyla dəfələrlə məşğul olublar,

amma nəticələri olmayıb. Amma astroloji diaqramlarda Aldebaran və Giada bürclərini tanımaq çətin deyil. Bütün tədqiqatçılar cəhdlərinin uğursuzluğundan sonra kitabın naməlum dildə yazıldığı fikrində razılığa gəliblər. Deyilənə görə bu kitab yerdən kənar sivilizasiyanın danışdığı, bizim yenoxi kimi tanıdığımız dildə yazılıb və sonra bir daha da şifrələnib.

1919-cu ildə kitabın sonsuz sayda fotolarından biri məşhur linqvist və kriptoqraf Uilyam Romen Nyuboldun əlinə keçdi. Manuskript üzərində 2 ildən artıq işləyən Nyubold dilindən qaçırmışdı ki, kitabın açarını tapıb. 1921-ci ildə işinin tamamlanması ərəfəsində o, tapıntıları barədə məruzə edərək onların sensasiyalı olduğunu açıqlamışdı. O, müəllifin Andromeda bürcünün də bizim kimi qalaktika olmasını, hüceyrənin quruluşunu və insan embrionunun yaranma üsullarını bildiyini demişdi. Dünya bu xəbərdən silkələnmişdi. Amma az keçmiş Nyubord dediklərindən imtina edərək işini ortalığa çıxarmadı. O, 1926-cı ildə vəfat edəndən sonra dostu əlyazmalarını çap etdirdi. Daha sonra kitabın o qədər yeni təfsirçisi əmələ gəldi ki, bu artıq aktuallığını itirib yaddan çıxdı. Hamı bunu da anladı ki, Nyubord bilərəkdən tapdığı izləri dolaşdırmağa çalışırmış. Ola bilər, onu da hədələyirmişlər.

Voyniçin manuskripti kimi tanınan kitab, Tritemi və Con Dinin kitabları kimi insan dilində yazılmış kitab deyildi. Bu 3 müəllif insanların bilmədiyi biliklərə əlləri çatırmış, ya da kənar şüurun təsiri ilə onlara məlumatlar ötürülürmüş. Bəlkə də həqiqətən vaxtından əvvəl açıqlanması ilə bu biliklər yer üzündən sivilizasiyanı silə bilərdi. Əgər Voyniçin manuskripti ulduz və kvazarların sirrini açırsa, atom bombasından dəfələrlə güclü enerji forması XVIII əsrin insanı üçün kifayət qədər anlaşıqlıdırsa bəlkə də həqiqətən bu biliklər gizli qalsa daha salamat olar. Bir fakt da nəzərdə tutulmalıdır, cəmiyyətin inkişafı ilə, foto, səsyazma və s. lazımlı texnikanın inkişafı ilə bağlı olaraq informasiyanı gizli saxlamaq çətinləşib. Avropanın frankmassonları ikinci dünya savaşından əvvəl gizləmə əməliyyatlarını dəqiq aparsaydılar unikal kitabların məhv edilmə miqyası o qədər də böyük olmazdı. Mason sənədlərinin məhvi ilə xüsusi qruplar məşğul olurdu. Rəhbərlik faşistlərin

əlində olsa da burada belçikalılar, fransızlar da çox idi. Həmin bu şəxslər müharibədən sonra da toxunulmazlıq statusunu saxlayırdılar.

Müəllif Rocer Bekonun dediyinə görə o, Süleyman peyğəmbərin dünyanın sirlərini özündə cəmləmiş kitabını oxumuşdu. Həmin bu kitab 1350-ci ildə papa VI İnnokenti tərəfindən yandırılmışdı. Guya kitab iblisin necə çağırılması mərasimin təsvir edirmiş. İblisi mələklərə, mələkləri yadplanetlilərə dəyişdirməklə qadağan edilmiş müəlliflərin ünsiyyətdə olduğu qüvvələr barədə təxmini təsəvvür yaratmaq olar. Bekon deyirdi: "Kim ki, dünyanın sirləri barədə hamının anladığı dildə yazırsa deməli o, divanədir".

*"Mən əminəm ki, cəmi 5 sətir yazı bütün sivilizasiyanı məhv edəcək qədər təhlükəli ola bilər" Fred Xoyl*

**Dəli edən kitab – Ekskalibur**

Hazırda bu sətirləri oxuyan zaman planetimizin okean sularında gözəl bir gəmi üzür. Onun bayrağı heç bir dövlətə aid deyil. Gəmidə çoxlu silahlı mühafizə var. Çünki onlar hər an gəmiyə hücuma və kapitan otağındakı seyfin oğurlanmasına hazır olmalıdır. Bu seyfdə saxlanan "Ekskalibur" adlı kitab çox təhlükəli sayılır və onu oxuyan adamlar dəli olub ağlını itirir. Gəminin sahibi amerikalı Lafayet Ron Xabbarddır. Dünya onu 2 böyük kəşfi ilə tanıyır: dianetika və seyentologiya. Xabbard ABŞ-ın Hərbi Donanma zabitidir. Vaxtilə elmi fantastik romanları ilə də tanınırdı. Müharibə vaxtı o, yaponlarla döyüşdə yaralanıb klinik ölüm keçirir. Onu həyata qaytarırlar, amma o, hamıda olduğu kimi huşunu itirməmiş və klinik ölüm zamanı yaşadıqlarını hamısını xatırlayırdı. Xabbard müharibədən sonra insanın əsəb sistemi barədə çox düşünürdü. Bu düşüncələr onu yeni nəzəriyyəyə gətirib çıxardı. Dianetika adlı nəzəriyyə ortabab amerikalının ağlını əlindən almaq üçün yaradılmış psixoanaliz növüdür. Axı amerikalılar "özün düzəlt" seriyasından

olan təlimləri çox bəyənirlər. Dianetikanın ümumi nəzəriyyəsi Freydin dediyi kimi təhtəlşüurun olmasını qəbul edir. Xabbardın təhtəlşüurluğuna görə biz özümüz də bilmədən çoxlu səhvlər edirik. Çünki sözün qüdrətindən çıxmağa qadir deyilik. Xabbardın fikricə şüuraltı qat insanda hələ embrion olduğu vaxtlarda formalaşır. Yəni ki, hamilə qadına "Sən nəsə sola çox dönürsən aaa" demək kifayətdi ki, uşaq doğulub sonradan solçu olsun. Nəzəriyyə iddia edir ki, insan beynini "artıqlıq"lardan azad edəndən sonra "təmiz" subyekt qalır. Bu subyekt bütün komplekslərdən azaddır və fölqəlinsan yaranışı üçün bir cücərtidir. Xabbardın bu fikirləri "Dianetika" adlı kitabda toplanıb. Bu kitab işıq üzü görən kimi bestsellerə çevrildi.

Xabbard yeni nəzəriyyəsini əvvəl arvadı üzərində təcrübədən keçirdi. Yoldaşı "təmiz"lənən kimi boşanma tələb etdi və onlar ayrıldılar. Sonra təcrübə altına yaxın dostu düşdü. Həmin nəzəriyyə onları da təmizlədi. Amma təmizlənən kimi dostu arvadını qətlə yetirib sonra intihar etdi. Bundan sonra dianetikanın məşhurluğu artdı və 1955-ci ildə bu cərəyana qoşulan minlərlə adam vardı. Amma kimisə tam sağaltmaqdan söhbət getmirdi. Dianetikanın müəllifi alınan nəticələrin səhvlərini tədqiq etdikdən sonra yeni, siyentologiya adlı nəzəriyyəsini işləyib hazırladı. Parlayıb sönən dianetikadan sonra yavaş-yavaş inkişaf edən siyentologiya 1971-ci ildə insanları narahat edə bilən iri bir cərəyana çevrilmişdi. Bu cərəyanın pulu həmişə vardı və naməlum mənbədən maliyyələşdirilirdi. Deyirlər ki, Xabbardın öz payını kimsə çox böyük məbləğdə almışdı. Söhbət onlarla milyon dollarlardan gedir.

**Yeni nasizm, ya da mənəvi tərksilah**

Xabbard yeni kitabını yazdı. O, ən yaxın dostlarının keçmiş həyatlarını xatırlayıb bir yerə topladı. Onun xatırladıqları dediyinə görə böyük qalaktik sivilizasiyanın bir qolu olduğumuz zamanlara gedib çıxır. Hazırda biz həmin sivilizasiyanın itmiş koloniyası sayılırıq. Bütün bu xatirələr "Ekskalibur" adlı kitabda toplandı. Kitabı bir neçə nəfərə oxumağa verdilər. Onlar hamısı

havalandı, deyilənə görə hələ də özlərinə gəlməyiblər və dəlixanada saxlanırlar. Artıq nə dianetika, nə psixoanaliz, nə də dərmanlar kömək edə bilmir.

İndi siyentologiya çox inkişaf edərək artıq təhlükəli cərəyana çevrilməyə başlayır. Ona görə də okean sularında dolaşan “Ekskalibur” kitabını oxumaq istəyənlərin sayı artır. Siyentologiya davamçılarını dünya üzərində ağalıq etməkdə, insanları nəzarət altına almağa və onları uzaqdan idarə etmək cəhdlərində ittiham edirlər. Bütün ölkələr siyentologiyanı qadağan etməyə çağırır, amma heç kim bu addımı hələ ki, atmayıb. Maddi dəstəklərinin güclü olması dünya mətbuatını yazılar və reklam xarakterli məqalələrlə doldurmağa imkan verir. Onlar mətbuata bu tipli bəyanatlar verirlər: “Kimsə bizə qarşı çıxmaq istəsə biz tədqiqat aparıb həmin adamın zəif yerini aşkarlayırıq. Sonra bu məlumatları ictimailəşdirməklə onu zərərsizləşdiririk”. Bu o deməkdir ki, onların yaxşı casus sistemi var, ya da ən yaxşı şəxsi detektivlərin əməyindən istifadə edirlər. Artıq bu cərəyanı yeni nasizm, bəzən mənəvi tərksilah edilmə də adlandıranlar var. Onlar təkidlə cərəyana təkan vermiş və artıq lənətlənmiş elan kitablarını gizlədirlər. Siyentologiya kursları bahalı deyil və hər kəs üçün rahat əldə ediləndir. Burada söhbət yer kürəsində hələ atılmış koloniya olmamışdan əvvəl baş verənlərdən danışılır. Söhbət 72 milyon il əvvəllərdən gedir.

### Professor Filipovun işi

1903-cü ilin oktyabr gecəsi rus alimi Mixail Filipovu öz laboratoriyasında ölmüş tapdılar. Onu çar mühafizəsinin əmriylə öldürmüşdülər. Polis alimin bütün kağızlarını və onun 301-ci nəşri olacaq kitabının əlyazmasını da götürdü. İmperator II Nikolay bu məsələni şəxsən özü tədqiq edəndən sonra bütün laboratoriya və bütün sənədlər yandırıldı. Kitab “Elm vasitəsilə inqilab etmək, yaxud müharibələrin sonu” adlanırdı. Bu sırf nəzəri əsər deyildi, çünki Filipov dostlarıyla yazışır və nailiyyətlərini onlarla bölüşürdü. Gizli polis təbii

ki, məktubları açıb oxuyur və hər şeydən xəbərdar idi. O, yazırdı: "Mən qısa dalğalar vasitəsiylə partlayışın gücünü uzaq məsafəyə ötürməyi bacarıram. Ona görə də Moskvada partlamış dinamitin bütün partlayış gücünü məsələn Konstantinopola ötürmək mümkündür. Söhbət min kilometrlərdən gedir. Belə silahın tətbiqi ona gətirəcək ki, bütün xalqlar ayağa qalxacaq və müharibələr mənasızlaşacaq". Əlbəttə, imperator bu tipli təhlükəyə qarşı etinasız dura bilməzdi. Filipov zamanının zəkalı alimlərindən biri idi. O, etiqadına görə marksist idi və dövrünün inqilabçılarıyla sıx ünsiyyət saxlayırdı. 45 yaşında öldürülmüş alim bütün ömrünü elmə həsr etmişdi.

Filipov balaca emalatxanasında radio dalğaları öyrənir və balaca maliyyə köməyilə oradaca təcrübələr qoyurdu. Amma onu öldürməsəydilər onun kəşfi birinci dünya müharibəsində ola bilər Avropanın bütün böyük şəhərlərini, bəlkə də Amerikanı məhv edə bilərdi. İkinci dünya müharibəsində isə Hitler bu kəşfdən yararlanaraq İngiltərəni, Amerika isə Yaponiyanı yerlə-yeksan edərdi. Bu mənada hamının elliklə günahkar bildiyi imperator Nikolaya bəraət qazandırmaq olar. Çünki söhbət bəşəriyyətin xilasından gedirdi. Müasir elm artıq etiraf edir ki, həddən artıq təhlükəli olmağa başlayır. Söhbət elmi təcrid etməkdən, alimlərlə hərbçilərin əməkdaşlığını qırmaqdan gedir. Axı mövcud rejimdən narazı bir dəstə adam evindən çıxmadan Parisi, ya da Nyu-Yorku partlada bilirsə onda dünyada xaos başlanar. Filipov Qorki ilə məktublaşmalarında enerjinin uzaq məsafələrə ötürülməsindən və bununla da enerjidən qıtlıq çəkən ölkələrin təchizatından danışırdı. O, kəşfinin hərbçilər tərəfindən işlədiləcəyini ağlına da gətirmirdi. İnqilabçı sadəlövhlüyü ilə o, əziyyət çəkən xalqların azadlığını bunda görürdü ki, xalqlar ayağa qalxıb zülmkarları bu silahla devirə biləcək.

Müasir insan biliyin təhlükəli olması fikriylə razıdır. Məsələn, Riçard Nikson mikrob və viruslardan istifadə edən bioloji silahların bütün ehtiyatını məhv etmək əmrini vermişdi. Amma o, həmin sahənin arxivlərini də məhv etmişdimi? Bəlkə bir gün amerikalı alim yolunu azıb öz işini detallarıyla təsvir etdi və adi vətəndaş Riçi Kalderin "qiyamət gününün mikrobu" adlandırdığı

mikrobu hazırlamağın yolunu bildi? Unutmaq olmaz ki, bu gün hər kəs minimal xərclə Küri, ya da Pasterin arzulaya biləcəyi laboratoriyanı evindəcə quraşdıra bilər. Bəziləri təhlükəli narkotikləri evdə hazırlayır. Bəlkə həmin üsulla kimsə Filipovun işinin təsvirini oxuyub detalları mağazadan alaraq aparatı quraşdıraraq bəyənmədiyi adamları kreslosundan qalxmadan partladacaq? Kimsə atom bombasını pit-pitlə yanan qaz plitəsində hazırlaya biləcəksə bunun qarşısını almaq mütləq lazımdır, azı bəşəriyyət öz-özünü məhv edə biləcəyini anlayana qədər.

**İkiqat spiral**

Professor Gunts D. Uotsonun "İkiqat spiral" kitabını hər hansı kitab mağazasından tapmaq olar. Amma bu kitab qarğınmış kitablar silsiləsinin tamamlamağa layiq kitabdır. Əvvəl onu kimsə nəşr etdirmək istəmirdi. Sonra bu barədə susmağa üstünlük verdilər. Professor Uotson 1950-ci ildə İndiana universitetində doktor dərəcəsini qazanıb, Kopenhagendə, Kembricdə işləyib. 1962-ci ildə o, Frensisi Krik və Moris Uilkinslə birlikdə Nobel mükafatını bölüşdülər. Onların birgə səyi nəticəsində insan DNT-nin molekulyar strukturu, ikiqat spiral prinsipi açılmışdı. Bu, keçən əsrin ən vacib kəşfidir. Bu genetik kodun şifrəsini oxumağa imkan verdi və bununla da irsi faktor, mutasiyalar vasitəsilə insan şüurunu nəzarət altına almaq imkanı yaratdı. Alimlər bir ağızdan dedi ki, "Biz son 20 ildə fizikada hidrogen bombasından başqa bir şey tapa bilməmişdik deyən hələ ki, azadlıqdayıq. Amma molekulyar bioloqları dəmir barmaqlıqlardan bayıra buraxmayacaqlar". Əlyazmanı sonacan oxuyanlar hiddətindən bilmirdi ki, neynəsin. Çünki kitabda Uotson elm aləmini həqiqət axtaran nurlu insanlar kimi yox, bir-birinin ayağının altını qazıyan quldur yığıncağı kimi göstərmişdi. Bir ingilis jurnalında belə bir tənqidi yazı çıxdı: "Sizin üçün keşişə pornoqrafik kitaba rəy yazdırmaq alimə "İkiqat spiral" kitabı barədə danışmaqdan daha asan ola bilər".

Belə ciddi iddiaları olan kitabın müəllifi onu yazanda cəmi 25 yaşındi idi. Başqa zamanda, başqa siyasi durumda bu kitab heç işıq üzü görməyəcəkdi də. Sovet rejimində yaşasaydı Uotsonu genetik Vavilov kimi sürgün düşərgəsində öldürəcəkdilər.

**“Biz həyatın sirrini tapdıq”**

Müəllif öz əsəri ilə bəzi oturuşmuş ştampları qırmağa nail olmuşdu. Sən demə 2-3, özü də tam ali rütbəsi olmayan alim birləşib zamanın ən vacib kəşfini edə bilərmiş. Hesablamalarsa çox sadə üsulla aparılmışdı. Konstruksiyanı isə adi mexanik quraşdırmışdı. Müəllif cavan olduğundan zamanının ən qorxulu silahını kəşf etdiyini də ağlına gətirə bilmirdi. Axı insan DNT-sini dəyişdirməklə insanları yaxşılaşdırmaq da, mutasiyaya uğradıb gerilətmək də olar. Uotson isə sadəcə “Biz həyatın sirrini tapdıq” deyirdi. Əsərin ictimailəşməsindən illər keçsə də, genetika çox irəliləsə də hələ də “Bəzi şeylər var ki, onları bilməyin özü təhlükəlidir” deyənlər var. Müasir genetiklərsə əksinə, irəli getməyin düzgün olduğunu düşünür. Nobel mükafatı laureatı Nirenberq yazırdı: “Düşünürəm ki, 15 ildən sonra mən insan hüceyrəsini sintetik vasitələrlə, hüceyrəni isə bakteriya vasitəsilə 5 ildən sonra proqramlaşdıra biləcəm”. O, bunu 1969-cu ildə yazırdı. Kəşfdən sonra planlar cızıldı: 1971-75-ci illər arası orqanların transplantasiyası, kolbada uşaq yetişdirmək, uşağın cinsini seçə bilmək, klinik ölümün sonsuzluğa qədər uzadılması, narkotiklər vasitəsilə şüurun dəyişdirilməsi və arzuların nəzarət edilməsi, yaddaşın silinməsi, sintetik viruslar yaratmaq planlaşdırılmışdı. İkinci fazada 2000-ci ilə qədər şəxsiyyətin dəyişdirilməsi məsələsi, yaddaşın silinməsi, cavanlığın uzadılması, heyvanların çilik yoluyla artırılması, insan və heyvanın hibridi yaratmaq nəzərdə tutulmuşdu. 2000-ci ildən sonraya isə qocalığın ləğvi, tam yararlı orqanizmlərin yaradılması, bədəndən ayrı beyin yaradılması, insanın çilik vasitəsilə artırılması, insan-maşın hibridi və ölümsüzlük qalırdı. Bu siyahını oxuyanda ilk əvvəl “Onlar cürət etməz!” fikrini düşünürsən. Amma proses artıq işə düşüb. Alimlərin gələcək planları

siyahısını oxuduqda bəşəriyyətin bu kəşflərdən sonra da salamat qalmaq şansının azaldığını düşünürsən. Biz bilirik ki, o vaxt planlaşdırılmış işlərin çox az hissəsi həyata keçib. Ola bilər Allahın da bu məsələylə bağlı fərqli planları varmış.

Bəşəriyyət tarixinə nəzər salanda bizdən əvvəlki sivilizasiyaların olması və onların da elm və texnika ucbatından məhv olması qənaətinə gəlirsən. Tarixdən də qədim olan Ənənələrin olduğu və bu ənənələrin gizli mənbələrdə gizlədildiyi barədə yetərli qədər məlumatlar var. Ola bilər hansısa ucqar bir yerdə tozlu manuskriptlərin içində insan DNT-nin strukturu yüzilliklərdir ki, yatır. Əhalidən informasiyanı bilərəkdən gizlətmə inkvizisiya, faşizm, lısenkovşinada da özünü göstərir. Medvedyevin "Lısenkonun yüksəliş və süqutu" adlı kitabın müəllifini əsər qarışıq lənətləyib sağlam ikən dəlixanaya salmışdılar. Lısenkonun əmriylə sovet genetikləri ömrünü sürgündə və düşərgələrdə bitirdilər.

**Ulduzların işığı Qız qalasına da düşür**

1943-cü və 1945-ci illər arası İtaliyada Mussolininin başçılığı ilə bir dövlət fəaliyyət göstərirdi. Bu dövlətin tarixi barədə biz Üçüncü Reyx, Hitlerin özü qədər müəmmalıdır. Mussolini də ətrafını müşavirlər, qara maqlar, cadugərlərlə doldurmuşdu. Onların əksəriyyəti hələ də sağdı. Diffamasiya qanunu onların adını çəkməyə icazə vermir. Onlardan ikisi faşistlərin təşkil etdiyi dəstənin tərkibində idi. 1944-cü ildə onlar Neapolun Kral elmi cəmiyyətinə məxsus 80 min kitabı məhv elədilər. Bura çoxlu magik sənədlər vardı ki, onların ələ keçməsindən narahat idilər. Burda həmçinin müasir zamanda Mussalininin əmriylə aparılmış tədqiqatlar barədə də yazılar vardı. Onlardan yalnız biri şifahi şəkildə bizə gəlib çıxıb. Maqlar xüsusi teleskop vasitəsilə suya ulduzlardan gələn işığı yönəldir və bu üsulla Sirius, Veqa, Antares, Aldebaran suyu əldə edirdilər. Sonra həmin suda xüsusi hissiyyatı olan maddələr kristallaşdırırdılar. Ulduz işığının təsiriylə suda alınan duz

kristalları həmin ulduzların ezoterik ədəbiyyatda qəbul edilmiş simvollarıyla eyni olurmuş.

Bizim ərazilərdə də bu tip təcrübələrin olmasını təsdiqləyən sənədlər əlbəttə ki, qalmayıb. Amma Xəzər sahilində dayanan Qız qalasının quruluşu elə məhv ulduz işığının suya salınması işinə xidmət edirdi. Qalanın dibində su dolu quyu vardı və qalanın içi boş idi, mərtəbələri yox idi. Ərazilərdə yaşayan maqlar müəyyən günlərdə magik rituallar keçirərək elmi məlumatları müasir insanlara qəribə gələn üsullarla alırmış. Həmin bu simvollar memarlığa, kitablara, ən əsası isə xalçalarımıza köçüb. Yəni xalçalar bizim milli elmi nailiyyətlər ensiklopediyamızdır. Xalçaları ki, əlimizdən alıb yandıranlar hələ ki, yoxdur…

## Sükut qalası, yoxsa balaca kosmos?

Xəzərin sahilində bir qala var. O qədər sakit, dinməzcənə dayanıb ki, ona sükut qalası da deyə bilərdik. Minilliklərdir ki, onu sökürlər, amma tam dağıda bilmirlər, sonra guya bərpa edir, yeni görkəmə salırlar, adına min əfsanələr qoşurlar, o isə dözür və dinmir. Məğrurcasına sahildən bir az aralı dayanıb yenə də əvvəlki kimi öz sirrini kimsəyə danışmır. Amma bizimçün, Xəzər sahilində yaşayıb onun sehrində qidalanan insanlar üçün Qız qalası barədə danışmamaq günahdır. Bizim Qız qalası haqqında biliklərimiz özünü qaladan tullamış qız barədə əfsanədən uzağa getmir. Bu əfsanənin ucbatından həya edib Qız qalası barədə bütün dünyaya car çəkə də bilmirik. İlk milli biletimiz – Əfrasiyab Bədəlbəylinin “Qız qalası” baletini səhnələrdə görə bilmirik. Amma bu qalaya bir dəfə nəzər yetirmək kifayətdir ki, onun şah iqamətgahı olmadığını anlayasan. Heç kim iddia edə bilməz ki, qədimdə insanlar belə bir möhtəşəm tikintini sadəcə “ürəyim belə istədi” deyib tikə

bilsin. Qalanın divarlarına o qədər daş və əhəng sərf edilib ki, bu tikinti materialı ilə bütün şəhəri hasarlamaq olardı. Bəs Qız qalası hansı məqsədlərə xidmət etməliymiş?

**Qız qalasının əkiz tayı**

Bir vaxtlar Bakının yaxınlığında dənizin içində qız qalasına oxşayan daha bir qüllə olub. Bu qüllə barədə Davud Axundov "Orta əsr Azərbaycan memarlığı" əsərində daha ətraflı yazır. Bakılılar bu qalaya Səbayel qalası adını veriblər. Hazırda o, suyun altındadır. Arabir su çəkiləndə onun qalıqları üzə çıxır və görünür. Qalanın çox möhkəm olduğu ehtimal edilir, çünki XIII əsrdə monqollar bu qalanı möhkəm dağıtsalar da ala bilməmişdilər. 1306-cı ilin zəlzələsindən və Xəzərdə suyun səviyyəsi qalxandan sonra həmin ada qala ilə birgə suya qərq olub. Səbayel qalasından çıxarılmış daşlar hazırda Şirvanşahlar sarayının həyətində saxlanılır. Su altında qalsaydı yəqin ki, Qız qalası da Səbayel qalasının taleyini bölüşərdi. Bizim yazının qəhrəmanı Qız qalası isə hələ ki, durur. O, sahil qayasında tikilmiş 28 metr hündürlüyü, 16,5 metr diametri olan silindrik formalı bir tikilidir. Aşağıdan divarının qalınlığı 5 metr, yuxarıdan isə 4 metrdir. Onu da deyirlər ki, Qız qalasının içindəki quyudan Şirvanşahlar sarayına gedən gizli yeraltı yol var.

**Gecə və gündüz bərabərləşəndə...**

Qalanın yaşı barədə mübahisələr hələ də səngimir. Məşhur tarixçi Sara Aşurbəyli Qız qalasının tikilməsini eramızın ilk əsrlərinə aid edir. M.A. Nəbiyev isə qalanın eranın VI əsrində tikildiyini deyir. Davud Axundov qalanın daha qədim olduğunu və eramızdan əvvəl VI əsrlərdə tikildiyi fərziyyəsini irəli sürür. Azərbaycan memarlığı tarixi üzrə mütəxəssis L. Bretanitskiy qalanın iki mərhələdə, aşağı hissəsinin V-VI əsrlərdə, yuxarı hissəsinin isə XII əsrdə tikildiyini fərz edir. Belə bir versiya da var ki, qala əvvəl

od məbədi kimi tikilib. Dilimizdə “qala” sözü həm də od qalamaq mənasında işlənir. Qız qalasının zərdüşti daxması olması versiyası da var. Zərdüştilər torpaq, od, su və havanı müqəddəs element saydıqlarından ölülərinin torpağa basdırmır, odda yandırmırdılar. Sükut qalası adlandırılan hündür bir yerdə qoyub gedir və onları vəhşi heyvanların ixtiyarına verirdilər. Amma adı çəkilən bütün bu versiyaların demək olar ki, hamısı ciddi şəkildə tədqiq edilərkən çoxlu suallar və anlaşılmazlıqlar meydana gəlir ki, bu da Qız qalasını açılmaz bir sirrə çevirir. Fərziyyələr arasında qalanın müdafiə xarakterli olması versiyası da vardı. Amma Qız qalasının cəmi 8 pəncərəsi var. Bu pəncərələr göyə tərəf yönəldildiyindən oradan heç Qalanın aşağısında dayanan adamları görmək mümkün deyil. Tədqiqatçı Abbas İslamov daha bir maraqlı faktı üzə çıxarıb. Hər il dekabrın 22-də, gecə və gündüz bərabərliyində günəş doğan kimi əsas pəncərədən içəri işıq düşür. Sonra günəş müəyyən qanunauyğunluqla o biri pəncərələrdən içəri işıq salır. Ona görə də Qalanın pəncərələri simmetrik deyil və sanki memarlıq qanunlarını pozaraq qeyri mütənasib şəkildə açılıb. Bütün pəncərələr dənizə baxır. Qala Günəş kutlu ilə bağlı tikilibsə bunun daha qədim inanclara söykəndiyindən xəbər verir. Amma hazırda biz günəşin Qalaya düşən şüalarıyla bizə nə deyəcəyini bilə bilməyəcəyik. Çünki ötən əsrin 60-cı illərdə aparılan təmir işləri zamanı Qız qalasında əzəldən olmayan mərtəbələr tikilib. Pəncərələrdən düşən işığın qədim divarlarda nə yazdığını da görməyəcəyik.

**7 rəngli alovun işığı**

Memar Davud Axundov 1980-ci ildə müdafiə etdiyi doktorluq dissertasiyasında sübut etməyə çalışır ki, Abşeronun cənubunda təbii qaz olduğundan bu məbədləri e.ə. XIX-VII əsrlərdə Midiya, Xarəzm, və Abşeron ustaları tikəndən sonra Hindistan, Midiya, Babilistan və Xarəzmdən gələn atəşpərəst zəvvarların müqəddəs ibadətgahı olmuşdur. D. Axundov iddia edir ki, Qız qalasının kəlləsində lap qədimdə 7 baca inşa edilib. Binanın kəllə hissəsi sonralar dəyişdirildiyindən indi həmin bacalardan heç bir əlamət

qalmayıb. Qədim zamanlarda məbədin altından çıxan təbii qaz saxsı boru vasitəsilə məbədin 7 bacalarına qaldırılıb orada yandırılarmış. Bu məbədin 7 müqəddəsinə həsr edildiyi üçün hər birinin şərəfinə məbədin girişindən sağdakı divarında, ayrı-ayrı mərtəbələrdə, bir-bir yerləşdirilmiş 7 qurbangah taxçası qoyulmuşdu. Nəzirlər bu taxçalara qoyularmış. Qaz boruları bu taxçalardan keçib bacalara qalxarmış. Bacalarda qoyulmuş müxtəlif metal duzları imkan verirmiş ki, bacalardan rəngli alovlar çıxsın. Bu rəngli adovlar gecə vaxtı əzəmətli məbədə ecazkar görkəm verərmiş. Əbədi odların üstündə tikilmiş Qalanın işığını minlərlə kilometrdən görmək olurdu.

**Balaca kosmos**

Qız qalası Günəş sistemini kiçik modelidir. Onun 9 pəncərəsi var (hazırda 8-dir, çünki "restovrasiya" zamanı pəncərələrdən biri qapadılıb), bu bizə məlum planetlərin sayına uyğundur. Pəncərələrin asimmetrikliyi göy cisimlərinin ziqzaqvari trayektoriyasını təsvir etməsiylə bağlıdır. Ən böyük pəncərə ən böyük planet Yupiteri təmsil edir. 7-ci pəncərə isə T hərfi şəklindədir. Məlumdur ki, 7-ci planet olan Uran yanpörtü şəkildə fırlanır. Ona görə də başqa planetlərə nəzərən perpendikulyar pozadadır. Qız qalasının ən üst mərtəbəsi göyün 7-ci qatını simvolizə edir. Qalanın hündürlüyü 28,7 metrdir. Bu Günəşdən Urana qədər olan məsafəni -28 700 milyon km. - simvolizə edir. Beləliklə Qız qalası minilliklər sonra kəşf ediləcək astronomik bilikləri özündə cəmləşdirib. Diqqət yetirilsə batıq və çıxıntı şəklində görülmüş hissənin 31(30) zolaqları asanlıqla saymaq olar. Bu ayın günlərini də göstərə bilərdi. Dayaq divarının cumub və şərq tərəfindən zolaqlar sayılsa onların 24 olduğunu görərik. Bu, sutkada saatların sayını da bildirə bilər. Abidənin cənuba baxan pəncərələrinin 4 olması fəsilləri, mərtəbələrə qalxan pillələrin 12 olması isə ilin aylarını göstərir. Keçmiş zamanlarda ulduzlar indikindən fərqli düzülmüşdü. Qız qalasının bir qrup ulduza nəzərən tikildiyini fakt kimi qəbul edəndən sonra ulduzların

yerdəyişməsini nəzərə alaraq onun dəqiq yaşını təyin etmək olar. Onda bilinər ki, Qız qalası XI əsrdə yox, ən azı 3 min il bundan əvvəl tikilib.

**Suyun Allahla sazişi**

1960-cı illərdə edilmiş üzdəniraq bərpa işləri (Mimikonov adlı memarın başçılığı altında) qalanın quruluşunu tam dəyişərək onun nə üçün tikildiyini sübuta yetirən dəlilləri sıradan çıxardı. Amma qala boyunca yuxarıdan aşağıyadək uzanan bişmiş gildən olan borular qırılsa da indiyədək saxlanılır. Hazırda qalanın elektrik xətləri onun içindən keçir. İndiki mərtəbələr də "bərpa" zamanı tikilib ki, qalanın müdafiə xarakterli olduğunu sübuta yetirə bilsinlər. Amma bərpadan qabaq mərtəbələrin yerində 80 sm enində dairəvari çıxıntılar vardı. Onların içindən suyun axması üçün novçalar keçirdi və həmən gil borulara tərəf yönəldilmişdi. Bu axurlar qalanın içindəki temperatur fərqindən yaranan atmosfer suyunun borulara tərəf axması üçün nəzərdə tutulub. Gil borunun əsas funksiyası qalanın başındakı səma suyu - yağış, qar (yəni insanla təmasda olmamış su) eləcə də qalanın içində şeh şəklində yaranan təmiz suyu toplayıb qalanın quyusuna yönəltməkdir. Qala dəniz kənarındadır və burda nəmişlik çoxdur. Bu su ayinlərdə istifadə edilirdi. İndi bu quyuda su yoxdu, çünki quyunun suyu həmən gil borular vasitəsilə yığılırdı.

Qədim dövrün müdrikləri düşünür ki, Yaradan bütün həyatın ssenarisini suya danışıb, suya tapşırıb. Dinlərin demək olar ki, hamısında ibadətdən əvvəl yuyunmaq, dəstəmaz almaq və böyük bayramlar zamanı yeməyi su ilə salavatlamaq ritualı da var. İnsanın suya qarşı münasibəti ona sağlamlıq gətirə də bilər, onu öldürə də bilər. Çünki suyun yaddaşı var. Məbəddən götürülmüş suyun strukturu altıguşəli ulduz formasında olur. Ən təmiz su insanla təmasda olmayan sudur. Bəlkə Qız qalasını tikən əcdadlarımız bunu bizdən daha yaxşı bilirdi? Bir sufi əfsanəsində belə deyilir: müdriklərdən biri öncəgörməlik edir ki, gün gələcək dünyada su yoxa çıxacaq. Yalnız xüsusi olaraq yığılmış sudan

başqa içməli su heç yerdə olmayacaq. Sonra su yenidən qayıdacaq, amma onu içən hər kəs ağlını itirəcək. Yalnız bir nəfər müdrik kişinin sözünə baxıb su eytiyatları yığır. Su yoxa çıxan gün o, yalnız öz ehtiyatında olan sudan içirmiş. Sular kəhrizlərə, quyulara qayıdanda hamı hərisliklə sudan içdi və havalandı. Təkcə həmin kişi öz suyundan içirdi və hamı onu dəli adlandırdı. Səbri tükənən gün kişi bütün ehtiyatını torpağa töküb hamının içdiyi sudan içdi və hamının dediyi kimi "ağıllandı" ... Qız qalasının düz yanında qayada ovulmuş daş qəbrin izləri görünür. Bilinir ki, onun içini sonradan doldurublar. Bəlkə bu elə həmən kişini qəbridir?

**Müqəddəs Varfolomeyin son ünvanı**

Qız qalasının yaxınlığında müqəddəs Varfolomey kilsəsinin qalıqları yerləşir. O, İsa peyğəmbərin 12 həvarisindən biri idi. Belə bir fikir var ki, həvari Varfolomey dərin kök salmış atəşpərəstlik ənənələri olan kahinlər şəhəri Barukda (Bakıda) xristianlığı təbliğ etdiyi üçün 71-ci ildə Qız qalasının qarşısında İsa Peyğəmbər kimi edam edilib, çarmıxa çəkilib və dərisi soyulub. Bu barədə məlumatı VII əsrin məşhur tarixçisi Moisey Kalakantuyskidən də oxumaq olar. Sonralar onun edam edildiyi yerdə alban kilsəsi tikilib. 1892-ci ildə Qız qalası yanındakı qədim məbədin yerində Varfolomey kilsəsi tikilib. Lakin Sovet dövründə bu kilsə başqa kilsələr kimi dağıdılır.

Əgər bu mənbələrə inansaq deməli əsrimizin 71-ci ilində Qız qalası artıq öz yerində durmuşdu və atəşpərəst məbədi kimi tanınırdı. Amma bu mövzuda apardığımız bütün axtarışlar yenə də erməni müdaxiləsinə tuş gəldi. Bütün mənbələrdə xristianlığı qəbul etmiş Albaniya əvəzinə qədim Armeniya yazılmağı bir yana, Bakının da qədim erməni şəhəri olması xüsusi qeyd olunur. Bəzi yerlərdə şəhərin adı Albane, bəzən isə Albanepolis, Abanopolis kimi verilir. Amma bundan əvvəl şəhərin vəhşi camaatı, həvarinin dərisini soyan qansız bütpərəst adamlar təsvir edilir, sonra buna baxmayaraq şəhərin xristianlığı çoxdan qəbul etmiş ermənilərin şəhəri olması abırsızcasına təkid

edilir. Müqəddəs Varfolomeyin qalıqlarını qalay qaba yerləşdirib suya buraxırlar. Qalay qab üzərək Sitsiliya yaxınlığında Lipari adasından çıxır. Xəzər dənizinə buraxıldıqdan sonra bu qabın suya batmayıb üzə-üzə (?) Aralıq dənizindən çıxmasına inanan xristianlar yəqin ki, Bakının da erməni şəhəri olmasına eyni cəhdlə inanırlar.

## Qız qalası – qədim şəhərin daha bir sirri

*Bakının simvolu sayılan qala daha nələr gizləyir?*

Dünyanın heç bir yerində analoqu olmayan Qız qalasının ən azı 3 min il yaşı var. Onun əsil məqsədini izah edərkən bütün tədqiqatçılar çaş-baş qalırlar. Çünki forması və ölçüsünə görə qeyri-simmetrikdir və horizontal zolaqlarla örtülüb. Ola bilər ki, müxtəlif dövrlərdə Qız qalası müxtəlif məqsədlərə xidmət edib. Ölkəmizin tarix və memarlığının unikal nümunəsi olan Qız qalası təkcə dini, müdafiə və elmi (astronomik) baxımdan deyil, həm də ekzoterik baxımdan əhəmiyyətlidir. Ona görə də Qız qalası barədə çoxlu rəvayətlər var. Qala ilə bağlı əfsanələrin əksəriyyəti qız kəlməsilə bağlıdır. Onun alınmaz, bakirə olmağına işarədir.

**Nostradamus Bakı qalası barədə**

Bütün dünya Nostradamusun öncəgörməliklərindən danışır və onun yazıları hələ də tədqiq edilir. Azərbaycanlı riyaziyyatçı Vaqif Ələkbərov bu mövzuda maraqlı tədqiqat apararaq gözlənilməz nəticələr əldə etmişdir. 20 ildən artıq apardığı tədqiqatlar, tariximizdə açılmamış qalmış bəzi məqamları işıqlandırmaq istəyi tədricən hobbiyə çevrilsə də onun adı elmi dairələrdə yaxşı tanınır. Vaqif Ələkbərov da Qız qalası ilə bağlı maraqlı müşahidələr aparıb və Nostradamusun "Senturiya"sının mətnində eyni sözlərin təkrarını vurğulamaqla "Qala" sözü ilə bağlı bəzi sətirləri aşkarlayıb.

"Buka qalası barbarların cəngəlliyindən qorxacaq" (1.28), "Dənizdəki qala 3 dəfə əldən ələ keçəcək" (3.01), "Mars qalanın ən böyük pəncərəsində olacaq" (5.42), "Böyük Neptun qalanın böyük pəncərəsindən görünəcək" (3.01) Buka sözü Nostradamus üçün xarakterik olan anoqramma, yəni hərflərin yerini dəyişmə üsuluyla tədqiq edilsə Baku sözü rahat alınır. Cəngəllik dedikdə ola bilər qalanın ağac gövdəsinə oxşaması nəzərdə tutulur. Axı onun içi ağacın özəyi kimi boşdur və divarları bayırdan ağac qabığı kimi zolaqlıdır. Şeirlərdə Günəş sistemi planetlərinin Qız qalasının pəncərələrinə uyğun gəlməsi bir daha tasdiqlənir. Qalanın yarıyacan zolaqlı olması bir qədər qəribədir. Bu faktı tədqiqatçıların heç biri izah edə bilmir. Nostradamusun adıçəkilən katrenində deyildiyi kimi Qalanı ağaca bənzətsək və planetlərin Günəş ətrafında hərəkət müddəti ilə müqayisə etsək, Qalanın zolaqlarını sanki ağacın yaşını təyin edən halqalar kimi qəbul edə bilərik. Günəş sistemində ən uzaq planet olan Pluton ən uzun perioda malikdir – 247, 7 il. Qız qalasını tikən memarlar da həmin rəqəmləri işlədiblər. 24 tam halqalı zolaq və 7 yarımçıq çıxıntı. Bu 3 rəqəm zərdüştilikdə də müqəddəs sayılırdı. Zərdüştilər sudrə adlanın ağ köynək geyər və onu 4 düyünlə bağlayardlar. Kuşti adlandırılan kəmər özü isə 72 ipdən hörülərdi. Rəqəmlərin üst-üstə düşməsi adamı heyrətləndirir. Müqəddəs Quranın da Fussilət (Müfəssəl izah edilmiş) surəsini islam teoloqları Günəş sisteminin şifrəli illüstrasiyası kimi və qazvari dumandan əmələ gəlməsinə sübut kimi sitat gətirirlər: "9- (Ya Peyğəmbər!) De: Doğrudanmı siz yeri 2 gündə yaradanı inkar edir və Ona şəriklər qoşursuz? 10 – O, yer üzündə möhkəm durmuş dağlar yaratdı, onu bərəkətli etdi və (Allahdan ruzi) istəyənlər üçün bərabər olaraq orada yer əhlinin ruzisini 4 gündə (mövsümdə) müəyyən etdi. 11- Sonra Allah tüstü (duman, yerdə qalxan buxar) halında olan göyə üz tutdu (göyü yaratmaq qərarına gəldi). Ona (göyə) və yerə belə buyurdu: "İstər-istəməz vücuda gəlin!" Onlar da: "İstəyərək" (Allahın əmrinə itaət edərək) vücuda gəldik!" - deyə cavab verdilər. 12- Allah onları (səmaları) 7 (qat) göy olaraq 2 gündə əmələ gətirdi. O, hər bir göyün işini özünə vəhv edib bildirdi. Biz aşağı göyü

(dünya səmasını) qəndilərlə (ulduzlarla) bəzədik və (onu şeytanlardan, hər cür bəladan) hifz etdik. Bu yenilməz qüvvət sahibi olan, (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmü, qanunudur)!" 2, 4,7 rəqəmləri arasındaki mistik əlaqədən danışarkən yenə də Nostradamusu yada salmaq lazımdır. Onun fikricə kitabındakı hər fəsil 100 katrendən ibarət olmalı idi. Amma müasirlərinin anlamadığı səbəbdən 7-ci fəslə yalnız 42 katren daxıl edərək onu sanki natamam saxlamışdır. Ruhani quru kimi ad çıxarmış El Moriyanın ezoterik dairələrdə məşhur olan kitabının "Kosmosun 247 qanunu" adlanması da yəqin ki, təsadüfdən deyil. Ona görə də Qız qalasının zolaqlarının sayını da təsadüf saya bilmərik. Magik 2, 4, 7 rəqəmi Qalanın ölçülərində dəfələrlə rast gəlinir.

**Həyat ağacı**

Məlumdur ki, Azərbaycan ərazilərində İslam dini bərqərar olmamışdan əvvəl, Qafqaz Albaniyası, sonralar Atropatena dövləti olarkən zərdüştiliklə yanaşı xristianlıq da qəbul edilmişdi. Xristianlıq buralarda I əsrdən etibarən olduğundan xristian mənbələrində İncil kitabı formalaşan zamanlarda bu qala barədə bir şey yazılmaya bilməzdi. Dmirti Rostotskinin "Müqəddəslərin həyatı" kitabında oxuyuruq "...Albaniyanın Baruk (Bakı) şəhərində xəstələrə şəfa verən, iztirab çəkənlərə kömək edən bir qala dayanıb".

Qız qalasının zolaqlarının ağacın halqaları ilə bənzədilməsi İncilin hələ açılmamış bəzi sirlərindən birinə yaxınlaşdırır. İoann Boqoslovun "Etiraf"ında (22 fəsil) sirrli "Həyat ağacı" təsvir edilir ki, bunu teoloqlar hələ ki, şərh edə bilmir. Onun yazdığına görə bu "Ağaca xüsusi rol verilib və o, xalqların sağalmasına, şəfa tapmasına xidmət edir". İoann Boqoslovun "Etiraf"ında 4-cü "Apokalipsis" fəslində belə sətirlərə rast gəlmək olur: "Mən Taxt görürəm. Onun ətrafında daha 24 taxt da var. Hər 24 taxtda ağ geyimli qocaman oturub. Bu Taxtın qarşısında 7 od yanır ki, 7 İlahi ruhun simvoludur". Qız qalasına yandan baxanda Qafqaz Albanyası zamanı işlədilən taxta– basilevsə çox oxşayır. Həmin müəllif başqa yerdə (4-cü fəsil,

6-cı şeir) “… Taxtın qarşısında şüşə kimi dəniz kristal kimi parlayır” deyir. Yenə də 2, 4, 7 rəqəmləri. İoann Boqoslovun 4-cü fəsil, 7-ci şeirində dediyi daha qəribədir: “… və bu Taxtın yanında 4 heyvan gördüm. Birisi şirə bənzəyirdi, ikincisi buğaya. Üçüncüsü heyvan üzlü insana, sonuncusu isə uçan qartalı oxşayırdı”. Bu cümlənin arxasında məna tapa bilməyən oxucular İçəri şəhəri qoşa qala qapısı tərəfdən girməmiş başını qaldırıb Azərbaycanın qədim herbinə baxa bilər: bir-birinə baxan iki şir arasında bir buğa. Azərbaycanın xəritəsini görənlərə isə onun uçuş zamanı qartala bənzəməsini bir daha xatırlatmaq lazım deyil. Heyvana bənzər insanlar barədə isə uzun-uzadı fəlsəfi polemikaya qoşulmaq olar. Əhdi-ətiqdə də (qədim İncil) qəribə fraza var: “… Şərqdən olan qartalı göndərəcəm ki, dinlərin əzəlinə qaytarsın”. Bu xristianlar üçün “Allah təkdir, yeganədir” fikrinə qayıdışdırsa bütün dünya dinlərinin birləşəcəyi yerə işarə edilir.

**Kosmik informasiya qəbul etmək üçün vacib qəbuledici**

Ola bilər ki, Qız qalası da Misir ehramları kimi astronomiya ilə çıx bağlı olaraq şəfa verici bioenerji mənbələrindən biridir. Qız qalasının mərkəzi boş olduğundan onun ortasından enerji mübadiləsi gedir. Qala 7 mərtəbəlidir (8-ci mərtəbə torpaqda dayandığından zərdüştilər onu mərtəbə saymırdılar). İnsanın enerji sistemiylə müqayisədə onun onurğa sümüyü ətrafında yerləşən 7 enerji mərkəzi - çakrlarla müqayisə edilə bilər. Bəzən buna 7 möhür də deyilir. Vaqif Ələkbərovun akademik Qoçun biolokasiya matritsa görüntüsü metodikası ilə təcrübələr nəticəsində əldə etdiyi faktlara əsasən bu hipotez təsdiqlənir. Mərtəbələr bioenerji baxımından özünü insanın çakraları kimi aparır. İnsanın enerji sütunu- yəni onurğası sıradan çıxarsa onun sağlamlığına necə ziyan dəyə bilərsə Qız qalasının da enerji kanallarının bağlanması həmin nəticəyə gətirir. Yəqin ki, Qız qalası böyük bir enerji sistemində çox vacib funksiya daşıyır. Söhbət bütün yer kürəsinin enerji-informasiya sahəsindən də gedə bilər. Anomaliyalar mərtəbə arasında dəliklərin tam bağlandığı yerlərdə daha aydın müşahidə edilirdi. Bu ekstrasens qrupunun apardığı

təcrübələr nəticəsində məlum oldu ki, bütün mərtəbələri keçib Qız qalasının başına çıxmış adamın enerji kanallarında aydın sezilən dəyişikliklər əmələ gəlir. Sağlamlıq xətrinə bura gələnlər Qalanın içində 2 saata qədər olmalıdır ki, müəyyən nəticələr üzə çıxsın. Bu da ki, Qalanın quruluşunda sonradan aparılan tikinti işləriylə bağlıdır. Olmayan mərtəbələrin tikilməsi sağlamlaşma prosesinin qarşısını alır. Manfred Dimdenin "Piramidaların şəfaverici qüvvəsi" kitabında da Yerin biosahəsi ilə enerji mübadiləsi prinsipləri və onların müəyyən nöqtələrdə olması təsvir edilib. Ola bilər ki, Qız qalası da belə nöqtələrin birində quraşdırılıb və o da Misir piramidaları kimi şəfaverici funksiya daşıyır.

**"Qalanın başında durub şərqə doğru baxın"**

Qız qalasında 2005-ci il mart-aprel aylarında aparılan tədqaqatların nəticəsində maraqlı nəticələr alınmışdır. Qız qalasına çıxmamışdın əvvəl və sonra təcrübə keçən adamların biosahəsi lokator vasitəsilə ölçülmüşdür. Qalaya çıxıb düşəndən sonra açıq-aydın dəyişikliklər müşahidə edilmişdir. Qız qalasının başına çıxmış bir qrup ekstrasens cənub şərq tərəfdə altıguşəli oval forma müşahidə ediblər. Moskvalı bioenergetiklər Qalanın enerjisini tədqiq edərkən avadanlığın sıradan çıxmasını görəndə heyrətlərindən nə edəcəklərini də bilmirdilər. Onlar Qız qalasını dünyanın daha bir möcüzəsi adlandırmışdılar. Qız qalasından aparılan təcrübələr bir aydan artıq çəkmişdi. Nəticələr heyrətamiz idi. Qalada olanların bioenerji baxımından gümrahlaşmasından başqa bir nəticə də əldə edilmişdi. Qız qalasının başında olarkən bioenergetiklər qalanın mühafizəkarı adlandırdıqları məxluqla kontakta girə bilmişdilər.7 ekstrasens eyni vaxtda adi adamlar üçün gözəgörünməz olan mühafizəkarın suallarına cavab verirdilər. Bu səhnəni müşahidə edənlərin heyrətinin hüdudu yox idi. Deyilənə görə bu məxluq qalanın bəzi sirlərini də açıqladı ki, eksperiment zamanı onun məsləhətlərindən istifadə edildi. Yəqin qədimdə ekstrasensor qabiliyyətli adamları kahin adlandırırdılar və onlar da qalanın mühafizəkarı ilə kontakta

girib məlumat öyrənə bilirmişlər. Deyirlər ki, Misir piramidalarında fironlar bədənlərini sağaldır və cavanlaşırdılar. Amma bunun yollarını, üsullarını yalnız kahinlər bilirdi. İndi biz də Qalanın hansı hissəsində, nə qədər, üzü hansı istiqamətə dayanacağımızı bilmirik ki, Qız qalasından yararlana bilək. Çox təəssüf ki, mübariz ateizm mövqeyində tərbiyə almış elm adamlarımız tarixi öyrənərkən bu tip informasiyaları ciddi qəbul etmirlər. Təcrübə aparan ekstrasenslər Qalanın mühafizəkarından həmişə eyni cümləni eşidirdilər: "Qalanın başında durub şərqə doğru baxın".

Nə qədər ki, Qız qalasının özəyi metal arakəsmə ilə örtülüb onun içindəki enerji də içinə qapanaraq tıxanıb. Qədim dövrlərdə insanlar bizə nisbətən ulduzlara daha yaxın idilər

Qız qalası məbəd də olub, müdafiə qalası da, mayak da. İndi o, muzeydir. Yeri gələndə döyüşmək üçün üstündə muşğulları da olub. Bəziləri onun rəsədxana olduğunu da ehtimal edir. Qız qalası 2000-ci ildən etibarən UNESKO-nun qoruğuna daxil edilib. Dəfələrlə dağıdılıb və təmir edilib. Hər təmir öz silinməz izlərini qoysa da Qalanın əsil mahiyyətini dəyişdirə bilməyib. Qız qalası hələ də insanlara qulluq edir.

# Polismen, polismen saxlama məni!

*Axı mən sürücülük məktəbində özüm oxumuşam*

Yaydı, istidi. İctimai nəqliyyatla harasa getməkçün gərək şir ürəyi yeyəsən. Avtobusda tər, üfunət iyindən adamın beyni çatlayanda hamı yəqin ki, fərdi avtomobili arzulayır. Amma hamı da bilir ki, yay gələndə qiymətlər kəlləçarxa qalxır. Ola bilər, maşın satan dükanlarda qiymətlərə endirim ola, amma sürücülük vəsiqəsinin qiymətləri heç vaxt aşağı düşmür. Ona görə də vəsiqəni özü alanlara əjdahanın ağzından qızı qoparmış qəhrəman kimi baxırıq. Vəsiqə almağın sivil yollarının olub-olmadığını gəlin özümüz araşdıraq.

**Məktəbsiz olmur!**

Əvvəla, sürücülük məktəbinə yazılmaq lazımdı. Sürücülük məktəbini oxumadan DYP-də imtahan verməyi icazə verən qanun artıq bir-neçə ildir ki, fəaliyyət göstərir. Amma bu qanundan rüşvət vermək istəməyən adamlar yararlana bilmir. Çünki sürücülük məktəbini oxumadan birbaşa imtahana gələn adamdan dövlət rüsumu 100 manat alınır. Sürücülük məktəbinin məzunları isə 5 dəfə aşağı, yəni 20 manat ödəyirlər və bu məbləğlə 1 il imtahan vermək hüququna malikdirlər. İl ərzində imtahanı verə bilməyənlər gələn il bir daha 20 manatlıq rüsumu ödəməlidirlər. Amma 100 manat ödəmiş və imtahanı özü verə biləcəyində əmin olanlar keçə bilməsə verdiyi rüsum batır və onun bir daha imtahan vermək hüququ olmur. Onu sürücülük məktəbinə oxumağa göndərirlər. Bu məsələ barədə DYP-nin rəyini öyrənmək mənasızdır. Çünki onların informasiya bazasında onlarla sürücülük məktəbini bitirməmiş və imtahanı birinci dəfədən vermiş adamların adı var. Əlində vəsiqə tutmağı arzulayanlar arasında belə bir şaiyə də gəzir ki, məktəbi bitirmədən imtahan vermək barədə qərar özü də rüşvət almağı rahatlaşdıran

qərarlardan biridir. Bu qərar pulu olan adama bir gün ərzində, daha doğrusu 2 saat ərzində sürücülük vəsiqəsi almağa imkan yaradır. Mənim kimi manata güllə atanlar isə bəribaşdan gedib sürücülük məktəbinə yazılsa yaxşıdı.

**Əlini qulağının dibindən götürmədən pul qazanmağın yolu**

Şəhərdə fəaliyyət göstərən sürücülük məktəblərinin təsnifatını aparaq. Mən onları 3 kateqoriyaya ayırdım. Birinci kateqoriyaya aid olan məktəblərin həm testlər üzrə, həm də sürmə təlimi keçmək üçün həm imkanları, həm texniki avadanlığı, həm də müvafiq müəllimləri var. İkinci kateqoriya məktəblərdə yalnız şablonu vermək üçün müəllimlər və siniflər varsa da sürmə təlimi keçmək üçün xüsusi qaydada quraşdırılmış maşınları və təlim meydançası yoxdur. Üçüncü kateqoriya məktəblər də var ki, onları mən ilğım məktəblər adlandırardım, onlar yalnız adı yazdırıb sonunda təhsil haqqında şəhadətnamə almağa yarayır. Belə məktəblərdə tədris sözünü heç dilə də gətirmirlər. Sadaladığım məktəb növlərindən başqa bir kateqoriya da var ki, bu, şəxsi sürücülük məktəbləridir və qiymətlər burda dövlət məktəblərindən dəfələrlə artıqdır. Fərdi qaydada təhsil verən və sürücülük vərdişləri, üstəlik professionallığa zəmanət verən məktəblərdə kurslar üzrə təhsil 10 dənə 45 dəqiqəlik dərsi 300-450 manat arasıdır. Bəzi kurslarda, məsələn parkovka təlimi keçən kurslarda qiymət 150 manatdır və dərs 45 dəqiqədir. Bu tip məktəbləri internetdə arayıb tapmaq çətin deyil. Reklam çarxı kifayət qədər ciddidir və bilik verəcəyində əmin edir, amma qiymətləri ortabab təbəqənin imkanına uyğun deyil. Dövlət sürücülük məktəblərinə yazılası olsaz cəmi 75 manat ödəməlisiz. Bu, bir ay yarım ərzində həftədə 3 dəfə dərsə gəlib təhsil almaq istəyənlərin verəcəyi məbləğdir. Adını yazdırıb gəlməyənlər isə məbləği fərdi qaydada müdirin kabinetində həll edir.

**2 şəkil, 75 manat pul, vəssalam, şüttamam**

Yazıldığım məktəbin adını demək istəmirəm, çünki müəyyən çatışmazlıqları olsa da şəhərin heç olmasa tədris verə bilən məktəblərindən

biridir. Adının çəkilməsi tənqid obyekti kimi qəbul edilə bilər və onu əlini qulağının dibindən götürmədən pul qazanan başqa məktəblər arasında aşağılamaq olar. Məktəbə yazılmaq üçün mühasibata yaxınlaşıb özünüzlə şəxsiyyət vəsiqəsi, onun kopyası, 2 şəkil və 75 manat pul gətirməlisiz. Müsahib qadının fikricə şəkil, ya da kopyanı sonra da vermək olar, amma pul bunların içində ən vacibidir. Qrup yığılır və sizə təyin edilmiş ilk dərs günü bildirilir. Əgər dərslər artıq başlayıbsa və sizə həmin qrupa getməyi təklif edirlərsə imtina edib növbəti qrupu gözləməyiniz məsləhətdir. Çünki onlar artıq bir neçə dərsdir ki, məşğul olurlar və siz çox vacib dərsləri artıq ötürmüsüz.

Bizim məşğul olduğumuz sinif otağı, binanın özü sovet vaxtından qalma əsaslı təmir və avadanlıqlaşdırmanın artıq nimdaşlaşmış qalıqlarıdır. Çoxdandı ki, parta arxasında oturmurdum, çoxdandı ki, taxta taburetlərin hələ də parta arxasında olduğunu görməmişdim. Əlbəttə, onları vaxtaşırı rəngləyirlər və bu rəng qatı uşaqların partada yazdıqları söyüş və cızdıqları həndəsi fiqurların üstünü örtə bilir. Amma rəng qatı adamın qoluna yapışır və hər dəfə stoldan, stuldan qalxanda pal-paltar "cıııırrrt" eləyib xüsusi səs salır. Əyin-başını yoxlamalı olursan, çünki adama elə gəlir ki, paltarın bir parçası yapışıb taxta taburetin üstündə qalıb. Sinfə ilk gəlişində məktəbin maşınla əlaqəsini hiss edirsən. İri maşın hissələri xüsusi dəmir dayaqlar üzərində möhtəşəm görkəmlə dayanıb. Divarlarda hissəcikləri qopub tökülmüş plakatlar anlaşılmayan proseslərin elmi adlarını bizə anlatır. Naşı şagirdə elə gəlir ki, tədrisin sonunda bütün bu metal hissələrin adını və yerini, maşının içindəki funksiyalarını biləcəksən. İndi, artıq məktəbi bitirəndən sonra bu fikirlər adama o qədər gülünc gəlir ki...

**Sovetlərdən qopmuş bir komet kimi**

Dərslər həftənin 3 günü axşam altıda başlayırdı. Qanuna görə saat 10-a qədər məşğul olmalıydıq. Amma dərsin vaxtını saat yarıma endirib 8-in yarısı hamını yola salırdılar. "B" və "BC" kateqoriyalı qrupları birləşdirib bir otaqda

dərs keçilsə də sinif tam dolmurdu. Müəllimin də öz narazılığı vardı, deyirdi ki, bizimlə məşğul olduğuna görə o, cəmi 95 manat maaş alır. Arabir bəzi inqilabi fikirlər də səsləndirirdi ki, əgər siz 200 manat ödəyib oxusaydız, onda mən bu gün keçdiyim dərsi sabahısı gün sürmə təlimi keçən müəllim aparıb şəhər şəraitində fərdi qaydada göstərsəydi onda təhsil tam və əsaslı olardı. "Deyim ki, imtahanı kim özü verəcək?" sualına cəmi bir neçə nəfər, özü də qadınlar əlini qaldırdı. Kişilər bu vaxt gözlərini gizlətməyə çalışırdı. Ölkədə tədris sistemi sovet zamanının plakatlarını, avadanlıqlarının qalıqlarını işlətdiyi kimi hələ də sovet dönəminin tədris üsullarının artıq milliləşmiş və korrupsiyaya bulaşmış metodikasını işlədir. 15 respublika olduğumuz zamanlar avadanlıq, plakatlar, dərs planı - hamısı Moskvadan gəlirdi və ən əsası o idi ki, oradan da nəzarət edilirdi. Yeniləşməyə ehtiyac olardısa yeniləşirdi, ya da sıradan çıxırdısa əvəz edilirdi. O vaxtın müdirləri öz müdirlərindən, onlar da Moskvadakı kuratorlarından qorxur və çəkinirdi. Ona görə də dərs prosesini ən yüksək standartlar və ən keyfiyyətli tədris materialı ilə təchiz etməyə borclu idilər. İndi bu, təkamülə vadar edən faktor artıq yoxdur. Biz öz başımızın ağasıyıq, kimsə bizə "oxumamaq və bilməmək üçün pul vermə", ya da "sən müstəqil ölkəndə ən yaxşı tədris haqqını tələb edə bilərsən" kimi məsləhətlər vermir. Bizim oxuduğumuz sinifdə bütün lövhəciklər rus dilində idi və kimsə bəzilərinin üstündən ağ kağız yapışdırıb həmin nişanın adını azərbaycanca yazmışdı. Müəllim də yumşalıb əskiyə dönmüş kartonları hər dəfə yazı taxtasına dirəməkçün əziyyət çəkir və deyəsən bir az da utanırdı. Yəqin ki, maşın hissələri də o vaxtdan qalma idi. Deyim ki, müəllimimizin qarşısındakı konspekt də onun öz etirafına görə uzun illər məktəbdə dərs demiş, təcrübəli ləzgi müəllimin konspektlərindən köçürülmə idi. Ona görə də biz, XXI əsrin tələbələri öz ölkəmizdə sınıq ana dilində və ləzgi ləhcəsində yazılmış konspektlərdən istifadə edirdik. Nəzəriyyə üzrə müəllimimiz bizə internetdə hazırlaşmamağı məsləhət bilir, çünki saytı "Allah bilir, kimlər düzəldib və məqsədi nədir?".

**Rus dilindən nə vaxt qopacağıq?**

Qəribədir, elektronlaşma, texniki inkişaf zamanında bizdə hələ də siniflərdə konspekt yazdırır və tabaşirlə yazı taxtasını cızıqlayıb aləmi ağ toza bürüyürlər. Əlbəttə, Azərbaycan dilində və yeni qanunları özündə əks edən dərsliklərimiz artıq var. Onların poliqrafiyası da yaxşıdır, müasir zamanın tələblərinə cavab verən test üsulu ilə çalışmalı da var, çeşidi də müxtəlifdir. Onları kitab mağazalarının hər birindən, ya da metro keçidlərindəki kitab köşklərindən satıcının insafına uyğun olaraq 6-7-8 manata almaq olar. Yol hərəkəti qaydalarını öyrənmək üçün onlardan ən böyüyünü, içində həm testləri, həm də qaydalar olan birisini əldə etməklə hazırlaşmaq mümkündür. Əgər Azərbaycan dilinə yad olan yazıları anlaya bilsəz. Rus dilində heç olmasa bir qədər danışıb anlaya bilirsizsə kitabları və DYP-də imtahanın dilini rusca seçin. Çünki azərbaycanca mətnləri anlamağa azərbaycanca təhsil almış və illər uzunu yazı yazmaq təcrübəsi olan bir adam kimi mən 3 ay vaxt sərf eləmişəm. İndi, yəni sürücülük məktəbini bitirmiş və 3 ay onlayn imtahanlarda çalışandan sonra verilən sualın arxasındakı mənanı artıq görə bilirəm. Səbəbi çox sadədir: kitablar və ondan daha da vacib, Yol Hərəkəti haqqında Qanunun özü rus dilindən tərcümədir, özü də çox uğursuz tərcümə. Ömründə heç olmasa bir dəfə rus dilindən tərcümə etmiş adam bilir ki, ana dilimiz və rus dili arasında cümlə quruluşu əsaslı şəkildə fərqlənir, tərcümələrdə bunu mütləq nəzərə almaq lazımdı. Azərbaycan dilində səhifənin yarısı qədərində cümlə ola bilməz, rus dilində isə mümkündür. Əvvəlki nəşrlərin müəllifi Hüseynli N.Ə və hazırkı nəşrin müəllifi Talıbov Ə. M bu faktorları qətiyyən nəzərə almayıblar. Qulaq günahkarıyam, bəzən hətta pıçıldayırlar ki, onlar tərcümələri heç özləri etməyib. Kitablardan müstəqil baş açmaq fikrindəsizsə hər cümləni azı 5 dəfə oxuyub anlamağa çalışıb, şəkillərə baxıb sonra yaddaşınıza yazın. Azərbaycanca başqa cür mümkün deyil. Müəllimimin diliylə söyləyim necə deyərlər, "hələ öz yolunun lotusudur".

Hazırda bizim yol hərəkəti qanunlarımız Rusiya qanunlarından fərqlənir. Müəllimlərimizin sözünə inansaq biz yol hərəkəti qanunlarımızı dünya standartlarına uyğunlaşdırmışıq. Amma deyək ki, bizim sürücülük vəsiqəmizi bütün dünya ölkələri tanımır. Əgər dünyaya inteqrasiya yolunu seçməsəydik rahatca rus dilində məşğul ola bilərdik. Rus dilində həm hazırlaşmağa, həm də onlayn testlərdən keçib özündə əmin olmağa onlarla saytlar var. Rus dilində az qala hər il yeniləşən proqramlar var ki, kompüterinizə yazıb həm şablona, hətta sürmə təliminə də evdəcə hazırlaşa bilərsiniz. Real şəhər şəraitində nişanlar və yollarla işarələnmiş küçələrdə təlim keçirilir və səhvlər olduqca onların izahı və səhvi aradan qaldırma yolları da göstərilir. Amma qanunların fərqli olması bəzi səhvlərə yol verir ki, sonradan imtahanda, yaxud maşın sürərkən yol polisi ilə dirəşəndə sizə mane ola bilər.

**"Jiquli"lərin zamanı hələ bitməyib!**

Bizə deyilənə görə verdiyimiz pulun 25 manatı sürmə təlimi zamanı sərf ediləcək benzinin haqqıdır. İlk dərslərdən hamı sürmə təlimi ilə maraqlanırdısa onlar, yəni təlim keçən müəllimlər düz bir aydan sonra sinfə gəldilər. Müəllimlər bu faktı sirr kimi saxlasalar da ordan-burdan soraqlaşdıq ki, təlim dərsləri 10 dərsdir. Hər dərsin neçə dəqiqə olmasını isə öyrənmək mümkün olmadı. Əlbəttə, bunu bazar qiymətinə, yəni saat hesabı 15-20 manata vurulsa bu dərslər çox əhəmiyyətli görünür. "B" kateqoriyasından olduğumuza da sevindik. Çünki "BC" kateqoriyasına elan edildi ki, sürmə təliminin hər dərsinə 5 manat benzin pulu ödəməlidirlər. Sürmə təlimini bitirəndən, köhnə, tökülmüş "06" markalı "Jiquli"ni yerdən götürməyi öyrənəndən sonra 10 dərsə sürməyi öyrənməyin mümkünsüzlüyünü anlamaq çətin deyil. Əlbəttə, 2-ci dərsdən qorxudan titrəyə-titrəyə müəllimin təkidiylə yola çıxarılmış, sonuncu dərsdə 8 kilometr bazarının probkasından keçmiş bir adam kimi dərslərin vacibliyini vurğulamasam olmur. Amma hər yarım saatlıq dərsdə azı 5 mövzunu keçdiyimi təsdiqləyən qrafada imza atırdım. İmza atdıqca mövzuların nə adını, nə də vaxtını yadda saxlamaq

mümkün olmurdu. Bildiyimə görə hər mövzuya azı 15 dəqiqə ayrılmalıdır. Sürmə təlimi müəlliminin də öz narazılığı vardı. Dediyinə görə axırıncı dəfə yanvar ayında maaş alıb. Tələbələrin sayı çox azdır deyən məktəb lazımi qədər qruplar yığa bilmir. Fərdi dərslər olmasa heç ailəsini dolandıra bilməz. Maşının əyər-əskiyini də öz hesabına düzəltməli olur.

**Hərdən qəzetçi olmaq da pis deyil!**

Ay yarımlıq zəhmətini müəllimlərim mənə halal eləsin, çünki bunu yazmasam da olmur. Məktəbi oxuduqca və xüsusilə də bitirənə yaxın belə təəssürat oyanırdı ki, hamı bizim biliyimizin natamam, qüsurlu olmasına çalışır. Çünki bütün müəllimlər ümumi mənbədən, yəni savadsız, bacarıqsız sürücülər yetişdirib onlardan pul qırpıb yola buraxmaqnan dolanır. Yəqin ki, yaxşı tələbə yetişdirəndə DYP-də onların bir az da danlayırlar. İmtahandan keçə bilməsək biz öz müəllimimizə yaxınlaşaraq məsələni yarım saata həll edə bilərik axı. Bir dərsə maşının quruluşunu bilmək mümkün deyil. 10 dərsə sürməyi öyrənmək də müşkül məsələdir. Özün məşğul olmasan həftədə 3 dəfə saat yarımlıq konspekt yazmaqla keçən dərslərdə yol hərəkəti qaydalarını öyrənmək olmur. Yolda artan qəzalar, səbəbsiz tıxaclar, dartışmalar, söyüşmələr və nadan yol polisinin yekəbaşlığı - bütün bunların səbəbi bizim oxumaq isməməyimiz və öz haqqımızı tələb edə bilməməyimizdədir. Müəllimdən nəsə soruşanda o, mütləq cavab verir və dərs keçməyə həvəslənir. Sürmə təlimi müəllimimsə o birilərini bilmirəm, mənimlə xüsusi həvəslə məşğul olurdu. Bəlkə qəzetçi olduğumu bildiyindən. Deməli, onların da qorxduğu nələrsə var, bunu unutmayın…

# Hələ doğulmamış uşağın göz yaşları

*Hər gün dünyada 21 min uşaq öldürülür*

Ananın boynuna uşaq düşən ilk gündən bətnində insan formalaşır. 18-ci gün onun balaca ürəyi döyünməyə başlayır. 6 həftədən sonra böyrəkləri, ciyərləri və beyni işə düşür. Bünövrəsi qoyulandan 10 həftə sonra o, ağrını hiss eləyir, bəyənmədiyi səs-küydən sir-sifətini turşudur. Bir az da keçən kimi başını tərpədir, əl-ayağını açıb bağlayır, qaşlarını da çata bilir. O hələ ağzını tapıb barmağını sovurur, əsnəməyi də olur. Təxminən elə bu dövrdə insanların istəyi ilə o əziyyətli ölümlə üzbəüz qalmalı olur. Uşağı parça-parça doğrayıb, hələ ölməmiş turşu tərkibli maddələrlə yandırır, qarmaq kimi dəmir bıçaqla qaşıyıb doğrayırlar. Bu səhnə şişirdilməyib, bu reallığın sadə adı var: ABORT.

**Aborta məhkum uşaqların duası anasının qarnından uşaqlarda eşidilməz...**

Müasir cəmiyyətdə abort sözü az qala artıq problemlərdən qurtulmaq, təsadüfi intim əlaqənin izlərini silmək, yaxşı işi itirməmək cəhdi kimi ifadələrlə sinonim olub. Buna heç kim "bizdən birini öldürmək" adı verib cinayət adlandırmır. Hələ doğulmamış uşaqlar görən ağlayırmı? Görəsən onlar danışa bilsəydi ata-analarına nə deyərdi? Bir çox ölkələrin qanunvericiliyi insanın yaşamaq hüququnu qoruyur, amma ana bətnində olan uşaqların hüququ heç kimi narahat eləmir.

**Biz istərdik ki, siz də biləsiz: doğulmamış uşaqlar da ağlayır!**

Ağ mələfələr, iti kəsici alətlər, qan izləri kimi döyüş meydanını xatırladan abort otağında "bizimkilər" və "sizinkilər" olmur. Müharibədə yaralanmış döyüşçü öz duasını ilk öncə anasına ünvanlayır. Təbabət insanın bətndəki dövrü barədə çox quru informasiya verir: neçə santimetr boyu, neçə qram

çəkisi və s. 18-ci günündən ananın iri ürəyinin yanında duet yaradan kiçik döyünmələri, beyni işə düşəndən sonra həssas aparatlarda izini qoyan emosiyalarını qeydə alandan sonra onun həyatının qiymətini, ruhunu necə ölçək? Məncə, bunun qiymətini illərlə həkimlərin müayinəsində, xəstəxanalarda keçirib nəhayət sonsuzluq ittihamını eşitmiş qadınlardan soruşmaq lazımdı. Bunu uşağını itirmiş analardan, müharibədən qayıtmamış oğlunu gözləyən qarılar yaxşı bilər. Biz doğulmamış uşaqlarımızı böyüklərin dəyərləriylə ölçüb yararsız sayaraq ölmə məhkum eləmişik. Aborta məhkum edilmiş uşaqların duası anasının qarnından uşaqlarda eşidilməz...

**"Uşaqlarımın ahı tutub məni"**

Kim deyə bilər ki, uşağını öldürmüş ana həyatının ardını rahat yaşayır. Onunçün canlı insan hekayətlərini eşitmək lazımdı. Onların adı, kimliyi nəyinizə lazımdı ki?...

Birinci əhvalat: (35 yaş) Cəmi bir dəfə abort eləmişəm. Cavan olmuşam, başa düşməmişəm yəqin. İkinci uşağa imkanımız yoxuydu. Bir yaşında olan oğlumdan sonra fasilə vermək fikrindəydim. Başa düşəndə ki, hamiləyəm şoka düşdüm. Abort eləyəndə qabağımı heç nə, heç bir fikir kəsmirdi. Səfilliyi artırmadığıma görə hələ bir razı qalmışdım özümdən. Amma bir neçə il sonra qəribə yuxu gördüm. Orda məni ağıllı başlı sorğuya çəkib hər şeyi başa saldılar. "Öldürdüyün oğlunu xatırlayırsanmı?" soruşub onu canlı uşaq kimi mənə göstərdilər. Onun üzünü gördüm, nəfəsini, qoxusunu duydum. O qədər hönkürüb ağladım ki, axırda öz səsimdən oyandım. İndi o uşağın üzü uzun illərdir ki, gözümdən çəkilmir. O abortdan sonra evimizin olan-qalan ruzusu çəkildi, onsuz da çətin həyatımız bir az da çətinləşdi. Axı mən bilməliydim ki, uşağı verən Allah ruzusunu da verəcək...

İkinci əhvalat: (51 yaş) Bu günə qədər 40-dan çox abort eləmişəm. Sonuncu dəfə həkimlər mənə dedi ki, bir də gəlsən, öləcəksən. Bunu yoldaşıma danışdım. O gündən bəri üzünü divara çevirib necə yatdısa bir də

mənə əl vurmadı. Bizi uşaqlarnan hara desən aparıb, adını çəkdiyim bütün istirahət yerlərində olmuşuq. Amma qadın kimi məndən üz döndərdi. Bu yaşımda isə həkimlərdə düşüb qalmışam. Şəhərdə ginekoloq qalmayıb ki, qəbulunda olmayım. Dərdimə əlac tapılmır. Bir həkim isə mənə "Yazdığım iynə-dərman hamısı boş şeydi. Get özünə bir kişi tap" deyib. Mən də yaxama "Kişi axtarıram!" yazıb vura bilmərəm. Görünür abort elədiyim uşaqlarımın ahı tutub məni...»

Üçüncü əhvalat: (21 yaş) Nişanlı vaxtı gələcək ərimlə intim münasibətim olmuşdu. Hamilə olduğumu biləndə qaynanam az qala saçımı yolacaqdı. Uşağın oğlundan olduğunu dəqiq bilsə də əlimdən tutub zorla məni aborta apardı. Toyda gəlinin qarnının burnuna dəyməsi biabırçılıq sayılırdı axı. Mənə deyirdi ki, bəs arzularım var, təmtəraqla qapılara getmək istəyirəm, bir il nişan saxlamalıyam ki, hamı görsün necə xonçalar tutacam. Hər şey o istəyən kimi təmtəraqla oldu. Amma ondan sonra uşağımız olmur. Müalicə filan heç nə kömək eləmir. Uşağımı öldürdüyünə görə qayınanamın üzünü görə bilmirəm. Bu xonçalar ona nəvəni əvəz eləyə bildi?

Dördüncü əhvalat: (45 yaş) İkinci uşağı doğmağı heç ağlıma gətirmirdim. Balaca daxmada güclə yerləşmişdik. Hamilə olduğumu hiss eləyəndə ultrasəs müayinəsinə getdim ki, dəqiqləşdirim. Dedilər ki, heç nə yoxdu, bəlkə soyuqlamısan. Bir ay gözlədim, sonra yenə də həkimə getdim. Bu dəfə həkimlər heyrətləndilər ki, burda ikiaylıq uşaq varmış. Bapbalaca yerdə gizlənməyə yer tapıbmış. Uşağı salmaqçün iynə vurdum. Elə bildim ki, uşaqdan canımı qurtardım. Bir aydan sonra yenə də həkimə getməli oldum. Məlum oldu ki, uşaq ölməyib. Yenə də sağ qalmağın yolunu tapıb. İndi isə fikirləşirəm yaxşı ki, bu uşaq sağ qaldı. Ərimi və böyük oğlumu itirəndən sonra o, mənim yeganə ümidimdir.

**Ana, məni eşidirsən?!**

Ana, mənə yaşamaq şansı ver. Mən sənin içindəyəm, ürəyinin hər döyüntüsünü eşidirəm. Sən sevinəndə mənə də atılıb düşürəm, sən

kədərlənəndə mənim də qanım qaralır. Mən sənin karyerana mane olmaram, ana! Axı mən həkimlərin dediyi kimi bir parça laxta qan deyiləm, sən bunu bilirsən. Axı onlar bilmir ki, məni öldürəndən sonra sənin də həyatında sakitliyin, rahatlığın olmayacaq. Mənim ağlamağımı sən həmişə eşidəcəksən. Çiçəkləyən, meyvə tökən bağlarda bircə mənə yer olmadı? Bütün dünyanı sevən ürəyində bircə mənim sevgimə yer tapılmadı? Başa düşürəm, sən məni planlaşdırmamışdın. Məni öldürmə, ana! Ölənlərinizi kəfən büküb torpağa basdırırsız, bəs niyə bizi odda yandırır, zibilliyə atırsız? Müharibələrdən qorxur, qan tökmək istəmirsiz, bəs niyə bizim qanımıza qıyırsız? Heç heyvanlar öz balasını öldürmür.

**Hələ doğulmamış uşağın gündəliyi**

5 oktyabr – Bu gündən yaşamağa başlayıram. Amma valideynlərim hələ bilmir ki, mən çiçəkləri çox sevən bir qız olacam.

19 oktyabr – Bəziləri elə bilir ki, mən hələ adam deyiləm. Çörəyin qırıntısı da çörək olduğu kimi mən də insanam.

23 oktyabr – Mən ağzımı aça bilirəm. İnanmağım gəlmir, bir ildən sonra gülməyi, danışmağı biləcəm. İlk sözüm mütləq "ana" olacaq.

25 oktyabr – Bu gün ürəyim döyündü.

2 noyabr – Hər gün bir az artıram, əl-ayağım formalaşır.

12 noyabr – Mənim barmaqlarım əmələ gəlib. Mən onlarla anamın saçını sığallayacam.

20 noyabr – Bu gün anam mənim ürəyimin döyünməsini özü gördü. Yəqin o, çox xoşbəxtdi.

23 noyabr – Yəqin ata və anam mənə ad axtarırlar.

13 dekabr – Mənim saçım çıxır. Bir az görməyə başlamışam. Anam məni dünyaya gətirəndə işıqlı və çiçəkli dünyanı görə biləcəm.

24 dekabr – Görəsən anam mənim ürəyimin səsini eşidir? Ana, sənin sağlam qızın doğulacaq.

28 dekabr – Bu gün anam məni öldürdü...

**“Bunu sən də istəmisən...”**

Aborta gedənlərin 15 faizi başı ilk dəfə daşa dəyən cavan qızlardı. Onlar nə əvvəl, nə sonra nəinki uşağının, heç öz taleyini də düşünmək iqtidarında deyil. Bəzən elə valideynləri özü onların əlindən tutub həkimə aparır. Başqa bir qrupa fiziki və mənəvi cəhətdən yetişmiş qadınlar aiddir. Ola bilər ki, hamiləlikdən qoruyan vasitələrin effektivsizliyindən, zorlama halları olduqda, kəskin xəstəlikdən sonra yaranan fəsadlara görə, ərinin ölmüylə bağlı, yaxud sosial şəraitin olmamasından aborta qərar verirlər. Bəzi qadınlar isə abortu hamiləlikdən qoruyan vasitə hesab edərək vaxtaşırı elə bil iynə vurdururmuş kimi çox rahat eləyir. Elə bil ki, dünyada başqa kontraseptik vasitə yoxdu. Azyaşlı uşaqlara başa salınan tərzdə bu qadınlara da bəzi qoruyucu vasitələri göstərib anlatmaq lazımdı.

Kavalerlərə gəlincə isə yeniliyi eşidən kimi əksəriyyəti sevgilisini problemiylə üzbəüz qoyub aradan çıxmağa üstünlük verir. Bəzən əlini cibinə salıb abortun xərcini çəkənlər də tapılır. Yerdə qalanı isə məsuliyyəti qadının üstünə ataraq “bunu sən də istəmisən” deyir. Deyəsən onları əməliyyat zalına dəvət eləmək lazımdı. Deyilənə görə bu səhnəni bir dəfə görənlər uzun müddət özünə gələ bilmir.

*“...kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini biz verdik”*

*(Qurani Kərim, Davar surəsi, 151-ci ayə)*

İslama görə qanuni ərindən olan hamiləliyi 40 gün ərzində pozmaq günah deyil. Amma aborta icazə verən insan və həkim də eyni dərəcədə günahkardır. Yəni ər və arvad hər ikisi razılıq veribsə də həkim ölmüş uşağa görə cavabdehdir. Hamilə qadının həyatı risk altında olanda şəriətə görə ananın xilası vacib sayılır. Zinadan doğulacaq uşağı 40 gün ərzində belə öldürmək qadağan olunur. Əgər qadını əri yaxud valideynləri aborta məcbur edirlərsə, Allahın qanunlarına zidd getmiş qadın qurrat verməlidi. Qanın bahası 5 dəvə, yaxud onun qiymətinə bərabərdir. Əgər qadın ərindən icazəsiz

dərman içərək uşağını öldürübsə bu məbləği uşağın atasına verməlidi. Ər də bu işdə arvadıyla əlbir olarsa qurrat ölənin bacı və qardaşlarına düşür.

**Abort materialından kosmetika hazırlanır**

Keçən əsrin 80-ci illərində aborta qarşı çəkilmiş "Səssiz çığırtı" adlı bir film böyük səs-küy yaratmışdı. Abortu qadağan edənlər hərəkatı qadının sosial problemlərini həll etmək və qadına qarşı mərhəmət prinsipindənsə embriona qarşı diqqəti əllərində bayraq eləmişdilər. Filmdə cərrah bıcağı altında qorxudan titrəyən, qaçıb gizlənməyə yer axtaran, doğrananda ağrıdan çığıran bətndəki uşaqların video təsviri verilmişdi.. Ultrasəs exoqrafiyası altında aparılan cərrahiyyə əməliyyatının kadrlarını görənlər həmən dəqiqə abort haqqında fikirlərini tamam dəyişirlər. Bu film dünyada böyük əks-səda doğuraraq aborta əlini bulaşdıran həkimlərin öldürülməsiylə məşğul olan təşkilatın fəaliyyətinə təkan verdi. Onlarla həkim terrorçuların qurbanı oldu. Embrionu müdafiə edənlər canlı insanları öldürməyə başladı.

Nə qədər qəddar olsa da abortu qadağan eləmək olmaz. Çünki bu kriminal abortların, evlərdə gizli, antisanitariya şəraitində olunan abortların sayını artıracaq. Çarəsizlikdən doğulan uşaqlar sevgidən məhrum olmuş insanlar təbəqəsi yaradacaq ki, cəmiyyət bu problemi də həll edə bilməyəcək. Amma analar bilməlidi ki, onların öldürdüyü uşaqların qanından ulduzları cavanlaşdıracaq preparatlar yaradırlar və "Filankəs uşaq qanı vurdurub cavanlaşır" cümləsinin arxasındakı həqiqətləri də bilməlidilər. Onların məhv elədiyi embrionlar kosmetik firmaların cibinə milyonlarla gəlir gətirir. Abort eləyən qadınlar həmişə olub, yəqin ki, olacaq. Amma bu insanların savadsızlığı, nadanlığı ucbatından baş verməməlidi. Hər kəs elədiyi hərəkətin məsuliyyətini anlayıb addım atmalıdı. Onsuz da hamı cavab verəcək, o dünyaya inananlar da, inanmayanlar da...

# Seksuallığın sirləri

*Stolüstü tantra-yoqa məşğələləri*

Hazırda monitorla üzbəüz oturub yorğun baxışlarımı ona dikmişəm. Ciddi yorğunluğa isə səbəb yoxdur. Amma səhərdən bəri sıxılmış limon kimiyəm, elə bil gecədən sübhəcən daş daşımışam. Bəs mənim gecə ərzində artacaq enerjim hara yoxa çıxdı? Dünən isə televizorda insan beyni fenomenini haqqında sənədli filmi izləyərkən ən qeyri- adi beyinin imkanının 6 faizini işlətdiyini eşitdim. Adi bəndələr, qarışqa kimi səhərdən axşamacan çalışanlar 3 və daha az faizini işlədir. İndi fiziki durumumdan duyuram ki, mən yəqin hardasa 1 faizini işə salıram. Beynimin qalan hissələri mışıl-mışıl yatır. Köhnə maşını itələyib işə salmaq, ya da burub yola itələmək üsulu kimi bir vasitə olsaydı yəqin ki, bu üsuldan yan keçməzdim. Ata-baba mirası, şifahi ənənələrimizdə, xalq məsəllərində belə bir üsulun olmasını xatırlamıram. Ona görə də başqa millətlərin, mədəniyyətlərin dediklərinə qulaq verək. Məsələn, tantra-yoqada bu barədə çox aydın şəkildə izahlar verilir. Ola bilər kiməsə bu, abırsızlıq kimi gələcək, ya da belə yanaşma ilə razılaşmayacaq. Amma bu təlim bütün dünyada məşhurdur, bizim də bilməyimiz pis olmazdı...

**Ata, babalar da hər şeyi bilmirmiş...**

Bədənimiz quruluşuna və imkanına görə güclü və kamil generatordur. Bütün bədən boyu minlərlə enerji mərkəzləri yerləşdirilib və onlar bizi kosmos və onun müxtəlif səviyyələriylə görünməz bağlarla əlaqələndirir. Müasir elm onlardan bəzilərini tanıyır və artıq müalicədə istifadə edir. Məsələn, akkupunktur nöqtələri artıq tanıyır və epidermisin hüceyrələri öyrənilir. Amma yerdə qalan mərkəzlər barədə nəinki bilmir, hətta bu sahədə axtarmağı ağlına da gətirmir. Milli mentalitetimiz isə bu barədə danışmağı da qəti qadağan edir, hətta qazancı təbii yolla alınan sağlamlıq olsa da. Heç kim, hətta toy ərəfəsində övladına intim həyatın vacibliyini başa salmır. Uşağına

ömrü boyu cehiz yığan, hər xırda detallara qədər nazını çəkən, ovucun içində böyüdən, Quran altından keçirib vağzalı ilə yola salan valideyn üçün bu mövzu hələ də qadağa altındadır. Ola bilər valideynlərin özü də bu sahədə kifayət qədər məlumatlı deyillər.

**Seks hərədə bir cür səslənir**

Sevişmə zamanı bədəndə müəyyən düyünlərin, enerji generatorlarının aktivləşməsi başlayır. Məlumdur ki, kişi və qadın bədəni parametrlərinə görə müxtəlifdir. Arzu və istək məsələsində bir-birinə köklənmə varsa 2 nəfər arasında cəzbetmə başlayır. Sevişmə zamanı kosmosun vibrasiyaları cinsi çakra vasitəsilə bədənə daxil olub o biri enerji mərkəzlərini də işə salır. Kobud şəkildə bunu elektrik generatorunu işə salan rotor və statora bənzədirlər. Nəticədə hər ikisi Kainatı əmələ gətirən enerjini canına hopdurur. Alınan enerjinin dərəcəsi və keyfiyyəti tərəflərin hazırlığı və bir-birinə köklənmə dərəcəsindən asılıdır. İnsan orqanizmi mürəkkəb alətdir və onun "çalğısı" köklənməsindən çox asılıdır. Ona görə də eşitdiyimiz "ifalar", müşahidə etdiyimiz enerji çalarları ailələrin özü qədər müxtəlif "səslənir". Bu biliklər bizə milyon illərdir ki, şifahi şəkildə, bəlkə də intuitiv şəkildə ötürülərək gəlib çatmışdır.

**Sevgi elmi**

Qədim Misirdə missiyası insan cəmiyyətində sevgi biliklərini yaymaq olan gözəl qadınlar təbəqəsi vardı. Onlara getera deyirdilər. Sevgi məbədinin kahinləri bu qızları hələ körpə ikən ailəsindən alıb məbəddə saxlayırdılar. Məbədin işi cəmiyyətdə layiqli qızların tapılması və onların təlim tərbiyəsi ilə məşğul olaraq cəmiyyətə bu yolla xidmət etməkdən ibarət idi. Qızlar sevgi elmini öyrənirdilər. Sevgi məbədinə qızını verən ailə çox hörmətli sayılırdı. Onların faraonun hüzurunda oturmaq, hətta onun sözünü kəsmək kimi imtiyazları vardı. Belə ailələrə "İlahi toxum" adı vermişdilər. Geteralar həm üzdən, həm də bədəncə göyçək, cazibəli olmalı idi. Onları hərtərəfli təhsil

alaraq səviyyəsi və məşğuliyyətindən asılı olmayaraq müsahiblə hər hansı mövzuda söhbətə qoşula bilirdilər. Bəzən məmurlar onlardan məsləhət də alırdılar. Bu yolla geteralar dövlətin idarəçiliyinə də qoşulurdular. Geteranı evinə varlı və nüfuzlu adamlar dəvət edərdi. Sevişərkən geteralar ustalıqlarını kişilərə ötürür və bu yolla onların arvadlarını və məşuqələrini "savadlandırırdılar". Ortodoksal dinlər bu üsulu İlahi plandan uzaqlaşma kimi dəyərləndirir. Onlar seks vasitəsilə genetik, enerji-informasiya kodunun ötürülməsi məsələsinə ikrahla yanaşır. Onu insanların vibrasiya səviyyəsinin artması yolunda irəliyə yox, geriyə aparan bir qüvvə sayır. Ona görə də sonradan yaranan bütün kultlarda seksə bəlkə də lazım olduğundan artıq qadağalar tətbiq edilib.

Zaman keçdikcə insan ambisiyaları və təbii fəlakətlər sevgi məbədlərini yox elədi. Məbədlə birlikdə sevişmək məharəti də, tədris üsulları və gizli biliklər də yoxa çıxdı. Müasir zamanda, guya ki, hər şeyin məlum olduğu bir dövrdə biliklərin bu qədər əlçatan vaxtında sevişmək mədəniyyətindən bizə yalnız bayağı cinsi akt və ümumi frigizm (cinsi soyuqluq) miras qalıb. Bu, müasir insan üçün normadır. Bəzi müasir mədəniyyətlər bunun yerini narkotik istifadəsi ilə doldurmağa cəhd edir. Primitiv mədəniyyətlər seksual mədəniyyətdən tam uzaqlaşıblar. Yerdə təmiz cinsi akt və uşaq dünyaya gətirmə prosesi qalıb. Ona görə də bəşəriyyət enerji çatışmazlığından əziyyət çəkir. Onun yerini doldurmaq üçün atılan addımlar müxtəlif psixoloji və fiziki eybəcərliklər, pozğunluqlar yaradır. Çünki insanın İlahi enerjidən əli üzülüb, onun yerini doldurmadan insan övladı yaşaya bilmir.

**Keyfiyyətdən kəmiyyətə yuvarlanaraq**

Müasir zamanın təzahürü olan sektalar bunu bilərək bəzən sevişmək texnikasını artıq itirmiş insana kosmik enerjini əvəz edə biləcək alternativ yollar təklif edir, seksual enerji əvəzinə başqa, kənardan daha rahat idarə edilən yollarla cəzb etməyə çalışırlar. İlahi vibrasialardan qopmuş insan orqanizmi stresslərə, virus həmlələrinə dözümlüyünü itirib, gücünü,

sağlamlığını itirməkdədir. Gücünü bərpa etməyə çalışan orqanizm yeməyə və içməyə, yuxuya ehtiyacını artırıb. Artıq çəki, diabet xəstəliyi, ürək -damar xəstəliklərinə meyllilik də burdan qidalanır. Bədən elə sanır ki, cinsi aktların sayını artırsa həmin ilahi enerjidən daha çox qidalana biləcək. Amma əksinəsi baş verir. Əvəzində insanların sayı artır. Müasir insan sonsuz sayda artıb törəyən kosmik alaq otuna çevrilib. Həmin bu "alaq otu" Kosmosda heç kimə nə verir, nə alır, amma ətrafını zibilləyib başqa həyat formalarına yaşamağa mane olur. Alimlər deyir ki, günəşdə vibrasiyalar artıb və keyfiyyətcə dəyişib. Milyon illər boyu planetimizin yanından ötən kometalar planetimizə yaxınlaşan kimi yolunu dəyişdirir. Planetimizdən inciyən kometalar kimi ona daha da yaxın olmaq, toqquşmaq istəyən fəza cismləri də əmələ gəlir. Bu səhnədən sonra adam mütləq soruşmaq istəyir: Axı bu sevişmək sənəti nə olan şeydi ki, kosmosu da yerindən edə bilir?

**Kosmosdan asılmış gəlincik**

İnsan bədəni minlərlə nöqtələrlə, enerji düyünləriylə örtülüb. Onlardan bəziləri özbaşına işləyir, bəzilərisə kənar təsirlərə köklənib. Onlar kosmik şüalanmalardan, planetlərarası fəzadan, hətta başqa planetlərin enerjisindən qidalanır. Bəzi nöqtələrə istiliklə, bəzilərinə isə işıq şüalarıyla işə salıb tərpətmək mümkündür. Bu təsirlər əhatəsində işləyən insan orqanizminin təbii bioritmi belə yaranır. Deməli ona təsir spektri dəyişərsə bioritm də dəyişər. Biz kosmosdan görünməz iplərlə asılmış kuklalar kimiyik. İplərdən hansısa işləməsə həmin orqan tərpənməz qalar. Bu dahiyanə mexanizm müasir zamanın təsirlərinə, dağıdıcı yeniliklərinə baxmayaraq hələ də durmadan işləyir. Adıçəkilən enerji mərkəzlərinə mobil telefon, televizor, peyk antenaları, vay-fay şüalanması ilə mənfi təsir etdiyimiz kimi onları sevişmək elmi ilə müsbət tərəfə işlətmək olar. Sevgi siyasətində hər sivilizasiyanın öz anlayışı, öz nailiyyətləri olub. Artıq elm bizdən əvvəlki sivilizasiyaların, atlantların, limurların adını çəkməkdən qaçmır. Onların bədən quruluşundakı fərqlər onlara kosmik sevgiyə daha rahat köklənməyə

imkan verirdi. Nağıllarımızda onlar barədə informasiya təpəgözlər, divlər şəklində qalıb. İnsanın isə kosmosa köklənən aktiv hissəsi Günəş düyünü adlanır və bədənin düz mərkəzində yerləşir. Bəzən gözəl musiqini dinləyəndə, heyrətamiz bir kitabı oxuyanda və demək olar ki, həmişə vurulanda həmin bu mərkəz hənirti şəklində vibrasiya edir. Bunu duymamaq mümkün deyil. Şərq müdrikləri deyir ki, sevgi texnikasını müasir elm qətiyyən anlaya bilməz. Hətta onu anlayıb qəbul edən adama da uzun illər məşqlər və tədqiqatlar lazım gəlir. Müəyyən ardıcıllıqla bəzi mərkəzlərə energetik təsir bu üsulun əsasını təşkil edir. Bəzi mərkəzləri sığallamaq, hansınısa qıdıqlamaq, bəzisini isidib, bəzisini soyutmaq lazımdı. Bu təsirlərin ardıcıllığını dəyişməklə orqanizmin hissiyyatını dəyişdirmək olar. Ola bilər ki, kiminsə dirsəyinə toxunanda o, ləzzət və sakitlik duyğusu keçirsin. Başqa bir əhvalda isə həmin yerə təsir etməklə insanı ağrıdan çığırtmaq olar. İnsan orqanizmini müxtəlif duyğulara, hisslərə çatdırmağı bacaran iri partituralar var. Orqanizm eyni notlardan ibarət olan alət kimidir. Onda hər hansı musiqini çalmaq mümkündür. Heç bir narkotik insanı belə ilahi duyğulara çatdıra bilməz. Kosmosa qarmaq atıb enerjisini ilkin mənbədən götürən insan ətrafının soyuqluğunu eyforiya fəvvarəsi, orqazmı isə yeni kainatın doğulması kimi qavrayır. Amma bütün bu təsvirlərdən sonra təəssüratını bölüşən insanın nə dərəcədə səmimi olduğu barədə şübhələr rahat buraxmır. Çünki onu yoxlamağa bizim heç bir imkanımız yox.

**İnsan heyvanla Yaradan arasında...**

Dindar adamlar da təxminən belə duyğuları İlahi sevgiyə qovuşanda təsvir edir. Deməli bu yol var. Ona seksual yolla, istərsə də İlahi sevgi yolu ilə çatmaq olar. Dinlər keçmişdən miras qalmış cinsi ləzzət yoluyla alınmış sevgi vibrasiyalarına qarşı çıxır və onu az qala haram elan edirlər. Dindarlar cinsi həzz yoluylu alınmış enerji ilə insanın heyvana yaxınlaşdığını iddia edirlər. Heyvanlar seksual məmnunluqdan başqa duyğu tanımaz. Heyvan üçün seks günah hissi ilə bağlı deyil. Çünki günah hissini Şüur tanıyır. Cinsəl həyat

heyvan üçün təbiidir. İnsan isə şüurlu olmağı ilə yeni enerji səviyyəsinə keçid alır. Seksual enerjinin sublimasiyası Şüurun insana verə biləcəyi ən böyük hədiyyədir. Şüur seksual akt keçirmədən ləzzət alıb enerji mübadiləsi etməyə imkan verir. İki nəfərin ilahi sevgisini yaşamış və enerji ilə qidalanmış adam hamını birdən sevir, ətrafındakılarla həlim davranır, hər şey gözünə parlaq rəngdə görünür. Növbəti dəfə sevişmək istəyi artıq 1-2 gündən sonra deyil, kosmik enerji sərf olunandan sonra, heç olmasa bir aydan sonra əmələ gəlir. Qadın orqanizmi də həmin bu sikl ilə yaşayır. Təbiət insana sevişmək üçün ayda cəmi 6 gün ayırıb. Bundan artığı israfçılıqdır. Sevışmək ustalığı insana azı 200 il yaşayıb ömrünü sağlam keçirmək imkanı verir. Ona görə də keçmişdə sevişmək ustadına olan diqqət və hörməti müasir insan təxminən olsa da anlaya bilər.

***

Müasir insan şüuru ali, duyğunu ikinci dərəcəli, ləzzət verici sayır. Heç kim həyatını sevgisinə uyğun quraşdırmır. “Bu, ciddi deyil, sonu fəsadlarla ola bilər” düşünürük. “Şüur qidasını sevgidən alır” fikri də təzə deyil. Müasir insan yavaş-yavaş bu fikrə qayıdır ki, məhv olmasın.

# Tənhalıq yolu

*Yaxud tənha kaktusu qucaqlamaq necədir?*

***Sən insanları kosmosa buraxırsan, onlar sənin planetlərini orbitindən çıxarır.***
***Sən insanları öz dənizinə buraxırsan, onlar sənin balıqlarını öldürür.***
***Sən insanlara uçmaq öyrədirsən, onlarsa uçub gedir yanından.***
***İnsanlara inanma.***
***Bob Marley***

Ötən əsrin 60-cı illərində "Bitlz" qrupu tənhalıq mövzusunu ortalığa atanda milyonları lərzəyə gətirdi. Konsertlərdə tamaşaçılar bir-birini qucaqlayıb ağlayır, tanımadığı insanlara təsəlli verir, başını sığallayır və sanki rəhmə gəlib insaniləşmişdilər. Çünki uca kürsüdən ilk dəfə idi ki, tənhalıq barədə bu qədər səmimi sözlər eşidirdi:

"Yaşamaq lazımdır. Sevmək lazımdır. Kimsə olmaq lazımdır. Yemək, içmək, nəsə eləmək lazımdır. Həyəcanlanmaq, narahat olmaq. Hərdən elə bilirəm ki, gücümü itirib yıxılmaq istəyirəm. Qaçmaq lazımdır, gizlənmək. Yoldaşını xoşbəxt etmək lazımdı. Mənimsə gücsüzləşib yıxılmağım gəlir". "Hamı deyir ki, biz xoşbəxtik. Onlar bilmir ki, bu, bizi necə də qorxudur. Biz hər şeydən qorxuruq. Günəşdən də, tənhalıqdan da. Günəş heç vaxt çıxmayacaq. Dünyanın gələcəyi artıq yoxdu..." deyib milyonlara müraciət edən bu əfsanəvi qrup bəlkə də minilliyin ən vacib probleminə toxunduğunu bilmirdi. Allah adlı mahnıdan sitat: "Allah elə bir anlayışdı ki, biz onunla ağrılarımızı ölçürük. Allah bizim əzab və əziyyətlərimizin ölçü vahididir. Arzular zamanı keçdi artıq. Özünə inan...". Məşhur kvartet sanki ürəklərdə yığılıb qalmış arzuları, çirkabı bayıra töküb təmizləmə işi aparırdı. Amma "Çiçəklərin övladları" həyatdan uzaqlaşdı, təmizləmə işiylə başlanan hərəkat narkotik avaraçılıqla bitdi. Hippi gənclər mistika, seks, sektantlıq kimi

gedərgəlməz sahələrə baş vurdu. Amma kimsənin tənhalığı bir damcı da olsun azalmadı. "Bu tənha insanlar hardan əmələ gəldi" sualına hələ ki, cavab tapılmayıb.

**İldə 2 milyon tənhalığın qurbanı olur**

Tənhalıq - müasir dövrün ən dağıdıcı epidemiyası sayıla bilər. Qəribə paradoks var - hər kəs ətrafında çoxlu insanlar olan yerlərdə işləyir, yaşayır, ünsiyyət qurur, amma bununla belə dəhşətli bir tənhalıq hissini içində gəzdirir. Şəhər nə qədər böyükdürsə, tənhalıq duyğusu da bir o qədər miqyaslıdır. Sosial şəbəkələrdə yazılan az qala hər statusda, hətta qəzəb və nifrət cümlələrinin arasından da tənhalıq süzülür. Kimsə təkliyini qədəhdə boğmaq istəyir, kimsə başqasının qoltuğunda gizlənir, kimsə seriallara aramsız baxmaqla tənhalığını özündən uzaqlaşdırmaq fikrini güdür. Kimsə həyatını dəqiqəbədəqiqə bölüşdürüb gərgin bir həyat yaşayır ki, tənhalığına bir saniyəsi də qalmasın. Axı sükut çökən kimi bu duyğu adamın xirtdəyindən yapışır. Kimsə də sosial şəbəkələrin qaynaşan həyatında təkliyini azdırır. Amma az sonra "tənhalığa son olmadı" fikriylə razılaşıb şəbəkələrə də marağını itirir. Nə baş verir? Dünyanı ağzına almış bu virusu bircə ümumbəşəri müharibə ilə müqayisə etmək olar. Hər il dünyada 2 milyon adam intihardan məhv olur. Deməli, hər 15 saniyədən bir kimsə həyatının rənglərini qaytarmaqdan əl çəkib özünə qəsd edir. Hamı da bilir, özünə qəsdlərin 100 faizi olmasa da, 99 faizinin səbəbi insan tənhalığıdır. Elə bil ki, hər il 2 milyonluq əhalisi olan bir şəhər yer üzündən silinir. Alkoqoliklər, narkomanlar, toksikomanlar, əyyaşlar və qumarbazlar da əslində içərisində inildəyən ağrının qurbanlarıdır. İnsanlar tənhalığını unutmaq, gizləmək, sakitləşdirmək fikriylə daha da boş, tənha, mənasız dünyalara baş vurur və oralardan geri qayıda bilmirlər. Əgər mədə xorasının ağrısından ikiqat olmuş adama desən ki, sənin kimi minlərlə adam yemək üzünə həsrətdir, onun ağrısı da, məyusluğu da azalan deyil.

**"İstəyirəm də, neynim!"**

Qədim zamanlarda, yəni insan öz Allahını yaxşı tanıdığı vaxtlarda tənhalıq problemi qəti olmayıb. Bizə keçmişdə babalarımızın meymun olduğunu aşılayandan bəri əksəriyyəti azıb. Hamı bir-biriylə heyvan kimi, bəzən ondan da pis rəftar edir, instinktlər ölçü vahidinə çevrilib. Yemək, yatmaq, nəsil artırmaq kimi sadə, amma heyvani modellə yaşamaq insanı yolundan döndərir. "İstəyirəm də, neynim!" müasir zamanın şüarı ola bilər.

Müasir insan da Yaradanı ilə dialoqunu kəsmir: Əgər mənim hiss və duyğularımı da Sən yaratmısansa, niyə mən tənhayam? Nə baş verir? Niyə ailəm dağılır, dostlarım məni tərk edir? Niyə məni Sənin kimi sevə bilən birisini tapa bilmirəm? Axı niyə mən özümə nə lazım olduğunu dəqiq bilmirəm? Bu suallar Allaha ünvanlanır və demək olar ki, hər kəsin beynindən keçib. Sualların cavabını müqəddəs kitablarda axtaranlar da az deyil. Amma dindar olmayanlar da bilir ki, 2 yol var: Allahın yolu, Şeytanın yolu. Tənhalıq yolu bu iki yolun arasından keçir.

**Qaranlıq və tənhalıq**

Heç kim tənhalığının günahını özündə axtarmır. Dostlar, tanışlar, müdirin, valideynlərin, uşaqların, hakimiyyət, vətən, torpaq - hamı günahkardı ki, məsuliyyəti boynuna götürməyəsən. Körpələr dünyaya gələn kimi 2 şeydən, qaranlıq və tənhalıqdan qorxur. Hər iki fobiya sevimli insanın yaxınlıqda olmaması səbəbindən baş verir. Bəziləri qaranlıq qorxusuna qalib çıxsa da, tənhalıq qorxusunu ömrünün sonuna kimi özüylə gəzdirir. Bəzi psixoloqlar tənhalıq qorxusunun ölüm qorxusundan da güclü olduğunu deyir. Əgər belə olmasaydı, ölüm qorxusu bizi üstələsəydi, hər gecə yuxuya gedə bilməzdik. Biz tək olmaqdan qorxuruq. Qaranlıq düşən kimi insan özünü hüdudsuz Kainatda tək-tənha duymağa başlayır. Oralarda, uzaq planetlərdə, öz planetində milyonlarla canlıların həyatının qaynaşdığı zamanda da sarı sim tənhalıq melodiyasını inildəməkdədir...

Psixoterapevtlər tənhalığı 3 yerə bölüb təsnifat verir: 1. Özündən qaçma. İnsan xasiyyətinin bir hissəsindən qaçır, ikiləşir deyə özünün o biri yarısına qərar verməkdə etibar etmir. 2. Başqalarından qaçma - İnsan ətrafındakılardan uzaqlaşır, çünki lazım olduğu kimi yaşamadığını düşünür. 3. Həyatdan qaçma - insan kədər və qüssəsini kütlə içində batırmağa cəhd edir. Çünki heç kim və heç nə razılıq hissi yarada bilmir. Əzizlərimizi itirəndə də biz bu hala düşürük. Bizdən böyük və qüdrətli olan nəyinsə qarşısında aciz dayandığımızı anlayırıq. Biz təbiət və cəmiyyət qarşısında tənha döyüşçü kimi dayanmışıq. Cəmiyyətdə insanı simasızlaşdırmaya meyl var. Xəbər xəttində, əyləncələr selində, hətta elmi axtarışlarda da meqapolislərin ritmində biz kimliyimizi unuduruq. Şəxsiyyətlər həyat selində əriyib gedir.

**Mən və 4 divar**

Sosial şəbəkədə tənha insanların yazdığı statuslar məsələnin miqyasını təxmin edə bilər:

- Mən tənhalıq içində o qədər üzmüşəm ki, burdan salamat çıxacağıma artıq inanmıram.

- Həyatımda qara zolaqlar o qədərdi ki, onları toplasam Maleviçin "Qara kvadratı"ndan alınar.

- Həyat öz axarıyla gedir, 30 yaşı haqlamısan və tənhasan. Ailən kitabların və pişikdir. Bəzən tanışlıq saytlarından kimisə evinə gətirib uydurmalarınla baş-beynini aparırsan. Kimliyini anlayan kimi çıxıb gedirlər, əlbəttə. Gedəndə sənə bağışladığı qəlp emosiyaları yığışdırıb aparmırlar…

- Kimi gözləyirsən, get yat! Onsuz da kimsəyə lazım deyilsən.

- İnsan kütləsinin sənə daş atması səhnəsi heç də ən dəhşətlisi deyil. Dəhşətlisi odur ki, onlardan bəzilərini çox yaxşı tanıyırsan.

- Tənhalıq güclülərin taleyidir. Zəiflər kütləyə sığınır.

- Mən tək olanda elə bilirəm ki, tənhayam. Amma adamlar arasında olanda mən tənha olduğumu dəqiq bilirəm.

- İnsanlar ona görə tənhadır ki, körpülər tikmək əvəzinə divar tikirlər.

- Tənhalığa durub kənardan baxmaq daha yaxşıdır.

- Soyuq payız günü parkda skamyada oturub buzlamış barmaqlarınla köhnə romanı vərəqləmək bəyəm romantikadır? Xeyr, bu tənhalıqdır...

- Tənhalıq odur ki, bütün gecəni öz-özünlə danışırsan və müsahibin səni başa düşmür.

- Güclü olmaqdan yorulmuşam, müdrik olmaqdan da... Xilas etməkdən, qalib olmaqdan, salamat qalmaqdan bezmişəm. Gözüm xeyirxahlıq, əllərim sevimlisini axtarır. Dodaqlarım sevgi sözləri pıçıldayan bir dodaqları gözləyir. Qoynuna girib büzüşüb yatım, yox olum. Kişi çiyni balışım olsaydı. Doyanacan danışmaq üçün. Bu, bir də təkrarlansın, sonra bir də...

- Özümü dükanda satılan pişik balası kimi hiss edirəm. Hamı məni bəyənir, amma heç kimə lazım deyiləm.

- Üşüyürəm, xahiş edirəm, kömək edin. Axı tamam tənhayam. Cavabında isə eşidirəm: “Bağışla, sən güclüsən, özün qızınarsan”.

- Tənhalıq odur ki, öz avatarına baxıb komment gözlədiyin halda porno saytlara link alırsan.

- Niyə daima qulaqcıqdasan? - Onlar mənim ətraf dünya ilə aramızdakı təhlükəsizlik balışcıqlarımdı.

- Bəli, içirəm! Bəli, tənhayam! Bəli, siqaret çəkirəm! Bəli, göz yaşlarımı saxlaya bilmirəm. Zəifəm... İmkan verin arabir özüm kimi olum!

- Biz beşimiz birlikdəyik... Mən və 4 divar. Bir qədər də məzəlidir.

# KÖŞƏLƏR



# Azadlıq simfoniyası

*"Əgər siz qanadsız doğulmusuzsa, heç olmasa onların böyüməyinə mane olmayın"*
*Koko Şanel*

Sovet dönəmində təhsil almış musiqişünaslar, sənətşünaslar kurs işləri və referatlarında bolşevik inqilabının savadlısı, başbiləni sayılan Lunaçarskinin "Musiqi və inqilab" məqaləsindən sitatlar gətirməklə yazısının intellektual səviyyəsinin yüksək olduğunu vurğulamağa çalışırdılar. Adıçəkilən məqalədə deyilir ki, "Kim ki, musiqinin daxili həyatıyla yaşaya, bütün Kainatın və insan cəmiyyətinin musiqi tərəfini görə bilmirsə o, inqilabı heç vaxt anlaya bilməz". Yəni ki, mahiyyət etibarilə musiqi və inqilab eynidir. Musiqidə bütün səslər, yaxud verilmiş konkret akkord (bir neçə səsin ahənginə akkord deyilir) həll olub harmoniyaya can atdığına görə sanki hansısa nirvana vəziyyətinə keçərək bütün patensialları sıfıra yendirir. Kainat da həmən qanunlarla işləyir, bütün mexaniki, termik və canlı potensiallar tarazlığa can atır və həll olunmasını tələb edir.

"Əgər siz musiqiyə qulaq asırsızsa artıq azadlıq yolundasınız" - bu fikri isə Azər Qaraçənli azadlıq seriyasından olan yazılarının birində demişdi. Əgər mən bu fikirləri auditoriya qarşısında desəydim mütləq cavabında "Bəs dünyanın bütün qaniçənləri, diktatorları klassik musiqini niyə dinləyirdi?" sualını mütləq gözləyərdim. Bunu indi xüsusi vurğulamırlar, amma Stalin böyük meloman idi. Klassik musiqini – Baxı, Haydnı, Mosartı, Şuberti, Bethoveti çox sevirdi. Musiqi üzərində modernist eksperimentləri görən gözü yoxuydu. Stalinin bioqrafiyasında bir maraqlı kadr var: Stalin bir dəfə

dini baxışlarına görə konservatoriyanın professorluğundan qovulmuş Mariya Yudina adlı pianoçunun radioda konsertini dinləyirmiş. Pianoçu onun sevimli əsərini - Mosatrın 23-cü konsertini ifa edirdi. Əsər bitən kimi Stalin radioya zəng edib həmən konsertin qrammofon valını səhər onun kabinetinə gətirməyi əmr edir. Heç kim cürət edib ona deyə bilmir ki, veriliş canlı idi və onun qrammofon yazısı yoxdu. Radio işçiləri qorxularından gecəylə bu konserti yazıb səhəri Stalinə çatdırmaq üçün təlaşa düşürlər. Orkestr səhərəcən məşq edir. Səsyazma zamanı gərginlikdən 2 dirijorun ürəyi gedir, yazını 3-cü dirijorla bitirməli olurlar. Amma val inqilab rəhbərinə vaxtında çatdırılır. Minnətdarlıq əlaməti kimi "dahi rəhbər" pianoçuya o vaxt üçün çox böyük məbləğ, 20 min rubl mükafat göndərir. Mariya Yudina cavabında qayğıya görə minnətdarlıq edir və Stalinə yazır ki, günahsız insanların məhvində əli olduğundan onun günahlarının bağışlanmasına görə Allaha həmişə dua edəcəkdir. (Bu pianoçunu Sibirə göndərən, güllələyən də olmadı). Stalin öləndə həmən val onun axırıncı dinlədiyi val kimi patefonun üstündə idi. Pianoçu Sofronitski də Stalinin sevimli ifaçılarından biri idi. "Sovet əxlaqı uğrunda bariz döyüşçü" pianoçuya kokainə aludəçiliyini də bağışlayırdı. Fondda həmən ifaçının kokainin təsiri altında yazdırdığı konsertlər hələ də durur.

Dünyanı yəhudilərdən təmizləməyi hər çıxışında çığıran Hitler isə bunkerində tək qalanda yəhudi ifaçılarının çalğısına məmnuniyyətlə qulaq asırdı. Onun kolleksiyasında rus bəstəkarları Musorqski, Çaykovski, Raxmaninovun əsərləri ən çox dinlənilənlərdən idi. Bunu valların çox işlənməkdən əmələ gələn cızıqlarından bilmək olurdu. Əgər Hitlerdən bunu soruşsaydılar arxasıycan apardığı minlərlə əsgərlərə o hər gün yəhudi skripkaçı Quberman və pianoçu Şnabelin ifasını gizlincə dinlədiyini necə izah edərdi? Məncə o, deyərdi ki, bu musiqilər son dərəcə inqilabidir və insanı qanad açmağa vadar edir. Faşist ideyalarını isə Hitler Vaqner musiqisindən mənimsəyib. Lenini də klassik musiqinin vurğunu kimi tanıyırıq. Leninin anası uşaqların musiqi təhsili ilə xüsusi məşğul olurdu. Atası isə evdə o dövrdə

qadağan olunmuş mahnıları oxumağı sevirdi. Dünyanı alt-üst eləyəcək Volodyaya atasının ifasında eşitdiyi musiqilərlə həmin bu qadağalara məhəbbətə yoluxur. Leninin ən çox sevdiyi bəstəkar Bethoven idi. Bethoven isə fransız inqilabının ideyalarına yoluxaraq bütün dünyanı "azadlığa yoluxdurmuşdu". Pudralı parikli kişilər və naz-qəmzəli zəngin aristokrat qadınlarının içinə dəbə etiraz əlaməti kimi pariksiz, dağınıq, buruq saçlarına əl darağı çəkib çıxmasına baxmayaraq hər dəfə alqış qazanan alman bəstəkar-Bethoven bütün dünyanı fransız inqilabının dalıyca apara bildi. 1919-cu ildə Lenin və hökumət üzvləri Böyük Teatrda Bethovenin "Eqmont" uvertürasını dinləyərkən aktyor "... həyatınızı dünyada ən qiymətli olan Azadlığa görə verməyi əsirgəməyin" sözlərini səsləndirəndə hətta Leninin gözləri dolmuşdu.

İndi bilmək istərdim ki, Avropaya inteqrasiyadan danışan, dünyəvi ideyaları dilinə gətirən, demokratiya qurmaq istəyən, azad cəmiyyətin inqilabi ideyaları üçün çalışan Azərbaycan xalqı, bəs siz nəyi dinləyirsiz? Uşaqlarınıza hansı musiqilərə qulaq asmağı məsləhət bilirsiz? Onlar "Bax, atam, anam bu musiqini zümzümə edərdi" deyib uşaqlarına nə danışacaqlar?

## Ağ daş

*Boris Qrebenşikov: "Ətəyin altındakı bu təbəssüm qitələri lərzəyə gətirir"*

Bir az əvvəl Moskvada yaşayan həmvətənimiz rəssam Aydan Salahova çılpaq şəkilləri sosial şəbəkədə paylaşmağıyla səs-küy salanda hamı onun soyunub bədənini aşkara çıxarmağını müzakirə obyektinə çevirdi. Bəzi mətbu orqanları araşdırıb onun yaradıcılığıyla bağlı qalmaqalların da şərhini verdi. Amma heç kim ən çox səs-küy çıxarmış və dindarların etirazına səbəb olmuş "Ağ daş" əsərinin adını çox mümkün ki, bilərəkdən çəkmədi. Çünki gipsdən hazırlanmış bu heykəl vaginaya bənzədiyindən ona şərh vermək, xüsusilə də "qara daş" adlanan Kəbə daşıyla hansısa paralellər aparmaq lazım idi. Düzünü

demək lazım, dünyanın əməli saleh adamları qara daşın başına dolandığı zaman o biri yarısı, içi qara daşın başına dolananlarla birgə ağ daşın başına dolanır. Amma bu tərəflərdə bu barədə yazmaq tərbiyəsizlik əlamətidi.

Etiraf etməliyəm, insan bədəninin ayrılmaz hissələrinin adını birbaşa çəkməməkçün uzun-uzadı fikirləşməli, dolayısı ifadə yolları axtarmalı olurdum. Çünki adını çəkdinsə hansısa bir sehrlə ən ciddi fikir bayağı səslənir və müəllifinə başucalığı gətirməz. Deməli biz çılpaq insan bədəninə sakit baxa bilmədiyimizdən bütün antik dövr heykəllərini, klassik rəssamlığın şedevrlərini məhv edib oturmalıyıq ki, utancaqlıq gətirəcək məqamlar yaşamayaq? Kişilər daha yaxşı bilər, çılpaq qadınlar olan bir yerə düşərsə cinsin ən cəsarətli nümayəndələri şəhvət qarışıq bir qorxu hissi keçirir. Bir publisistik yazı oxumuşdum, müəllifin kimliyi önəmli deyil, çünki analoji duyğuları hər kişi keçirir. O, çılpaq qadınlarla dolu çimərlikdə mənzərəni seyr etdikcə belə düşünürdü: "Mən özümü naqolay hiss edirdim. Bu utancaqlıq deyildi, amma beynimdə bəzi sözlər aramsız dolaşmaqdaydı: abırsızlıq, şitlik, bayağılıq, ikrah... Baxmaq, müşahidə etmək çox çətin idi. Onların üstünə atılıb əldə etmək, malik olmaq və bu hüdudsuzluğu tıxamaq, səsini kəsmək və ... ölmək. Bəli, bu vəziyyətdə ölmək baxmaqdan daha asan gəlirdi. Bu, qorxu idi... " Çılpaqlıq qarşısında qorxu təkcə kişilərin deyil, bütün cəmiyyətin, özü də son, müasir adlandıra biləcəyimiz dövrün böyük bəlalarından biridir.

Fransız rejissoru Katrin Breyanın "Cəhənnəmin anatomiyası" adlı filmi var. Film porno, fetiş, gey, getero mövzusundadı. Onu 2004-cü ildə Moskvada ekranlara çıxaranda premyeraya rejissor özü də gəlmişdi. Amma filmin mövzusundan narahat olan müdiriyyət tədbirli olub zalı abonimentlə bilet alan yaşlı nənələrlə doldurmuşdu. Gözləmək olardı ki, nənələr filmdən sonra şikayət kitabına rəy yazmağa gedəcək. Amma əksinəsi baş verdi, nənələr filmdən sonra çıxıb getmək istəmir və gördüklərini foyedə uzun-uzadı müzakirə edirdi. Filmin qəhrəmanı gözəl fransız qadını gey kluba gedib bir geyi 4 gecəlik satın alır. Onun məqsədi onu kişi kimi istifadə etmək deyil, sadəcə çılpaq kişi bədənini fasiləsiz nəzərdən keçirmək idi. 4 gecə ərzində

çılpaq şəkildə qadınla bir otaqda vaxtını keçirən gey qadınlarla münasibətində böyük bir cəhənnəmi yaşadı. Qadın qarşısında çəkdiyi qorxular onu gey olmağa məcbur eləmişdi.

İstər gey, istər normal kişi etiraf etməsə də, qadın qüvvəsindən, qadın çılpaqlığındakı qarşısıalınmaz təlatümdən qorxur. Qadın çılpaqlığı ya ikrah doğurur, ya da zorakılığa çağırır. Bu barədə ucadan danışan kişilər əslində qorxularını boğmağa çalışırlar. Qadın əldə eləməyin özü də kiçik, sonu məlum bir döyüşdür. Bu, bir qədər Pink Floyd qrupunun "Divar" adlı albomunun animasiyasına bənzəyir. Əvvəl iki qızılgül qönçəsi qarşı-qarşıya rəqs edir. Onlardan biri böyüyüb formasını dəyişir və o birini cəlb etməkdə davam edir. Sonunda qırmızı bətnə, əjdahaya çevrilib “kişi qönçəsini” udur. Ölüm saçan sonsuzluq isə cəlb eləməyində davam edir… Əslində qadınlar da öz çılpaqlığından, daha doğrusu soyunmaqla azad etdikləri enerjidən qorxur. Çünki onu hiss etməklə bərabər tamamilə idarəedilməz olduğunu da anlayırlar. Bu qüvvə idarəedilən olsaydı yəqin ki, kişilərin problemləri bir qədər də artardı. Qarşıdurma bütün cəbhələrdə davam etməkdədi. Kişilər çırmanıb feminizmlə çarpışır, qadınlarsa bunun adını azadlıq, hüquq uğrunda mübarizə qoyur. Məsələnin əsl adını deyə biləcək cəsarətli şəxsi hələ ki, zaman yetişdirməyib.

Ola bilər yazarlardan kimsə nə vaxtsa çılpaqlıq qarşısında duyduğu qorxulardan nəsə bir cümlə yazacaq. Deyəcək ki, uşaqlar qaranlıqdan qorxduğu kimi biz də çılpaqlıqdan qorxuruq, çünki onu ram eləməyin yollarını hələ ki, bilmirik. Bunu etiraf etmək ölümə bərabər addımdı. Bunu gonbul, formasız qadın fiqurları yonan ibtidai insanlar edə bilərdi, sivil müasir adamlar yox. Filmlərin qəhrəmanları bütün kişilərin arzularını dilinə gətirə bilir: "Qadın bədəni işgəncə, əzaba çağırır. Kişilərin qəzəbi bu anlaşılmazlığa, naməlumluğa qarşıdır, qadının şəxsiyyətinə deyil".

Bu qorxudan qurtulmaq lazımdı. Oşonun psixoloji təlimlərində bir çalışma var. Sevgililər soyunub bir-birinin bədənini və cinsi orqanını 20 dəqiqə müşahidə etməlidi. Əsas şərt şəhvətə, istəyə uymamaq və bu tip

fikirləri başından atmaqdı. Bu, bir növ yeməyə baxıb arzusuna qalib çıxan oruc tutmuş insanın durumu ilə eynidir. Bəlkə də orucluqda bu yazının yazılmasının əsas səbəbi də elə budur.

Çılpaqlıqdan hiddətlənməyin müasir zamanda heç yeri yoxdu. Məsələn, Avstraliyada növbəni gecikdirən adamın cinsindən asılı olmayaraq yumşaq yerindən çimdik almaq adi bir işdi. Hollandiyada hər kəs öz ad günündə küçədə rast gəldiyi adamları tutub öpə bilər. Belçikada isə tanımadığı qızın ayağını təsadüfən tapdalamış kişi onun yanağından öpməlidir. Balaca uşaqlar böyüdükcə qorxularından azad olduğu kimi cəmiyyətdə insan bədəninin çılpaqlığından yaşadığı bütün fobiyalardan qurtulmalıdı.

## Açar dəliyindən görünənlər

Yazının başlığı çoxlarına milli adətlərimizi və yer üzündə analoqu olmayan yengə fenomenini xatırlada bilər. Yengə o adama deyilir ki, burnunu başqasının intim həyatına soxur, buna görə pul, pay-puş alır və heç nədən qorxmur, çünki hərəkətləri sanksiyalaşmış, yəni icazəlidir. Əsrlər boyu yengənin nəzarəti altında intim həyata başlayan xalqımız hələ də qapı deşiyindən görünənləri, yaxud kimsənin onun həyatına boylanmasını norma sayır.

Son illər biz başqasını həyatımıza buraxmamaq məsələsində bir qədər irəli getmişik. Müasir toylarda yengə nüfuzunu itirməsə də simvolik obraza çevrilib. Onun payını verib yola salırlar. Yəni ki, əsas hadisələrin baş verəcəyi meydandan uzaqlaşdırır, maddi nemətlərlə bir növ zərərsizləşdirirlər. Cavanlar yad adamın iştirakı ilə sevişmək istəmir. Amma deməzdim ki, valideynlər uşaqlarına etibar etməyə başlayıb. Səhər qırmızı ulduzlu ağ "bayraq" əllərdə parıldamasa, muştuluqlanmasa nə qız atasının, nə də oğlan evinin ürəyi sakit olmur. Uşağı bığıburma kişi olub bəylik kostyumunu geyibsə də valideyn onu hələ də göz yaşını sel kimi axıdan, burnu fırtıqlı və

tumançaq şəkildə xatırlayır və gülümsəyir. Azərbaycanlı ata-analar uşaqlarını saçı ağaranacan, beli bükülənə, hətta bir gözüylə qəbrə boylananadək balağından qoparmır. Müasir dövrün xüsusilə qərb külələri valideynləri güzəştə getməyə məcbur edib. Yengə məsələsində mövqeləri uduzmuşlar qalan məsələlərdə hələ ki, müdafiə xəttini saxlamaqdadır. Qaynanalar gəlinlərin həyatını idarə etməyi həyatlarının missiyası sayır. Baldızlar, sair yaxın və uzaq qohumlar bu piramidanın nisbətən aşağı pilələrində olsalar da ailə "qurbanının" həyatını zəhərləməkdə sanki saziş bağlayıblar.

Səbəbi çox sadədir, biz elliklə başqasının həyatına boylanmağı özümüzə icazə veririk. Ona görə də həyatımıza boylananları, soxulanları sakit qarşılayırıq. Xalqın bu zəif yeri olmasayda son vaxtlar yayımlanan intim videolar silsiləsi böyük bir etiraz dalğası oyadardı. Qısa müddətdə mən artıq bir neçə jurnalistin gündəyməzini görmüşəm. Bu mənə lazımdırmı, ya yox bu başqa məsələdir. Hamı təklif olunan kadrlara baxır, başını bulayır, ola bilər 2-3 cümlə deyinir. Əlbəttə, bu iyrəncdi, nalayiqdir, alçaqlıqdı! Bəs soruşan oldumu ki, ay xalq, yüzillər boyu yatağına yengələr ordusu boylananda niyə danışmırdın? İndi hər kəsə internet vasitəsilə 3-4 dəqiqəlik yengə rolunu oynamaq şansı verilib. Başqasını açar dəliyindən bir az böyük, monitorun ölçüsü boyda dəlikdən izləyə bilərsən. Kimsə o şansını qaçırmadı ki?! Kimsə "Mən bunu görmək istəmirəm!" deyib tanışlarının gizli kamera ilə çəkilib qanunsuz yayılmış videosuna baxmaqdan imtina etdimi? Xədicə İsmayılovanın videosunun "You Tube"dakı sayğacı fantastik rəqəmlər göstərməklə kimsəni yalan danışmağa qoymaz.

Biz başqasının həyatına soxulmağı da, başqalarının həyatımıza soxulmasını da norma kimi qəbul edərək yaşayırıq. Başqasının məktubunu oxumazlar! Başqasının çantasında eşələnməzlər! Ev sahibi olmayanda istər pis, istər yaxşı niyyətlə başqasının evinə girmək olmaz! Kimsənin həyatını müzakirə etməyə heç kimin haqqı çatmır. 50, ya da 100 illik həyat təcrübəsi belə kimsəyə başqasına həyat dərsi verməyə əsas vermir! Yaxınlıqda telefonla danışırlarsa başqasının söhbətini dinləmək ayıbdı! Belə ümumbəşəri

həqiqətləri uşaqlarımıza öyrətməklə yanaşı özümüz də bir daha öyrənməliyik. Çünki bu "dərs"dən həmişə 2 almışıq. Biz qonşudan gələn qışqırıqları sakit qarşılaya bilmirik. Hətta öz qapımızı süpürəndə bir qulağımız yad mənzildən gələn hənirtilərə köklənir. "Bu gələn kimin qapısını döyəcək?", "Zibili bura kim atdı?", "Bu kimin uşağıdı belə söyüş söyür?"…

Dünya bu insaniyyət parametrlərini Qərb dəyərləri adlandırır. Çünki onlar bizim nağıllarımızda, rəvayətlərdə, əfsanələrdə və mentallıqla əlaqəli qocaman söhbətlərində əks olunsa da Qərbdə gündəlik həyatda tətbiq edilir. Bizimçün bu soyuqluq, humanizmdən uzaq düşmək, qonaqpərvərliyin olmaması, ya da etinasızlıq kimi görünür. Başqasının şəxsi ərazisinə hörmətlə yanaşmaq, heç olmasa yarım metrlik subardinasiya xətti saxlamaq sıravi azərbaycanlı üçün söyüş kimi bir şeydir. Axı o, marşrutda qarnını başqasının dirsəyinə sürtə-sürtə hər gün yol gedib gəlir. Bunu ilk dəfə nudist çimərliyinə düşmüş əyalət adamının rəftarı ilə müqayisə etmək olar. Ətrafda hamı çılpaqdı, gözünü xırda detallardan çəkə bilmirsən, bir-birinə gözünün ucuyla da baxmayan çılpaq adamların içində bərəlmiş gözlərlə çox eybəcər görünürsən. Amma bunu da nə vaxtsa öyrənmək lazımdı. Nə qədər ki, biz başqasının həyatına hörmətlə yanaşmayacağıq evimizin içindəcə kimini sevişərkən, kimini tualetdə, kimini ağzı açıq yatarkən çəkəcəklər və ləzzətlə bizə göstərəcəklər. Pikant xırdalıqlara baxandan sonra adamlar adətən etiraz etmir. Çünki bu, başqasının həyatıdır.

… Adam otaqda tənhadırsa, ətraf dünya ilə əlaqəsi açar dəliyi qədər kiçikdirsə o zaman işıq süzülən kiçik zolaqdan dünyaya baxmaq çox cəzbedici görünür. Özünüzü dar otaqda kilidləməyin. Dünya siz düşündüyünüzdən dəfələrlə böyük və daha maraqlıdır.

## Ağ və qara

### yaxud oyunçu aparsın

*Həyat siz düşündüyünüz qədər sadə deyil. O lap sadədir.*

Yəqin ki, şahmat oyununu hamı müşahidə eləyib. Maraqlı oyundur. Bir vaxtlar şahmatla çox ağıllılar, çox biliklilər maraqlanardı. "Aha, şahmatla maraqlanırsa deməli başı işləyir" deyərdilər. Şahmat taxtası arxasında iki layiqli rəqib qarşı-qarşı dayanıbsa daha maraqlı olur. Bir qaralarla, o biri ağlarla oynayır. Hərəsinin öz qoşunu, öz şahı və vəziri var. Öz sərkərdələri olan döyüş meydanında özünün qala qurmaları da olur. Bu oyunun öz atlısı, öz piyadası olur. Amma nədənsə oyunun nəticəsindən asılı olmayaraq atlı elə həmişə atlıdır, piyada isə piyada. Fiqurlardan kimisə yolunu addım-addım keçir, kimisə başqasının üstündən addayıb tullana bilir. Burda da şahın dalında toplar daha yaxşı dayanır. Qabağa isə zəifini, piyadanı verirlər. Qırılanda da qırılır, amma güclü fiqurların oyununa imkan yaradır. Yalnız zirək, özükimiləri arxada qoyub addım-addım irəliyə bilən piyadalardan seçmələri düşmən tərəfə çatanda dönüb vəzir ola bilirlər. Bax onda sehrli çevrilmənin reallığını öz gözümüzlə görə bilirik. İndi həmən piyadanın qılıncının sağı da kəsir, solu da. Deyəsən, bu situasiya sizə də tanış gəldi…

Şahmat taxtasında hər şeyi görmək olur. Lap real müharibədəki kimi. Bu oyunun öz taktikası və strategiyası var. Hücumu mərkəzdən, ya da cinahlardan, müdafiəni də eləcə müxtəlif mövqelərdən qurmaq olar. Burda da özünkünü rəqibinə qurban verməklə hücum kombinasiyası qurmaq olur. Burda buna satqınlıq demirlər. Şahmat bataliyalarında da sərkərdələr, sıravilər məhv olur. Yalnız şahlar bu boyda qurbanlar verəndən sonra öz canını qurtararaq rəqibə təslim olmaqla sağ qalırlar. Sağ qalırlar ki, ardını yaşaya bilsinlər. Sağ qalırlar ki, düşmən baxıb sevinsin. Gör bir, lap həyatdakı kimidir…

Eyni səviyyəli oyunçuların partiyasında kimin udacağını qabaqcadan demək çətin olur. Amma ağ fiqurlarla oynayanın həmişə üstünlüyü olur. Ola bilər ki, bu üstünlüyündən bacarıqla yararlanıb oyunu udsun. Ağ bilir ki, o birincidir. Bütün ağla oynayanlar birsə ki, birincidir yəqin uduzmazlar. Onda qaralar sevinməz. Onsuz da udmuş, ya uduzmuş ola, bir oyun bitən kimi o birisi başlayacaq. Həmişə ağlardan olmaq da olmur.

Hələ ağ-qara filmlər yaranmamışdan, ağ-qara fotolar çəkilməmişdən əvvəl ağlı-qaralı həyat yaşayan insanlar ağ qara damalı oyunu - şahmatı oynayarmış. Yəqin bu oyun udmağı və uduzmağı da öyrədərmiş. Bir növ həyatın repetisiyası kimi. Hələ ağ-qara dilləri olan pianolar dillənməmişdən əvvəl insanlar həyatın klavişlərini tərpədərdilər. Həyatın qara dilləri olmasaydı yəqin ki, həmən alətdə çalınan musiqi də maraqsız alınardı. Həyat nə ağdı, nə də qara. Həyat rənglidir. Bütün rəngləri qarışdıranda qara alınır. Spektrin bütün çalarları lazımi nizamla bir-birinin ardınca düzüləndə isə ağ işıq əmələ gəlir. Deməli, işıq nizamdan düşən kimi qaranlıq çökür. İnsanlar da nizamsız olanda həmişə qaralar qalib gəlir.

Ağ və Qara. Xeyir və Şər. Hamıya tanış qarşıdurma. Bəs sən kimlərdənsən, heç bilirsən? Hayıf, Xeyir və Şərin sərhədində gömrük olmur. Olsaydı ən böyük qazancları burda toplamaq olardı. Bunun adını qazanc da qoya bilərsən, rüşvət də. Onsuz da hamı bu anlayışları çaşdırır. Ayağını cəbhənin o tayına qoyan kimi necə deyərlər "Əlin cibində olsun". Xeyirin tərəfinə keçdin vergi ver, Şəri dəstəklədin, yenə də... Əslində Xeyir və Şər arasındakı oyun çoxdandı ki, bitib. İnsana bircə o qalır ki, kimlərdən olduğunu müəyyənləşdirsin. Onu da bil ki, Allahın əmriylə şahmat oyunundakı ağlar kimi Xeyirin də ilk gediş eləmək hüququ var. Əlbəttə, bu oyunda da həmişə Xeyir qalib gəlmir. Xeyir və Şərin mübarizəsində həmişə İnsan qalib gəlir. Amma bu ki, son oyun deyil...

# Böyük şəhər sindromu

Onlar iri dəstələrlə, izdihamla orda-burda toplaşır. Onlar aqressivdi, kobud, dözülməz, qışqırıqçı, sırtıq və həyasızdı. Onlar bərkdən danışır, ucadan öskürür, asqıranda ağzını da tutmurlar. Biədəb geyinir, biabırçı danışır, heç kimi saymırlar. Onlardan heç yerə qaçmaq mümkün deyil. Çünki onlar da səninlə bir şəhərdə yaşayır. Ən gülməlisi odur ki, bu insan kütləsinin içində mütləq eləsi tapılır ki, sənə baxıb eynən bu cür düşünür. Bu mənzərəyə baxıb gülməyi ağlına gətirməyənlər bunu böyük şəhər sindromu adlandırır. Əgər bu fikirlər ağlından keçibsə deməli sən də xəstəsən ...

Deməyin ki, "məndə bunun əlamətləri yoxdu, mən sağlamam". Böyük şəhərlərin sakini bu xəstəliyə tutulmaya bilməz. Gizləməyə nə ehtiyac var, hamı kənddən gəlib. Amma bir neçə nəsil bundan əvvəl. Dədə babamız torpaqda eşələnib, bizim indi arzulaya biləcəyimiz həyatı yaşayıb. Sübh ağarmamış durub, ciyərlərinə təmiz hava çəkib. Bizdən fərqli olaraq zəhmətinin nəticəsi gözünün qabağında olub. Şəhərli bunu röyalarında görə bilər. Biz süni işıqla dolanaraq təbii həyat ritminin ürək döyüntüsünü eşitmirik. Hər bir insan özünü böyük maşının bir vinti saysa da axır nəticədə nəylə məşğul olduğunu bilmir. Hamı əmindi ki, bu vint sıradan çıxsa da onu əvəz eləməyə mütləq başqa birisi tapılacaq. Şəhərlər artıb nəhəng əjdahaya çevrilir. Bu əjdaha hamımızın arzularını, xəyallarını, intellektini və hətta cismini də "həzm edərək" böyüyür. Əvəzində qazancımız nə? Çox dəbli ifadələr - xroniki yorğunluq, aqressiya, depressiya. Və üzücü tənhalıq hissi....

Yalnız şəhərlinin ağlına gələ bilər ki, planetimiz adam əlindən aşıb daşır. Şəhərdə göylər sonsuz uzaq və əlçatmazdı. Oralara düşməkçün ya ölməlisən, ya da şairdən, musiqiçidən olub uzaq dünyaları gəzməyi öyrənməlisən. Bunu bacarmayanlar yalnız yuxularında azad olur. Amma əslində isə şəhər sonsuz, ucu bucağı görünməyən planetdə kiçicik bir adadı. Burada informasiya axını

bizə gün vermir, reklamlar, “hara getməli?”, “nə etməməli?” kimi ağır suallara cavab verən başgicəllədən işarələr gözümüzü deşir. Televizorda nə eşidirik? - öldürdülər, asdılar, kəsdilər, oğradılar, döğradılar. Hər şey də operativ, real həyat ritmində. Çoxdan arzuladığımız sakitlik, sükut gecə saat 2-dən sübhə qədərdi. Əlbəttə bəxtin gətirsə, gecə kiminsə siqnalizasiyası işə düşməsə, eyş-işrətdən başı ayılmayanlar pəncərənin altında mahnı oxumasa. Bəzən heç padşahın piyada getdiyi yerdə də rahat otura bilmirik. “Sən orda neynirsən” sualını eşitməməkçün tələsik çıxırıq. “A rəhmətliyin oğlu, burda neynəllər?”

Qocaların sevimli qorxusu belədi: “Küçədə yıxılıb ölləm, heç kim fikir verməz”. Bir ayağı gorda olan qocalarımız morqa düşməyin qorxusundan heç ayağını bayıra da qoymur. Sonra biabırçılıq olar, uşaqları, nəvələri ondan iylənib göyərəndən bir neçə gün sonra xəbər tutar. Yas mərasimində hamı bunu bilər. Nə olsun, biz böyük şəhərin xəstə sakinləriyik. Sən də hamı kimi psixiatrların qorxulu saydığı eyni tipli kvadrat, düzbücaqlı evlərdə yaşamağı öyrənməlisən. Uğur qazanmalısan, cavan görünməlisən, ağıllı və hazırcavab olmalısan. Filan yaşacan oxumalı, evlənməlisən, uşaq böyütməli, bir sözlə milli standartlara uyğunlaşmalısan. Vaxtaşırı qəzet oxuyub kimin kimi söydüyünü bilməlisən, bazar-dükandan, qiymətlərin artımından xəbər tutmalısan. Arabir qeybət eləməyi də özünə icazə verməlisən. Bu xəstəliyin tələbləridi.

Odur ki, burada hamı müalicəlikdi. Avropalılar şəhərin kənarında yaşamaqla sindromdan qaçmağa çalışır. Biz bu tezliklə “novostroykadan” qurtula bilmərik. Ən azı evin haqqını ödəyib qurtarana kimi. Qocalanda məşəqqətli həyatın mükafatı kimi ölməyə təbiət qoynuna gedərik. Əgər təbiət sözündən ürəyin bulanırsa ola bilər ki, kəndçinin şəhərliyə keçmə mərhələsində keçid rolu oynayan yeni insan növüsən. Böyük şəhər sindromu isə bu yolda kiçik “lomka”dan başqa bir şey deyil. Fikir eləmə, 3-4 salamat nəsil yetişdirə bilsən sonrakı insanlar böyük şəhər sindromuna qarşı immunitet qazanmış olacaq.

## Bayramsayağı SOS siqnalı

Əcəb eləyir bu italyanlar, yeni il bayramında kəm-köhnəni pəncərədəncə bayıra vızılladır. Rədd olsun yaşanmış illər də, qaqqıldamış gülüşlər, axıdılmış göz yaşları, çəkilmiş sığallar, nakam sevgilər, vüsallar… Hamısı! "Arşın mal alan"da Rüstəm bəy demiş "Eeeeeh, istəyirsən elə sən də get!". Bizim evdə bunun adı başqa idi, ruscadan tərcümədə təxminən "həlledici yıryığış" adlanardı. Elin adətinə uyğun Novruzdan qabaq ev-eşik yığışdırılan kimi yeni ildə də bu ənənə milliləşdirilərək yerli miqyasda mütəmadi tətbiq edilirdi. Hay-həşir qopur, hər yer təmizlənirdi, hamı can-başla əlləşirdi. Amma hamı da bilirdi ki, Şaxta baba o qədər də təmizkar deyil və evin küncündəki toza-filana gözünün ucuyla da baxmaz. Bunu onun saqqalında ilişib qalmış yemək qırıntıları bir daha təsdiq edirdi.

Ay Allah, illər necə də uçur. Elə bir müasir zamana dövrün elektrotexnika imkanlarına cavab verən müasir motor qoşublar. Vaxt vardı insanların zamanı da olurdu. Məsələn, Leonardo da Vinçi əfsanəvi Mono Lizanın dodaqlarını 12 ilə çəkmişdi. Ola bilər bir dəfə məyusluq, sonra heyranlıq, istək, arabir ikrah da keçirmiş və bütün bunları qat-qat piroq kimi üst-üstə kətana yaxmalamışdı. İndi biz bu rəsmin qarşısında dayanıb Mono Lizanın təbəssümü adlı həlledilməz məsələ üzərində baş sındırırıq. Müasir insan isə bir tək yaşıl işığın yanmasını gözləməyə ömrünün iki həftəsini sərf eləyir. Filosoflarsa ovcunu çənəsinə dayayıb gözünü naməlum üfüqdən çəkməyərək deyir: İnsanın zamanı həmişə var. Bu səhnəni fikrimdə canlandıranda belə kəlamlar nədənsə beynimdə mütləq Rasim Balayevin səsiylə deyilir. Əlbəttə, filosovcasına poza alası olsaq biz də 2-3 dənə ağıllı cümlə deyə bilərik. Təxminən belə birini guppuldadaq: Hətta Qalaktikamızın Günəşi sönsə belə Yer kürəsi məhv olmamışdan əvvəl bizim 8 dəqiqə 20 saniyə vaxtımız var. Ola bilər, bu anda kimsə "Görəsən ütünü söndürmüşəm, ya yox?" fikirləşəcək.

Ola bilər hardasa anatidayefobiya xəstəliyindən əziyyət çəkənlər gününü titrəyə-titrəyə keçirir. Bu xəstəliyə düçar olmuşlar əmindir ki, dünyada onu daban-dabana izləyən bir ördək var və bu fikir onları çox qorxudur. Amma hamı bu qorxuyla yaşayası deyil axı! Adam özünü çox sıxanda həyatın rəngləri sönükür. Əgər burnumuzun bir dəliyini 72 saatlıq bağlasaq, gözlər rəng görmək qabiliyyətini tədricən itirməyə başlayır. Elə həmin səbəbdən heç bir sensor kanalını məhdudlaşdırmaq olmaz. Hər dəfə asqıranda beyin hüceyrələrindən birinin öldüyünü düşünsən, zökəm adama ölümqabağı aqoniya kimi görünə bilər. Bəli, həyatımız ağırdı. Səhiyyə də pisdi, təhsil də. Mədəni səviyyə də heç nəyə yaramır, yollarımız da. Polis də səviyyəsizdi, telekanallar da.

Belə bir statistika var ki, qəza baş vermiş əyləncə mərkəzlərində, xüsusilə də ölüm hadisəsi olubsa həmin karuselə, həmin yerə maraq ikiqat-üçqat artır. Fikir vermisizsə, həyatı ağır olan ölkələrə turizm baxımından maraq həmişə yüksək olur. Qəzavü-qədərini aydın hiss eləyən insanlar da yolundan dönməyə çalışmır. Ola bilər, düşünəsən ki, torpaq ayağının altından gedəndə, qaçılmazlıq boğazına dirənəndə köməyə çağırmağa macal tapsan qismətin fərqli olacaq. Amma buzlu sulara qərq olmuş əfsanəvi "Titanik" gəmisi SOS siqnalını tətbiq eləmiş ilk gəmi idi. Bu, onun qismətini dəyişmədi. Biz də siçovul deyilik ki, gəmimizi atıb haralarasa qaçaq. Siqnalımızı dörd tərəfə verib oturub gözləyirik.

Bayramqabağı optimizm saçmaq və başqalarını yoluxdurmaq üçün gərək həyatın çoxşaxəliyindən, gözəlliyi və təkrarsızlığından düşünəsən. Sən demə adamın dərisinin üzərində yaşayan mikroorqanizmlər Yer kürəsi üzərində yaşayan və həyatın mənası barədə ciddi fikirləşməyi qəti qərara alan adamlardan dəfələrlə çoxdu. Hər dəfə duş qəbul eləyəndə mikrodünyalarda soyqırım baş verir. Deyəsən, yenə də pessimist əhval oldu. Məsələyə başqa cür yanaşaq, hardasa yaxşının çiçəklənməsi üçün pisin ölməsi lazımdı. Yəni nələrsə ölməlidi ki, nələrsə yaşasın, kimlərsə məhv olmalıdı ki, kimlərsə həyatın nə olduğunu bilsin. Hansı cərgəyə qoşulacağını özün müəyyənləşdir.

Onsuz da bir stəkan suyun üstünə 80 il durmadan qışqırsan axırda o, qaynamağa başlayır. Bədənimizin 70 faizinin su olduğunu nəzərə alsaq qaynamağa bir şey qalmayıb.

Qismətini yaşamağa görə dirəşən insanlar bir qədər dondurma növbəsində itələşən balaca dəcəl uşaqlara bənzəyir. İtələşirlər, didişirlər, dondurma alanların əlindəkini vurub salmağa çalışırlar. Elə bil bilmirlər ki, hər kəsin payının üstündə adı da yazılıb, necə deyərlər "fabrik" qisməti üstündə istehsal eləyir. Ona görə də yeni ilini Havay adalarında qarşılamaq istəyənlər "Hauoli Makahiki Hou" (yəni yeni iliniz mübarək), İtaliyanı əldən-ayaqdan salmaq istəyənlər "Felice anno nuovo", Kombojada yeni il süfrəsinə qızardılmış cırcırama xırçıldatmaq istəyənlərsə bolluca "Soursdey Chhnam Tmei" desin. Biz elə çoxumuz kimi "Yeni iliniz mübarək!" deyəcəyik. İlin təzəsi gəlir e, qət təzəsi…

## Bəli, mən qadınam!

*İnsanlar arasında sonuncu müharibə həqiqət uğrunda möhtəşəm bir döyüş olacaq. Bu müharibə ayrılıqda götürülmüş hər kəsin içərisində gedəcək. Öz nadanlığın, cəhalətin, təcavüzkarlığın və əsəbiliyinlə vuruşmalı olacaqsan. Yalnız bu cür, hər kəsin fərdi şəkildə daxili yenidənqurması bütün insanların rahat yaşayışının başlanğıcı ola bilər.*

*Nikolay Rerix*

İş elə gətirdi ki, bir gün ərzində mənə dəfələrlə qadın olduğumu xatırlatdılar. Hər dəfə də bu, söyüş kimi səslənirdi. Mənsə heç nə olmamış kimi qadınlığımla fəxr etməkdə davam edirdim. Bilməmiş olmazsız, kişi qadına “Sən qadınsan” deyirsə ya onun ərazilərinə soxulacağının sərt xəbərdarlığını edir, bir növ meydan sulayır, ya da bu ərazilərıə onsuz da

soxulacağını, amma bu işi bir qədər nəvazişlə, bəlkə də bir qədər sevgiylə edəcəyini bildirir. Mən hələ ki, üçüncü variant tanımıram. Kişi sükan arxasında bir qadın görəndə özünü fərdi zonasına soxulmuş düşmən kəşfiyyatçısına tuş gəlibmiş kimi aparır. Bəziləri macal tapıb itirilmiş şalvar, əldən getmiş papaq və başqa aksesuarları da yadına salır.

Xatırlatmaların bol olduğu həmin gün maaş kartımı dəyişmək üçün işə getməli idim. İnternetin hesabına hər gün işə getməli olmuram. Maşını idarə işçiləri üçün ayrılmış pulsuz dayanacaqda saxlaya bilmədim. Çünki nahar vaxtı idi, yaxınlıqdakı restorana toqqasının altını bərkitməyə gəlmiş kişilər avtomobillərini bütün mümkün boş yerlərə salıb evakuator barədə qorxunc fikirləri beyinlərindən silmişdilər. Maşınımı qanunsuz yerdə saxlamağa məcbur oldum. 15 dəqiqədən sonra çıxanda artıq maşınım yerində yox idi. Özümü maşınımı kişilərin kabab arzularına qurban vermiş kimi hiss elədim. Kabab yeyənlərin maşınları yerində idi, hətta yol qırağında qanunsuz saxlanmış maşınların da öz himayədarı vardı. Onlardan heç kim “Sən qadınsan da, harda saxlamağı da bilmirsən” deyib üzümə vurmadılar, amma yəqin ki, fikirləşdilər.

Ölüm-zülüm maşının aparıldığı yeri öyrəndim. Bunu mən yalnız kişilərdən soraqlaşa bilərdim. Yolüstü keçən evakuatora əl qaldırıb cərimə meydançasına qədər yol yoldaşı oldum. Sən demə evakuator maşınlarının sürücüləri də maşın daşımaqdan bezibmiş. Yəqin adamların qarğışı ünvanına düşündüyümüzdən tez çatır. Maşınımı tapanda ilk xatırlatmanı cərimə meydançasında aldım. Məsul şəxs tanımadığım bir qurğuya maşının nömrəsini yazdıqdan sonda “vay-vay” deyib başını buladı: “Gör neçə dəfə radara düşmüsən ki! Maşınını buraxmaqçün gərək gedib mənə yol polisindən bütün cərimələrini ödədiyin barədə arayış gətirəsən. Amma QADINsan, səni incitmək istəmirəm. Sonra bir gün pulun olanda gələrsən dayının yanına, bütün problemlərini həll edərəm. İndi 50 manat ver, çıx get”. Qadın olduğuma sevindim, çünki yanımda bir kişi diri-diri ətini kəsirmişlər kimi çığırırdı. Mən cərimənin 42 manat olduğunu da bilirdim, amma “yaxşı

qurtardım" deyib tez-tələsik maşını götürüb verdiyim 50 manata qəbz də istəmədən oraları tərk elədim.

Deyim ki, yol boyu böyük pərtlik hissi keçirirdim. Bəlkə mən həqiqətən də kişi işinə baş qoşmuşam, başım çıxmayan sahəyə girişmişəm. Axı mən saatda 40 - 50 km-dən artıq sürmürəm, nəinki qırmızı işıqda, sarıda da, sayrışan yaşılda da keçmirəm, qaydaları bilirəm deyən pozmuram və yenə də radara düşürəm?! Salamatı budur ki, gedim bozbaşımı bişirim və ailə büdcəsini dağıtmayım. Elə həmin bu fikirləri beynimdə qaynadarkən gəlib uşağın məktəbinin qarşısında dayandım. Maşından düşdüm, uşağı məktəbdən götürüb qayıdanda gördüm ki, kimsə maşını elə saxlayıb ki, çıxmaqçün gərək hər iki maşını cızıq-cızıq edəm. Özümə "Ağır gündü, bir az otur, nəfəsini dər" deyib səbrimi basdım. 5-10 dəqiqə sonra yekəqarın bir kişi mənə yaxınlaşdı: "Xanım, mən sizdən xahiş edirəm, burda bir də maşın-zad saxlamayasız. Mən bu poliklinikanın sahibiyəm, bir ətək pul verib almışam ki, siz onun qabağında maşın saxlayasız?! QADINsız, ona görə sizə heç nə etmirəm, bir də bu maşını buralarda görməyim". Sən demə maşını bilərəkdən elə saxlayıb ki, ürəyinin sözünü deyə bilsin. Əlbəttə, onun cavabını verdim, "Siz binanın sahibi ola bilərsiz, amma küçədə maşın saxlamaqçün icazə almalı deyiləm və burda saxlamağı qadağan edən işarə-filan yoxdu" və başqa arqumentlər də dedim. Artıq əsəblərim gərgin olduğundan ondan soruşmadım: "Qadın olmasaydım nə edəcəkdin, tutub döyəcəkdin?"

Bəli, mən qadınam! Maşını isə uşağımı metrodakı havasızlıqdan, marşrutdakı insanların kobudluğundan, özümü nadan kişilərin sürtüşməsindən qorumaq üçün almışam, şəhərdəki maşın cəngəlliyində fors eləməkçün yox. Bu köşəni oxuyan kişilər rişxənd edib gülümsəməsin. Çünki Dövlət Yol Polisinin rəsmi saytında sorğu aparıb cərimələrimin olmadığını öyrəndim. Həmin o cərimə meydançasındakı kişi qadın olmamağımdan istifadə edib məni aldadıbmış. Yəqin ki, artıq verdiyim 8 manat bir yana üstündə 42 manatı da qatlayıb cibinə qoyub. O biri erkək qorilla kimi ərazi güdən kişini isə heç xatırlamaq belə istəməzdim. Bəli, mən qadınam və ağlıma

gətirməzdim ki, bu məmləkətdə vətəndaşı "Maşınını burda görməyim" deyib hədələməyə cəsarət edən insanlar da varmış. Bəlkə dişi ovuna çıxan qorillaların yaşadığı meşələrdə erkəklər bəyəndiyi dişiyə birinciliyini bu tərz göstərir, ola bilər.

Dövlətimizin siyasəti illər uzunu atəşkəs rejimində yaşamağı üstün bilib. Amma deməliyik ki, kişilərimiz müharibəsiz cırlaşıb məhv olur. Hamı bir - birinin ətini didir, artıq qadın-kişi fərqi qoyulmur. Bəli, mən qadınam, ailəmin kişilərini müharibəyə göndərmək istəməzdim. Mən qara kağızın, ölüm xəbərinin, yaxın adamının əlilliyinin nə olduğunu bilmək istəmirəm. Kişilər haqq-ədalət uğrunda döyüşə çırmalanmayanda qadınlar ortalıqda qalır. Bəli, mən qadınam, amma lazım olsa əlimə silah ala da bilərəm. Maşın sürməyi öyrəndiyim kimi döyüşməyi də öyrənərəm. Vay o gündən!..

## Bunu yazmaq ayıbdır

Əgər səni zorlayırlarsa, müqavimət göstərmək asan deyil. Söhbət fiziki müqavimətdən getmir. İşin sonluğundan asılı olmayaraq sonradan olanlar köhnə şarmanka kimi adamı dəli edənədək beynində fırlanır. Bütün dünya arxanda dayansa da, əllərini ovuşdurub ürək-dirək verənin, səni incidənin gözünü eşəcək cəsarətində olan qohumların, sevgilin, mentalitetiylə zəiflərin dalında dayanan xalqın olsa da, bu məsələdə sən həmişə təksən. Bütün problemlərini özün həll eləməli olacaqsan, hətta sənin yaşın hələ adi bir kağıza qol çəkməyə çatmırsa da. Amerikalılar bu mövzunu zarafata çevirib "Sizi zorlayırlarsa, tüpürün hər şeyə və prosesdən ləzzət alın" deyir. Çünki zorlama buralarda hər tinbaşı baş verir. Bütün dünyanı zorakılığı altında saxlayan bir ölkə vətəndaşına "müqavimət göstər", "mətin ol" yox, "ləzzətini qaçırma" deyir. Bu yerində mən "Bizimçün ləzzət ön planda deyil, biz belə deyilik" yazmağım gəldi. Amma yalnız ləzzət barədə düşünən erkəklərin

arasında yaşayaraq, evinə qapanıb xalqa üstüörtülü mesajlar göndərməyin özü qorxaqlığa bənzəməyə başlayır.

Məni zorlamayıblar. Mən öz həyatımdan kadrlarla oxucunun ürəyini ala bilməyəcəm. Amma zorakılıq predmetini ilk dəfə gördüyüm səhnəni çox aydın xatırlayıram. Bu, hələ ərə getməmişdən, cinsəl həyata başlamamışdan çox-çox əvvəl, hardasa 10-12 yaşımda baş vermişdi. Rəfiqəmlə küçədə, deyəsən indiki Fontanlar meydanında gəzişirdik. Qarşıdan adamlar gəlirdi və Bakıda insanlar hələ bir-birinin yanından etinasız ötüb getmirdi deyə, hamı qarşısına çıxana bir qədər diqqət ayırmalı olurdu. O vaxtlar şəhər də indiki kimi tünlük deyildi. Bizimlə üzbəüz bir kişi gəlirdi, əllərini plaşının cibinə salmışdı. Mən onu görməmişdim, amma birdən rəfiqəmi elə bil yerə mıxladılar. Onun bərəlmiş gözlərinin iziylə baxıb qarşıdan gələn kişinin plaşını araladığını mən də gördüm. Pencəyin aşağısından qırmızımtıl, tüklü ət parçası sallanırdı. Bizim beynimiz bu predmetin nə olduğu barədə heç bir informasiyaya malik deyildi. Biz şoka düşmüşdük. Bu səhnəni görən kişinin üzündə ləzzət ifadəsi əmələ gəldi, deyəsən istədiyinə çatmışdı. O bir daha andırını ələşdirib tez plaşını bağladı ki, başqaları görməsin və tələsik çıxıb getdi. Bizi zorlamamışdılar, amma rəfiqəmlə mən uzun müddət özümüzə gələ bilmirdik. Mən artıq bildim ki, kişilər səni xəlvətə salıb istəmədiyin şeyləri göstərə bilər.

İkinci dəfə buna bənzər bir hadisə avtobusda oldu. Təkadamlıq yerlərdən birində oturmuşdum. Bir kişi başımın üstündə dayandı, amma heç bir yerdən tutmadı. Əlləri cibindəydi. Sonra başımı çevirəndə çiynimin yaxınlığında tanış olmayan predmetin olduğunu gördüm. O, plaşını elə aralamışdı ki, bunu məndən başqa kimsə görə bilməzdi. Mən çığıra, bir metr aralıda oturan nənəmi çağıra da bilərdim, amma dilimi udmuşdum elə bil. Burnumu pəncərəyə dirəyib titrəməkdən başqa əlimdən bir şey gəlmədi. Bu kişi deyəsən məndən narazı getdi, çünki göstərmək istədiyinə bir daha baxmadım. Çünki baxa bilmirdim. Qəribəsi odur ki, hadisəni nə yanımdakı nənəmə, nə

də rəngimin dəyişdiyini görən anama danışdım. Ona görə də mən çox yaxşı bilirəm ki, zorlanmış qızlar niyə susur.

Hər dəfə görmək istəmədiyim predmetlə rastlaşanda stress keçirməyimi yaşla da bağlamaq olardı. Amma mən bir daha buna bənzər hadisəyə düşdüm. Onda mənim xeyli yaşım və bir oğlum da vardı. Dəmiryolçular xəstəxanasının dəhlizində ginekologiya şöbəsində öz növbəmi gözləyirdim. Dəhlizdə məndən və səliqəli geyinmiş bir kişidən başqa kimsə yox idi. O, mənə qəti diqqət vermirdi, amma vurnuxurdu deyən ona tərəf baxmamaq olmurdu. Boz rəngli kostyum, şıq oturan şalvarın millərini, hətta qalstukunu da xatırlayıram. Məncə o, peşəsinin ən qətiyyətsiz nümayəndəsi idi. Çünki göstərmək istədiyini bəlkə də yarım saatdan sonra gördüm. Yaxşı ki, növbəm çatdı, içəri girib həkimə dedim ki, dəhlizdə manyak var. O da əlinə bir çubuq alıb səs-küy salaraq, bütün tibb işçilərini başına yığıb onu xəstəxanadan qovdu. Sonra qayıdıb mənə "Yekə arvadsan, rəngin ağappaq olub. Bayaqdan niyə demirsən qovum onu. Elə həyəcanlısan ki, elə bil kişi-zad görməmisən" dedi. Amma beyninə sığışmayan bir işin şahidi olmağın özü adamın dilini-ağzını bağlaya bilərmiş.

Sovet zamanında psixi sapmaları olan hər kəsin məcburi müalicəsi vardı. Qonşunun bir zəngi bəs idi ki, cızığından çıxmış adamı dəlixanaya aparsınlar. Mənim qarşıma çıxanların də yəqin ki, böyük psixi problemləri vardı. Amma indi heç kimi məcburən müalicə etmirlər. Ona görə də küçələr manyaklar, dəlilər və eləcə də seksual təcavüzkarlardan zığ vurur. İndi zorakılıq aktları ofislərə, redaksiyalara, şirkətlərə, böyük kollektivlərə də yol açıb. Gözdən qaçınan kimi hər bir qadın irili-xırdalı təcavüzə məruz qalır.

Bir neçə il əvvəl mən bu barədə yazmağı ağlıma gətirə bilməzdim, ya da bunu özümə icazə verməzdim. Yazası olsaydım, faktları mütləq başqa xalqların həyatından toplayar və xalqıma "Oxu, gör belə şeylər də varmış" ruhunda bir yazı yazardım. Amma bu özü böyük riyakarlıq olardı. İndi bu barədə susmaq artıq riyakarlıq deyil, cinayətdir. Bu yazını kişi yaza bilməzdi. Çünki hər kişinin həyatında zorakılıq halı olmur. Amma hər qadının

həyatında azı 2-3, irili-xırdalı seksual zorakılıq hadisəsi var. Səsinizi çıxarmağı öyrənin, qızlar! Gəlin birlikdə çalışaq. Zorakının predmetini kəsib ovcuna qoymaq uzaq keçmişdə, nağıllarda qaldı. Bu işi özümüz görməli olacağıq. Sonluğundan asılı olmayaraq hər zorakılıq aktından, hətta cəhdindən uzun-uzun palaz yazılar yazmaq, müzakirələr açmaq, hər yerdə danışıb bu fikri beyninə gətirənləri biabır etmək lazımdı ki, onlar da bilsin: Biz artıq ayılmışıq!

Biz zorakı kişiləri yerinə oturdacaq dərəcədə güclənməliyik ki, qapalı ailələrdə, gözdən uzaq, xəfə yerlərdə, ucqar kəndlərdə zorlanan qızlara da dəstək ola bilək. Mən əmioğlu, xalaoğlu, qardaş, atası tərəfində zorlanmış qızlardan oxumaqdan bezdim artıq! Həmin qızlar bir parça çörək və başının üstündə olan dama görə susmağa məcburdular. Dərdini danışmağı, ürəyini açmağı, üzünü gizləmədən olanları cəmiyyətə bəyan etməyi öyrənməyənədək bizi zorlayacaqlar.

## Bir etüd və üç nöqtə...

*Ola bilər ki, Dünyanın sənin səhvlərinə ehtiyacı var.*
*Vantalanın düşüncələrindən*

Filoloqlar üçün həyat cümlədir. Sözlərdən, mənalardan, bağlayıcılardan ibarət, xəbərli mübtədalı bir cümlə. Adətən biz həyat cümləmizi qəfil yazırıq. Heç olmasa durğu işarələri barədə düşünməyə macal da tapmırıq. Görəsən nə vaxt cümləmizin mənası barədə düşünəcəyik? Axı, həyat söz yığını deyil. Cümlə üzvlərinin altından xətt çəkmək nəyə lazımdı ki? Onda kimsə əsas, başlıca, kimsə ikinci dərəcəli üzv olur. Hə, bir də yorulanda bir vergül də atırıq sətrimizə. Bir balaca nəfəs dərmək və yorğunluğu çıxarmaqçün. Dayanıb ətrafa baxmaqçün yox ki. Hamı istəyir ki, bu cümlənin nöqtəsi olmasın. Uzansın, lap mənasızlaşsa da bitməsin. Lap bəd ayaqda heç olmasa cümlənin sonunda üç nöqtə dayansın. Riyaziyyatçılarçün həyat müstəvidir. Bu

müstəvidə insan taleləri yanbayan düzülüb və dümbədüzdür. Heç yerə əyilmir, dönmür və düyün də düşmür. Bu yollar bəzən paralel axır və heç vaxt da bir-birinə qovuşa bilmir. Çünki düz xətlər heç vaxt kəsişmir, bunu ki, bilirik. Bəzilərinin ömür yolu isə elə həmişə kəsişir. Başqasının həyatı elə sənin düz xəttinin üstündən keçir. Toqquşmağın qabağını almaqçün şlaqbaum qoyan da yoxdu. Kimləsə burun-buruna toqquşursan, sonra nə qədər çalışsan da qopa bilmirsən ki, bilmirsən. Həmişəlik birgə yaşamaq əzabıyla, yaxud sevinciylə bərabər gəzirsən. Təbii ki, yalnız öz düz xətlərin boyunca. Kəsişənlər, ya kəsişməyənlər hamısı duz xəttin sonsuzluğuna inanır. Heç kim xəttin şüa, ya da parça olmasını istəmir. Elə bil bilmirlər ki, bir gün doğulan bir gün öləcək. Məktəbdə o qədər A nöqtəsindən çıxıb B nöqtəsində bitən məsələlər həll eləmişik ki… Biz bilməsək də bütün nöqtələrin fəzada yeri dəqiq məlumdur.

Təyyarəçilərçün həyat uçuşdur. Arzulaya biləcəyimiz qədər uçuşları olanlar bizim hər gün işə getdiyimiz sakitliklə hər gün uçurlar. Uçur, fəzada nöqtələrin, düz xətlərin yerini bilmirmiş kimi sərhədləri dağıdırlar. Sonra istədikləri vaxt yerə qayıdırlar. Bizə isə hər gün yuxularda uçmaq qalır. Sabahısı gün yenidən havaya qalxmağa qüvvə lazımdı, qüvvə.

Saata baxmadan yaşayanlar da var, yəqin. Belələri həyatın nəbzini qulaqlarında hiss eləmir və nə qədər qəribə olsa da bizimlə yanaşı yaşayır. Elə bil Zaman yoxmuş kimi. Bəzən bir saniyənin hökmüylə gözümüzü ovan Zaman elə bil ki, onların zamansızlığını görmür. Haqsızlıqlardan daha birisi…

Rəssam üçün həyat bir lövhədir. Onun çərçivəsi, hüdudu var. Əvvəl boş olan çərçivə yavaş-yavaş rənglərlə dolur. Bir qat o birini üstələyir. Bu lövhəni yazmaqçün bütün rəngləri bir-birinə qatmalısan, yoxsa maraqsız alınar. Tünd rənglərin olmasa işıqlı rənglərinin parlaqlığını göstərə bilməzsən. Lövhəni bitirəndən sonra satmalısan ki, o birisini yaza biləsən. Qaydası budur.

Musiqiçi üçün həyat bir etüddür. Onu tempdə və səhvsiz çalmaq lazımdı. Etüdün mənası barmaqların qaçaraqlığını məşq eləməkdədir. Zaman ürək

döyüntüsü şəklində metronom kimi qulaqlarında səslənir: tup-tup, bir az pauza, sonra yenə tup-tup. Hünərin var ritmdən qırağa çıx. Sənə bir də səhnəni nə vaxt verəcəklər, nə bilirsən?

Çoxlarıyçün həyat yoldur. Bəzən düz, bəzən əyri, çalaları, yoxuşları olan bir yol. Bəzən bu yol çox çətin, dağ yolları kimi qorxulu olur. Dırmaşdıqca qorxudan rəngin ağarır, ardını çıxmaq istəmirsən. Amma olmaz, geriyə qayıtmağa yer yoxdu. Bu yollarda heç vaxt qırmızı işıq yanmır, təkcə yaşıl işıqdı. Bu yolu keçməmək də olmaz. İstərsən sürünə-sürünə, istər də başı uca, keçməlisən, vəsssalam.

Deyirlər ki, gələcək arzuları yığıb qalamaqçün çox rahat bir yerdi. Gələcəyin cümləsində nöqtənin yerini bilən olmur. Həyat müstəvisi düz xəttləriylə maraqlan, ya da yuxulardan qıraqda uç, fərq eləməz. Çərçivəni qıra bilirsən, qır. Bir vergül qoy, pauza elə. Etüd çalmaq əvəzinə otur bir zümzümə mızıldan. Qoy metranomun sussun. Onsuz da bu yolun sonunda ayrılıqlar olmur. Orda hamı görüşəcək...

## Bütün yaxşılıqlara ölüm!

*Şəhəri qarış-qarış satmış "Baksovet"ə serenada*

Qonşuluğumuzda bir qadın yaşayırdı. Evlərdən uzaq, azyaşlı nəvəsini gözü qarşısında maşın vurandan sonra mərsiyə deməyə başlamışdı, bir növ dili açılmışdı. Tanış-bilişdə, qonum-qonşuda yas düşən kimi dəvətsiz gəlir, mərsiyə deməklə ürəyini boşaldardı. Mən də ölüm-zülümlə tikdiyim eyvanın sökülməsi (özü də öz hesabıma sökülməsi) ittihamı ilə məhkəmələrdə uduzduqca bir növ dilim açılır. Amma mənim serenada deməyim gəlir. Gedib duracam "Baksovetin" qarşısında (Sonradan bu binanın adını nə qoyurlarsa qoysunlar. Köhnə bakılılar kimi mənimçün bura elə "Baksovetdi", vəssalam), başımda sambrero, ya kələğayı (yəqin ki, bunun heç bir rolu yoxdu) ağzımı açıb gözümü yumacam. Amma dayan, ora niyə gedim ki, məncə məni burdan da eşidərlər.

Normal insanlar bir hadisə baş verəndə ilk əvvəl özündən soruşar ki, görəsən mənim səhvim nədə olub? Gəlib gedəni artıqlamasıyla yola salmışam, dövlətin kadr siyasətinin əksinə çıxmamışam. (Alıb vermə sisteminin müəllifi mən deyiləm ki, hamının yerinə cavab verəm) Bu minvalla iki ildən artıqdı ki, bir dəstə məmuru dolandırıram. Əvəzində onlar mənə möhür və imza olan çoxluca kağız göstərib qorxudur, hər dəfə məcəllədən müxtəlif rəqəmli maddələr deyib çaş-baş qoyur və qapımıza ziyarətdən cibidolu çıxıb gedirlər. İndi 2 etap uduzandan sonra günahlarımı etiraf eləyib "Baksovet"dən halallıq almalıyam, çünki bəzi prinsipləri kobud şəkildə pozmuşam:

Eyvanımı tikərkən evin qarşısındakı tənha çinarı kəsməmişəm. O, indi beşmərtəbəli bina hündürlüyündədi, artıq yarpaqlayıb və göz oxşayır. Nə bileydim ki, onu kəsməliyəm, lazımi instansiyalardan gəlib məni cərimələməliydilər. (Əlbəttə ki, əvvəl qanun barədə bir xeyli danışandan sonra). Gör nə qədər adamı çörəksiz qoymuşam, Allah!

Sabunçu rayonu ərazisindəki çoxminlik qanunsuz eyvanlar içində təkcə mənim eyvanıma düşən şərəfin miqyasını anlamamışam. Təkcə bizim binada sayca 11-ci olan eyvanımın tarixi dəyərini başa düşüb fəxr hissi keçirməmişəm. Üstəlik hər dəfə məhkəmədə onları da misal çəkib nümunə gətirmişəm.

Mən nə cəsarətlə eyvanın iki başını kərpiclə tikmişəm, İlahi! Axı indi oğrular bizə hardan gələcək, bütün yollar bağlıdı. Hal əhli olan divar qonşumuz "lomka"sı gələndə məcbur olub qapını döyəcək və borc istəyəcək? (Qabaqlar arabir bizə gəzə-gəzə gələrdi) İldə iki dəfə havalanan o biri qonşumuz ürəyi sıxılanda harda gəzişəcəkmiş, öz evində, ya öz damında? Mən bundan sonra "uçastkovı"nın gözünə necə baxacam? Hadisənin qarşısını almaqla bir ailəni (ən azı) maaşla yaşamağa möhtac eləmişəm.

Damı şiferlə örtəndə əllərim qırılaydı. Axı binanın damının dörddə birini yağışdan qorumuşam. Bəs dam örtüyü sıradan çıxmalı, sonra evlərə dammalı, sonra binanın fasadını pis günə qoymalıydı. Sonra bina sakinləri şikayət

yazmalıydı. Bu ərizəyə baxılmalıydı, sonra vəsait ayrılıb ciblərə getməliydi. Dama bu məbləğin onda biri sərf olunmalıydı. Bəyəm mən bunu bilmirdim? Yekəbaşlıq eləmişəm.

Atdığım addımın faciəsini mən Hacıbala Abutalıbovun məktubunu oxuyandan sonra anladım. Üzü Bakıxanov dağına baxan eyvanın şəhərin görkəmini pozduğu barədə oxuyanda utanıb yerə girdim. Həqiqət beynimdə ildırım kimi çaxdı: "Özbaşnalığa son qoymalı, özbaşnalığa son qoymalı…" Sonrasını xatırlamıram.

Hələ eşitmişəm ki, ünvanımız kitaba düşüb, deyirlər heç nə eləmək olmaz. Bundan bir qədər fəxr duyuram. İndi gecələri rahat yatmaq çətinləşib. İşdən çıxarılmış MİS müdürü və baş mühəndisin taleyi rahat buraxmır. 20 il rüşvətə adətkar olmuşların çörəyinə bais oldum. İndi onlar nə edəcək?

Mən nə cəsarətlə məhkəmədən artıq tikilmiş eyvanın cəriməsini verməyi xahiş eləmişəm! Qapımıza açılmış cığırları ot bassın? Zəvvarların, məhkəmə pristavların ayağını kəsmək istəmişəm. Onlar bəyəm adam deyil, qarnı yoxdu?

Nolardı sökülərdi, 1-2 adamın başına daş düşərdi, 3-4 maşın cızılardı, bir qədər də antenna, telefon xətləri qırılardı, uzaqbaşı bir az da toz olardı. Palaza bürün, elnən sürün. Toz içində yaşamırıqmı? Onda polis gəlib ləzzətlə bizdən yazılan şikayət ərizələrini yığardı. 2 ildi ürəklərində qalıb, yazdıra bilmirlər.

Sonuncu etirafı dilə gətirmək lap çətindi. Eyvanı bəhanə gətirib artıq ikinci yazıdır ki, yazıram. Üstəlik buna görə qonorar da gözləyirəm. Başqalarının bədbəxtliyindən pul qazanmaq istəyirəm. Amma yumşaldıcı məqam kimi, xahiş edirəm nəzərə alasız ki, qapımıza gələnlərin heç birinə press kartımı göstərməmişəm. Addımbaşı jurnalist olduğunu demək özü də bir zorakılıqdı.

P.S. Çox təəssüf ki, köşənin başlığı mənim tapıntım deyil. Maqsud İbrahimbəyovun kitabının adı yazının qayəsinə çox uyğun gəlirdi ki, mənimsədim.

# Diqqətsizlərimizə

Hara baxırsan, rəngbərəng jurnallar gözünə girir. Parıltılı üz qabığına gözucu baxmaq kifayətdi, burada da kişini özünə bağlamağın 1001 fəndini aləmə yayırlar: "Qısqanclıq necədir?", "Xəyanəti açmağın 100 yolu", "Kişinin həyatının yeganə qadını olmağın 1000 üsulu" və s. Qısqanclıq və xəyanətlər barədə yazılan traktatların az qala hamısı utancaqlıq və fərdiyyətçilik hissini əsas gətirir. Yəni sənə xəyanət edirlərsə deməli özündə əmin deyilsən. Səni qısqanırlarsa bu dəfə o, natamamlıq kompleksi keçirir. Amma həyatda hər şey bu qədər sadə deyil.

Çeşidli dərgilər geninə boluna ayağı sürüşmüş kişini qaytarmağın yollarını sadalayır. Bu yerində "aldadılmış qadın" obrazı işə düşməyə başlayır. Ailə ocağının odu uğrunda yorulmaz mübariz, əzmkar, zəhmətkeş, cəfakeş qadın və s. Ailə cəbhəsinin ön falanqasında atəşə sinə gərən bu obraza qarşı ən nalayiq kişilər də bir kəlmə deməyə cəsarət etməz. Bu qadın mübariz, əzmkar obrazını təsdiqləməkçün evin kişisini ailəyə qaytarmalıdır, heç olmasa qısa müddətə. Yoxsa monoqamiyanın qələbəsi tam görünməz. Bu ürkək, incə, hər şeyi anlayan və anladıqları gözündən oxunan ənənəvi qadın obrazı evinə qaytarılmış kişi ilə daha da möhkəmlənir. Ola bilər ona qədər gəlib getməkdən cadugərlər və baxıcıların evinin kandarında deşik açıbmış. Ekstrasens olmasın, dizayn, dərzilik, ya da yoqa və autotreninq kursları olsun. Bunu qadının intellekt səviyyəsi müəyyənləşdirir. Ola bilər arada bir az arıqlamaq, saçını təbiətdə görünməmiş rəngə salmaq, ya da şəxsi biznesini açmaq olardı. Bu vacib deyil. Əsas odur ki, O evə qayıtsın!

Arada xəyanət olarsa kişi və qadının münasibəti ciddi şəkildə fərqlənir. Qadınını başqasıyla tutmuş kişi neynər? Əvvəl iştirakçıların ata-babasını söyər, sonra dediklərinin bir hissəsini həyata keçirər və daima "O necə cəsarət eləyə bilərdi axı!" fikirləşər. Hadisələr təxminən bu ssenari üzrə canlanır: əvvəl rəqibin, sonra arvadın, sonra hər ikisinin üz-gözünü "ovuşdurmaq" və

sonunda mütləq ayağısürüşkən arvadı atmaq. Ola bilər axırda, çəkdiyi əzabların mükafat kimi özünə yeni qadın tapmaq mərhələsi gələr.

Xəyanətə tuş gəlmiş qadın isə tamam fərqli düşünür. Əvvəl "ömrümü ona sərf elədim, ən yaxşı illərimi ona verdim" düşünər və mütləq "mən ailə həyatının ağırlığını daşıyarkən o, əylənirmiş" fikri ildırım kimi qadının beynində çaxar. Elə bil ki, əldən çıxmış şanslar onu ağrıdırmış, xəyanətin özü yox. Sonra "Belə olacağını bilsəydim… " mövzusunda improvizələr başlayır. Sızlayıb, zarıyıb yorulandan sonra əvvəl dünən baxdığı serialın süjetinə uyğun sevgili arzulamaq və paralel olaraq hər dəfə hələ ki, evin içində dolaşan ərə rast gəldikdə "Axı onun nəyi məndən artıqdı!" çığırıb yaxşı olar ki, uşaqların da bağrını yarmaq. Sonra xəyanətkarı atmaq fikriylə paralel arıqlamaq, saç kəsdirib yeni geyim almaq, bəzi hallarda isə nəhayət ki, yemək bişirməyi öyrənmək mərhələsi olur. Axı rəngli jurnalların bir hissəsi də ürəklərə lağım atan mətbəx sehrlərini də öyrədir.

Beləliklə, kişilər əldən getmiş illüziyalara, qadınlarsa əldən çıxmış imkanlara görə qısqanır. Qadın ərə gedərkən düşünür ki, oyun mütləq təsdiq edilmiş qaydalar üzrə olacaq. İllüziyalar puç olanda artıq ev bir düjün uşaq və qayğılarla dolu, gənclik, sağlamlıq əldən getmiş olur. Xəyanət məsələsində kişi və qadının nə qədər fərqli olduğu gözə girir. Məsələn, kişi dostunun ailəyə xəyanətini gizləməyə çalışar, nəyisə ört-basdır edər, lazım gəlsə yalan danışar. Amma qadın rəfiqəsinin ailəyə xəyanətini az qala özünə xəyanət kimi qəbul edib imkan düşən kimi ilk zərbəni özü vurar.

Qadın vəfasının bir gizli, həqiqətən də gizlədilməli olan məqamı var. Qadınlar ərlərinə qəbrə qədər vəfalı ola bilir, amma imkanı, seçimi və şansı olmadığından. Fikir vermisizsə, ömrünün sonuna kimi gözünün ucuyla yad kişiyə baxmağı ağlına gətirməyən qadınlar cavanları, estrada ulduzlarını ən sərt şəkildə tənqid edir. Çünki onların heç vaxt belə şansı olmayıb. Qısqanc kişilər dəmir barmaqlıqların qıfılını açıq qoysa hələ bilinmir nələr ola bilər. Qadın qəribə məxluqdu. O, azadlığa da, qonşunun arvadbaz kişisinə də eyni dərəcədə həsəd apara bilər. Kənarda macəralarından xəbəri olsa da kişisinin

kiməsə gül dəstəsi bağışlaması fikrində dəli olar. Çünki o, Göyçək Fatma kimi ayaqları kəndirdə olan vaxt kiminsə kraliça kimi yaşaması faktını həzm edə bilmir. Nə olsun ki, çiçəklər 2-3 günə quruyub süpürgəyə çevriləcək.

Belə bir statistika var ki, "Kişinin xəyanətiylə daha tez barışarsız, yoxsa ölümü ilə?" seçimi qarşısında əksəriyyəti dul qalmağı seçir. İtkidən sonra ağlayıb kirimək ömrünün sonunacan məşuqələr barədə lətifələrdən diksinməkdən daha yaxşı görünür. Təhqir edilmiş heysiyyət insan ömründən daha qiymətlidir. Bu da klassik sayıla biləcək bir fikir: "Ərə gedəndə qadın könüllü olaraq çoxlarının diqqətini bir nəfərin diqqətsizlyinə dəyişir". Diqqətsizlərimiz, bir az diqqətli olsanız nə olar…

## Dayan, zaman, dayan!

*Olmayan şeyi necə saxlamaq olar?*

Hamımız Zamanın əlindən yanıqlıyıq. Onun dalıyca danışırıq, az olmasından deyinirik. Nədənsə Zaman həmişə kifayət qədər olmur. Həmişə tələsirik, həmişə də lazımi işləri vaxtında çatdırmırıq. Elə bil Zaman da əlimizdən bezib, bizdən qaçır. Ömrümüzü oğurlayıb, anbaan çırpışdırıb özü də aradan çıxır.

Bəlkə hamıda olur, elə bil hər yerə gecikirsən. Ona görə yox ki, avaraçılıq edib işini planlaşdıra bilmirsən. Bütün günü işlə məşğulsan, başını qaşımağa vaxtın yoxdu, tələsirsən, amma həmişə də gecikirsən. İşlərini vaxtında çatdıra bilmirsən. Soruşan olanda hər şeyi Zamanın boynuna yıxırsan. Bu məsələdə hamı razılaşır, Zamanımız yetərli qədər deyil. Amma bəzən onun ayaq saxladığını, ya da tempinin yavaşıdığını da hiss edirsən. Bu həmişə olmur. Yalnız gündəlik işlərdən qurtulanda, istirahət etməyə harasa gedəndə, ya da sevdiyin işlə məşğul olanda. Harasa gedib cəmi bir həftədən sonra evimizə qayıdanda elə bil bir ay evdə olmamısan. Adama elə gəlir ki, telefonun sekretarı çoxlu mesaj, kompüterin isə saysız-hesabsız məktubları gizləyib

saxlayıb. Amma telefonun və kompüterin yaddaşında bir az eşələnən kimi ümidlərin qırılır. Sən demə o qədər də çox soraqlaşmırdılar. Dostlarına zəng eləyib onlardan çoxlu xəbərlər gözləyirsən. Amma məlum olur ki, olmadığın müddətdə xüsusi bir şey baş verməyib. Bu, Zamanın başımıza açdığı ən çox yayılmış oyunlarından biridir.

**Gör kimə ömür vermişik?**

Müdriklər deyir ki, Zamanın uzanması adətkarda olduğumuz mühiti tərk etəməyimizlə bağlı deyil. Vaxt ona görə addımlarını yavaşıdır ki, həyatımızda yeni hadisələrin sayı artır. Yeni mühit, yeni duyğular, təəssüratlar günləri saatları həmişə olduğundan yavaş sürməyə vadar edə bilir. Sorğular göstərir ki, məzuniyyətdən qayıtmış adamların 71 faizi Zamanın reallıqda olduğundan fərqli sürdüyünü hiss edib. Xüsusilə də lap uzaq ölkələrə səfər edənlər bunu əminliklə deyir. Belə çıxır ki Zaman bizim qəbul etdiyimiz informasiyanın qədəri ilə ölçülür. Ona görə də dəqiqələr saat qədər, günlər həftə qədər uzun görünə bilir. Qəribədi, gör ömrümüzün ölçülməsini bu qədər ayağı sürüşkən Zamana necə həvalə etmişik?

**Zaman sarsılmaz illüziyadır, o, yoxdur**

Hələ Eynşteyn deyirdi: "Bizim kimi fizikaya inananlar bilir ki, keçmiş, indi, gələcək arasında fərq sadəcə inadkar, sarsılmaz bir illüziyadır". Adamlar Zamanı ona görə tuta bilmir ki, o, yoxdur. Bütün dünyanın vaxt məsələsini sinxronlaşdıran mütəxəssislər də zamanı şərti nişanlarla uyğunlaşdırırlar və saat Zamanı ölçməkdə tamamilə acizdir. Dəqiqələr, saatlar, saniyələr-ömrümüzü böldüyümüz ölçülər heç bir təbii hadisə il bağlı deyil. Bunlar insanın kəşfidir və ömrünü çərçivəyə almağın riyazi cəhdidir. Aylar, günlər, ilin tamamı, əlbəttə ki, real təbii hadisədir. Amma ilin 12 aya bölünməsi, hər ayda günlərin sayı bunlar hamısı insanın kəşfidir və şərti xarakterlidir. Əslində nə iyul ayı var, nə də həftənin şənbə günü, nə də 2012-ci il. Yer kürəsi öz ətrafında fırlanır, ay Yerin başına, Yer isə Günəşin başına dolanır. Bu

dəyişməz sikli görən insan yüz cür təqvim uydura bilərdi. Ona görə də Maya qəbiləsinin təqvimi, qriqorian təqvimindən, müsəlman təqvimindən də çox fərqlənir. Deməli Zamanın axdığı bircə yer var ki, o da bizim başımızdadır.

**Zaman sekslə bir yerə sığınır**

Alimlər deyir ki, zaman duyğusuna bizim beynin sol yarımkürəsi cavabdehdir. Sağ yarımkürə isə sanki Zamandan kənardır. Biz hər anı ya sağ, ya da sol yarımkürəylə qavrayırıq. Sağ yarımkürə işə düşəndə Zaman yavaşıyır, ya da tamam yoxa çıxır. Yəni ki, insan yeni şəraitə düşəndə beyninin sağ yarımkürəsini işə salır. Sağ yarımkürə həm də intuisiyaya cavabdehdir. Ərazidə səmti müəyyənləşdirmə hissinə, musiqiyə, rəngkarlığa da necə deyərlər o "baxır". Zarafatı, metaforaları, sətiraltı mənanı da o, bizim qulağımızı pıçıldayır. Seks də onun müstəsna imtiyazıdır. Sağ yarımkürə bizə arzulamağa, fantaziyalara qapılmağa, müxtəlif əhvalatlar uydurmağa imkan yaradır. Bir sözlə, sağ yarımkürə bizə istirahət etmək imkanı verir. Zamanın ritmini isə sağ yarımkürənin badamvari vəzisi azaldır. Bu orqan beyinin təəssürat toplayan hissəsidir. Yaddaşda saxlanan detallar və xırdalıqlar daha çox olarsa yaşanan anın müddəti də o qədər uzanmış olur.

**An var ilə bərabər**

İşdə vaxt adətən tez keçir, yeknəsəq olur. Ətrafda hər şey həmişəki kimi olduğundan heç bir emosiya yaratmır. Ona görə də yaddaş həmin vaxtları sıxır. Ona görə də biz vaxtın uçduğunu düşünürük. Bəzən həmin ritmlə nəinki saatlar, aylar və illər də uçur. Psixoloqlar deyir ki, Zaman məsələsində uşaqlar və böyüklərin qavrayışı çox müxtəlifdir. Çocuqlar üçün bir gün bəzən bir il uzunluğunda olur. Çünki hər saniyəsi yeni, maraqlı informasiya ilə doludur. Psixoloq Teyler hesablayıb ki, bir aylıq körpə üçün bir həftə onun ömrünün dörddə biridir və ona çox uzun görünür. 14 yaşlı gəncin 1 ili onun həyatının 7 faizidir. Ona görə də kifayət qədər uzun görünür. 30 yaşında insan üçün bir həftə onun həyatının çox kiçik bir hissəsi olduğundan bir göz qırpımında

keçir. 50 yaşlı adam üçün bir il onun həyatının 2 faizidir. Ona görə də ilin necə də sürətlə uçduğunu duyur. Yalnız təəssüratlarla dolu bir həyat yaşayan zaman İnsan Zamanı yavaşıda bilər və yalnız mənalı həyatı ilə ona qalib gələr. Necə deyərlər, an var ilə bərabər.

***

Zamanı tələsdirmək fikrindəsizsə başınızı işlə qatın, televizora baxın, oxuyun, bağçada gül əkin, rəsm çəkin. Yəni həmişəki işinizlə məşğul olun. Kimisə gözləyərkən fiziki və psixoloji diskomfortu aradan götürüb narahatlığı yox edin. Onda Zaman tez ötüşəcək. Qol saatını çıxarıb gizlədin, divar saatına baxmayın ki, həmişə zaman barədə düşünməyəsiz. Zamanın tələsməsi onsuz da hər gün baş verir. Vaxtı saxlamaq istəyirsizsə məzuniyyət götürün. Yeni təəssüratlar axtarın və ətrafınızı dəyişin. Heç nəyin dərinliyinə varmayın, musiqini boğazdan yuxarı dinləyin, bir az mütaliə edin, telefonla boş-boş söhbətlər edin, təbiətdə gəzişin. Amma televizor qarşısındakı məhbus kimi oturmayın və jurnalları oxumayın. Həmin bu resept bütün həyata da yarayır. Yəni dəqiqənin hökmüylə yaşayıb saniyənin gözəlliyinə diqqət kəsiləndə Zamanın ayaq saxlamaqdan başqa çarəsi qalmır.

## Ermənilərə minnətdarlıq

Məni qınamağa tələsməyin. Bu cümləni də başlığa yanmışdığımdan çıxarmışam. Düzün desəm, artıq bu tip informasiyaları həzm eləməkdən bezmişəm: “Ermənilər filan mahnımızı oğurladı”, yaxud “Ermənilər filan mədəni abidəmizi özününküləşdirmək istəyir” və s. Bu seriyadan siyahını nağıllardakı padşahların əmr fərmanları qədər uzun-uzadı yazmaq da olardı. Amma…

Gəlin içimizin kin-küdurətini, verdiyimiz itkilərin ağrı-acısını silib ataraq hadisələrə obyektiv baxaq. Ermənilər Qarabağ torpağına göz dikməsəydi “Qarabağ bizimdi” şuarı doğulardımı? Ermənilər olmasaydı sakit, bülbüllərin cəhcəhəsindən feyzyab olan rəvan həyatımıza torpaq uğrunda mübarizə qatardıqmı? Yaxşı ki, ermənilər Topxana meşəsini qırıb çatdılar, onda minlərlə adam Azadlıq meydanına tökülüşdü. Çox əcəb elədilər ki, Qarabağı özününküləşdirməkçün tarixi faktları saxtalaşdırdılar. Əlləri qulaqlarının dibində elmi axtarışlarsız alim olanlar qəflət yuxusundan oyanıb araşdırmalar yapdılar. O qədər erməni yalanı ortaya çıxdı ki... Ermənilərin acığına nə qədər kitablar yazıldı, nə qədər tozlanmış arxiv materialları üzə çıxarıldı. Yaxşı ki, ermənilər soyqırım gününü bütün dünyaya “yedizdirdilər”. Biz bəyəm soyqırım günümüzü tanıyırdıq?

“Sarı gəlin” adlı albomun işıq üzü görməsi barədə informasiya oxuyanda o qədər gülmüşəm ki. Bu disk Azərbaycan Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunda “Bizim mahnı, bizim türkü” seriyasından çıxacaq disklərdən deyəsən birincisidir. Diskdə “Sarı gəlin” mahnısı 67 versiyada ifa edilir. Ərəb, fars, Azərbaycan dillərində, Anadolu türkcəsində… Ləzzət eləyir? Amma diskin yaradıcıları inciməsin, bu işin savabı ermənilərə düşür. Elə bil “Sarı gəlin”i ermənilər oğurlayıb dünyaya çatdırmağa bəndmiş bizimkilər. Hamı hiddətləndi, özündən çıxdı: “Necə yəni, ermənilərindi?!” deyib “Bəs eşitmirlər ki, “Sarı gəlin” şur üstündədi?” çığıraraq tələm-tələsik ortaya nəsə çıxartdılar. Deməli, istəsək hər şey alınar. Bəs nə qədər hələ oğurlanmamış mahnılarımız var. Onların taleyi necə olacaq görən? “Arşın mal alan”da Asya kimi oturub nə vaxt qaçırılacağı günü gözləyəcək?

Yaxşı ki, Qarabağdan çıxan erməni Avrovijen müsabiqəsinə gedib Ermənistanın adını hallandırdı. İnternetdə onun barədə oxuyub özümüzdən çıxdıq. Sonra papağımızı qabağımıza qoyub düşündük “Yəni bir erməni qədər də olmadıq?”. Avrovijen müsabiqəsinə adam göndərmək barədə söhbətlər neçə il sürdü. Amma “şou işartıları”nı ingilis dilini öyrənməyə məcbur eləyə bilmədi. Görürsüz, onların öhdəsindən heç ermənilər də gələ bilmir.

Yaxşı ki, ermənilər Qarayevin erməni bəstəkarı olması barədə yalanı Britanik ensiklopediyasında düz Qarayevin yubileyi ərəfəsində çap elədilər. İndi düz bir il Qarayev adına olan tədbirlərdə bu informasiya hallanacaq. Hələ nə qədər müsabiqələr, verilişlər, ithaflar olacaq. Qarayev adına konsertlər hər ay keçiriləcək.

Amma hayıf ki, rus kanallarını bağladılar. Millət Rusiya verilişlərində çıxış eləyən, müsabiqələrində jüridə oturan ermənilərə doyunca baxa bilmədi. Uzaqbaşı biz də deyərik ki, Polad Bülbüloğlunu ora desant atmışıq. Gözünüz aydın, bu yaxında Rusiya kanallarının birində bizim Polad ruslarla dəyirmi masada əyləşib lətifə deyib gülürdülər. Nə olsun ki, lətifəsinin sonunda 100 il əvvəl yazdığı mahnını çalıb oxudu. Oxudu ki.... Onlar da əl çalıb güldülər. İndi mətbuatımızda Bakıyçün burnunun ucu göynəyən ermənilərlə müsahibələri əmələ gəlməyə başlayıb. Məsələn, Karen Avanesyan Bakıya "bizim şəhər" deməyə dili də gəlir, şəhərin təkrarsız aurasını xatırlayır. Başa düşə bilmirəm, bəs niyə Yerevandan çıxan azərbaycanlılar bunu özünə görk eləyib həmən torpaqlarçün darıxmır? Yəni onların bu erməni qədər məktəbə getməsi, institutda oxuması kimi xatırlayacağı heç nə yoxuymuş?

Bu yaxında Yerevanda "Talış xalq nağılları və deyimləri" adında kitab çıxıb. Ermənilərin ağzı dada gəlib deyən indi oğurlamağa bir şey tapmırlar. Bilsəydim ki, "Bizim yol"u oxuyan heç olmaya bir erməni var, elə köşəmdəcə unudulmuş, itirilmiş, əldən gedən, yaddan çıxanların siyahısını verərdim. Görürəm kömək eləyir.

Biologiyada da belə bir üsul var. Böyük xəstəliyi zərərsizləşdirməkçün canlıya həmən xəstəliyi az dozada peyvənd eləyirlər ki, bədəni virusu tanısın. Sonra bədəndə bu xəstəliyə qarşı immunitet yaranır. Bəzən qızdırması qalxır, bəzən vəziyyəti pisləşir, amma nəticədə sağalır. Ermənilərə yoluxmuş Azərbaycan da bu saat qızdırma içində "yatır". Bu xəstəlikdən sonra mütləq "ayağa qalxmalıdı", başqa cür ola bilməz!

# Etiraf

Kişilərdən zəhləm gedir! Mən onlarçün əyləncəyə çevrilmişəm. Mən onların alçaq arzularının qulu olmuşam. Acgöz adamlar, mənim ağca, qamətli bədənimi didməyə hazırdılar. Onlar kobud əlləriylə məni əzir, sonra içimdə alov yandırırlar. Acgöz dodaqlarıyla canıma daraşıb içimdəki həyat enerjisini sovururlar. Sonra rahatlıq tapan kimi məni harda gəldi tullayıb gedirlər. Siz güman edirəm ki, mənim adi, sadə, köməksiz siqaret olduğumu ilk cümlədən anladız…

Ona görə də mən də onları sevmirəm, məndən ötrü ürəkləri getsə belə. Bu insanların axmaqlığına bir bax, sən Allah, hər il minlərlə adamın axırına çıxıram, onlarsa terrorizmlə mübarizəyə qoşulublar. Ben Ladeni, nə bilim daha hansı terrorçuları ifşa edib sevinirlər. Heç ağıllarına da gəlmir ki, hər səhər evdən çıxanda məni ciblərinə qoyub hələ bir pencəyin üstündən sığallayırlar da. Mən işimi bilənlərdənəm, gündə bir qutu siqaret çəkənin ən azı 5 il ömrünü əlindən alıram.

Bunlar heç vaxt ağıllanan deyil! Kolumb Amerikanı Hindistan adıynan kəşf eləyib Avropaya sifilis kimi axmaq xəstəliklə birgə tütünü gətirəndən bəri bütün dünyanı əlimə almışam. Yaxşı, keçmişdə bilmirdilər, indi hamıya məlumdur ki, mən qatiləm. Nikotinlə ilk dəfə qətl hadisəsi baş verəndə təqvimdə 1850-ci il idi. O boyda adamı bir neçə qram nikotinlə elə ustalıqla zəhərləmişdilər ki, xəfiyyələr ölümün səbəbini tapa bilmirdi. Qoy çəksinlər, əvəzində mən onlara iflic, ağ ciyər xərçəngi, qan azlığı, böyrək iltihabı, cinsi zəiflik, sinir pozğunluğu və üstəlik bir sıra xırda xəstəliklərdən ibarət bir buket bağışlayacam. Qoy çəksinlər və ətraflarındakı bütün adamları da zəhərləsinlər. Uşaqları duman içində böyüsün, kişilər televizor qarşısında tüstülətməkdə, qadınlar ayaqyolunda siqaret sümürməkdə olsun. Şirin həyatlarını hər səhər öskürməkdə keçirsinlər. Atalar "Axıra qalan gülər" deyib.

Televizor bar-bağırır "Siqaret çəkən ömrünü ən azı 10 il azaldır". Bunu hətta siqaret qutusunda da yazırlar. Elə bilirsən qanırlar? Hələ 50 il əvvəl alimlər uzun tədqiqatlardan sonra elan elədilər ki, siqaret çəkmək ağ ciyərin xərçəngini yaradır. İngilislər 50 il sürmüş bir layihənin nəticələrini 2001-ci ildə açıqladı. Bu eksperimentdə 34 439 siqaret çəkən iştirak edirdi. Siqaret çəkənlər başqalarından 10 əvvəl rəhmətə getdi. Elə bilirsiz ki, onların ölüm kağızında "Siqaretdən öldü" yazıldı? Yox, orda xərçəng, ürək xəstəlikləri, iflic kimi xəstəliklərin adı çəkildi. Məni aşkarlamaq asan deyil. Ölümün həddi isə 35-dən 69 yaşacan idi. Onun həddini də mən təyin eləyirəm, biləsiz! Zəmin eksperimentdəki 34 439 adamdan indiyə cəmi 5 900 adam sağdı. Onların da sağlığının səbəbi var, çünki əksəriyyəti məni ata bildi. 134 nəfəri isə mənim vəfalı dostum kimi hələ də çəkir.

Hərdən məni atmaq istəyənlərin çapalamalarını görüb gülməkdən ölürəm. Onlar elə bilir ki, məni atmaq sevdiyi qadını atmaq qədər asan olacaq. Onlar məni ata bilməz. Əksinə, mən onları tənha qoya bilərəm. Sonra soyuq evdə, təklikdə divanda yayxanıb qalanda yanında sevdiyi qadın yox, mən olacam. Şirin tüstümlə beynini dumanlandırıb "Sənə məndən başqa heç kim kömək eləyə bilməz" fikrini ona aramla içirdəcəm. Bilirəm ki, bundan sonra da dar ayaqda dost-tanışını yox, məni arayacaq. Dəfələrlə mənimlə vidalaşaraq guya son siqaretini çəkən adamlar görmüşəm. Məni son tüstüyəcən içinə çəkib həsrətlə dumana baxır, elə bilir ki, bu son görüşdü. Onlar bilmir ki, nikotin həsrəti deyilən anlayış yoxdu, onu beyinlərdə mən yaratmışam. Nə qədər ki, onlar özündə əmin deyil, məni atmayacaq və mən beyinlərdə hakim qalacam. Məni atmaq istəyənlərin əhvalı o qədər pis olur ki, nə qazandığı sağlamlığı, nədə maddi irəliləyişləri ümumi depressiya fonunda gözündə olmur.

Məni atmağın yolunu da deyə bilərəm, çünki bilirəm ki, bu hər kişinin işi deyil. 20 yaşlı cavan təsəvvür eləsin ki, bir gün səhər yataqdan qalxanda qarnı o qədər yekə olur ki, heç ortadan bükülmür. Göz qapaqlarını zorla aralayıb güclə ayağa durur. Çəkisi 65 yox, 85 kiloqramdı. Əl-ayağını tərpətməyə taqəti

yoxdu. Bütün bunlar 20 ildə yox, bir gündə baş verib. Kim ki, özünü 20 il sonraya aparıb bu vəziyyətini təsəvvür eləyə bilsə bəlkə məndən qurtular.

Mən öldürməkdə davam eləyirəm, onların bütün cəhdlərinə baxmayaraq. 1954-cü ildə İngiltərənin 80 faizi siqaret çəkirdi, indi cəmi 26 faizi. Deməli onlar ağıllanıb?! İnanmıram. Nə qədər ki, dünyada heç olmasa bir nəfər siqaret çəkən var, mən həmişə taxtda olacam. İnsanlara onu deyə bilərəm ki, əgər siz həyata bir qəpiklik qiymət verə bilirsizsə onu siqaret çəkə-çəkə yaşamaq istəyiniz çox axmaq hərəkətdi. Amma hələ də anlaya bilmirəm, onlar niyə sağlam olub yaxşı yaşamaq istəmir? Guya məni öz həyatlarından da artıq sevirlər?

## Əxlaq polisi

Məşhur brend – "Armani" firmasının pencəyi altından geyilmiş futbolka, təraş edilməmiş sifət, xrom pistolet və "Ferrari"... 90-cı illərin Amerika serialının qəhrəmanları belə görünürdü. "Mayami polisi. Əxlaq şöbəsi" adlı serialın qəhrəmanları milyonların kumirinə çevrilmişdi. "Bizdə də beləsi olaydı kaş" deyərək ağzımızın suyunu tökür və həsəd aparırdıq. Axı Krokett və Tabbs narkobaronlar, fahişələr və sairə əxlaqsız kriminal ünsürlərin öhdəsindən vertuozcasına gəlirdi. Atalar düz deyirmiş, arzularınızla ehtiyatlı olman lazımdı. "Bizdə də belə olaydı kaş" düşünüb özümüzü işə salmışıq. Axı bu günədək əxlaq məsələlərində işimiz polisə düşmürdü.

Bölgələrdən qəribə xəbərlər gəlir. Deyirlər, Naxçıvanda əl-ələ tutub gəzişən gənc oğlan və qızların polislə problemləri əmələ gəlib. Onlar şəhərin mərkəzində heç yanaşı da gəzə bilməz. Gülüşüb səs salsalar lap pis, günahlarını boynuna qoymaq lap asan olacaq. Çünki bütün bunlar "əxlaqsızlıq" maddəsi altında gedir. Xəbərlərə inansaq polis birlikdə yaxalanmış cütlükləri bölməyə aparır, təhqir edir, alçaldır və sonunda qızı

girov saxlamaq şərtilə oğlanı pul dalıyca göndərir. Məbləğ hardasa 1500-2000 manat arasındadır. Deməli, əxlaqın qiyməti bu qədərmiş? "İlişənlər"dən etiraz edəni olmayıb. Çünki polis qızın valideynlərini çağıraraq qızlarının tərbiyəsiz işlər gördüyünü danışmaqla hədələyir. Ona görə oğlan tələsik pul tapıb bu məsələni bağlayır. Naxçıvan rəsmi dairələri xəbərin yanlış olduğunu deyir. Amma məsələni ucundan-qulağından eşidənlərdən heç kim "Ola bilməz!" demir. Çünki hamı bilir ki, oralarda 1774-cü ildən bəri yaranmış feodal dövlət öz işini bildiyi istiqamətə yönəldir.

Cəmiyyət üçün əxlaq polisi təzə fikir deyil. Narkomaniya, əxlaqsızlıq içində itib-batan ölkələrdən məsələn, Rusiya bunu arabir dövlət səviyyəsində müzakirəyə çıxarır. Televiziyada, mətbuatda əxlaq məsələlərinin polisə həvalə edilməsi məsələsi tez-tez işıqlandırılır, ictimailəşdirilir. Eksperiment tərəfdarları nədənsə düşünür ki, meqapolisə 30 nəfərdən ibarət bir dəstə kifayət edə bilər. Amma bu adamların seçmə olması, mənəvi cəhətdən yetkin və dindar olması vacib şərtdir. Əxlaqsızlığın sel-su kimi axdığı ölkələrdə isə, məsələn, Dubayda əxlaq polisi çoxdandı işini relsə qoyub. İctimai yerdə davranış qaydaları tez-tez yenilənir və təzə müddəalar bura əlavə olunur. Burda yüksək səslə musiqi dinləmək, öpüşmək, içki içmək, naməhrəm qadın və kişinin əl-ələ tutması, rəqs eləməsi, soyunması, çılpaq adam rəsmi olan paltar geymək qadağandır. Bundan əlavə kişi və qadın birlikdə gəzməyə çıxıbsa mütləq üstündə kəbin kağızını götürməlidir ki, polisə göstərib təhqir eşitmədən yoluna davam edə bilsin. Orda "ilişənlər" pul verməklə canını qurtara bilmir, onlar şəriət məhkəməsi qarşısında cavab verməli olur. İşə bir bax, bütün dünya bura nəfsini ödəməkçün axışır, bunlarsa "əlindən tutmuram ki" deyib yaşmaqlanırlar. Əxlaq polisinin olub olmaması və cəmiyyətin bu məsələyə münasibətilə onun sağlamlıq dərəcəsini tam dəqiqliyilə ölçmək mümkündü.

Əxlaq polisi dedikdə ən əvvəl adamın gözünün qarşısına blokun qarşısında oturub corab toxuyan, ya tum satan qadının bina sakinlərinin həyatına göz qoyması modeli gəlir. Bu model çoxdandı ki, uğurla işini görür

və ətrafında bu boyda səs-küy yaratmırdı. Həmin bu burnunu hamının işinə soxan qarılar da məsələdən polislər qədər agah olurdu deyən işin dərinliyinə varmır və faktları yoxlamaqla başını ağrıtmır. Sadəcə fərq ondadır ki, onlar bu işi təmənnasız görür və şəxsi maraqlarını güdmürdülər. Bina evlərində bu ənənə artıq ölmüş sayıla bilər, amma həyətlərdə bir çıqqıltı olarkən pərdənin aralanması sakinlərin sakit həyatının tam qarantı ola bilər. Stəkanı divara dirəyib səsgücləndirici kimi istifadəsi artıq bu sənətin ən pik ustalıq mərhələsindən xəbər verir. Cəmiyyəti güdmək işini görən adamların əynində xüsusi forması olmaya da bilər.

Aydın məsələdir, əxlaq polisi konservativ qurumdur və müasir cəmiyyətlərdə aradan çıxmaq üzrədir. Hamı da bilir ki, nəzarəti gücləndirməkdənsə etika və mənəvi tərbiyə işinə güc vermək daha yaxşı nəticələr verir. Bircə sual rahatlıq vermir: Görəsən mənəviyyatlı polisləri yetişdirməyin metodikasını bilən varmı? Azərbaycanda polis çoxdandı ki, əxlaq məsələlərilə alver edir. Bulvarda öpüşən cütlüklərin sümsük polislərə verdiyi pulları cəmləsən möhtəşəm xeyriyyə cəmiyyəti açmaq olardı. Polis metroda, bağçalarda skamyalara sığınan, kitab, dərs oxumaq adıynan ünsiyyət qurmağa çalışan, bəlkə qismət olsa qızın əlindən tutmağı özünə səadət sayan gənclərin gözünün odunu çoxdan alıb. Təcrübəli oğlanlar "itə, qurda" verməkçün cibində azı 50 dollar gizlətməklə özlərini sığortalayır.

Biz əxlaqımızı polislərə verəcək qədər alçala bilmərik. Qız atası qızının hansısa bağçada əlinə oğlan əli toxunmasından qorxmasın. Bu ki, təbiidir. Oğlanların sevgilisinə görə rüşvət verməsi halı daha dəhşətli və fəsadlıdır. Bunun nəticələrini silməyə yüz illər lazımdır. Çünki zərbə mənəviyyata dəyir. Əgər şəhərimizdə salınan gözəl bağçalarda qız və oğlanlar cüt gəzişə bilməyəcəksə, onların yerini geylər və dəstə halında gəzib özlərini qorilla sürüsü kimi aparıb nədənsə insan adlanan oğlan dəstələri əvəz edəcək. Onlar təklənmiş qızların dalınca fit çalıb söyüş də söyəcəklər. Polislər belələrindən pul qopara bilmir...

## İçimə qar yağır

Bu qar da kı, yağanda adamdan soruşmur, içinə yağım, ya yox. Yağır, yağır, yolları, izləri aparır. Hər yer ağappaq, tərtəmiz olur. Çökəkləri, çatışmazlıqları, hətta yaramazlıqlarını elə doldurur ki, yüksəkliyinlə, ucalığınla yoxuşların arasında fərq qalmır.

Elə də olmalıdı, içinə qış gələndə qar yağmalıdı. İçimə yağan yağışı heç sevmirəm. Xüsusilə gözümdən axan sular içəri dolanda lap pis olur. Yəqin qəlbimin damı axıdır. Çölə axası sular içəri damır. Sular çıxmağa yer tapmayanda keçmişin toz-torpağıyla qarışıb palçıq yaradır. İçəridə nəmişlik olanda oturmağa, söykənməyə quru bir daş parçası da tapılmır. Ürəyimdən hər dəfə asdığım daş parçaları zaman keçdikcə ovulub toza çevrilir, natəmizlik yaradır. Sevilmədin bir daş, anlamadılar iki daş, alınmadı üç daş… Və beləcə sonsuzluğadək. Ürəkdən asılacaq daşların qəbirsanlığı yaranır. Nəm çəkmiş xatirələr, qurumamış duyğular, yaş qalmış mənlik… Fu! Təbiətin yağışı min dəfə gözəl olur, təbiiliyin qarşısında bu nədi ki! Bayırda yağış yağanda su yuyub çirki aparır. İçəridə hər şey tamam başqa cürdü. Buralarda kanalizasiya çəkən olmur. Heç qapını döyüb su pulu, kanalizasiya pulu toplayan gəlmir. İçərinin, çölünün suları göllənib qalır. İçəridə bir balaca isinişmək oldusa, gün çıxıb oraları isitdisə hamısı qurumaq əvəzinə çürüyəcək. İçinə yaz gəlməyə bəndmiş hamısı qəsdinə dayanır. Kiflənmiş xatirələri neynirəm ki?

Amma qar başqa aləmdi. Səliqəli, sahmanlı, tərtəmiz. Bircə şərti var ki, ərirməsin, içərinin şaxtası kəsilsə vay halına. Əriyib yenə də suya dönəcək. Ürəyimdən asdığım daşlarla gələn sellərin qabağın ala bilməyəcəm. Gərək bir az asta danışım. Eşidib guya məni xilas etmək adıynan tökülüşüb gələrlər. Sonra yüz il qala içəridə səliqə sahman yarada bilmərəm. Hər şey tapdaq altında qalar, amandı! Qarın bir işi var ki, heç vaxt içəridən çölə tökülmür. Uzaqbaşı yaxın gələni buzdadır, vəssalam. Asta-asta yağır, unudulmaz xatirələr kimi topalaşıb qalaqlanır. Çölün qarından fərq olaraq basanda xırçıldamaq əvəzinə inildəyir. Hərdən xirtdəyədək yağır, elə bilirsən

boğulacaqsan. İçəriyə yağan qarla qartopu oynamağa adam tapılmır. Öz-özündə oynamayacaqsan ki? Bir qırıq oyun xətrinə içəriyə adam buraxmalıyammış. Bah! Bu boyda riskmi olar?..

Vağzalı dinləməliydim, yola salmalıydım. Bəlkə hələ də gözləyir. Yox, mən getməliyəm, mütləq getməliyəm. Başa düşürsüz, mən bunu gözümlə görməliyəm. İndi mən bunlara necə başa salım ki, içimə qar yağıb, yolları kəsib, gələ bilmirəm. Mən ki, sənsiz ölmədim. Qalxıb ölüm yatağından arxanca gəlmək illərin ağırlığı altında qalmış qar örtüyünü atıb gəlməkdən asandı. Qara batsam çıxardanım olmayacaq. Bunu ki, bilirəm. Şəhərə gətirilmiş qar təmizləyən maşınları mənə icarəyə verərlərmi görən? Gəlib gedən cığırlarda iz salardım, yol açardım…

Bəlkə çoxdandı ona görə ağlamıram. Bilirəm ki, sular yenə də içimə axacaq?! Yenə palçıq! Yenə tapdanmış, əzilmiş qarın əriməsi mərasimi. Mənasızdı. Bu qarın altından heç vaxt bənövşələr bitməyəcək. Əriməsə yaxşıdı.

Buralarda gün çıxana oxşamır. Heç işığın ucu da göstərmir ki, çırmanım, yır-yığış eləyim. Yaz qabağı bir "hoh" eləyib tərləmiş qəlbimin şüşələrini təmizləyim. Yaxşı, təmizlik aparandan sonra zir-zibili hara atım? Məni hələ körpəlikdən öyrədiblər ki, ZİBİLİ ÇÖLƏ ATMAZLAR! Ona görə də qar yağsa yaxşıdı. Xımır-xımır, sakit, ustufca yağsın və hər şeyi ört-basdır eləsin. Ona görə də hamı qarın sakit yağmasına baxmağı çox sevir. İçəridə nur çatışmayanda işığı qarın işartısı əvəz edər. Hər halda daxili qarın işığı qaranlıqda kor-koranə, divarlardan tuta-tuta gəzməkdən min dəfə yaxşıdı.

# İnsan ekologiyası, fikir sanitariyası…

**Zəlzələ yaratma, İnsan!**

*Yaxud fikir zibilxanasında nə var, nə yox?*

Bu yaxınlaracan fikrə insan beynində baş verən kimyəvi, fiziki reaksiyalar kimi baxırdılar. Müasir baxışlı insanlar bilir ki, fikir də materiyadı, onun da forması, rəngi, qüvvəsi var. Yəni ki, fikir canlı olduğuyçün istehsalçısının ona verdiyi qüvvəni saxlayaraq yaradanı ilə də əlaqəsini kəsmir. Təsəvvür eləmək çətin deyil, bizim yaratdığımız fikirlər ətrafımızda uçuşur. Bunu görənlər də var…

XX əsrdə fikrin şəklini çəkmək cəhdləri də edilib. Qəddar, mənfi hisslərin yaratdığı fikrin şəkli də eybəcər alınıbmış. Çirkin əməllər kimi çirkin fikirlər də olur. Yəni ki, murdar bir işi planlaşdırmış insan fəzada dağıdıcı enerji ilə yüklənmiş məxluq yaradır. O, camaata yönəldilmiş bir ox kimi kimə gəldi dəyib tamam günahsız adamı da yaralaya bilər. Eləcə də gözəl niyyətlərlə yaranmış fikir öz ünvanına çatanacan bir xeyli adama da sevinc, sağlamlıq və uğur bəxş edə bilər. İnsan fikrinin şüalanması kosmik fəzaya qədər gedib çıxır. Fikirlərimiz fəzanı bəzədiyi kimi onu xarabazara da çevirə bilir. Müasir dünyanın kataklizmlərini, fəlakətlərini insan fikirləriylə bağlamaq bu məsələdə xeyli irəli getmək qədər bir ciddi addımdı. Heç olmasa Kosmosun xətrinə eybəcər fikirlərimizi başımızdan ata bilərik!

Pis və yaxşı fikirləri istehsal edən fabrik kimi insanlar ətraf mühiti zəhərləyib xaosa çevirir. Ətrafımızdakı boşluq, həyatımızın mənasızlığı, intiharlar, qətllərin (mənə elə gəlir ki, bu siyahını sonsuzluğa qədər uzada bilərəm) səbəbini harda axtarmalıyıq? Halımız pisləşəndə hər şeyi maqnit burulğanlarının boynuna yıxmırıqmı? Uzaqbaşı qara dəliyin, maqnit şüalanmasını suçlayarıq. Bəşəriyyət bundan daha cəsarətli etiraf eləməyə ürək eləməz.

Şəhərlərdə zəhərli qazları havaya buraxan fabriklərin işini dayandırmaqla məşğul olmalı idarələr olur. Pislik səpənlərin qarşısını kəsə biləcək qurum necə bilirsiz, işləyə bilərmi? İnsanlar məhvedici adətlərindən qurtulmağa özlərində mənəvi qüvvə tapa biləcəkmi? Bircə onu bilirəm ki, insanlar heç vaxt dilinin ucbatından, pis fikirlərdən ziyan çəkdiyini boynuna almaz. Hakimiyyətdən tutmuş qonşusunun itinəcən hamını günahkar eləyər, amma dilini dinc saxlamaz. Dilimizdəki "Dili qılınc kimi kəsir", "Qarğışın iki başı olar", "Ağzını təmiz saxla" kimi ifadələri boş yerəmi yaranıb?

Heç kim qızılgülü cibinə dürtüb qorumağa çalışmır ki? Deməli incə materiallar bir o qədər də incə rəftar tələb eləyir. Virus bədəni dağıtdığı, xəstə saldığı kimi çirkin fikirlər və mənfi emosiyalar intellektin məhvinə yönəldilib. Ağzını bədliyə açan insan özünü həqiqi ziyalı da saya bilməz. İçinin çirkətabını qəzet, televiziya, ya kitab vasitəsiylə yayanlar yalnız dağıdıcı ola bilər!

Atmosferin dağılmasıyla əlaqədar nə qədər xəstəliklər ortaya çıxıbsa mənəvi auramızın pozulmasıyla bir o qədər də fəsadlar yaranıb. Keçmişdə başbilənlərimiz hər beş ildən bir hamamın yerini dəyişərmiş. Çünki insan çiməndə bütün mənfi emosiyalarını suyla yuyub aparır. Ona görə də çiməndən sonra rahatlaşırıq. Mənfi fikirlərin, pisliklərin, qarğışların, özündə əminsizlik, çarəsizlik, ümidsizlik kimi emosiyaların axıb getdiyi aşıb daşan kanalizasiya sistemi çirkab gəzdirdiyi qədər də mənfi emosiya şüalandırır. Xəzərin bulanıq sularına baxanda onu belə bulandıranların ünvanına qarğışlar da yağdırmayın, çünki qarğış ünvanına tərifdən də tez çatır. Neynəyə bilərik, su ətrafında yaşayan xalqların taleyi həmişə çətin olur.

Emosional ekologiya anlamını əminəm ki, bizim cəmiyyət hələ ki, qəbul eləməyə hazır deyil. Məktəblərdə uşaqları təhqir edən müəllimlərdən, uşaqlarını söyən valideynlərdən başlamaq da olardı. Amma heç kimə fikir, söz, niyyət təmizliyinə məcbur eləmək olmaz. Qurtuluş yolu yalnız bilik, maariflənmə, intellektual səviyyənin artımındadı. Necə deyərlər, həmişə təmizlikdə!

## Qum saatı

*Xoşbəxtlərin saata ehtiyacı olmur*

Xalq məsəli

Saatı icad elədilər ki, insan Zamanın yüyənindən yapışa bilsin. Hər dəfə tərpənən əqrəbə, qum saatında axan vaxta baxıb bu boyda Kainatda özünü itirməsin. Bəzən günəşin də eyni vaxtda üfüqdə görünməsi daimilik effekti yarada bilər. Amma "Mən hər gün Günəşin batıb çıxdığını dəqiq bilirəm, çünki görürəm" deyən adamla mübahisə etmək çox çətindi. Ona nə cavab verəsən? Deyəsən ki, bu ilğımdır? Sonra ona planetlərin yumruluğundan, günəş ətrafındakı rəqsindən danışsan anlayarmı? Cavabında yəqin ki, əlini masaya vurub taqqıldadar "Bu maddədir, mən onu duyuram. Çünki o mövcuddur" deyər.

Yaşadığımız ev də, beynimizdə gəzdirdiyimiz və yoluxduğumuz ideya da mövcuddur. İdeyanın mövcudluğunu dəqiqləşdirməkçün həmişə sübut gətirmək lazımdı. Necə ki, Zamanın olduğunu saatla sübuta yetiririk. Evi yandırmaq, insanı öldürmək olar. İdeyanı öldür görüm, necə öldürürsən? İdeyanın olması və ölməsi də qum saatında gözümüzün qarşısında axıb gedən saniyələr kimi ələ gəlməzdi. İdeya ilə mübarizə etdikcə o böyüyür. İdeyanı öldürmək istəsən sus. Danışma, həyəcanlanma, düşünmə, onda ideya gözünün qarşısında can verəcək. Sükut evi dağıda bilməzdi, sükut daşa da heç nə edə bilməzdi, amma fikri, ideyanı darmadağın edər. Bəzən ideyalar materiyada köç salır. Kitabın məzmunu vərəqlərdə, musiqinin səsi notlarda, pulun alıcılıq qabiliyyəti əl boyda kağızda, sözün qüdrəti isə onu verilmiş enerjidə yaşayır. Yəqin ki, onlar da insan kimi salındığı qəfəsdən qurtulub əbədi yaşamaq istər.

Dünya durduqca insan əbədi yaşamaq arzusunda olub. Maykl Cekson 200 il yaşamaq istəyilə bədənini cırıq-cırıq elədi, amma əbədi həyatı dada bilmədi. Yunan mifologiyasında Eos ilahəsi sevgilisi Tifon üçün Zevsə

yalvarıb əbədi həyat ala bilmişdi. Amma əbədi cavanlıq istəmək heç ağlına da gəlməmişdi. Ona görə də sevgilisi gözünün qarşısında qocalır, amma ölmürdü. İncildə yazılıb ki, Mayusail 969 gün yaşayaraq Böyük daşqın zamanı ölmüşdü. Əbədi həyat arzusu insanları əlçatmaz xəyallara qərq edib. Oskar Uayldın qəhrəmanı Dorian Qrey də əbədi cavanlıq almışdı, amma onun günahları portretinin simasına həkk olurdu və əvəzinə qocalırdı.

Məşhur Harri Poter romanının personajı isə XV əsrdə yaşamış fransız əlkimyaçısının prototipidir. Deyilənə görə o, fəlsəfə daşını əldə edərək ölümsüzlük qazana bilib. Robert Xaynlaynın personajı Lazar Lonq isə guya vaxtaşırı qanını dəyişməklə 2 min il yaşaya bilib. Əbədi uşaq qalan Piter Pen, insan qanını içməklə həmişə cavan qalan vampirlər insanın Zamanı saxlamaq istəyində yaranan xəyalın, arzunun nəticəsidir. Kimsənin səliqəylə süzülüb əvvəl balaca təpəcik yaradan, sonra onu böyüdən qum saatını saxlamağa qüdrəti çatmaz. Onsuz da hamımız saatın əqrəbində çarmıxa çəkilmişik. Qum saatı əlimizdən gedən dəqiqələri görməyə daha yaxşı imkan yaradır. Burda elə qurulub ki, hər şey bitən, Zaman əldən gedən kimi, sonuncu qum dənəciyi yerə düşən kimi sənin əlində imkan var ki, onu baş-ayaq edəsən və hər şey yenidən başlasın. Əgər saatı çevirmək yadından çıxıbsa, amma qum səpilməyində davam edir deməli artıq qocalmısan. Bəlkə öləndə də kimsə saatımızı çevirəcək? Onda hər şey yenidən başlayacaq…

Zamanın tempi bizim səbirsizliyimizlə ölçülür. Saatlar həyatın ritminə düşür, amma həyata ritm verə bilmir. Bu insanın öz vəzifəsidir. Hətta sınmış saat da vaxtı gündə 2 dəfə düzgün göstərir. Hətta bir neçə il sonra bu “uğuru” ilə fəxr etməyi də özünə icazə verir. “Sona nə qədər qalıb?” sualına cavab verən saat hələ ki, yoxdu. İnsan da saatın əqrəbinə, səpilən qumun ritminə uyğunlaşıb çarəsizcəsinə ömür sürür və sonunda qum saatını bir daha çevirəcək kimsəylə görüşünə hazırlaşır…

P.S. Əbədi mövzularda yazmaq cəhdimi yəqin ki, mənə bağışlayarsız. İnsan musiqidən başı çıxmadığını, riyaziyyatda sıfır olduğunu, baletdən bir

şey qanmadığını boynuna alar. Amma o, həmişə əbədi mövzuda fikir yürütmək və suallara cavab axtarmaq haqqını kimsəyə verməz.

## Kişi başdır, qadınsa onun boynu

*Hara istəsə fırlada bilirmi?*

Gözyaşardıcı və tükürpədici bir statistika var, qadınların heç də hamısı kişinin pulunu istədiyi kimi xərcləməyi bacarmır. Daha doğrusu kişinin qazandığı pulu arzularına yönəltmək, lazım olarsa brilyant kolye və şubanı dava-şavasız, göz yaşları olmadan və inciklilksiz əldə etmək qadın meyarlarıyla yüksək səviyyə və ustadlıq tələb edir. Dediyimiz bu keyfiyyət heç də anadangəlmə deyil.

Kişilərin pulunu əlindən almağın ən ağrısız yollarını öyrədən kursların reklamına İnternetdə hər tinbaşı rast gələ bilərsən. Bir qədər köçürmə etmək imkanın olarsa kursları onlayn əldə edib gizlincə qadınların dünya praktikasını evindəcə öyrənmək mümkündür. Bir maneə var, kurslar ingilis və rus dillərindədir. Elə bil ki, Azərbaycan qadınına kişinin pulunu ələ keçirmək heç lazım da deyilmiş. Səbəbi sadədir, informasiya texnologiyaları burda kişilərin əlində təmərküzləşib və milli kadrlar belə sıxıntı şəraitində yetişə bilmir. Amma informasiyalar minilliklər əvvəl olduğu kimi şifahi şəkildə dildən-dilə ötürülür ki, ənənələr itməsin. Kişilər, bilin, 3 qadın bir yerə toplaşıbsa sonunda siz xərcə düşəcəksiz. Kiməsə təcili şəkildə yeni tozsoran, qabyuyan maşın, yaxud emosiyaları yüksək tonusda saxlaya biləcək bahalı bəzək əşyası lazım olacaq.

Qadına şubasız, brilliantsız, nəvazişsiz, şamlarla bəzənmiş qiyamət restoranda şam yeməyi olmayan, qızılgül ləçəkləri səpilmiş yataqda yatmağın mümkünsüzlüyünü anladığın bu qəddar dünyada yaşamaq çox çətindir. Qadınların seriallar və melodramlara olan anlaşılmaz bağlılığının əsas səbəbi burada gizlənir. Arabir bu acı həqiqət qadın məclislərində də səslənməyilə neçə qadının iç dünyasını dağıdır: Kişilərin qadına sevgisi ona xərclədiyi

pulun miqdarı ilə ölçülür. Bu aksioma səslənən kimi əksəriyyəti duruxur, tez-tələsik həyatını beynindən keçirib qənaətcil yaşamına dəyər verir, özünü toxdada bilməyənlər dinməzcə göz yaşı axıdır və susur. Bəli, dünyanın ən murdar erkəyində də, ən dəyərli kişisində də eyni model işləyir, bunu danmaq olmaz. Kişilər bizim sonuncu silahımızı - qadın kaprizlərini də əlimizdən almaq fikrindədir.

Qəddar XX əsrin kişisi belə də danışa bilir: "Hə... İndi təzəsini tapmaq köhnə rəfiqənə yeni dublyonka almaqdan daha rahatdır" – "Əlbəttə, mənimki özü mənə dublyonka alar ki, təki heç yerə getməyim". Bu da qadının əlinin pula çatmasının yeni fəsadları. Bununla belə ən varlı, imkanlı qadın kişidən dəyərli hədiyyə almaq barədə olan xəyallarından əl çəkmir. "Güclü qadınlar" deyir ki, özündən güclüsünə rast gəlməkçün hər şeyi qurban verərdi. Kişinin cibinə girməyin ən təhlükəsiz yolları hər qadının qarşısına qoyduğu əbədi məsələdir.

Tərs kimi internetdəki reklamlar rahat buraxmır: "Rəfiqənə avtomobil bağışladılar? Sənə isə bir dəstə gül də qıyan yoxdur! Necə edəsən ki, dünyanın nemətlərini ayaqlarının altına səpələsinlər? Kurs dünya erotika tarixindən faktlar və psixologiya sahəsində elmin ən yeni nailiyyətləriylə zənginləşdirilib". Heç kim bu reklama etinasız qala bilməz. "Pul yoxdur, olanda alaram" bəhanəsini həyatı boyu eşitmişləri bir yerə toplasan ölkənin qadın əhalisi ilə üst-üstə düşər. Onlayn kurslar ilk əvvəl kişilərin təsnifatı və tanışlıqla başlayır. Kişilərin cikini-bikini də bilirəm – cibində siçanlar oynayan kişilərin siyahısı budur, onlardən bəribaşdan əl çəkməyimiz lazım: tələbələr, patoloji alfonslar, bacarıqsız işi nəhs gətirənlər, təşəbbüssüzlər, daimi axtarışda olanlar, yalançılar, əbədiliyə can atan alturistlər, evdar kişilər. Ətrafdakıları bu siyahı üzrə saf-çürük edəndən sonra yerdə bir kişi növü də qalır - başqasının əri. Onu da siyahıya əlavə edib yerdə qalan kadrlarla məşğələyə başlamaq lazımdır.

"Kişi başdır, qadınsa onun boynudur, hara istəsə fırlada bilər" ifadəsi içki məclislərinin ən sevimli sitatıdır. Kişilər ayıq başla bu cümləni dilinə

gətirməyə ürək eləməz. Bu cümlə ilə yaraqlanandan sonra bəzi müddəaları qanun kimi yadda saxlamalıyıq. Onlayn müəllimlər deyir ki, heç vaxt kişidən hədiyyə kimi pul götürməyin. Qoy çalışsın, hədiyyə axtararaq başını ağrıtsın, bütün günü sənin barəndə fikri başından ata bilməsin. Əlbəttə, kişi daşdı, qayadı, ona söykənməyin gəlir. Qadınsa sudur, formasızdı, axardı, uyğunlaşandı. Qaya və suyun qarşılıqlı münasibətindən ən mötəbər informasiyanı ləpədöyəndə ovulub yumurlaşmış daşlar, damcılamaqdan deşilmiş qaya parçaları deyər. Su kənarında olan qaya parçalarının ovulmaqdan başqa şansı yox. Toy gününün ildönümü, ad günləri, tanış olduğunuz gün, istəsəz lap saatı, rastlaşdığınız tarix, ilk öpüş, ilk baxış - bunlar hərəsi bir damla olub qayanı elə asanlıqla ovur ki…

Şuba əldə etməyin texnologiyası isə fərqlidir. Onun mövsümü artıq başlayıb. Bəli, avqustun cırhacırında bu barədə tədbir tökməyənlər özünü gecikmiş saya bilər. Payız gələn kimi, xəzri əsən kimi əməliyyat işə düşməlidir. Söhbəti soyuq, yağışlı gündə ona sığınıb gəzişərkən başlamaq lazımdır: "Yaman üşüyənəm, heç yayda da soyuq canımdan çıxmadı. Əyin başım fərli deyil də…" deyib mütləq susmaq lazımdır. Obyekt ilk qarmağı artıq uddu. Bir həftə sonra yenə də dilinə şuba sözünü gətirib daha bir aylıq susmaq vacibdir. Sonra bahalı hədiyyə almış, ola bilər uydurulmuş rəfiqənin ərini gen-bol tərifləmək lazımdır. Amma paralellər aparmadan. Kişiyə bu məqamda danışmaq imkanı yaratmayın. O, nə qədər çox danışsa, bir o qədər az edəcək. Kişi susursa şuba gəzdirmək şansı artır. "Şuba nəyinə lazımdır"? kimi qəfil sual da ola bilər. "Soyuq çəkirəm deyə tez-tez xəstələnirəm" deyib keyfiyyətsiz seks aktlarına eyham vurmaq da olar. Ola bilər bu məqamda şubanı sekslə eyniləşdirən qadınlara ikrah duyan kişilərin etirazları eşidiləcək. Bəzən bu əməliyyatı kişinin pulu olana qədər təxirə salmaq daha səmərəli olardı. Kişilərin pulu ilə birgə bicliyinin də artmasını nəzərdən qaçırmayın. Deməli, ayaqyolunda əynində çılpaq bədənə şuba geymiş gözəlçənin fotosunu yapışdırmaq məqamıdır. Əgər o, bu boyda eyhamı anlamayacaq qədər

gönüqalınsa, bircə yol qalır. Həmin qızın başını kəsib yerinə öz fotonu yapışdırmaq. Arxayın olun, kişilər vizualizasiya məsələsində geri qalmır.

Ola bilər, bundan sonra da alınmayacaq. Məyus olmayın. Biz istedadlıyıq, gözəlik, bacarıqlıyıq. Biz onların xətrinə plov süzüb altına qoyun ətindən döşəmə düzməyi öyrənmişik. Biz dünyanın ən çətin gedən ləkələrini yumağın min yolunu bilirik. İstəsələr, lap tanqo oynamağı da öyrənərik. Bir şuba nədir ki, göydən ulduz dərməyi də boyunlarına qoyarıq. Özləri vəd verib, boşluq məqamında…

## Küçələrə su səpmişəm

*Ki, yar gələndə toz olmasın*

Bu dəfə yoldan yazasıydım. Keçdiyim bütün yolları saf çürük eləyib, yaxşılığa və pisliyə aparan yolları bir daha fikrimdən keçirib adi yoldan yazasıydım. O yolu ki, hər gün keçirik, pisliyinə, yaxşılığına baxmadan, sonuna varmadan, addım-addım... Adi yoldan adətən yazmırlar. Evə, işə aparan yollar heç kimi narahat eləmir. Gözümüz öyrəşib, adiləşib. Onun nə pisliyini, nə də yaxşılığını görmürük. Ayağını evdən bayıra atan kimi yol mövzusu ötkəm uşaqlar kimi gəlib üzünə dayanır ki, məndən birinci yazmalısan. Həqiqətən də Bakıdan kənarda yol birinci məsələymiş, heç bilməmişəm.

Elə bilirdim ki, maşının şüşəsindən ətraf mənzərəni seyr elədikcə mövzular beynimdə çeşmə kimi çağlayacaq və mən onları unutmamaqçün hətta qeydlər eləməli olacam. Yola çıxanı dedim ki, azı bir həftəlik mövzum var, yəqin. Amma yol qoydu ki, nəsə yazım. Daha doğrusu yolsuzluq imkan vermədi. Sən demə maşın araba kimi çalxalananda beynindəki ideyaları da yarı yolda salıb itirirsən. Şəhərin içində pis-yaxşı yol gedəndə ayaqqabıya bir az toz qonan kimi deyinirik. Nə var ki, bir balaca asfalt hardasa sökükmüş, ya

da çökəkliyə bir qədər su dolub gölməçə yaradıb. Amma yolsuz yaşayanlar varmış. A qardaş yolsuz olmur, vallah olmur.

Yolun bir ucundan tutub dalıyca düşək, görək hara aparır. Bəs yollar necə əmələ gəlir ki? Birisi məqsəd güdərək istiqamət seçir. Həmən açılmamış cığırlarda izini qoyur. Az keçməmiş başqa birisi bəlkə də tanımadığı, bilmədiyi istiqamətdə ləpirlər görür və onu maraq götürür. İzi tutub ardınca gedəndə heç düşünmür ki, bu yolda öz ləpirlərini də qoyur. Bu cığırı 3-cü, 5-ci, 15-cisi keçəndə məqsəd də, istiqamət də aydınlaşır. Sonrakılar hara getdiyini də, yolun sonunu da yaxşı bilirlər. Bu yolda birincilərlə ardıcılların görüşəcəyi artıq önəmli deyil. Əsas yolun olmasıdır. Birincilərə yolundan azmağı bağışlayarlar, amma yoldan çıxmağı yox. Çünki birinci olan bilməlidir ki, ardınca gələn var və mütləq də olacaq. Yol varsa deməli məqsəd var, inkişaf var, axtarış var. Milləti məqsədiylə ölçürlərsə ölkəni yollarıyla dəyərləndirirlər. Sivil ölkələrdə yolların vəziyyəti xalqın yaşamıyla ölçülür. Axı yol bir nəfərin işi deyil, hamının işidir. Bu yollarda hamının izi var. Yolun harasa aparmaqdan başqa harasa çatdırmaq adəti də var. Yolun sonunda mütləq nəsə yaxşı bir şey olmasa yolçular ruhdan düşər. Məqsədinin mənasızlığını görüb ümidləri qırılar. Deyirəm yolsuz düşmənin də olmasın. Yolun axırında gözəl güzarın, azad Vətən, taleyini öz əlində saxlaya bilən millət, ya da heç olmasa Qarabağ dayanmalıdı. Rusiyaya, xaricə qazanc dalıyca gedən yollarda itkilərimiz çox olur. Düzdü, oralarda yollar deyilənə görə çox yaxşıdı. Şüşə kimi yollarda şütümək ləzzət verər yəqin… Amma bu ki, bizim yolumuz deyil.

Öz aramızdı, yollarımız pis gündədir a… Yolumuzun apardığı yerlər də yaxşıdı, yolçularımız da. Bircə yolları söküb tökmüşük ki, guya təmir edirik. Bəs yolları sökənlər bilmir ki, yolu sökəndə ehtiyat yol çəkilməlidir?! Yolsuz olmur, a qardaş, heç olmur. Ölkəni yeni istiqamətdə yönəldəndə də ehtiyat yolu olmalıdır. Yoxsa azarıq, vallah azarıq. Ehtiyat yol, ehtiyat paraşütü kimi bir şeydi. Düzdü, hərdən o da vaxtında açılmır.

İndi desəm gəl düş dalıma təzə yol açaq bir axsaq, iki dəli, bir gic düşər yanıma ki, gəl getdik. Ağıllı və tədbirlilərdən yol açanlar çıxmır. Ağıllıların keçdiyi enli, geniş yolların nə vaxtsa dəlinin birisi açıb, kəşf eləyib. İndi özün bil, dəlinin dalıyca düşəcəksən, yoxsa ağılı və tədbirlinin. Onu da bil ki, dəli olmaq hər kəsin hünəri deyil.

Ömür yolunusa hər kəs özü seçir. Mütləq ölümə aparan ömür yollarında adətən tək olursan. Ömür yolları birləşib böyük geniş bir yola çevriləndə hamıya rahat olur. Büdrəyəndə yanında söykənməyə kimsən olsa sona çatanda ruhdan düşmüş olmursan. Parçalanıb pərən-pərən olanda yolun daş-kəsəyi ayaqlarını dağıdır, dabanlarını çatladır. Amma bu yoldan çıxmağı heç kimin hünəri çatmaz.

.... Yoldan uzun-uzadı da yazmaq olar, lap qısa, mənalı da. Amma yol haqqında improvizəyə sonluq vermək çətindi. Yolun sonu olmasa daha yaxşıdı. Yazının da sonluqsuz olması növbəti yazıya əl yeri qoyur. Bəlkə də bu, sadəcə mənim fantaziyamdı...

P. S. Eşitmişəm ki, osmanlı türkləri korrupsiya və rüşvətxorluğa yolsuzluq deyirlər. Səmtini bilməyənlərə, Allahını itirənlərə qoşulmayın amandı!.

## Kişilər günü

Milli ordu günümüzdü. Silahlı qüvvələrin imkanlarının nümayişi gözlənilir. Müharibə qəhrəmanlarını danışdıracaq, müharibə əlillərini qısamüddətli yad edəcək, müdrik adamların gözüylə baxanda, əslində bir yığın dəmir-dümür olan silah-sursatımızı məchul düşmənimizin gözünə soxacağıq. Sülh zamanı düşmən obrazı məchul olur və döyüş çağırışları konkret ünvansız olduğundan mənasız səslənir.

Hərbi kuluarlarda üçüncü dünya müharibəsi barədə söhbətlər səngimir. Dünyanın gərdişindən xəbər verməyi işi-peşəsi sayan öncəgörmələr də durmadan müharibə anonsları verməkdədi. İkinci dünya savaşı bitən kimi növbəti müharibə barədə öncəgörməliklər insanları sarsıdırdı. Ekstrasenslər növbəti müharibəni 1962-ci ilə təyin etməklə hamını təlaşda saxlayırdı. İl gəldi, müharibə olmadı və tarix bir qədər də geri çəkildi. Sonra 1965-in noyabrı, 1976, 1977, 1983, 1991, 1994, 1996, 1997-nin payızı da oldu. 1998-2010 arası, 1999 (P. Raban), 2000, 2002, 2003 (Qlazkova), 21 iyun 2002 (Nostradamus), 2005-2006 (Reps), 2013 2015, 2021 (Poklad) 2030 (Polas), 2033, 2035 və başqa tarixlərdə dünya savaşına start veriləcəyi barədə xəbərlər eşitmişik. Azərbaycanlı ekstrasens Məlahət Nəzərovanın versiyasına görə dünya savaşı 2017-ci ilə düşür. Yaşayaq, baxarıq hələ. Deyilənə görə bu dəfə dünya havalansa və savaşmaq fikrinə düşsə burdan salamat çıxan olmayacaq. Bütün bu öncəgörməliyin maraqlı ümumi cəhəti var. Heç kim 2050-ci ildən o yana müharibə xəbərlərini gətirmir. Ya vuruşmağa bir kəs olmayacaq, ya da biz ağıllanacağıq. Soruşarsız ki, bu illəri nədən sadaladım? Bəs biz bilməyək ki, nümayişə çıxarılan bu boyda silahımızı hansı tarixdə işə salacağıq?

Günün yeniliyi odur ki, nəhayət kişilərin özünün fərdi, təqvimdə ayrıca qırmızı rəqəmlə qeyd olunan bayramı oldu. Buna qədər ordu günü vardısa da, iş günü idi və bayramın səbəbkarları həmişəki kimi belə əlamətdar gündə də çalışırdılar. Arabir təqvimin qırmızı günü 8 mart və adi iş günü olan 26 iyin arasında paralellər çəkib bunun bir qədər haqsızlıq olduğunu düşünənlər də olurdu. Əlbəttə, əsl kişilər paxıllıq çəkməz və bunu heç vaxt dilinə gətirməz. Amma yəqin bilməmiş olmazsız, kişilər də sığal sevir və buna görə ayrılmış bir gün olarsa, onu əldən buraxmaz.

İndi isə bir qədər fantaziyamızı işə salıb 26 iyunda səhər işə getməkçün tələsməyən kişilərimizin həyatında əmələ gələcək yenilikləri canlandırmağa çalışaq. 8 martda qadınlara gül dəstələri bağışlanır, hədiyyələr verilir, bir qədər şişirdilmiş nəvazişli sözlər deyilir. Bütün bunlar olmasa heç olmasa

qadını bir günlük məişət qayğılarından azad edib "Axı sən qadınsan, qab yuyan (paltar yuyan, ev yuyan, yemək bişirən) maşın deyilsən!" silsiləsindən sözlər deyirlər. Düzdür, hər 8 martda gözünü açan kimi yatağına büğlanan kofe gətirməyi gözləyən abırsız qadınlar da az deyil. Kişilər, fərdi bayramınız olmaqla həyatınızda nələrsə dəyişəcəkmi? Sizi hər gün olduğu kimi süfrənin başında otuzduracaqlar. Süfrəni həmişəki kimi bəzəyib yeməkləri hazır şəkildə qabağınıza qoyacaqlar. Həmişəki kimi təriflə sözlər eşidəcəksiz və özünüzdən razı halda yaşamağa davam edəcəksiz. İstəsəz gündən istifadə edib yumruğunuzu masaya çırpa da bilərsiz, həmişəki kimi. Amma gözləməyin ki, bayram xətrinə qadınlar çırmanıb əvəzinizə vuruşmağa gedəcək.

Milli ordu gününün 8 martdan bir qədər aralı olması lap yerinə düşdü. Yoxsa ki, qabaqlar 23 fevralda bir oğlana hədiyyə vermək həm də bir aydan az müddətdə əvəzinə daha qiymətli hədiyyə gözləmək kimi görünürdü. 8 martda hədiyyə almış qadının bir müddət düşünüb qərar verməyə vaxtı əmələ gəlir, yəni tələsik nəticələr çıxarmaq lazım deyil. Etiraf eləməliyik, 23 fevralda kişilərə corab, qalstuk, uzaqbaşı bir odekolon verirdik. Kişiyə görə xərcə düşmək qadınların adəti deyil. Üstəlik indiyədək keçmiş sovet ordusu günündə hələ də kişiləri təbrik edən bəzi-bəzi adamlara göz süzdürüb “Bizim öz ordu günümüz var!" deyə bilərik - "Özü də iş günü deyil!”

Ölkədəki psixoloji və ən vacibi hərbi durum bu mövzuda lətifələrin doğulmasına əsas yaratmır. Bu da bayramın hələ cavan olduğundan xəbər verir. 8 mart və 23 fevral barədə minlərlə lətifə var. Milli bayramın öz milli lətifələri də olmalıdı! Kişilər, nəzərə alın ki, öz bayramınız olsa da, qadınlar bu gündə də sizi xərcə salacaq və sizin bayramı da öz xeyirlərinə istifadə edəcəklər. Məsələn, bu standart situasiyanı təsəvvür etmək çətin deyil: Başına pərvanə kimi dolanmaqdan gicəllənmiş kişi günün sonunda lap xumar olub. Qadın tədbirli olub kişisini yedizdirib içizdirəndən sonra yaxınlıqdakı strateji nöqtələri ələ keçirir. Bir qədər də yaxın oturub lap qulağının dibində intim səslə deyir: “Əzizim, sən yaxşı döyüşçü olmusan, hə?”. Cavabını gözləmədən

davam edir: “Tüfəngdir, tapançadır, tankdır hamısından başın çıxır?”. Sualların cavabında nə olacağı vacib deyil. Çünki milli ordu günündə də kişisindən hədiyyə uman qadın bir az da irəliləyir: “Onda mənə Qarabağı alarsan?.. Bax, qonşu ölkədə bir qadın kişisindən krem istədi. Kişisi o bayda Krımı atdı onun ayaqları altına. İndi o, kolyaska istəməyə belə qorxur, deyir Alyaskadakılara yazığım gəlir. Bax, sən də alası olsan Qarabağı paralayıb alma, bütöv götür. Sən ki, Qarabağın yerini unutmamısan ki...”

## Kişilər çəhrayı ətəyi nədən geyər?

Sosial şəbəkədə paylaşılan milyonlarla məzəli, ağlamalı, mənalı fotoların içində çəhrayı rəngli ətəkdə, qırçınlı balet kostyumu geymiş kişinin fotosunu görən hər kəs yəqin ki, əvvəlcə gülümsəyər. “Yəqin kimsə darıxır”, ya da “Camaatın məzələnməyi gələndə lap həddini aşır” düşünərik. Ədəb-ərkan məsələlərini doğmalaşdıranlarsa “Abırsızın biri, Allah bilir nə murdar əməli var” deyib ikrahla üzünü çevirər.

Sosial şəbəkənin illər uzunu daimi qonağı olanlarsa bu çəhrayı balet paçkasını əynindən çıxarmayan kişinin fotolarını da, özünü də tanıyır və həyat hekayəsini də eşitmiş olar. Hekayət 2003-cü ildə başlayıb, Bob Kerinin həyat yoldaşında döşün xərçəngini tapandan sonra. Hamı xərçəngin nə qədər ağrılı və bahalı proses olduğunu bilir. Bu ailə ruhdan düşməməyi qərara aldı. Nəinki ruhdan düşməməyi, hətta ölümün üzünə gülməyi də bacardı. Bob Keri hər dəfə ağrılı, əzablı müalicə prosesini keçməli olan həyat yoldaşının üzündə təbəssüm görmək üçün bu vasitəni düşünüb tapdı. Yoldaşı xəstəxanada dərmanların təsiri altında olanda o, qadaqcadan hazırladığı fotoları onun telefonuna göndərməyə başlayırdı: “Eybi yox, qoy rəfiqələri ilə birgə mənim

fotolarıma baxıb doyunca gülsün. Onun üzündə təbəssüm görməkçün hər şeyə gedərəm".

Fotolar həqiqətən gülməlidi. Pəzəvəng, enlikürək, tüklü bir kişi çılpaq bədəninə bircə qırçınlı balet paçkası geyib poza verir. O, gah göl kənarında oturub suya atdığı daşın yaratdığı dairələrə baxır. Gah da yaşıl çəməndə mal-qara arasında çəhrayı ətəyi ilə heyvanları çaş-baş qoyur. Bob opera səhnəsində əlində gitarası ilə dayanıb bu səssiz pozada çəkdiyi bütün duyğuları çatdıra bilib. O, dəniz kənarı qumsalın hüdudsuzluğu fonunda dəli kimi şıllaq atanda da, qarda ayaqyalın dayanıb ağappaq qarın təmizliyinə təbəssüm qatanda da romantik deyil, naqolay görünür. Bu fotolara baxanda onun arvadı gülməyini saxlaya bilmirdi. Balerina pozasında durmuş bir kişi gülməli görünməyə bilməzdi. 2003-cü ildə müalicə təsiri altında geri çəkilmiş xərçəng xəstəliyi 2006-cı ildə geri qayıtdı. Onda Bob həyat yoldaşı üçün çəkdiyi fotoları bir alboma toplayıb "Balerina" adı altında çap etdirdi ki, bu dəfə təbəssümə, xoş emosiyaya ehtiyacı olanların karına gələ bilsin. Hazırda bu iri bir cərəyandır və süd vəzisinin xərçəngi ilə mübarizə aparır. Metroda şütüyən qatarların fonunda, mərmər üstündə ayaqyalın dayanmış Bob bir təsəlliyə ehtiyacı olan hər kəsə bildirmək istəyir ki, onlar tənha deyillər. Axı balet paçkasını geyib adam arasına çıxmağa utanmayan bir kişi də var.

Bob və Linda çox yaxşı bilir ki, xərçəngə qalib gəlmək nə qədər çətin və nə qədər bahalıdır. Ona görə də bu ailə xərçəng xəstələri üçün ianə toplamaqla məşğuldur. Həyat yoldaşı sağalandan sonra da Bob bu işdən əl çəkmədi. Bu fotolar o qədər pozitiv rəy alıb, o qədər adama müsbət təsir edib ki… Çəhrayı ətəyini geyib ağlagəlməz yerlərdə foto çəkdirmiş bir kişinin həyat hekayəsini agah edən "Balerina" albomundan gələn xeyir süd vəzisinin müalicəsi istiqamətində gedən tədqiqatlara xərclənir. "Xərçəng bizə yaşamağı öyrətdi. Bəzən bizim edə biləcəyimiz bir şey varsa, o da özümüzə gülməyi bacarmaq və bu gülüşü başqalarıyla bölə bilməyimizdir".

Bob Keri özü də yaxşı bilir ki, çəhrayı ətək yox, Rembo kimi başını bağlayıb üzünə qara hiss çəksəydi, ya da transformer kimi bəzənsəydi, lap bəd

ayaqda Mikki Maus kimi görünsəydi də gülməli olardı. Axı enlikürək kişilərə əlində silah tutmaq daha çox yaraşır. Amma o, bu anda özünü düşünmürdü. Bu dünyada dava-dava oynayaraq böyüyən kişiləri dəyişdirə biləcək bir qüvvə var, o da sevgidir. Sevgi hər yerdədir. Günəşin şəfəqlərində, pişiyin mırıltısında, əzizlərinə qarşı nəvazişdə, ananın fədakarlığında, atalar və oğullar arasındakı münasibətdə, itkidə, ağrıda... Bu planetdə ən güclü duyğudur o! O, bizi yaşamağa məcbur edir, hətta həyatımızda hər şey başayaq çevrilibsə məhv olmağa qoymur.

Bizim bir-birimizin sevgisinə ehtiyacımız var. Həkimlər bunu daha yaxşı bilir, vaxtından qabaq doğulmuş uşaqları qucaqlayanda onlar ölümə qarşı daha dözümlü olurlar. Özü də körpəni paltarın üstündən deyil, çılpaq bədənə sıxmaq lazımdı. Kitablar nə deyir desin, amma qucaqda böyüyən uşaqlar daha sevimli və həyata davamlı olur. Əkizlərdən biri zəif doğulubsa onu sağlam tayı ilə bir yerdə yatızdıranda onun yaşamaq şansı artır. Əkizlər bəzən bir-birinə sığınıb həyatdan beləcə ikiəlli yapışırlar. Bütün insanların da nəvazişə, sığala, mehribanlığa olduğu qədər duyğularını paylaşmağa, kimisə əzizləməyə, başını sığallamağa ehtiyacı var. Bəlkə kimsə bunu etiraf edəcək qədər güclü deyil və dodaqlarını qanayanadək sıxıb sevgi sözlərini içində boğur. Hər kəsdə çəhrayı ətək geyəcək qədər böyük ürək olmur. Cəmiyyətin qabalaşdığı, kobudlaşdığı bir zamanda mərhəmət, nəvaziş və sevgi düşmən cərgələrinə buraxılmış desant kimi işləməyə başlayacaq. Emosiyaların ipini buraxın, görək nə olur...

## Mamontun ölümqabağı monoloqu

*Arzular qəbiristanı, xülyalar məzarlığı – Azərbaycanım mənim*

Bir vaxtlar mənə “itmiş nəslin nümayəndəsi” deyəndə möhkəm incimişdim. O adamla bir möhkəm mübahisə eləyib cəmiyyətə, insanlara və ən nəhayət özümə çox lazım olduğumu sübuta yetirməkçün bir torba sübut-dəlil də tapıb sadalamışdım. İtmiş nəsil deyəndə gəncliyi Sovet rejimindən indi müstəqillik adlandırılan şəraitə keçid dövründə özünü təsdiqləməyə çalışan insanları nəzərdə tuturlar.

Bəli, mən itmiş, batmış nəslin hələ ölməmiş bir adamıyam! Əgər lazımdısa məni tarix muzeyinin eksponatı da elan eləyə bilərsiz, incimərəm. Vaxtaşırı “Sehrli xalat” filmində vitrinə qoyulmuş xan kimi mən də muzeyə heç vaxt gəlməyən tamaşaçılarçün şüşənin arxasından gülümsəyə də bilərəm. Eşidirsiz? Au...u..u.. Biz hələ ölməmişik! Mən bu sözləri lap Qız qalasının başından da çığırsam onsuz da heç kim eşitməyəcək.

İndicə başını bulayıb “depressiyadır” deyənlərin nəzərinə: “Bu depressiya deyil, reallıqdır!”. Fikirlərimin təsdiqini həmişəki kimi internetdə axtarıram. Məsələn, bir həftədi ki, Rostropoviç adına festival konsert salonlarında “guruldayır”. Bu xəbəri informasiya agentliklərində soraqlaşıram, gördüm deyən tapılmır. Qabaqlar, çox uzaq yox, cəmi 10 il öncə belə xəbərlərin heç olmasa informasiya şəklində verilməsi qəzetlərin imic məsələsiydi. Yəni ki, xəbərimiz var, ha..., elə bilməyin, nadan-zad deyilik ki?! Ya da konsertdən, sərgidən əvvəl nəsə yazılardı ki, bəlkə gedən tapılar. Problem belə tədbirlərin tamaşaçısı məsələsində deyil. Sərgilərin də, konsertlərin də öz tamaşaçısı var. Onlar da bütün normal insanlar kimi öz bəyəndikləri musiqini dinləməkçün bilet, dəvətnamə soraqlaşıb tapanda uşaq kimi sevinirlər. Məsələ cəmiyyətin onlara dəli kimi baxmasındadı! Mən də bu «dəlilərə» qoşulub konsertlərdən

birində ləzzət almışdım. Amerikada yaşayıb dərs deyən gürcüstanlı pianoçunun çalğısında bir dünya yenilik kəşf eləmişdim. Sən demə, belə çalğı tərzi də varmış, əsəri bax belə interpretasiya eləmək də mümkünmüş?! Biz ən yaxşı halda rus ifaçılıq məktəbini tanıyır, onların qrammofon vallarının səsi altında böyümüşük. Konsertdə alqışlar, "bravo", "bis" çığırmalar içində göz yaşları da gördüm. Jurnalist təbiətim üstün gəldi, yaxınlaşıb göz yaşlarının səbəbiylə ehtiyatla maraqlandım. Musiqi məktəblərinin birində piano üzrə dərs deyən bu müəllimi təsirləndirən gözəl ifa deyilmiş: "Mən bu gün konsertdə başa düşdüm ki, heç vaxt belə çala bilməyəcəyəm. Axı, pianoçuluq bir həyat tərzidi. Mən günümü royal arxasında keçirsəm, yəni dərs saatlarımı minimuma salsam alacağım maaş mənim heç ayaqqabıma da çatmaz. Mən heç vaxt belə musiqiçilər yetişdirə də bilməyəcəyəm. Onlara necə başa salım ki, sən həyatını qurban verəndən sonra heç kimə lazım olmayacaqsan! Bizim işimiz başdan ayağa qədər "xalturadır"". Belə düşünən onlarla bədbəxt musiqiçilərimiz var. Onlar da mənim kimi itmiş nəslin nümayəndəsidir, bir növ nəsli kəsilmiş mamontlar kimi...

Axı, bizi niyə aldadıblar?! Bir dünya ləzzət, zövq almağı öyrədib sonra küçəyə atıblar. Elə bil ki, çox gözəl bir incini göstərib sonra mücrüdə gizlədiblər, ya da çox dadlı şirnini dodaqlarımıza yaxıb yalnız yalamağa imkan veriblər. Niyə heç kim bizə demədi ki, gününüzü kitabxanalarda, məşqlərdə keçirməyin, siz heç kimə lazım olmayacaqsız? Bu yolu seçsəz uzaqbaşı gördüklərinizdən ləzzət alıb qısır öləcəksiz! Biz elmi kəşflərimizlə dünyana mat qoya bilmədik! Biz məktəb yaratmadan ölüb gedəcəyik! Biz heç kimə lazım olmayan dəlilər nəsli kimi heç Azərbaycan tarixinə də girməyəcəyik! Biz güllələmədən əvvəl bir-birinə qısılan məhbuslar kimi sözümüzü heç kimə anlada bilməyəcəyik!

Son illər mən özümü qəzetlərdə arabir yazdığım yazılarla ovudurdum. Guya nəsə eləyirəmmiş kimi... Elə bilirdim kompüter arxasında keçirdiyim saatlarım mənasız, hədər deyil. Bu günlərdə redaksiyada elan edildi ki, görkəmli adamların həyatından həftədə bir dəfə gedən bir səhifəlik yazılar da

oxunmur. Oxucuya bu da lazım deyilmiş. Millət heç nə bilmək, heç nə öyrənmək, heç nəylə maraqlanmaq istəmir! İstəmir, vəssalam!..

Odur ki, bu yaxınlarda "imicimi" dəyişməliyəm. Xahiş edirəm, şoka düşməyin. Axı, mənim çox yaxşı müəllimlərim olub!..

## Mənim "mən"im

*Hər kəs özünün fanatıdır*

Özünü sevməyən insan hələ ki, dünyaya gəlməyib. Yaradanın verdiyi həyatı hədiyyə kimi qəbul etmiş insan elə yaşayır ki, elə bil hər günüylə dünyanı yenidən kəşf eləyir. Özündən əvvəlkilərin səhvlərini yenə də təkrarlayaraq yaşasa da ona elə gəlir ki, həyatı təkrarsızdı, başqalarınkından çox fərqlənir. O, nəsə qeyri-adi bir həyat yaşayır ki, yaxın qonşusunun, tanışının həyatı onunkuna heç yaxın da gələ bilməz. Onun dərdi olarsa dünyalar qədərdi. Sevinci isə uzaqbaşı göy qurşağının rəngləriylə müqayisə edilə bilər.

Biz başqasının səhvini anlaya bilmərik. Ona yol göstərib çıxışa apara da bilmərik. Çünki özümüz hələ ki, "mən" adlanan labirintdə azmışıq. Bəziləri bunu anlayır, bəziləri isə yox. Fərq yalnız bundadı. Hətta özünə fanatizmi çiyinlərindən tullaya bilənlər əslində irəli addım atmır. İnsan hər şeyin faniliyini, absurdluğunu anlasa ardını yaşaya bilməz. Yəqin ki, intihar eləyər.

İnsan öz qiymətinə Allaha inandığı qədər, bəlkə də ondan da artıq inanır. Hər bir dindar düşünür ki, onun Allah sevgisi daha dərin və mənalıdır. Başqalarının namazı və duaları növbəyə dayansa da onun namazı qəbul olunur. Onun dində axtarıb tapdığını heç kim tapa bilməz. Hər bir deputat düşünür ki, onun parlamentdəki rolu seçilir və hətta oturduğu kreslosu fərqlidir. Hətta arxasında seçicilər ordusunun dayanmadığını bilsə belə. Hər döyüşçü düşünür ki, düşmənlərin əksəriyyəti onun gülləsindən məhv olub. Hər bir cərrah əmindir ki, əlində qeyri-adi şəfa var və onun üsulu insanlara

çox lazımdı. Elə olmasaydı həmin cərrah, deputat və əsgər öz işini layiqli səviyyədə görə bilməzdi. Hər yeni nəsil də özünü əvvəlkilərindən daha ağıllı, daha istedadlı, ədalətli və düzgün sayır. Ola bilər bu inkişafın reseptidir, bir növ "insan formulu".

Dünyanın heç bir dini öz doqmalarını bizim "mən"imizi müdafiə elədiyimiz qədər qorumur. İçərimizdəki "cəllad" inkvizisiyanın, daşqalaq eləyənlərin, diri-diri basdırılıb məhv edilənlərin məhkəməsindən daha qəddardı. Axı o, "mən"i müdafiə eləyir və qoruyur. Biz torpaq üzərində hərəkət eləyən qalalar kimi yaşayırıq. Bura giriş qadağandır. İçəri bir kəs buraxılsa mütləq qalanın dağılması ilə nəticələnəcək. Hətta sevdiklərimiz üçün bir otaq ayırmışıq, adına ürək deyərlər. Başqa yerlərə özümüzdən artıq sevdiklərimizi də buraxmırıq. Bu qalanın hər yeri nağıllardakı 40-cı otaq kimi həmişə ağzı kilidlidir. Bu qalaya soxulanları nə günə qoya bilərik, bunu bir Allah bilir və bir də qalanın heç vaxt yatmayan gözətçisi olan "mən"i. Düzdü arabir "mən"i sorğu-suala tutub məhşər ayağına da çəkiriksə də bu sadəcə eleqantlıqdan və bir qədər də təkəbbürlükdən gəlir. Axı bilirik ki, özümüzə ziyan verənlərdən, incidənlərdən də deyilik.

Özünü absolyutlaşdırmayan məxluqu təsəvvür eləmək çətindi. Onda onun nə adı, nə də dəqiq obrazı olardı. Görkəmini hər dəqiqə dəyişən birhüceyrəli amöbün da forması var, lap bir neçə saniyəlik olsa da. Ona görə də nə doğuşdan əvvəlki, nə də ölümdən sonrakı həyatı təsəvvür eləyə bilmirik. Bütün qalaktikaları, əlçatmaz ulduzları, fantastik həyat formalarını təsəvvür eləyir, bacarmadığımızı uydururuq. Amma "nə vaxtsa mən olmamışam" fikri beynimizə çığışmır. Necə yəni mən olmamışam? Mən həmişə olmuşam və olacağam da. Bu yolda nə cənnət, nə də cəhənnəm qorxusu kiminsə qarşısını kəsə bilər. Yaşı 90-nı haqlamış, hər nəfəsində əziyyət çəkən adam belə ölmək istəmir. Nədən bu həyatdan ikiəlli yapışıb? Bu ölüm qorxusu deyil. İnsan bu boyda iri kainatda özüyçün yeganə dayaq nöqtəsidir və həmişə də onu itirməkdən qorxacaq. İdeya uğrunda ölənlər də bilir ki, bu onun ideyasıdır,

başqasınınkı yox. Bu onun həyatının, varlığının ideyasıdır və məhz onun varidatıdır, ona görə ölməyə dəyər.

Bəlkə də bu səbəbdən dişlərimiz arasında çöplə apardığımız axtarışlar bizə arxeoloji qazıntılardan daha dəyərli gəlir. Mətbəxdə qadının bişirdiyini tənqid eləmək onun "mən"ini şübhə altına almaq deməkdir. Qaz pis gəlir, ya da ərzaq keyfiyyətsizdi – bunun heç bir rolu yoxdu. Normal qadın bu tənqiddən sonra fərli bir şey bişirib ortaya çıxarmaz, daha doğrusu çıxara bilməz. Bütöv bir xalqın mənliyini tapdayanda da o, içində "mən" gizləmiş insanalar yetişdirə bilmir. Dünyanın ən ağıllı, ən dəyərli tənqidi insanları silkələyib ayılda bilmirsə onu bu qədər çəngələmək nəyə lazım? Tənqid nə qədər iti olarsa insan "mən"ini qorumaqçün bir az da silahlanacaq, ya da bu çəkişmədə məhv olacaq. "Mən"lərin məhvini görməkçün, əziz oxucu, başını qaldırıb ətrafına baxa bilərsən.

## Məchul "?!?" cavabı

Ətrafına, dünyadakı hadisələrə baxırsan, tüklərin ürpəşir. Hardasa sel gəlib bir vilayəti yudu apardı, hardasa müharibə gedir, qan su yerinə axır, hardasa aclıqdı, səfalətdi, hardasa insan kosmosun ənginliklərindən xəbər verir... Amma bu boyda xəbər selinin qarşısında insan sevgi və qarşılıqlı münasibətlərdən danışan yazıları seçib ən birinci oxuyur. Onun nəyinə lazımdı ki, kosmosun əlçatmaz yerində şübhəli bir işartılar neçə gündü tərpənmədən dayanıb. Ya da ölkələr üçüncü dünya müharibəsinin reallaşacağından narahatdı. O min il bundan əvvəlki kimi durmadan tərəf müqabili axtarır və onu sevib sevmədiyindən narahatdı. Bunu yoxlamaqçünsə o qədər testlər, yol göstərici məqalələr və psixoloq məsləhətləri var ki... Bəd ayaqda çobanyastığının ləçəklərini yolmaq olar.

Yalan nə deyim, mən özüm də "Öz ərinlə sevgi münasibətlərini necə itirməyəsən?" adında seminarın nəticələrini köçürüb kompüterimdə saxlamışam. Necə deyərlər "saxla samanı..." deyib dar günə ehtiyat etmişəm. Çünki qarşılıqlı münasibətlərdən olan yazılar hər zaman aktual və oxunaqlı olur. Adı çəkilən seminarda iştirak edən qadınlara "Hansınızın əri onu sevirsə əlini qaldırsın" deyirlər. Bütün qadınlar əlini qaldırır. Onlardan "Sonuncu dəfə ərinə sevirəm sözünü nə vaxt demisən?" soruşanda kimisi "Bu gün", kimisi "Dünən" dedi, kimisi isə bunun tarixini unutduğunu söylədi. Onda qadınlardan telefonu götürüb ərinə bircə söz – "Sevirəm" yazmağı xahiş etdilər.

Gələn mesajları oxuyandan sonra həmin qadınların yerində olmaq istəmədim. Cavablar təxminən belə idi:"Kimdi bu?", "Uşaqlarımın anası, deyəsən xəstələnmisən?", "Mən də səni sevirəm", "Yenə də avtomobilin başına nəsə oyun açmısan?", "Bilmirəm, məndən yenə də nə istəyirsən", "Bu dəfə nə eləmisənsə, bağışlamayacam", "Uzatma, de görüm nə lazımdı?", "Bu yuxudur?!", "Mesajı əslində kimə yazdığını deməsən, bil ki, kimsə öləcək bu gün". Cavab mesajları içində "?!?" məzmunlu mətnlər üstünlük təşkil edirdi. Çünki kişilər belə anda, qəfil gəlmiş xəbər qarşısında nə yazacağını bilmirdi. Yəqin ki, bu sözü kişinin üzünə desəydin daha maraqlı reaksiya və mimikalar görmək olardı.

Bəli, zaman dəyişir, yaşam tərzi, maraqlar, məsləklər, mövzular tanınmaz hala gəlir. Bircə bu sevgi və qarşılıqlı istək məsələlərinə olan münasibət dəyişmir ki, dəyişmir. Amma üsullar fərqlidir. İndi evin bir küncündə oturub nəvələrinə yun corab toxuyan nənələrin də laçın vaxtları və kişiləri əldə etməyin öz "firmenni" yolları vardı. Tarixi bizimkindən çox-çox irəli olan İngiltərə mətbuatı 1938-ci ildə bu mövzuda kiçik araşdırma yapıb nəticələrini çap eləmişdi. Deyilənə görə burda yazılanlar II Dünya Müharibəsinin sonuna qədər aktuallığını itirməmişdi. Məsələyə qadın gözüylə baxılır deyən daha maraqlı görünür. O vaxtın qadınları hesab edirdi ki, kişinin gözü qarşısında geyinib soyunmaq yaxşı deyil, bunu buduarda etmək lazımdı. Amma

danışılan vaxta hazır olmaq gərəkdi. Onlar düşünürdü ki, kişilər yaylıqda pomada izi salan qadınları sevmir. Ona görə də kosmetikanı mütləq xəlvətdə işlətmək lazımdı. XX əsrin qadını düşünürdü ki, sentimental olub kişi emosiyalarıyla oynamaq olmaz. Kişilər göz yaşlarını sevmir axı, xüsusilə də adam arasında. Əgər kişi qadını rəqsə dəvət edibsə onunla məqamdan istifadə edərək danışmaq lazım deyil. Axı o, rəqsə çağırıb, söhbətə yox. Keçən əsrin qadını hesab edir ki, kişiylə hətta maraqsızdırsa bunu bildirmək olmaz, divana yayxanıb oturmaq, əsnəmək ayıbdı. Bu dəqiqə ayağa qalxacaqmış kimi oturmaq, ağzı bağlamaq və kişini susaraq dinləmək lazımdı. Elə o vaxtlar da avtomobilin güzgüləri makiyaj üçün yaramırdı, arxa yolu görmək üçün idi. Keçmişin qadınları ofisiantla dilxoşluq etməyi ayıb bilərdi. Kişinin dəyəri daha artıqdı və diqqəti bölüşmədən ona vermək lazım idi. Qadınlar kişinin gözünün də qeydinə qalır və sinəsi böyük olan qadınlara korseti bərk sıxmamağı tapşırırdılar. Adam arasında kişini təhqir etmək, münasibətlərdəki çatışmazlığı gözə soxmaq pis zövqdən xəbər verirmiş. Cəmi 70 il əvvəl qadınlar düşünürdü ki, kişiylə növbəti paltarı müzakirə etmək ayıbdı. Kişiylə yalnız onun istədiyi mövzuda danışmaq olar. Əgər kişiylə qadın əsrlər boyunca ortaq mövzu tapa bilmirsə onlar nədən danışacaqmış? Zəmanə dəyişib. İndi kişilər korsaja sığmayan böyük sinəni azadlıqda görmək istəyir, divana yayxanıb əsnəyən qadınları, həm rəqsdə söhbətləşən, dilini dinc qoymayan xanımları sevir, qadının geyinib soyunmağını, kosmetika sürtməyini gözləriylə görmək istəyir. Düzdü, hələ də göz yaşlarına dözmürlər. Amma emosional qadınları gəzbedici sayırlar. Lazım olsa növbəti paltarı birlikdə müzakirə edə də bilərlər. Amma bircə "sevirəm" kəlməsi qarşısında nə deyəcəyini hələ də dəqiqləşdirə bilmirlər...

## Məyusluq bayramı

Yaşım o qədər də çox deyil, amma mən 8 martda evə bir qucaq gül ilə gəlmək xoşbəxtliyini yaşamışam. O vaxtlar, yəni 20 ildən bir qədər az əvvəl

müəllimlərə gül vermək dəbi vardı. Sinfin ən kasıb şagirdi heç olmasa bir dəstə nərgizgülünü müəlliminə hədiyyə verərdi. İmkanı olanlarsa daha gözəl gül dəstələri bağlatdırardı. Sonra həmin bu çiçəkləri qucaqlayıb avtobusa, ya da metroya minəndə hamı bilirdi ki, sən kimsən. Çünki adi qadına cəmi bir dəstə gül verərdilərsə, müəllimlərin qucağı güllə dolu olardı. Bu anlarda yaşadığım xoşbəxtlik duyğusunu sözlərlə ifadə etməkdə acizəm.

Sonradan nəsə dəyişdi elə bil. Bu dəyişiklik insanların mənəviyyatından başladı. Gül dəstələri balacalandı, xırdalandı və nəhayət yoxa çıxdı. Onu əvvəl suvenir tipli hədiyyələr, az keçmiş isə pul əvəz elədi. İndi mən özüm uşaqların müəllimini gül dəstələriylə təbrik etmirəm. Bu günün müəlliminə çiçək deyil, pul lazımdı. Düzün desəm pulun gülləri necə əvəz etməsini xatırlamıram. Mənəviyyatdakı çat əvvəl ürəklərdə oldu və davamı xəritəmizdə nəqş olundu, yoxsa əksinə, torpaqlarımızı itirməklə keçirdiyimiz məyusluq ürəklərdə çat yaratdı. Amma məncə 8 marta münasibətimizin dəyişməsindən nəsə bir siyasət qoxusu gəlir. Millətin bütün bəlalarının məsuliyyətini müəllimlərin çiyninə şələdilər və onun çiçək payına həsrət qoydular.

Deyim ki, o vaxtlar kişilər də 8 martda bu qədər deyinməzdi. Yaxınları, əzizlərini təbrik edə bilsə də, bilməsə də bayramqabağı qaşqabaq tökməklə hamının əhvalına soğan doğramazdı. Bu bayramı elə o vaxtlar da kişilər sevməzdi, amma bunu dilə gətirməyin özü ayıb idi. Hansı kişi qadınına çiçək almaqda, ya nəsə xırda sevinc bəxş etməkdə aciz olduğunu boynuna alardı?! Amma indi mart gəlməyə bəndmiş mətbuat bayramqabağı təhqirlər marafonuna başlayır. Hədəfdə hədiyyə gözləyən qadınlardır. Bəli, bu bizim milli bayram deyil. Bəli, onu inqilabçı qadınlar ortaya atıblar. Bəli, cəmiyyətin maddi durumu mart ayında 2 xərc tələb edən bayramı – 8 mart və Novruzu qeyd etməyə çətinlik çəkir. Nə olsun ki? Bunu qadın olduğuma görə demirəm, mən hər il 8 martda it sifəti töküb deyinə-deyinə qadınına, anasına, ya iş yoldaşına hədiyyə etsə də nifrət dolu ifadələri bir sutka təkrarlayan kişiləri görəndə utanıram. Böyük şey olacaqmış, səhər yerindən duran kimi anasına, bacısına zəng edib 3 kəlmə xoş söz deyəcəkmiş! Ya da ildə bir gün

arvadından tez durub çaydanı plitənin üstünə qoyacaq ki, çay dəmləsin və onun yanağından öpəcəkmiş! Sonra evinin xanımlarına, qızına, baldızına, qonşusuna bircə gün xoş ovqat bağışlayacaqmış. Müəllimlərə gül dəstəsi qıymayan millətin kişisi də belə olar!

Artıq mən də 8 martı sevmirəm. Çünki bayramdan bir həftə əvvəl və bir həftə sonra uşaqlar müəllimin üzünə dik baxa bilmədiyindən, ya da hədiyyə vermək istəmədiyindən dərsə gəlmirlər. Ətrafda mənasız vurnuxma, təlaş, əsəbilik yaranır ki, bu günün tez bitməsini arzulayırsan. Evin kişisi ortabab xərclə bu gündən salamat çıxdıqdan sonra rahat nəfəs aldıqca özünü günahkar bilirsən. Nəyimə lazımmış bu hədiyyə? Onsuz da həmən günü bıçağı əlimdən alıb soğanı doğrayan tapılmayacaq, nə yeməyi əvəzimə bişirəcəklər, nə də evdə öz tör-töküntülərini yığışdıracaqlar. Bununçün Allah yəqin məni yaradıb və ağır missiyanı boynuma yükləyib. Cəmi bir gün özünü qadın kimi duymaqçün o boyda missiyanın qarşılığında kiçik bir hədiyyə almaq məncə çox böyük kompromisdi. İnsanlar müəllimin zəhmətinin qarşılığını verə bilməyəcəkləri kimi kişilər də qadının zəhmətinin əsil dəyərini verə bilməyəcək! Məncə heç vaxt…

Ola bilər bu günü biz qadınlar kişilərimizdən çox şey gözləyirik. Amma göydən ulduz dərməyi, Kainatı ayaqlarının altına sərməyi vəd verəndə dilindən dartan vardı? Həmin məqamda hansı kişi deyərdi ki, mən ilin bir günündə, təsəvvür edin, 365 gündən birində, sənə vəd verdiyim xoşbəxt dəqiqələri yaşamağa imkan yaratmayacam. Belə kişinin acığına brilyant kolye, dünyanın ən bahalı xəzi, mart günəşinin şüaları altında bərq vuran maşın tələb eləməyin, sonra isə qismət olsa alandan sonra bir çiyin atmağın da gəlir. Onlara bu da azdı. Ola bilər müəllimlər də ağını çıxarıb, bayrama bir ilin azuqəsini alacaq məbləği istəyir, sonra ala bilməyəndə sonrakı bir ili alt dodağı yer süpürür. Bütün bu səhnələri yaşamağı qismətindən silmək istəyənlər qulpundan çıxanı müəllimə, cibinin dibində qalanı qadınlarına verir ki, günü qara olmasın.

Əslində 8 mart bayram deyil, bir sınaqdı. Kişilərin, qadınların və müəllimlərin səbr sınağıdır. Amma bu gündə səbr eləyənlər istədiyini ala bilmir. Bu gün kişi və qadın qarşıdurması və cəmiyyətin tamahkarlıq sınağıdır. Təvazökarlıq göstərənlər bu gündə hədiyyəsiz qalır…

## Milli striptiz

*Çılpaq qalmış millət indi nə istəyir?*

Biz oxuyub oynayan millətik. Biz Qərb, ya Şərq küləyinin gətirdiyi yenilikləri tezcənə özümüzküləşdirə bilən millətik. Simfonik musiqi, caz-muğam yaratdığımız azartla azərbaycanca rep deyirik, xarici ritmləri dingildəyirik, göbək atırıq, yeri gəlsə striptiz də oynayarıq. Niyə də olmasın?

Striptizçi o şəxsə deyilir ki, oynay-oynaya var-yoxunu soyunub onu hərisliklə marıtlayanın üstünə tullayır. Var-yox isə çox qəliz məsələdi. Çünki söyəndə ilk öncə adamın var-yoxunu söyürlər. Belə canfəşanlıq əvəzində striptizçinin cibinə 5-10 manat pul gəlir. Striptiz bir elə çətin şey deyil. Utanmaq olmasa oynamağa nə var ki. Yad mədəniyyətdir deyib, dodaq büzüb eləməyin. Bizim uzunəsrlik striptiz oynamaq təcrübəmiz var.

Ən vacib ilk ştrix - striptizçini adi rəqqasədən ayıran əlamət onun nikelli, hamar və parıldayan borudan yapışmasıdır. Elə bil əlini üzən kimi düz-dünya başına dolanacaq, davam gətirməyib yerə çökəcək. Bizim neft borularından yapışdığımız hərisliklə o, bu borunun o yan, bu yanına o qədər keçir ki, həmin hərəkəti şvabrayla da təkrar eləsəydi hamı biləcək ki, ürəyindən nə keçirmiş. Bu millətin neft boruları olmasaydı vermək, bölüşmək kimi insani və anadangəlmə instinkti reallaşmamış qalardı. Biz borumuzdan əl çəkə bilmərik. Yalnız onunla yollar, körpülər tikəcəyik, məktəblər, evlər salacağıq, azad, firavan olacağıq. Əlimizdə neft borusuyla oynamağa bir gör e…, nə vaxtdan başlamışıq. Əli pulnan oynayan nə qədər adam bizə çəpik çalıb.

Növbəti jest – striptiz rəqsinin duzu, istiotu ondadır ki, əynindən çıxardığını, yaxşı olar ki, bir-iki dəfə başın üstə fırlayıb (yəni "Qadam-balam getsin" deyib, ya da başa duz, üzərlik çevirən kimi) tolazlayırsan. Haramı düşdü, sonrası nə oldu – nə fərqi? Guya olmasaydı dolanmazdım? Bir az çılpaq qalmaq eyibdimi? Zəngəzuru, Qarabağı başımıza dolandırıb tolazladıq, getdi Ermənistana düşdü. Rəssam və musiqiçiləri Türkiyə tərəfə atmışıq. Türklər bizim "artığımızı" yerdən qaldırıb süfrəsinin başında oturtmaqdan utanmaz. Sağlam, cavan kişiləri Rusiyada axtarın, gözəl qadınları Dubayda. Özünə hörmət eləyən, biliyindən arxayın adamlar Amerikada, Avropadadı. Heç kim yerdə qalmayıb. "Qan yaddaşı", "səs yaddaşı", "babların irsi" adlananlar alt paltarın bədəndə buraxdığı iz kimi çox çəkməz, keçib gedər.

Daha bir çox vacib ştrix - əgər striptizçiyə pul verən olmasa onun bu boyda həngamə qoparmağı gülünc olardı. Millətə sponsorluq eləyənlərə indi investor deyirlər. Pul verən əskinasları striptizçinin əlinə verəsi olsa, yaxud ondan da pis, kassaya köçürməli olsa əlini heç cibinə salmaz. Pul mütləq tumanbağıya, ya da daha pikant yerlərə dürtülməlidi. Pul verənin marağı da bundadı.

Sonuncu jest – investorlarımız bizimlə o qədər doğmalaşıb ki, bəzən bir-biriylə itələşirlər ki, əlini cibinə kim salacaq. Lap dilimizi də, ləhcəmizi də bilirlər. Striptizin sonunda çılpaq rəqqas pul verənin hüzurunda durmalıdı ki, başına dolandırıb tolazladıqlarının haqqını ala bilsin.

- Bəri gəl, görüm, bir az da… Bıy, başıma xeyir, əynində bir şey qalmayıb ki?! Pulu hara dürtüşdürəjiyik, qadası?!

# Sevgi naminə

*Sevgi azad insanların qismətidir.*
*S. Vivikenanda*

"Sevmisən?" soruşsam, hamı deyəcək ki, "Əlbəttə". Ya da qəlbinin dərinliklərinə lağım salıb ordan bir şey qoparıb xatırlaya bilsə, bu an mütləq dodağı qaçacaq. Olubsa, sevgisinin yolunda verdiyi bütün qurbanlar bir-bir yadına düşəcək. Bəlkə də, bu xatirələrin fonunda çalışsa da, sevginin özünü yaddaşında təzələyə bilməyəcək. Biz sevgini unutmağı bacarırıq, amma eşq yolunda verdiyimiz qurbanları nədənsə heç unuda bilmirik.

Nakam sevgilərdən əfsanələr yaranır, ədəbiyyata, tarixə, yaddaşa çevrilir. Əlbəttə, əziz oxucum, hisslərin sənə Yuli Sezarın Kleopatraya duyduğu hisslərdən daha qiymətli gəlir. Bəlkə, sən də mənim kimi öz sevgini (bəlkə, sevgilərini?) Yer kürəsindən də artıq, Kainatın qiymətli zinəti kimi ürəyində gəzdirirsən. Amma Sezar sevgisi yolunda xanımına bütöv bir ölkənin azadlığını bağışlamışdı. Misir müstəqilliyi yunan sərkərdəsinin sevgisinin həcminə uyğun biçilmişdi.

Məşhur fizik Pyer Küri sevgilisi Mariyaya verdiyi ilk hədiyyə "Fiziki hadisələrdə simmetriya haqqında. Elektrik və maqnit sahələrinin simmetriyası" adlı məruzə olub. Bu məruzənin titul vərəqində cızdığı bu cümlə tarix boyu adları yanaşı çəkilən cüt fizikin ilk sevgi etirafı sayılır: "Mademuazel Sklodovskayaya – böyük hörmət və dostluq rəmzi kimi müəllifdən".

Qraf Potyomkin Sofiya Pototskayanın şərəfinə ballar təşkil eləyir, dəlisovluq sayıla biləcək dərəcədə bahalı hədiyyələr verirdi. Hətta onun şərəfinə saldığı Sofiya parkı adlanan zəngin park indiyədək durur. Amma rəhmətlik Əliş Ləmbəranskinin Nərgiz Xəlilovanın şərəfinə tikdirdyi "Nərgiz" kafesi artıq yoxdu. Fəvvarələr meydanındakı bu əfsanəvi kafe el arasında "xalçalı" adlanardı.

Yunan milyonçusu Aristotel Onassis ikinci arvadı Ceki Kennediyə (Con Kennedinin birinci arvadı) toy günündə ənənəvi brilyant üzükdən başqa 40, 42 karatlıq qaşları olan brilyant üzük, rubin və sapfirlərlə bəzənmiş zinət əşyaları da bağışlayıb. Xanım isə əvəzində ərinin sevimlisi "Kristina" yaxtasının kitab rəfi şəklində işlənmiş kopiyasını bağışlamaqla kifayətlənib. Ümumiyyətlə, tarixdə sevgiliyə bağışlanmış ən bahalı hədiyyə ingilis aristokratının əlindən çıxıb. Fil sümüyündən oyma qarnitur brilyantlarla bəzənmiş olduğundan 520 min funt sterlinq dəyərindəydi. Pol Makkartninin evlənməsini də sevgi yolunda verilmiş ən bahalı qurbanlardan sayırlar. Çünki prodüserlər və dostlarının "Evlənsən, pərəstişkarları itirəcəksən" məsləhətlərini qulaq ardına vuraraq köməkçisi Lindayla evlənmişdi.

Bəzən qadınlar da bu yolda qurban verməli olurlar. Məsələn, Angelina Coli hər təzə eşqinin şərəfinə özünə yeni tatuaj vurur. Əvvəlki ərlərinin şərəfinə zülmlə vurulmuş köhnə tatuajlar eləcə də zülmlə artıq silinib. İnsanlar sevgi yolunda gülünc olmaqdan da qorxmur. Məsələn, Marçello Mastroyani Katrin Denyovun səsini eşitməkçün hər gün Romadan Parisə zəng vururdu. Bu ona az görünəndə bir dəstə gül alırdı. Adətən, şəhərin gur meydanlarından birində oturub "sevir, ya sevmir" deyərək gülün ləçəklərini qoparıb fala baxırdı. Bu səhnəni görən romalılar gülümsəyərək keçib gedir və yəqin ki, onu yaxşı anlayırdılar. Katrin də bu eşqin şərəfinə yemək bişirməyi öyrənmişdi. Bişirməyə nifrət eləyən aktrisa Mastroyaninin ən çox sevdiyi yeməyi - lobyanı 34 cür bişirməyi bacarırdı.

Federiko Fellini 20 yaşında olanda məşhur radio aparıcısı Culyetta Mazinidən guya film sınağı üçün foto xahiş eləmişdi. Sabahısı gün onlar restoranda yemək yeyir, iki həftədən sonra isə Fellini Culyetta Mazininin evinə köçür. Əvəzində Fellini xanımını bütün dünyaya tanıdaraq məşhur aktrisaya çevirdi.

Amerika yazıçısı Skott Fitcerald arvadı Zeldanı dəlicəsinə sevirdi. Xanımı şizofreniya xəstəliyinə tutulanda da onu atmadı. Əksinə, xanımının müalicə aldığı xəstəxanaların yaxınlığındakı mehmanxanalarda yaşayırdı. Həkimlərlə

yazışmalardan artıq qalmış vaxtlarda yazıb onun müalicəsinə pul qazanmağa çalışırdı. Romanlarında yalnız onu təsvir eləyir və yalnız bu xanımı yazılarda əbədiləşməyə layiq bilirdi. Məşhur kriminalist yazıçı, Şerlok Holmsun "atası" Konan Doyl da arvadına vəfalı olan nadir personalardandır. Onun xanımına ağır diaqnoz qoyulmuşdu və bir aya öləcəyi deyilmişdi. Ölümlə təkbətək döyüşə girən Konan Doyl hardasa havanın xoş keçdiyini eşidib arvad-uşağıyla ora tələsirmiş ki, sevgilisinin ömrünü heç olmasa bir az artıra bilsin. Nəticədə bir aydan sonra ölməli olan xanım 12 il yaşadı. Yazıçı Antuan Ekzüperi isə Konsuelanı görüb ilk baxışdan ona vurulmuşdu. Ailəsinin fikri onunçün çox qiymətli olsa da, müqaviməti qırıb yazıçı sevgilisiylə evləndi. O vaxtlar onların nə evi, nə də yaşamağa bir qəpik pulu vardı. Amma Antuanın əlinə pul düşən kimi bazara qaçıb çiçəkləri araba qarışıq alardı. Sonra onları arvadının ayaqları altına sərib tam xoşbəxt olardı.

Sevgi azadlığın o biri üzüdür. İndi mən bilmirəm ki, azad olmağa adət eləməmiş həmvətənim, sevgin yolunda nəyini qurban verəcəkmişsən? Qandallarını?... Sevgi yolunda ölmək asandı, amma yaşamaq çətindi.

P.S. Əziz oxucu, bu köşədə dərin məna axtarma. Sən ki, qoluzorlularda mərhəmət, qanunlarda ədalət, həyatda həqiqət axtarmırsan. Boş ver, "bu da keçər" deyib ardını yaşa…

## Sonuncu kibrit

Səhərlər xoşbəxt təbəssümlə deyil, "işə başlamaq lazımdı" fikrindən diksinib oyanırsan. Yuxudan doymamısan və dünən yerinə girəndə necə yorğun idinsə hər şey olduğu kimi qalıb. Elə bil heç yatmamışdın. Elə bilirsən ki, macal olsa və hər şeyi atıb dəniz sahillərinə istirahətə getsən düzələcək. Günah nə havadadır, nə insanlarda, nə də başından aşıb daşan işində. Axı onsuz da dəniz sahillərində yaşayırıq. Dəniz sahillinin əbədi zibilliklərini,

çirkli suda bərq vuran gün şüalarını, səs-küylə suya cuman adamları gördükcə halın bir qədər də pisləşir. Psixologiyada bu hal üçün xüsusi termin işlədirlər: "özünü işdə yandırmışlar".

Həkimlər deyir ki, "yanma sindromunu" hər 4 nəfərdən biri keçirib. Onun başqa adı da var: "xroniki stress". Xroniki stressin əlamətləri də artıq məlumdur:

- Arasıkəsilməz yorğunluq. Özü də həm fiziki həm də mənəvi. Qısamüddətli istirahət kömək etmir. Xəstəliyin əlamətləri səhərlər lap aydın hiss olunur - özünü yataqdan qoparda bilmirsən. Axşamlarsa plandan kənar bir iş çıxsa özünü idarə etmək lap çətinləşir. Kişilər dava qopardır, qadınlarsa gözünün qorasını sıxır.

- Qapalı həyat tərzi keçirməyə meyl. Kolleqa, qohumlar, hətta ailə üzvləri o qədər bezdirir ki, onları görmək istəməməyin sanki böyüyüb bəşəri miqyas ala bilər.

- Daimi narazılıq. Tərəddüdlər, özündə əminliyin qəfil yoxa çıxması, əlacsızlıq… elə bilirsən ki, əlini nəyə atsan boşa çıxacaq. Heç nə alınmayacaq. Nə plitənin üstündə qaynayan qazandan, nə yazmaq istədiyin məqalədən, nə də ümid bağladığın, gözünü dikdiyin uşaqlarından…

Psixoloqlar deyir ki, "yanma sindromu" bir neçə aydan bir neçə ilə qədər uzana bilər. Yuxarıda sadalanan əlamətləri özündə tapmışlar xatırlasın, axı vaxt vardı həmkarlarınla ünsiyyətdən şad olurdun. Hər tapşırığı uça-uça yerinə yetirirdin, hətta gülümsəyirdin də. İndi müdirin hər tapşırığı səndə onu öz əllərində boğmaq, ya da beynini güllə ilə dağıtmaq istəyi yaradır. Bəs nə baş verdi? Mütəxəssislər deyir ki, "işdə yanma sindromu"nu bəzən "xroniki yorğunluq sindromu" ilə səhv salırlar. Bu iki sindromu insanın işə olan münasibətilə bir-birindən ayırırlar. Xroniki yorğunluq bir qədər istirahətdən sonra keçib gedir.

Əlbəttə hamının işi onun ürəyincə deyil. Ətraf mühit səs-küylüdür. Eyni peyzaj adamın gözünü yorur. Ofis işçiləri üçün daha bir qıcıq obyekti var, hər yer kameralarla doludur və müdirin baxışları sanki kürəyini deşir. İşdə

gah saatlarca boşluq yaranır, gah da qəfil iş axını tökülüb səni bataqlıq kimi içinə sovurur. Müdir, əməkdaşlar və başqa canlı dekor arasında mənasız rəqabət, özünün daha vacib olduğunu sübut etmək istəyi adamı lap yorur. İrəlidə perspektiv gözə dəymir. Tanış-biliş isə "Gül kimi işin var. Bu zəmanədə yaxşı iş ələ düşmür. Yerindən bərk-bərk yapış" deyir.

Vaxtilə "işdə yanma sindromu"nu yalnız ofis işçilərinə aid edirdilər. Bir ara buna "menecer sindromu" da deyirmişlər. İndi bu sindrom yaradıcı peşə sahiblərini, hətta evdar xanımları da əlinə alıb. Hamı narazıdı. Hamı günahı boynuna yıxmağa obyekt axtarır, çünki özünə qarşı ədalətsiz olmaq istəmir.

Bəs nə etməli?! Əvvəla işinə və iş yerinə olan münasibətdə yenidənqurmalıq etməkdən başlamaq lazımdı Məsələn, tanışlarımdan biri böyük bir idarənin mühasibi olmasına baxmayaraq əlinin altındakı siyirtmədə havaya sabun köpükləri buraxan qurğu saxlayır. Deyir ki, uşağa almışdı, o da 2-3 dəfə oynayıb tulladı bir qırağa. İndi həmin bankanı işə gətirib ki, ən gərgin anlarda başını işdən ayıran bir "oyuncağı" olsun. İş yerinə evdən maraqlı əşyalar gətirəsi olsaz yəqin ki, müdiriniz deyinməz. Ətraf mühiti düzgün tərtib etməyin yollarını bizə fenşuy öyrədir. Deyilənə görə aromaterapiya, yəni qoxularla müalicə də yaman kömək edir. Məsələn, qadınların əksəriyyət təşkil etdiyi kollektivdə iş vaxtının qaynar çağında qadınların fikricə "mötəbər kişi" iyi verən bir aroma çubuğu yandırırsan. Qoy, müdirin axşamacan "it iyi verən" bu qoxudan əsəbləşib dırnaqlarını çeynəsin. Əsas məsələ daxili komfortdur. Qoy ofisin kompüterlərini və müdirin beyninin içini viruslar yesin, dünya dağılmaz.

Dünyada stress çıxarmağın minlərlə yolu var: ekstremal idmandan tutmuş, gecə əyləncələri və mütaliəyə qədər. Bunlardan bəziləri bizə mentallığımıza uyğun deyil. Siyahıda yerdə qalan bir punkt olarsa dərhal onu seçib stressi atmaq lazımdı. Deyirlər ki işdə yanma sindromundan sağalmaq üçün əsas şərt odur ki, işdən aralanan kimi işlə bağlı bütün qayğıları unuda biləsən. Hətta müdirin zənglərinə cavab verməmək qədər cəsarətli addımları da atmaq olar. Axı o, idman zalında da, mətbəxində də sənin müdirin deyil.

Hazırda stress atmaq istəyən üçün evdən çıxmadan da ünsiyyət qurmaq imkanı var. Sosial şəbəkələr belə bir imkanı yaradır. Əslində onları erotik şəkillər, ya da mənasız selfiləri  paylaşmaq üçün deyil məhz ünsiyyət üçün nəzərdə tutublarmış. Psixoloqa getmək məcburiyyəti yaranmasın deyə ətrafındakıları görməyə məcbursan. Deyirlər ki, "İşdə yanma sindromu" iş prosesində duyğularını içində saxlayan adamlarda daha çox olur. Əlbəttə, işinə görə artıq söz eşitməmək istəyi müsbət keyfiyyətdi. Amma həyat axar çaydı. Bu dəqiqə əldən verdiyin məqamla bir daha rastlaşmayacaqsan.

Hans Andersenin "Kibrit satan qız" adlı nağılı var. Qısaca məzmunu belədir ki, soyuq qış gecəsi balaca bir qız əlindəki kibritlərini satmalıdır, yoxsa evə qayıda bilməz. Ayaqqabılarını itirib deyə ayaqları yalındır. Milad gecəsi olduğundan hamı qaçhaqaçdadır və ona fikir verən yoxdur. Evlərdən qızardılmış qaz ətinin iyi gəlir. Bayır soyuq və qaranlıqdır. Qar üstə yalın ayaqları tamam donandan sonra bu balaca qızcığaz bir küncə daldalanıb donmuş barmaqlarıyla  kibritlərini yandırmağa başlayır. Hər dəfə kibrit ətrafını işıqlandırdıqda o, arzuladığı kadrları görməyə başlayır. İsti ocaq, ağappaq süfrə üzərində yeməklə dolu masa, bayram yolkası və onu çox sevən nənəsi... Heç kim bu qıza başa salmadı ki, hər bir kibrit dənəsi böyük bir ocaq qalayacaq qədər qüdrətə malikdi. Onu boşuna yandırmazlar. Əgər o, bunu bilsəydi ocaq qalayıb qızınardı və  təzə ilə sağ qala bilərdi. Səhəri gün donmuş qızın meyitini tapanlar onun üzündəki təbəssümü belə şərh edirdilər: "Yazıq qızcığaz, kibrit çöpü yandırıb qızınmaq istəyirmiş".

Özünü işdə yandıranlar da sonuncu kibrit dənəsini qabından çıxarmaq barədə düşünməsə yaxşıdı.

# Xəzərin üstündən qalxan dumana bükülmüş istək

Bu ili də yola verdik. İlin sonuna yaxın mağazalardakı endirimlər və şəhərə gətirilmiş əndrabadi yolkalar həyatına rəng qatmayanlar üçün bayram əhvalı yaratmır sanki. Gələn ilə ödənəcək kreditlərin hələ varsa bankların təklif elədiyi aşağı faizlər də sənə toxunmur. Amma virtual dünyada ilin sonunu vecinə almadan ötüşə bilməzsən. İlin ən yaxşı fotosuna, ilin ən yaxşı videolarına, məqalələrinə, nominasiyalara, təqdimatlara, prezintasiyalara baxmadan keçinə bilmirsən. Adamı maraq götürür. Başqasının uğuruna sevinmək də adama ümid qığılcımı verir.

Belə təqdimatların birində 2014-cü ilin ən yaxşı 233 videosunu 7 dəqiqəyə yerləşdirmişdilər. Bütün dünya üzrə toplanmış videolar bir o qədər adamın uğurunu, sevincini, divanəliyini, bütün dünyanı qucmaq arzusunu, hamını heyrətləndirmək istəyini cəmi 7 dəqiqədə göstərirdi. Bu bircə videoya baxıb il boyu insanları narahat edən məsələlərdən fikir yürütmək də olar. Bu videolar arasında əlbəttə ki, Azərbaycana aid olan bircə kadr da yox idi. Ona görə də bu kiçik filmin qəhrəmanlarını Onlar adlandıracağıq.

Onlar göydələnlərin başında dombalaq aşmağı yaman sevirmiş. Aşağı baxanda adamın gözü qaralan hündürlükdən başıaşağı tullanan kim, hündür kranların dəmir konstruksiyasından sallanan kim, şəhərin ən yüksək antenasının başından dostlarına salam göndərən kim… Kiminsə göydə iki hava şarının arasında bağlanmış kəndirdə gəzişməyi gəlir, kiminsə sıldırım qayalıqdakı trosda. Ay Allah, nə qədər adam özünü qayalıqdan aşağı buraxa bilərmiş… Özü də əlindəki aparatı qorxudan yerə salmadan. Onları nə timsahların iti dişləri qorxudur, nə elektrik skatın ayağının altında çapalaması, nə də akulanın yırtıcılığı. Adam nə boyda sakit cəmiyyətin üzvü olmalıdır ki, dövlətinin ona verəcəyi tibbi sığortaya nə qədər arxayın olmalıdır ki, sabahına nə qədər gümanlı olmalıdır ki, bu boyda cəsarət göstərsin?

Onlar rəqs eləməyi necə də sevirmiş. Böyüklü-uşaqlı, qocalı-cavanlı hamı rəqs edir. Əllərini-ayaqlarını bir-birinə dolaşdırır, yerdə breyk oynayır, pauzalarda qulağının dibindən bıçaqlar vıyıldayıb divara çaxılır. Özü də onlardan "Mütləq Heyvagülünü oyna!", ya da "Bizi dünyada niyə Uzundərə ilə təmsil eləmədin?" deyib soruşanı yoxdu. Kefləri nə istəyir oynayır, kefləri nə istəyir oxuyurlar, özü də nə görkəmdə istəsələr. Onların xaricə gedən kimi mütləq "Sarı gəlin"i oxumaq kimi isteriyası yoxdu. Onlar köklüklərindən, sellülitdən qətiyyən narahat deyil. Rəngbərəng şortikdə də gündəyməzini yellədə bilər, dizi cırıq cinsdə də. Onlar oynayanda polis dəyənəyini yellədib kötəkləməklə hədələmir, oynayanlara qoşulub masqurasını tərpədir. Toyda da oynayırlar, topalaşıb küçənin ortasında da, yeri gəlsə striptiz dirəyində də.

Niyə orda qoca nənələr ağır oturub batman gəlmir, ekstrim yaşayıb kameraya hırtıldayır? Onların hətta itləri də gününü ləzzətlə keçirirmiş. Skeyt də sürür, gözünü qorumaqçün gün eynəklərini salıb razı görkəm göstərir, hətta paraşütlə də tullanır, gəminin sükanını da saxlayır. Sağ pəncəsi bizim başımıza. Bəyəm bizim dənizin dalğaları snouborda yaramır, yoxsa qarlı dağların uçqunları çəkilişə? Yoxsa bizim havaya buraxdığımız fişənglər onlarınkından əskikdi? Çığıra da bilirik, gözümüzü bərəldə də, oddan tullana da. Sadəcə biz, bircə yaşamağı bacarmırıq. Videonu izlədikcə "Onların bütün arzularını maliyyələşdirmək imkanı da var!" fikri rahat buraxmır. Yəqin ki, onlar da bizim neftimizə, şəhərimizin çılçıraqlarına, küçələrimizdəki bahalı maşınlara həsəd aparır.

Sabah mən Parisin Notrdam kilsəsinə bənzər Səadət sarayımızın qarşısında dombalaq aşıb qotik memarlığı kadra salmaqla əbədiləşdirmək istəsəm, qollarımı burub harasa apararlar, heç bilmirəm hara. Həyatımdə uşaqlarçün əyləncəvi atraksion quraşdırmaq istəsəm səs-küyə mütləq sahə müvəkkili, jek işçiləri və hər ehtimala qarşı Fövqəladə Hallar Nazirliyinin əməkdaşı gələr. Hamını yola vermək lazım gələr. Bizim də müasir dəbə uyğun körpülərimiz var, amma o körpülər intihara çağırır. Cəhd eləyənlər o qədərdi

ki, hamı intihar körpüsünün yerini, hələ bir ora necə dırmaşmağın yolunu da bilir.

Onlardan soruşmaq lazımdı, bəlkə şəhərin dumanından yüksəklərə qalxıb fani dünyaya oralardan baxanda hər şey tamam başqa görünür? Tıxaclardan, seriallardan, tok-şoulardan baş ayılır ki… Bir mənə deyin görüm, körpələrimiz durmadan segah üstündə ağladığı halda bunu çəkib dünyaya göstərən bir videomuz da niyə yoxdu? Şpaqatı kamera qarşısında bizdə də açırlar, amma səs-küyü tamam fərqli çıxır. Elə bilirdiz ki, qapazla böyüyən körpələrdən heç olmasa biri simfonik orkestrlə solo ifaya cəsarət çatdıra bilər? Ya da seçki bülletenlərini xışmalayıb qutuya atan müəllimlərin maaşların azlığından şikayət etməyə haqqı çatar?

Bizim davamız, itələşməyimiz, çığırışmağımız bir parça çörək uğrundadır. Ola bilər nə vaxtsa bu barədə film də çəkildi, sosial şəbəkələrdə paylaşıldı. Düşünmürəm ki, dünya bu videoya baxıb altına bir "layk" qoya.

## Güzgünün göstərmədiyi həqiqət

Adam güzgüylə təkbətək qalanda özünə uzaqbaşı “nə gündəsən?” deyə bilər. Amma qlobal etirafları gözünün içinə baxa-baxa demək şəxsən mənə qəhrəmanlıq kimi gəlir. Bu özünü tənqid kəskin olarsa adamın qol-qanadını sındıra, həyatın rənglərini bozarda bilər. Düzünü demək çətindi, amma lazımdı. Odur ki, güzgüləri ortalıqdan yığışdırıb başlayaq: Qanında testosteronu (kişi harmonları) yüksək olan şəxslər başqalarının qəzəbindən ləzzət alır. Başqasını əzməyə çalışanlar özündə əmin deyil. İntellekt göstəriciləri üzrə testdən keçib aşağı nəticələr göstərmiş adamlar göstəriciləri yüksək olanlara nisbətən milli və dini baxışlarına görə daha kəskin pozisiyalarda dururlar. Bununla belə onlar əmindir ki, başqaları barədə neqativ fikir insanın özü barədə fikri ilə qətiyyən əlaqədar deyil. Başqasını

əzməyə çalışan hər kəs əslində özünün qiymətini qaldırdığını heç ağlına da gətirmir.

İnsanın cismani duyğuları onun davranışına təsir edir. Məsələn, ağırlıq sözü "ciddilik", "sanballılıq", "vaciblik" kimi sözlərlə eyniləşdirilir. Təcrübələr göstərir ki, adamın şəxsi dosyesinin görüntüsü qalın olanda onu ciddi, stabil adam kimi qavrayırlar. Çox vacib işlərdən qısa xülasə yazanda çoxları mətnin mahiyyətini deyil, həcmini güdür. Cismani duyğular bizim həyatımızı idarə edir. Məsələn, sərt, quru oturacaqda oturan adamlar danışıqlar zamanı güzəştə getməyə tələsmir. Əlini kələ-kötür, nahamar yerə sürtən adamların beynində münasibətlərdə mürəkkəblik duyğusu yaradır. Qadınlar bunu yaxşı bildiyindən yataq dəstini yaxşıca ütüləməyə, ya da mümkün olarsa ipək yataq dəsti salmağa çalışır. Soyuq adamlarda tənhalıq hissiylə əlaqədardır. Tənha adamlara həmişə soyuq olur və onlar çox vaxt özünü qucaqlamış pozada dayanır.

Adamlar göz-gözə gəlməyəcəksə başqasının kömək çağırışını qulaq ardına verə bilir, hətta xahişi yerinə yetirmək üçün heç barmağını da tərpətməli olmasa da. Gözünün içinə baxmadan imtina etmək asan olur. Ona görə də kollektiv şəkildə imza yığanda, ya da ianə toplayanda imtina edənlər o qədər də çox olmur. Yalan adamdan çox böyük miqdarda mental güc aparır. Adam başında yalanı saxlamalı, onun deformasiya uğramamasına nəzarət etməli və həqiqəti çox dərində məharətlə gizləməli olur. Nəticədə fərasətinin, zəkasının bir hissəsini itirmiş olur. Həqiqət özü sadə olsa da onun gizlədilməsi mürəkkəb modellər tələb edir.

Adamın yanında onu izləyən birisi varsa o özünü yaxşı aparır. Bəzən izləmə illüziyası da bir o qədər yaxşı işləyir. Məsələn, özünəxidmət yeməkxanalarında göz şəkli asmaq kifayətdir ki, adamlar yeməkdən sonra dalıyca yığışdırsın. Təbiət mənzərələri asılan yeməkxanalarda adam özünü daha asudə hiss edir. Ona görə də ölkənin demokratiya dərəcəsini ölçmək üçün sorğu aparıb adamları incitmək də lazım deyil. Yollarda asılan plakatların məzmununu izləmək bəs edər. Davranış əxlaqa təsir edir. Bəli,

bəli. Davranışı formalaşdırmış əxlaq onun təsiri altında deformasiyaya uğraya bilir. Bir dəfə yalan demiş adam, yaxud mənəviyyatsız iş tutmuş birisi sonradan əxlaq və davranış barədə fikirlərinə müəyyən əlavələr edir. İndi onunçün yaxşı və pisin yeri fərqlidir. Zahiri görkəm isə adamı həmişə aldada bilir. İnsanlar səmimiyyətə inanmaqdansa görkəmə inanmağı üstün sayır. Görkəm siyasi arenada da mühüm rol oynayır. Seçicilər də siyasətçilərin sifət quruluşunda yetkinlik və cazibə axtarır. Namizədin platformasında olmayan cəhətləri sifətində taparsa ona həvəslə səs verir.

Adamlar uğurlu varlı adamları avtomatik olaraq ağıllı və müdrik sayır. Ona görə də çoxu qismətinə ağır həyat düşən adamların buna layiq olduğunu düşünür. Taleyini dəyişə bilməyənlər zəif adamlar sayılır. Xoşbəxtlik isə hamı düşündüyü kimi pulla ölçülmür. Daha dəqiq desək adamı pulun qədəri deyil, onun qonşudan çox olması fikri xoşbəxt edir. Ona görə də çox varlı adamlar tam xoşbəxt ola bilmir, çünki onun ətrafında ondan da varlı olanlar dolaşır. Meyarlar dəyişir, xoşbəxtlik və razılıq duyğusu itir. Axı insan özünü dostu, tanışı, qohumu, həmkarı ilə daima müqayisə edir.

Qəzəb adamda sahibkarlıq duyğusunu itiləşdirir. Adamlar sərt sifətli insanlarla assosiasiya edilən obyekti əldə etməyə daha çox enerji sərf edirlər. Vaxt vardı bu, müsbət emosiya sayılırdı. Zaman keçdikcə adamın nəyin bahasına olursa olsun altını maddi nemətlərlə doldurması mənfi keyfiyyət sayılmağa başlayıb.

Həll ediləcək məsələ nə qədər mürəkkəb olarsa adamlar onu necə varsa eləcə də qoymağa üstünlük verirlər. Alıcı mağazaya girib tez zamanda ən yaxşı malı müəyyənləşdirə bilməsə, çeşidin çoxluğundan çaşsa o, ehtiyacına baxmayaraq buranı alış-verişsiz tərk edir. Çünki məsələ lazım olduğundan mürəkkəb görünürdü. Adamlar hadisələri nəzarətdən buraxan kimi, baş verənlərə təsir gücünü itirdiyini anlayan kimi sui-qəsd nəzəriyyəsinə, ya da heç olmasa caduya inanmağa başlayırlar. Ona görə də Azərbaycanda cadugər biznesi belə çiçəklənir.

Sonunda hamı nəticələrə baxmayaraq verdiyi qərardan peşman olur. Tərəddüdlər, peşmanlıqlar adamı yaxşı yaşamağa qoymur. Kimsə paraşütdən tullanmağa qorxmur, amma müdirinin sözünü kəsməkdən dəlicəsinə çəkinir. Yaxud şirləri oddan tullanmağa məcbur edən təlimçi qadınla tanış olanda dizləri əsir. Amma adamların bir ümumi yaxşı cəhəti var. Demək olar ki, hamı darıxır. Darıxan adam başını qatmağa çalışır və bütün ləzzətləri sınayandan sonra xeyirxahlıq etməyə başlayır. Kasıb və varlı olmasından asılı olmayaraq bircə bu, insanın ömrünə məna gətirə bilir.

## Güllü güllər

*İnsanlar gül açmaq əvəzinə şəhərlər çiçəkləyir*

Xatırlamış olarsız, Sovet dönəminin uzun illər şlyaqeri olmuş bir mahnı vardı: "Milyon al qırmızı qızılgüllər". Alla Puqaçovanın ifasında səslənməyə bəndmiş bu mahnı yaşlı, cavana baxmadan hamının ürəyinə girdi. Mahnının sözlərinə görə kasıb, vurğun rəssam sevdiyi aktrisanın nəzərini heç olmasa bir neçə dəqiqəlik çəkməkdən ötrü ev-eşiyini, rəsmlərini hamısını sataraq al qırmızı qızılgüllər alır. Səhər sevgilisi pəncərədən bayıra baxanda küçəyə səpilmiş milyon qızılgülləri gördükdə heyrətdən ağzı açıla qalır. Vəssalam… Hə, bir də ki, sonuncu kupletdə deyilir, həmən günün gecəsi qatar qadını uzaqlara aparır.

Məncə mahnını dinləyərkən hamı özünü pəncərədən bayıra baxan aktrisanın yerinə qoyurdu. Küçə gözəl, tər çiçəklərlə dolu ikən o, sevgi dənizində çimirdi. Amma bədbəxt rəssamın gününü fikirləşən olurdumu? Yaxud kimsə özünü onunu yerinə qoymaq istərdimi? Ən vacibi, gecə qatar sevgilisini uzaqlara aparandan sonra bu yazıq başını hara soxub yatacaqdı? Harda yaşayıb yaradacaqdı? Deyəsən, bu günlərdə keçiriləcək gül bayramından sonra bizim özümüzü yazıq rəssamın yerinə qoymaq şansımız da olacaq.

İnsanlar sevgisini çiçək yağışıyla izhar eləməyi sevir. Sevdiklərinin ayaqları altına gül səpməyi, küçələri təzə tər çiçəklərlə bəzəməyi, qucaq-qucaq güllər verməyi, xərclərini nəzərə almadan səpələməyi də. Ölkələr var ki, iqtisadiyyatını gül üzərində qurub. Məsələn, Hollandiya deyəndə qarınqulu insanlar pendiri fikirləşər, amma qalanları ilk əvvəl çiçəklərini bütün dünyaya yaymış ölkəni gözünün qarşısına gətirər. Əgər qismət olsa, Hollandiyaya gedəsi olsaz, nəbadə ordan bir gül soğanağa gətirəsiz. Gömrükdə bunu kontrabanda sayıb sizi həbs də eləyə bilərlər. Yəni ki, milli sərvətləri daşıyıb aparırsız. İngiltərədə də bağbanlıq prestijli peşələrdən biri sayılır. Kolumbiya isə bütün dünyaya gül eksportu eləyir. Bu məsələdə hələ cavan olsa da (gül biznesinə onlar gəmi 40 ildi ki, baş qoşublar) Kolumbiya keçən il gülçülükdən 1,1 milyard dollar gəlir götürüb. Kolumbiya gülçülərinin azərbaycanlıları gül bazarından necə çıxarmasının mexanizmini dəqiq bilmirəm, amma məlumdu ki, Rusiya onların ən qiymətli müştərilərindən biridir. Ona görə də bu il 9 may qələbə bayramında Moskvanın Qızıl meydanını, küçələrini kolumbiyalılar gülə bələyəcək. Qələbə gününə Kolumbiya rus xalqına 100 min gül bəxşiş edəcək. Üstəlik bunu rus xalqının II Dünya Savaşında roluna görə kolumbiyalıların minnətdarlığı kimi qəbul etməsini xahiş edəcəklər.

II Dünya Savaşında neftimizə gözə müstəsna rolumuz olması barədə düşünməkdə davam edərək biz bu il öz küçələrimizi güllə bəzəyəcəyik. Bunu bizə heç kim bağışlamayacaq, bəxşiş eləməyəcək, pəncərəmizin altında bədbəxt rəssam da olmayacaq. Gül bayramı Azərbaycan xalqının öz-özünə hədiyyəsidir. Gül bayramları təcrübəsi zəngindir. Adətən bu jesti özünə imkanlı, rifahı yüksək, əmin-amanlığı olan şəhərlər icazə verə bilir. Yəni ki, ölkədə sülhdür ki, uşaqlar asfaltda gül və göyərçinlər çəkər. Torpaqları işğal altında olan uşaqlar mütləq tank və tüfəng rəsmləri çəkməlidi. Yoxsa bu özü də bir riyakarlıq olar. Xalqın maddi durumu stabil olmalıdı ki, valideynlər bu günü gəzməyə çıxmağa imkan tapsınlar, balalarıyla birgə bu gününə şükür deyib gəzsinlər. Təzəlikcə güllələnmiş uşaqlarının bədəni soyumamış valideynlər bu gəzintiyə necə qoşulsun axı?

Şəhərimin gülə bələnməsini mən 1990-cı ilin yanvarın 20-də görmüşəm. Onda insan seli cənazələri yox, sanki qərənfillər dolu tabutlar daşıyırdı. Bəlkə də bundan sonra şəhəri gülə bələmiş Abşeron gülçüləri bizneslərindən əlləri soyudu və yerlərini kolumbiyalılara verdi. Odu, budu indiyədək qərənfillər xalqdan reabilitasiya ala bilmir. Heç kim sevgilisinə qərənfil bağışlamır. Əslində bu durumda gül bayramının keçirilməsi xalqın milli keyfiyyətlərindən irəli gəlir. Görürsən ki, bir ailə necə deyərlər acından günorta durur. Amma son qəpiyini verib özünə bir qızıl əşyası alır ki, adam arasına geyib çıxsın. Nə olsun, əvəzində evində kanalizasiyası işləmir. Gül bayramını keçirmək bir ailə başçısının toyda bir paçka pulu şabaş atması qədər tez-tez rast gəlinən hadisələrdən biridir. İndi 15 milyon artıq, ya əskik fərq eləməz. Onsuz da bu xalq gəlirini-çıxarını bilmir.

Bayramlı, ya belə burda kimsənin üzü gülmür. İnsanları gül kimi qucaqlamaq istəyən şair Vayif Bayatlı Odər demiş: "İnsanlar gül olmaq, gülə çevrilmək istəmir. Gildən yapılmış insanlar nə şeir, nə də gül istəyir. İlahi, sən neynədin, güllərdən gil ətri gəlir". Gilə çevrilməmişdən əvvəl bir gül bayramında gəzək. Gillə qohumluğumuzun rəmzi kimi bölgələrdə qırmızı, gilli yağışlar da yağıb güllərimizin ətrinə qoşuldu.

## Gülüşünə qurban...

Yayın gəlməsiylə turizmi il boyu arzulayanların çiçəyi çırtladı. İl uzunu pul toplayıb onu səfər qabağı bank hesabına otuzdurmaq həm də gəzinti ilə bərabər sərfəli bazarlıq eləmək deməkdir. Bizlər pulu gedib firəng ölkənin adlı-sanlı restoranlarında əcaib yeməkləri dadmağa, ya da yad bir şəhərin küçələrində satılan dondurmanı yalamağa sərf eləyən deyilik. Biz pulu bazar dükana qurban demişik və hər il bu mərasimi yerinə yetiririk. Bazar-dükan xaricdə olarkən "Bu yay yaxşı istirahət elədim" deyə bilərik.

Yaydısa, deməli hamı yerindən qopub harasa gedir. Harasa gedənlər həmişə hardasa rastlaşır. Uzaqdan gələn turist dəstəsinin görkəminə baxıb onun hansı ölkədən gəldiyini demək çətin deyil. Ola bilər ki, azərbaycanlılardan ibarət turist dəstəsinə baxıb "Görəsən bunlar hansı ölkədən gəlib" deyənlər də az deyil. Azərbaycanlıları bərəlmiş gözlər və üzündəki donuq ifadədən tanımaq olur. Biz ki, gülümsəmirik…

Yəqin ki, xaricilər bunun səbəbini anlamır və bir qədər düşünüb onu "sirli ruhi durum" kimi qiymətləndirir. Alimlər bu məsələyə çox rahat yanaşır və keçmiş sovet ölkələrində vəziyyətin eyni olduğunu deyir. Gülümsəməkdə bir qədər Baltikyanı ölkələr seçilir, vəssalam. İndi durub bütün dünyaya nə anlatasan ki, bizim nəinki gülümsəmək, uğunub getməkçün də ürəyimiz gedir. İnanmayanlar televiziyaya baxsın. Biz çox şən və əylənməyi sevənik. Amma gülərüz deyilik. Bu keyfiyyətimiz xaricilərlə bir arada olanda daha çox gözə girir. Çünki onlar istəməsələr də mütləq qaydada gülümsəyir.

Ola bilər, kimsə "Səmimilik nəzakətdən daha vacib şərtdi" deyəcək. Yəni ki, gülümsəməyə səbəb yoxsa, insan dodaqlarını sıxmağı özünə icazə verə bilər. Biz bəzən nəzakətli olduğumuzdan gülümsəmirik ki, qeyri səmimi görünməyək. Xaricdə insanlar bir-birini gülümsəməklə salamlayır. Biz bu jesti bəyənmirik və onu qeyri-səmimi sayırıq. Bəziləri səbəbsiz gülümsəməyi gözdən pərdə asmaq kimi dəyərləndirir: "Görəsən nə gizli fikri varmış, gülüşündə gizlədir"? Üstəlik biz tanımadığımız adamların üzünə gülmürük. Eləcə də gülüşə gülüşlə cavab verməyi düzgün saymırıq. Amerikada bu adi etiket qaydasıdır. Səbəbsiz üzümüzə gülümsəyən olsa baxışlarımızı qaçırırıq. Necə deyərlər, mentalitet belə tələb edir. Təbəssümə rast gələn adam ilk əvvəl qaşlarını çatmalıdı, sonra "Görəsən biz tanışıq" sualıyla içində gizli araşdırma aparmalıdı. Buralarda təbəssüm tanışlığa səbəb ola bilər. Bəzən yad adamla tanış olmamaq üçün təbəssümü üzünü çevirməklə qarşılayanlar da olur. Bu da həmin adamın ailədə aldığı tərbiyə və dünya görüşünə bağlıdır.

Biz hətta sevimli körpələr və məzəli ev heyvanlarını görəndə də dodaq qaçırmırıq. Xaricdə cıqqılı canlıları görən kimi gülümsəmək və ona tərəf bir

jest eləmək normadır. Yoxsa həmin adamı qaraqabaq və daşürəkli saya bilərlər. Bizdə isə belə hərəkətlər şit sayılır. Bir də ki, körpə və heyvan fotolarına internetdə baxıb ürəyin istəyən qədər gülümsəyə bilərsən.

Biz yalnız bəyəndiyimiz adamın üzünə gülürük. Biz yalnız əhvalımız yaxşı olanda gülümsəyirik. Maraqlısı odur ki, qeyri-səmimi gülməyi lazımi məqamda işlətməyi bacaranlar sadəcə gülümsəməyi çox çətinliklə edir, ya da heç bacarmır. Ciddi işlərə əlbəttə ki, ciddi sifətlə yanaşırıq. Xaricilər belə sifəti görəndə adətən gülümsəməyə çalışır ki, həmsöhbətinin əhvalını qaldırsın. Bizdə öz əhvalını qaldırmaq üçün səbəbsiz gülümsəmək adəti də yoxdu. Xaricdə əhvalı pis olan adamlara məsləhət edirlər ki, güzgüyə baxıb gülümsəsin. Alimlər hesab edir ki, az keçməmiş əhval həqiqətən də yaxşılaşır.

Buralarda qadınların gülümsəməyini xüsusilə sevmirlər. Qəbul olunub ki, normal, ciddi qadın səbəbsiz dişlərini ağartmaz. Hətta səbəbi varsa da, bunu el içində eləməz, xəlvətə salıb sonra sevincini bildirər. Taleyi ağır, bədbəxtlik üz vermiş adamların gülümsəməyinə isə az qala dəlilik, anormallıq kimi baxırıq. Bizdə ciddi olmaq dəbdədir. İnsanlar ciddi olmalı və ətrafındakılarda vahimə yaratmalıdır. Ona görə də bir nəfər də gülümsəyən məmur, idarə işçisi, polis görə bilməzsiz. Burda insanın daxili aləmi onun sifətindəki "zəhrimar"ın dərəcəsiylə ölçülür.

"Nə gülümsəyirsən, dərsini oxu" kimi ifadələrlə böyümüş uşaqlarda başqa cür ola bilərdimi? Axı məktəb skamyasından bizə düz oturmağı və gülümsəməməyi öyrədirlər. Dərsdə dodağı qaçanları cəza gözləyir. Biz sirli ola da bilmərik. Gülümsəyəndə ətrafımızda hamı gülüşün səbəbini bilməlidi. Ya da gülümsəyən təcili şəkildə gülüşünə şərh verib onu xırda detallarınacan izah etməlidi. Yoxsa ki, ətrafdakılar ciddi şəkildə narahatlıq bildirməyə başlayacaq.

Müasir zamanın məşhur emosiya üzrə mütəxəssisi Deyl Kornegi "Daima gülümsə!" komandası verir. O, hesab edir ki, sonrası özü düzələcək. Satirik Mixail Zadornov amerikalıların "növbətçi gülüşünü" xroniki adlandırır, elə bil ki, onları daimi cərəyana qoşublar ki, gülümsəsinlər. Ona görə də

amerikalıların üzündə ilk əvvəl dişlərini görürsən. Tokio metrosunda adamları işə götürməzdən əvvəl onlara düzgün gülümsəməyi öyrədirlər, özü də kompüter proqramı vasitəsilə. Kompüter də deyir ki, idealda belədir: gözlər mümkün qədər qıyıq, ağız mümkün qədər iri... Gözlərin kənarları aşağı enməli, kiçik qırışlar yaranmalı və dodaqların ucları yuxarı qalxmalıdı.

...Bütün dünya səbəbsiz də gülümsədiyi zaman biz gülümsəməyə səbəb axtarırıq...

## Hardan başlanır axı, bu Vətən?

Bəlkə evinin kandarından? Bəlkə yatağından, yemək masasından, soyuducunun, ya da qaz sobasının qarşısından? İllərini yataqda, yemək yeyərkən, ya da unitazda oturub şirin xəyallara dalarkən keçirəndə özünü arxayın, təhlükəsiz hiss edirsənsə deməli öz vətənindəsən. Bizim Vətən haqqında təsəvvürlərimiz bundan çox da uzağa getmir.

Ola bilər kimsə ata-anasına, qan qohumlarına, sevgilisinə duyduğu ılıq hissləri də Vətən anlayışına daxil edir. Sonra ilk dəfə ayaq açdığı, gəzib dolandığı, üstündə uzanıb ulduzları seyr etdiyi, sonradan sevdiyi adamları basdırdığı torpağı Vətən adlandırıb. Burdan getmək istəməyib. Uşaqlarına ata-anasının yanında dəfn edilməyi vəsiyyət edib. Vətən anlayışı bir qarış torpaq qədər kiçilib. Əgər elə olsaydı doğulduğu yerləri tərk etmiş adamlar dünyanın ən bədbəxt adamı olardı və Vətən qüssəsi onları yaşamağa qoymazdı.

Vətən bəlkə qan qohumluğu, genetik kodunda şübhəsiz yaxınlığı olan adamların lap uzaqdan olsa da hiss edilməsi duyğusuna bir az yaxındı? Biz qarasaçıq, yoxsa sarışın? Bəstəboyuq, yoxsa ucaboy? Biz qarabuğdayı, əsmər dərili, yoxsa ağcayıq? İçimizdə eləsi də var, beləsi də. Amma biz əzəli qohumluğu çox incə səviyyələrdə, baxışından, duruşundan duyuruq. Qan

qatışıqlığını o saat, lap yüzdə bir nisbətində də hiss edirik. Nə qədər qəsbkarlar olub, əsrlər boyu əsarətdə saxlayıb bizi. Qız verib, qız almışıq, qarışmışıq. Saçımız, rəng-rufumuz, ləhcəmiz və dilimiz dəyişib. Qıyıqgözlərdən tutmuş qaradəriliyə qədər nə qədər millətlər içimizə müdaxilə edib, amma nəsə daha vacib bir məqam var ki, o hələ də dəyişməz qalıb.

Əksəriyyətimiz müsəlmanıq. Dini ritualları dəqiqliyilə yerinə yetirənlər artmaqdadır. Başını bağlayanlardan, əmmamə geyib təsbeh fırladanlardan olmasaq da müsəlmanlığımızı itirmirik. İçimizdə krişnaçılar da, dinini dəyişib xristian olanlar da var. Onlara naxələf övlad kimi baxırıq, yoldan azmış uşaq, həqiqətdən aralanmış insan kimi. Amma bununla belə onlara da biz deyirik. Yəqin bu da bizim kimliyimizə bir damcı da xələl gətirmir.

Dünya milliyətçiliyi tənqid edir. Çünki müharibələrin, qırğınların, qəsdlərin başında olan hisslərdən biri olduğunda əmindir. Bir millətin özünü o birindən üstün tutması Yer kürəsində yaşayan xalqların başına bəla olub həmişə. Amma bizimçün milliyətçilik hələ ki, yeganə sağ qalma mexanizmlərindən biridir. Bu VƏTƏN anlayışı nədisə bütün millətlərdə güclü deyil. Bu bizim ilişdiyimiz, həmişə büdrədiyimiş kötük, aça bilmədiyimiz düyündür ki, yerimizdən qopmağa, qanad açmağa imkan vermir. Ölməyə vətən yaxşı deyib nə qədər sızlayarlar axı?! Biz xarici ölkələrdə də yaşayırıq, yad dilləri də öyrənirik, başqa quruluşlu cəmiyyətlərə də qatılırıq, amma "BİZ" olmaqdan əl çəkmirik. Çoxsaylı "biz"lərin içində muxtar BİZ kimi yaşamaqda davam edirik.

Ola bilər bir gün gələcək yer üzünün bütün canlılarına biz deməli olacağıq. Təsəvvür edək ki, Yer kürəsi üçün nə zamansa çox ağır günlər başlaya bilər. Fəlakətlər nəticəsində millətlər, dövlətlər, böyük ərazilərdə həyat formaları dağılar. Təsadüf nəticəsində bir qrup adam sağ qalıb yaşamağında davam edər. Həmin anda o bir qrup adam sağ qalmış heyvanat aləmi və bitkilərə də BİZ deməli olacaq. Çünki yer üzündə həyatı davam etdirmək kimi missiyanı

çiyinlərində daşıyacaq. Məncə həmin vaxtlar kimsə söykəndiyi adamın erməni olduğundan narahatlıq çəkməyəcək.

Alimlər deyir ki, insan üçün ağır zamanlar yer üzündə dəfələrlə olub. Salamat qalmışlar bütün mənəvi qüvvələrini toplayıb yeni sivilizasiyanın bünövrəsini qoymalı olublar. Bizim yeni gün adlandırdığımız Bahar bayramı da həmin zamanların yadigarıdır. İnsanlar Günəşin çıxmasına sevinər, həyatı yaradan 4 ünsürü (su, od, torpaq və hava) çərşənbələrlə vəsf edər və yəqin ki, yaşamaqda, tərəqqi etməkdə davam edərdilər. Yəqin ki, o zamanlar sərhədlər və insanları bir-birindən ayrı salan dinlər, mənsəblər yox idi. İnsan vahid Vətəndə, ünvanı Süd yolu adlanın qalaktikanın Günəşə müəyyən məsafədə yer tutmuş Yer adlı planetində yaşayardı. İndiki vətənlər hamısı yalançı və sonradan yaranmış vətənlərdir. Hələ ki, insanın Yer kürəsindən savayı getməyə yeri yoxdu.

Ola bilər kiminsə qan yaddaşında bir vaxtlar çiyin-çiyinə sağ qalmaq üçün çalışan ilkin insanlar barədə informasiya o qədər güclüdür ki, onu minlərlə, bəzən milyonlarla adamın içindən ayıra bilir. Amma bir vaxt Yer kürəsindəki həyatı bərpa etmiş insan heç vaxt razı olmaz ki, irqi, milli, dini ayrıseçkiliyə görə belə çətinliklə yaranmış həyat yenidən məhv olsun. AZ Ərlər, yəni ki, vaxtilə az olmuş ərlər həyatın qiymətini çox yaxşı bilər. Martın 31-də həmrəylik günündə bəlkə də dilə gətirilməyən ən vacib məsələ elə budur.

## Həmişə yubanan sonra

*Yazı Stenford filosofu Con Perrinin 2011-ci ilin ədəbiyyatdan İqnobel mükafatı almış məqaləsindən ilhamlanıb yazılıb*

Ümumdünya "sonra" problemi ola bilər ki, ümummilli məsələ deyil, yalnız yaradıcı adamların başağrısıdır. Ola bilər ki, kimsə yazının məğzini tutmasın, çünki hər şeyi vaxtı-vaxtında eləyən məsuliyyətli bir adamdır. Onun sonra adlı problemi yoxdu. Sosioloq olsaydım cəmiyyətdə belə insanların, yəni sonradan asılı olmayanların təxmini faizini hesablayıb ümumi mənzərəyə rəng qatardım. Amma heç kim "sonra"dan asılılığını boynuna almaz.

Elə mən özüm, necə oldu ki, yazılacaq vacib mövzuların içində sonra haqqında yazılacaq yazını sonraya saxlamadım? Elə bilirsiz ki, onu yazmağa artıq vaxtım əmələ gəlmişdi? Xeyr! Mənim işim başımdan aşır. Evdə, işdə, məişətdə, yaradıcılıqda, istirahətdə görüləcək işlərim div kimi üstümə gəlir və onlardan hansınınsa daha vacib olduğunu fikirləşməyi ürəyimə gətirə də bilmirəm. Həyat davam edir. Məndən "Nəylə məşğulsan?" soruşan kimi daş atıb başımı tuturam ki, "O qədər işim var, heç indi səninlə danışmağa vaxtım yoxdu!". Amma əslində gedib həmin o vacib, div kimi üstümə gələn işləri görmək əvəzinə 2 saat İnternetdə oturub xəbər güdürəm, ya da daha mənasız işlərdən birini, məsələn Facebook-da statusları oxuyuram, videoların birini də buraxmıram. Əslində vacib işlərimi görməkdən boyun qaçırmaqdan ötəri mən indi kompüterin klaviaturasını döyəcləyib özümü, yəqin ki, sizi də inandırıram ki, çox vacib bir iş görürəm. Yəni ki, öz biznesimi qurub pul qazanmaq, yarımçıq kitablarımı bitirib çap etdirmək, artıq bitmiş işlərimi sərgiləmək və ən vacibi, oğlanlarımın ağ köynəklərini ütüləmək əvəzinə mən sonra haqqında yazı yazıram.

İşini sonraya saxlayanların ümumi termini də var: "prokrastinasiya". Bu teminin dilimizə tərcüməsini heç "Poliqlot" da bilmir. İşini daima sonraya saxlayanlara prokrastinator deyilir. Onlar heç vaxt əlini əl üstə qoyub

oturmur, avaraçılıq etmir. Onları işi-gücü olmayan, avara adamlarla səhv salmaq da olmaz. İşi başından aşan adamın gedib bağçada torpaq belləməsini, yazı yazmaq əvəzinə qələm yonmasını, iş görmək əvəzinə işin ən yaxşı təşkili barədə düşünməsini bu terminə layiq bilmək olar. Elə bil ki, bu dəqiqə bütün qələmləri sınaqdan keçirməsə, karandaşları yonub itiləməsə həyatda uğur qazana bilməyəcək. Prokrastinator vacib, önəmli işini vaxtında görə bilər. Əgər bu işi görməklə ondan daha da vacib işini təxirə salası olacaqsa. Vacib olmayanları görməklə çox vacib olanların sanki statusunu endirmiş olurlar.

Kim ki, vacib işləri çiynindən uğurla atmağın bu üsulunu tətbiq etmirsə hələ gec deyil. Axşam evə tələsib uşaqlara azuqə gətirmək əvəzinə çayxanada, ya da pivəxanada oturub bütün dünya siyasətinə ekskurs etmək olar. Ya da işlədiyiniz idarədə ən vacib məsələləri həll etmək əvəzinə başqalarının işlərini görərək onların problemlərinin həlliylə məşğul olsanız az keçmiş həmkarlarınızın ən sevimlisi olarsız. Nə olsun ki, müdiriniz sizi mütəmadi olaraq danlayacaq.

İşinin nə vaxtsa azalacağı və asudə nəfəs alacağını düşünən prokrastinator səhv edir. Vacib işlər artdıqca onların dəyərdən düşməsi baş verəcək və ən vacibləri önə, yəni həlledilməzlər sırasına keçdikcə dəyərdən düşmüşlər həll edilmək şansı qazanacaq. Siyahıda yalnız vacib məsələlər qalanda isə prokrastinator hamısını bir qırağa tullayıb tavana tüpürməklə məşğul ola bilər. Ya da işin qızmar çağında özünü inandırar ki, indicə Bulvarda gəzişib dəniz havası udmasa ürəyi dayanar, infarkt keçirər, insult alar...

İndi də mən, yüz cür maraqlı mövzuları və min cür təxirə salınmaz işləri kənara qoyub "sonra"dan yazı yazıramsa deməli nəsə çox vacib bir işdən qaçmaq istəyirəm. Bu yazıya sərf etdiyim zaman kəsiyində yazdığım dərs kitabındakı səhvləri düzəldib printerdən çıxara bilərdim. Axı hələ yay aylarında bilirdim ki, mənə bu il 1-ci sinifləri verəcəklər və kitabın redaktəyə ehtiyacı var. Onlara gələn ikinci günə kitabın kseroksunu paylamağı da vəd vermişəm. Əvəzində "sonra" barədə yazı yazıram. Kitab mağazalarında isə prokrastinator olmayanların kitabları oxucusunu gözləyir. Mənim yazı

masamda isə oxunacaq kitabların qalağı altında keçən həftə yeyilmiş sendviç kağızının üstündə yazılmış vacib məsələlərin nakam siyahısı yatır.

Təcrübəli oxucu yəqin ki, o məqamı tutdu ki, prokrastinator daim özünü aldadır və özünə verilən vədlərin piramidasını fasiləsiz quraşdırır. O, bu piramidanı qurmaqla problemlərini özündən uzaqlaşdırdığını düşünür. Çünki zaman keçdikcə piramidanın başındakı problem görünməz olur. Səhv addım atıb sonra onun altını çəkməkdənsə cəmi bircə çatışmazlığın, "sonra"dan asılılığn əziyyətini çəkmək daha rahat görünür. Özünü aldatmaqda da birinci olmaq lazımdı.

*P.S. Ehh, bilsəydiz ki, bu yazını yazmaqçün necə gözəl mövzunu sonraya saxladım...*

## Xalq neynir, əcəb eləyir!

*Köşənin mövzusu sosial şəbəkə paylaşmalarında oxuduğum bir dahiyanə fikirdən sonra əmələ gəldi: "Şapalaq - informasiyanın nəsildən nəslə ötürülməsinin ən yaxşı sınanmış ənənəvi yoludur". Yəqin bu ifadəni oxuyub gülümsəyənlər də, şapalağın artıq unudulmuş şappıltısını xatırlayanlar da olacaq.*

Sosial şəbəkədə daha bir maraq doğuracaq video vardı. Qaradərili xəstə "həkim" yanına gəlib başağrısından qurtulmaq istəyir. "Xalq təbibi" isə xəstəni başına yağlı qapazlar endirərək "müalicə edir". Arabir başına otdan-zaddan bir şey qoyur, nəsə maye tökür və üstünü bir şapalaqla "düzəldir". Allahsaxlamışın dili də dinc durmur, ovsun sayıla biləcək sözlər donquldanır. Zəncicə bilmədiyimizdən bu ovsunları tətbiq edə bilmərik, nə də dilin şeiriyyatından ləzzət alıb yırğalanmarıq. Amma yenə də ürəyimizdə xalq təbabəti üsullarına zərrəcə şübhə gətirməməliyik. Yəqin ki, bu proseduru bir dəfə keçən ağrıdan qovrulmayanadək bir daha "həkim" yanına gəlməyi ürəyindən keçirməz.

Bir balaca mədəni ekskurs edək. Qədim zamanlarda iki çay arası Mesopotamiyada, yəni bəşəriyyətin beşiyi sayılan ərazilərdə bütün xəstə-

likləri cəmi bir maraqlı üsulla müalicə edirdilər. Xəstəni boğazacan quma basdırır və yuxarıdan burnunun ucuna su süzürdülər. Niyə buruna, niyə məhz ucuna suallarını cavab axtara bilmərik. Çünki aramızda əsrlər var. Onlar burnu orqanizmin əsas nöqtəsi sayırdılar.

Təzə ay doğanda çiçəkləyən lianadan başı aşağı sallanmaq necədi? Belə pozada doğulan Ayı üfüqdə görəndə o yerdə, siz göydə olursuz. Bunu Hindistanda təcrübədən keçirirlər. Sağalmanın 100 faizlik olması üçün Ramayana müqəddəs kitabından müəyyən şeirləri əzbərdən demək və paralel olaraq təsbeh çevirmək lazımdır. Deyilənə görə bu üsulla onurğa xəstəliklərini, eləcə də lümbaqanı müalicə etmək mümkündür. Amma etibarlı mənbələr ikiqat qalıb ağrıdan dikələ bilməyən adamın lianaya necə dırmaşacağı barədə instruksiya vermir.

Tailand təbibləri bir qədər rəhmdildir. Onlar xəstəni kürəyi üstə uzadıb sinəsinə su dolu bir qab qoyur. Xəstə belə halda 48 saat uzanmalıdır. Günəş ikinci dəfə çıxanda bütün xəstəliklər (qoturluq və dəlilik də istisna deyil) suya keçəcək.

Xalq həşəratlarla mübarizə məsələsində xüsusi nailiyyətlər qazanıb. Əgər murdar həşəratlar sizə hücum edibsə, tez-tələsik qarğa axtarmağa yollanın. Onu qanqal yarpaqları yanında otuzdurun. Ətrafınızda 3 ipək ipdən hörümçək toru çəkib yubanmadan volınkada çalmaq bilən bir kəsi haraylayın. Şotlandlar bu yolla zəhərlənmələrə qalib gəlirdi. İnanmamağa əsasımız yoxdu, çünki məhz şotlandlar yun parçanın qənimi olan güvələrin (onlar güvəyə "uçan it" deyir) ilk elmi təsnifatını verib.

3 gün 20 meymunla bir otaqda keçirmək necədi? Rodeziyada bu geniş tətbiq edilirmiş. Xəstəyə gün ərzində gövşəməyə 3 şəkər qamışı budağı və bir fincan su verilirdi. Deyilənə görə bütün xəstəliklər bir prosedura aradan çıxırmış.

Çində azarlayanı iki həftə dua oxumağa otuzdururdular. Avstraliyada isə aborigenləri budağında vəhşi arı yuvaları olan ağaca dırmaşdırırlar. Deyirlər Misir şahzadəsi Kleopatranın da arılarnan arası saz idi. Özünü arı zəhəri ilə

müalicə edirmiş. Druidlər zəhərli ot və göbələklərdən dəmləmə içirdi. Amma bir şərt vardı, onu xəstələnməmişdən əvvəl içmək lazım idi. Müasir alimlər bu dəmləmələrin reseptlərinə baxanda dəhşətə gəldilər. Müasir insan üçün bu məhlullar ölümcül dozadadır.

Navaxo hindularının da bir qədim və universal üsulu vardı. Bu yolla diş ağrısı, mədə sancısı, onurğa problemləri, yanıqlar və ciddi yaraları da müalicə edərmişlər. Gecə yarısı durub hələ Ay çıxmamış dağa çıxmalı və üzü Şərqə dayanmalısan. Əvvəl burnunun ucuna, sonra sağ və sol qulağına toxunmalısan. Dərhal bəbir dırnağı, qartal nəcisi, tısbağa qını və yüzillik şam ağacından hazırlanmış dəmləmə içməlisən. Əgər bundan sonra da cavan öküz kimi şıllaq atmasan, deməli ya vaxtı düz seçməmisən, ya da tısbağa bir az boyat olub.

Xalq üsullarının qiyməti onların həm də beynəlmiləl olmasındadır. Yəni başa vurulan qapaz zəncini başağrıdan qurtarırsa, deməli bizə də yarayar. Bəyəm bizdə Ay doğanda onlarınkından balacamı olur? Biz sadəcə bu üsulların terapevtik mənasını dərk etmirik. Məsələn, siz tıxac zamanı ətrafınızda özünü meymun kimi aparan sürücülərlə əhatə olunursuzsa, bəyəm bu səhnə 20 meymunla bir otaqda bağlanmış kimi təsir etməz? Otaqda meymunlar əlinizdəki yeməyi, burda isə qanacaqsız sürücülər yol üstünlüyünü əlinizdən alır. Ya da müdir sözün birini bir qəpiyə çevirib başınıza səpələyirsə, deməli o, həm də xalq təbabəti yoluylu sağlamlığınızın qeydinə qalır. Mağazalarda vaxtı keçmiş malların üstünə yeni tarix vuranlar da sizi Qiyamət gününə hazırlayır. Bədən zəhəri xırda dozalarda alandan sonra ona heç atom şüalanması da kar eləməz. Eşşək kimi həyat yükü daşımaqdan onurğanız əyilibsə, özünüzü başıaşağı (Qız qalasından deyərdim, amma təmirə bağlıdır) ürəyiniz hardan istəsə, asın və durmadan gənc yazarların şeirə dəxli olmayan şeirlərini oxuyun. Kömək etməlidir. Amma diqqətli olun, paralel olaraq təsbeh çevirməyin fəsadları ola bilər...

## Tanımadığım, anlamadığım, bəyənmədiyim və sevmədiyim

*Mən bu xalqı tanıya bilmirəm artıq. Elə bil ömrümü eskimoslar arasında keçirib Xəzər sahillərində qəfil peyda olmuşam. Mənim sevdiyim, heyranlıq keçirdiyim, fəxr elədiyim xalqa nə oldu belə?*

Tıxaclarda keçən ömür səni belə sıxdımı görən, yoxsa əziyyət içində keçən həyat. Özümü tanıyanı avtobusda da adam çox olub, metroda da. Amma bugünkü qədər qəddar, qansız, aqressiv olmamısan. Sən metroda minib düşəndə uşaqları tapdaq altında əzə bilərsən, xəbərin var? Mənə inanmırsansa, əli uşaqlıya yer verəndə ətrafdakı qadınların nifrət dolu baxışlarına fikir ver. Qınayan olmasa onlar ayaq üstə olarkən uşağı qucağına alıb oturmuş ananı didib tökərlər. Nəqliyyata minib-düşənlər dirsəklərini işə salmasa hər dəfə travma ala bilər. Həyatda özünə dirsəklərlə yer eləməyin treninqini keçirsən bizə? Ayağını yerdən götürən maşın "zapı" olan da belədir, mikroavtobus boyda şık avtomobil sürən də. Maddi təminat heç bir ayıbını örtə bilmir. Canlı ünsiyyəti mobil və vertual formalarla əvəz eləmisən. Sadəlövhlüyün axmaqlıq dərəcəsinə qədər sürüşüb sərhəddə dayanıb. Hikkədən partlayıb öləcəksən bir gün. Xalqların qocalmağını eşitmişdim, amma eybəcərləşdiyini yox.

Mən bu xalqı anlamıram artıq. Sən nə istəyirsən axı? Bir qarın çörək arzulayırdın, artıq varındı. Müstəqil dövlətin var, torpaqların tam olmasa da alqışladığın atəşkəsin də içində. Pul verib uşağını əsgərlikdən saxlatdırdın, indi oğlanların döyüşə də bilmir. Heç roqatka da atanın yoxdu, silahlarını könüllü vermisən. Yol çəkirsən, suya axar qoymursan. Ağac əkirsən dibini yaxşıca asfaltlayırsan. Hər il gül bayramına tonlarla çiçək gətizdirirsən, amma şəhərində nə sərinləməyə kölgən, nə də göz oxşamağa çiçəklərin olur. Məktəbdə uşaqlardan rüşvət alıb sonra onların səviyyəsizliyindən heyrətlənirsən. Abırsızcasına başını da bulayıb "Biz hara gedirik?" deyirsən.

Zibilini yerə atıb sonra süpürgəçiləri söyürsən. Qazı, işığı israflıqla işlədib onu kəsəndə pul yığanı söyüb qovlayırsan. Nəzarətçilər "Su, qaz, işıq, yollar, kanalizasiya dövlətindir" deyəndə gözlərini döyürsən, "Yox, xalqındır" deməyə ağlın çatmır. Ay Allahın sevimli xalqı, görmürsən ki, ağzından çıxan başına düşür? Bu dəfə bir lazımlı bir şey arzula da! Ərəb baharı sənə görk oldu, daha var-dövlət də istəmirsən. Neft pullarının bir hissəsini xalqına verənlərin taleyini gördün artıq. Qorxursan, indi heç demokratiya da arzulamırsan.

Mən bu xalqı bəyənə bilmirəm artıq. Hər dəfə əyiləndə, yaltaqlananda, ona-buna yarınanda xəcalətimdən ölürəm. Axı bilirəm, böyük xalqlar bu boyda xırdalanmır, bilirəm axı! Deyirsən Babək, Koroğlu bizimki deyil, yaxşı olmasın. Dədə Qorqud da bizdən deyil, ümumtürk ozanıdır, Füzuli ərəb-fars dillidir, sovet dövrünün şair-yazıçıları adam deyil, bir-birinin ayağından çəkən şərəfsizlərdir. Yaxşı, olsun belə. Əli qılınc tutanlar da, dili söz tutanlar da hamısı səndən deyilmiş demək. Bəs mən sənin nəyini bəyənim onda? Anadangəlmə yemək və yatmaq istedadını? Ortalığa çıxara bilsən düşbərə və dolmana da sahib tapılacaq. Süfrələrin şahı plovunu, musiqimizin başı tarını da farsın ayağına yazırsan. Belə çıxır sənin heç nəyin yoxmuş? Əgər belə deyilsə bütün bunları dilinə gətirənlərin ağzından niyə vura bilmirsən? Deməк, cürətin çatmır. Sən üstəlik qorxaqmışsan…

Mən bu xalqı sevə bilmirəm artıq. İnsan sevgisinin qarşılıqlı olduğunu deyirlər, yəqin xalqların sevgisi də elədir. Məni sevməyin daşını nə vaxtdan atdın, xatırlaya bilmirəm. Yəqin bezdin sevgimizdən. Bəli, bu axmaq sevgidən bezdin, usandın və utandın. Axı bircə azərbaycanlı balaları xalqını səbəbsiz-filansız sevə bilirdi. Ona görə də buralarda heç faşizm də cücərmirdi. Kimi göndərsəydilər bura, az sonra anaş toyuq kimi qanadının altına çəkirdin. Bakı ermənisi, Bakı rusu kimi anlayışlar vardı buralarda. Pank, satanist, emo və bu tipli sapmaları yaşatmırsan deyən hər il yol qırağında təzələnən bitkilər kimi onları da xaricdən "gübrələyirlər". Yoxsa batmır buralarda. Səni sevənləri hamısını başından elədin. Mənim sevgim səni yordu deyəsən. Müasir dəbə uyğun onun əvvəl daşını yonub ağartdın, sonra bəyənməyib dekorativ daşdan

üzləmə çəkdirdin, sonunda yəqin ki, gözdən uzaq eləyib alkapon altında gizlədəcəksən. Bu qatın altından mən səni necə sevəcəyəm ki? Səni sevmək ayıbmış.

Xalqım, qarşında dizin-dizin sürünərəm, axı sən hələ mənim uşaqlarımı da böyütməlisən! Bəyəm unutmusan? Məni birtəhər yola verdin, bəs gerisi necə olacaq? Eybi yox, sevmə məni, mən sevərəm. Alınmasa da uşaqlarıma xalqı necə sevərlər göstərəcək qədərində hisslərim qalıb. Yola vermə məni, istəyirsən verdiyin çörəyi də al geri. Öləndə torpağını əsirgə, qoy basdırmağa mənə yer qalmasın. Mən torpaq olub hər il sinəmdə düz mayın 10-na çiçəklər cücərdərəm. Amma başına dönüm, xalqım, uşaqlarımı adam elə. Qoyma onun-bunun qoltuğunda nakam, gözüqırpıq böyüsün. Mən həm səninlə, həm də onlarla eyni dərəcədə fəxr eləmək istəyirəm.

## Olmasaq

*Ekologiya mövzusunda düşünməyə məcburam. Çünki balaca oğlumun rəsmlərini bəyənib, yazdığı fikirləri fərqli bilib ekoloji müsabiqəyə layiq görüblər. Tətil günlərində evdə oturmaq əvəzinə məktəbə gedib göndərilmiş blankları almalıyıq. Uşaq da bu müsabiqədən aşağısı birinci yeri və xüsusi hədiyyə, noutbuku gözləyir. Mənimsə marağım uşağın beynində ekoloji problemlərin əkilməsi və nə vaxtsa cücərməsindədir.*

Ərəfədə sosial şəbəkə paylaşmalarında gözüm bir videoya sataşdı. Kanadanın keçmiş müdafiə naziri Pol Xolliyer bu ilin əvvəli rəsmi şəkildə yadplanetlilərin aramızda olduğunu yüksək kürsüdən etiraf etdi. Çünki artıq vaxtımız yoxdur, uzağı 10 ilə bütün planetin ekoloji fəlakət qarşısında durmasını anlamağımız və təcili tədbirlərin görülməsi lazımdır. Ekoloji problemlərimizsə məktəblilərin düşündüyü kimi tıxaclar, havanın çirklənməsi, ağacların kəsilməsi və vaxtı keçmiş ərzaqların satılmasından daha

ciddi məsələlərdir. Yəni insanlar əl-ələ verib elə bu gün, elə bu saatda planetin xilasına dursalar belə gücümüz kifayət qədər deyil. Deyəsən planet bizi çiyinlərindən yerə atıb ardını rahat yaşamaq fikrindədir…

Biz olmasaq görəsən necə olar? Bunu təsəvvür etmək insana çətindir. Amma məsələyə planetin gözüylə baxsaq yəqin ki, o qədər də pis olmayacaq. Qulaqlara qurğuşun, planetar fəlakət baş versə, insan bir növ kimi yer üzündən silinsə, yaxud insan özünü məhv etməkdə davam etməklə həyat arenasından çıxıb yerini başqa, yaşamaq istəyən canlılara versə necə olar görəsən? Alimlər bunu artıq hesablayıblar. Deyirlər ki, insanların yoxa çıxmasından cəmi 2 gün keçmiş metronu su basacaq. 7 gün sonra nüvə və atom reaktorlarını soyudan generatorlara yanacaq gəlmədiyindən dayanacaq və planeti nüvə partlayışları silsiləsi titrədəcək. Bir ildən sonra planetimizdə daha 10 milyon quş salamat qalacaq. Çünki yüksək cərəyanlı dirəklər sınacaq, antenalar sönəcək, cərəyanötürücü naqillər soyuyucaq deyə quşların yaşamaq şansı artacaq və onlar insanın yaratdığı enerji torunda məhv olmayacaqlar. 3 il sonra istiliyin az olması səbəbindən soyuq ərazilərə çəkilmiş qaz boruları partlayacaq. Qazın açıq vəziyyətdə havaya çıxması yanğınlara səbəb olacaq. Binalar çat verəcək və onların strukturu dayanıqlığını itirəcək. Cəmi bir-iki ildən sonra toxluq və natəmizlik rəmzi - tarakanlar soyuqdan qırılacaq. Daha doğrusu onların artımı təbii şəraitə uyğunlaşacaq, insanın həyat ritminə deyil.

Düşünməyin ki, insanların yoxa çıxmasından 10 il keçmiş planetin sakitlikdən qulaqları çəkiləcək. Nə olsun ki, evlərin damı sökülüb töküləcək, korroziya nəticəsində əsaslı binalar çürüyəcək və elementlər arasında kimyəvi reaksiyalar artacaq. Çünki insanların olmamasından təbiətdə görüşməyən elementləri toplayan laboratoriyalardan sızmalar artacaq. Metal kalonların paslanıb sınmasına cəmi 20 il kifayətdi. O vaxtacan Cənubi və Şimali Amerika birləşəcək. Çünki Panama kanalı bitkilər və təbii axıntılardan dolub yoxa çıxacaq. Biz olmayandan 100 il sonra 500 minə qədər sayı azalmış fillər əlimizdən qurtulub 20 dəfə artacaq. Onlar həyat ritmini təbiətə uyğunlaşdırır

deyən bizim kimi zəhərli ərazilərdə yaşamazlar. Ola bilər xırda meşə yırtıcıları, məsələn tülkülərin işi fırığ oldu. Çünki insanların yetişdirdiyi ev heyvanları, itlər və pişiklər ac-yalavac dolaşıb əlinə keçəni dişinə salacaq. Yemək hamıya çatmaya bilər. Yəqin ki, ev heyvanlarının sayı çox olsa da təbii şəraitə uyğanlaşmış meşə heyvanlarından daha tez məhv olacaqlar. İnsanların yetişdirdiyi cinslərdən danışmaq lap yersizdir.

300 il sonra yer üzündəki asma körpülər dağılıb gedəcək və böyük ərazilərin bir-biriylə quru yolla əlaqəsi kəsiləcək. İnsanın tikdiyi bəndlər də o vaxta çətin qala. Tikilən ölkədə oğurluğun miqdarından asılı olaraq tezliklə dağılıb gedəcək. Dağılmağa ilk namizədlər bizim son illərdə tikdir-diklərimizin hamısıdır. Bəndlər dağıldıqca şəhərləri su basacaq. 500 il sonra şəhərləri meşə və cəngəlliklər örtəcək. Bir vaxt kəsilən hər ağac yerində tikilən hər kərpic və daşdan qisasını alıb onları diri-diri udacaq. Ağaclar maşınların qalıqları, binaların söküntüsü və metal qırıqları arasında da rahat bitə bilir. 15 min il sonra böyük şəhərlər şimaldan hücum çəkən buzlaqlarla təkbətək qalacaq. Yalnız yeraltı konstruksiyaların salamat qalmaq şansı var. 35 min il sonra insanların ətraf mühitə tökdüyü zəhərli maddələr nəhayət ki, təbiət tərəfindən mənimsənib neytrallaşdırılacaq. Kadmium kimi başqa birləşmələrin parçalanmasına isə planetə 75 min il vaxt lazımdı. Sizin bu qədər vaxtınız varmı?

100 min il sonra atmosfer nəhayət ki, bəşəriyyətin doğulmasından əvvəlki göstəricilərə qayıda bilər. 250 min il sonra insan fəaliyyəti nəticəsində əmələ gəlmiş atom bombalarının verdiyi şüalanmalar təbiət tərəfindən absorbsiya edilərək zərərsizləşdiriləcək. Amma insanın təbiətə miras qoyduğu plastik materialları parçalamağa 2 milyon il lazımdı. O da ki, əgər o vaxt mövcud olan heyvanlar onları yeməyi və həzm etməyi öyrənsələr. 8 milyon yarım ildən sonra da bəzi memarlıq abidələri hələ də duracaq. Əgər təbii fəlakətlər, sunami və zəlzələlər onlardan yan keçibsə. Bürünc heykəlləri ola bilər hələ də tanımaq olacaq. Amma kimsəyə onların kimliyini anlatmaq çətin olacaq. Heç kim də onların nə üçün yarandığını izah edə bilməyəcək. 3 milyard sonranı

təsəvvür etməyə artıq fantaziyanı işə salmaq lazımdır. Bəlkə də o vaxtlar olacaq həyat formalarını heç ağlımıza gətirə bilmərik. 6 milyard yarımdan sonra Yer kürəsinin özünün o dünyaya köçən vaxtıdır. Deyirlər ki, Günəş başqa planetləri udandan sonra Yer kürəsini də içinə çəkəcək. Sonrası əbədiyyətdir… Bizim planetdən sonra yalnız atmosferdə yalqız dolaşan kosmik gəmi qırıntıları burda fırlanan planet və yaşadığı planeti zibilləmiş şüurlu varlıqlardan söhbət açacaq. Hətta bu yazı da xudbinliklə yazılıb. Guya ki, insanların olmadığı zamanlardan danışırıq. Amma bu gün canlılar bizimlə bir planetdə artıq yaşaya bilmir. Alimlər deyir ki, suyun turşuluğu artdığından o, səsi əvvəlkinə nisbətən daha rahat ötürür. Ona görə də suda səs daha uzaq məsafələrə ötürüldüyündən onda yaşayan canlılar sanki mikrofona qoşulmuş kimi yaşayırlar. Bizim səssizliyi dinləməkçün sahilə getdiyimiz vaxtlarda okean öz sakinləri üçün dözülməz dərəcədə səs-küylü olub. 2050-ci ildə balinalar belə səsdə yaşaya bilməyib məhv olacaqlar. Bəlkə də indinin özündə də səsimizdən bezib özlərini sahilə atıb ölürlər.

Tələsmək lazımdır! Amma əgər cəmi onca ilimiz varsa nə edə bilərik? Dindarlar deyərdi ki, tələsməyin və Allahın barənizdə nəzərdə tutduğu planların rahat həyata keçməsini müşahidə edin. Onunçün deyirik ki, anlamaq lazımdı! Hər hərəkəti, niyyəti, məqsədi və ən vacibi sonunu… Ləyaqətlə ölmək də pis sonluq deyil.

# Özüm...

*Özünə vurğunluqdan xeyli uzaq pozisiyadan obyektiv baxış*

Biriynən hal-əhval tutanda "özüm yatıb, özüm də dururam" deyirsə deməli hər şey öz qaydasındadı. Özüm sözü yekəxana "mən"dən daha demokratik səslənir. Özün öz başına çarə qılırsan – bu bir, özünü idarə edirsən – bu iki, üstəlik özün kimiləri yetişdirməyə də çırmanmısansa – bu olur lap əla. Allah heç kimin dilindən bu cür gözəl kəlməni əskik eləməsin, inşallah! Redaksiyadan mövzu axtarışları zamanı birindən məsləhət bulanda az qala həmişə "Özün bilən məsləhətdi" eşidirəm. Əlbəttə, kimdən və nədən yazacağımı özümdən savayı kim bilə bilər?

Bu yaxında evimizə qaz sayğacı quraşdırdılar. Boru soyuducunun yanında olduğundan ustalar mənə heç əziyyət vermədən çirkli, mazutlu əlləriylə ağ soyuducuda avanqard üslubda sürrealist ləpirləri qoyaraq "evimizin ərzaq bazası"nı mətbəxin ortasına çəkib qoydular. Əlbəttə ki, soyuducu üzərindəki "yaradıcılıq" şedevrlərini özüm silməli olacaqdım. Şəxşən özumün sevgiylə rənglədiyim borunu kəsib tökdülər, əvəzində qara, eybəcər, soyuducu üzərindəki avanqard üslubdan heç də geri qalmayan sürrealist boru yığını quraşdırdılar. Fəxrlə "yaradıcılıq"larına baxıb getdilər. Soyuducunu yerinə özüm çəkməliydim. Sürrealist boru yığınını soyuducuyla gizləmək cəhdim də boşa çıxdı, çünki "ərzaq bazası" əvvəlki yerinə yerləşmədi. Soyuducunu balaca mətbəxdə yerləşdirmək barədə öz düşüncələrim hələ azmış kimi borudan sabunlu köpük göz qabağında böyüməyə başladı. Şəxsən özüm qaçıb ustalara çatıb hal-qazıyanı danışanda "Xahiş edirəm, yatmazdan əvvəl borunu özün rənglə, sızmanın qabağını alsın. Yoxsa qazla zəhərlənənlərin sayı yaman artıb" deyib çıxıb getdilər. Yenə də özüm...

Hər gün palçıqlı küçələrimizlə addımlayanda beynimdə inqilabi fikirlər dolaşır: Bəlkə tökülüşüb küçələri özümüz süpürək? Hər həftə çırmansaq zibilləri yazacan özümüz yığışdıra bilərik, yəqin?! Özümüzə nə gəlib,

süpürgəçilərə möhtacıq bəyəm? Nolar, mən özüm yığıram, haqqını o alar. Sonra yanımdan ildırım kimi şütüyən maşın palçıqlı suyu üzümə sıçradanda "özüməmaniya"dan diksinib oyanıram. Marşruta minirəm. Az qalıram arxada hırıldaşan oğlanlara ədəb dərsini özüm verim. Bayağı musiqiləri birlikdə dinləməyə məcbur olduğumuzdan fikirləşirəm ki, telefonuma gözəl melodiyalar yazıb özümlə gəzdirim. Millətin zövqünün korreksiyasıyla özüm məşğul olum, necə deyərlər yerindəcə ehtiyacı olanlara ərməğan eləyim. Qapı ağzında qapazlaşan oğlanlardan birinin sürücü olduğunu biləndə ürəyim düşür. 18 yaşı tamam olub, deyəsən? Maşının arxasını burcuda-burcuda sürəndə, "Ay bala, kartof aparmırsan!" replikalarını ən yaxşı halda qulağının ardına vuranda, pis halda "Bəyənmirsən, düş!" cümləsini sifətimizə guppuldadanda fikirləşirsən ki, bəlkə onun cibində "9 b" kağızı gizlədilib. Bunu mən özüm soruşmasam kim soruşacaq ki? Bəyəm Nəqliyyat Departamenti belə xırda-para işlərə əlini batıracaq? Çox danışsaq "Düş maşını özün itələ, hara istəsən dönməkçün rulu mən hərləyərəm" eşidə bilərik. Yol polisinin əvəzinə ondan sürücülük vəsiqəsini özümüz niyə istəməyək? Soraqlaşsan bir parça kağızı gözümüzə soxub "Özüm almışam!" deyəcək.

"Özüm, özüm" deməkdə təcrübəli insan kimi mənə həsəb aparmayın. Zəhmət haqqının həcmini müəyyənləşdirməyi heç vaxt özümə tapşırmırlar. Müsabiqələrdə yer ayrılanda, adlar veriləndə, fərqləndirmələrdə, təriflənmələrdə, seçilmələrdə "özüm" heç işləmir. Öz aramızdı, heç dövlətin millətin taleyində vacib məsələlərin həllində "özüm" deməyə yer qoymayıblar. İstəsək Qarabağ torpağını özümüz ala bilərik? Deməli elə məqamlar var ki, burda "BİZ" deməliyik. "Biz" "özüm"dən güclüdü! "Biz" milyonlarla "özüm"ün birləşməsidi! "Biz özümüz" "mənim özüm"ün üzərində qələbəsidi. Biz özümüz eləyə biləcəyimizi "özüm, özüm" deyənlər dünyasında eləyə bilməz...

# Özümə məktub

*70 yaş tamam olmamış açmaq qəti qadağandır!*

Əgər sən bu məktubu oxuyursansa deməli 70 yaşına artıq çatmısan. Düzün desəm gözləmirdim bu qədər yaşayacağını. Geni modifikasiya edilmiş məhsulları yeyə-yeyə, havadakı tozları, dənizdəki çirkabı, sulardakı toksinləri içinə çəkərək bu yaşa çatmağını böyük qələbə də saymaq olar. 30 ildən bir qədər əvvəl məktubu cızarkən illər sonra onun başqalarının əlinə düşəcəyini, oxuyub güləcəklərini də gözümün qabağına gətirirdim. Yadların gülməyi vecimə deyil, nəvələrin istehzasını çətin həzm edərəm.

Səni bilmirəm, amma mənimçün indi yazmaq nəfəs almaq qədər təbii olub. Yəqin sənin gözlərin artıq görmür, eynək salırsan. Klaviaturada lazımi hərfi basanacan fikrindəki cümlələr uçub gedir bəlkə. Ya da çoxlu səhv edirsən, səhvini boynuna alacaq dərəcədə demokrat da deyilsən ki, uşaqlarına yazıları redaktə etdirəsən. Ya da ki, onlar bacarmır. XXI əsrin əvvəlinin yazı jarqonunda, cavan nəslə məlum olmayan mürəkkəb sözlərlə fikrini çatdırırsan. Ona görə də sən danışanda nəvələrin gözlərini döyür. Elə mən də yazdıqca sadələşmək əvəzinə mürəkkəbləşdirirəm dilimi. Məndən asılı deyil, dili zaman cilalayır, bir də ki, oxuduğum yaddilli ədəbiyyat. İndi heç olmasa ana dilində oxumağa kitab tapırsız? Bizdə bu hələ də çətin məsələdir. Ana dilində olanlar da elə yazılıb ki, Molla Nəsrəddin demiş gərək yazının müəllifini yanında gəzdirəsən ki, nəsə başa düşəsən. Bütün abırlı kitablar rus dilindən tərcümələrdir. Sizdə yəqin artıq dilə hörmət də layiqli yerini tutub.

Məktub yazmaqda əsas məqsədim sona çatdıra bilməyəcəyim bəzi işləri sənə tapşırmaqdır. Bu il oğlumun 16 yaşı olanda ona sevdiyim bir mahnını ithaf edib "Facebook"a qoymaq istədim. İşin Karacanın "Doğum günün kütlü olsun, oğlum" mahnısı o qədər ürəyimə yatır ki... Amma ürək eləmədim. Hər dəfə "Biz dəyişdirəmədik dünyanı, əff et, keçib getdi şanslar" yerinə çatanda qollarım boşalır və göz yaşlarımı saxlaya bilmirəm. Həqiqətən də onlara qalan cəmiyyət və sosial ədalətsizliyin tüğyan elədiyi bir şəraiti

qoyub getmək balaca günahlardan deyil. Bizim yaxşı cəmiyyət qurmaq da şansımız vardı. Əldən verilmiş şansları buraxdığımıza görə uşaqlardan vaxtında üzr diləməliyik. Yoxsa o biri dünyada rahat yata bilmərik. İndi mən yaşadığım cəmiyyət əjdaha kimi ağzını açıb mənəviyyatlı adamları, içində ədalət hissi ilə doğulanları göz qırpımında udur. Bunu görüb oğluma "təmiz ol, ağıllı ol, ədalət mütləq yerini tapacaq" demək əvəzinə "ehtiyatlı ol, bic və uzaqgörən ol, sonrasını düşün" deməli oluram. Nəticəsini sən daha yaxşı bilərsən. Tərbiyə üsulum daşa dirəndi, yoxsa bir şey alındımı görən? Bir də ki, uşaqlarımı vaxtında Qarabağa apara bilmədiyimə görə onlardan üzr istə. Görəsən məni vaxtında Şuşaya aparmayan atam narahatdı, ya yox? Gərək soruşam…

Bir də ki, kitablarımın, fonotekamın taleyindən narahatam. Mən onları özümü tanıyanı toplayıram. Evdən hər gün verilən bir abbası pulu toplayıb axırda bir kitab alar və sevinə-sevinə evə gələrdik. Zaxar dayının not mağazası adnan tanınırdı. İndi evdə təmir edib kitab rəfləri quraşdırmalıyam. Yoxsa evdəkilər kitabların çoxluğundan gileylənir və məni qınayırlar. Mənimkilər kitab oxumur. Bəs səninkilər necə? Bəs bu boyda kitabxananı neyləyək? Vəsiyyət edirəm, sən yaşında da kitaba münasibətləri dəyişməsə saxlama kitabları. Payla, bəlkə kiməsə lazım oldu. Bu günlərdə zibillikdən Azərbaycan xalq mahnıları 2 cildliyini tapdım. Evdə bir cüt də vardı, amma onların qiymətini bildiyimdən yerdə qoymadım, götürdüm. Tələbələrimə dedim ki, kim mənə Azərbaycan muğamları mövzusunu təhvil verə bilsə ona hədiyyə edəcəm. Həmən dərs heç kim gəlmədi. Deyirəm sənə, heyfin gəlməsin kitablara, payla. Ola bilər kimsə vərəqini bümürləyib içinə tum yığacaq. Bəlkə də əksinə, antikvar sayılacaq, bilmək olmaz. Hərdən babamın kitabxanası düşür yadıma. İçərişəhərdə bağlı həyətdə köhnə bir şkaf vardı. Hamı bilirdi ki, içində babamınn kitabları saxlanır. Amma biz onları oxuya bilmirdik. Əvvəla dayım açmağa qoymazdı. Gizlincə açsaydıq da orda ərəb və latın qrafikasıyla yazılan kitablardan heç nə anlamazdıq. Tozunu çırpıb yerinə yığardıq. Qoyma mənim də kitablarım o vəziyyətə düşsün. Dayımın qəfil

ölümündən sonra onun da kitabxanasını uşaqları darmadağın elədi. Əlbəttə, zər qədrini zərgər bilər.

Nəsə ürəyimdə bir arxayınçılıq var. Məncə bütün yarımçıq işlərimi yaddaşını itirənədək bitirmisən. Yoxsa yaşaya bilməzdin. Yaddaşın itirilməsi də milli mətbəximizin qaçılmaz nəticəsidir .Yağlı yeməkdən damarlarımız kirəcləşib. Bu məngənədən qurtula bilmirəm hələ də. Ad günləri, bayramlar süfrəni doldurmasan sənə birtəhər baxırlar. Sizdə hələ də toylar 30 il əvvəlki israfçılıq və mənasızlıqla keçir? Elə olsa yəqin 20 ildi ayağın toyxanaya dəymir. Mən ömrümün ən yaxşı vaxtlarını ətrafımı maddi nemətlərlə doldurmaqda keçirdim ki, sən yaşlı vaxtında rahat yaşayasan. Amma indi tərəddüd içimi parçalayır. Bəlkə yaponlar kimi təqaüdə çıxanda dünyanı gəzmək üçün ömrü boyu pul yığmaq lazım idi? Hardan yığaydıq? Maaşımız ayın axırına heç çatmırdı. Dərviş həyatı isə azərbaycanlı üçün çox zəngin yaşam tərzidir. Ola bilər, mən övladlarım və qocalığım üçün çalışmaqda böyük səhv eləmişəm. Gücümü mənəvi yüksəlişimə sərf eləməliydim, bəşəriyyəti də düşünməliydim. Amma mən azərbaycanlıyam. Bu artıq diaqnozdu, qəzavü-qədərdir, qismətdi. Ümidvaram səhvlərimə görə məni qiyamətəcən qınamayacaqsan…

*P. S. Mətbəxdəki adam boyda Çin qızılgülü hələ də gül açır görəsən?*

## Üzeyir bəy olmasaydı...

Bu il də həmişə olduğu kimi sentyabrın 18-ni musiqi günü kimi qeyd etdik. "Koroğlu" uvertürasını bir daha səsləndirdik, teatr mövsümünü Üzeyir bəyin əsəri ilə açdıq, dahi bəstəkarın qəbrinə gül əklilləri qoyub ruhuna bir daha dua oxuduq. Maraqlısı odur ki, yalançı liderlərə mədhnamələr oxuyanda da bu belə idi. Leninin, Stalinin şərəfinə deyilən dürlü sözlər unuduldu, amma Üzeyir bəyin ünvanına çatacaq tariflər hələ yağmaqdadır. Şəxsiyyətin xalqın

tarixində rolunu anlamaq üçün bir anlığa onun heç olmadığını təsəvvür etmək yetər.

Əgər Üzeyir bəy olmasaydı Azərbaycanda musiqi yəqin ki, olacaqdı. Qarabağdan muğam səsi də gələcəkdi, Bakıdan klassik musiqi sədası da. Üzeyir bəy olmasaydı Azərbaycanda not təhsili də yəqin ki, olacaqdı. Keçən əsrin əvvəllərində Bakıda not tədrisi verən kurslar, şəxsi müəllimlər vardı. Not bilmək avropasayağı təhsil alanların marağında idi. Pianoda, ya da başqa bir Avropa alətində çalmağı Bakıda yaşayan başqa millətlər və azərbaycanlı milyonçu balaları öyrənirdi. Çünki təhsil bahalı idi və hər kəs piano alıb evinə qoyacaq dərəcədə varlı deyildi. Şəhər mədəniyyətindən kənarda isə xalq musiqisi, aşıq yaradıcılığı, muğamlar öz həyatı ilə yaşayırdı. Bu iki mədəni qat, yəni not sistemi ilə Avropa musiqi təhsili və xalq musiqisi yanaşı mövcud idi. Onlar qətiyyən toqquşmurdu və yanaşı axan 2 çay kimi bir-birinə qarışmırdı. Üzeyir bəy olmasaydı heç qarışmayacaqdı da. Savadlımız Avropaya meyl edəcəkdi, savadsızımız isə milli köklərə. Üzeyir bəy olmasaydı, Azərbaycanda nə simfonik orkestr, nə xor kapellası, nə də xalq çalğı orkestri olacaqdı. Yəqin ki, opera teatrı da olmazdı. Ya da bəlkə ekzotik musiqi forması kimi onu yaradıb əcnəbi aktyorlar və dəvət edilmə rejissor və xoreoqraflarla arabir yeni və yəqin ki, çox bahalı tamaşalar qoyacaqdı. Onda teatr da balaca, tamaşaçısı da az və seçmə olacaqdı. Yəqin ki, azərbaycanlı balası nə simfonik orkestrin səslənməsində "Koroğlu" uvertürasını, nə də Şəbi Hicran xorunu eşidə biləcəkdi. Onun yaddaşında Koroğlu operasında and mərasiminin harmoniyası, nə də simfonik orkestrdə tarın tembri olacaqdı. Yəqin ki, onda Hacı Xanməmmədov bu səslənmənin nə olduğunu bilmədiyindən tar və kamança ilə simfonik orkestr üçün konsertlərini yaza bilməyəcəkdi. Milli alətlərimiz simfonik orkestrlə görüşüb bərabərhüquqlu alət kimi bir arada səslənə bilməyəcəkdi.

Üzeyir bəy olmasaydı, bizim nə Qara Qarayevimiz, nə də Fikrət Əmirovumuz olardı. Bəlkə də hardasa Qara Qarayev adda bəstəkar olacaqdı. O, gedib Şostakoviçdən dərs alacaq və rus musiqi məktəbinin davamçısı kimi

tarixə girəcəkdi. Musiqişünaslar ha başını sındırsa da Qarayevdə milli musiqidən əsər əlamət tapa bilməyəcəkdi. Onda "Leyli və Məcnun" simfonik lövhəsi, "7 gözəl baleti" də olmayacaqdı yəqin. Fikrət Əmirov isə muğamın əsarətindən qopa bilməyəcəkdi. Tarzən kimi bəlkə də çox məşhurlaşacaqdı, onu toya aparmaqçün növbəyə düzüləcəkdilər. O öz ecazkar mahnılarını toyxanada səsləndirəcək, bəlkə də lent yazısına ala bilməyəcəkdi. O Bakıya gəlib simfonik musiqini burada eşitməsəydi yəqin heç bəstəkar olmaq da istəməyəcəkdi. Onda simfonik muğamlarımız yaranmayacaqdı. Dünyanın bu möhtəşəm musiqidən tükü ürpəşməyəcəkdi. Yəqin ki, dünyanı simfonik muğamlarımızla dolaşan Niyazi də dirijor çubuğunu belə şəstlə yelləməyəcəkdi.

Üzeyir bəy olmasaydı, millətin musiqi zövqü tamam başqa cür olacaqdı. Ordan burdan musiqi istedadlı adamlar seçmələyib Konservatoriyaya gətirən bəstəkar onlara himayədarlıq etməsəydi, kimisinə geyim, kimisinə çörək, kimisinə xoş söz, münasibət verməsəydi indi estrada "ulduz"larına göstərəcək nümunəmiz olmayacaqdı və onlar meydan sulayacaq və özlərinə musiqi dahisi deyəcəkdi. Amma indi nə qədər ki, dahi musiqi korifeyi kürsüsündə ölməz bəstəkarımız və piramidanın aşağı pillələrində onun yetirmələri durur buralara kimsə yad intonasiya, bizə xas olmayan melodiyalar soxuşdura bilmir. Zövqlər nə qədər korlansa da not bilməyənlər hələ ki, utanırlar. Utanırlar ki, ölkədə musiqi məktəbləri, konservatoriya ola-ola hələ də bir əsr əvvəlki kimi not bilmədən oxuyurlar.

Üzeyir bəy olmasaydı, məncə, Vaqif Mustafazadə də olmazdı və caz-muğam janrı da yaranmazdı. Vaqif Mustafazadənin anası şəhərin musiqi həyatından qidalanmasaydı, musiqiçi olub pianoda muğamları çalmağı çalışmasaydı və balaca Vaqif bütün bunları evində eşitməsəydi, anası onu klassik pianoçu etməyə çalışmasaydı və o, müqavimət göstərərək özünü axtarmasaydı yəqin ki, indi bizim qulaqlarımız çox darıxardı. Caz da öz ölkəsində, muğam da öz məkanında dolaşardı, amma qarışıb qovuşmaz və eləcə nakam gəzərdi.

Bu gün musiqiçilərdən kimi danışdırsan "Biz Üzeyir bəyə borcluyuq" etirafını eləməsə düzgün olmaz. Konservatoriyanın rektoru, Azərbaycanın əbədi pianoçusu statusundan var gücüylə yapışan Fərhad Bədəlbəyli də bu gün "Biz Üzeyir bəyin çörəyini yeyirik" deyir. Amma bu gün musiqi Akademiyasının piano bölməsinə - hələ test imtahan nəzərə alınmadan - qəbulun qiyməti 8 min, nəzəriyyə bölməsinin qiyməti isə 5 min manatdır. Üzeyir bəy olsaydı, xüsusilə də onun rektorluğu zamanında bax bunların heç biri ola bilməzdi.

## Yaxşı qızlar cənnətə düşür?

Qadın emansipasiyası, üstəlik feminizmin çiçəklənmə zamanı qadınlar cəmiyyətdə öz layiqli yerini aldıqca "Qadın və cəmiyyət" mövzusu artıb zənginləşmək əvəzinə eyni sözləri təkrarlayıb yerindəcə addımlayır. Qızlarımız azad, müstəqil, təmkinli, özünə inamlı olmaq əvəzinə qərəzli, aqressiv, arzuları içində boğulmuş və məhdudlaşmış alınır. Çünki həyatının nə zamanındasa, inanın mənə, bu nə vaxtsa mütləq baş verir, gah söyüb-sürüdüyü, gah da ikrahda istehza etdiyi kişi cinsinə ehtiyacı əmələ gəlir. Bu təbiidi. O da kiminsə qoltuğuna başını soxub rahatlanmaq kimi axmaq istəyindən qurtula bilmir.

Belə olanda az qalıram ki, evimizin damına çıxıb bütün şəhərə var gücümlə çığırım: "İlahi, axı bunlar niyə düşünür ki, hər şeyi yaxşı, yerli-yerində eləsələr hər şey də yaxşı olacaq!". İnanıram ki, bu cür ehtirasla deyilmiş frazanı eşidən hər kəs yerində donub qalacaq. Çünki biz qızlarımıza həmişə yaxşı olmağı öyrədirik. Xoşbəxt olmağı, özündə əmin olmağı yox, əksinə, arzu qanadlarında uçmaq əvəzinə yerdə sürünməyi, bəxtəvərliyin tamını əzab-əziyyətlə qazanmağı öyrədirik. İnanıram ki, çığırdıqlarımı eşidən

hər qız bunu məhz ona dediyimdən əmin olacaq. Çünki bu problem hamıda var.

Vaxtilə mən də bu fikri çox ehtiyatla içəri buraxmışdım. Təəssüf ki, bunu mənə böyüklərim, anam, nənəm deməmişdi. Fikir içimdəki qalan fikirlərimə hakim kəsilən zaman mən artıq dədə-baba qaydasıyla ərə getmiş, borcumu yerinə yetirib ailəmizə bir uşaq da bağışlamışdım. İndi isə cəmi bircə, məhz mənə lazım olan an qalırdı: XOŞBƏXT OLMAQ. Milli mentalitetə görə mən buna çatmaq üçün bütün mərhələləri keçmişdim, ərimin, qayınanamın üzünə qayıtmırdım, hər deyiləni udurdum, yəni ki, klassik azərbaycanlı qadını idim. Amma xoşbəxtlik nədənsə gəlib çıxmırdı.

O vaxt indi interneti basmış məsləhətlərlə dolu məqalələrdən birini əlimə basıb xoşbəxtlik reseptini verən olsaydı bilərdim ki, milli mentalitet normalarımız qadının ailədə xoşbəxt olub-olmaması məsələsini heç nəzərə almır. Onda bəlkə də yoldaşımı "təmiz söhbətə" çağırardım, səbəblərini araşdırardım, böyüklərimdən sağ ikən xoşbəxtlik formulunu soraqlaşardım. Mən bunların heç birini eləmədim, ona görə də inqilabi bir fikir beynimə soxuldu və indiyədək də orda hakimdi: "Bəlkə pis olmaq o qədər də pis deyil?".

Biz mübahisə etməkdən qorxuruq, öz maraqlarımızı sivil yolla qoruya bilmirik, əsil, necə varıqsa elə olmağa özümüzə icazə vermirik. Bütün bunların səbəbini lap uşaqlığımızda axtaraq. Axı həmişə deyiblər ki, "Sevgini qazanmaq, ona layiq olmaq lazımdı". Hamını belə böyüdüblər: hiddətlənmək olmaz, böyüklərin üzünə qayıtmazlar, valideynlərə cavab qaytarmaq cəzalıdır. "Müəllimlər"imizi qınamağın yeri deyil. Bəyəm mən indi özüm böyüklərdən olanda ən dürr kimi təmiz həqiqəti üzümə deyənini başını sığallayacam? Mən də uşağıma konfeti özünü yaxşı aparanda verirəm. Uşaqlarım da mənimtək tısbağa kimi içinə qapanmış böyüyür. Mənə öyrətməyiblərsə mən onlara xoşbəxt olmağı necə öyrədim ki?

Niyə kimsə bizə demədi ki, biz onsuz da sevimli və arzu olunanıq? Sevgini qazanmazlar, Allah onsuz da hamını eyni gözlə sevir. Hətta Ulu Yaradanı da

göydə oturub hər bir günahımızı keçmişdə şotkayla, müasir dövrdə kalkulyatorla hesablayaraq cəhənnəmdə yanacağımız odun dərəcəsinə vuran qəddar varlıq kimi təqdim edirik. Ona görə də görürsən ki, aramızda ayaq ağrılarından şikayətlənən zaman "Yəqin cavanlıqda yubkamı çox qısa eləmişəm, ona görə ayaqlarım ağrıyır" deyən 50 yaşlı qadınlar tapılır. Həyatdan aldıqlarımız cəza deyil, fikir və hərəkətlərimizin nəticəsidir. Mən göylərdə oturub qadın ətəklərini xətkeşlə ölçən Allah obrazını qəbul edə bilmirəm.

Hər kəs özündən mütləq soruşur: "Mən sevgiyə layiqəmmi? Mən ən yaxşısına layiq ola bilərəmmi?". Cavabı gərək "Əlbəttə, min dəfə, milyon dəfə" olmalıdı. Göydən enən səadət payını hər kəs öz əlləriylə müəyyən edir. Doğrusu əllərilə yox, fikirləriylə, həyata münasibətilə. Allah hər kəsə daşıya biləcəyi qədər göndərir, həm sevgini, səadəti, xoşbəxtliyi, həm də pislikləri, bədbəxtlikləri. Bizim qəbuledicimiz nə qədər tutumludursa düz o qədər.

Heç özünüzə mahnı oxudunuzmu? Niyə də olmasın? Öz qayğısını çəkə bilməyən başqasına necə dayaq ola bilər ki? Özü xoşbəxt olmayan başqasından "Niyə üzün gülmür?" soruşa bilər? Yalnız tunel qazıb azadlığa çıxmış məhbus geri qayıdıb o birilərinə dar tunelin sonunda işıq olduğunu danışa bilər. Sən özünün ən qiymətlin, ən dəyərlinsən! İllər gönüqalınlığımızı artırsa da içəridə hamı incə, dəymədüşər və nazikdi. Ola bilər həqiqətən də yaxşı qızlar cənnətə düşürlər. Amma pis qızlar istədiyi kimi yaşayırlar. Hələ nə qədər kişilərin belə pis qızlara ehtiyacı olur. Əslində olduğun kimi görünmək o qədər də pis deyil. Bunu insanlar bəyənməyəcək, Allahsa səmimiliyi sevər...

## Fakir, yoxsa fağır?

Nağılları hələ də çox sevirəm. Reallığı əks eləyən kitablardan ləzzət alıb bir kənara tullayan kimi bir desert kimi nağıl da oxumağım gəlir. Desertə şirin, dadlı bir şey "yeyərlər". Amma çoxdandı ki, yeni nağıl tapa bilmirəm. Bütün

nağılların padşahı olur. Fağırın biri isə sarayın hiyləsindən qurtulub qalib gəlir. Elə düşünməyin ki, son günlər dəbdə olan padşah kəlməsini işlətməyim referendumla bağlıdır. Əslində padşahlıq məsələsi həmişə aktualdır. Amma köşənin qəhrəmanı padşah deyil, fağırdı. Nağıl ənənələrinin davamı kimi.

Bura Şərqdi. Okeaniya adalarının nağılları yağışdan, küləkdən danışa bilər. Bizdə isə hər şey reallığa çox yaxın olur. Personajlar, situasiyalar tanınası dərəcədə yaxın və doğma. Şərq nağılları teatrallığıyla seçilər. Ağzından od püskürən, əlinin işarəsiylə adamları yox eləyən sehrbazlar olmasa day o nə nağıl oldu ki? Real həyatda belə hoqqabazlara fakir deyərlər. Fakir deyən kimi yəqin hamının yadına fokusçular düşdü. Deyirlər ki, foksçular da fakirlərin iş texnikasını mənimsəyib. Əsil fakirlər bizim nağıllarda və Hindistanda yaşayır. Fısıldayan ilanı bir baxışıyla ram eləyir, yanan fakeli udur, predmetləri göz qarşısında yox eləyir. Fakir üçün iynə üzərində yatmaq yun döşəkdənsə yataq dəstlərimizi istila eləmiş yeni süni material – sintipon döşəkdə yatmaq qədər adi bir şeydi. Hətta deyirlər ki, oralarda camaatı heyrətləndirməyi sənət seçmiş fakirləriynə üstündə oturmağı turistlərin xətrinə sutkada saathesabı, yəni ki, biz 8 saatı işdə keçirməyə məcbur olduğumuz kimi gündəlik yapır və əvəzində bir parça çörək qazanırlar. Odur da, ona görə Hindistana nağıllar ölkəsi deyirlər.

Ümidvaram fakirləri fokusçularla müqayisəm hər şeydən hali oxucunun xətrinə dəymədi. Fakirlik (bizdə buna fəqirlik deyirlər) insanın mənəvi inkişaf yollarından biri sayılır: Fakir yolu, monax yolu və yoqa yolu. Ölməzlik axtarışlarında fakir yolunu seçmiş insan bədəninin tam hakimidir. O ağrı tanımır, ya da ağrısına məhəl qoymur. Günlərlə ac qala bilir, mədəsinin qiyamını qulaq ardına vurur. Bədənini incidərək onun tam hakiminə çevrilir. Şərqdə (bu dəfə bizi yox, üzü günçıxandakı Şərqi, xüsusilə də Tibet tərəfi nəzərdə tuturam) fakirlikdən sonra salamat qalmış adamı yoqa məktəbinə götürür, bərpa eləyir, sağaldır və inkişafın ardını başlamaq şansı verirlər. Bilik və ağıl yolunu seçmiş yoqinlər fakirdən bir addım qabaqda olmuş olur. Monax yolu isə dini baxışları təsiri altında bütün emosıyalarını iradəsinə tabe

eləmiş adamların yolu sayılır. Bu dəfə günçıxandan buraya qayıdaraq fakir sözünün dəyişməsinə baxaq. Tərki dünyaların, dərvişlərin də yolu olan fəqirlik hardasa fağıra, yarıyolda hansısa döngələrin birində fokusçu fakirlərə çevrilib. Sufi qəbirlərinə əzalarını sürtüb şəfa diləyən bizlər üçün bəlkə də bu o qədər də fərqli bir şey deyil. Nə fərqi var: fakir yoxsa fağır?

Yalnız nağıllarda fağırlar padşaha qalib gəlir. Bura isə Şərqdi, özü də Tibet dağlarından fərqli bir Şərq. Burda fağır olmaq böyük qəbahətdi. Səni adam yerinə saymayacaqlar, sözünü eşitməyəcəklər, qarın dolusu çörək tapa bilməyəcəksən. Mənəvi inkişafdan söhbət gedə bilməz. Burda padşah olmaq dəbdədir. Amma padşahlıq hamıya verilməz. Ona görə də fağırlıqdan ikrah duyanlar fokusçuluq eləyir. Bir göz qırpımında milyardlar "qazanır", milyonların pulunu "hop" deməmiş yoxa çıxarıb xırıd eləyir və sənə ağzını açmadan, çeynəmədən tox olmaq dərsi verir. Bilirsiz də fokusçular tünlüyü sevər, onda qəbahətləri gözə görünmür. Neynək, bu nağılın da öz qanunları var. Fağırlar qanun pozmaz, hətta bütün qanunlar fağırlarçün yazılsa da. Burda padşahlara qalib gəlmək də olmaz. Burda hətta şahlıq quşu da bilir ki, kimin başına oturmalıdı. Gözləmə ki, birdən başına oturar, sən də məcbur olub "kiş-kiş" eləyərək onu qovlayarsan. Əlbəttə, fağırlar təvazökar olar. Bütün nağılların sonluğu xoşbəxt olmalıdı, yoxsa o nağıl olmaz. Bu nağılda fağırmı, yoxsa fakir olacaqsan, bu hər kəsin fərdi seçimidir. Görürsüz, istəməsəm də dolayısı yolla yenə də seçim gününə gəlib çıxdıq...

# XXX

*Yaxud danışmaq istəmədiyimiz mövzuda*

“Google” axtarış sisteminə pornoqrafiya sözünü yazıb düyməni basanda saniyənin yüzdə doqquzunda 4 milyon 800 min nəticə verir. “Yandeks” axtarış sistemi qısaldılmış şəkildə “porno” sözünə 446 min, “VKontakte” isə 161 min nəticə verir. Yəni bu söz hamının axtardığı, aradığı və maraqlandığı mövzudur. Hazırda adını çəkdiyimiz məşhur axtarış sistemləri porno materialların saytda yerləşdirilməsi, reklamı və asan əldə olunmasına görə bir-birini qarşılıqlı ittiham edir. Əgər bu, axtarılan maldırsa, niyə də asan əldə olunmasın? Əgər yayılması, reklamı qadağandırsa niyə bunu hamı axtarır? Bu porno nə olan şeyda axı? Bu sualı eşidib yəqin ki, pıqqıldayıb gülənlər də tapılacaq. Amma ciddiləşib qadağan olunmuş mövzuda ağıllı-başlı iki kəlməni bir-birinə qoşub danışa bilən az olar. Hamı elə bilir ki, bu barədə hər şeyi bilir. Onu da hamı bilir ki, yaman pullu sahədir, iyrənməyib baş vuran adamı göz qırpımında varlandırır.

Pornoqrafiya çox yayılmış azardı. Onun son dərəcə ciddiliklə qadağan edildiyi zamanlarda da sanki sehrli çubuğun hərəkətilə salamat qalaraq gah pornoqrafik məktub, ya da kart şəklində yayılmağında olub. İndi heç nəyi gizləməyə ehtiyac yox. Bu gün hətta küçədə pornoqrafiya, ya da porno sessiya çəkib İnternetə qoysan kimsə təəccüblənməz, heyrətlənməz, hiddətlənməz. Bu gün milli dəyərlərimizi əlində bayraq edən televiziyalarımız da şəxsi həyatın görünməz tərəflərini ekranlara çıxaranda bunun adını porno qoyub utanıb eləmir. Porno sənayesi kraliça Viktoriyanın zamanından inkişaf edib. Ona görə də bəzən porno sənayesinin vətənini İngiltərə sayırlar. Amma adı çıxmış kraliçanın zamanında kişi və qadınların davranışına dair çox ciddi qanunlar çıxarılmış, çılpaq bədən isə qadağan idi. Qəribəsi olur ki, bu qanun nədənsə fotolara şamil edilmirdi. Ona görə də bütün bu qadağaların qarşılığında çılpaq adamların fotoları ildırım sürətilə yayılmağa başladı.

Həmin bu zamanlarda Pompey şəhərinin qazıntılar zamanı aşkarlanmış çılpaq antik heykəllər gizli muzeylərdə xəlvət yerdə saxlanırdı ki, çılpaq natura kimsənin gözünə girməsin. Avstraliya demokratik dövlət olsa da burada pornoqrafik materialın satılması, yayılması qadağandır. Bu qanun 2 ştatdan savayı hamısında işləyir. Gözdən qıraqda qalmış bu iki ştatda isə porno sənayesi çiçəklənməyindədir və XXX işarəsi altında işləyən kompaniyalar məhz bu ştatlara sığınıblar.

Pornoqrafiyanın gətirdiyi gəlir bütün futbol, beysbol, basketbol komandalarının birgə götürülmüş gəlirlərindən dəfələrlə böyükdür. Porno ulduzlar həqiqətən də varlıdır. Sıravi porno aktrisa kiçik bir səhnənin çəkilişinə 50 dollardan 1500 dollara qədər pul alır. Qəribədir ki, porno aktrisalar tərəf müqabili olan kişilərdən daha artıq qazanır. Bu günün ən baxımlı porno aktrisası sayılan Genni Geymson bu yaxında Pleyboy kompaniyasının öz klubunu açıb. Klubu 30 milyona qiymətləndirirlər. Hamı pornoqrafiyanı ürəkdən, ya da riyakarlıqla söyür və onun zorakılıq yaratdığını düşünür. Amma hamı da bilir ki, porno materiallar rahat əldə edilən ölkələrdə cinsi zorlamalar, sekslə bağlı cinayətlər çox az olur. Misal kimi Yaponiyanı göstərirlər. Bu ölkədə porno filmlərin göstərilməsinə icazə verilən kimi seksual cinayətlərin sayı kəskin azaldı. Eləcə də hamı düşünür ki, pornofilmlər vərdiş yaradır, “bəxtəvərlər” həyatın dadını itirir və bir növ porno norkomanlara çevrilirlər. Rəqəmləri eşidib porno aktyor olmaq fikrindən vaz keçə bilərsiz. Xüsusilə də kişilər. Bu sahədə sizin pullu gələcəyiniz görünmür, iş isə çox ağırdır. Porno sənayesinin hələ təzə-təzə çiçəkləndiyi zamanlar çəkiliş meydanına aktyoru daim “tonusda” saxlayacaq xüsusi qızlar gətirilirdi. İndi elm də bu işdə pornoya əl tutur. Aktyorun tonusunu xüsusi preparatlar saxlayır. Filmin əyər-əskiyini xüsusi kompüter proqramları səliqəyə salır. Porno ilə bağlı sahələr də inkişaf edir. Məsələn porno sevən mehmanxana sahiblərinin qonağı həmişə olur. Bu gün İnternetin inkişaf etdiyi zaman porno özü evinə gələ bilər. Hazırda 4, 2 milyon porno sayt dünya şəbəkəsində öz yerini tapıb. Bu hər gün 370 milyon pornoqrafiya səhifəsi deməkdir. Hər

gün axtarış maşınları poroqrafiya mövzusunda 68 milyon çağırış alır. Şəbəkədə 2, 5 milyon spam məktublar email ünvanlarda rahat oturmağa qoymur. Pornoqrafiya uşaqlarımızın da həyatına soxulur. Valideynlər uşağına kompüter alan kimi onun oturub pornoya baxdığını təsəvvür etməyə başlayır. Heç nəyin məsuliyyəti çiyninə götürməyən bir cəmiyyətin valideynləri uşaqlarının həyatına soxulmuş eybəcərlikləri də məhdudlaşdırmaqda acizlik göstərirlər. Amma kompüterdə saytları ələkdən keçirən proqramlar da var, onu sadəcə yerləşdirmək lazımdı. Tənbəllik etməsək kürəyi qozbel olanacan monitor qarşısında oturan uşaqlarımız əlindən tutub filmə, teatra, dərnəyə, rəqsə, musiqiyə apara bilərik.

## 1 il, 4 ay və 5 sutka...

*Tualet mədəniyyəti tarixindən seçmələr*

Bu mövzuda yazmamaq da olardı. Daha doğrusu milli mentalitetin yazılmamış qanunlarını pozmayıb bu mövzuda hamı kimi mehribancasına, səmimiliklə susmaq olardı. Çünki orta statistik azərbaycanlı evinin sonbeşiyinə aftafadan istifadə qaydalarını öyrədib təmizlik barədə şifahi tərzdə nəsildən-nəslə ötürülən seriya məruzələrini edəndən sonra missiyasını bitmiş sayır və bu mövzuya adam arasında toxunmağı özünə layiq bilmir. Yəqin ki, belə düşünən insan haqlıdı, bundan danışmazlar, xüsusilə də yazmazlar. Azərbaycanda ictimai tualetlər elə gündədir ki, həqiqətən də bu mövzuda susmaq daha layiqli mövqedir.

Yaydı, evdə oturmaq olmur, adam çıxıb gəzmək, yeniləşən şəhərin necə sürətlə böyüdüyünü görmək, bəzən prosesdə şəxsən iştirak etmək istəyir. Təzə təmirdən çıxmış "Fontanlar meydanı", ya da Milli parkımız, yəni bulvarı gəzirsən, əcnəbi ağaclara, şəhərə qonaq yeni dizayn üsullarına, yeni tikinti materiallarına baxırsan. Əlbəttə, təmirdən sonra ictimai tualetlər hələ ki, qonaqları bir kilometrdən qoxuyla salamlamır. Qiymətlərin artımı bir daha

sübut edir ki, burda ciddi dəyişikliklər baş verib. 20 qəpiklik tualetin 40 qəpiyə olması bu faktı bir daha təsdiqləyir. Alimlər hesablayıb ki, insan ömrünün 11862 saatını bizim danışmaq istəmədiyimiz məkanda keçirir. Yəni insan burada nə etdiyini də, hansı şəraitdə keçirdiyini də gizləməyə çalışır. Üst-üstə bu, 1 il, 4 ay və 5 sutka eləyir. Lap bir igidin ömrüdür. Ömrümüzün bu qısa məqamını da layiqli şəkildə keçirə bilərdik. Məsələn, Polşada məşhur siyasətçilərin portretləri olan tualet kağızını dükandan almaq olar. Yəqin onlar bundan çox da incimirlər. Siyasətçilər burda müxtəlif pozalarda təsvir edilib. Dünyanın gedişin təsiri olan bu adamlar kağız üzərində qumdan saraylar tikir, vannada şellənirlər. Stresini tualetdə atmaq istəyənlər yəqin ki, bu kağızdan istifadə edir. İmkan olsaydı Azərbaycan üçün aktual olan mövzularda tualet kağızı sifariş edərdik. Amma hayıf, biz aftafanı kağızı dəyişə bilmərik, hətta belə ləzzətə görə də. Adını tualet kağızına yazmaq ilk dəfə 1857-ci ildə amerikalı İosif Qayettinin ağlına gəlib. Amma hələ eramızın 589-cu ilində çin alimi Yan Çjituy elmi əsərində insanları müdriklərin adı olan vərəqələrdən istifadə etməkdən çəkindirmək istəyirdi. Amerikanın "Old Farmer's Almanac" qəzeti isə qəzet oxunandan sonra kağızın taleyindən o qədər də narahat deyil, təki qəzeti satılsın. Çünki xüsusi yerlərdə qəzetdə deşik açılıb ki, onu sonradan məlum məqsədə görə istifadə etmək mümkün olsun. İkrahlı təbəssümü xahiş edirəm üzünüzdən silin. Tualet kağızının istehsal sürətini təsəvvür etmək istyirsizsə 6 metr eni olan yolda saatda 110 km sürətlə getdiyinizi gözlərinizin önünə gətirin. İlin 365 günü, sutkada 24 saat durmadan bu sürətlə tualet kağızı istehsal edilir. Dünyada "Rss stroom reader" adlanan qurğu var. O tualet kağızı və printer funksiyalarını özündə birləşdirib. Siz səliqəli tualetinizdə həyat barədə fəlsəfi düşüncələrə dalarkən o, son xəbərləri çap edib qaynar-qaynar ixtiyarınıza verir. Sonrasını özünüz bilərsiz, oxuyarsız, yoxsa…

Şəhərimizdə tikilən tualetlərin smeta dəyəri ilə maraqlanmamışam. Amma nədənsə Berlindəki Avropanın ən bahalı tualetinin qiymətindən xəbərim var. Cəmi 750 min avroya başa gəlib. Bundan sonra özümüzküləri

israfçlıqda ittiham etmək heç ağlıma da gəlməz. Adıçəkilən tualetdə həzin musiqi çalınır və kişi pisuarında qolf üçün bayraqcıq yerləşdirilib. Dizaynerin fikricə bu "Yaxşı nişan almağa" kömək edəcək.

Çin istehsalı olan "Magic Mirror" tualetlərini isə şəhərdə tapmaq asan deyil. Nə qədər ki, insan displeydən uzaqdır giriş qapısı özünü reklam lövhəsi kimi aparır. Yaxınlaşan kimi şəkil yoxa çıxır. Yaponlar isə tualetlərini vibrasiyalı sabunla təchiz edirlər. Sabunu əlinə alan kimi o titrəməyə başlayır. Onu əlində saxlamağa çalışan adam əgər alındısa bir neçə saniyə içində sabunlanır. Əgər alınmadısa üst-başı, ətrafı da sabun içində olur. Pekində güllə keçirməyən tualetlər var, amma yerli camaat onu bəyənmir.

"Ideal Home Show" sərgisində nümayiş edilən unitazların iPod pleyerinə qoşulmaq imkanı var və elmin ən son nailiyyətlərinə uyğun keyfiyyətli sterio səsgücləndiriciləriylə təchiz edilib. "İnex" firmasının unitazları gecələr işıq saçır və sahibinə musiqi seçmək imkanı da verir. "AquaOne Technologies" kompaniyası isə tənha adamlar üçün akvariumlu unitazlar icad edib. Plastik akvarium baçoka keçirilir. Amma istehsalçı hesab edir ki, balıqları ora buraxmazdan əvvəl zoomağaza işçiləriylə məsləhət etmək lazımdır. Onlar sizə səsdən qorxmayan balıqları seçməkdə kömək etsinlər.

Bu mövzuda şəhərdə tikilən yeni tualetləri gəzib gələndən sonra da yazmaq olardı. Yəqin ki, orda belə yenilikləri görməyəndən sonra bir qədər ümidqırıqlığı keçirib hamı kimi bu mövzuya toxunmaq istəməzdim.

# FİKİR AXINI



Həyat çay kimidir, yanından sakitcə ötüşüb gedə bilər. Heç olmasa ayaqlarını islat bu suda

Əgər qadın bir şey istəyirsə, onu mütləq vermək lazımdır. Yoxsa özü götürəcək!

Onsuz da tarix boyu şəhrizadlar şəhriyarların danışdığı nağılları dinləyib

Çərçivəni qıra bilirsən, qır! Özünə bir vergül qoy, pauza elə... Etüd çalmaq əvəzinə, otur zümzümə mızıldan!

Bir damla mürəkkəb şəffaf suyun rəngini dəyişdirə bildiyi kimi iynə boyda işıq zolağı qaranlığı dağıtmaq qüdrətindədir

Gələcəyin cümləsində nöqtənin yerini bilən olmur

Biz heç vaxt bir nəfərdən artıq olmuruq!

Yaradıcı adamlar bilir ki, paralel xətlər həmişə kəsişir

Məna bu yolun sonunda deyil, onu necə keçməkdədir

**Mündəricat**

Rəfiq tapıntısı ....................3
Mülahizələr ....................5
Publisistika ....................125
Araşdırma ....................179
Köşələr ....................263
Fikir axını ....................379

*Gülnarə Rəfiq*

# AZADLIQ SİMFONİYASI



*Mən Xəzərin sahilində rəng seriallarina baxa-baxa böyümüşəm. Sonra gördüyüm rəngləri vərəqə köçürə bilmədiyimdən çəkməyin daşını atdım. Sonra musiqini öyrəndim. Əvvəl çaldım, oxudum, indi çalıb oxumağı öyrədirəm. Hamı kimi bəstəkar olmaq istəmədim. Nə olsun ki, müəllimlərim «Axı musiqişünas belə bəstələyə bilməz» deyirdilər. Ortabab bəstəkardansa yaxşı dinləyici olmağı üstün bildim. Sonra paltar tikdim, naxış saldım, toxudum. Əl işlərimi geyib fors elədim. Foto da çıxardım, taxta da yontdum, ikibana quraşdırdım. Həyat tempim imkan versə keramikaya baş vuracam. Ləvazimatlarımı alıb oturmuşam, deyəsən ustadımı gözləyirəm. Palçığa can vermək iddiam olmasa da gilə bulaşmaq istəyirəm.*

*İndi isə yazıram. Yazıram, yazdığımı poza bilmirəm, çünki göndərən kimi qəzetin saytına qoyurlar. Bəzən tərifdən tənqid qədər qaçıram. Çünki bunun nə vaxtacan davam edəcəyini bilmirəm. Vəfasız olub yazmağın da daşını ata bilərəm. Amma hələ ki, yazıram…*